"Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin məsuliyyət hissi ilə yanaşmalıdır".

Heydər ƏLİYEV

"Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı – Azərbaycan xalqına xidmət etmək, ölkəmizi güclən-dirmək, müstəqilliyimizi möhkəmləndirmək, demokratik cəmiyyət qurmaq. Azərbaycan xalqı bu siyasətə sadiqdir. Biz bu siyasəti davam etdirəcəyik. Azərbaycanda bu siyasətin alternativi yoxdur".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti





HEYDƏR ƏLİYEV
MÜASİR AZƏRBAYCAN PARLAMENTİNİN BANİSİDİR

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN NƏŞRİ

Bakı – 2008

Məsul redaktor: ***Oqtay ƏSƏDOV***
Azərbaycan Respublikası
Milli Məclisinin Sədri

Tərtibçi-müəlliflər: ***Səfa MİRZƏYEV***
Azərbaycan Respublikası Milli
Məclisi Aparatının rəhbəri,
I dərəcə Dövlət müşaviri

Mehman QAYIBOV
Milli Məclisin Mətbuat
katibinin müavini,
III dərəcə Dövlət müşaviri

Bu kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi və ölkə parlamentinin 90 illiyi münasibəti ilə nəşr olunmuşdur. Dörd bölmədən ibarət kitabın I bölməsində ölkə Prezidenti İlham Əliyevin Azərbaycan xalqının əbədi liderinin və müsəlman Şərq aləmində ilk parlament respublikası – Azərbaycan Xalq Cümhuriyyətinin yubileyləri haqqında sərəncamları, müstəqil Azərbaycanın III çağırış Milli Məclisindəki çıxışları dərc edilmişdir. "Heydər Əliyev müasir Azərbaycan parlamentinin banisidir" adlı II bölmədə ulu öndərin siyasi fəaliyyəti dövründə ölkəmizdə parlamentarizm ənənələrinin bərpası və inkişafındakı rolu, müasir Azərbaycan parlamentinin yaradıcısı kimi xidmətləri, demokratik, hüquqi dövlət quruculuğunda, yurdumuzun beynəlxalq əlaqələrinin dərinləşməsində əvəzolunmaz missiyası, Xalq Cümhuriyyəti dövründə parlamentin fəaliyyəti, dövlətçilik ideyasının şüurlara hakim kəsilməsində varislik prinsipinin əhəmiyyəti öz əksini tapmışdır. Bu zaman müstəqillik tariximizin müxtəlif dönəmləri barədə dövlətçiliyimizin memarı və qurucusu Heydər Əliyevin fikirlərindən geniş istifadə olunmuşdur. Bu bölmədə ulu öndərin siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyevin Heydər Əliyev yolunun davamçısı kimi gördüyü işlər, yüksək səviyyəli Prezident-Parlament münasibətləri, ölkənin Birinci xanımı ənənələrinin yaranması məsələləri geniş işıqlandırılmışdır. III bölmədə Heydər Əliyevin Naxçıvan MR-də fəaliyyət göstərdiyi illərdə Muxtar Respublikanın parlamentində qəbul olunmuş qərarlar və digər sənədlər, IV bölmədə isə ulu öndərin Ali Sovetin Sədri kimi çalışdığı dövrdə ölkənin qanunvericilik orqanında qəbul edilmiş qanun və qərarlar dərc olunmuşdur.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏRƏNCAMLARI VƏ MİLLİ MƏCLİSDƏ ÇIXIŞLARI

I

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN 85 İLLİK YUBİLEYİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2008-ci il may ayının 10-da müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin 85 illiyi tamam olur.

Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu otuz ildən artıq bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövr ərzində Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir.

1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən etibarən respublikamızın həyatında geniş vüsət alan ictimai-siyasi proseslər və iqtisadi islahatlar müsbətə doğru radikal dəyişikliklərə təkan vermişdir. Qısa müddətdə iqtisadiyyat sahəsində nailiyyətlər əldə olunmuş, mədəniyyətin yüksəlişi və milli-mənəvi dəyərlərin dirçəlişi istiqamətində mühüm addımlar atılmışdır. O illərdə Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərkin güclənməsinə imkan verən sürətli inkişaf strategiyası təşkil etmişdir.

Heydər Əliyev həmin dövrdə özünün dövlət idarəçiliyi strateji proqramında mədəni və mənəvi intibahı həmişə iqtisadiyyatda və sənayedəki uğurlarla əlaqələndirərək vahid məcrada həyata keçirmişdir. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya

iqtisadiyyatına dərin inteqrasiyası proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır.

Heydər Əliyevin idarəçilik istedadı, tükənməz enerjisi və misilsiz işgüzarlığı 1982-ci ildən SSRİ-nin dövlət başçılarından biri kimi fəaliyyət göstərdiyi və irimiqyaslı layihələrə rəhbərlik etdiyi vaxtlarda özünü xüsusilə parlaq surətdə təzahür etdirmişdir. Həmin dövrdə Heydər Əliyev fenomeni ümumittifaq miqyasında etiraf olunurdu. O, ölkədə baş verən ən ekstremal vəziyyətlərin aradan qaldırılmasının bilavasitə iştirakçısı olması sayəsində dövlətin ən nüfuzlu siyasi xadimlərindən birinə çevrilmişdi.

Qanlı Yanvar faciəsi ilə bağlı Heydər Əliyev tərəfindən verilən kəskin bəyanat artıq Azərbaycan tarixində yeni siyasi dövrün başlanmasını bildirirdi. O, kommunist partiyası sıralarından çıxmasına dair ərizəsində kommunist rejiminin ölkəni uçuruma apardığını, SSRİ-nin dağılmasının labüdlüyünü açıq bəyan etmişdi.

Heydər Əliyevin Azərbaycan parlamentindəki çıxışları, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən qəbul etdiyi qərarlar və Naxçıvan Ali Məclisinin binası üzərində üçrəngli bayrağımızı ucaltması suverenliyin qazanılması istiqamətində atılmış ilk addımlardandır.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən az sonra, xarici təzyiqlər və daxili çəkişmələr nəticəsində 1993-cü ilin iyununda vətəndaş qarşıdurması ilə üz-üzə qaldığı bir vaxtda xalqımız öz taleyini yalnız Heydər Əliyevə etibar etmişdir. Onun təkidli istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyev siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində ölkəni vətəndaş müharibəsi təhlükəsindən və ictimai-siyasi pərakəndəlikdən qurtarmış, qanunçuluğu bərpa etmiş və cəmiyyəti vahid məfkurə ətrafında birləşdirmişdir.

Heydər Əliyevin hakimiyyətə gəlişi ilə milli birliyin təmin edildiyi günü xalq özünün əsl xilaskarı şərəfinə Azərbaycanın ən yeni tarixinə Milli Qurtuluş günü kimi yazmışdır.

Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi ilə bağlı proseslərin müvəffəqiyyətli həlli şəxsən Heydər Əliyevin xidmətləridir.

1994-cü ildə Heydər Əliyevin neft strategiyasının reallaşdırılmasını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan xalqının öz maddi sərvətlərinin, o cümlədən neftinin həqiqi sahibi kimi çıxış etməsinin təntənəsinə çevrilmişdir. Bu müqavilə ölkəmizin tarixində yeni dövr açmış, dinamik inkişafın təməlini təşkil edərək müstəqilliyimizin iqtisadi bünövrəsinin möhkəmlənməsi və Azərbaycanın bu gün dünyada analoqu olmayan templə davamlı inkişafı üçün zəmin yaratmışdır. Hazırda Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməri xalqımızın ümummilli liderinin ideyalarının gerçəkləşməsinin parlaq təcəssümüdür.

Müstəqil dövlətçiliyimizin Heydər Əliyev tərəfindən formalaşdırılan mənəvi-ideoloji əsası dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində həlledici rol oynamışdır. Azərbaycan ziyalısını son əsrlərdə ciddi düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin fəaliyyəti sayəsində strateji dövlət siyasətinə, əməli siyasi müstəviyə keçmiş və nəticədə azərbaycançılıq məfkurəsi şüurlara hakim kəsilmişdir. İki əsrin və iki minilliyin qovuşuğunda xalqımız məhz onun sayəsində milli-mənəvi dəyərləri layiqincə qoruyaraq, üçüncü minilliyə inamla

qədəm qoymuşdur. Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir.

2003-cü il dekabrın 12-də əbədiyyətə qovuşmuş Heydər Əliyevi son mənzilə yola salmağa yüz minlərlə soydaşımız gəlmişdi. Vida mərasimində ardı-arası kəsilməyən həmin insan seli isə on il əvvəl – 1993-cü ildə Vətən darda ikən millətin nicat yolunu Heydər Əliyevin simasında görənlərin birliyindən yaranmışdı. Bu möhtəşəm izdihamı ilə xalq ən kədərli günündə həmrəylik nümayiş etdirməklə Heydər Əliyevin ruhu qarşısında mənəvi borcunu ödəyir, Heydər Əliyev ideyalarına sonsuz sədaqətini ifadə edirdi.

Çoxəsrlik dövlətçiliyimiz tarixində xüsusi yeri olan Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxır. Beynəlxalq aləmdə cərəyan edən proseslərə təsiri baxımından həmişə seçilən və qlobal dünyanın ən aktual çağırışlarına cavab verən Azərbaycan rəhbəri zəmanəmizin tanınmış siyasi xadimləri sırasında şərəfli yer tutmuşdur.

Özünün zəngin siyasi fəaliyyəti sayəsində ölkəmizin hərtərəfli inkişafı prosesinə qüvvətli təkan verərək onu daimi yüksəliş yoluna çıxaran Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz tarixi xidmətlərini, o cümlədən xalqımızın müstəqillik arzusunun həyata keçməsində, milli dövlətçilik ideyasının gerçəkləşdirilməsində və müasir Azərbaycan dövlətinin yaradılmasında müstəsna rolunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı və Azərbaycan Respublikasının Nazirlər Kabineti aidiyyəti

qurumlarla birlikdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyinin keçirilməsi ilə bağlı tədbirlər planını hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2008-ci il

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 90 İLLİK YUBİLEYİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2008-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi tamam olur. Müasir Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa edərək, Xalq Cümhuriyyətinin siyasi varisi kimi onun bayrağını, gerbini, himnini qəbul etmişdir. İstiqlal Bəyannaməsinin elan edildiyi 1918-ci ilin 28 may günü hazırda Respublika Günü kimi qeyd olunur.

Müsəlman Şərqində ilk parlament respublikası – Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dövlət təsisatlarının yaradılmasına nail olmuşdu. Milli parlamentarizmin təşəkkül tarixi isə Azərbaycan parlamentinin 1918-ci il dekabr ayının 7-də keçirilmiş ilk iclasından başlayır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması mürəkkəb siyasi dövrdə cərəyan edən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu idi. Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə və digər görkəmli şəxsiyyətlər tərəfindən təməli qoyulmuş proseslər Azərbaycanda yeni tipli teatrın, məktəbin və mətbuatın yaranması ilə nəticələnmiş, milli özünüdərkin gerçəkləşməsinə böyük təsir göstərmişdir. Bakının neft paytaxtına çevrilməsi milli sahibkarlar təbəqəsinin formalaşması ilə yanaşı, dünyanın aparıcı universitetlərində təhsil almış ziyalılar nəslinin yetişməsinə şərait yaratmışdır. Əlimərdan bəy Topçubaşov və başqa ziyalıların siyasi proses-

lərə qayıtması, Dumaya seçilməsi və Rusiya müsəlmanlarının təşkilatlanmasında oynadıqları rol tariximizin unudulmaz səhifələrindəndir.

Rusiyada çar üsul-idarəsinin ləğvi, baş verən fevral və oktyabr çevrilişləri, Birinci Dünya müharibəsinin fəsadları və bir sıra digər amillər Qafqazı ayrı-ayrı siyasi qüvvələrin qarşıdurma meydanına çevirmişdi. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə göstərdiyi maraq vəziyyəti daha da gərginləşdirdi.

İlk qərarı ilə milliyyəti, dini, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına bərabər hüquqlar verən cümhuriyyətin yaranması çox mürəkkəb şəraitdə elan olunmuşdur. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir səhifəsi bütün azərbaycanlılar üçün olduqca əzizdir. Bununla belə, bu tarixdə ürəyimizi qürur hissi ilə dolduran hadisələrlə yanaşı, ümummilli faciələrə yol açan səhifələr də vardır.

Azərbaycan Xalq Cümhuriyyətinin öz dövlətçilik atributlarını qəbul etməsi, dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət, təhsil və səhiyyə sahələrində atdığı addımlar xalqımız üçün taleyüklü əhəmiyyət kəsb etmişdir. Cümhuriyyətin böyük uğurlarından biri Paris sülh konfransında 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqil dövlət kimi tanınması olmuşdur. Lakin ölkənin öz neftini xarici bazarlara çıxarmaqdan təcrid edilməsi nəticəsində yaranmış siyasi, iqtisadi və sosial böhran güclənirdi. Həmçinin parlament daxilində hökm sürən hərc-mərclik, Qarabağda və Zəngəzurdakı erməni silahlı dəstələri ilə qarşıdurmalar gündən-günə dərinləşirdi. Əhalinin əsas hissəsinin ağır durumu isə bolşevik təbliğatı üçün münbit zəmin yaradırdı. İrəvanın ermənilərə paytaxt kimi verilməsindən sonra İrəvan mahalından qaçqın düşmüş 150 mindən artıq soydaşımızın

vəziyyəti olduqca gərgin idi. Belə bir vəziyyətdə parlamentin son iclasında bolşevik ultimatumunun qəbul edilməsi aprel işğalı ilə nəticələndi.

Aprel işğalı Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin bir qismini Məmmədəmin Rəsulzadə kimi mühacir həyatı yaşamağa məhkum etdi, digər qismini Fətəli xan Xoyski və Həsən bəy Ağayev kimi erməni terrorunun qurbanına çevirdi, qalanlarını da bolşevizmin amansız repressiyalarına məruz qoydu.

1920-ci il aprelin 28-də ikinci respublika – Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. İki il ərzində öz müstəqilliyini qoruyub saxlamağa nail olan respublika 1922-ci ildə SSRİ-nin tərkibinə daxil olduqdan sonra öz müstəqilliyinin ancaq formal atributlarını saxlaya bilmişdi. Yalnız onu əvəz edən dördüncü respublika müstəqillik ideyasını yaşatmış və Azərbaycan bütün sərvətlərinin, o cümlədən neftinin tam sahibi kimi çıxış edə bilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sanballı əsərlər, hətta ikicildlik ensiklopediya nəşr edilsə də, tarixi-mizin bu mərhələsi ilə bağlı çox sayda sənədlər hələ xarici ölkələrin qapalı arxivlərində saxlanılır və öz tədqiqatçılarını gözləyir.

Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizdə milli dövlətçilik tarixində xüsusi yer tutduğunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi respublikada geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin yaranmasının 90 illiyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə olunsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 fevral 2008-ci il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÜÇÜNCÜ ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İLK İCLASINDA N İ T Q İ

Hörmətli xanımlar və cənablar!

Hörmətli millət vəkilləri!

Bu gün üçüncü çağırış Milli Məclis öz işinə başlayır. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm.

Dünən Konstitusiya Məhkəməsi seçkilərin nəticələrini təsdiq etdi. Beləliklə, Milli Məclisə seçilmiş deputatlar öz fəaliyyətinə başlayırlar. Bütövlükdə, parlament seçkilərinin Azərbaycanın demokratik inkişafında çox mühüm rolu vardır. Seçkilər şəffaf, ədalətli şəkildə keçirilib və bizə imkan verəcək ki, Azərbaycan hərtərəfli inkişaf etsin, Azərbaycanda siyasi proseslər daha da sürətlə aparılsın, ölkədə demokratik islahatlar davam etdirilsin və bütövlükdə Azərbaycan demokratik dövlətə çevrilsin.

Mən bu gün bu kürsüdən ikinci çağırış Milli Məclisin fəaliyyətinə toxunmaq istərdim. 2000-ci ildə seçilmiş Milli Məclis və onun millət vəkilləri çox böyük işlər görmüşlər, səmərəli işləmişlər. Son 5 il ərzində Azərbaycanda çoxlu qanunlar qəbul edilmişdir ki, bu da ölkəmizin hərtərəfli inkişafı üçün gözəl qanunvericilik bazasını yaratdı. Hesab edirəm ki, qəbul olunmuş qanunlar ölkəmizin inkişafında bundan sonra da mühüm rol oynayacaq və bütövlükdə, Azərbaycanda çox geniş qanunvericilik bazası yaradılacaqdır.

İnkişaf etmiş ölkələrdə, parlamentarizmin böyük ənənələri olan ölkələrdə qanunvericilik bazası da çox genişdir. Ancaq Azərbaycanda vəziyyət fərqli idi. Azərbaycan

müstəqil ölkə kimi yaşamağa başlayanda bizim qanunlarımız yox idi. Konstitusiyamız 1995-ci ildə qəbul edilmişdir və ondan sonra qanunvericilik prosesi geniş vüsət almışdır. Azərbaycanda yeni qanunların qəbul edilməsi məsələsi çox böyük əhəmiyyət kəsb edirdi. Çünki hər bir ölkənin həyatında əsas rolu qanunlar oynayır. Biz Azərbaycanda hüquqi dövlət qururuq və ona görə qanunun aliliyi hər şeydən üstün olmalıdır. Bu baxımdan ikinci çağırış Milli Məclisin fəaliyyəti çox müsbət olmuşdur. Milli Məclisin komissiyaları çox səmərəli işləmişdir. Parlamentin rəhbərliyi, spiker Murtuz Ələsgərov və onun müavinləri çox böyük işlər görmüşlər. Mən buna görə onlara öz minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda, son 5 il ərzində Azərbaycan müxtəlif beynəlxalq konvensiyalara da qoşuldu. Bu, bizim dünya birliyinə, Avropa strukturlarına inteqrasiya siyasətimizin bir hissəsidir. Son 5 il ərzində Azərbaycanda qəbul edilmiş yeni mütərəqqi qanunlar ölkəmizin demokratik inkişafına güclü təkan verdi və biz bu gün bunun bəhrəsini görürük.

Bu gün isə üçüncü çağırış Milli Məclis öz işinə başlayır. Mən ümid edirəm ki, Azərbaycanda yaranmaqda olan müasir parlamentarizm ənənələrini siz davam etdirəcəksiniz. 2005-ci ilin parlament seçkiləri ölkə həyatında çox mühüm bir proses və hadisə idi. Bir neçə ay ərzində Azərbaycanda parlament seçkilərinə hazırlıq dövrü ərzində ölkədə gedən siyasi proseslər daha da sürətlənmiş, ölkə demokratik inkişaf baxımından daha da möhkəmlənmişdir. Parlament seçkilərinin şəffaf və ədalətli keçirilməsi üçün hər şey edilmişdir və nəticə etibarilə açıq, ədalətli, şəffaf şəkildə parlament seçkiləri keçirilmiş və yeni deputatlar mandat əldə etmişlər. Bu ərəfədə həm müvafiq sərəncamlar imzalandı, həm də seçki kampaniyasının aparılmasında çoxlu yeniliklər oldu. Sərbəst toplaşma azadlığı təmin edilmişdi və bəzi istisnalar olmaq şərtilə, Azərbaycanın

bütün yerlərində namizədlər seçicilərlə əlaqə saxlamışlar, öz görüşlərini keçirmişlər. Bəzi hallarda isə qəsdən törədilmiş hadisələr nəticəsində buna imkan olmadı.

2000 namizədin qeydiyyatdan keçməsi də özlüyündə parlament seçkilərinə əhali tərəfindən böyük inamın təzahürü idi. Çünki əgər belə olmasaydı, bu inam olmasaydı, heç vaxt 2000 adam bu yarışa girməzdi. Media qurumları seçki kampaniyasında çox fəal iştirak etmişlər. Bu da yenilikdir. Deyə bilərəm ki, hətta biz bu baxımdan inkişaf etmiş ölkələri geridə qoyduq. Çünki inkişaf etmiş ölkələrdə, Avropa ölkələrində özəl telekanallar seçki kampaniyasında iştirak etmirlər. Onlar yalnız reklam vaxtından istifadə edib bu və ya digər namizədlərə efir vaxtını verirlər. Azərbaycanda isə bütün özəl kanallar bu parlament təşviqatında fəal rol oynamışlar. Başqa yeniliklər də oldu. İlk dəfə Azərbaycanda "exit-poll" keçirildi. Ondan sonra barmaqların mürəkkəblə işarələnməsi məsələsi öz həllini tapdı.

Bir sözlə, bütün tədbirlər görüldü ki, Azərbaycanda şəffaf seçkilər keçirilsin, seçki saxtakarlığına imkan olmasın, əgər hansısa hallarda bu saxtakarlıq olarsa, onu gizlətmək mümkünsüz olsun. Nəticələr də bunu təsdiq etdi. O dairələrdə ki, qanun pozuntuları olub, qanunsuz müdaxilələr, yaxud saxtakarlıq olub, bildiyiniz kimi, orada nəticələr ya dəyişdirilib, ya da ləğv edilibdir. Nəticələr 10 dairədə ləğv edilib, 2 dairədə son nəticələr dəyişdirilibdir. Bütövlükdə, 12 dairədə seçkilərin keçirilməsində problemlər yaranmışdır. Məhz bizim tərəfimizdən qəbul edilmiş sərəncamlar, verilmiş göstərişlər, atılmış addımlar imkan yaratdı ki, bu qanun pozuntularının aşkarlanması mümkün olsun. Bütövlükdə, seçki kampaniyası çox uğurlu keçdi. Hesab edirəm ki, hər bir namizəd sərbəst şəkildə öz platformasını, fikirlərini seçicilərə çatdıra bilmişdir.

Seçkilərin nəticələri Azərbaycanda hökm sürən abhavanın təzahürüdür. Mən şəxsən şübhə etmirdim ki, seçki-

lərdə Azərbaycan dövlətçiliyinə xidmət edən, Azərbaycanı istəyən, sevən vətənpərvər insanlar, öz biliyi, fəaliyyəti ilə hörmət qazanmış insanlar üstünlük əldə edəcəklər. Çünki Azərbaycan xalqı müdrik xalqdır. Azərbaycan xalqı öz seçimini edibdir. Bu gün xalqla iqtidar arasında olan bu birlik, bu inam bir daha onu göstərir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir. Parlament seçkiləri bunu bir daha təsdiqlədi. Mən çox sevinirəm ki, parlamentdə təmsil olunan deputatlar açıq, ədalətli mübarizədə qələbə qazandılar və əlbəttə, bu, parlamentin legitimliyinə də öz böyük töhfəsini vermiş oldu.

Bildiyiniz kimi, Azərbaycanda parlament seçkiləri böyük maraq doğurmuşdur. Müxtəlif xarici təşkilatlar buraya çoxlu müşahidəçi göndərmişdi. Bir neçə ölkənin nümayəndələri parlament seçkilərini yaxından izləmişlər. Bu da təbiidir. Çünki Azərbaycan Avropa, Avratlantik strukturlarına sürətlə inteqrasiya edir. Azərbaycanda bütün meyarlar gərək yüksək səviyyəyə cavab versin. Belə olan halda, əlbəttə, parlament seçkilərinin ədalətli, şəffaf keçirilməsi həm bizim maraqlarımıza cavab verirdi, həm də bizimlə əməkdaşlıq edən beynəlxalq təşkilatların, tərəfdaşlarımızın marağında idi.

Bildiyiniz kimi, müxtəlif beynəlxalq təşkilatlar və onların müşahidəçiləri burada işləmişlər və rəylər təqdim etmişlər. Bu rəylər öyrənilir, təhlil edilir, harada ki, ədalətli irad varsa, o irad, təbii ki, qəbul edilir və bu iradlardan nəticə çıxarılır. Harada ki, ədalətsiz yanaşma, yaxud irad varsa, hansısa səhv məlumatın əsasında yaranmış yanlış fikir varsa, əlbəttə, biz bunu qəbul edə bilmərik. Harada ki, qərəzli irad varsa, biz bunu bütövlükdə rədd edirik. Çünki biz ədalətin tərəfdarıyıq. Parlament seçkilərinin şəffaf, ədalətli keçirilməsi üçün hər şey edilibdir. Biz öz niyyətimizi açıq şəkildə ortaya qoyduq və axıra, sona qədər sübut etdik ki, biz sadiqik.

Amma o da faktdır ki, Azərbaycan son illər ərzində çox sürətlə inkişaf edən bir ölkədir. Azərbaycanın regionda və dünyada önəmi artmaqdadır. Bizim siyasi çəkimiz artmaqdadır. İqtisadi potensialımız güclənir, bizim coğrafi, coğrafi-siyasi önəmimiz sürətlə artır. Təbii sərvətlərlə zəngin olan, çox mühüm yerdə yerləşən, dünyəvi ölkəyə, Avropa, Avratlantik strukturlarına inteqrasiya yolu seçmiş ölkəyə, əlbəttə, böyük maraq var və bəzi hallarda müxtəlif siyasi hadisələr bəzi dairələr tərəfindən başqa məqsədlər üçün istifadə olunur. Heç kəs üçün sirr deyil, belə hallar olmuşdur, biz də onun şahidiyik ki, seçkilərə mənfi yanaşan bəzi dairələr bunu siyasi motivlərlə etmişlər. Bu, bir növ siyasi təzyiqin əlaməti idi. Biz bunu hamımız bilirik və gərək buna da hazır olaq. Bu, var, sabah da olacaqdır. Biz buna hazır olmalıyıq. Mən də buna hazıram.

Yenə də deyirəm ki, biz əməkdaşlığın tərəfdarıyıq. Biz qarşılıqlı hörmət və ehtiram əsasında, bərabərlik əsasında qurulmuş münasibətlərin tərəfdarıyıq. Biz öz siyasətimizi, o cümlədən xarici siyasətimizi açıq və aydın bəyan etmişik. İki il bundan əvvəl Prezident vəzifəsinə seçilən zaman mən bu siyasəti bəyan etdim və indi bu siyasət davam etdirilir. Təbii ki, Azərbaycan kimi cəlbedici ölkə, belə cazibədar ölkə bütün bu sadaladığım amilləri nəzərə almaq şərtilə, şübhəsiz ki, müxtəlif maraqların toqquşması yerinə çevrilə bilər. Biz buna imkan verməməliyik. Mən dəfələrlə bunu demişəm. Azərbaycan rəqabət yox, qarşıdurma yox, əməkdaşlıq məkanına çevrilməlidir. İlk növbədə, Azərbaycanın milli maraqları təmin olunmalıdır. Mən Azərbaycanın milli maraqlarının təmin olunmasında əlimdən gələni əsirgəmirəm. Biz hamımız, o cümlədən deputat korpusu bu məqsədə qulluq etməliyik. Ən əsası Azərbaycanın milli maraqları, Azərbaycan xalqının inkişafı, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsidir. Onsuz

da biz bu gün bölgədə liderlik mövqelərinə sahibik. Bu gün Azərbaycanın iştirakı olmadan, razılığı olmadan, siyasi iradəsi olmadan bölgədə heç bir – nə siyasi, nə iqtisadi, nə də başqa layihə reallaşdırıla, yaxud hadisə baş verə bilməz. Getdikcə bizim çəkimiz, önəmimiz artacaqdır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə salınmasından sonra, Azərbaycandan keçən müxtəlif enerji və nəqliyyat dəhlizləri fəaliyyətə başlayandan sonra bizim önəmimiz qat-qat artacaqdır. Azərbaycan artıq regional müstəvidən çıxıb dünya miqyasında çox önəmli rol oynayan ölkəyə çevriləcək və çevrilməlidir. Bizim məqsədimiz məhz bundan ibarətdir. Bütün görülən tədbirlər, atılan addımlar, iqtisadi, siyasi islahatlar, Azərbaycanın hərtərəfli inkişafı, demokratiyanın inkişafı məhz bu məqsədi daşıyır.

Mən tam əminəm ki, əgər biz Azərbaycanda güclü iqtisadi və siyasi potensial yaratmaq istəyiriksə, Azərbaycanda həm iqtisadi, həm də siyasi islahatlar paralel şəkildə aparılmalıdır. Biz bilirik, bəzi ölkələrdə belə fikir var ki, öncə gərək iqtisadiyyat möhkəmlənsin, güclü iqtisadi baza formalaşsın, ondan sonra demokratikləşmə proseslərinə daha da böyük təkan verilə bilər, yaxud bu istiqamətdə hansısa daha da cəsarətli addımlar atıla bilər. Mən bu fikrə şərik deyiləm. Mən düşünürəm ki, bu iki proses paralel şəkildə getməlidir. Əgər Azərbaycanda demokratiya tam şəkildə bərqərar olmasa, azad cəmiyyət yaranmasa, bizim iqtisadi uğurumuzun heç bir əhəmiyyəti olmayacaqdır. Əgər ictimai nəzarət yoxdursa, əgər azadlıq yoxdursa və ölkə demokratik deyilsə, uğurlarımız nə qədər olursa-olsun, bizim təbii sərvətlərimiz olsun, yaxud neft kəmərlərimiz olsun, büdcəmiz artsın – bunun heç bir əhəmiyyəti olmayacaqdır.

Biz bəzi neft hasil edən ölkələrin təcrübəsini öyrənmişik

və görürük ki, harada uğur var, harada vəziyyət yaxşı deyildir. Bunu görmək, müqayisə etmək və işləri bu istiqamətdə aparmaq lazımdır. Mənim siyasətim bundan ibarətdir və bu günə qədər atılmış bütün addımlar məhz bu məqsədi daşıyır: güclü iqtisadiyyat yaratmaq, iqtisadi potensialı möhkəmləndirmək, cəsarətli iqtisadi islahatlar aparmaq və eyni zamanda, Azərbaycanda demokratik prosesləri sürətləndirmək.

Bu istiqamətdə parlament seçkilərinin çox böyük əhəmiyyəti vardır. Əlbəttə, başqa addımlar da atılır. Parlament seçkiləri ərəfəsində görülmüş işlər, yeni Seçki Məcəlləsinə edilmiş dəyişikliklər və başqa yeniliklər artıq bir səviyyə yaratdı. Bundan sonra Azərbaycan artıq bu səviyyədən aşağı enməyəcəkdir. Bundan sonra daha böyük addımlarla irəliləyəcək, daha mütəşəkkil qaydada seçkilər keçiriləcəkdir və əminəm ki, bu seçkilərdə bizi narahat edən qanun pozuntuları aradan qaldırılacaqdır.

İndiki seçkilərdə Prezidentin göstərişlərinə əməl etməyən insanlar cəzalandırıldı və bu proses davam edəcəkdir. Hamı bilməlidir ki, əgər mən bəyan edirəmsə, – bunu bir dəfə, iki dəfə yox, rayonlarda olduğum zaman bütün görüşlərdə, burada keçirdiyim toplantılarda vurğulamışdım, – gərək heç kəs müdaxilə etməsin, yerli icra orqanları seçki prosesinə müdaxilə etməsinlər. Seçkilər şəffaf keçirilməlidir. Heç bir namizədə problem yaradılmamalıdır. Hamı eyni, bərabər hüquqa malik olmalıdır. Amma məni eşitməyən, göstərişlərimə əməl etməyən məmurları mən cəzalandırdım. Artıq bəziləri həbs olunub, bəziləri işdən çıxarılıb və bu proses davam edəcəkdir.

Bu seçkilərə media tərəfindən böyük diqqət göstərilmişdir. Yəqin bu da təbiidir. Xüsusilə xarici telekanallar və qəzetlər, digər informasiya agentlikləri bu seçkilərə böyük maraq göstərirdilər. Yəqin siz də o yazıları, məlumatları izlə-

misiniz. Seçkilərə hələ bir neçə ay qalmış müxtəlif fərziyyələr irəli sürülürdü ki, görəsən, Azərbaycanda növbəti inqilab olacaq, yoxsa yox? Bəziləri yazırdılar ki, olacaq, bəziləri yazırdılar ki, olmayacaqdır. Mən bu barədə öz fikrimi dəfələrlə, hələ bir neçə ay bundan əvvəl, seçki kampaniyası başlayan gün ifadə etmişəm. Bu gün həyat göstərir ki, mən haqlıyam. Çünki inqilabı, yaxud da çevrilişi şərtləndirən amillər var. Ümumiyyətlə, bu hadisəyə inqilabmı, çevrilişmi demək də, əlbəttə, hər bir insanın, yaxud təşkilatın yanaşmasından asılıdır. Əgər buna müsbət hal kimi baxırlarsa, deyirlər ki, bu, inqilabdır. Əgər bunu qəbul etmirlərsə, deyirlər ki, bu, çevrilişdir. Başqa ölkələrdə, postsovet ölkələrində baş vermiş hadisələrə qiyməti, yəqin ki, o ölkələrdə yaşayan xalqlar verəcəklər. Ona görə mən bu məsələyə toxunmaq istəməzdim. Amma Azərbaycana gəldikdə, əlbəttə ki, burada çevriliş etmək üçün müəyyən amillər lazım idi və onlar da Azərbaycanda yoxdur.

İlk növbədə, Azərbaycanda iqtidarla xalq arasında uçurum olmalıydı. Bizdə əksinə, xalqla iqtidar arasında birlik var, inam var. Biz bunu gündəlik fəaliyyətimizlə daha da möhkəmləndiririk. Digər tərəfdən, çevriliş etmək üçün güclü müxalifət lazımdır və cəsarətli müxalifət lideri lazımdır. Azərbaycanda nə o var, nə də bu. Bundan başqa, bunu etmək üçün təkcə müxalifətin güclü olması kifayət etməz. Ciddi ictimai bir fikir də olmalıdır. İctimai, yaxud da sosial sifariş olmalıdır. Bu, Azərbaycanda bütövlükdə yoxdur və mövcud deyildir. Azərbaycan ictimaiyyəti bunu dəstəkləmir. Parlament seçkiləri, onun nəticələri və seçkilərdən sonra baş vermiş hadisələr bunu bir daha təsdiqləyir. Əksinə, Azərbaycanda vətəndaş cəmiyyəti formalaşır. Azərbaycanda, sözün əsl mənasında, vətəndaş həmrəyliyi mövcuddur. Mən deyə bilmərəm ki, Azərbaycanda siyasi həmrəylik var. Yox. Əfsuslar olsun, biz hələ o səviyyəyə çatmamışıq, gərək siyasi

mədəniyyət o səviyyəyə çatsın ki, siyasi partiyalar, yaxud siyasi mübarizə aparan tərəflər bu mübarizəni sivil qaydada aparsınlar. Ancaq Azərbaycanda vətəndaş həmrəyliyi var. Azərbaycan iqtidarının apardığı siyasət xalq tərəfindən bəyənilir və dəstəklənir. Ona görə Azərbaycanda çevrilişi təmin edəcək heç bir amil yox idi. Ancaq buna baxmayaraq, biz bilirik ki, media mənsubları bəzi hallarda sensasiya axtarışındadırlar. Bilirəm, buraya gəlmiş çoxlu xarici jurnalistlər bir az məyus oldular ki, Azərbaycanda bu hadisəni görmədilər. Ancaq mən dedim, onlara deyin ki, üzr istəyirik, əgər bu hadisələri görmək istəyirlərsə, getsinlər bunu öz ölkələrində görsünlər. Bu, kimin üçünsə, tutaq ki, bir sensasiyadır, yaxud hadisədir, bizim üçün isə bu, bizim həyatımızdır, müqəddəratımızdır. Azərbaycanda hökm sürən sabitlik, ictimai-siyasi asayiş çox möhkəm qorunur və saxlanılır.

Bilirəm ki, seçkilərdən sonra müxalifətin bəzi mitinq cəhdləri də böyük maraq doğururdu və bəzi jurnalistlər artıq başlıqları da hazırlamışdılar ki, sabah öz qəzetlərində, yaxud telekanallarında çevriliş haqqında məlumat verəcəklər. Ancaq Azərbaycan xalqı bir daha göstərdi ki, o, kimin tərəfindədir və seçkilər bunu bir daha sübut etdi. Bəziləri, müxtəlif ictimai əsaslarla fəaliyyət göstərən təşkilatlar hesab edirdilər ki, bu seşkilərdən sonra Azərbaycan iqtidarı və onun Prezidenti zəifləyəcək və belə olan halda, Azərbaycanda hansısa işləri görmək daha da asan olacaqdır. İqtidar yaralı, zəif olacaq və bunun nəticəsində burada müəyyən maraqlar təmin ediləcəkdir. Amma həyat göstərdi ki, Azərbaycan iqtidarı bu seçkilərdən sonra daha da möhkəmləndi.

Bir də bilirsiniz ki, on ay ərzində iqtisadiyyatı 23 faiz artan ölkələrdə, adətən, çevrilişlər baş vermir. Bizim uğurlu iqtisadi, sosial siyasətimiz xalq tərəfindən bəyənilir və dəstəklənir. Azərbaycanda yoxsulluğun səviyyəsi kəskin

şəkildə aşağı düşübdür. Keçən il təxminən 9 faiz aşağı düşübdür. Artıq mənə verilmiş ilkin məlumatlara görə, bu il də kəskin şəkildə aşağı düşəcəkdir. 300 mindən artıq yeni iş yerlərinin yaradılması, iqtisadi islahatlar, sənaye istehsalının 30 faiz artması heç bir ölkədə yoxdur. On ayda Ümumi Daxili Məhsulun 23 faiz artması heç bir ölkədə yoxdur. Maaşlar qalxır, tələbələrin təqaüdləri qalxdı, müxtəlif kateqoriyalı insanların maaşları qalxır. Bu proses davam edəcəkdir. Bizim büdcəmiz 67 faiz artıb, 4 milyard dollara gəlib çatıbdır. İki il bundan əvvəl 1 milyard dollar səviyyəsində idi. İnvestisiya xərclərimiz artır, geniş abadlıq, quruculuq işləri aparılır. Rayonlar abadlaşır, ən ucqar kəndlərə yollar salınır, su, neft kəmərləri çəkilir, elektrik stansiyaları, məktəblər, xəstəxanalar tikilir. Bunu görməmək mümkün deyildir. Bunu biz də görürük, insanlar da görürlər.

Mənim məqsədim ondan idarətdir ki, bu gözəl makroiqtisadi göstəriciləri biz insanların gündəlik həyatının normasına çevirək. Çünki adi vətəndaşı Ümumi Daxili Məhsul və onun yüksəlməsi o qədər də maraqlandırmır. Bəlkə də bilmir bu nədir. Onu real həyatı, güzəranı maraqlandırır. Biz bunu təmin etməliyik. Ancaq bunu mərkəzdən etmək mümkün deyildir. Biz bütün qərarları burada qəbul edirik. Maliyyə nizam-intizamını möhkəmləndiririk. Büdcə gəlirlərini artırırıq. Azərbaycanda iqtisadi islahatların aparılması üçün lazımi qərarlar qəbul edirik. Ancaq əgər yerlərdə rüşvətxor məmurlar buna imkan yaratmırsa, onda bizim heç bir planımız, proqramımız həyatda öz əksini tapa bilməz. Ona görə mənim tərəfimdən son müddət ərzində bir çox rayonlarda icra hakimiyyətinin başçıları dəyişdirildi və indi onların, mənim təyin etdiyim insanların tam əksəriyyəti yaxşı işləyir.

Yenə də parlamentdə bu demokratik inkişaf prosesinə, ictimai nəzarət məsələsinə qayıdıram. İctimai nəzarət olma-

lıdır, o cümlədən parlament tərəfindən ki, büdcə xərclərindən necə istifadə olunur. 4 milyard dollar son həddeyildir. Biz bilirik ki, bu, gələcəkdə 5 milyard dollara çatacaq, ondan sonra daha böyük olacaqdır. Xərclər artdıqca, nəzarət də güclənməlidir. Bu, mütləq və mütləq olmalıdır. Çünki hər bir vətəndaş bunu öz gündəlik həyatında hiss etməlidir. Mən şübhə etmirəm ki, qarşıda qoyulmuş bütün vəzifələr uğurla icra ediləcəkdir. Son iki ilin təcrübəsi bunu əyani şəkildə göstərir. Nəyi demişiksə, onu da etmişik. Bilirdik ki, nəyi edə bilməyəcəyik, onu deməmişik. Onu sonra deyəcəyik. Nə vaxt ki, buna zəmin yaranacaqdır. Heç vaxt heç bir populist vədlə çıxış etməmişik. Bəzi müxalifət nümayəndələrindən fərqli olaraq, deməmişik ki, biz hər bir vətəndaşa 200 dollar pul verəcəyik. Çünki biz öz insanlarımıza, vətəndaşlarımıza hörmətlə yanaşırıq.

Biz bilirik ki, Azərbaycan xalqının çox böyük intellektual potensialı var. Azərbaycan xalqı dünyada gedən prosesləri çox yaxşı bilir. Əgər onlara deyirlərsə ki, hər bir vətəndaşa 200 dollar pul veriləcək, sadəcə, onlar bunu təhqir kimi qəbul edirlər ki, görün, Azərbaycan xalqı haqqında nə fikirdədirlər? Əgər onlar hakimiyyətə gəlsələr, Azərbaycan xalqı ilə necə rəftar edəcəklər? Biz bunu 1990-cı illərin əvvəllərində görmüşük. Azərbaycan xalqı da bunu görübdür, yaxşı xatırlayır və Azərbaycanı bərbad vəziyyətə salan, bu ölkəni talayan, Azərbaycanda vətəndaş müharibəsini başlayan, Azərbaycanı uçuruma sürükləyən qüvvələrə Azərbaycan siyasətində heç vaxt yer olmayacaqdır. Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcəkdir.

Bir-iki kəlmə də xarici siyasət haqqında demək istəyirəm. Çünki parlamentin funksiyası həm də parlamentlərarası əlaqələri möhkəmləndirməkdən ibarətdir. Artıq bizim müxtəlif beynəlxalq təşkilatlarla çox səmərəli əməkdaşlı-

ğımız var. Mən hesab edirəm ki, parlament bu məsələyə böyük diqqət göstərməlidir. Mən də, yəqin, siz də xarici səfərlərdə bunun şahidi oluruq ki, Azərbaycan haqqında məlumat kifayət qədər deyildir. Azərbaycan həqiqətləri barədə dünya ictimaiyyətinin o qədər də xəbəri yoxdur. Ona görə hər bir nümayəndə heyətinin səfəri həm də bu məqsədi daşımalıdır. Təsadüfi deyil ki, son iki il ərzində bir sıra xarici ölkələrdə Azərbaycanın səfirlikləri açılıbdır. Bu, o məqsədi daşıyır. Yəni bir tərəfdən, diplomatiyamız daha fəal, çevik olsun, digər tərəfdən, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə olduğu kimi çatdırılsın. Ona görə parlamentin də bu istiqamətdə böyük addımları olmalıdır. Bütövlükdə, parlamentin bu sahədə fəaliyyəti təqdirəlayiqdir və daha da güclənməlidir.

Azərbaycanın xarici siyasəti dəyişməz olaraq qalır. Biz öz siyasətimizi ilk növbədə, Azərbaycan xalqının maraqları üzərində qururuq və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Biz bütün dostlarımızla, tərəfdaşlarımızla yaxşı münasibətlərin olmasını istəyirik. Mən çox məmnunam ki, qonşularımızla münasibətlərimiz çox yüksək səviyyədədir və gündən-günə güclənir. Bu, çox vacibdir. Çünki biz burada, bu bölgədə yaşayırıq. Qonşularımızın arasında yaşayırıq. Əlbəttə, qonşularla yaxşı münasibətlərin qurulması ölkədə və bölgədə sabitliyin, əməkdaşlığın əsaslarını möhkəmləndirir. Digər tərəfdən, Azərbaycan regional müstəvidə çox fəal iştirak edir və mübaliğəsiz demək olar ki, artıq regionda lider dövlətə çevrilib və öz mövqelərini möhkəmləndiribdir.

Bizim Avratlantik strukturları ilə əməkdaşlığımız çox səmərəlidir və müsbətdir. Bu istiqamətə böyük diqqət göstərilir və xarici siyasətimizin bu istiqaməti növbəti illərdə daha da güclənməlidir. Avropa İttifaqı ilə əlaqələr yüksək səviyyədədir.

Azərbaycan beş ildir Avropa Şurasının üzvüdür və Avropa Şurası ilə artıq çox gözəl əməkdaşlıq edir. Onu da demək istəyirəm ki, bunu indi yeni seçilmiş deputatlar da bilsinlər. Avropa Şurası yalnız Azərbaycan üzrə məruzəçilərdən ibarət deyildir. Bunu da bilin.

Avropa Şurası o təşkilatdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qətnamə qəbul edibdir. Bax, o qətnamədə Ermənistanı işğalçı dövlət kimi ifşa edibdir. İlk dəfə olaraq yazılmışdır ki, Ermənistan! Yazılmamışdır ki, hansısa erməni qüvvələri, yaxud ermənilər. Yazılmışdır ki, Avropa Şurasının bir ölkəsi Avropa Şurasının digər ölkəsinə qarşı təcavüz edibdir. Bu təcavüz nəticəsində 20 faiz torpaq işğal altına düşüb, 1 milyondan artıq qaçqın-köçkün yaranıbdır. Ona görə biz bu istiqaməti gərək yaxından təqib edək və Avropa Şurası ilə əməkdaşlığımızı daha da möhkəmləndirək.

İslam Konfransı Təşkilatı ilə bizim çox gözəl əməkdaşlığımız var. İslam Konfransı Təşkilatı o təşkilatdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair öz qərarlarını dəfələrlə ortaya qoymuşdur. Bütövlükdə, islam dünyası ilə bizim münasibətlərimiz daha da fəal olmalıdır. İslam həmrəyliyi prinsipləri daha da geniş tətbiq olunmalıdır. Şübhəsiz ki, bu təşkilatla bizim əməkdaşlığımız prioritet xarakter daşıyır.

Azərbaycan MDB çərçivəsində fəaliyyət göstərir və öz fəaliyyətini davam etdirəcəkdir. Mən MDB-nin zirvə görüşlərində iştirak edirəm. O görüşlər də imkanlar yaradır ki, MDB ölkələrinin dövlət başçıları ilə ikitərəfli formatda müzakirələr aparılsın. Nüfuzu artmaqda olan GUAM təşkilatında Azərbaycan fəal rol oynayır. Hamımız yaxşı bilirik ki, GUAM-ın yaranmasında Azərbaycanın və onun lideri Heydər Əliyevin ən böyük rolu olmuşdur. Bu gün bu təşkilat, necə

deyərlər, yeni bir müstəviyə qədəm qoyur. Təşkilatın yeni perspektivləri açılır və əlbəttə, Azərbaycanın bu təşkilatda iştirakı təşkilatın daha da güclənməsinə xidmət göstərir.

Əlbəttə, bizim üçün ən ağrılı, ən problemli olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Bildiyiniz kimi, danışıqlar aparılır. Prezidentlər, xarici işlər nazirləri görüşürlər. Müsbət hal ondan ibarətdir ki, artıq danışıqlar Praqa prosesi çərçivəsində aparılır. Praqa prosesi də hamımız bilirik ki, mərhələli həll deməkdir. Bu, həmişə bizim mövqeyimiz olubdur. Həmişə demişik ki, Dağlıq Qarabağ problemi yalnız mərhələli həll əsasında öz həllini tapa bilər. Bu gün bu istiqamətdə işlər aparılır. Müxtəlif variantlar müzakirə olunur.

Deyə bilərəm ki, Minsk qrupunun fəaliyyəti son zamanlar daha da gözəgörünən olubdur. Bu da təqdirəlayiq bir haldır. Minsk qrupunun fəaliyyəti onu göstərir ki, həqiqətən, indi Minsk qrupunun və onun həmsədrlərinin marağı var ki, bu məsələ öz həllini tapsın. Ancaq istəyirəm, indi burada öz mövqeyimi bir daha bildirim. Bunu həm Minsk qrupuna, həm də Ermənistan rəhbərliyinə, bu məsələ ilə məşğul olan bütün başqa tərəflərə demişəm, bu gün də deyirəm. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Başqa heç bir variant müzakirə olunmur. Başqa heç bir variant nəzərdən keçirilmir. Bu, bizim prinsipial mövqeyimizdir.

Mən bunu çox müsbət hal kimi qiymətləndirirəm ki, artıq bu tezis münaqişənin həlli ilə məşğul olan tərəflərdə də öz çəkisini artırır. Bu, bizim prinsipial mövqeyimizdir. Bu, o həddir ki, bu həddən o tərəfə biz heç vaxt, heç bir güzəştə gedə bilmərik. Bəzi hallarda deyirlər ki, qarşılıqlı güzəştlər olmalıdır. Mən sual verirəm, bizim nəyimiz var ki, onu

ermənilərə güzəştə gedək? Bizim torpaqlarımız işğal altındadır, bizim soydaşlarımız, qaçqın-köçkün şəraitində yaşayırlar. Bizim Ermənistana məxsus nəyimiz var ki, onlara qaytaraq? Ona görə qarşılıqlı güzəştlər deyəndə, gərək bilək, biz nəyi nəzərdə tuturuq. Azərbaycan tərəfindən indiki şəraitdə, Azərbaycanın gücləndiyi bir dövrdə, hərbi büdcəmiz 600 milyon dollar səviyyəsinə qalxdığı bir dövrdə, – bu da son həddeyil, – bölgədə liderlik mövqelərini möhkəmləndirdiyi bir dövrdə on ildən artıq danışıqların aparılması da böyük güzəştdir. Bunu hamı bilməlidir.

Bizim səbrimiz tükənməz deyildir. Biz öz sülh siyasətimizi bəyan etmişik, bizim bu danışıqlarda qalmağımız da onu göstərir ki, məsələni sülh yolu ilə həll etmək istəyirik. Bu gün bir daha deyirəm, hələ ki, sülh prosesinin potensialı tükənməyibdir. Ona görə gərək biz bundan istifadə edək. Amma nə vaxta qədər?! On ildən artıqdır atəşkəs rejimində yaşayırıq. On ildən artıqdır danışıqlar gedir və heç bir nəticə yoxdur. İndi biz diplomatik uğurlardan danışsaq, onun hələlik heç bir əhəmiyyəti yoxdur. Baxmayaraq ki, Birləşmiş Millətlər Təşkilatı artıq bu məsələ ilə bağlı ciddi məşğul olur və gündəliyə məsələ salınıbdır. ATƏT-in faktaraşdırıcı missiyası bizim xahişimizlə və təkidimizlə bölgəyə, işğal olunmuş torpaqlara öz nümayəndələrini göndərmişdir. Orada ermənilərin qanunsuz məskunlaşmasını aşkar etmişdir. Avropa Şurası tərəfindən çox müsbət qətnamə qəbul edilmişdir. Bütün bunlar bizim diplomatik uğurlarımızdır. Ancaq əgər məsələ öz həllini tapmırsa, bunların heç bir əhəmiyyəti yoxdur. Biz çalışırıq və çalışacağıq ki, bütün imkanlardan istifadə edib məsələni sülh yolu ilə həll edək. Ancaq eyni zamanda, biz güclü olmalıyıq. Güclü olan dövlət hər şeyə qadirdir. Biz iqtisadi potensialımızı gücləndirməliyik, büdcəmizi artırmalıyıq, siyasi çəkimizi artırmalıyıq və Azərbaycan

güclü dövlət olandan sonra istənilən məsələni asanlıqla həll edə bilər.

Əziz dostlar!

Hörmətli deputatlar!

Mən sizin vaxtınızı çox almaq istəmirəm. Düzdür, mən bura üçün çox darıxmışam. İki ildir ki, buradan ayrılmışam. Amma onu da bilirsiniz ki, mənim həyatımın səkkiz ili deputat kimi bu binada keçibdir. Mənim üçün Milli Məclis çox əziz və doğma bir yerdir, mənim doğma evimdir. Burada əyləşənlərin bir çoxu ilə biz birlikdə işləmişik, çalışmışıq və bu gün də işləyirik. Baxmayaraq ki, mən artıq başqa vəzifədəyəm, amma bizim əlaqələrimiz davam edir. Biz bir məqsədə qulluq edirik. Amalımız da, məramımız da birdir – ölkəmizi möhkəmləndirmək, gücləndirmək. Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq, güclü, zəngin dövlət yaratmaqdır.

Mən bu gün bu kürsüdən çıxış edərkən, əlbəttə, o illəri də xatırlayıram, öz fəaliyyətimi xatırlayıram. Bir daha deyə bilərəm ki, müstəqil Azərbaycan Respublikasının millət vəkili, Milli Məclisin deputatı olmaq böyük şərəfdir və böyük məsuliyyətdir. Mən sizə arzu edirəm ki, bu şərəfli missiyanızı uğurla icra edəsiniz, səmərəli işləyəsiniz və doğma vətənimizin çiçəklənməsi üçün öz töhfənizi verəsiniz. Sağ olun, sizə uğurlar arzulayıram.

Bakı şəhəri, 2 dekabr 2005-ci il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİLLİ MƏCLİSİN 2006-cı İL PAYIZ SESSİYASININ AÇILIŞINDA N İ T Q İ

Hörmətli deputatlar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün çox gözəl və əlamətdar bir gündür. Həm Milli Məclis öz işinə başlayır, eyni zamanda, Milli Məclisin binası tam yeni görkəm almışdır. Həm xarici görünüşü, həm də daxili interyeri ən yüksək standartlara cavab verir. Burada deputatlar üçün çox gözəl iş şəraiti yaradılmışdır. Qısa bir müddət ərzində çox əsaslı təmir işləri aparılmışdır. Bu gün bu gözəl salonda işləmək, əlbəttə, çox rahatdır və əminəm ki, deputatlarımız üçün çox uğurlu olacaqdır. İndi Azərbaycanda gedən abadlıq, quruculuq işləri bütün sahələri əhatə edir, binalar abadlaşır, yeni xiyabanlar salınır, inzibati binalar təmir olunur. Biz hamımız istəyirik ki, təmir olunmuş bütün binalar ən yüksək standartlara cavab versin. Əminəm ki, Milli Məclisin fəaliyyəti Azərbaycanın hərtərəfli inkişafı üçün öz töhfəsini verəcək və iş şəraitinin yaxşı olması, Milli Məclis binasının yeni, müasir avadanlıqla təchiz olunması, əlbəttə ki, işin səmərəliliyini də artıracaqdır.

Parlament seçkilərindən artıq bir il keçibdir və demək olar ki, yeni seçilmiş Milli Məclis Azərbaycanın inkişafında çox mühüm rol oynayır. Yeni qanunlar qəbul olunur, Milli Məclisin beynəlxalq fəaliyyəti möhkəmlənir və deputatların seçicilərlə görüşləri çox mütəmadi xarakter alır. Bu, çox önəmlidir, çünki seçicilərin qayğıları, onların arzuları ilk növbədə yerinə yetirilməlidir. Bu baxımdan Milli Məclis

üzvlərinin fəaliyyətindən çox şey asılıdır. Bütün görülən işlər, ölkədə gedən inkişaf meylləri bir məqsədə qulluq edir: Azərbaycanı hərtərəfli inkişaf etdirmək, zəngin, qüdrətli dövlətə çevirmək, sosial ədalət prinsiplərini tam şəkildə bərqərar etmək və ölkəmizi müasirləşdirmək.

Siz tez-tez bölgələrdə olursunuz, seçicilərlə görüşürsünüz və onların əhval-ruhiyyəsini yaxşı bilirsiniz. Biz də bunu bilirik. Biz birlikdə çalışmalıyıq, mövcud olan nöqsanları da birlikdə aradan qaldırmalıyıq, öz diqqətimizi çatışmayan cəhətlərə yönəltməliyik ki, Azərbaycanda bir dənə də problem qalmasın. Bunu etmək mümkündür. Azərbaycanda hökm sürən ictimai-siyasi vəziyyət, iqtidarla xalq arasında inam, Milli Məclisin uğurlu fəaliyyəti – bütün bunlar bizim qısamüddətli və uzunmüddətli inkişaf strategiyamızı müəyyən edir.

Parlamentin Azərbaycan cəmiyyətindəki rolu artır, artmalıdır və bu da təbiidir. Bu, bir Prezident kimi məni çox sevindirir. Çünki parlamentin üzərinə düşən vəzifələr yerinə yetirilirsə, əlbəttə, cəmiyyətimizin hərtərəfli inkişafı təmin olunur. Biz Azərbaycanda hüquqi dövlət qururuq. Qanunun aliliyi tam şəkildə bərqərar olmalıdır. Azərbaycan dünya birliyinə daha da sürətlə inteqrasiya etməlidir və ölkəmizin bütün sahələrində çox ciddi islahatlar davam etdirilməlidir. Çox sevindirici haldır ki, ölkəmizdə həm iqtisadi, həm də siyasi islahatlar paralel şəkildə aparılır və bu islahatların gözəl nəticələri var. Bu işlərdə Milli Məclisin üzərinə düşən vəzifəsi var və əminəm ki, sizin səmərəli fəaliyyətiniz ölkəmizin hərtərəfli inkişafı, möhkəmlənməsi işində mühüm rol oynayacaqdır.

Bir daha demək istəyirəm ki, son parlament seçkilərindən bir il vaxt keçir. Bu bir il ərzində Azərbaycan öz mövqelərini daha da möhkəmləndirə bilmişdir. Bir il ərzində ölkəmizdə gedən proseslər müsbət istiqamətdə inkişaf

etmişdir. İstər xarici siyasətdə, istər daxili siyasətdə, istərsə də iqtisadi inkişaf baxımından – bütün sahələrdə. Parlament seçkilərinin uğurla keçirilməsi, Azərbaycan xalqının iradəsinin təntənəsi, əlbəttə, ölkəmiz qarşısında yeni imkanlar açır, yeni üfüqlər açır. Parlament seçkiləri yeni bir dövrün başlanğıcıdır. Azərbaycanın müasir tarixində bir neçə dövrlər olmuşdur. 1991-1993-cü illəri biz yaxşı xatırlayırıq. O dövr Azərbaycan üçün məğlubiyyət dövrü kimi yadda qaldı. O dövr Azərbaycana böyük çətinliklər gətirdi, ölkəmiz böyük problemlərlə üzləşdi və əfsuslar olsun ki, həmin problemlərin bir hissəsi bu günə qədər də bizim üçün aktualdır.

1993-2003-cü illər ərzində Azərbaycanda sabitlik və inkişaf dövrü yaşandı. Azərbaycan Prezidenti Heydər Əliyevin rəhbərliyi altında ölkəmiz çətin, böhran vəziyyətindən uğurla çıxa bilmişdir. Beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilmişdir. Ölkə daxilində islahatların aparılması üçün gözəl şərait yaradılmışdır. Bütövlükdə, vəziyyət sabitləşmişdir. Nəzərə alsaq ki, 1993-cü ildə bizim müstəqilliyimiz artıq sual altında idi, Azərbaycanın müstəqilliyi çox böyük dərəcədə möhkəmlənmişdir.

İndi isə yeni dövr başlayır. Bu dövr Azərbaycanın gələcək inkişaf perspektivlərini müəyyən edəcək, uzunmüddətli inkişafımız bu dövrün uğurlu olmasından asılıdır. Parlament seçkilərinin uğurla keçirilməsi və seçkilərdən sonra ölkəmizin güclənməsi, əlbəttə, Azərbaycan üçün yeni imkanlar yaradır. Biz çalışırıq ki, bütün sahələrdə öz fəaliyyətimizi proqram şəklində quraq. İstər xarici siyasət məsələlərində, istərsə də daxili siyasət məsələlərində. Azərbaycanı narahat edən bütün problemlər diqqət mərkəzindədir. Regionların sosial-iqtisadi inkişafı proqramı uğurla icra edilir. Siz bölgələrdə tez-tez olursunuz, yəqin özünüz də görürsünüz ki, bizim rayonlarımızın siması dəyişir. Yeni binalar, məktəblər,

xəstəxanalar, idman qurğuları, sənaye müəssisələri tikilir, sahibkarlıq inkişaf edir. Miqrasiya, yəni rayonlardan şəhərə miqrasiya meylləri azalır və ümid edirəm ki, vaxt gələcək ki, bu, tam dayanacaqdır və bəlkə də, şəhərdən rayonlara miqrasiya başlana bilər.

İqtisadi potensialımız artır. Bunu həm makroiqtisadi göstəricilər, həm də insanlarımızın gündəlik həyatı və ölkəmizin gündəlik həyatı sübut edir. Makroiqtisadi göstəricilər, bəlkə də, adi vətəndaşlar üçün o qədər də vacib məsələ deyildir. Ancaq əgər bizim iqtisadiyyatımız 30 faiz artmasa, əlbəttə ki, bütün problemləri həll etmək çətin olacaqdır. Büdcəmiz artır. Qısa müddət ərzində Azərbaycanın dövlət büdcəsi bir neçə dəfə artmışdır. Bəziləri deyir ki, bu, neftin hesabına olubdur. Ancaq siz, Milli Məclisin deputatları bunu yaxşı bilirsiniz.

Əlbəttə, neft amilinin Azərbaycanın iqtisadiyyatında böyük əhəmiyyəti var. Amma Azərbaycanda qeyri-neft sektoru da sürətlə artır. İndi bizim əsas diqqətimiz məhz bu sahəyə yönəldilibdir. Neftdən əldə olunan gəlirləri qeyri-neft sektoruna yönəltmək, insan kapitalına çevirmək, humanitar məsələlərin həllinə yönəltmək ki, Azərbaycan hərtərəfli inkişaf etsin və gələcəkdə neft amilindən asılı olmasın, yaxud da bu asılılıq aşağı düşsün. Büdcənin artımı, öz növbəsində, ölkə qarşısında duran bütün problemlərin, iqtisadi problemlərin həlli üçün gözəl imkanlar yaradır. 2007-ci ilin büdcə layihəsi yəqin ki, tezliklə Milli Məclisə göndəriləcəkdir. Büdcə qəbul ediləndən sonra 2007-ci ildə çox böyük işlər görmək mümkün olacaqdır.

Azərbaycanda əsas infrastruktur layihələri 2007-2008-ci illərdə başa çatmalıdır. Elektrik stansiyalarının tikintisi, yolların, qaz xətlərinin, su kəmərlərinin, məktəb və xəstəxanaların tikintisi – bütün bunlar 2007-2008-ci illərdə başa çatmalıdır. Beləliklə, 2003-cü ildən 2008-ci ilə qədər nəzərdə tutulan

bütün məsələlər öz həllini tapmalıdır. Bizim bu sahədə siyasətimiz çox açıqdır, aydındır. Prezident kimi mən çox istəyirəm ki, biz qısa müddət ərzində bütün o məqsədlərə çataq. Bunu etmək üçün bütün imkanlar var. Bir daha deyirəm, iqtisadi potensial bizə imkan verir, əlbəttə, ölkədə hökm sürən çox müsbət ictimai-siyasi mühit də öz tərəfindən buna imkan yaradır. Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi ölkəmizdə və kənardan mövcud olan risklərin azaldılmasına gətirib çıxarır. Bu da bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Biz ölkəmizi qorumalıyıq, riskləri azaltmalıyıq, öz siyasətimizlə Azərbaycanda və Azərbaycanın ətrafında əməkdaşlıq məkanı yaratmalıyıq. Yalnız belə olan təqdirdə ölkəmiz sürətlə inkişaf edə bilər, biz öz istədiyimizə nail ola bilərik.

Bundan sonrakı dövr ərzində Azərbaycanda hüquqi dövlət quruculuğu davam etdirilməlidir. Demokratikləşmə prosesləri daha da sürətlə aparılmalıdır. Bizi çox gözəl gələcək gözləyir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və uğurla icra olunan Azərbaycanın neft strategiyası öz bəhrələrini verməkdədir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi tarixi nailiyyətdir. Bu kəmərin tikintisi Azərbaycanın uzunmüddətli iqtisadi strategiyasını müəyyən edəcəkdir. Belə olan halda, ölkəmizdə siyasi islahatların aparılması ön plana çıxmalıdır. Çünki çox güclü iqtisadi potensial, ölkəmizə böyük maliyyə axınları, əlbəttə, iqtisadi cəhətdən ölkəmizi gücləndirəcəkdir. Digər tərəfdən, böyük valyuta axınlarına çox ciddi nəzarət olmalıdır. Əlbəttə, həm dövlət, hökumət, Milli Məclis tərəfindən, digər tərəfdən isə ictimaiyyət tərəfindən. Çünki əgər ciddi ictimai nəzarət olmasa, onda bizim nəzərdə tutduğumuz proqramlar çətinliklərlə üzləşə bilər.

Ona görə vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin möhkəmlənməsi,

hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar, yaxud da bir niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir. Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə də müsbət təsir göstərir. Ona görə siyasi və iqtisadi islahatların davam etdirilməsi zəmanənin tələbidir. Əgər biz doğrudan da müasir, güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik. Bu işdə həm dövlətin üzərinə böyük vəzifələr düşür, eyni zamanda, Milli Məclisin üzərinə də böyük məsuliyyət düşür. Biz birlikdə buna nail olmalıyıq.

Mən hesab edirəm ki, 2008-ci ilə qədər Azərbaycanın qarşısında duran əsas siyasi və iqtisadi, o cümlədən sosial məsələlər öz həllini tapacaqdır. Çünki bir daha demək istəyirəm ki, biz fəaliyyətimizi çox konkret proqramlar əsasında qururuq. Mən artıq qeyd etdim ki, regionların sosial-iqtisadi inkişafı proqramı bölgələrdə həyat səviyyəsinin yaxşılaşmasına, yeni müəssisələrin yaradılmasına, iş yerlərinin yaradılmasına gətirib çıxaracaqdır. Bildiyiniz kimi, artıq 450 minə qədər yeni iş yeri açılıbdır. Makroiqtisadi sabitlik və iqtisadi siyasətimizin bu istiqaməti ölkəmizdə xoşagəlməz halların qabaqlanmasına gətirib çıxaracaqdır. Bildiyiniz kimi, hər bir ölkədə əgər birdən-birə çox böyük iqtisadi imkanlar yaranırsa, deməli, inflyasiya riskləri də artır. Ona görə bizim makroiqtisadi siyasətimiz elə olmalıdır ki, bir tərəfdən, ölkəmiz qarşısında duran vəzifələr icra olunsun, digər tərəfdən, makroiqtisadi sabitlik pozulmasın. Bu, çox ciddi məsələdir. Bəlkə də, Azərbaycanın müasir tarixində ilk dəfədir ki, biz bu problemlə üzləşirik. Çünki bundan əvvəlki illərdə həmişə biz çalışırdıq ki, yeni maliyyə mənbələrini

aşkar edək, maliyyə intizamını möhkəmləndirək və əlavə gəlir mənbəyi axtaraq. İndi isə neft strategiyamızın icrası nəticəsində Azərbaycana çox böyük həcmdə valyuta ehtiyatları gələcək və o, makroiqtisadi vəziyyətə mənfi təsir göstərə bilər. Bu da çox önəmli məşələdir.

İnfrastruktur layihələrinin həyata keçirilməsi sistemli xarakter almışdır. Biz bütün əsas infrastruktur layihələrini 2008-ci ilə qədər başa çatdırmalıyıq. Çünki bu sahədə böyük işlər görülməlidir. Uzun illər maliyyə çətinlikləri ilə üzləşərək, bu sahəyə kifayət qədər vəsait ayrılmamışdır. Bu illərdə və növbəti illərdə bu sahəyə böyük vəsait ayrılmalıdır. Məktəb tikintisi – son iki il ərzində Azərbaycanda 600 məktəb tikilibdir, hamısı da çox müasir. Xəstəxanaların, sosial obyektlərin tikintisi. Ekoloji proqram qəbul edilibdir. Biz çox zəngin ölkəyə çevriləcəyik. Amma əgər ekoloji vəziyyət yaxşı olmasa, bizim insanlarımız böyük çətinliklərlə üzləşə bilərlər və onların sağlamlığına çox böyük zərər dəyə bilər. Yəni bütün bu sahələrdə 2008-ci ilə qədər əsas problemlər, məsələlər öz həllini tapmalıdır. Azərbaycan öz mövqelərini daha da möhkəmləndirməlidir.

Beynəlxalq aləmdə bizim siyasətimiz uğurludur. Siyasətin uğurlu olması onu göstərir ki, bütün beynəlxalq təşkilatlarda bizim fəaliyyətimiz, eyni zamanda, ikitərəfli müstəvidə müxtəlif ölkələrlə əlaqələrimiz Azərbaycan xalqının maraqlarına cavab verir. Burada ilk yerdə Azərbaycan xalqının və dövlətinin maraqları dayanır. Biz bu maraqları maksimum dərəcədə qoruyuruq. Bizim ikitərəfli münasibətlərimiz ölkəmizi daha da möhkəmləndirir. Beynəlxalq təşkilatlarda, habelə regional təşkilatlarda Azərbaycanın rolu artır. Regionda gedən işlərdə Azərbaycan artıq həlledici sözə malik olur və bir çox hallarda, biz region üçün çox önəmli layihələrin təşəbbüskarı və iştirakçısıyıq. Azərbaycanın iştirakı,

bizim razılığımız olmadan artıq heç bir regional layihə mümkün deyildir.

Əlbəttə ki, ölkəmizin beynəlxalq mövqeləri möhkəmlənir. Bizim beynəlxalq təşkilatlarla çox səmərəli əməkdaşlığımız var. Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir də keçirilmişdir. Üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda Azərbaycan fəal iştirak edir, öz maraqlarını təmin edir. Eyni zamanda, təşkilatların ümumi inkişafına da öz töhfəsini verir. Azərbaycan getdikcə daha da önəmli ölkəyə çevrilir və bu, artıq reallıqdır. İndiki Azərbaycan beş-on il əvvəlki Azərbaycandan çox fərqlənir. Bunu artıq bizimlə işləyən beynəlxalq təşkilatların nümayəndələri də görürlər. Biz bu imkanlardan ancaq və ancaq Azərbaycan xalqının maraqlarının təmin olunması üçün istifadə etməliyik. Biz bütün ölkələrlə əməkdaşlığa açığıq, xarici siyasətimiz səmimidir, dürüstdür. Bizim bütün bəyanatlarımız həyatda öz əksini tapır. Heç vaxt konyunktura naminə, yaxud da hansısa qısamüddətli nailiyyət naminə heç bir addım atmamışıq. Özümüzü çox ləyaqətli aparırıq.

Eyni zamanda, əməkdaşlıq üçün də açığıq, artıq bu, reallıqdır. Azərbaycanın adı gələndə artıq beynəlxalq təşkilatlarda və bütövlükdə dünyanın siyasi arenasında Azərbaycanın adı çox böyük hörmətlə çəkilir. Ölkəmizin önəmi artır. Bunun səbəbi təkcə neft-qaz layihələri, təkcə Azərbaycanın əlverişli coğrafi vəziyyəti deyil. Azərbaycanda neft-qaz həmişə var idi. Çox çətin şəraitdə, çox böyük maneələrlə üzləşərək bu nefti, qazı çıxarmaq, xarici investorları cəlb etmək, neft kəmərlərini yaratmaq, dünya bazarına çıxarmaq çox böyük cəsarət, çox böyük müdriklik tələb edirdi. Bir də demək istəyirəm ki, bütün bu işlərin təşəbbüskarı Prezident Heydər Əliyev olmuşdur.

Azərbaycanın coğrafi vəziyyəti də, sadəcə olaraq, özlüyündə böyük əhəmiyyət kəsb etmir. Əgər bizim düşünülmüş siyasətimiz olmasaydı, əgər Azərbaycanı bir regional mər-

kəzə çevirmək cəhdlərimiz baş tutmasaydı, coğrafi vəziyyətin heç bir əhəmiyyəti olmazdı. Dünyada bir çox ölkələr var ki, onların daha da əlverişli coğrafi vəziyyəti var.

Əfsuslar olsun ki, Azərbaycan dünya bazarlarına birbaşa çıxışa malik deyildir.

Bizim bütün nəqliyyat və enerji layihələrimiz kəmərlər vasitəsilə, yaxud da tranzit vasitəsilə həyata keçirilir. Buna baxmayaraq, Azərbaycanda güclü nəqliyyat infrastrukturunun yaradılması bizim önəmimizi artırır. Biz bir neçə beynəlxalq layihələrin təşəbbüskarıyıq. Bu yaxınlarda başlayacağımız Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi ölkədə yeni bir vəziyyət yaradacaqdır. Azərbaycan Avropa ilə Asiyanı dəmir yolu vasitəsilə birləşdirən ölkəyə çevrilir və əlbəttə ki, regional işlərdə bizim önəmimiz artır.

Biz Avropa Birliyi ilə çox işgüzar münasibətlər yaradırıq. İslam dünyasında mövqelərimiz həddindən artıq möhkəmdir. Bu əməkdaşlıq bizim üçün çox önəmlidir. Regional təşkilatlarda və başqa təşkilatlarda Azərbaycanın əvəzolunmaz rolu var. Yəni biri o birini istisna etmir. Əksinə, biri digərini tamamlayır. Azərbaycanın belə siyasəti bölgə üçün də çox böyük əhəmiyyət kəsb edir. Heç kim maraqlı deyil ki, bölgədə vəziyyət gərginləşsin. Heç kim maraqlı deyil ki, bölgədə mövcud olan problemlər hansısa xoşagəlməz nəticəyə gətirib çıxarsın. Biz siyasəti təmkinlə aparırıq. Bizim məqsədimiz var, bu məqsədə doğru gedirik və ona çatmaq üçün nə lazımdırsa edirik və edəcəyik.

Bir sözlə, əgər biz perspektivə baxsaq, Azərbaycanın qarşısında elə bir ciddi məsələ görmürük. Şəxsən mən görmürəm. Çünki hələ ki, əldə etdiyimiz uğurlara bir neçə ildən sonra nail olacağıq. Hər halda, hər bir istiqamət üzrə proqram olduğu üçün bunu deməyə bütün əsaslarımız var.

Ölkəmiz qarşısında duran yeganə problem var ki, onun həlli təkcə bizdən asılı deyil, o da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bu, yeganə məsələdir ki, təkcə bizdən asılı deyildir. Halbuki, biz əlimizdən gələni edirik və Azərbaycanın diplomatik səyləri də buna yönəldilibdir ki, bu məsələnin də həllinə nail olaq. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe barəsində dəfələrlə rəsmi bəyanatlar da verilibdir. Mən də öz çıxışlarımda bəyan etmişəm – Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bu, başlıca şərtdir. Bunun kənarında heç bir razılaşma, heç bir saziş mümkün deyildir. İşğalçı qüvvələr zəbt olunmuş torpaqlardan çıxmalıdır. Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsi icra olunmalıdır və işğala son qoyulmalıdır. Azərbaycan vətəndaşları, etnik təmizləmədən əziyyət çəkən vətəndaşlar öz torpaqlarına qayıtmalıdırlar. Bölgədə təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi mümkündür, biz də bunun tərəfdarıyıq və Dağlıq Qarabağda yaşayan ermənilərə yüksək muxtariyyət statusu verilməlidir. Bu, bizim mövqeyimizdir. Bu mövqe həm tarixə əsaslanır – çünki yaxşı bilirik ki, biz erməniləri öz torpağımıza qonaq kimi qəbul etmişik. Bu mövqe həm də siyasi vəziyyətə əsaslanır – çünki siyasi vəziyyət artıq bizim xeyrimizə işləyir və getdikcə Azərbaycanın önəmi daha da artacaqdır. Əgər Ermənistanla Azərbaycanı tərəziyə qoysaq görərik ki, hansı ölkə daha da böyük önəm kəsb edir, hansı ölkənin potensialı nədir və hansı ölkəni nələr gözləyir. Yəni siyasi proseslərin inkişafı baxımından bizim vəziyyətimiz əlverişlidir.

Məsələnin hüquqi cəhətini deməyə də ehtiyac yoxdur. Biz hamımız yaxşı bilirik ki, hüquqi cəhətdən məsələ məhz bizim mövqeyimizin əsasında həll olunmalıdır.

Yəni bütün bu amilləri nəzərə alsaq və eyni zamanda,

Azərbaycanın artan iqtisadi potensialını nəzərə alsaq görərik ki, məsələnin həlli üçün gözəl imkanlar var. Biz sadəcə, danışıqlar prosesinə sadiq qalaraq, eyni zamanda, öz işimizi, öz siyasətimizi və tədbirlərimizi davam etdirməliyik. Onlar da nədən ibarətdir: ilk növbədə, Azərbaycan güclənməlidir, Azərbaycan bütün iqtisadi, diplomatik, siyasi imkanlardan istifadə edib öz mövqelərini möhkəmləndirməlidir və Ermənistana qarşı siyasətimiz bundan sonra da çox fəal olmalıdır. Biz artıq informasiya hücumuna keçmişik. Biz iqtisadi hücuma keçməliyik və bütün beynəlxalq təşkilatlarda, bütün forumlarda, ikitərəfli formatda bu məsələ daim gündəlikdə olmalıdır. Ermənistanın işğalçı siyasətini ifşa etməliyik və bunu etməyə kifayət qədər dəlillər də, əsaslar da var.

Hərbi potensialımızı möhkəmləndirməliyik və bilirsiniz ki, mən Prezident seçiləndən sonra ilk günlərdən bu məsələ diqqət mərkəzində olmuşdur. Mən o vaxt da demişdim ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və yəqin ki, gələn il biz buna nail olacağıq. Biz bu təzyiqləri davam etdirməliyik. Əgər Ermənistan tərəfi bu təzyiqləri görməsə və bu təzyiqlərdən ehtiyatlanmasa, Azərbaycanın artan imkanlarından narahat olmasa, onlar işğal olunmuş torpaqlardan çətin ki, öz xoşları ilə çıxsınlar. Çünki bütün beynəlxalq normalara məhəl qoymayan Ermənistan, əfsuslar olsun ki, beynəlxalq təşkilatlar tərəfindən qınaq obyektinə çevrilmir. Bunun müxtəlif səbəbləri var. Siz bunların hamısını yaxşı bilirsiniz, bilirsiniz ki, bu səbəblər nədən ibarətdir. Amma bu, reallıqdır. Biz gərək bu reallığı bilək və bunun qarşısında öz reallığımızı, Azərbaycan reallıqlarını qoymalıyıq. Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olacaqdır.

Mən bunu bir dəfə demişəm, bir də demək istəyirəm ki, bəzən Azərbaycanın ordu quruculuğu prosesi kimdəsə narahatlıq doğurur. Doğurmamalıdır, bu, bizim suveren hüququmuzdur. Biz neçə ildir ki, bu işğala dözürük. Bizim ən böyük güzəştimiz sülh danışıqlarına sadiqliyimizdir. Ancaq biz bütün bu imkanlardan istifadə edib yeni vəziyyət yaratmalıyıq. Bir də demək istəyirəm ki, hərbi potensialın möhkəmlənməsi avtomatik olaraq müharibənin başlanmasına gətirib çıxarmır. Bu, ən son variantdır. Biz buna hazır olmalıyıq. Hər bir ölkə hazır olmalıdır, o cümlədən ərazisi işğal edilmiş və müharibə vəziyyətində yaşayan ölkə. Ancaq bununla bərabər, əminəm ki, biz bütün siyasi, iqtisadi, diplomatik və regional amillərdən istifadə edib Ermənistana çox güclü təzyiq edə biləcəyik. Artıq bunlar görünməkdədir.

Biz daim hücum etməliyik. İstəyimizə nail olmaq üçün hamımız bütün sahələrdə, bütün təşkilatlarda fəal olmalıyıq. İqtisadi amillərdən istifadə etməliyik və bu imkanlar getdikcə daha da artacaqdır. Bu məsələ ilə əlaqədar hökumətə tapşırıqlar verilibdir. Yəni Azərbaycan Ermənistandan yüz dəfə zəngin ölkə olandan sonra, bəlkə də, müharibə variantına heç ehtiyac qalmayacaqdır. Yəni biz bütün imkanlardan istifadə etməliyik ki, öz hüququmuzu bərpa edək. Bu, bizim hüququmuzdur. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik. Bu işdə bütün ictimaiyyət bir olmalıdır. Bu birlik bu gün var. Mən çox şadam ki, Azərbaycan cəmiyyətində bu məsələ ilə bağlı heç bir fikir ayrılığı yoxdur. Bəzi hallarda opponentlərimiz istəyirlər bizi tənqid etsinlər ki, Qarabağ məsələsi niyə həll olunmur. Ona görə həll olunmur ki, Azərbaycan bizi qane etməyən razılaşmaya heç vaxt getməyəcəkdir. Ona görə həll olunmur ki, bütün təzyiqlərə

baxmayaraq, Prezident kimi mən Azərbaycan dövlətinə, Azərbaycan xalqına sərf etməyən razılaşmaya getməyəcəyəm.

Mən demişəm, bu, elə məsələdir ki, təkcə bizim istəyimizdən asılı deyildir. Ona görə biz işləməliyik, fəal olmalıyıq. Yenə də deyirəm, bütün gücümüzü səfərbər etməliyik. Bu məsələdən başqa bizim qarşımızda ciddi məsələ yoxdur. Bu, bir nömrəli məsələdir və əlbəttə ki, biz bütün imkanlarımızı bu məsələnin həllinə yönəltməliyik, yönəldəcəyik və hamı bunu bilməlidir. Biz bu məsələnin həllinə çalışırıq, ədalətli həllinə çalışırıq və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Mən buna şübhə etmirəm.

Biz bununla bərabər, məsələnin həlli işində beynəlxalq təşkilatlarla əməkdaşlığımızı davam etdirmək niyyətindəyik. Minsk qrupunun həmsədrləri bu gün yenidən Bakıya gəlmişlər. Biz Minsk qrupunun formatından imtina etmək fikrində deyilik. Eyni zamanda, hesab edirik ki, başqa təşkilatların da iştirakı bu məsələnin həllinə kömək göstərə bilər. Düzdür, Ermənistan tərəfi çalışır ki, BMT-də məsələnin müzakirəyə çıxarılmasını əsas tutub danışıqları pozsun. Ancaq bu, onların öz işidir, onlar danışıqları poza bilərlər. Əgər bəhanə axtarırlarsa, bu bəhanəni tapmaq çətin deyildir. Azərbaycan özünü konstruktiv aparır, danışıqlarda iştirak edir və ümid edir ki, danışıqlar nəticəsində məsələ öz həllini tapa bilər.

Əziz dostlar, bir daha demək istəyirəm ki, ölkəmizin gələcək inkişafını mən çox açıq və parlaq görürəm. Azərbaycan hansı ölkəyə çevriləcək, beş ildən, on ildən, iyirmi ildən sonra Azərbaycanın mövqeləri necə olacaq, Azərbaycanın iqtisadi potensialı necə olacaq, insanların həyat səviyyəsi necə olacaq – bütün bunlar bizi düşündürür. Çünki biz ölkəmizin gələcəyi üçün, Azərbaycanın hərtərəfli inkişafı üçün işləyirik.

Hamımız istəyirik ki, ölkəmiz müasir, zəngin, qüdrətli dövlətə çevrilsin. Azərbaycanda insanlar yaxşı yaşasınlar, zəngin olsunlar, iqtisadiyyatımız güclü olsun, siyasi imicimiz güclü olsun, bölgədə gedən proseslərə təsir imkanlarımız daha da artsın. Biz bunu istəyirik. Yəqin ki, hər bir ölkə bunu istəyir. Amma istəmək və bunu etmək başqa-başqa məsələlərdir. Bunu etmək üçün, arzularımızı həyata keçirmək üçün bizim imkanlarımız var.

Deyə bilərəm ki, indi bizim qarşımızda nadir imkanlar var. Sabah, ondan sonrakı illərdə Azərbaycan necə olacaq – bu, bizdən asılıdır. Elə etməliyik ki, güclü dövlət yaradaq, müstəqilliyimizi daha da möhkəmləndirək. Azərbaycanın potensialını tam şəkildə insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldək və beləliklə, ölkəmizdə vətəndaş cəmiyyəti yaradaq. Azad cəmiyyət, hüquqi dövlət, qanunun aliliyi, güclü iqtisadiyyat, güclü ordu, çevik xarici siyasət və Azərbaycanın maraqlarının tam şəkildə qorunması və möhkəmlənməsi – bu, bizim qarşımızda duran əsas qlobal istiqamətlərdir. Bütün istiqamət üzrə bizim proqramımız var. Hər bir istiqamət üzrə bizim baxışlarımız var, bilirik ki, nə istəyirik, haraya gedirik və təxminən bilirik ki, bunun nəticəsi nə olacaqdır. Nəticədə isə güclü ölkə olacaq, güclü Azərbaycan olacaq və Azərbaycan xalqı bundan sonra daha da yaxşı yaşayacaqdır. Bütün bu məqsədlərimizə çatmaq üçün biz gərək səmərəli işləyək.

Milli Məclisin yeni təmir olunmuş binasında səmərəli işləmək üçün çox böyük imkanlar var. Mən bu gün səhər buraya gələrkən əvvəlki vəziyyəti xatırlayırdım və əlbəttə, siz də bunu görürsünüz ki, çox böyük fərq var. Hətta dedim ki, kaş mən burada işlədiyim dövrdə də belə bir təmir olaydı, amma eybi yoxdur, yəqin ki, bundan sonra tez-tez görüşəcəyik. Mən sizə uğurlar arzulayıram. Bir daha demək istəyirəm, çox

şadam ki, Milli Məclisin deputatları öz işlərinə çox böyük məsuliyyətlə yanaşırlar. Seçicilərlə daim təmasdadırlar. Azərbaycanda mütərəqqi qanunların qəbul olunmasında fəal iştirak edirlər. Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edirlər və beləliklə, Milli Məclisin rolu, nüfuzu artır. Cəmiyyət də bunu görür və buna təqdirlə yanaşır. Mən də bunu görürəm. Mən də buna sevinirəm və bu kürsüdən sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, biz gələcəkdə də birlikdə işləyəcəyik, ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik. Sağ olun.

Bakı şəhəri, 2 oktyabr 2006-cı il.

HEYDƏR ƏLİYEV MÜASİR AZƏRBAYCAN PARLAMENTİNİN BANİSİDİR

"XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Azərbaycan xalqı öz müstəqil dövlətinin Konstitusiyasını qəbul etmiş, qanunvericiliyini, hakimiyyətin bölünmə prinsiplərini, hüquq normalarını dünya standartlarına uyğunlaşdıraraq digər dövlətlərlə hərtərəfli əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir".

Heydər ƏLİYEV

II

Azərbaycan üçün yaşanan ömür

"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub".

Heydər ƏLİYEV

Mübarizələrlə dolu şanlı tarixə malik Azərbaycan xalqının dövlətçiliyinin inkişafında ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti müstəsna yer tutur. Zəngin milli-mənəvi və bəşəri dəyərləri, dövlətçilik və azərbaycançılıq ideyalarını özündə ehtiva edən Heydər Əliyev irsinin öyrənilməsi, onun həyat fəlsəfəsinin təbliği və gənc nəslə aşılanması ümdə vəzifələrdəndir. Heç də təsadüfi deyildir ki, milli tariximizin Heydər Əliyev dövrü Vətənimizin və xalqımızın inkişafında keyfiyyətcə yeni bir eranın başlanğıcı kimi dəyərləndirilir.

Heydər Əliyev böyük liderlik istedadına, dərin zəkaya malik, uzaqgörən, qətiyyətli siyasətçi olduğunu hələ ölkəyə ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə sübut etmişdir. Həmin illərdə Azərbaycanda dövlət quruculuğunda, iqtisadiyyatın, elmin, mədəniyyətin, bir sözlə həyatın müxtəlif sahələrində böyük nailiyyətlər qazanıldı, coşqun bir tərəqqi dövrü yaşandı. Məhz bu illərdə milli və mənəvi dəyərlərin qorunub saxlanılmasında, dövlətçilik, o cümlədən parlamentarizm ənənələrinin inkişafı istiqamətində əməli addımlar atıldı, xalqın intellektual keyfiyyətlərinin meydana çıxması üçün əsaslı zəmin yaradıldı. Bu dövrdə həyata keçirilən məqsədyönlü siyasət sayəsində sonradan xalqın milli oyanışı və müstəqillik ideyalarının gerçəkləşməsi üçün əlverişli şərait formalaşdı. Sonralar – 80-ci illərin sonunda isə SSRİ adlı böyük bir məkanda baş verən ictimai-siyasi proseslər və xalqımızın

azadlıq mücadiləsi nəticəsində doğma Azərbaycanımız tezliklə öz dövlət müstəqilliyinə qovuşdu.

Müstəqilliyin ilk illərində ölkəmiz həlli çətin görünən problemlərlə üzləşdi. Azərbaycan ötən əsrin əvvəllərində mövcud olmuş Xalq Cümhuriyyətinin aqibətini yaşamağa çox yaxın idi. Ancaq xalqımızın xoşbəxtliyi onda idi ki, bu dövrdə onun Heydər Əliyev kimi sınanmış lideri var idi və bu ölüm-dirim savaşında o, artıq tək deyildi.

Milli tariximizin belə bir sınaq dönəmində bütün təhlükələrə və təlatümlərə rəğmən Heydər Əliyevin yenilməz iradəsi, hünəri və fədakarlığı sayəsində müstəqillik yollarında ilk kövrək addımlarını atmaqda olan Azərbaycan labüd fəlakətdən qurtuldu. Heydər Əliyevin böyük tarixi xidmətləri sayəsində xalqımız XX əsrin sonunda yenidən əldə etdiyi dövlət müstəqilliyini qoruyub saxlamaq, onu "dönməz və əbədi etmək" iqtidarında olduğunu bütün dünyaya nümayiş etdirdi. Məhz onun məqsədyönlü, müdrik siyasəti nəticəsində Azərbaycan ardıcıl inkişaf yoluna çıxdı, dünya birliyində öz layiqli yerini tutdu, regionun lider dövlətinə çevrildi. Heydər Əliyev özünün şah əsəri olan bugünkü Azərbaycan dövlətini yaradıb gələcək nəsillərə ərməğan etdi.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında" 11 mart 2008-ci il tarixli Fərmanında deyilir: ***"Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi ilə bağlı proseslərin müvəffəqiyyətli həlli şəxsən Heydər Əliyevin xidmətidir".***

Heydər Əliyev Azərbaycan xalqının müstəqillik mübarizəsindəki misilsiz xidmətləri ilə hələ sağlığında ikən canlı əfsanəyə çevrilmiş, bütün dünya azərbaycanlılarının qəlbində əbədi yaşamaq haqqı qazanmışdı. O, sözün həqiqi mənasında Vətənin Böyük oğlu, zamanın fövqündə dayanan bənzərsiz dövlət xadimi, müstəqil Azərbaycanın qurucusu və memarı kimi dövlətçilik ənənələrimizi inkişaf etdirərək onu daha da zənginləşdirdi. Heç də təsadüfi deyildir ki, Azərbaycanın bəşər tarixinə bəxş etdiyi bu nadir düha öz müdrikliyi, titanik fəaliyyəti ilə dövrünün ən qüdrətli siyasətçiləri ilə bir sırada dayanır. O, təkcə azərbaycanlıların deyil, bütün türk dünyasının görkəmli şəxsiyyətlərindən hesab olunur.

Xalqımızın XX əsrin sonunda və üçüncü minilliyin əvvəlində həyatın ən müxtəlif sahələrində əldə etdiyi nailiyyətlər məhz bütün şüurlu ömrünü Vətənə xidmətə həsr edən ulu öndər Heydər Əliyevin şərəfli adı ilə bağlıdır. Onun 2003-cü ilin oktyabrında xalqımıza ünvanladığı müraciətdə deyilirdi: ***"...bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".***

Heydər Əliyev milli lider kimi yeni demokratik, hüquqi dövlət quruculuğu və idarəetmə fəlsəfəsini formalaşdıraraq dövlətimizin hərtərəfli inkişaf istiqamətlərini müəyyən etdi. Bu tarixi şəxsiyyətin əsasını qoyduğu inkişaf strategiyası və onun milli məfkurəsi hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsinə, iqtisadi qüdrətinin artmasına xidmət edəcək.

Bu gün Heydər Əliyevin bizə ərməğan etdiyi müstəqil Azərbaycanın həyatın ən müxtəlif sahələrindəki uğurları hər bir ölkə vətəndaşının qəlbini qürur hissi ilə doldurur. Bu, bütün dünya azərbaycanlılarının, ulu öndərimizin və onun siyasi varisi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurudur!

Azərbaycan parlamenti sovet dövründə

Heydər Əliyev bugünkü Azərbaycan dövlətinin qurucusu olmaqla yanaşı, həm də haqlı olaraq müasir Azərbaycan parlamentinin banisi sayılır. Sovet dövründə digər sosialist respublikalarında olduğu kimi Azərbaycanda da parlamentin qəbul etdiyi qanun və qərarlar Kommunist Partiyasının siyasi, iqtisadi və ideoloji məqsədlərini həyata keçirməyə xidmət edirdi.

XX əsrin 50-60-cı illərində Azərbaycan SSR-də milli-mənəvi dirçəliş istiqamətində bir sıra ehtiyatlı addımlar atılsa da bu sahədə məqsədyönlü iş Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçildiyi vaxtdan başlandı. Bu dövrdə Azərbaycan iqtisadiyyatında cəmiyyəti narahat edən tənəzzül prosesləri açıq şəkildə müşahidə olunurdu. 1969-cu il iyulun 14-də yeni gənc liderin Azərbaycana rəhbər seçilməsi onun yüksək şəxsi keyfiyyətləri, yurdunun problemlərini dərindən bilməsi ictimaiyyətdə gələcəyə böyük ümidlər yaratdı. Hadisələrin sonrakı gedişi bu ümidlərin əsaslı olduğunu bir daha təsdiqlədi. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 mart 2008-ci il tarixli sərəncamında belə deyilir:

"1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən etibarən respublikamızın həyatında geniş vüsət alan ictimai-

siyasi proseslər və iqtisadi islahatlar müsbətə doğru radikal dəyişikliklərə təkan vermişdir. ...O illərdə Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərkin güclənməsinə imkan verən sürətli inkişaf strategiyası təşkil etmişdir.

Heydər Əliyev həmin dövrdə özünün dövlət idarəçiliyi strateji proqramında mədəni və mənəvi intibahı həmişə iqtisadiyyatda və sənayedəki uğurlarla əlaqələndirərək, vahid məcrada həyata keçirmişdir. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir".

Azərbaycan SSR-in rəhbəri kimi Heydər Əliyev ilk gündən uzaqgörənliklə bütün dövlət hakimiyyəti orqanlarının, o cümlədən parlamentin işini xalqın iqtisadi və sosial-mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin reallaşmasına yönəltdi. O, mahir siyasətçi kimi Ali qanunvericilik orqanının mövcud imkanlarından bacarıqla istifadə edərək milli oyanışın və gələcək müstəqilliyin möhkəm təməlini qoydu.

O dövrdə Heydər Əliyev Azərbaycan SSR-də partiya lideri olmaqla yanaşı, həm də SSRİ Ali Sovetinin (VIII-X çağırışlar) deputatı, yuxarı palatanın – İttifaq Sovetinin sədr müavini (IX çağırış), habelə Azərbaycan SSR Ali Sovetinin (VII-X çağırışlar) deputatı və Rəyasət Heyətinin üzvü kimi fəaliyyət göstərirdi. Onun təşəbbüsü ilə SSRİ rəhbərliyi Azərbaycanın iqtisadi inkişafı üçün mühüm əhəmiyyətli beş qərar qəbul etdi. İttifaq Fondundan bu məqsədlə Azərbaycana külli miqdarda vəsait ayrıldı.

Heydər Əliyevin yeritdiyi kadr siyasəti bütün sahələrdə olduğu kimi, qanunvericilik orqanına da ən bacarıqlı və layiqli adamların seçilməsi üçün şərait yaratdı. Ali Sovetin işində böyük dönüş yarandı, parlamentdə ölkə həyatının müxtəlif

sahələrini əhatə edən yeni daimi komissiyalar fəaliyyətə başladı. Azərbaycanın iqtisadi, mədəni və elmi inkişafı üçün hüquqi baza yaradıldı, bu sahələr üzrə onlarla qanun və qərarlar qəbul edildi. Heydər Əliyev bu dövrdə respublikada qanunçuluğun möhkəmləndirilməsi istiqamətində də mühüm tədbirlərin təşəbbüskarı kimi çıxış edirdi.

1970-ci illərdə və 1980-ci illərin əvvəllərində Azərbaycanın Mülki, Mülki-Prosessual, Cinayət-Prosessual məcəllələrinə əlavələr və dəyişikliklər edildi. Azərbaycan SSR-in məhkəmə quruluşu, Səhiyyə, Dövlət Notariatı, Xalq Təhsili, Tarixi və mədəniyyət abidələrinin qorunması, Nazirlər Soveti, Xalq Deputatları Sovetləri haqqında, Torpaq və Əmək haqqında qanunlar, İnzibati hüquq pozuntuları haqqında, Ailə və Nigah haqqında məcəllələr qəbul edildi.

Sovet dövründə Azərbaycanın Ali qanunvericilik orqanı hakimiyyət strukturunda tutduğu mövqeyə, səlahiyyətlərinə görə müxtəlif mərhələlərdən keçmişdir.

1937-ci ildə qəbul olunmuş yeni Konstitusiyaya əsasən parlament Ali Sovet adlandırıldı. Onun formalaşmasında müəyyən dəyişikliklər edildi. Lakin sovet ideologiyasının hökmranlığı, repressiyanın misilsiz vüsəti insanları daim qorxu altında saxlayır, dəyişikliyin mahiyyətini əhəmiyyətli dərəcədə azaldırdı. Məhz buna görə bu dövrdə parlamentə seçilmiş deputatlar 1937-38-ci və sonrakı illərdə mütərəqqi fikirli ziyalıların məhv edilməsinə, torpaqların hissə-hissə Ermənistana verilməsinə etiraz edə bilmədilər. Bunun nəticəsi kimi, yuxarıların təzyiqi ilə Azərbaycan SSR Ali Soveti 1938-ci il mayın 7-də Laçın, Qubadlı, Kəlbəcər və Qazax bölgələrindən 2 min hektar torpaq sahəsinin Ermənistana verilməsi haqqında protokolu təsdiq etdi. Bir müddət sonra Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də parlamentin 1938-ci ildə qəbul etdiyi bu bədnam



























И
Ф





qərarı yenidən təsdiq etdi. Lakin az sonra hakimiyyətə gəlmiş Heydər Əliyev bu qərarın icrasının qarşısını aldı. Bu, o dövrdə görünməmiş cəsarət nümunəsi idi. Sonralar SSRİ-nin yeni Konstitusiyası hazırlanarkən məhz onun qətiyyəti nəticəsində Dağlıq Qarabağın statusuna yenidən baxılmadı.

Təəssüflər olsun ki, 80-ci illərin sonunda Azərbaycanın o vaxtkı rəhbərliyi, o cümlədən parlamenti SSRİ-nin süqutu ilə bağlı baş verən prosesləri düzgün qiymətləndirib vahid milli platforma yaratmaq əvəzinə bağışlanmaz passivlik və laqeydlik göstərdi. Erməni separatizmini müdafiə edən SSRİ rəhbərliyinin Azərbaycanın suveren hüquqlarını açıq-aşkar pozan qərarlarına ("1988-1995-ci illərdə Azərbaycan SSR DQMV-nin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1988-ci il 24 mart tarixli və "Azərbaycan SSR-in DQMV-də Xüsusi İdarəçilik formasının tətbiqi haqqında" SSRİ Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 12 fevral tarixli qərarları) qarşı Azərbaycan SSR-in rəhbərliyi, eləcə də SSRİ-nin Ali qanunvericilik orqanındakı azərbaycanlı deputatlar etiraz edə bilmədilər. Əksinə, Azərbaycan parlamenti bu qərarları yüksək qiymətləndirmişdi. Belə mövqe xalqla Azərbaycan SSR-in rəhbərliyi və parlamenti arasında dərin uçurum yaratmışdı.

Ötən əsrin 90-cı illərinin əvvəllərində isə atdığı səhv addımlar nəticəsində parlament xalqın dəstəyindən, demək olar ki, tamamilə məhrum olmuş, iqtidarın əlində oyuncaq mexanizmə çevrilmişdi. Parlamentin binasını mühasirəyə almış xalq kütlələrinə məhəl qoymayan iqtidar öz siyasi iradəsini diqtə etməyə çalışırdı. Vəziyyət getdikcə gərginləşirdi. Belə bir vaxtda iqtidarla müxalifət arasında sövdələşmənin nəticəsi olaraq Azərbaycan Ali Sovetinin səlahiyyətləri bərabərlik əsasında formalaşdırılmış 50 nəfərlik Milli Şuraya verildi. Qalan deputatların hüquqları isə kobudcasına tapdandı.

Ali Sovetin qeyri-demokratik tədbirləri təkcə bununla bitmirdi. Parlamentdə Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin siyasi fəaliyyətinin məhdudlaşdırılmasına yönəldilmiş qərarlar qəbul olunurdu. Belə ki, Naxçıvan MR parlamenti sədrinin Azərbaycan parlamenti sədrinin müavini olması qaydası ləğv edildi. Prezidentin seçilməsi üçün yaş senzi müəyyənləşdirildi və s. Təəssüf ki, sonralar AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə də Azərbaycan parlamenti öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirə bilmədi.

Dilimiz milli sərvətimizdir

"Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir".
Heydər ƏLİYEV

Sovet dövründə Heydər Əliyev Azərbaycanın rəhbəri kimi parlamentin gücündən məharətlə istifadə edərək xalqın milli-mənəvi sərvətlərinin qorunub saxlanması və inkişafı üçün hüquqi bazanı addım-addım genişləndirirdi.

Tarixən hər bir xalqın dilinin, dövlətçilik ənənələrinin inkişafı dövlət başçılarının, böyük siyasi liderlərin adı ilə sıx bağlı olmuşdur. Türk dünyasının görkəmli simalarından sayılan Şah İsmayıl Xətainin, Mustafa Kamal Atatürkün milli dil siyasəti buna parlaq misaldır. Bu böyük şəxsiyyətlərin öz xalqları üçün gördükləri işi müasir mərhələdə Heydər Əliyev Azərbaycan xalqı və dövləti üçün etmişdir.

O, Azərbaycana rəhbərlik etməyə başladığı andan mədəniyyətimizə və mənəviyyatımıza dərindən bağlılığını dönə-dönə sübut etmiş, öz siyasi təcrübəsi, yüksək intellekti ilə milli dilin inkişafı istiqamətində məqsədyönlü iş aparmış

və bu siyasəti bütün çətinliklərə baxmayaraq, dönmədən həyata keçirmişdir. Bu dövrdə Heydər Əliyev yaradıcı təşkilatların qurultaylarında, yubiley tədbirlərində Azərbaycan dilində sərrast və gözəl danışmaq nümunəsi göstərməklə geniş ictimaiyyətin diqqətini ana dilimizin inkişafına yönəldirdi.

Heydər Əliyev dilimizin qorunub saxlanmasını və inkişafını çox önəmli hesab edirdi. O, deyirdi: ***"Biz öz əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki, ən çətin vaxtlarda da dilimiz itməyib, yaşayıb. Onu xalq yaşadıbdır, eyni zamanda onu xalqımızın böyük şəxsiyyətləri yaşadıblar".***

Sovet dövründə Heydər Əliyevin xalqı qarşısında göstərdiyi ən böyük xidmətlərdən biri Azərbaycan dilinə dövlət dili statusu verilməsi idi. Belə ki, IX çağırış Azərbaycan SSR Ali Sovetinin VII növbədənkənar sessiyasında, 1978-ci il aprelin 21-də Azərbaycanın yeni Konstitusiyası qəbul edildi. Yeni Konstitusiyada Vətənimiz üçün ən əhəmiyyətli məsələ Azərbaycan dilinin dövlət dili elan olunması haqqında 73-cü maddənin qəbulu idi.

O vaxtlar Sovet ideologiyası insanların yeni tarixi birliyi olan "sovet xalqının" yaranmasını bəyan etmişdi. Bununla əlaqədar SSRİ məkanında rus dili hökmran dil kimi təbliğ edilirdi. Belə bir şəraitdə, yalnız Heydər Əliyevin yenilməz iradəsi sayəsində 73-cü maddənin qəbulu mümkün olmuşdu. Sənədin layihəsi Moskvada bir neçə dəfə çox çətin müzakirələrdən keçdikdən sonra Heydər Əliyev Sovetlər İtifaqının o dövrkü rəhbərliyini bu müddəanın saxlanmasına inandıra bilmişdi.

Bu haqda Heydər Əliyev müstəqil Azərbaycanın yeni Konstitusiya layihəsinin "Dövlət dili haqqında" maddəsinin geniş müzakirəsinə həsr olunmuş 31 oktyabr 1995-ci il tarixli iclasında belə demişdir:

"O vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz Konstitusiyamıza yazmalıyıq və yazacağıq.

Moskvada bir neçə dəfə müzakirələr oldu. Cürbəcür fikirlər səsləndi və həmin fikirlərin əksəriyyəti ondan ibarət idi ki, belə olmamalıdır. Ancaq biz buna nail olduq və 1978-ci ildə, səhv etmiramsə, aprel ayında biz Konstitusiyanı qəbul etdik. Həmin Konstitusiyada yazıldı ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir. Xatirimdədir, o vaxt başqa respublikaların rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukraynanın rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım xatirimdədir. O buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız halda gərək onda biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, sizə heç kəs mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında Sizin xüsusi çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz bunu yaza bilərsiniz. Ancaq siz nə üçün bizə mane olursunuz? Mübahisəmiz çox gərgin oldu...

Ancaq biz buna nail olduq. Hesab edirəm ki, bu o dövrdə, o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində çox böyük hadisə oldu".

Heydər Əliyevin 70-ci illərdə yürütdüyü fəal dil siyasəti Azərbaycanda milli özünəqayıdış, milli özünüdərk proseslərini sürətləndirdi, azadlıq və müstəqillik ideyalarının şüurlara hakim kəsilməsində mühüm rol oynadı.

Heydər Əliyev dil məsələsinə həmişə böyük həssaslıqla yanaşmış və bu məsələdə düşünülməmiş, tələsik qərarlar verilməsinin əleyhinə olmuşdur. Sonralar o, Naxçıvana rəhbərlik etdiyi dövrdə dil məsələsi yenə gündəmə gəlmiş və Muxtar Respublikanın Ali Məclisində müzakirələr aparılmışdır. (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının stenoqramından, 24 noyabr 1990-cı il):

*"**Deputat H.Əliyev** – Mən belə hesab edirəm ki, bu məsələnin (Naxçıvan MR Konstitusiyasına əlavə və dəyişikliklərin müzakirəsi zamanı toxunulan dövlət dili məsələsi nəzərdə tutulur) belə geniş müzakirə olunması mənfəətlidir. Qoy heç kəs fikirləşməsin ki, burada biz qəbahət edirik. Bu, müzakirə olunmalıdır. Və burada gedən fikir mübadiləsi hər bir adamda bu məsələyə daha geniş yanaşmağa imkan yaradır. Ona görə mən belə hesab edirəm ki, gələcəkdə də belə mühüm məsələlər geniş müzakirə şəraitində keçsə, biz çox nailiyyətlərə gəlib çıxa bilərik. Və ən nəhayət bu – türk dili məsələsi. Mən hesab edirəm ki, məsələnin qoyuluşu düzgündür. Və məsələni qoyan yoldaşlara irad tutmaq ədalətsiz olardı. Ancaq bu məsələni indi həll etmək istəyiriksə, bu çətin olar. Burada çıxış edən deputatların bəziləri dedi ki, biz 38-ci ilə qədər türk olmuşuq, türk yazılmışıq. 38-ci ildə çoxunuz olmamısınız. Amma mən olmuşam. Özü də o vaxt milliyyətim də, yadımdadır – burada o vaxt pedaqoji texnikumda oxuyurdum, türk yazılmışdı. 38-ci ildən sonra biz olduq azərbaycanlı.*

Ancaq bir şeyi də tarixlə maraqlanan yoldaşlar bilməlidirlər ki, təəssüf ki, elə bizim əsrin lap birinci onilliklərini götürsək, o vaxtın ədəbiyyatlarına, tarixi məqalələrə baxsaq, bizim çox məşhur adamlarımız bizim millətə türk deməyiblər, müsəlmanlar deyiblər. Müsəlman milləti yoxdur axı. Elə götürün N.Nərimanovun 22-ci illərdə olan yazılarına baxın. Orada müsəlman deyir bizə. O deyir: – ruslar, ermənilər, müsəlmanlar. Yaxud da ki, inqilabdan qabaqkı yazılara baxın – müsəlman deyirlər. Bunu niyə çatdırmaq istəyirəm. Bizim ümumi bədbəxtliyimiz ondan ibarətdir ki, bizim bu millətin adı uzun müddət tam müəyyən olunmayıb. Məsələn, Lenin əsərlərində "Qafqaz tatarları" işlədir, yaxud da bəzi yerlərdə "tatarlar" yazır. Əgər o vaxtlar biz özümüzün milliyyətimiz barədə türk yazsaydıq, elə türk deyəcəkdilər də. Bəs, nə üçün belə yazmırlar? Çünki, biz özümüz-özümüzü qarışdırmışıq.

Ancaq bunlara baxmayaraq mən də hesab edirəm ki, biz türkük. Mən öz fikrimi demək istəyirəm. Ancaq indi gətirib biz tələm-tələsik bu Konstitusiyaya dəyişiklikdə yazaq ki, Naxçıvan Muxtar Respublikasının dövlət dili türk dilidir, bu mənə elə gəlir ki, tələsiklik olar. Gəlin bunu bir də etiraf edək ki, milli dirçəliş, milli ənənələrin bərpa olunması, milli inkişaf sahəsində bu günlərdə çox mühüm qərarlar qəbul etmişik. Gəlin, bir az səbr edək ki, bizim bu qərarlar həzm olunsun.

Bu gün Litvadan gələn müxbirlərdən birinci onu soruşdum ki, nə üçün bura gəlibsiniz? Deyir gəldik, bir gün Bakıda olduq, sonra Naxçıvana gəldik. Deyirəm nə üçün bura gəlmisiniz, məndən nə istəyirsiniz, nə olub ki? Cavab verir ki, bilirsiniz indi Azərbaycanda ən böyük dəyişikliklər Naxçıvanda gedir. Bunu biz eşitmişik, ona görə də Naxçıvana gəlmişik.

Demək istəyirəm ki, biz onsuz da böyük dəyişikliklər eləmişik. İndi gəlin çalışaq ki, bu, Azərbaycanda həzm olunsun. Tələsməyək. İkinci tərəfdən, biz Muxtar Respublikanın adını dəyişdirə bilərdik – "Naxçıvan Muxtar Respublikası" etdik. Ali Məclisin adını dəyişdirdik. Naxçıvan Muxtar Respublikasının bayrağını da qəbul etdik. Amma bu dil bizim bütöv, ümumi dildir, bütün Azərbaycana aiddir. Biz burada gərək separat hərəkət eləməyək.

Ona görə mən belə hesab edirəm ki, müzakirələr tamamilə əhəmiyyətli hesab edilsin. Ancaq burada olan maddə elə belə də qalsın. Gələcəkdə bunu həll edəcəyik".

Təəssüf ki, müstəqilliyin ilk illərində ölkəyə rəhbərlik edən psevdodemokratlar "Azərbaycan dili" ifadəsini "türk dili" ifadəsi ilə əvəz etməyə düşünülməmiş cəhdlər göstərdilər və 1992-ci ilin dekabrında bu məsələ Milli Məclisdə müzakirə olunaraq tələsik qərar qəbul edildi.

Məsələnin bu cür qoyuluşu təbii ki, çoxmillətli Azərbaycanın ictimai-siyasi həyatında heç də birmənalı qarşılan-

madı. Ancaq tale elə gətirmişdir ki, müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsi hazırlanan ərəfədə "Azərbaycan dili" məsələsi yenidən gündəmə gəldi. Bu dövrdə məhz Heydər Əliyev məntiqi, uzaqgörənliyi sayəsində ölkəmizin dövlət dilinin Azərbaycan dili olması haqqında müddəa yeni Konstitusiyada öz əksini tapdı.

Heydər Əliyev olduqca həssas olan bu məsələni daim diqqət mərkəzində saxlayırdı. Onun milli ideologiyasının ən mühüm istiqamətlərindən və komponentlərindən biri də milli dəyərlər, adət-ənənə ilə yanaşı, məhz dil məsələsi idi. O, milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən hesab edirdi. Heydər Əliyev dilin inkişafını azərbaycançılıq ideyasının tərkib hissəsi kimi qəbul edir və Azərbaycan dilinin ölkə miqyasında bütün fəaliyyət sahələrində mövqeyinin möhkəmləndirilməsinə ciddi diqqət yetirirdi.

Onun "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmanında xalqın milli sərvəti olan dilin inkişafına dövlət qayğısının artırılması, onun dərindən öyrənilməsi, cəmiyyətdə tətbiq dairəsinin genişləndirilməsi və bu işə nəzarətin gücləndirilməsi əsas vəzifə kimi qarşıya qoyuldu. Sənəddə Azərbaycan dilinin xalqımız üçün ən mühüm milli dəyər olduğu vurğulanır və ona yüksək qiymət verilir:

"Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. ...Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır.

Azərbaycan dilinin dünya dilləri arasında ən kamil dillərdən biri olduğu həqiqətini bir çox xalqların görkəmli nümayəndələri də dönə-dönə etiraf etmişlər. Onlar öz

əsərlərində bu dili XIX əsrdə Avropada geniş yayılmış fransız dili ilə müqayisə edərək, onu Avrasiyanın hər tərəfində işlənilən bir dil kimi yüksək qiymətləndirmişlər. Milyonlarla azərbaycanlının hazırda mədəni inkişaf vasitəsi olan bu dil tarixən nəinki Qafqazda yayılmışdır, hətta müəyyən dövrlərdə daha geniş məkanda müxtəlif dilli xalqların da istifadə elədikləri ümumi bir dil olmuşdur".

2001-ci il avqust ayının 9-da ulu öndərimiz "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" daha bir fərman imzaladı və həmin fərmana müvafiq olaraq ölkəmiz kiril əlifbası ilə əbədi vidalaşıb latın qrafikalı yeni bir əlifba dünyasına qədəm qoydu. Bununla da ulu öndər uzun illərdən sonra bu əlifbanı yenidən xalqımıza qaytarmaqla tarixi ədaləti bərpa etdi. Milli Məclis 4 yanvar 2003-cü il tarixdə "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun qəbul etdi. Bu qanunun müddəalarına əsasən dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, dövlət qurumlarının keçirdiyi bütün rəsmi mərasimlər və tədbirlər Azərbaycan Respublikasının dövlət dilində aparılır.

Ümummilli liderimizin ana dilimizin inkişafı istiqamətində gördükləri işi bu gün ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirir. Milli ensiklopediyamızın, dünya klassiklərinin, həmçinin xalqımızın ən görkəmli şair və yazıçılarının, məşhur elm xadimlərinin əsərlərinin latın qrafikalı Azərbaycan əlifbası ilə kütləvi nəşrini nəzərdə tutan 2004-cü il 12 yanvar tarixli sərəncam buna parlaq misaldır. Bu sənəd ölkə başçısının dövlət atributlarına, qədim tariximizə, zəngin adət və ənənələrimizə, milli soykökümüzə, elm və mədəniyyətimizə necə qayğı və həssaslıqla yanaşdığının əyani təzahürüdür. ***"Azərbaycanın milli ruhunun yüksəlişinə təkan verən ən ali şərtlərdən biri də ana dilində təhsilin meridianlarının daha da genişləndirilməsidir"*** deyən ölkə başçısı bu istiqamətdə məqsədyönlü siyasət yeridir.

Tənəzzüldən tərəqqiyə

Ötən əsrin 70-ci illəri və 80-ci illərin əvvəli Azərbaycanın müasir tarixində keyfiyyətcə yeni bir mərhələ oldu. Bu dövrədək iqtisadiyyatdakı tənəzzül prosesləri sosial sahədə özünü daha qabarıq büruzə verir, əhalidə ruh düşkünlüyü yaradırdı. Azərbaycanın potensialından xalqın rifah halını yüksəltmək, onda özünəinamı bərpa etmək üçün enerjili və qətiyyətli bir liderə ehtiyac duyulurdu. Belə bir şəraitdə Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyə gəlməsi bu ümidləri doğrultdu. O, hakimiyyətin mühüm qollarından biri kimi parlamentlə iş birliyi quraraq ölkə qarşısındakı problemlərin həlli istiqamətində əməli addımlar atdı.

Bu dövrdə Azərbaycan parlamenti Heydər Əliyevin rəhbərliyi ilə respublikada aparılan böyük quruculuq işlərinin hüquqi bazasının yaradılmasına mühüm töhfələr verdi. Ali qanunvericilik orqanının işindəki bu canlanma Heydər Əliyev şəxsiyyəti, onun idarəçilik istedadı ilə sıx bağlı idi. Ümumiyyətlə, 1970-1985-ci illər yeni Azərbaycan tarixinə quruculuq illəri kimi daxil oldu. Ölkə həyatında baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan köklü struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının yüksəlməsinə görə IX, X və XI beşilliklər Azərbaycanın hərtərəfli tərəqqisində mühüm mərhələ olmuşdur. Məhz 70-80-ci illərdə Azərbaycanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlər gələcəkdə siyasi müstəqilliyə aparan yolda çox əhəmiyyətli rol oynadı.

Bu dövrdə Azərbaycan iqtisadiyyatında böyük bir canlanma baş verdi. Yüzlərlə zavod və fabriklər inşa edildi, yeni istehsalat sahələri yarandı. Neft və neft avadanlıqları, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil hissələri, mineral gübrələr, çini-saxsı qablar, xalça və xalçaçılıq

məmulatları istehsalı üzrə Azərbaycan keşmiş SSRİ-də ön sıraya çıxdı.

Ölkənin iqtisadi həyatında önəmli rol oynayan Bakı kondisionerləri zavodu, "Ozon" Elm-İstehsalat Birliyi, Elektron hesablayıcı maşınlar zavodu, Dərin özüllər zavodu, Azərbaycan DRES-i, Sumqayıt kompressor zavodu, Üst trikotaj fabriki, Bakı tikiş və ayaqqabı fabrikləri, Gəncə əlvan metallar emalı zavodu, Naxçıvan şüşə qablar zavodu, Əli Bayramlı məişət cihazları zavodu və s. yüzlərlə digər iri sənaye obyektləri 70-ci illərdə Heydər Əliyev iqtisadi siyasətinin diqqətəlayiq bəhrələridir. Həmin dövrdə bir çox zavod və fabriklər, demək olar ki, tamamilə yenidən qurulmuşdur.

Astara və Lənkəranda çay fabriklərinin, Bakıda şampan zavodunun, Kəlbəcərdə "İstisu" mineral su zavodunun, Sumqayıtda ipəyirmə, Yevlaxda yunun ilkin emalı fabriklərinin işə salınması Azərbaycanın xammal bazasından müasir texnologiya əsasında hazır məhsul istehsal və ixrac edən respublikaya çevrilməsi istiqamətində uğurlu addımlar idi.

Azərbaycanda ənənəvi təsərrüfat sahələrinin – aqrar bölmənin sürətlə yüksəlişi, 70-80-ci illərin iqtisadi strategiyasının mühüm tərkib hissəsi idi. Yurdumuza böyük gəlir vermək imkanlarına malik olan pambıqçılıq, üzümçülük, bağçılıq-bostançılıq sürətlə inkişaf etməyə başladı.

Bu illər ərzində Azərbaycanda geniş meliorasiya və irriqasiya işləri həyata keçirildi. Tərtərçay, Arpaçay, Ağstafaçay, Xanbulançay və s. dəryaçalar istifadəyə verildi.

Ölkədə yeni texnologiyaya əsaslanan 30-a qədər iri quşçuluq kompleksləri və fabriklər işə salındı.

Qısa bir vaxtda ölkədə yüz kilometrlərlə yeni dəmir və şosse yolları, rayonlarda yüzlərlə körpülər, çay keçidləri və digər infrastrukturlar inşa edildi. Bakı şəhərində metropolitenin "Gənclik", "Nərimanov", "Nizami", "Əzizbəyov", "Qara Qara-

yev" stansiyaları inşa edildi, əhalinin nəqliyyat problemlərinin həlli ilə bağlı ciddi işlər görüldü.

Həmin illərdə bütünlükdə Azərbaycan böyük bir tikinti meydançasını xatırladırdı desək, yanılmarıq. Bakıya, ölkənin şəhər və qəsəbələrinə yaraşıq verən çoxlu sayda ictimai əhəmiyyətli binaların, mədəniyyət ocaqlarının inşa edilməsi də bu dövrün böyük quruculuq planlarının səciyyəvi cəhətlərindəndir. Respublika sarayı, Prezident iqamətgahı, "Gülüstan" sarayı, Respublika İdman-Konsert Kompleksi, Əl Oyunları İdman Sarayı onlarla digər inzibati binalar, idman-mədəniyyət kompleksləri tikilib istifadəyə verildi.

Ölkə əhəmiyyətli belə binalardan biri də bugünkü Azərbaycan parlamentinin inzibati binasıdır. Mühüm əhəmiyyətli bu obyekt məhz Heydər Əliyevin təşəbbüsü ilə keçmiş Sovetlər birliyində analoqu olmayan memarlıq üslubunda inşa edilmişdir. Bununla yanaşı, dövlət, mədəniyyət, incəsənət xadimlərinin, tarixi şəxsiyyətlərin, milli qəhrəmanların xatirəsini əbədiləşdirən abidələrin qoyulması bu dövrün quruculuq salnaməsinə, Azərbaycanın memarlıq-şəhərsalma tarixinə qızıl hərflərlə həkk olundu.

Azərbaycanı yüksək ixtisaslı inşaatçı mühəndis kadrları ilə təmin etmək üçün İnşaat Mühəndisləri İnstitutu təsis edildi. Üzümçülüyün və şərabçılığın geniş miqyasda inkişafı ilə bağlı Gəncə Texnologiya İnstitutu açıldı. Habelə Rus dili və ədəbiyyatı İnstitutu, Naxçıvan və Xankəndində pedaqoji institutlar, digər ali təhsil müəssisələri fəaliyyətə başladı.

50-60-cı illərdə ölkədə milli kadrların hazırlanması, milli dilin inkişafı və istifadə olunması, idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlılaşdırılması istiqamətində heç bir ciddi addım atılmırdı. Məhz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi ilə bu sahədə mövcud olan anormal vəziyyət aradan qaldırıldı.

Sovet rejimi çərçivəsində milli maraqlara yönəlmiş fəaliyyət göstərən Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsinin, sonra isə Azərbaycan SSR-in rəhbəri olduğu dövrdə dövlət idarəçiliyində kadr korpusunun milliləşdirilməsi istiqamətində cəsarətli addımlar atdı. Tezliklə, əksər dövlət idarələrində, kargüzarlıq sistemində azərbaycanlıların xüsusi çəkisi xeyli dərəcədə artdı.

70-80-ci illərdə ən perspektivli, qabiliyyətli Azərbaycan gənclərinin bir hissəsinin SSRİ-nin qabaqcıl ali məktəblərinə oxumağa göndərilməsi Heydər Əliyevin uzaqgörən siyasətinin ən bariz nümunəsidir.

Heydər Əliyev müdrik siyasətçi kimi milli hərbi kadrların hazırlanmasının əhəmiyyətini yüksək qiymətləndirərək bu sahədə də ciddi və təxirəsalınmaz tədbirlər görməyə başladı. 1982-ci ildə Azərbaycandan SSRİ-nin ali hərbi məktəblərinə qəbul olunan 1000 nəfərdən 550 nəfəri milliyyətcə azərbaycanlı idi. Cəmşid Naxçıvanski adına ixtisaslaşmış hərbi məktəbin açılması Azərbaycanda professional hərbi təhsilin əsaslarını möhkəmlətməklə bu sahəyə gənclərin meylinin artmasına güclü təkan verdi.

Ötən əsrin 70-80-ci illəri Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin, əsrlər boyu formalaşan adət-ənənələrimizin gələcək nəsillər üçün qorunub saxlanması, xalqın tarixi yaddaşının özünə qaytarılması məqsədilə həyata keçirdiyi uzaqgörən siyasət məhz gələcək hədəflərə yönəlmiş fəaliyyətin tərkib hissəsi idi.

Heydər Əliyev parlamentin cəmiyyətin və dövlətin həyatındakı rolunu yaxşı başa düşür, Azərbaycan SSR Ali Sovetinin deputatı və ölkənin rəhbəri kimi Ali qanunvericilik orqanı ilə sıx əlaqədə fəaliyyət göstərirdi. O, parlamentdə bu dövrə təsadüf etmiş IX, X və XI beşilliklərinin proqramlarının təsdiq olunmasında və hər il ölkə büdcəsinin qəbulunda yaxından

iştirak edir, parlamentarizm ənənələrinin bərpası və inkişafı üçün əlindən gələni əsirgəmir, Ali qanunvericilik orqanının fəaliyyəti ilə bağlı tövsiyələrini verirdi. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin trubunalarından məharətlə istifadə edir, deputat qrupunun Moskvadakı fəaliyyətini Azərbaycanın mənafeyi baxımından məharətlə istiqamətləndirirdi.

Bu siyasətin məntiqi nəticəsi kimi sovet ideologiyasının tüğyan etdiyi bir vaxtda Heydər Əliyev Azərbaycana fikir plüralizmi, demokratik və azad düşüncə tərzi, güclü sosial ədalət duyğusu və milli özünüdərk hissi gətirdi. Məhz bu illərdə Heydər Əliyev Vətəni Azərbaycanı yüksəkliklərə qaldırmaqla yanaşı, özü də zəngin idarəçilik və dövlətçilik təcrübəsi toplayaraq dünyanın görkəmli siyasi və dövlət xadimlərindən birinə çevrildi.

Sovet imperiyası tərkibində yaşadığımız dövrü Heydər Əliyev belə xarakterizə edirdi: ***"Bu illər bizim xalqımız üçün bir tərəfdən faciələr, itkilər, məhrumiyyətlər illəri olmuş, eyni zamanda xalqımızın maariflənməsi, təhsil alması, inkişaf etməsi, Azərbaycanda böyük iqtisadi potensialın yaranması, xalqımızın dünya mənəvi dəyərlərinə qovuşması sahəsində müsbət rol oynamışdır".***

Məhz bu illərdə xalqımız Heydər Əliyevin şəxsində özünün güclü, ümummilli liderini yetişdirmiş, onun ətrafında sıx birləşmişdir. 1988-ci ildə Azərbaycan xalqının birincilər sırasında imperiya əsarətinə qarşı çıxaraq dövlət müstəqilliyi uğrunda mütəşəkkil mübarizə aparması, ilk növbədə onun Azərbaycan SSR-ə rəhbərlik etdiyi illər ərzində əldə edilmiş milli, mənəvi, siyasi və iqtisadi tərəqqinin məntiqi nəticəsi idi.

Heydər Əliyev harada çalışmasından asılı olmayaraq həmişə xalqına, Vətəninə sədaqətlə qulluq etmiş, doğma Azərbaycanla heç vaxt əlaqələrini kəsməmişdir. O, SSRİ rəhbər-

liyində təmsil olunduğu vaxtlarda da Azərbaycanın inkişafı üçün əlindən gələni əsirgəmirdi.

Heydər Əliyevin Moskvada fəaliyyət göstərdiyi dövr barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 mart 2008-ci il tarixli *"Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında" Sərəncamında* deyilir: ***"Heydər Əliyevin idarəçilik istedadı, tükənməz enerjisi və misilsiz işgüzarlığı 1982-ci ildən – SSRİ-nin dövlət başçılarından biri kimi fəaliyyət göstərdiyi və irimiqyaslı layihələrə rəhbərlik etdiyi vaxtlarda özünü xüsusilə parlaq surətdə təzahür etdirmişdir. Həmin dövrdə Heydər Əliyev fenomeni ümumittifaq miqyasında etiraf olunurdu. O, ölkədə baş verən ən ekstremal vəziyyətlərin aradan qaldırılmasının bilavasitə iştirakçısı olması sayəsində dövlətin ən nüfuzlu siyasi xadimlərindən birinə çevrilmişdi".***

Siyasi Olimpin Kreml zirvəsini fəth etmiş Heydər Əliyev çox qısa bir vaxtda idarəçilik və dövlətçilik məharəti nümayiş etdirərək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi ona həvalə olunmuş bütün sahələr üzrə irəliləyişə nail oldu. Bu onun xarizmatik şəxsiyyəti və özünəməxsus fərdi keyfiyyətləri ilə bağlı idi. Bu istedadlı dövlət xadiminin fəaliyyəti təkcə Sovetlər İttifaqında deyil, hətta onun hüdudlarından kənarda da geniş əks-səda doğurmuşdur.

Müstəqillik uğrunda mübarizədə yeni mərhələnin başlanğıcı

"Azərbaycan xalqı onun milli mənliyini qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir".

HEYDƏR ƏLİYEV

XX əsrin 80-ci illərinin sonunda – Mixail Qorbaçovun hakimiyyəti zamanında SSRİ adlı böyük bir məkanda illər boyu həllini gözləyən problemlər daha qabarıq şəkildə özünü büruzə verməyə başladı. Yenidənqurma siyasəti getdikcə dağıdıcı prosesə çevrilirdi. Cəmiyyətdə şovinist meyllər günbəgün güclənir, müttəfiq respublikaların xalqlarına qarşı münasibət getdikcə pisləşirdi. Həmin dövrdə ölkənin ali rəhbərliyində təmsil olunan Heydər Əliyevin əleyhinə məkrli kampaniyaya start verildi. Onun SSRİ-dəki nüfuzundan qorxan qara qüvvələr Heydər Əliyevi rəhbərlikdən kənarlaşdırmaq üçün dəridən-qabıqdan çıxırdılar. Təəssüf ki, bu qüvvələr ölkə rəhbərliyi tərəfindən də dəstəklənirdi. Aparılan qərəzli siyasətlə razılaşmayan Heydər Əliyev 1987-ci ildə Sov.İKP MK Siyasi Bürosunun və SSRİ hökumətinin tərkibindən istefa verdi.

Bunun ardınca Mixail Qorbaçovun və onun ətrafındakı millətçi erməni dairələrinin Azərbaycana qarşı məkrli təzyiqləri daha da gücləndi. Azərbaycanı parçalamaq, etnik münaqişəyə cəlb etmək məqsədi ilə tezliklə qondarma Dağlıq Qarabağ problemi ortaya atıldı.

Bu dövrdə Azərbaycanı dünya ictimaiyyətinin gözündən salmaq üçün Sumqayıt hadisələri törədildi, 200 mindən çox azərbaycanlı Ermənistandan didərgin salındı, böyük bir ərazini Ermənistana birləşdirmək üçün zəmin hazırlandı.

Bu hadisələri Heydər Əliyev belə şərh edirdi: "Azərbay-

canlılar hələ 1988-ci ildən əvvəl də SSRİ-nin mərkəzi kütləvi informasiya vasitələrində və Ermənistanın müxtəlif mətbu orqanlarında məqsədyönlü şəkildə həyata keçirilən ideoloji təcavüzə məruz qalırdılar. ***"Mənfi azərbaycanlı obrazı" yaratmaq həmin kampaniyanın əsas məqsədi idi. Bu, 1988-ci ildə Ermənistan SSR-də, eləcə də Dağlıq Qarabağ Muxtar Vilayətində başlanmış kütləvi etnik təmizləmə əməliyyatının hazırlıq mərhələsi hesab edilə bilər. Ermənistanda yaşayan azərbaycanlıların misli görünməmiş qəddarlıqla ata-baba yurdlarını tərk etməyə məcbur edilmələri zamanı neçə-neçə soydaşımız, o cümlədən qocalar, qadınlar və uşaqlar qətlə yetirildi. SSRİ-nin rəsmi dövlət qurumları, hüquq-mühafizə orqanları və kütləvi informasiya vasitələri Dağlıq Qarabağ probleminə olduqca böyük diqqət yetirdiyi halda, Azərbaycan xalqının böyük faciəsi tam sükutla müşayiət olundu. Azərbaycan rəhbərliyinin bu məsələdə tutduğu laqeyd mövqe isə öz xalqına qarşı əsl cinayət idi".***

Belə bir vaxtda Azərbaycanda baş verən mürəkkəb ictimai-siyasi proseslər fonunda milli qeyrətdən və mənlikdən uzaq olan Əbdürrəhman Vəzirovun Moskvanın canişini kimi respublikaya göndərilməsi Qafqazın bu bölgəsində vəziyyəti daha da gərginləşdirdi. Əslində Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalının əsası məhz bu şəxsin Azərbaycana rəhbərlik etdiyi illərdə qoyuldu. Belə bir naşı adamın hakimiyyətə gətirilməsi respublikada böhranın dərinləşməsinə yeni impuls verdi, Azərbaycanı fəlakətə sürükləyən hadisələri sürətləndirdi.

Mərkəzin etimadını qazanmaq üçün dəridən-qabıqdan çıxan Vəzirov-Mütəllibov alyansı milli birlik haqqında, xalqı düşdüyü ağır vəziyyətdən qurtarmaq haqqında düşünmürdü. Onların xalqın taleyinə tam laqeydliyi, İttifaq rəhbərliyinə yarınmaq naminə yol verdikləri milli xəyanət və fəaliy-

yətsizlik Azərbaycan xalqının ədalətli, haqlı tələblərinin qan içində boğulmasına gətirib çıxardı. Erməni separatçılarının qarşısının vaxtında və qətiyyətlə alınmaması, respublika rəhbərliyinin Moskva ilə hər cür sövdələşmələrə getməsi son nəticədə Qanlı yanvar faciəsi ilə nəticələndi. Bakı küçələrində əliyalın əhalinin üzərinə sovet tankları yeridildi.

Bu dövrdə SSRİ adlı böyük bir məkanda gedən proseslər tədricən İttifaq rəhbərliyinin nəzarətindən çıxırdı. Mərkəzdənqaçma qüvvəsi getdikcə güclənirdi. Müttəfiq respublikaların tezliklə müstəqillik əldə edəcəkləri gün artıq uzaqda deyildi. Belə bir vaxtda Bakıda öz haqqını tələb edən, azadlıq mücadiləsinə qoşulmuş silahsız ölkə vətəndaşlarına divan tutulması şər qüvvəsi kimi tanınmış böyük bir imperiyanın işğalçılıq siyasətinin davamı idi.

Faciə ərəfəsində Azərbaycanın başqa bölgələrində də vəziyyət gərgin idi. Respublikanın 11 rayonunda izdihamlı mitinqlər keçirilirdi. Mərkəz öz yerli əlaltılarının köməyi ilə radikallaşmağa məcbur etdiyi xalqa divan tutmaq üçün münasib şərait yarada bilmişdi. Moskva Naxçıvanda da xalqı "cəzalandırmaq" məqsədi ilə fövqəladə vəziyyət elan edilməsi üçün təzyiqlər göstərirdi. Lakin bütün cəhdlərə baxmayaraq, o buna nail ola bilmədi. Xalqın tələbi ilə Naxçıvan MSSR Ali Soveti yanvarın 19-da Muxtar Respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən Bakıya Sovet ordusu dəstələrinin yeridilməsi misli görünməmiş vəhşiliklərlə həyata keçirildi. Dövlət öz vətəndaşlarına – əliyalın milki əhaliyə silah qaldırdı. Dağlıq Qarabağın zorla əlindən qoparılıb alınmasına dinc yolla etiraz edən əhaliyə qəddarcasına divan tutuldu. Yalnız bu qanlı cinayət başa çatandan sonra – ertəsi gün fövqəladə vəziyyət barədə fərman elan edildi.

Bu qanlı aksiya nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər isə həbs olundu. Bu sözün həqiqi mənasında ***"ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş"*** qanlı cinayət idi (HEYDƏR ƏLİYEV, 20 Yanvar faciəsinin 13-cü ildönümünə həsr olunmuş mərasimdə nitqindən, 19 yanvar 2003-cü il).

O faciəli günlərdə Heydər Əliyev yenə xalqı ilə birlikdə olduğunu sübut etdi. Respublikanın Moskvadakı daimi nümayəndəliyinə gələrək Mərkəzin və Azərbaycan rəhbərliyinin xəyanətkar mövqeyini ifşa edən bəyanat verdi. Xalqımızın mənəvi sıxıntı məngənəsində boğulduğu, dərin siyasi və mənəvi böhran keçirdiyi bir vaxtda Heydər Əliyevin 20 yanvar faciəsi ilə əlaqədar bu çıxışı azərbaycanlıları kimsəsizlik xofundan qurtardı. Xalq onun tapdalanmış haqqını müdafiə etmək cəsarətində olan öz Böyük oğlunu gördü. Dünya ictimaiyyəti Azərbaycanda baş verən olaylardan xəbər tutdu. Bəyanatda deyilirdi:

"Əziz həmvətənlərim!

Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb

vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm...

Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya-siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə özünün səhv addımları, yaramaz iş üslubu, yalnız siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərliyinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə, sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq iş təkcə bununla bitmir.

İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir...

Nəhayət 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ Daxili İşlər Nazirliyinin böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur.

Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır".

Bu cəsarətli siyasi bəyanat təkcə Azərbaycanda deyil, həm də bütün keçmiş SSRİ-də yeni siyasi eranın başlanğıcı oldu. Bu hadisə Azərbaycanda gedən milli azadlıq hərəkatına çox güclü, yeni bir impuls verdi.

Bu faciənin bir sıra səbəbləri və dərin tarixi kökləri var idi. O dövrdə Mixail Qorbaçovun "yenidənqurma" siyasəti baş verən hadisələrin inkişafını yalnız sürətləndirirdi. Mərkəzin sovet imperiyasını qoruyub saxlamaq, milli respublikalarda oyuncaq rejimləri möhkəmlətmək, "yenidənqurma" haqqında şüarlar altında sərhədləri dəyişdirmək cəhdləri və o dövrkü respublika rəhbərliyinin xəyanətkar fəaliyyəti hadisənin əsas səbəblərindən idi. Burada Qafqazda möhkəmlənmək, sovet rəhbərlərinin təfəkkür tərzində dərin iz salmış türklərə nifrət və dini amillər də az rol oynamamışdır.

Bütöv bir xalqa qarşı törədilmiş, misli görünməmiş bu faciə göz önündə olsa da o vaxtkı respublika rəhbərliyi baş vermiş faciəni hər vasitə ilə ört-basdır etməyə cəhd göstərirdi. Faciədən iki gün sonra yanvarın 22-də çağırılmış respublika Ali Sovetinin sessiyasında ölkənin əksər siyasi rəhbərlərinin iştirak etməməsi də onların xalqın taleyinə biganə qaldıqlarının əyani sübutu idi.

Təəssüflər olsun ki, Azərbaycan Xalq Cəbhəsi faciəyə siyasi qiymət verilməsini dəfələrlə tələb etsə də hakimiyyətdə olduğu dövrdə bu imkandan istifadə etmədi. Hadisə ilə

bağlı yaradılan Deputat İstintaq Komissiyası da qarşısında duran vəzifənin öhdəsindən layiqincə gəlmədi.

Komissiyanın 1990-cı il 11 fevral tarixli ilk bəyanatı Azərbaycan SSR Ali Sovetinin həmin il yanvarın 22-də keçirilmiş fövqəladə sessiyasında qəbul olunmuş qərar çərçivəsindən kənara çıxa bilmədi. Ölkədə yaranmış vəziyyət isə komissiyadan qısa bir müddətdə 20 yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsini tələb edirdi. Komissiyanın işində olan nöqsanlara baxmayaraq, onun rəyindəki faktiki material parlamentdə 20 yanvar faciəsinə dolğun siyasi qiymət verilməsinə kifayət edirdi. Təəssüf ki, sonralar Milli Şura 20 yanvar hadisələrinə siyasi qiymət vermək əvəzinə 1992-ci il yanvarın 19-da qəbul etdiyi qərarı ilə Deputat İstintaq Komissiyasının rəyini qənaətbəxş hesab edib təsdiqləməklə kifayətləndi.

O dövrdə İttifaqın bir sıra bölgələrində, Tbilisidə, Baltikyanı respublikalarda baş vermiş hadisələr SSRİ Xalq Deputatları səviyyəsində müzakirə edilsə də 20 Yanvar faciəsi unutqanlığa məhkum edilmişdi. Azərbaycanda bu məsələ Heydər Əliyev Vətənə döndükdən sonra yüksək kürsülərdən yenidən səslənməyə başladı. Bu məsələdə o istər Naxçıvan MR-in, istərsə respublika parlamentinin tribunalarından istifadə edərək prinsipiallıq nümayiş etdirirdi.

Azərbaycanın dövlət strukturları tərəfindən isə hadisəyə ilk dəfə siyasi qiymət məhz onun təşəbbüsü ilə 1990-cı il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən verildi. Heydər Əliyevin işləyib hazırladığı *"1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında"* qərarda deyilirdi:

"Yanvar faciələrinin səbəbkarlarının-istər İttifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək İnsan Hüquqları Bəyannaməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutaraq qərara alır:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış Xüsusi Deputat Komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun.

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.

4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli matəm günü kimi qeyd edilsin.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli matəm günü kimi qeyd edilsin".

Xalqımıza qarşı törədilmiş 20 Yanvar faciəsi ətrafında hökm sürən xəyanət sükutunu məhz Heydər Əliyev mütəmadi yararaq öz haqq səsini ucaldırdı. O, Ali Sovetin 1991-ci il 7 mart tarixli iclasında çıxış edərək deyir :

"Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə

vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir".

Bir müddət sonra Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin 29 avqust 1991-ci il tarixli sessiyasında bu məsələyə yenidən qayıdır :

"20 Yanvar faciəsi dövründən il yarımdan çox vaxt keçir. ...Mən sual verirəm, Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan prezidenti Ayaz Mütəllibova: nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib? Bu məsələnin həm siyasi tərəfi var, həm hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki, qaldı hüquqi cəhəti, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunması, onu şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət verilmədiyinə görə başqa tədbirlər həyata keçirmək mümkün olmur".

Heydər Əliyevin SSRİ Nazirlər Kabinetinə ünvanladığı 1991-ci il 19 iyun tarixli məktubunda bu barədə belə deyilirdi:

"Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi.

Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil".

20 Yanvar hadisələri yalnız Heydər Əliyev respublikada yenidən hakimiyyətə qayıtdıqdan sonra öz əsl siyasi qiymətini aldı. 1994-cü il yanvarın 5-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə ölkənin Ali qanunvericilik orqanına 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisin bir neçə gün davam edən xüsusi sessiyasında yanvar hadisələrinin əsas səbəbləri açıqlanaraq faciənin günahkarları ifşa edildi.

Xalqımızın tarixinə qanlı faciə kimi daxil olmuş 20 Yanvar hadisələrinin müzakirə olunduğu belə bir məqamda da bəzi siyasətbazlar öz ambisiyalarından əl çəkmək istəmir, faciəyə hüquqi-siyasi qiymət verilməsinə mane olmağa çalışırdılar. Onların bu cəhdlərinə baxmayaraq sessiyada 20 yanvar faciəsi ilə əlaqədar parlamentin 1994-cü il 29 mart tarixli qərarı qəbul edildi. Qərarda deyilirdi:

"...Hüquqi əsası olmadan Bakıda fövqəladə vəziyyət elan edilməsi, Silahlı Qüvvələrin şəhərə soxulub heç bir müqavimətlə üzləşmədən ağır texnika və məhvedici silahlar vasitəsilə dinc əhaliyə qəddarcasına divan tutması Azərbaycan xalqına qarşı cinayət olmuşdur...

Əsas məqsəd Azərbaycanda xalq hərəkatına zərbə vurmaq, mövcud olan rejimin dağılmasına yol verməmək və istiqlaliyyət uğrunda mübarizə aparan qüvvələri məhv etmək olmuşdur..".

Sovet imperiyasının 1990-cı ilin soyuq yanvar günlərində azərbaycanlılara qarşı törətdiyi misli görünməmiş bu vəhşiliklər nə qədər dəhşətli olsa da xalqımızın iradəsini sındıra, onun azadlıq istəyini boğa bilmədi. Şəhidlərin ruhu ilə silahlanmış Azərbaycan istiqlaliyyətinə doğru daha qətiyyətlə və əzmkarlıqla irəliləyərək XX əsrin sonunda yenidən öz müqəddəs amalına – müstəqilliyinə qovuşdu.

Əslində azərbaycanlılara qarşı işlədilmiş bu cinayət bəşəriyyətə, humanizmə, insanlığa qarşı yönəldilmiş ən qanlı

terror aktlarından biri idi. Həmin gün tariximizə faciə kimi daxil olsa da Heydər Əliyevin təbirincə desək, ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında yeni mərhələnin başlanğıcı oldu.

Böyük qayıdış

Ötən əsrin 80-ci illərinin sonunda keçmiş Sovetlər İttifaqının hər yerində olduğu kimi Azərbaycanda da ictimai-siyasi vəziyyət olduqca gərgin idi. İttifaqın əvvəlki güc və qüdrətindən demək olar ki, əsər-əlamət qalmamışdı. Dünya miqyasında öz mövqelərini sürətlə itirən imperiyanın daxilində də vəziyyət günbəgün mürəkkəbləşirdi.

M.Qorbaçov hakimiyyətinin "yenidənqurma" siyasətinin iflasa uğrayacağı göz qabağında idi. Dünyaya meydan oxuyan böyük bir imperiya artıq çökürdü. SSRİ adlı nəhəng bir dövlətdə yaşayan xalqlar öz gələcək müqəddəratlarını düşünür, baş verə biləcək fəsadlardan qurtulmaq üçün yollar arayırdılar. Artıq heç kim mərkəzə – Moskvaya ümid etmirdi. Müttəfiq respublikaların xalqları müstəqil olmaq istəklərini gizlətmirdilər. Xalq hərəkatı dalğası keçmiş İttifaqda getdikcə daha geniş vüsət alırdı.

Azərbaycanda da bu hərəkat xalqın güclü çıxışı ilə müşayiət olunurdu. Bu, həqiqətən kütləvi xalq hərəkatı idi. Onun ideya əsasını xalqın tapdalanmış hüquqlarının bərpası, respublikanın ərazi bütövlüyünün qorunub saxlanması tələbləri təşkil edirdi. Xalq Yanvar faciəsindən sonra Dağlıq Qarabağ probleminin ədalətli həllinə bəslədiyi bütün ümidləri, Mərkəzi hakimiyyətə inamı itirdikdə və bu qərəzli siyasətin Mixail Qorbaçovun dəstəyi ilə həyata keçirildiyini yəqin etdikdə bu hərəkat bütün respublikanı bürüdü.

20 yanvar faciəsindən sonra Moskvaya öz havadarlarının yanına qaçmış Əbürrəhman Vəzirovun yerinə təyin olunmuş Ayaz Mütəllibov da ondan çox fərqlənmirdi. O da yalnız Mərkəzin siyasətini yeridir, öz hakimiyyətini qorumağa çalışırdı. Bu siyasətin məntiqi nəticəsi kimi Azərbaycan Dağlıq Qarabağda dalbadal öz mövqelərini itirir, informasiya blokadası məngənəsində sıxılırdı. Perspektivdə isə ümidverici heç nə görünmürdü.

Belə bir vaxtda keçmiş SSRİ-nin türk-müsəlman xalqlarının şəksiz lideri sayılan Heydər Əliyevə qarşı məkrli planların işə düşməsi bu qərəzli siyasətin davamı idi. 1988-ci ilin ilk mitinqlərindən başlayaraq xalq Azərbaycanın üzləşdiyi ciddi problemləri həll etməyə qadir siyasətçini görür və onun yenidən Azərbaycan rəhbərliyinə qayıtmasını arzulayırdı. Yüzlərlə adamın mitinq və nümayişlərə Heydər Əliyevin portretləri ilə çıxması bu arzunun və istəyin ümumxalq miqyasında, açıq şəkildə ifadəsi idi. Bu arzu münaqişə zonasında – Dağlıq Qarabağın və ətraf rayonların azərbaycanlı əhalisi arasında daha kəskin surətdə və qətiyyətlə ifadə olunurdu. Bütün Azərbaycan xalqı öz Böyük oğluna – Heydər Əliyevə qarşı yerli və mərkəzi mətbuat səhifələrində aparılan qərəzli kampaniyaya etirazını dönə-dönə bildirirdi.

Heydər Əliyevin Sovetlər İttifaqındakı böyük nüfuzundan xoflanan rus şovinistləri və erməni millətçiləri Heydər Əliyevin yenidən siyasi səhnəyə qayıtmasından çəkinir, bu parlaq şəxsiyyətin hər bir addımını nəzarətdə saxlamağa çalışırdılar.

Heydər Əliyev isə Moskvanın bütün təzyiqlərinə baxmayaraq xalqı ilə birlikdə olmaq, Azərbaycana qayıtmaq istəyini gizlətmirdi. Mərkəz onun bu istəyinin reallaşmasına maneçilik törədir, Böyük Vətən oğlunun Azərbaycana qayıdışının qarşısını hər vəchlə almağa çalışırdı.

Bu dövrdə Heydər Əliyev Azərbaycanda baş verən prosesləri diqqətlə izləyir, hadisələrin qorxulu məcrada inkişaf edəcəyini qabaqcadan görürdü.Onu gözləyən ciddi təhlükələrə rəğmən xalqının taleyinə biganə qala bilməyən böyük siyasətçi 1990-cı il iyulun 20-də Vətənə döndü. Lakin onun Bakıda yaşamasına imkan verilmədi və iyulun 22-də Heydər Əliyev doğulub boya-başa çatdığı Naxçıvana getdi. Sonralar Heydər Əliyev bu dövrü belə xatırlayırdı (Ziyalıların bir qrupu ilə görüşündə nitqindən, Naxçıvan, 9 sentyabr 1995-ci il):

"O vaxt mən Azərbaycana gəlməyə çox can atdım. Hər vəchlə mənim qarşımı aldılar, çox maneələr törətdilər, hətta bunu mənə qadağan etdilər, inzibati təzyiq tədbirlərinə əl atdılar. Buraya gəlməyimi nə Sovetlər İttifaqının o vaxtkı rəhbərliyi istəyirdi ("istəyirdi" demək olmaz, buna qəti etiraz edirdi), eyni zamanda, Azərbaycan Respublikasının o vaxtkı rəhbərliyi buna etiraz edirdi.

O vaxt mən adi bir vətəndaş idim. Şübhəsiz, vətəndaş kimi istədiyim yerə gedə bilərdim. Axı, mən xaricə getmək istəmirdim. Sovetlər İttifaqı dövlət idi, onun daxilində istədiyim yerə gedə bilərdim, o cümlədən doğulduğum, yaşadığım, işlədiyim vətənimə də qayıda bilərdim. Ancaq onlar mənim hüquqlarımı tamamilə pozdular, dağıtdılar, tapdaladılar".

Naxçıvan əhalisi Heydər Əliyevi böyük izdihamla qarşıladı. Xalqın mənəvi sıxıntı məngənəsində boğulduğu, iqtisadi, siyasi, sosial, hərbi və mənəvi böhran keçirdiyi bir dövrdə onun Naxçıvana qayıtması respublika əhalisində böyük ruh yüksəkliyi, gələcəyə inam yaratdı. Bu, sözün həqiqi mənasında, böyük qayıdış idi.

Heydər Əliyevin nüfuzu nəinki Naxçıvanda, respublikada da kifayət qədər yüksək idi. Bu isə o dövrkü iqtidarı və rəsmi Moskvanı narahat edirdi. Əslində isə Heydər Əliyev

yenidən siyasi hakimiyyətə qayıtmaq üçün deyil, öz doğma Vətəninə dönmüşdür. Sonralar Azərbaycan SSR Ali Sovetinin 12-ci çağırış I sessiyasında (1991-ci il fevralın 9-da) çıxışı zamanı o, bu barədə belə demişdir:

"...Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq... üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm. Məni bir azərbaycanlı kimi bu hüququmdan heç kəs məhrum edə bilməz...".

Bu tarixi qayıdış Azərbaycanın istiqlaliyyət uğrunda mübarizəsində yeni mərhələnin başlanğıcı oldu. Bu dövrdə blokadaya alınmış Naxçıvan çıxılmaz vəziyyətə düşmüşdü. Ana Vətəndən – Böyük Azərbaycandan ayrı salınmış Naxçıvanın harayına cavab verən yox idi. Belə bir vaxtda Heydər Əliyev Naxçıvana mənəvi dayaq oldu. Bakıda isə sərişəsiz respublika rəhbərləri, kürsü düşgünləri Vətən torpağını hərraca çıxararaq, xalqın taleyi ilə oynayırdılar.

Düşmənlərin torpaqlarımızı bölüşdürmək iddiaları tədricən həyata keçdikcə, üfüqdə yurdumuzun, o cümlədən Naxçıvanın da siyasi varlıq kimi Qoca Qafqazın siyasi xəritəsindən silinmək təhlükəsi aydın görünürdü. Belə bir şəraitdə Heydər Əliyev böyük Qurtuluş savaşının Naxçıvan cəbhəsindən Azərbaycanın azadlıq mücadiləsinə qalxdı. O günlərdə erməni millətçilərinin sovet sərhəd qoşunları ilə birlikdə mühasirəyə aldıqları Naxçıvanda təkcə bu diyarın deyil, bütün Azərbaycanın müqəddəratı həll olunurdu. Belə bir şəraitdə Heydər Əliyev özünün siyasi dühası və dövlət müdrikliyi ilə Naxçıvan əhalisinin mübarizliyinə arxalanaraq respublikamızın bu bölgəsini tarixin ən ağır sınağından şərəflə çıxara bildi.

Bu parlaq dühanın Naxçıvanda yaşayıb, fəaliyyət göstərdiyi illər bütün xalqımızın taleyində mühüm bir mərhələyə

çevrildi. Bu dövrdə Naxçıvan Azərbaycanın dövlət müstəqilliyinə doğru irəliləməsində bayraqdar rolunu öz üzərinə götürərək bu vəzifənin öhdəsindən ləyaqətlə gəldi. Sonralar Heydər Əliyev Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrü belə xatırlayırdı (Naxçıvan ictimaiyyəti ilə görüşündəki nitqindən, 19 iyun 2002-ci il):

"Mən 1990-cı ildə burada sizinlə birgə yaşamağa başladım və ondan sonra fəaliyyətə başladım. Sizinlə birgə çox ağır, çətin bir dövr yaşadıq, çətin problemlərlə üzləşdik. Bəzən təhlükələr elə idi ki, düşünürdüm, ola bilər, məhv olaq, yaxud ümumiyyətlə, Azərbaycan dağılsın, Naxçıvan da dağılsın. Belə ağır günlər yaşadıq. Bu salon, bu divarlar bizim o ağır günlərimizin şahididir. Biz burada sessiyalar keçirdik, qərarlar qəbul edirdik. Ancaq eyni zamanda, o vaxt elələri də var idi ki, nə qanun tanıyırdılar, nə qayda tanıyırdılar, nə dövlətçilik nə olduğunu bilirdilər və bilmək də istəmirdilər. O dövrün qarmaqarışıqlığından istifadə edərək müəyyən mövqelər əldə etmişdilər və tələsirdilər ki, o mövqelərdən tez istifadə edib Azərbaycanın varını-yoxunu, əmlakını mənimsəsinlər, dağıtsınlar. Çünki bir tərəfdən, o qədər ağıla malik deyildilər dərk etsinlər ki, onlar Azərbaycanın dövləti, xalqı haqqında düşünməlidirlər. Digər tərəfdən, inanmırdılar ki, əllərinə düşən bu fürsət çox çəkəcəkdir".

Heydər Əliyevin yenidən siyasi səhnəyə qayıtmasından qorxuya düşmüş Mütəllibov hakimiyyəti bu parlaq şəxsiyyətə qarşı hər cür çirkin əməllərə rəvac verir, onun əleyhinə açıq-aşkar kampaniyalar təşkil edirdi. Lakin heç bir təzyiq və təqib böyük Vətən oğlunu öz amalından döndərə bilmədi. O, cahanşümul əməlləri ilə xalqına sadiq qaldığını və onun yolunda hər cür məhrumiyyətlərə dözməyə hazır olduğunu bir daha sübut etdi.

1990-cı il sentyabrın 30-da Azərbaycan SSR Xalq deputatlarının və yerli xalq deputatları sovetləri deputatlarının

seçkiləri zamanı əhali bu böyük siyasətçini birmənalı şəkildə dəstəklədi. Seçkilərin birinci turunda Heydər Əliyev 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR Xalq deputatı, 2 nömrəli M.F.Axundov seçki dairəsindən isə Naxçıvan MSSR xalq deputatı seçildi.

İnamla müstəqilliyə doğru

"Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz bir hissəsi kimi milli azadlıq uğrunda, dövlət mütəqilliyimiz uğrunda gedən mübarizələrdə həmişə ön sırada olmuş, təşəbbüskar olmuşdur".

HEYDƏR ƏLİYEV

1990-cı ildə bütün respublikada olduğu kimi, Naxçıvanda da vəziyyət çox gərgin idi. Erməni separatçılarının Dağlıq Qarabağda törətdikləri vəhşiliklər, respublika rəhbərliyinin çaşqınlığı, Mərkəzin Azərbaycana qarşı qərəzli mövqeyi ölkəni böhran həddinə gətirib çıxarmışdı. Sovetlər İttifaqı artıq özünün son günlərini yaşayırdı. Respublikanın səbatsız rəhbərliyi isə müstəqilliyinin əldə edilməsi üçün taleyin bəxş etdiyi nadir tarixi fürsətdən istifadə etməkdə acizlik göstərirdi.

Heydər Əliyev müdrik siyasətçi kimi İttifaqın dağılacağını qabaqcadan görür və Azərbaycanın müstəqillik ulduzunun yenidən parlayacağına qəlbən inanırdı. Belə bir ağır vaxtda o, Naxçıvanda milli dövlətçilik ənənələrini bərpa etməyə başladı. 1990-cı il noyabrın 17-də Muxtar Respublikanın qanunvericilik orqanında məhz onun təşəbbüsü ilə Xalq Cümhuriyyətinin üçrəngli bayrağını qaldırdı. Bu hadisə Azərbaycanın öz müstəqilliyinə doğru sürətlə irəliləməsinin

parlaq nümunəsi idi. *(Qeyd: Azərbaycan Respublikasının Dövlət bayrağı ilk dəfə Xalq Cümhuriyyəti hökumətinin 9 noyabr 1918-ci il tarixli qərarı ilə Milli bayraq kimi qəbul edilmişdir. Bu bayraq 1920-ci il aprelin 28-də XI Qızıl ordu Azərbaycanı işğal etdikdən sonra qadağan edilərək Sovet bayrağı ilə əvəz olunmuşdur. Naxçıvan MSSR Ali Sovetinin 19 yanvar 1990-cı il tarixli qərarı ilə Dövlət bayrağı kimi yenidən Muxtar Respublika Ali Sovetinin binası üzərində ucaldılmışdır. Lakin Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 27 yanvar 1990-cı il tarixli qərarı ilə Naxçıvan MSSR Ali Sovetinin həmin qərarını ləğv etmişdir).*

Heydər Əliyev Naxçıvanda üçrəngli bayrağımızı qaldırdığı vaxtda respublika rəhbərləri hələ fikirləşirdilər ki, müstəqillik yolu tutsunlar ya yox. Onlar tərəddüd edir, bu yolda inamsızlıq göstərir, tez-tez Moskvaya tərəf boylanırdılar.

1990-cı ildə İttifaqa daxil olan bir neçə respublika öz suverenliyi haqqında bəyannamə qəbul etsə də, Azərbaycan hələ də fövqəladə vəziyyət şəraitində yaşayırdı. Baltikyanı respublikalar və Rusiya Federasiyası artıq öz dövlət suverenlikləri haqqında qanunlar qəbul etmişdilər. Azərbaycanın o zamankı iqtidarı isə hələ də düşünürdü. Heydər Əliyev bu barədə belə deyirdi:

"1991-ci ildə, demək olar ki, Azərbaycan üçün dövlət müstəqilliyi tabaqda gətirilib Azərbaycan rəhbərliyinin qarşısına qoyulduğu halda, hələ fikirləşirdilər ki, biz müstəqil dövlət olmalıyıq, ya olmamalıyıq. Ancaq tarix bunların hamısına cavab verdi. SSRİ dağıldı və onun dağılması tarixi zərurətdən irəli gələn hadisə idi. SSRİ-nin dağılması nəticəsində Azərbaycan da öz müstəqilliyini elan etdi. Baxmayaraq ki, bu müstəqilliyə meyli olmayan, yaxud onu istəməyən adamlar nə qədər müqavimət göstərsələr də heç bir şeyə nail ola bilmədilər".

Naxçıvan parlamentinin Heydər Əliyevin sədrliyi ilə keçən 17 noyabr 1990-cı il tarixli sessiyasında Muxtar Respublikanın rəsmi adından "Sovet Sosialist" sözləri çıxarıldı, qanunvericilik hakimiyyəti orqanının adı dəyişdirilərək "Ali Məclis" adlandırıldı. Bunun ardınca 1991-ci il fevralın 5-də Azərbaycan parlamenti də respublikanın adının dəyişməsi və dövlət bayrağı haqqında qərar qəbul etdi. Bu dövrdə sözün həqiqi mənasında Naxçıvan parlamenti Azərbaycanın ali qanunverici orqanı üçün nümunə idi. Sonralar o dövrü Heydər Əliyev belə xatırlayırdı (Naxçıvan Muxtar Respublikası ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqindən, 30 oktyabr 1996-cı il):

"1990-1991-ci illərdə... müstəqillik yolunda mübarizə aparan adamlar Naxçıvan əhalisinin, demək olar ki, əksəriyyətini təşkil edirdi. Naxçıvanın müstəqillik, milli azadlıq əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi. Məhz bunların nəticəsində Naxçıvan bir çox ciddi addımlar atdı və nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsində Naxçıvan Muxtar Respublikası öz xidmətlərini göstərdi".

Bu dövrdə keçmiş İttifaqda baş verən mürəkkəb ictimai-siyasi proseslər fonunda Mərkəzi hakimiyyət və onun Bakıdakı əlaltıları hər vəchlə dağılmaqda olan Sovetlər İttifaqını saxlamağa çalışırdılar. Moskvapərəst qüvvələr respublika ictimaiyyətində belə bir fikir aşılamağa çalışırdılar ki, guya Azərbaycan İttifaqdan ayrı yaşaya bilməz.

Respublika rəhbərliyi dünyada və SSRİ-də gedən siyasi proseslərə, dünya hadisələrinin inkişaf meyllərinə tam zidd siyasət yeridir, xalqın müstəqillik iradəsinin əksinə gedərək, nəyin bahasına olursa-olsun, Azərbaycanın SSRİ tərkibindən çıxmasına yol verməməyə cəhdlər göstərirdi.

Bu xəyanətkar siyasətin davamı kimi 1991-ci il martın 7-də respublika Ali Sovetinin xüsusi sessiyasında Sovetlər

İttifaqının saxlanılması barədə referendum keçirilməsi məsələsi müzakirə olundu. Həmin sessiyada Heydər Əliyev dərin məzmunlu nitq söylədi. İclasda imperiya əsarətində yaşamaq psixologiyasından heç cür azad olmaq istəməyən, öz mənafelərini hər şeydən üstün tutan mütəllibovçular onun çıxışına maneçilik törətməkdən belə çəkinmirdilər. Heydər Əliyev öz çıxışında Sovetlər İttifaqında və Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyəti təhlil edərək Sovet imperiyasının süquta doğru getdiyini tutarlı arqumentlərlə əsaslandırdı və Azərbaycanın gələcək müstəqilliyi üçün lazımi tədbirlərin görülməsinin vacibliyini vurğuladı:

"...Mən yeni İttifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Bu bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır. O, öz tarixini yenidən təhlil edir, yenidən qiymətləndirir, öz milli ənənələrini bərpa edir, milli köklərinə qayıdır. Respublikada aşağıdan, xalq kütlələri tərəfindən başlanmış milli dirçəliş, dövlət quruluşunun dirçəlişi hərəkatı inkişaf edir.

...Bəziləri respublikamızın müstəqil, İttifaqdan ayrı yaşamağa imkanı olmadığını sübut etməyə çalışır. İttifaqda olan respublikalar bir-biri ilə sıx iqtisadi, texniki əlaqələrlə bağlı olduğuna görə, onların İttifaqdan ayrı yaşamasının mümkün olmadığı fikri də ölkədə geniş yayılmışdır.

Bu təbliğatlar əsassızdır. Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir.

...Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır.

Fəqət, nəyin bahasına olur-olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək bunu gələcək nəsillər edəcək. Və onlar, tarix bizi bağışlamayacaq. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bu günü və azad gələcəyi haqqında düşünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır.

Azərbaycan xalqı birləşməli, öz müqəddəs, doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

Heydər Əliyevin və demokratik qüvvələrin ciddi etirazlarına baxmayaraq parlamentdə SSRİ-nin saxlanması barədə referendumda Azərbaycanın iştirak etməsi haqqında qərar qəbul olundu, 1991-ci il martın 17-də Azərbaycan Sovetlər İttifaqının saxlanması barədə referendumda iştirak etdi. Rəsmi elan olunmuş nəticələrə görə referendumda əhalinin 80 faizi iştirak etdi və guya onların 76 faizi İttifaqın saxlanmasına səs verdi. Azərbaycanda da bu referendumun nəticələri kobud surətdə saxtalaşdırıldı. Yalnız Heydər Əliyevin iradəsi nəticəsində Naxçıvanda referendum keçirilmədi. Bu barədə o, belə deyirdi:

"Mart ayında Azərbaycan Respublikasının rəhbərləri, Kommunist Partiyasının rəhbərləri Azərbaycanı və Azərbaycan xalqını məcburi, bəzən saxtakarlıq yolu ilə İttifaq müqaviləsinin bağlanması haqqında referenduma getməyə və müsbət rəy verməyə məcbur etdilər. Naxçıvan burada öz müstəqilliyini göstərdi. Ona görə də çox böyük söhbətlərə səbəb oldu və Naxçıvana qarşı cürbəcür böhtanlar yağdırıldı.

Naxçıvan parlamenti özünün sessiyalarında Azərbaycanın müstəqilliyi barəsində dəfələrlə məsələ qaldırılıb. Naxçıvan 17 mart – yeni İttifaq yaranması haqqında referendumda iştirak etməyib və yeni İttifaqın yaranmasının əleyhinədir, Azərbaycan Respublikasının yeni bir İttifaqa girməsinin tamamilə əleyhinədir".

Köhnə ideologiyadan imtina: yeni dövrün başlanğıcı

90-cı illərin əvvəllərində Heydər Əliyev imperiyanın qorunub saxlanmasına çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına, onun bir hissəsi olan Azərbaycan KP MK-ya və Sovet dövlətinə açıq etirazını bildirərək, onların riyakar siyasətini cəsarətlə ifşa edirdi. O, parlamentin tribunasından istifadə edərək deyirdi (7 mart 1991-ci il):

"Məlumdur ki, Sovet İttifaqı Kommunist Partiyasının bir hissəsi olan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin platforması xalqı birləşdirə bilməz. O, xalq arasında nüfuzdan düşüb, bütün xalqın iradəsini təmsil etmir. Kommunist Partiyası hakimiyyətdən tamamilə imtina etməlidir. Yuxarıdan aşağıya qədər partiya komitələrinin katibləri eyni zamanda sovet orqanlarında rəhbər vəzifə tutmamalıdırlar. Demokratiyanın, siyasi plüralizmin, aşkarlığın inkişafı üçün şərait yaradılmalıdır. Bütün siyasi qüvvələr eyni hüquqda fəaliyyət göstərməlidir. Xalqa hər şey düzgün çatdırılmalıdır. Sosial ədalət bərpa olunmalıdır".

1991-ci il iyulun 19-da Heydər Əliyev Kommunist Partiyası sıralarından çıxdı. O, SSRİ Nazirlər Kabineti partiya təşkilatına göndərdiyi ərizəsində yazırdı: ***"Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü Konstitusiyaya zidd olaraq kobud şəkildə pozulub. Ermənistanla Azərbaycan arasında elan edilməmiş müharibə gedir. Bütün bunlar dırnaqarası "humanist ideologiyalı" sovet dövləti üçün adi haldır".***

Xalq imperiyanın bərpa cəhdlərinə Heydər Əliyevin bu qəti etirazını razılıqla qarşıladı. Azərbaycanda kommunist ideologiyasının hələ də dövlət səviyyəsində davam etdirildiyi

bir şəraitdə Heydər Əliyev artıq milli inkişaf yolunda sipərə çevrilmiş bu ideologiyadan qətiyyətlə imtina etdi. 1991-ci il avqustun 26-da Naxçıvan ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi.

Həmin ilin yayında kommunistlərin uğursuzluqla nəticələnmiş "avqust qiyamı" da o dövrkü iqtidarı qəflət yuxusundan oyatmadı. Hakimiyyətdə olan Ayaz Mütəllibovun tərəfdarları Moskvapərəst mövqe tutur, Mərkəzin göstərişlərini sözsüz yerinə yetirməkdə canfəşanlıq göstərirdilər. Milli xəyanət yolu tutmuş bu siyasətbazlar "Azərbaycanın müstəqillik bəyannaməsi"ni də ciddi qəbul etmək istəmirdilər. Bu məsələ ilə əlaqədar keçirilmiş Ali Sovetin 1991-ci il 29 və 30 avqust tarixli iclaslarında Heydər Əliyev o dövrkü respublika rəhbərliyinin xəyanətkar siyasətinin əsl mahiyyətini açdı (Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 29 avqust tarixli iclasında çıxışından):

"Ölkədə, cəmiyyətdə siyasi və iqtisadi böhran, dövlət, hakimiyyət böhranı son dərəcədə şiddətlənmişdir. Mürtəce qüvvələrin demokratiya əleyhinə hücumu, cinayətkar qrupun həyata keçirdiyi dövlət çevrilişi dəf edilmişdir. Biz artıq Sovet imperiyasının, kommunist partiyasının dağılmasının şahidiyik.

Bu dövrdə bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha çətin, daha ağırdır. Bunun əsas səbəbi respublikada hökm sürən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti və buraxdığı kobud, bağışlanmaz səhvlərdir.

...Azərbaycan Kommunist Partiyasının bütün strukturları ləğv olunmalıdır, əmlakı milliləşdirilməlidir. Azərbaycan Kommunist Partiyasının, onun mətbu orqanlarının işi dayandırılmalı, Azərbaycan Kommunist Partiyası Mərkəzi

Komitəsinin hərbi xunta ilə əməkdaşlıq edib-etməməsi məsələsi aydınlaşdırılmalıdır. Bunun üçün parlament komissiya yaratmalıdır. Mənim fikrim budur".

Zaman Heydər Əliyevin haqlı olduğunu sübut etdi. O dövrdə baş verən proseslərin məntiqi nəticəsi kimi 1991-ci il oktyabrın 18-də Azərbaycanın Ali Soveti "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul etdi.

Təəssüflər olsun ki, müstəqilliyin ilk illərində o dövrkü rəhbərlik üzərinə düşən məsuliyyəti tam dərk edə bilmir, siyasi səbatsızlıq nümayiş etdirirdi. Bu isə, ölkəni iqtisadi, siyasi, mənəvi böhrana sürükləyirdi.

Həmin il dekabrın 8-də Brest şəhəri yaxınlığında Rusiya Federasiyası, Ukrayna və Belarus respublikaları rəhbərləri "Müstəqil Dövlətlər Birliyi"nin yaradılması haqqında müqavilə imzaladılar. "Belovejsk sazişi" adlanan bu müqavilə ilə SSRİ-nin beynəlxalq hüquq subyekti kimi mövcudluğuna son qoyuldu.

Brest "üçlüyü" keçmiş SSRİ-yə daxil olan respublikaları da bu birliyə qoşulmağa dəvət etdi. Dekabrın 21-də Alma-Atada SSRİ-nin mövcudluğunun dayandırılması və bununla əlaqədar problemlərin nizama salınması haqqında bəyannamə qəbul edildi. Alma-Ata görüşündə A.Mütəllibov bir sıra müqavilələr imzaladı. Lakin Azərbaycan parlamenti onları təsdiq etməkdən imtina etdi.

Dekabrın 29-da isə Azərbaycanın Dövlət Müstəqilliyini bərpa etməsi ilə əlaqədar referendum keçirildi və ölkə vətəndaşları bir nəfər kimi Azərbaycanın müstəqilliyinə səs verdilər. Heydər Əliyevin uzaqgörənliklə söylədiyi fikirlər öz tarixi təsdiqini tapdı.

Beləliklə, doğma Azərbaycanımız XX əsrin əvvəlində əldə etdiyi müstəqilliyinə yenidən qovuşdu. XX əsrin sonunda Azərbaycan xalqının ikinci dəfə azadlığa qovuşması, müs-

təqilliyini bərpa etməsi çox mürəkkəb bir dövrə təsadüf edirdi. Heydər Əliyev bu haqda belə deyirdi (2001-ci il mayın 26-da Respublika gününə həsr olunmuş təntənəli mərasimdə nitqindən):

"1991-ci il oktyabrın 18-də Azərbaycanın Ali Soveti Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul etdi. Bu tarix Azərbaycanın müstəqilliyinin başlanğıcı günü oldu. Baxmayaraq, Azərbaycanda hələ bəziləri gözləyirdilər ki, bəlkə də SSRİ yaşayacaq. Bunu deməyə mənim əsasım vardır. Çünki əgər oktyabr ayının 18-də müstəqillik haqqında Konstitusiya aktı qəbul olundusa, demək, dərhal referendum keçirmək lazım idi. Ancaq referendum yalnız 1991-ci il dekabr ayının 29-na təyin olundu. Ancaq dekabrın 29-da artıq SSRİ yox idi. SSRİ rəhbərliyi və onun o vaxtkı prezidenti Mixail Qorbaçov həmin dövrdə artıq istefa vermişdilər və SSRİ dağılmışdı. Mən bununla demək istəyirəm ki, xalqımız əsrin əvvəlindən öz qabaqcıl, mütəfəkkir şəxsiyyətlərinin simasında özünə milli azadlıq, müstəqillik qazanmaq arzusunda olmuşdur. Ancaq təəssüflər olsun ki, sonrakı dövrdə sovet hakimiyyətindən bəhrələnən və xalqının gələcəyi haqqında düşünə bilməyən insanlar isə 1991-ci ildə belə bir fürsət yarandığı zaman bundan nəinki istifadə etməmişdilər, hətta istifadə etməkdən imtina etmişdilər. Ancaq tarixin gedişatı, proseslər elə sürətlə hərəkət edirdi ki, artıq heç kəs onun qarşısını ala bilməzdi. Bu gün biz iftixar hissi ilə deyə bilərik ki, əsrin sonunda bütün çətinliklərə, maneələrə baxmayaraq, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi".

Azərbaycanın ikinci dəfə müstəqillik əldə etməsi tarixi bir hadisə idi. Lakin müstəqilliyin ilk illərində ölkəyə naşı insanların rəhbərlik etməsi, siyasi didişmələr, ərazi bütövlüyünün təmin olunması istiqamətində lazımi tədbirlərin görülməməsi nəticəsində dövlətçiliyimizə ağır zərbələr vuruldu.

Heydər Əliyev bu dövrdə baş verən prosesləri belə izah edirdi (Azərbaycanın dövlət müstəqilliyinin XI ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitqindən, 17 oktyabr 2002-ci il):

"Azərbaycanda müstəqilliyi bəyan edəndən sonra onu yaşatmaq, inkişaf etdirmək, onu qorumaq çox çətin olmuşdur. Azərbaycan xalqı da bu çətin yollardan keçmişdir. Təəssüflər olsun ki, o dövrdə Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar yaranmış mürəkkəb ictimai-siyasi vəziyyətdən istifadə edən ayrı-ayrı qüvvələr daxildə vəziyyəti daha da mürəkkəbləşdirirdilər, hakimiyyət mübarizəsi gedirdi. Azərbaycanın çox itkilərinin, xüsusən Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın bir qisminin işğal olunmasının ən əsas səbəblərindən biri, bəlkə də ən əsas səbəbi ölkə daxilində birliyin olmaması, xalqın birləşə bilməməsi, hamının birləşib torpaqları qoruya bilməməsi idi. Bunun da səbəbi Azərbaycanda gedən hakimiyyət mübarizəsi olmuşdur".

Tale elə gətirmişdir ki, XX əsrin əvvəlində müstəqilliyimizi qoruyub saxlamaq mümkün olmamışdısa, bu dəfə xalqımız bu müqəddəs neməti – müstəqilliyini Heydər Əliyev dühası ilə öz əlində möhkəm saxlamağa, şanlı tarixinin misilsiz bir səhifəsini yazmağa qadir oldu. Əlbəttə, bu yolda büdrəmələr, çətinliklər, problemlər, xarici və daxili bədxahlarımızın çirkin niyyətləri ilə yoğrulmuş xain əməllər də olmuşdur.

Müstəqillik tariximizin unudulmaz səhifəsi

"Müsəlman Şərqində ilk parlament respublikası – Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dövlət təsisatlarının yaradılmasına nail olmuşdu. Milli parlamentarizmin təşəkkül tarixi isə Azərbaycan parlamentinin 1918-ci il dekabr ayının 7-də keçirilmiş ilk iclasından başlayır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması mürəkkəb siyasi dövrdə cərəyan edən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu idi".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Əsrlər boyu Azərbaycan xalqı öz dövlətini qurub azad və müstəqil yaşamaq arzusunda olub. Lakin, tale elə gətirmişdir ki, əlverişli geosiyasi mövqeyə, zəngin təbii sərvətlərə malik Azərbaycanın düşmənləri bu istəyin reallaşmasına hər cür maneçilik törətməyə cəhdlər etmişlər.

Bütün bunlara baxmayaraq Azərbaycan xalqı öz tarixinin ayrı-ayrı dövrlərində müstəqil dövlətlər qurmağa müvəffəq olmuşdur. Bu dövlətlər xalqımızın maddi mədəniyyət abidələrinin, ədəbiyyatının, dilinin, mənəvi-əxlaqi dəyərlərinin inkişafında və qorunub saxlanmasında mühüm rol oynamışlar. Heç də təsadüfi deyil ki, Yaxın və Orta Şərqdə ilk dramaturgiya, ilk opera, ilk qəzet məhz Azərbaycanda meydana gəlmişdir. Müsəlman Şərqində müasir parlament mədəniyyətinin əsası da Azərbaycanda qoyulmuşdur.

1918-ci ildə Şərq aləmində ilk demokratik respublika

olan Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi dövlətçilik tariximizin ən yaddaqalan dövrlərindən birinin başlanğıcı olmuşdur. Gələcək nəsillərin taleyinə təsir göstərmiş bu tarixi hadisə xalqımızın əsrlər boyu ürəyində yaşatdığı azadlıq amalının parlaq ifadəsi idi.

1918-20-ci illər Azərbaycan xalqının siyasi şüurunun təşəkkül tapdığı, milli özünüdərk proseslərinin misilsiz vüsət aldığı bir dövr idi. Lakin tale elə gətirmişdir ki, obyektiv və subyektiv səbəblər ucbatından Xalq Cümhuriyyətinin ömrü çox qısa oldu. O dövrdə baş verən mürəkkəb ictimai-siyasi proseslər nəticəsində Cümhuriyyət süquta uğradı. Ancaq xalqımız öz dövlətçiliyini bərpa etmək amalından dönmədi. Görkəmli dövlət xadimi Heydər Əliyev bu dövrü belə xarakterizə edirdi:

"Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında tarixi bir hadisədir. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, Azərbaycanın o dövrdə öz istiqlaliyyətini bəyan etməsi heç də təsadüfi hadisə deyil. Hələ XX əsrin ikinci yarısında, XX əsrin əvvəlində Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin, qabaqcıl insanlarının fəaliyyəti nəticəsində milli oyanış, milli dirçəliş hissləri getgedə artmışdır. Artıq XX əsrin əvvəllərindən demək olar ki, xalqımız, onun qabaqcıl şəxsiyyətləri müstəqillik arzusu ilə yaşamışlar və 1917-ci ildə baş vermiş oktyabr inqilabı, Rus-çar imperatorluğunun dağılması və o zaman Rus-çar imperatorluğunun ərazisində müxtəlif proseslərin meydana çıxması Azərbaycanın istiqlaliyyətinin elan edilməsi üçün və Xalq Cümhuriyyətinin yaradılması üçün şərait yaratdı. Az müddətdə – 23 ay ərzində çox işlər görüldü".

Heydər Əliyevə görə, Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, xalqımızın müstəqillik əzminin bariz nümunəsi

olmuşdur. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması tarixi əhəmiyyət kəsb edən hadisə idi.

Bu dövrdə demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Xalq Cümhuriyyətinin fəaliyyətinin əsas istiqamətləri olmuşdur. Ulu öndər belə bir fikri vurğulayırdı ki, *1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır.*

Bu dövrün ən böyük nailiyyətlərindən biri milli parlamentarizmin təşəkkül tapması idi. Azərbaycanda parlamentarizm ənənələrinin inkişafına nəzər saldıqda görürük ki, hələ XX əsrin əvvəlində Rusiya imperiyasında ilk parlamentin formalaşmasına Azərbaycan xalqı da öz layiqli töhfəsini vermişdir.

Rusiya Dövlət Dumasına Azərbaycandan Bakı, Yelizavetpol (Gəncə) və İrəvan quberniyaları da daxil olmaqla 6 nəfər deputat seçilmişdir. Əlimərdan bəy Topçubaşov, Məmmədtağı Əliyev, Əsədulla bəy Muradxanov, İsmayılxan Ziyadxanov, Əbdülrəhimbəy Haqverdiyev və Ataxan İrəvanski Dumanın işində fəal iştirak edirdilər. I Dumada Rusiyanın müxtəlif regionlarını təmsil edən 36 deputatdan ibarət müsəlman fraksiyası yaradılmışdı. Əlimərdan bəy Topçubaşov bu fraksiyanın lideri seçilmişdir.

Azərbaycanlı deputatlar Duma tribunasından çıxış edərək Rusiya imperiyasının Cənubi Qafqazda yeritdiyi milli qırğın siyasətini, xalqımıza qarşı yol verilən ayrı-seçkiliyi, köçürmə siyasətini, bütöv bir xalqın hüquqsuzluğunu, kölə

halına salındığını bütün açıqlığı və kəskinliyi ilə tənqid edir, yalnız azərbaycanlıların deyil, bütün Rusiya müsəlmanlarının mənafeyini müdafiə edirdilər.

II Dövlət Dumasında da Azərbaycanı 6 nəfər təmsil edirdi: Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, İsmayıl Tağıyev, Məmmədağa Şahtaxtinski, Mustafa Mahmudov və Zeynal Zeynalov. Bu deputatlardan hamısı parlamentin müsəlman fraksiyasına daxil olmuş, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov isə büronun üzvü seçilmişlər.

Azərbaycanlı deputatların bütün Rusiyanın türk-müsəlman əhalisinin hüquqsuzluğuna qarşı kəskin çıxışları və bunun güclü oyadıcı təsirinin rasizmi vahiməyə salması I və II Dövlət Dumalarının buraxılmasında az rol oynamamışdı. Məhz buna görə də III seçkilər zamanı türk-müsəlman əhalisinin yaşadığı Mərkəzi Asiya, Sibir və digər regionlar seçki hüququndan məhrum edilmiş, Bakıya isə öz nümayəndəsini irəli sürmək hüququ verilməmişdi. Elə həmin səbəbə görə də əvvəlkindən fərqli olaraq, III Dövlət Dumasında bütün Cənubi Qafqazın müsəlman əhalisini yalnız bircə nəfər deputat – Xəlil bəy Xasməmmədov təmsil edirdi. IV Dövlət Dumasında isə bütün Cənubi Qafqaz müsəlmanlarının yeganə nümayəndəsi Məmməd Yusif Cəfərov idi.

Rusiyanın dövlət dumalarına seçilmiş azərbaycanlı deputatların, demək olar ki, hamısı milli hərəkatımızın ən qabaqcıl nümayəndələri idilər. Duma deputatları Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov peşəkar hüquqşünaslar idilər. Məhəmməd ağa Şahtaxtinski isə Sorbonna universitetinin dinləyicisi olmuş, Leypsiq universitetinin fəlsəfə fakültəsini bitirmişdi.

1918-20-ci illər xalqımızın milli mövcudluğunun imtahana çəkildiyi bir dövr idi. Milli dövlətçiliyin bərpası faktı

özü milli varlığın qorunub saxlanmasında çox mühüm rol oynamışdır. Əsrin əvvəlində bu milli oyanış xalqımızın qərinələrdən bəri ürəyində yaşatdığı istəklərin məntiqi nəticəsi idi. Bu dövr Azərbaycan dövlətinin, onun parlamentinin fəaliyyəti üçün çox mürəkkəb və məsuliyyətli bir dövr idi. Uzun illər xalqlar həbsxanasına çevrilmiş Rusiyanı siyasi intriqalar, birbirinin ardınca baş verən inqilablar didib-parçalayırdı. Rusiya artıq öz hegemon rolunu itirmiş, ölkə tənəzzülə doğru gedirdi.

Belə bir vaxtda, 1917-ci ilin fevralında baş vermiş inqilab siyasi vəziyyəti kökündən dəyişdi. Zaqafqaziyanın mütərəqqi dünyagörüşlü adamları və ziyalıları reallığı nəzərə alaraq Dövlət Dumasının üzvlərindən ibarət Xüsusi Komitə, sonra isə Zaqafqaziya Komissarlığı yaratdılar. Həmin dövrdə Rusiyanın Müəssislər Məclisinə seçilmiş, lakin Oktyabr çevrilişindən sonra bu qurumda iştirak edə bilməyən deputatlar 1918-ci il fevralın 14-də Tiflisdə Zaqafqaziya Seymini yaratdılar. Aprelin 9-da Seym Zaqafqaziyanın istiqlalını elan etdi. Aprelin 22-də isə Seym Azərbaycan, Gürcüstan və Ermənistandan ibarət Zaqafqaziya Federativ Respublikasını təsis etdi. Lakin Seym uzun müddət fəaliyyət göstərə bilmədi. Bu quruma daxil olan müxtəlif millətlərin nümayəndələri öz milli mənafelərini ümumi mənafedən üstün tutur, milli etnik baxışlar mübahisələrə gətirib çıxarırdı. Bütün bu münaqişələr nəticəsində Seym tezliklə süqut etdi və 1918-ci il mayın 25-də özünün son iclasını keçirdi.

Ertəsi gün Gürcüstan Seymdən çıxaraq öz istiqlaliyyətini elan etdi. Zaqafqaziya Seyminin müsəlman fraksiyası vəziyyəti hərtərəfli təhlil edərək hadisələrin belə sürətli inkişafı məcrasında yeganə düzgün qərar qəbul edərək mayın 27-də Tiflisdə Azərbaycanın Milli Şurasını təsis etdi. Milli Şuranın Rəyasət Heyəti seçildi. Rəyasət Heyətinin tərkibinə M.Hacınski, N.Yusifbəyov, X.Xasməmmədov, M.Cəfərov, X.Məlikaslanov, C.Hacınski, Ə.Şeyxülislamov, X.Sultanov

daxil oldular. Məmmədəmin Rəsulzadə Milli Şuranın sədri seçildi. Ertəsi gün Həsən bəy Ağayevin sədrliyi ilə Milli Şuranın iclasında böyük sevinclə Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edildi. Sənəddə deyilirdi:

"...Ərai-ümumiyyə ilə intixab olunan Azərbaycan şurai milliyeyi-islamiyyəsi bütün cəmaətə elan ediyor ki: "Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi, Cənub-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil-el-hüquq müstəqil bir dövlətdir.

Müstəqil Azərbaycan dövlətinin şəkili-idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür ediyor".

Milli Şura tez bir zamanda Fətəli xan Xoyskinin rəhbərliyi ilə ilk hökuməti təşkil edir. Azərbaycan hökumətinin yaranması, onun məqsəd və vəzifələrini əhaliyə izah etmək üçün ölkənin müxtəlif bölgələrinə nümayəndələr göndərilir. Mayın 30-da radioteleqrafla Azərbaycanın istiqlaliyyəti barəsində dünyanın bütün siyasi mərkəzlərinə – London, Paris, Vaşinqton, İstanbul, Berlin, Madrid, Moskva, Roma, Vyana, Tokio, Kopenhagen, Stokholm və s. şəhərlərinə rəsmi bəyanat verilir.

Çox təəssüf ki, bu dövrdə İrəvan ermənilərə paytaxt kimi güzəştə gedildi. Hadisələrin sonrakı gedişi göstərdi ki, ermənilər bununla kifayətlənmək fikrində deyillər. İrəvanın ermənilərə güzəşt edilməsi haqqında qərar Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli iclasında verilmişdir. İclasın 3 nömrəli protokoluna görə, Fətəli xan Xoyski Milli Şurada erməni Milli Şurası ilə apardığı danışıqların nəticələri barədə məruzə etmiş, "erməni federasiyasının yaradılması üçün onlara siyasi mərkəz lazım olduğunu", "Aleksandropolun (Gümrü) Türkiyəyə keçməsindən sonra belə mərkəzin yalnız İrəvan ola biləcəyi haqqında məlumat verdikdən sonra İrəvanın ermənilərə güzəştə gedilməsinin zəruri olduğunu bildirmişdir".

Milli Şurada səsvermədə 28 nəfər şura üzvündən 16 nəfəri İrəvanın güzəşt edilməsinin lehinə, 1 nəfər əleyhinə səs vermiş, 3 nəfər bitərəf qalmışdır. Lakin sonradan İrəvanın ermənilərə güzəşt edilməsi məsələsi 1 iyun 1918-ci il tarixdə Milli Şuranın iclasında yenidən gündəliyə daxil edilmişdir. İclasda İrəvanın ermənilərə güzəşt edilməsinə etiraz bildirildi. Milli Şura bu etirazı müzakirə etmədən iclas protokoluna əlavə etməyi qərara aldı.

O dövrdə vəziyyət o qədər mürəkkəb idi ki, dövlət həyatına aid müxtəlif məsələlər üzrə qəti qərarlar qəbul etmək lazım gəlirdi. Bakı S.Şaumyanın rəhbərliyi ilə fəaliyyət göstərən Xalq Komissarları Sovetinin nəzarəti altında idi. Ətraf bölgələrdə hakimiyyətsizlik, hərc-mərclik baş alıb gedirdi. Ölkənin idarə olunmasını ələ almaq, qarşıda duran vəzifələri həyata keçirmək məqsədi ilə 1918-ci il iyunun 16-da Milli Şura və hökumət Gəncəyə köçür.

O dövrkü mürəkkəb şəraitdə hökumət ilk addım kimi iyunun 19-da Azərbaycanda hərbi vəziyyət elan edir. Bir müddət sonra avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qərar qəbul edilir. Dövlətin, hökumətin ilk qərarlarından biri Azərbaycan dilinin dövlət dili elan olunması idi. Məlum olduğu kimi, I Dünya müharibəsi illərində Zaqafqaziyada yaşayan müsəlman əhaliyə qarşı görünməmiş vəhşiliklər, cinayətlər törədilmişdi. Hökumət bu faktları araşdırıb cinayətkarları məsuliyyətə cəlb etmək məqsədi ilə iyul ayında Fövqəladə Təhqiqat Komissiyası yaradır.

İyunun 30-da Zaqatala dairəsi əhalisinin xahişi nəzərə alınaraq dairənin Azərbaycan Cümhuriyyətinə birləşdirilməsi haqqında qərar qəbul olunur. Gəncənin çarizm zamanı ləğv edilmiş adı Azərbaycan hökumətinin 30 avqust tarixli qərarı ilə özünə qaytarıldı. Elə həmin qərarla Qaryagin qəzası da Cəbrayıl qəzası adlandırıldı. Ümumiyyətlə, paytaxt Bakıya

köçürülənə qədər Azərbaycan hökuməti Gəncədə ölkənin iqtisadi həyatı, dəmiryolunun bərpası və sair ilə əlaqədar bir sıra mühüm tədbirlər həyata keçirir.

Bakı Kommunası süqut etdikdən sonra yaranmış ermənşevik və daşnak nümayəndələrindən ibarət "Sentrokaspi diktaturası"nı devirmək məqsədi ilə Qafqaz İslam Ordusu tezliklə Bakıya doğru irəliləyir və sentyabrın 15-də şəhər bu qara qüvvələrdən azad olunur. Bakı Xalq Cümhuriyyətinin paytaxtı elan edilir.

Tez bir zamanda ölkənin ictimai-siyasi və mədəni həyatında, iqtisadi sahədə quruculuq işlərinin həyata keçirilməsi, Müəssislər Məclisinin çağırılması üçün əməli addımlar atılır. Milli Şuranın noyabrın 19-da keçirilən iclasında bildirilir ki, Azərbaycanda müxtəlif millətlər məskunlaşdığı üçün onun Ali qanunvericilik orqanında bütün millətlərin nümayəndələri təmsil olunmalıdır. Bununla yanaşı, o dövrdə ölkədə fəaliyyət göstərən müxtəlif siyasi partiyalar, cərəyanlar, əhalinin müxtəlif zümrələrinin təmsilçiləri də diqqətdən kənarda qalmadılar. 120 nəfərdən ibarət parlamentə müsəlmanlardan 80, erməni əhalidən 21, ruslardan 10, alman və yəhudi millətlərinin isə hərəsindən 1 nəfərin seçilməsi nəzərdə tutulmuşdu.

Ölkə parlamentinin çağırılması ilə əlaqədar noyabrın 29-da "Bütün Azərbaycan əhalisinə" adlı müraciət dərc olunur. Sənəddə bildirilirdi ki, o dövrkü vəziyyəti nəzərə alaraq öz fəaliyyətinə fasilə vermiş Milli Şura dövləti yenidən təşkil etmək üçün Məclisi-məbusan (parlament) yaratmaq məqsədi ilə azlıqda qalan millətlərin nümayəndələrini də bu quruma dəvət edir. Ölkənin müqəddəratı, hökumətin təşkili də ona tapşırılacaqdı.

Maraqlıdır ki, ölkənin idarə olunmasında yaxından iştirak edənlər vəziyyəti gözəl başa düşür, didişmələrə, milli etnik münaqişələrə, narazılıqlara son qoymaq məqsədi ilə

ölkədə bütün millətlərin mənafeyinə xidmət edə biləcək hökumətin yaranmasına səy göstərirdilər.


O dövrdə Bakıda fəaliyyət göstərən rus və ermənipərəst qüvvələr Azərbaycan parlamentinin açılışına hər dəfə maneçilik törədirdilər. Bütün maneələrə baxmayaraq 1918-ci il dekabrın 7-də H.Z.Tağıyevin qız məktəbinin binasında Şərq aləmində ilk parlamentin iclası keçirilir.

İclasda Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev onun birinci müavini və Mehdi bəy Hacınski başda olmaqla Katiblik seçilir. O dövrdə Ə.Topçubaşov Azərbaycanda olmadığı üçün ölkənin Ali qanunvericilik orqanına H.Ağayev rəhbərlik edirdi. Azərbaycan hökuməti parlament qarşısında istefa verdikdən sonra dekabrın 26-da yeni hökumətin tərkibi haqqında Fətəli xan Xoyskinin məlumatı dinlənildi və ona yenidən etimad göstərildi.

Parlamentdə erməni və rus nümayəndələri üçün yerlər ayrılmasına baxmayaraq onlar Azərbaycan qanunvericilik orqanının ilk iclasında iştirak etmədilər. Bakı Rus Milli Şurasının parlamentdə iştirak etməmək haqqında qəbul etdiyi qərarında göstərilirdi ki, Azərbaycan "vahid və bölünməz Rusiya" ideyasına xilaf çıxmışdır. Onların parlamentdə təmsil olunması "Azərbaycanın Rusiyadan ayrılması" faktının tanınması demək olardı. Ancaq bu qərar ölkədə yaşayan rus əhalisinin böyük əksəriyyətinin fikri deyildi. Belə ki, Rus-Slavyan Cəmiyyətinin xahişi nəzərə alınaraq onlara parlamentdə beş yer ayrıldı. Tezliklə təzyiqlərə tab gətirməyən Rus Milli Şurası 1919-cu il yanvarın 17-də parlamentdə iştirak etmək haqqında qərar qəbul etdi.

O vaxt ölkədə fəaliyyət göstərən şovinist qüvvələr vəziyyətin ağırlığından istifadə edərək Azərbaycan əraziləri hesabına öz torpaqlarını genişləndirmək istəyən ermənipərəst qurumlara dəstək verirdilər. Erməni milli komitələri Azərbay-






Azərbaycan Xalq Cümhuriyyətinin xəritəsi



Ə.M.Topçubaşov



İ. Ziyadxanov



Ə. Haqverdiyev



M. Əliyev



Ə. Muradxanov

Rusiya Dövlət Dumasının azərbaycanlı deputatları



F.Xoyski



M.Mahmudov



X.Xasməmmədov



M.A. Şahtaxtinski




Z.Zeynalov




M.Y.Cəfərov

Rusiya Dövlət Dumasının azərbaycanlı deputatları



Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin binası



Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışı.
7 dekabr 1918-ci il



Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin iclas salonund



Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti üzvlərinin bir qrupu



Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının iclası



Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti üzvlərinin və dəftərxana işçilərinin bir qrupu

canın müstəqilliyi ilə heç cür barışmaq istəmir, iki ayadək Azərbaycan parlamentinə öz nümayəndələrini göndərmirdilər. Ancaq bir müddət sonra onlar reallıqla barışmalı olur, parlamentdə erməni və daşnaksütyun fraksiyaları yaradılır. Tezliklə məlum oldu ki, onlar "Böyük Ermənistan" xülyasını həyata keçirmək üçün qanunvericilik orqanının tribunasından istifadə etmək məqsədi güdürlər.

Azərbaycan parlamenti öz fəaliyyətini demokratik dövlətlərə məxsus prinsiplər əsasında qururdu. Parlamentdə müxtəlif partiya fraksiyaları və qruplar təmsil olunmuşdu. Bu fraksiya və qruplar öz bəyanatlarında bildirirdilər ki, onların əsas məqsədi ölkə müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, qonşu dövlətlərlə mehriban dostluq əlaqələrinin yaradılması, islahatların həyata keçirilməsi və hüquqi dövlətin qurulmasıdır.

Mövcud olduğu dövrdə Xalq Cümhuriyyətinin parlamenti və hökuməti sosial-iqtisadi, hərbi, mədəni sahədə qarşıya qoyduğu proqramı yerinə yetirə bildi. Parlamentdə ölkə həyatının ən müxtəlif sahələrinə aid çox mühüm məsələlər və qanunvericilik aktları qəbul edildi.

Azərbaycan Xalq Cümhuriyyəti və onun parlamenti milli tariximizdə yeni bir səhifənin-azadlıq, müstəqillik, demokratiya səhifəsinin başlanğıcı idi. Bu, xalqımızın müstəqillik ideyalarının və azadlıq ruhunun təzahürü idi.

Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu dövrdə bir çox mühüm tədbirlər hazırlayıb həyata keçirmişdir. O dövrdə parlament dövlət, ordu quruculuğu ilə bağlı "Azərbaycan vətəndaşlığı haqqında", "Bakı Dövlət Universiteti haqqında", "Milli Bankın yaradılması haqqında" bir sıra qanunlar qəbul etmiş, o cümlədən Azərbaycanın dövlət rəmzlərini – respublikanın himnini, bayrağını qəbul etmiş, dövlət gerbinin hazırlanması üçün müsabiqə elan etmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti öz fəaliyyəti dövründə 145 iclas keçirmişdir. Bu iclaslarda çox geniş müzakirələr aparılmışdır. Parlamentdə 270 müxtəlif məsələ müzakirə olunmuş, 230 qanun layihəsi qəbul edilmişdir. Bu onu göstərir ki, qısa müddət ərzində xalqın, dövlətin həyatı ilə bağlı olan bir çox mühüm, vaxtı çatmış məsələlərə baxılmışdır.

Azərbaycan Cümhuriyyətinin parlamentində Azərbaycan dili haqqında xüsusi qanun qəbul olunmuşdur. O dövrdə qanunverici orqanın fəaliyyəti Azərbaycan parlamentinin nakazı (təlimatı) ilə tənzimlənirdi. Parlamentdə fəaliyyət göstərən 11 komissiyada – maliyyə-büdcə, qanunvericilik təklifləri, müəssislər məclisinə seçkilər keçirmək üzrə Mərkəzi Komissiya, mandat, hərbi, aqrar məsələlər, sorğular üzrə, təsərrüfat-sərəncamverici, ölkənin istehsal qüvvələrindən istifadə üzərində nəzarət, redaksiya və fəhlə məsələləri üzrə komissiyalarda konkret sahələr üzrə qanunvericilik aktları və bir sıra məsələlər müzakirə olunurdu.

Hüquqi dövlət yaratmaq baxımından hakimiyyətin bölünməsi prinsipinə də riayət edilirdi. Parlament o dövrdə ölkə qarşısında duran əsas vəzifələri həyata keçirmək, onun üçün qanunvericilik bazası yaradılması baxımından əhəmiyyətli işlər görür, gənc Azərbaycan dövlətinin dünya dövlətləri tərəfindən tanınmasında səylərini əsirgəmirdi.

Qonşu ölkələrlə iqtisadi, ticarət və digər əlaqələrin inkişaf etdirilməsinə də ciddi fikir verilirdi. Parlamentdə qəbul olunmuş ilk qanun və qərarla hökumətin fəaliyyətinin əsas istiqamətləri müəyyənləşdirildi. O dövrkü vəziyyət ordu quruculuğuna ciddi diqqət yetirilməsini ön plana çıxarmışdı. Bu sahənin gücləndirilməsi, ölkənin ərazi bütövlüyünün qorunması baxımından çox əhəmiyyətli idi.

Parlament elm, təhsil, mədəniyyət sahələrinə də ciddi diqqət yetirirdi. Xalq maarifinin inkişafı, tədris və teatr müəs-

sisələrinin milliləşdirilməsi, müəllimlərin maddi vəziyyəti deputatların maraq göstərdikləri məsələlərdən idi.

Həmin dövrdə parlament dövlət hesabına xarici ölkələrin ali məktəblərində təhsil almaq üçün tələbələrin xaricə göndərilməsi barədə qanun qəbul edərək xüsusi komissiya yaradır. Tez bir zamanda istedadlı gənclər Fransa, İtaliya, İngiltərə və Türkiyənin müxtəlif ali məktəblərinə göndərilirlər.

Parlamentin o dövrkü əsas vəzifələrindən biri də Paris Sülh Konfransının iştirakçısı olan dövlətlər tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması idi. Bu məqsədlə 1918-ci il dekabrın 28-də parlamentin sədri Ə.Topçubaşovun rəhbərliyi ilə Fransaya nümayəndə heyəti göndərilir. Nümayəndə heyətinin apardığı gərgin iş sayəsində 1920-ci ilin yanvarın 12-də Sülh Konfransının əsas ölkələri Azərbaycanın müstəqilliyini tanıyırlar.

Parlament həmin il aprelin 22-də İngiltərə, Fransa, İtaliya, İsveçrə, Polşa və ABŞ-da diplomatik nümayəndəliklər açmaq haqqında qanun qəbul edir.

Bu dövrdə Zaqafqaziyada yaranmış yeni respublikalar arasında sərhəd məsələlərinin həlli də parlamentin diqqət mərkəzində olmuşdur. 1920-ci il martın 20-də İranla Azərbaycan arasında dostluq, konsulluq əlaqələri və s. haqqında ikitərəfli müqavilələr imzalanır və aprelin 15-də parlament bu sənədləri təsdiq edir.

Azərbaycanın ilk parlamenti cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, xalqımızın dövlətçilik və milli şüurunun formalaşmasında mühüm rol oynadı. Öz işində buraxdığı nöqsanlarla yanaşı, bu qurum ölkədə milli parlamentarizmin əsasını qoydu və bütün dünyaya bir daha nümayiş etdirdi ki, Azərbaycan xalqı hüquqi dövlət qurmağa qadirdir.

1920-ci il aprelin 27-də Sovet Rusiyasının XI qızıl ordusunun Azərbaycana girməsi ilə Cümhuriyyət süquta uğradı.

Şərqdə ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın ictimai fikir tarixində, dövlət suverenliyimizin bərpası yolunda layiqli yer tutur.

Bugünkü müstəqil Azərbaycan Respublikasını 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin varisi adlandıran möhtərəm Heydər Əliyev Cümhuriyyətin 80 illik yubileyi münasibəti ilə 1998-ci il mayın 26-da Milli Məclisin təntənəli iclasında demişdir:

"Azərbaycan Xalq Cümhuriyyəti az bir müddət yaşayıbdır. Ancaq o, XX əsrdə Azərbaycan xalqının həyatında tarixi bir mərhələ olub və xalqımızın gələcəyinin, müstəqilliyinin, azadlığının, suverenliyinin təməlini qoyubdur...

Azərbaycan Respublikasının Milli Məclisi Xalq Cümhuriyyətinin yaratdığı parlamentin indi də varisidir. Varislik həmişə, eyni zamanda, böyük məsuliyyət demək olubdur. Varislik o demək deyil ki, sən o hadisəni olduğu kimi təkrar edəsən, yaxud o səviyyədə yaşayasan. Hər bir varis varislik prinsipini əziz tutaraq o dövrün, o hadisənin varisi olaraq o hadisəni, o dövrü, o quruluşu daha da yüksəklərə qaldırmalıdır.

Biz Azərbaycanda bunu edirik və bu sahədə çox şeylərə nail olmuşuq. Hesab edirəm ki, Azərbaycanın bugünkü Milli Məclisi varislik adını şərəflə daşıyır, eyni zamanda, ötən illərdə və xüsusən son dövrdə Azərbaycanın müstəqil dövlətini inkişaf etdirmək üçün çox işlər görübdür. Bütün bunlara görə də sizə öz hörmət-ehtiramımı bildirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz qazandığınız nailiyyətləri gələcəkdə daha da yüksəldəcək, bu şərəfli ada layiq olacaqsınız".

Milli qurtuluş savaşının ön cərgəsində

90-cı illərin əvvəlində – Azərbaycan üçün həyati əhəmiyyət daşıyan mürəkkəb ictimai-siyasi proseslərin getdiyi bir vaxtda Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərməsi Azərbaycanı bir dövlət kimi məhv etmək istəyən daxili və xarici düşmənləri təşvişə salmışdı. İqtidar isə Naxçıvanı informasiya blokadasında saxlayır, Heydər Əliyevi ölkədə cərəyan edən siyasi proseslərdən təcrid etməyə çalışırdı.

Belə bir vaxtda 1991-ci il sentyabrın 3-də Naxçıvan əhalisinin təkidi ilə Heydər Əliyev Muxtar Respublikanın Ali Məclisinə sədr seçildi. Onun bu vəzifəyə seçilməsini bütün naxçıvanlılar istəyirdilər. Həmin gün sessiya keçirilən binanın qarşısında toplaşan yüz minlərlə insan onun Muxtar Respublikaya rəhbər seçilməsini qətiyyətlə tələb edirdi. Bu hadisə barədə Heydər Əliyev belə deyirdi:

"Mən bu zamanın, bu dəqiqələrin, bu saatların hökmünü nəzərə almaya bilməzdim... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin dövründə üzərimə düşən vəzifənin icrasından geri çəkilə bilmədim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".

Heydər Əliyev Muxtar Respublikaya rəhbərlik etməyə başladığı ilk gündən dövlət quruculuğuna, idarəetmənin təkmilləşdirilməsinə, iqtisadi islahatların aparılmasına, xarici ölkələrlə əlaqələrin qurulmasına, müdafiə və hərbi quruculuq məsələlərinə ciddi fikir verildi.

Həmin il sentyabrın 7-də Muxtar Respublikanın müdafiəsini təşkil etmək məqsədi ilə Naxçıvanın Ali Məclisi Dövlət Müdafiə Komitəsi yaradılması haqqında qərar qəbul etdi.

Heydər Əliyev Naxçıvan Dövlət Təhlükəsizlik Komitəsinin Moskva ilə əlaqəli işlədiyini aşkar etdi və bu təşkilatın fəaliyyətini Ali Məclisin qərarı ilə müvəqqəti dayandırdı. Bu dövlət əhəmiyyətli orqanda milli satqınlardan təmizləmə işləri aparıldı. Bunu o dövrkü iqtidar Muxtar Respublikanı Azərbaycandan ayırmaq cəhdi kimi qiymətləndirir və Naxçıvana qarşı təzyiqləri gücləndirirdi. 1991-ci il yanvarın 13-də Ali Məclis Heydər Əliyevin işləyib hazırladığı "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" bəyanat qəbul etdi.

İqtidar isə Heydər Əliyevin əleyhinə hər cür yaramaz təbliğatı qızışdırır, ikiüzlü depututların vasitəsi ilə onu Azərbaycan parlamentində iştirakdan və ölkədə cərəyan edən siyasi proseslərdən təcrid etməyə çalışırdı.

Parlamentdə Qarabağ probleminin həlli ilə bağlı Heydər Əliyevin irəli sürdüyü təkliflər "Qarabağ heç vaxt indiki qədər bizim olmayıb" məddahlığı ilə qarşılanır, respublika rəhbərliyinin səbatsızlığı ucbatından hadisələr təhlükəli xarakter almağa başlayırdı. Bunun nəticəsində Azərbaycan torpaqları dalbadal işğal olunur, yüz minlərlə soydaşımız doğma yurdlarından didərgin düşürdü.

Heydər Əliyevin Naxçıvana rəhbərlik etməsi Azərbaycanın bu qədim guşəsinin erməni işğalından xilas olmasında əsas rol oynadı. O, erməni qəsbkarları ilə gedən döyüşlərdə ağır itkilər verən Naxçıvana mənəvi dayaq oldu.

1991-ci il dekabrın 16-da Naxçıvan parlamenti 31 dekabrın Dünya azərbaycanlılarının həmrəylik günü elan olunması barədə qərar qəbul etdi. Bu qərarın qəbul olunmasının öz tarixçəsi var.

Belə ki, 80-ci illərin sonunda Naxçıvan Muxtar Respublikası keçmiş ittifaqda real vəziyyəti nəzərə alaraq, kifayət qədər cəsarətli və müstəqil qərarlar qəbul etmək iqtidarında olan ərazi vahidi imici qazanmışdı. Bu dövrdə erməni separatçılarının Dağlıq

Qarabağda törətdikləri vəhşiliklər, respublika rəhbərliyinin naşılığı ölkəni böhran həddinə gətirib çıxarmışdı. Hər tərəfdən blokadaya alınmış Naxçıvanda isə böyük gərginlik hiss olunurdu. Muxtar Respublikanın sadə əmək adamları, ziyalıları düşdükləri bu vəziyyəti İranda, Türkiyədə yaşayan soydaşlarına çatdırmaq üçün yollar arayırdılar. Lakin o dövrdə Naxçıvanın xarici dövlətlərlə sərhədləri imperiya qoşunları tərəfindən qorunurdu. Tikanlı sərhəd məftillərini aşıb keçmək heç də asan deyildi.

Respublikanın o dövrkü rəhbərliyi Naxçıvana heç bir yardım göstərmir, Moskva isə burada cərəyan edən hadisələrə ciddi yanaşmırdı. Bütün bunlar 1989-cu ilin sonunda Naxçıvanda "Sərhəd hərəkatı"nın yaranmasına gətirib çıxarırdı. Əhali nəyin bahasına olursa-olsun tikanlı məftilləri söküb sərhəddin o biri tayında yaşayan həmvətənləri, qohumları ilə ünsiyyət yaratmaq istəyirdi. Mərkəz isə bu istəyə mane olmaq üçün bütün hərbi və siyasi təsir vasitələrinə əl atdı. Ancaq onlar Naxçıvan əhalisinin iradəsi qarşısında tab gətirə bilmədilər. Və nəhayət, 1989-cu ilin noyabr-dekabr aylarında Naxçıvanda SSRİ-nin sərhəddi boyunca çəkilən tikanlı çəpər əhalinin mütəşəkkil iştirakı ilə söküldü.

70 il ərzində Sovet imperiyası adlı həbsxanaya bənzər bir məmləkətdə yaşayan əhali ilk dəfə olaraq qonşu dövlətlərdəki soydaşları ilə əlaqə saxlamaq imkanı əldə etdi. Bu hadisə bütün azərbaycanlıların həmrəylik bayramına çevrildi. Muxtar Respublikadan başlayıb Azərbaycanın digər sərhəd rayonlarına da keçən bu sərhəd hərəkatına SSRİ-nin və Azərbaycanın o dövrkü kommunist rəhbərliyi, hərbi dairələr ləkə yaxaraq onu antidemokratik, bir qrup ekstremistin, cinayətkar ünsürün əməli kimi qiymətləndirir, dünya ictimaiyyətinin gözündən salmağa çalışırdı. Kütləvi informasiya vasitələri sərhədlərin sökülməsini vəhşilik adlandırır, nəyin bahasına olursa-olsun xalqın iradəsini qırmağa cəhd göstə-

rirdilər. Ancaq dünya ictimaiyyətinin bu prosesə təbii birləşmə meyli kimi baxması və müdafiə etməsi bu mürtəce təbliğatın qarşısını qismən aldı.

80-ci illərin sonunda Naxçıvanda baş vermiş bu hadisə dünya azərbaycanlılarının həmrəyliyi ideyasının reallaşması istiqamətində atılan ilk addım oldu. Heydər Əliyevin Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında 23 may 2001-ci il tarixli Sərəncamında bu barədə belə deyilir:

"Öz doğma yurdunda yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış həmvətənləri ilə həmişə maraqlanmış, onlarla əlaqələr yaratmaq arzusu ilə yaşamışlar. Lakin keçmiş sovet dövlətinin qadağaları bu arzunun həyata keçirilməsinə imkan verməmişdir. Sovet rejiminin zəifləməyə başladığı 80-ci illərin sonlarında Azərbaycan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 16 dekabr 1991-ci il tarixli qərarı ilə həmin səylərin böyük əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya azərbaycanlılarının həmrəylik günü elan etdi. Sonra bu bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul etdi. Beləliklə, 1991-ci ildən etibarən Azərbaycanda hamımız üçün əziz bir bayram olan 31 dekabr – Dünya azərbaycanlılarının həmrəylik günü təntənə ilə qeyd olunur. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır".

SSRİ sərhədlərinin Azərbaycana aid hissəsində sökülməsi Moskvanı bərk hiddətləndirmişdi. Belə bir vaxtda Mərkəz Azərbaycan xalqının azadlıq istəyini boğmaq üçün imperiya qoşunlarını Bakıya yeridərək Qanlı 20 yanvar qırğınını törətdi.

Bu faciəyə qədər artıq Naxçıvanın Ermənistanla 300 kilometrlik sərhəddində ermənilər rus qoşunlarının köməyi ilə Muxtar Respublikaya hücuma keçmişdilər. Heç kimdən kömək görməyən, blokadaya alınmış Naxçıvanda həmin il yanvarın 19-da xalqın tələbi ilə Muxtar Respublikanın Ali Sovetinin sessiyası çağrıldı. Sessiyada Muxtar Respublikanın Sovet İttifaqının tərkibindən çıxması haqqında Qərar qəbul olundu, bu keçmiş ittifaqda misli görünməmiş bir hadisə idi. Bu dövrdə Naxçıvanda baş verən hadisələr Heydər Əliyevin "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" fərmanında belə xarakterizə olunurdu:

"XX əsrin 90-cı illərində SSRİ-nin dağılması nəticəsində yaranmış şəraitdən istifadə edən Ermənistan dairələri Azərbaycana, o cümlədən Naxçıvana qarşı öz ərazi iddialarını artıq müharibə yolu ilə gerçəkləşdirmək qərarına gəldilər. Naxçıvan çətin sınaqlar qarşısında qaldı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qan tökülmüş və erməni quldur dəstələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişdir.

Məhz belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı. Milli istiqlaliyyət uğrunda mübarizə yollarında o zaman Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi".

Heydər Əliyevin Naxçıvanda yerləşən sovet ordusunun hissə komandanlıqları və Rusiya dövlətinin rəhbərliyi ilə apardığı gərgin danışıqlar nəticəsində 75-ci motoatıcı diviziya

və 41-ci sərhəd dəstəsi öz əmlaklarını Azərbaycan Silahlı Qüvvələrinə təhvil verərək Naxçıvan ərazisini tərk etdilər. Sonralar Heydər Əliyev Naxçıvan qarnizonu "N" hərbi hissəsinin şəxsi heyəti ilə görüşündə bu barədə belə demişdir (15 oktyabr 1999-cu il):

"1992-ci ilin yayında, Azərbaycan dövlət müstəqilliyini artıq əldə edəndən sonra Azərbaycan ərazisindəki Rusiya qoşunları, yəni sovet ordusunun hissələri Rusiyanın sərəncamına keçmişdi. Rusiyanın hərbi hissələri Azərbaycanda ilk dəfə Naxçıvandan çıxarıldı. Biz öz əməkdaşlığımızla, apardığımız düzgün siyasətimizlə onlara anlatdıq ki, 75-ci diviziyanın Azərbaycanda qalmasına ehtiyac yoxdur... Mən o vaxt Moskvaya, Rusiyanın rəhbərliyinə də müraciət etdim, onlara da anlatdım ki, burada Rusiya diviziyasının qalması mümkün deyildir...

...Danışdıq, buradan ancaq şəxsi heyət çıxdı, öz əşyaları ilə. Bütün silah-sursat, burada yaradılmış hərbi qurğular, diviziyanın burada olan bütün əmlakı Naxçıvan Muxtar Respublikasına təhvil verildi... O vaxt Naxçıvanın başçısı kimi, mənim məqsədim ondan ibarət idi ki, nizami ordu hissəsinin silah-sursatını, maddi-texniki bazasını, binalarını qoruyub saxlayaq.

Naxçıvanda yerləşən 41-ci sərhəd dəstəsinin də şəxsi heyətini buradan çıxarıb onun bütün əmlakını, silah-sursatını, maddi-texniki bazasını Azərbaycanın, Naxçıvanın sərəncamına aldıq".

Tezliklə Heydər Əliyev blokadada olan Naxçıvanın vəziyyətini yüngülləşdirmək üçün qardaş Türkiyə və İranla əlaqələr yaratdı. Bunun sayəsində bu dövlətlər Naxçıvana yardımlar göstərdilər. Bu ölkələrin başçıları öz şəxsi təyyarələrini Naxçıvana göndərir, Heydər Əliyevi öz ölkələrinə səfərə dəvət edirdilər. Bu dövlətlərlə imzalanmış sənədlər Naxçıvanın vəziyyətini xeyli yüngülləşdirdi.

Sədərəkdən köçürülmüş əhali öz doğma yurdlarına qaytarıldı. 1992-ci il martın 24-də Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu, həmin ilin avqustunda isə İran İslam Respublikası ilə müxtəlif sahələrdə əməkdaşlıq haqqında sənəd imzalandı.

Naxçıvan aeroportu yenidən quruldu. Culfa və Şahtaxtı – Poldəşt keçid məntəqələri inşa olundu. Muxtar Respublika üçün həqiqətən həyati əhəmiyyət kəsb edən, xalq arasında "Ümid körpüsü" adlandırılan Sədərək körpüsü tikildi.

1993-cü il fevralın 5-də Naxçıvanda Türkiyə Respublikasının, martın 8-də isə İran İslam Respublikasının konsulluqları fəaliyyətə başladılar. Heydər Əliyev ABŞ-ın Türkiyənin, İngiltərənin, Fransanın səfirləri ilə keçirdiyi görüşlərdə Azərbaycandakı, o cümlədən regiondakı ictimai-siyasi vəziyyət barədə fikir mübadiləsi aparırdı. Naxçıvan tədricən dünya dövlətlərinin diqqətini özünə cəlb edirdi.

Muxtar respublikada çətin və mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Heydər Əliyev Azərbaycan mədəniyyətinin, musiqisinin, elminin vəziyyəti ilə də yaxından maraqlanırdı. Onun təşəbbüsü ilə 1992-ci ildə Naxçıvanda görkəmli Azərbaycan şairi Hüseyn Cavidin 110 illik yubileyi böyük təntənə ilə qeyd edildi.

Sonralar Heydər Əliyev Azərbaycanın görkəmli mütəfəkkir şairi Hüseyn Cavidin cənazəsinin uzaq Sibirdən Vətənə gətirilməsini tez-tez xatırlayırdı. O, böyük ədib Hüseyn Cavidin Naxçıvan şəhərində məqbərəsinin təntənəli açılışı mərasimində (29 oktyabr 1996-cı il) bu barədə belə demişdir:

"1982-ci ildə Hüseyn Cavidin cənazəsini Uzaq Şərqdən Azərbaycana gətirmək asan iş deyildi. Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim.

O vaxt Hüseyn Cavidin cənazəsini Azərbaycana gətirərkən onu Bakıda, yaxud doğulduğu yerdə torpağa vermək barədə müxtəlif fikirlər var idi. Bu məsələ müzakirə olundu. Yazıçılarımız, alimlərimiz, ziyalılarımız böyük fikir mübadiləsi apardılar. Onlar qərar qəbul etdilər. Bu, mənim də qərarım idi ki, cənazə Naxçıvana gətirilsin. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Ona görə də Hüseyn Cavidin cənazəsinin Naxçıvanda torpağa verilməsi həm Hüseyn Cavidin ruhuna olan hörmət idi, həm də Azərbaycanın ayrılmaz hissəsi, müqəddəs guşəsi olan Naxçıvana hörmət və ehtiramın əlaməti idi".

Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi dövrdə respublikamızın bu bölgəsi bütün Azərbaycan üçün milli azadlıq və milli dövlət quruculuğu nümunəsi göstərdi. O, xaos və təhlükələr, kəskin ictimai narazılıqlar və qarşıdurmalar, dövlət çevrilişləri dövrünü yaşayan ölkəmiz üçün ümid yerinə çevrildi.

Hamı Heydər Əliyevin Naxçıvanda başladığı Milli Qurtuluş savaşının zəfər yürüşünə qəlbən inanırdı!

HEYDƏR ƏLİYEV:
"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir və biz bunu qoruyub saxlamalıyıq"

Ötən əsrin 90-cı illərinin əvvəlində Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvanın Azərbaycanın müstəqilliyi, azadlığı uğrunda atdığı qətiyyətli addımlar respublikanın o dövrkü rəhbərliyini sözün həqiqi mənasında vahiməyə salırdı. Böyük qurtuluş savaşının Naxçıvan cəbhəsində Heydər Əliyevin əldə etdiyi uğurlar, onun əhali arasında günbəgün artan nüfuzu vəzifə düşgünlərini xoflandırırdı. Onlar Azərbaycanın müstəqilliyi yoluna işıq saçacaq alovun Naxçıvanda parlamış ümid qığılcımını beşiyindəcə söndürmək üçün dəridən-qabıqdan çıxırdılar.

Respublikanın hər addımda uçuruma yuvarlandığı, insanların çörək problemi ilə üzləşdiyi bir vaxtda Naxçıvan Muxtar Respublikasında həyata keçirilən islahatlar, qonşu dövlətlərlə münasibətlərin tənzimlənməsi və iqtisadiyyatda əldə edilən müsbət dəyişikliklər nəticəsində Azərbaycanda Heydər Əliyevin nüfuzu sürətlə artırdı.

İqtidar Naxçıvanı iqtisadi və informasiya blokadasında saxlamaqda davam edir, Heydər Əliyevin əleyhinə təbliğatı qızışdırırdı. Bütün bunlara baxmayaraq, Heydər Əliyev ardıcıllıqla qarşıya çıxan maneələri dəf edərək Muxtar Respublikanın vəziyyətini yüngülləşdirmək üçün bütün qüvvələri səfərbər edirdi.

Bu dövrdə psevdodemokratlar cəmiyyətdə yaratdıqları böhranı aradan qaldırmaq əvəzinə, sağlam təfəkkürə sığmayan əməllərə rəvac verdilər. Cəbhə-Müsavat hakimiyyəti Azərbaycanda böyük nüfuz sahibi olan Heydər Əliyevə qarşı siyasi repressiya yolunu tutdu. İqtidarda olanlar Heydər Əliyev fenomenini birdəfəlik aradan qaldırmaq üçün, hətta Nax-

çıvanın muxtariyyət statusunun ləğv edilməsi istiqamətində cəhdlər göstərirdilər.

Heydər Əliyev sonralar 1996-cı il oktyabrın 30-da Muxtar Respublika ictimaiyyəti nümayəndələri ilə görüşündə o dövrü belə xatırlayırdı: ***"O vaxt Bakıdan nümayəndələr gəlmişdi, onların əksəriyyəti Xalq Cəbhəsinin hakimiyyəti vaxtı böyük vəzifələr tutan adamlar idi. Onlar açıq-aşkar belə bir fikir irəli sürürdülər ki, guya Azərbaycan unitar dövlətdir, unitar dövlət daxilində heç bir muxtariyyət hüququ ola bilməz, ona görə də Naxçıvan Muxtar Respublikası ləğv olunmalıdır.***

Şübhəsiz ki, mən bunun qarşısını aldım. Həm qarşısını aldım, həm də onların cavablarını verdim. Xatirimdədir, o vaxt Ali Məclisin sessiyalarında bu danışıqlar getdi, mənimlə bərabər Naxçıvan Muxtar Respublikasının qeyrətli, namuslu insanları, Ali Məclisin deputatları da öz sözlərini dedilər. Ancaq təsəvvür edin, o hakimiyyət davam etsəydi, o insanlar vəzifələrində qalmış olsaydılar, Naxçıvan Muxtar Respublikasının statusunu saxlamaq üçün nə qədər mübarizə aparmaq lazım olacaqdı.

Mən bu gün dedim ki, naxçıvanlıların 1989-1990-cı illərdən sonra atdıqları bir çox addımlara, xüsusən müstəqillik, milli azadlıq yolunda atdıqları addımlara, qəbul etdikləri qərarlara görə fəxr etməyə haqları var".

1992-ci il iyunun 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin iclasında çıxış edən Heydər Əliyev rəsmi dairələrdə Naxçıvanın statusunun dəyişdirilməsi ilə bağlı səslənən təklifləri ermənilərin işğalçılıq siyasəti ilə eyniləşdirərək bu məsələyə özünün birmənalı münasibətini bildirdi:

"Naxçıvanın statusunun dəyişdirilməsinə yönələn hər hansı cəhdin, onun ərazisinə edilən hər cür qəsdin qarşısı qətiyyətlə alınacaqdır".

Üç gün sonra iyunun 20-də isə Gəncə şəhərində yaradılan "Naxçıvan" xeyriyyə cəmiyyəti xalqa müraciət edərək Naxçıvanın real vəziyyəti haqqında məlumat verdi və Heydər Əliyev siyasətini dəstəklədiyini bildirdi.

Onun Naxçıvanı düşdüyü vəziyyətdən xilas etmək məqsədilə qonşu Türkiyə və İranla əlaqələr yaratması, həm blokada şəraitində yaşayan Muxtar Respublikanın, həm də bütövlükdə Azərbaycanın strateji mənafelərinə xidmət edirdi. Türkiyəyə səfər zamanı əsası 13 oktyabr 1921-ci ildə qoyulmuş Qars müqaviləsinin gündəmə gətirilməsi və yenidən imzalanması da Heydər Əliyevin məqsədyönlü siyasətinin məntiqi nəticəsi idi.

Heydər Əliyev deyirdi (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üzvləri ilə görüşdə nitqindən, 31 oktyabr 1996-cı il):

"Naxçıvanın Azərbaycanın tərkibində olması üçün 1921-ci ildə referendum keçirildi və Naxçıvan əhalisinin 90 faizi Naxçıvanın Azərbaycanın tərkibində olmasına səs verdi.

1921-ci ilin mart ayında Moskva müqaviləsi və 1921-ci ilin oktyabr ayında Qars müqaviləsi bağlanmışdır. 1990-cı ildə və ondan sonrakı dövrdə Naxçıvanda bu müqavilələr səsləndi, insanlar bu sənədləri yada saldılar və həmin müqavilələrdən istifadə etdilər. Xatirimdədir, 1992-ci ilin mart ayında mən Naxçıvanda Ali Məclisin sədri olarkən Türkiyəyə səfər etdiyim zaman orada mərhum prezident Turqut Özalla, o vaxtkı baş nazir Süleyman Dəmirəllə danışıqlarımızda həmin Qars və Moskva müqavilələrini biz çox geniş səsləndirdik.

Uzun bir fasilədən sonra Türkiyə Cümhuriyyətinin başçıları, xüsusən baş nazir Süleyman Dəmirəl bütün mətbuat qarşısında bəyan etdi ki, Moskva və Qars

müqavilələrinə görə, Naxçıvan Muxtar Respublikasının statusunda əgər bir dəyişiklik edilərsə, Türkiyə burada səs sahibidir. Bu, həqiqətən də belədir. Çünki həm Qars müqaviləsini, həm də Moskva müqaviləsini imzalayan bir tərəf də Türkiyədir. Türkiyə o vaxt olduğu kimi, indi də dünyanın böyük, müstəqil dövlətidir. Bu baxımdan Türkiyə o vaxtdan Naxçıvan Muxtar Respublikasının qarantı kimi olubdur".

Həmin dövrdə ermənilər Naxçıvan Muxtar Respublikasına ardı-arası kəsilməz hücumlar edirdi. Bu müqavilənin təzələnməsindən sonra Türkiyə Respublikasının hakimiyyət dairələri ermənilərin Naxçıvana qarşı yönələn hücumlarına qarşı ciddi, sərt bəyanatlar yaymağa başladılar.

Cəbhəçilər unudurdular ki, Naxçıvanın statusu beynəlxalq müqavilələr ilə müəyyənləşdirilmişdir. Və onların bu məsələdə göstərdikləri ciddi-cəhdlər ən azı gülünc görünürdü. Milli Məclisin bəyanatında (1999-cu il, fevral) bu barədə belə deyilir: ***"Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci ilin martında imzalanmış Moskva müqaviləsində, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin oktyabrında imzalanmış Qars müqaviləsində təsbit edilmişdir. Naxçıvanın statusunun iki beynəlxalq müqavilədə əks olunması, daha sonra muxtar respublikaya çevrilməsi Azərbaycan xalqının son dərəcə mürəkkəb şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi".***

Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır

Müstəqilliyin ilk illərində ölkə ərazilərinin dalbadal işğalı, dərin iqtisadi-siyasi böhran, əhalinin ağır sosial durumu xalqı öz ardınca aparmağa qadir bir siyasi qüvvəyə ehtiyac olduğunu şərtləndirirdi. Ölkənin siyasi həyatında bir vakuum yaranmışdı. Xalqın bütün zümrələrini səfərbər edəcək yeni bir partiyaya ehtiyac duyulurdu. Elə bir partiyaya ki, xalq onun liderinə inanıb, arxasınca getsin, onun ətrafında birləşə bilsin. Bu dövrdə bütün ölkə vətəndaşları nəzərlərini Naxçıvana dikmişdilər. Hamı Heydər Əliyevin ölkədə siyasi hakimiyyətə yenidən qayıdışını arzulayırdı.

Əslində təkcə ziyalılar deyil, sadə zəhmət adamları da Heydər Əliyevin fəal siyasi həyata qayıtmasını tələb edirdi. Xalqımızın dövlət müstəqilliyini itirmək təhlükəsi bu tələbi daha da gücləndirirdi. Cəmiyyətin demokratik qüvvələri, ziyalıları və bütövlükdə Azərbaycan xalqı öz istəklərində daha qabağa gedərək Heydər Əliyevin adı ilə bağlı böyük bir siyasi partiyanın yaradılmasını zəruri hesab edirdilər. Bu istiqamətdə cərəyan edən hadisələr 1992-ci ilin yazında daha geniş vüsət aldı. Həmin ilin oktyabrında Bakıdan Naxçıvana, Heydər Əliyevə 91 nəfər ziyalının imzası ilə "Azərbaycan Sizin sözünüzü gözləyir" adlı müraciət göndərildi. Müraciətdə Heydər Əliyevə xitabən deyilirdi:

"Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sörğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq

belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurараq, dövlət quruculuğu işlərinə öz layiqli töhfəsini verə bilər.

Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşərək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir".

Bütövlükdə xalqın arzu və istəyinin ifadəsi olan bu müraciət "Səs" qəzetində dərc edildikdən sonra bütün Azərbaycan böyük ümidlə öz Böyük oğlu Heydər Əliyevdən cavab gözləyirdi. Həmin vaxt rəsmi mətbuatın susmağına baxmayaraq, Heydər Əliyevin müraciətə cavabını o dövrkü iqtidar da səbirsizliklə gözləyirdi. Çünki Heydər Əliyevin məsələyə münasibəti respublikadakı ictimai-siyasi proseslərə birbaşa təsir edə bilərdi. Heydər Əliyev Azərbaycan ziyalılarının müraciətinə oktyabrın 24-də "Yeni, müstəqil Azərbaycan uğrunda!" çağırışı ilə başlayan cavab verdi.

Heydər Əliyev cavabında Yeni Azərbaycan Partiyasının yaradılmasının obyektiv zərurətdən doğduğunu vurğulayaraq onun fəaliyyətində fəal iştirak etməyə hazır olduğunu bəyan etdi. Onun ölkədəki ictimai-siyasi vəziyyəti hərtərəfli əks etdirən və AXC-Müsavat hakimiyyətinin əsl mahiyyətini açıb göstərən cavab məktubu Azərbaycanda böyük əks-səda doğurdu.

Heydər Əliyevin bu cavabından o dövrkü iqtidar təşvişə düşdü. Və oktyabrın 24-də Naxçıvanda dövlət çevrilişinə cəhd göstərildi. Belə bir vaxtda Heydər Əliyevi sevən insanlar

ayağa qalxıb, hamı bir nəfər kimi onu müdafiə etdilər. O dövrkü hadisələri ulu öndər sonralar belə xatırlayırdı:

"Biz Naxçıvanda ağır şəraitdə yaşadığımız zaman – bəziləri bunu da bizə çox gördülər, – Naxçıvanda dövlət çevrilişi etmək istədilər. Xalq Cəbhəsinin böyük bir silahlı dəstəsi Daxili İşlər Nazirliyini zəbt etdi. Onların bəzi nümayəndələri televiziya ilə xalqa müraciət edib bizi devirmək çağırışları ilə çıxış etdilər. Ancaq heç bir şey edə bilmədilər. Çünki xalq bizimlə idi.

Mən o vaxt hər bir rabitədən məhrum olduğum üçün bir çox vətənpərvər insanlar avtomobillərlə dərhal şəhərin məhəllələrinə, ətraf kəndlərə, başqa kəndlərə gedərək, insanları Ali Məclisin qarşısına dəvət edirdilər. Bir neçə saat içərisində Naxçıvanın 20 minə qədər qeyrətli, namuslu kişiləri, qadınları, gəncləri, ağsaqqalları toplaşdılar və sinələrini irəliyə verib Naxçıvanın o vaxtkı Ali Məclisini və Heydər Əliyevi müdafiə etdilər".

Bu, ilk dövlət çevrilişinə cəhd idi. Heydər Əliyev xalqın dəstəyinə arxalanaraq dövlətçiliyə balta vurmaq istəyənlərin məkrli niyyətlərinin qarşısını aldı. Sonralar o, siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında silahlı müxalifət tərəfindən növbəti dəfə belə cəhdlər olacaqdı. Ancaq xalq yenə də Heydər Əliyevlə birlikdə öz kövrək addımlarını atmaqda olan müstəqil dövlətinin keşiyində möhkəm dayandığını bir daha nümayiş etdirəcəkdi.

Bütün təzyiqlərə baxmayaraq, tez bir zamanda ölkənin hər yerində yeni partiyanın təsis konfransına hazırlıq işlərinə başlanıldı. Əfsuslar olsun ki, həmin dövrdə Bakıda Yeni Azərbaycan Partiyasının təsis konfransını keçirmək mümkün olmadı. Çünki AXC-Müsavat hakimiyyəti Heydər Əliyevin

rəhbərliyi ilə yaradılacaq partiyadan qorxur və onun təsis olunmasına çox böyük maneələr törədirdi. Buna görə də partiyanın təsis konfransı 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində keçirildi.

Konfransda Azərbaycanın müxtəlif regionlarını təmsil edən təşəbbüs qruplarının 550 nəfərdən artıq nümayəndəsi iştirak edirdi. Tədbir şaxtalı bir gündə Naxçıvan Dram Teatrının binasında keçirildi. 4 saat davam edən konfransda partiyanın Proqram və Nizamnaməsi qəbul olundu və Heydər Əlirza oğlu Əliyev partiyanın sədri seçildi. Yeni yaranmış partiyanın proqramında bu siyasi qurumun əsas məqsədləri barədə belə deyilirdi:

"Yeni Azərbaycan Partiyası dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı hüquqi demokratik dövlətin yaradılması, möhkəm əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaq, irqindən, milliyyətindən, dinindən, dilindən asılı olmayaraq, şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli inkişafı və etibarlı müdafiəsini təmin etmək məqsədilə geniş demokratik islahatların həyata keçirilməsi uğrunda çıxış edən parlament tipli siyasi partiyadır".

Beləliklə, Azərbaycanın siyasi həyatına Yeni Azərbaycan Partiyası adlı möhtəşəm bir təşkilat daxil oldu. Konfransda Heydər Əliyev respublikanın ağır ictimai-siyasi vəziyyətinin obyektiv təhlilini verib, onu bu durumdan qurtarmağın yollarını açıb göstərdi. Partiyanın Yeni Azərbaycan Partiyası adlanması heç də təsadüfi deyildir. Başda Heydər Əliyev olmaqla partiyanı yaradanlar ölkəmizi müstəqil, qüdrətli, yeni Azərbaycan kimi görmək istəyirdilər. Zaman onların öz istək və arzularında haqlı olduqlarını sübut etdi. Çox az bir vaxtda partiyanın sıralarına Azərbaycanın 40 mindən çox ən qabaqcıl, sağlam düşüncəli oğul və qızları daxil oldular.

Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində Heydər Əliyevin rəhbərliyi altında həyata vəsiqə alan Yeni Azərbaycan Partiyası Vətənin taleyinə biganə qalmayan insanların siyasi istinadgahına çevrildi.

Yarandığı gündən partiya azərbaycançılıq və dövlətçilik mövqeyində duraraq, öz proqram prinsiplərinə uyğun gənc Azərbaycan demokratiyası üçün yeni, ləyaqətli bir ənənənin əsasını qoydu. Güclü lideri, mükəmməl proqramı və siyasi platforması, qətiyyətli mövqeyi sayəsində bu partiya tezliklə əsl ümumxalq partiyasına çevrildi.

Müxalifət partiyası kimi yaranmasına baxmayaraq, YAP öz fəaliyyətində milli maraqları hər şeydən üstün tuturdu. Bu barədə partiyanın III qurultayında ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev belə demişdi:

"Yeni Azərbaycan Partiyası 1992-ci ildə çətin şəraitdə ... müxalifət partiyası kimi yaranmışdır. Ancaq indiki bəzi müxalifət nümayəndələrindən fərqli olaraq, Yeni Azərbaycan Partiyası müxalifətdə olan dövrdə heç vaxt Azərbaycan dövlətçiliyinə, Azərbaycanın milli maraqlarına müxalifətdə olmamışdır. O vaxtkı iqtidara müxalifətdə olmuşdur və təkcə biz yox, bütün Azərbaycan xalqı o vaxtkı iqtidara müxalifətdə idi. Çünki onların yaratmaz fəaliyyəti nəticəsində ölkədə anarxiya, hərc-mərclik, total böhran hökm sürürdü. Demək olar ki, ölkəni uçurum kənarına gətirib çıxarmışdılar. Ölkədə gedən proseslər Azərbaycanın gələcəyini sual altında qoymuşdu və ölkə parçalanma ərəfəsində idi. Azərbaycan xalqının müdrikliyi və xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi təcrübəsi, biliyi, cəsarəti nəticəsində ölkəmiz o çətin şəraitdən şərəflə çıxdı, Azərbaycan özünü bütün təhlükələrdən qoruya bildi".

Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə Yeni Azərbaycan Partiyası müxalifət partiyasından iqtidar

partiyasına çevrildi. Ölkə qarşısında duran problemlərin həllinə öz layiqli töhfəsini verdi.

Mövcud olduğu dövrdə YAP dövlətçiliyimizin və xalqımızın inkişafı üçün misilsiz xidmətlər göstərmişdir. Ötən illər ərzində Yeni Azərbaycan Partiyası sıralarında siyasətçilərin yeni nəsli yetişmişdir. Bu nəslin ən parlaq nümayəndəsi, dərin fəlsəfi və milli köklərə malik Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi cənab İlham Əliyev öz çoxşaxəli fəaliyyəti sayəsində geniş xalq kütləsinin dərin rəğbətini qazanmışdır. 2000-ci il parlament seçkilərində İlham Əliyev YAP-ın seçki kampaniyasına uğurla rəhbərlik etdi və bu partiya parlamentdə yerlərin böyük əksəriyyətini qazandı. Partiyanın II qurultayının qətnaməsində bu barədə belə deyilirdi: *"Parlament seçkiləri kampaniyası gedişində yüz minlərlə seçici qarşısında İlham Əliyevin qətiyyətli, məntiqi, praqmatik çıxışları xalqa onu Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi daha yaxından tanıtmışdır".*

Partiyanın II qurultayında İlham Əliyev partiya sədrinin I müavini seçildi. 2003-cü il prezident seçkiləri ərəfəsində isə ulu öndər Heydər Əliyev xalqa müraciətində cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirmişdir: ***"Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər".***

2003-cü il prezident seçkilərində Yeni Azərbaycan Partiyası çox mühüm bir siyasi qələbə qazandı. Bu seçkilərdə partiya Heydər Əliyev ideyalarına sarsılmaz sədaqət nümunəsi göstərdi, ən başlıcası isə qələbəyə haqqı olduğunu bütün dünyaya nümayiş etdirdi. Partiyanın namizədi cənab İlham Əliyev ölkə başçısı seçildi.

Heç də təsadüfi deyildir ki, 2005-ci ildə Yeni Azər-

baycan Partiyasının III qurultayında Azərbaycan Prezidenti, YAP Sədrinin birinci müavini İlham Əliyev partiyanın sədri seçildi. Yeni Azərbaycan Partiyası üçün 2005-ci ilin ən önəmli hadisələrindən biri də 6 noyabr parlament seçkilərində qazanılan inamlı qələbə oldu. Əvvəlki seçkilər kimi bu seçki də xalqın bu partiyaya olan böyük inamını bir daha nümayiş etdirdi.

Yeni Azərbaycan Partiyasının üzvləri ümummilli liderimiz Heydər Əliyevin müstəqil Azərbaycanın qurulması və inkişafı naminə müəyyən etdiyi proqramın həyata keçirilməsində daim onun ən yaxın köməkçiləri və silahdaşları olmuşlar. Bu gün isə partiyanın çoxminli üzvləri Heydər Əliyev yolunun layiqli davamçısı Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər. Partiyanın hər bir üzvü inanır ki, Heydər Əliyev yolu xalqımızın tarixi əhəmiyyət kəsb edən strateji seçimidir. Partiyanın III qurultayında Prezident İlham Əliyev bu barədə belə demişdir:

"Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, zamanın tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir".

Ötən dövrdə Yeni Azərbaycan Partiyası öz beynəlxalq əlaqələrini xeyli dərəcədə genişləndirmişdir. YAP-ın Türkiyənin hakim Ədalət və Kalkınma Partiyası ilə, o cümlədən Rusiyada, Çində, Almaniyada, Gürcüstanda fəaliyyət göstərən partiyalarla əlaqələri dərinləşmişdir. Bu illər ərzində Yeni Azərbaycan Partiyası təmsilçilərinin Avropa Birliyinin, Avropa Şurasının, ATƏT-in, ABŞ-ın Beynəlxalq Respublikaçılar İnstitutunun və Milli Demokratiya İnstitutunun Bakı ofislərinin nümayəndələri ilə çoxsaylı səmərəli görüşləri keçirilmiş, əməkdaşlıq münasibətləri daha da inkişaf etdirilmişdir. Bu gün YAP beynəlxalq konfransların və simpoziumların keçirilməsinin təşəbbüskarı və həm də fəal iştirakçısıdır.

Ötən illər ərzində partiyanın keçdiyi şərəfli yol, bu gün sağlam qüvvələrin partiyaya axını belə deməyə əsas verir ki, Heydər Əliyev ideyalarından güc alan Yeni Azərbaycan Partiyası ölkə qarşısında duran problemləri həll etməyə, xalqımızı xoşbəxt gələcəyə aparmağa qadir, siyasi həyatda özünü təsdiqləmiş monolit bir partiyadır.

Məhz ulu öndərin siyasi xəttinin ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev tərəfindən uğurlu davamının məntiqi nəticəsi kimi bu gün Azərbaycan bütöv bir regionda söz sahibinə çevrilmişdir.

Bu nailiyyətlərin qazanılmasında xalqın ulu öndərə sonsuz inamından yaranmış partiyanın hər bir üzvünün payı vardır. Bu isə YAP-ın hələ uzun illər müstəqil Azərbaycanın siyasi arenasında Heydər Əliyev mayakı kimi şölə saçacağından xəbər verir!

Siyasi ambisiyalar məngənəsində

Tarix dəfələrlə sübut etmişdir ki, əvəzsiz milli sərvət olan müstəqilliyin qorunması onun əldə edilməsindən olduqca çətindir. Müstəqillik yoluna qədəm qoymuş ölkəmizin qarşısında yeni mərhələdə tarixi vəzifələr dururdu. Təəssüflər olsun ki, müstəqilliyin ilk illərində o dövrkü rəhbərlik üzərinə düşən məsuliyyəti tam dərk edə bilmir, siyasi səbatsızlıq nümayiş etdirirdi.

Bu illərdə sovetlər dövründə əhalinin gərgin əməyi sayəsində yaradılmış böyük potensial idarəetmədəki kobud nöqsanlar və hərc-mərclik nəticəsində dağıntılara məruz qaldı. Respublikanın üzləşdiyi Dağlıq Qarabağ faciəsi isə vəziyyəti daha da ağırlaşdırırdı. Sonralar Heydər Əliyev bu dövrdə baş verən prosesləri şərh edərkən haqlı olaraq qeyd

edirdi ki, 1988-ci ildən başlayaraq, Dağlıq Qarabağla bağlı hadisələri Azərbaycan xalqının iradəsi yox, erməni separatçıları idarə edirdilər. Erməni şovinistləri monolit bir qüvvə kimi, ümummilli platforma səviyyəsində düşünülmüş addımlar atır, Dağlıq Qarabağı Azərbaycandan təcrid etmək istiqamətində hər gün yeni uğurlar qazanırdılar. Heydər Əliyev deyirdi (YAP-ın I qurultayındakı nitqindən, 23 dekabr 1999-cu il):

"1991-ci ilin əvvəlində – fevral ayında mən ilk dəfə gəlib Ali Sovetin sessiyasında çıxış edərkən ürəyim yanırdı. Ancaq təəssüf ki, o vaxt mənim çıxışımı anlamaq əvəzinə, mənə qarşı cürbəcür təzyiqlər, böhtanlar, təhqirlər gördüm. Mən o vaxt nə dedim? Mən dedim ki, Dağlıq Qarabağ tamamilə əldən gedib. Dağlıq Qarabağ artıq Azərbaycanın deyil və Dağlıq Qarabağ haqqında Azərbaycan dövlətinin konsepsiyası, siyasəti yoxdur. Bütün işlər pərakəndə görülür. Kim haradasa bir tüfəng ata bilirsə, atır, kim haradasa nə edə bilirsə, edir. Siyasət yoxdur.

Belə də oldu. 1988-ci ildən başlayaraq konkret, real bir konsepsiya olmadığına görə, konkret siyasət olmadığına görə, hamı birləşib bu məsələni həll etmək yollarını birlikdə axtarıb tapa bilmədiklərinə görə Azərbaycan belə ağır vəziyyətə düşdü".

O dövrkü Azərbaycan rəhbərliyi sadə bir həqiqəti unudurdu ki, dünyanın siyasi mənzərəsi böyük sürətlə dəyişməkdədir. Yeni yaranmış siyasi-coğrafi vəziyyət yeni strategiyaların formalaşmasını tələb edirdi. Təəssüf ki, o dövrkü iqtidar zamanın tələblərinə cavab verə bilmədi. Cəmiyyətdəki dəyişiklikləri dəstəkləyən Azərbaycan Xalq Cəbhəsi isə ümummilli platforma yaratmaq əvəzinə, meydan əhval-ruhiyyəsinə üstünlük verdi. Nəticədə Kommunist Partiyası – Xalq Cəbhəsi qarşıdurması hakimiyyət uğrunda mübarizə müstəvisinə keçdi.

Əgər Dağlıq Qarabağ faciəsinin bir qütbündə erməni separatçılığı, erməni terrorizmi, Azərbaycana qarşı torpaq iddiaları dururdusa, digər qutbündə, – bəzi Azərbaycan siyasətçilərinin səriştəsizliyi, hakimiyyət hərisliyi, şəxsi ambisiyaları dururdu. Heydər Əliyev bu məsələni belə izah edirdi (Milli Məclisdə çıxışından, 23 fevral 2001-ci il):

"Bu münaqişə başlayan zaman, yəni Ermənistanın torpaq iddiası meydana çıxandan sonra ermənilər hamısı – həm Ermənistanda, həm də dünyanın hər yerində yaşayan ermənilər bütün daxili ziddiyyətləri, münasibətləri unutdular, hamısı birləşdilər. Hamısı "miatsum" ideyası ətrafında birləşdi və gücünü bir yerə yığıb bizi bugünkü günə gətirdilər. Onlardan fərqli olaraq, Azərbaycanda bu hadisə başlayan zaman xalqımız birləşə bilmədi, xalqa rəhbərlik edən adamlar səbatsızlıq etdi və bir-iki ildən sonra Dağlıq Qarabağ məsələsi unuduldu, Azərbaycanda daxili çəkişmələr, vuruşmalar, hakimiyyət mübarizəsi başladı. Ona görə də belə bir vəziyyətdə ermənilər asanlıqla Azərbaycan torpaqlarını işğal etdilər".

Qondarma Dağlıq Qarabağ problemi Azərbaycan xalqı tərəfindən elə ilk günlərdən respublikanın ərazi bütövlüyünə qarşı, vətəndaşların Konstitusiya hüquqlarının qorunmasına yönəldilmiş bir cəhd kimi qəbul olundu. Lakin sərhədlərimizin toxunulmazlığı müxtəlif səviyyəli dövlət qurumları tərəfindən rəsmən dəfələrlə təsdiq edilsə də, Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması məqsədini güdən siyasət ardıcıllıqla həyata keçirilirdi.

Erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan təcavüz siyasətinin əsas məqsədi Azərbaycan ərazilərində erməni ideoloqlarının uydurduğu "Böyük Ermənistan" dövləti yaratmaq idi. Bu məqsədlə onlar Ermənistanda və ayrı-ayrı xarici dövlətlərdə milli-mədəni, dini, siyasi və hətta terrorçu

təşkilatlar qurur, erməni diasporunun və lobbisinin imkanlarını səfərbər edirdilər.

Təkcə XX əsr boyu – 1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə ermənilər azərbaycanlılara qarşı soyqırımı, etnik təmizləmə siyasəti yeritmişlər. Bu proses etnik zəmində – insanların kütləvi şəkildə öldürülməsi, yaşayış məntəqələrinin yandırılması, milli mədəniyyət abidələrinin məhv edilməsi ilə nəticələnmişdir. Ümumiyyətlə, XX əsrdə iki milyondan çox azərbaycanlı ermənilərin yeritdikləri bu soyqırımı siyasətindən zərər çəkmişdir. Bu barədə ölkə Prezidenti İlham Əliyevin "31 mart – azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciət"ində (29 mart 2008-ci il) belə deyilir:

"Soyqırımı siyasəti müxtəlif dövrlərdə fərqli formalarda həyata keçirilmiş, kütləvi qətllər və hərbi əməliyyatlarla müşayiət olunmuşdur. XIX əsrin birinci yarısında İrandan və Osmanlı imperiyasından köçürülən ermənilər hesabına Qarabağ və Zəngəzurda demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905 və 1918-ci illərdə azərbaycanlı əhalinin kütləvi qırğınları, 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradılması və Azərbaycanın ən mühüm mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin paytaxt kimi Ermənistana güzəştə gedilməsi, 1920-ci illərdə sovet hökuməti tərəfindən Zəngəzurun ermənilərə verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası və sair faktlar soyqırımı tarixinin faciəli və qanlı səhifələridir".

Azərbaycanın çox ağır günlərində onun rəhbərləri özlərinin tam acizliyini göstərdilər. Onlar itaətkar oyuncaqlar kimi SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin və Baş Kəşfiyyat İdarəsinin hazırladıqları ssenariyə uyğun hərəkət edirdilər.

Məhz bunun nəticəsində azərbaycanlıların milli mənliyinə sarsıdıcı zərbələr endirildi.

Sonralar Heydər Əliyev haqlı olaraq qeyd edirdi ki, yaxın və uzaq tarix göstərir ki, bütün bu hücumlara, bütün bu təqiblərə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi. Əgər bütün Azərbaycan xalqını hiddətləndirən, vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli qürur, milli oyanış, milli dirçəliş hisslərindən konstruktiv şəkildə istifadə olunsaydı, Dağlıq Qarabağ problemi bu dərəcədə mürəkkəbləşməzdi.

Bu dövrdə Vətən, torpaq üçün öz canından keçməyə hazır olan Azərbaycan övladları Dağlıq Qarabağda vəziyyəti Azərbaycanın xeyrinə dəyişmək üçün əsl qəhrəmanlıq nümunəsi göstərirdilər. Onların qorxmazlığı və rəşadəti sayəsində erməni silahlı birləşmələri ilə döyüşlərdə bir sıra uğurlar da əldə edilirdi. Təəssüflər olsun ki, respublika rəhbərliyinin düzgün siyasət yeritməməsi sayəsində Dağlıq Qarabağda gedən döyüşlərdə qazanılmış müvəffəqiyyətlər tezliklə öz hərbi əhəmiyyətini itirir, Azərbaycan növbəti itkilərə məruz qalırdı. Heydər Əliyev deyirdi: (Naxçıvan qarnizonu "N" saylı hərbi hissənin şəxsi heyəti ilə görüşdə nitqindən, 15 oktyabr 1999-cu il):

"Azərbaycan oğulları bütün bu daxili münaqişələrdən, bütün bu cürbəcür çirkin hərəkətlərdən kənarda olaraq torpaqlarımızı qoruyurdular. Onların bir çoxu torpaqlarımızı qoruyarkən şəhid oldular. O illərdə Azərbaycan tarixdə görünməmiş qədər şəhidlər verdi. O şəhidlərə nə hakimiyyət, nə var, nə də dövlət lazım idi. Onlar torpaq uğrunda, Azərbaycan uğrunda, öz xalqının mübarizəsi uğrunda qəhrəmancasına döyüşürdülər, şəhid olurdular.

Ancaq təəssüflər olsun ki, onların ümumi bir rəhbərliyi, ümumi peşəkar komandanlığı olmadığına və bu döyüş-

ləri aparmaq üçün onlara lazımi silah-sursat verilmədiyinə və başqa səbəblərə görə biz çox itkilər verdik, qan töküldü, Azərbaycan xalqı şəhidlər verdi. Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal edə bildilər".

Bu illərdə hakimiyyətin idarə edilməsində naşılıq və prinsipsizlik göstərən Ayaz Mütəllibovun müxtəlif qüvvələrlə siyasi oyunlara getməsi, bölgə reallıqlarını nəzərə almaması Azərbaycanı labüd fəlakətə sürükləyirdi. Bu səbatsızlığın törətdiyi ən qanlı nəticə Xocalı faciəsi oldu.

Əsrin Xatın müsibətləri qədər dəhşətli olan Xocalı faciəsi zamanı bütöv bir qəsəbə erməni qoşunları tərəfindən yerlə-yeksan olundu. 613 nəfər dinc əhali, o cümlədən 63 uşaq, 106 qadın vəhşicəsinə öldürüldü, 487 nəfər şikəst edildi, 1275 sakin – qocalar, uşaqlar, qadınlar əsir aparılaraq tarixdə misli görünməyən zülmə və həqarətə məruz qaldı.

Faciədən sonra o dövrkü iqtidar Deputat İstintaq Komissiyası yaratsa da, baş vermiş hadisə 20 Yanvar faciəsi kimi öz həqiqi qiymətini almadı. Yalnız Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra hadisəyə obyektiv qiymət verildi. Faciənin baş verdiyi 26 fevral günü Milli matəm günü elan edildi. Heydər Əliyev bu faciə barədə deyirdi:

"Xocalı soyqırımı adi cinayət deyil. Xocalı soyqırımı yüz il də bundan sonra bizim gələcək nəsillərimizin xatirindən çıxmamalıdır!

Hər bir gələcək nəsil gərək bilsin ki, bizim millətimizə qarşı belə vəhşilik ediblər. Gələsən, bir böyük yaşayış məntəqəsini mühasirəyə alasan, uzun müddət mühasirədə saxlayasan, onu bütün xaricdən təcrid edəsən və nəhayət, ona 5-6 dəfə artıq güc ilə, silahla hücum edib, onu qırasan. Xocalını uzun müddət mühasirəyə alanlar erməni silahlı qüvvələri olublar, bəs onu mühasirədən azad etməyənlər kimlərdirlər? Buna necə dözüblər ki, bizim adamlar orda, bir

elə adam böyük bir yaşayış məntəqəsində uzun müddət mühasirədə qalıblar? Niyə? Hansı tədbirlər görüblər?

Bilirsiniz ki, Xocalı soyqırımı 1992-ci il fevralın 26-da olubdur. 1993-cü ilin fevralın 26-da bu soyqırımının birinci ili idi. Bu yaranın hələ tamamilə qanlı vaxtı idi. Nə üçün bəs bu gün Xocalı soyqırımının günü elan olunmadı? Bunun böyük tarixi əhəmiyyəti var. Bunun böyük siyasi əhəmiyyəti var! Bunun böyük mənəvi əhəmiyyəti var!

1994-cü ildə, bu 26 fevral ərəfəsində mən təklif verdim bizim Milli Məclisə. Milli Məclis qərar qəbul etdi və Xocalı soyqırımı, Xocalı faciəsi günü elan olundu. Bu gün artıq bizim tariximizdə, bizim təqvimimizdə matəm günüdür, faciə günüdür.

20 Yanvar faciəsindən də istifadə edərək vəzifələr tutdular. Tökülmüş qanların üstünü örtdülər, basdırdılar. Ancaq tarix bunu açdı! Xocalı hadisəsindən sonra da bu faciədən istifadə edib hakimiyyətə gəldilər. Üstünü örtüb-basdırmaq istədilər. İndi bu günləri tarix açır. Açacaqdır tarix!".

Xocalı faciəsindən sonra Mütəllibov istefaya getməyə məcbur oldu. Ölkədə baş alıb gedən hərc-mərcliyin yeni mərhələsi başlandı. Yaqub Məmmədovun respublikaya rəhbərlik etdiyi vaxtda isə həyatın bütün sahələrini bürümüş böhran daha da dərinləşdi. Hakimiyyətdə boşluq yaranmışdı, onu ələ keçirmək, revanş almaq istəyən qüvvələr siyasi vəziyyəti daha da dərinləşdirməyə çalışırdılar.

Parlamentin sədri Yaqub Məmmədovun prezident səlahiyyətlərini həyata keçirdiyi dövrdə elan olunmuş prezident seçkiləri bu mübarizəni daha da qızışdırmışdı. Səbr kasası dolmuş xalq Heydər Əliyevin hakimiyyətə qayıtmasına xilas yolu kimi baxır, Konstitusiyanın 121-ci maddəsinin prezident seçilməsi üçün yaş senzi müəyyən edən 2-ci bəndini dəyiş-

məyi tələb edirdi. Mərkəzi Seçki Komissiyasına bu məzmunda minlərlə adamın imzası olan saysız-hesabsız protokollar və müraciətlər daxil olurdu. Aprelin 25-dən bu tələblə respublikanın hər yerində piketlər, mitinqlər keçirilirdi.

Belə bir vaxtda siyasi ambisiyalarla yaşayan qüvvələrin çəkişməsinin nəticəsi kimi mayın 8-də Şuşa, sonra isə Laçın xəyanət nəticəsində düşmənə təslim edildi. Bu dövrdə baş verən prosesləri Heydər Əliyev belə xarakterizə edirdi (Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitqindən, 17 oktyabr 2001-ci il):

"1992-ci ilin mart ayında Azərbaycanda hakimiyyət dəyişikliyi, hakimiyyət böhranı baş verdi. Bu hakimiyyət böhranı bir neçə ay davam etdi.

Azərbaycan Prezidenti vəzifəsini bir nəfər bir neçə ay icra etdi, ondan sonra digər nəfər. Nəhayət, 1992-ci ilin iyununda Azərbaycanda yeni Prezident seçildi. Baxın, belə bir ağır vəziyyətdə, Ermənistanla müharibə getdiyi bir zamanda Azərbaycanın həyatında hərc-mərclik, xaos, özbaşınalıq hökm sürürdü və bunların da hamısının səbəbi hakimiyyətsizlik idi.

Çünki istiqlaliyyət elan ediləndən sonra olan hakimiyyət özünü rahat hiss edə bilmirdi. Bu da mart ayında dövlət böhranı ilə və o hakimiyyətin səhnədən getməsi ilə qurtardı. Bundan sonra bir neçə ay Azərbaycanda çəkişmələr, toqquşmalar elə bir şərait yaratdı ki, Azərbaycanda bir neçə ay yeni bir hakimiyyət yaratmaq, yeni bir başçı seçmək imkanı olmadı. Hər biri də özünü müvəqqəti hesab edir, bəziləri də belə bəyan edirdilər ki, biz kimik, biz sadəcə, "peşkayıq".

Bu hadisələr fonunda nə yolla olursa-olsun yenidən hakimiyyətə qayıtmağa can atan Mütəllibov mayın 14-də bu

istəyinə nail oldu. Belə bir mürəkkəb durumda Xalq Cəbhəsi tabeçiliyində olan silahlı dəstələrin köməyi ilə parlament binasına hücum çəkdi və ölkənin Ali qanunvericilik orqanını ələ keçirdi. Mayın 18-də isə parlament özünün 4 gün əvvəl qəbul etdiyi qərarını qanunsuz elan edərək Mütəllibov hakimiyyətinə son qoydu. Beləliklə, Xalq Cəbhəsi ölkədə yaranmış vəziyyətdən – siyasi böhrandan istifadə edərək, əvvəlcə silah gücünə Ayaz Mütəllibovu, sonra isə Yaqub Məmmədovu öz vəzifələrindən uzaqlaşdırıb hakimiyyəti qeyri-qanuni yolla mənimsədi.

1992-ci ilin may-iyun aylarında Cəbhə-Müsavat cütlüyünün hakimiyyəti zorla ələ keçirməsi dövlətçilik tariximizdə çox təhlükəli olan ənənənin yaranması üçün zəmin yaratdı. Hakimiyyətlərinin ilk günlərindən cəbhəçilər dövlət idarəçiliyində sərişləsizlik göstərir, ölkədə baş alıb gedən hərcmərclik günbəgün güclənirdi.

Onlar da əvvəlki iqtidar kimi məqsədyönlü şəkildə Naxçıvan Muxtar Respublikası haqqında həqiqətə uyğun olmayan məlumatlar yayır, Heydər Əliyevə qarşı əsl böhtan kampaniyası aparırdılar.

Dövlət idarəçiliyində heç bir təcrübəsi olmayan "meydan qəhrəmanlarının" bir illik hakimiyyəti dövründə ölkədəki iqtisadi, siyasi, mənəvi böhran daha da dərinləşdi. Tarixin dönüş məqamında düzgün xarici və daxili siyasət yeridilməməsi nəticəsində Azərbaycan çox tezliklə dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi kimi böyük fəlakətlərin astanasında dayandı. Heydər Əliyev cəbhəçilərin hakimiyyətdə olduğu dövrü belə xarakterizə edirdi (Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitqindən, 17 oktyabr 2001-ci il):

"1992-ci ilin iyun ayında Prezident seçildi, Xalq Cəbhəsi hakimiyyətə gəldi, xalq onlara inandı, onlara etimad














TCK
TRT























göstərdi. Ancaq onlar anlamadılar ki, Azərbaycanı bu ağır şəraitdə idarə etməyə qadir deyillər. Onlar küçələrdə hay-küy edə bilərdilər, meydanlarda nitqlər söyləyə bilərdilər. Həmin nitqlər də lazım idi, digər şeylər də lazım idi. Ancaq dövləti idarə etmək, xalqı birləşdirmək, xalqın hamısını bir yerə yığmaq – onlar buna qadir deyildilər. Ona görə onların bir illik hakimiyyəti dövrü, demək olar ki, Azərbaycanda sürətlə gedən dağıdıcı, pozucu bir prosesə çevrildi".

Belə bir mürəkkəb dövrdə xalq öz taleyini yalnız və yalnız sınanmış ümummilli lideri Heydər Əliyevə həvalə etmək niyyətində olduğunu gizlətmir, öz böyük oğlunun yenidən ölkə rəhbərliyinə qayıtmasını təkidlə tələb edirdi.

Milli qurtuluşumuzun zəfər yürüşü

"1993-cü ildə ölkəmizin düşdüyü ağır vəziyyət ölkə həyatının bütün sahələrinə mənfi təsir göstərirdi. Tənəzzülün nəticələrini aradan qaldırmaq, sabitliyə nail olmaq, əlbəttə ki, böyük siyasi təcrübə, bacarıq, cəsarət tələb edirdi. Ulu öndər Heydər Əliyevin qətiyyəti, onun siyasi müdrikliyi, dünyadakı nüfuzu, cəsarəti və təcrübəsi, Azərbaycan xalqının Heydər Əliyev siyasətinə öz dəstəyini verməsi bu gün Azərbaycanı nəinki bölgədə, dünyada ən dinamik və sürətlə inkişaf edən ölkələrdən birinə çeviribdir".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

1993-cü il Azərbaycanın dövlət müstəqilliyi tarixində ən mürəkkəb və həlledici il oldu. Həmin ilin ilk aylarında Dağlıq Qarabağda və onun ətrafında gedən döyüşlər nəticə-

sində böyük itkilər verən Azərbaycan ordusu vahid komandanlığın olmaması ucbatından geri çəkilməyə məcbur oldu. Martın sonunda isə Kəlbəcərə ermənilərin hücumu başladı. Hərbi baxımdan böyük əhəmiyyət kəsb edən bu bölgənin müdafiəsi haqlı suallar doğururdu. Ölkə həyatının bütün sahələrini bürümüş özbaşınalıq artıq orduya da siyarət etmişdi. Kəlbəcərin süqutuna bir neçə gün qalırdı.

Bu dövrdə ölkədə baş alıb gedən anarxiya, xaos, kəskin ictimai narazılıqlar kulminasiya nöqtəsinə çatdı. Artıq hakimiyyətdəki qüvvələr baş verən prosesləri idarə etmək iqtidarında olmadıqlarını özləri də etiraf edirdilər. O dövrkü iqtidar tərəfindən ölkə daxilindəki real etnik-siyasi durum nəzərə alınmadan qəbul olunmuş qərarlar, cılız və heç bir əsası olmayan bayağı çağırışlar ölkəni etnik qarşıdurma və xaricdən müdaxilə həddinə gətirib çatdırdı. Yaranmış vəziyyət artıq radikal dəyişikliklər tələb edirdi.

Vətənin başı üstünü qara buludlar almışdı. Azərbaycan vəziyyətdən çıxış üçün ya son qurtuluş cavaşına atılaraq taleyin ona nəsib etdiyi ən böyük neməti – dövlət müstəqilliyini qoruyub saxlamaq iqtidarında olduğunu sübut etməli, ya da siyasi varlıq kimi dünya xəritəsindən silinmək kimi acı aqibətlə razılaşmalı olacaqdı. Ulu öndər bu dövr barədə belə deyirdi (28 may – Respublika gününə həsr olunmuş mərasimdə nitqindən, 27 may 2001-ci il):

"O vaxt Azərbaycanın mütəşəkkil ordusu yox idi. Ancaq vətənpərvər insanlar torpaqlarımızı, Azərbaycanın ərazisini qorumaq əzmi ilə yaşayırdılar. Bundan səmərəli istifadə etmək lazım idi. Edilmədi ona görə ki, o vaxt Azərbaycanda müxtəlif dəstələr, qruplar, o cümlədən hakimiyyətdə olan şəxslər öz hakimiyyətlərini qoruyub saxlamaq, digərləri isə belə bir fürsətdən istifadə edib hakimiyyətə gəlmək uğrunda mübarizə aparırdılar. Ona görə

də müxtəlif qüvvələrə xidmət edən ayrı-ayrı silahlı dəstələrin hamısı Azərbaycan torpaqlarının qorunmasına səfərbər olunmaq əvəzinə, onların hərəsi öz qüvvəsinə xidmət edirdi və bundan da Ermənistan təcavüzkarları çox məharətlə istifadə etmişdilər".

Bu dövrdə bütün ölkə vətəndaşlarının nəzəri Azərbaycanın dövlət müstəqilliyi üçün böyük xidmətlər göstərmiş Naxçıvana yönəlmişdi. Hamı xilas yolunu Azərbaycanın bu bölgəsinə rəhbərlik edən Heydər Əliyevin ölkədə yenidən siyasi hakimiyyətə qayıdışında görürdü.

1992-1993-cü illərdə Azərbaycanın dövlətçilik tarixində baş verən proseslərin kortəbiiliyi dumanlı təfəkkürün və aydın olmayan ideyaların üstünlüyü ilə səciyyələnirdi. Bu isə, iqtidarda olanların dövlətçilik ideyalarını siyasi ambisiyaları ilə eyniləşdirmək cəhdlərinin məntiqi nəticəsi idi.

Bu "siyasi liderlərin" fəaliyyəti nəticəsində cəmiyyətdə xaos güclənir, "cəbhəçilik" psixologiyası və davranışları demokratiya pərdəsi altında normaya çevrilirdi. Milli özünəyadlaşma prosesi getdikcə özünü daha aydın şəkildə büruzə verirdi. Hakimiyyətdəkilər demokratiya və anarxiya anlayışları arasında fərqi çox tezliklə unudaraq, qanunların yox, zorun gücünə arxalanmağa üstünlük verirdilər.

1992-1993-cü illər ölkəmizin müasir tarixinə "hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü" kimi daxil oldu. Taleyin xalqımıza bəxş etdiyi böyük bir tarixi şans çəbhəçilərin səbatsızlığı ucbatından milli arzuların puça çıxması təhlükəsi ilə üzləşdi.

Bu dövrdə nəinki iqtisadi, sosial islahatlar aparılmır, demokratik-hüquqi dövlət quruculuğu həyata keçirilmirdi. Əksinə, idarəçilik təcrübəsi olmayan iqtidarın düşünülməmiş addımları cəmiyyəti uçuruma doğru sürükləyirdi. Onun ölkədə yaratdığı xaos, anarxiya, zorakılıq ənənələri son nəticədə

vətəndaş qarşıdurmasına və hakimiyyətin tam iflasına səbəb oldu. Sərişləsiz siyasət qısa vaxtda AXC-Müsavat hakimiyyətinin cəmiyyətdə öz nüfuzunu itirməsinə, respublika ətrafında antiazərbaycan koalisiyasının yaranmasına gətirib çıxartdı.

Bütün bunlar – milli sərvətlərin talan edilməsi, çirkin niyyətli siyasi qüvvələrin hakimiyyət uğrunda silahlı mübarizəsi, sovet dövründə əldə olunmuş bütün nailiyyətlərdən kor-koranə imtina edilməsi ilə müşayiət olunurdu. Nəticədə, 1993-cü ilin yayında hakimiyyət böhranı baş verdi. Bu dövrdə baş verən prosesləri Heydər Əliyev belə xarakterizə edirdi:

"XX əsrdə xalqımızın gərgin əməyi ilə yaradılmış qüdrətli iqtisadi potensial amansızcasına dağıdıldı, milli sərvətlər talan edildi. İctimai-siyasi həyatda, iqtisadiyyatda hərc-mərclik, bir qarışıqlıq, "dövlət reketi" hökm sürürdü. Belə düşünülməmiş və səriştəsiz siyasət milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə, hakimiyyətin ölkə daxilində nüfuzunu itirməsinə gətirib çıxardı. Nəticədə 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə çatdı. 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkanlardan yaranmış müstəqil dövlətimiz səriştəsiz siyasət nəticəsində süquta uğramaq təhlükəsi ilə üz-üzə qaldı".

1993-cü ilin may ayının 25-də Prezident Aparatında hüquq mühafizə orqanları işçilərinin müşavirəsində Əbülfəz Əliyev hakimiyyətin ölkədə yaranmış vəziyyətə nəzarət etməkdə gücsüzlüyünü etiraf edərək deyirdi: *"Xalq deyir: – "kaş canımız bu Xalq Cəbhəsinin əlindən qurtaraydı" – prokurorluqdan, məhkəmədən xahiş edirəm buna cavab versinlər. Bu gün respublika niyə dağılır?".*

Bu dövrdə respublikada separatçılıq meylləri tüğyan edir, böyük bir hərbi hissəyə rəhbərlik edən Surət Hüseynov

qoşunları cəbhə xəttindən çəkərək iqtidara meydan oxuyurdu. Bunun nəticəsi kimi, Azərbaycan yeni ərazi itkilərinə məruz qalırdı. Heydər Əliyev bu dövrü belə xarakterizə edirdi (Dövlət Müstəqilliyinin onuncu ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitqindən, 17 oktyabr 2001-ci il):

"Gərək heç kəs bunu unutmasın ki, 1993-cü ildə Azərbaycan parçalanmaq, bir ölkə kimi, müstəqil dövlət kimi məhv olmaq təhlükəsi qarşısında idi. Azərbaycanda vətəndaş müharibəsi baş vermişdi. Bundan istifadə edən bəzi qüvvələr, həmin o Xalq Cəbhəsinin içərisindən çıxmış qüvvələr Azərbaycanın cənubunda yeni bir "cümhuriyyət" yaratmağa çalışdılar. Şimalda yeni hərəkat başladı, separatçılıq meylləri artıq özünü göstərdi. Bir tərəfdən də Ermənistanın Azərbaycana qarşı 1988-ci ildən başlamış təcavüzü, müharibə və Azərbaycanın daxili vəziyyətinin bu qədər ağır, bu qədər çətin olması, idarə oluna bilməməsi. Bundan istifadə edərək, Ermənistan silahlı qüvvələri çox hallarda heç bir müqavimətə rast gəlmədən Azərbaycanın torpaqlarını sürətlə işğal etməyə başladılar.

1993-cü ildə Azərbaycan yanırdı".

Hadisələri düzgün qiymətləndirə bilməyən iqtidar, əhali arasında günbəgün öz nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Belə bir vaxtda ölkə rəhbərliyinin naşılığı ucbatından iyunun 4-də Gəncədə qardaş qanı töküldü.

Xalqın belə bir ağır günündə ilk mərdanə sözü Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvanın Ali Məclisi dedi. Hadisənin ertəsi günü – iyunun 5-də Naxçıvanın deputatları Gəncə hadisələri barədə çox tutarlı, kəskin və obyektiv bir bəyanat verdilər.

Azərbaycanın hər yerində olduğu kimi, başı üstünü qara buludlar almış Gəncədə də həmin bəyanat əldən-ələ gəzdi. Bəyanatda deyilirdi:

"Əziz həmvətənlərimiz! Baş vermiş hadisə Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da qəzəb və hiddətlə qarşılanmışdır. Biz bunu müstəqil dövlətçiliyimizə edilən qəsd, yenicə titrək addımlarını atan Azərbaycan dövlətinə arxadan vurulan zərbə hesab edirik.

Azərbaycan Respublikasının bir hissəsinin düşmən tapdağında olduğu, dünyanın mütərəqqi dövlətlərinin Azərbaycana diqqətinin artdığı bir dövrdə cinayətkar ünsürlərin törətdiyi qardaş qırğınını təcavüzkar Ermənistanın dəyirmanına su tökmək kimi qiymətləndiririk...

Belə bir ağır şəraitdə biz, Naxçıvan MR-in xalq deputatları, seçicilərimizin fikirlərini ifadə edərək Azərbaycan dövlətçiliyini qorumaq məqsədilə xalqı birliyə çağırırıq!".

Bəyanatda ilk öncə mübariz gəncəlilərə müraciət edilərək belə bir qəti inam bildirilirdi ki, qədim Gəncənin qeyrətli övladları, qəhrəman Cavad xanın nəvələri imperiya nökərlərinə lazımi dərs verəcək, müstəqil dövlətimizi göz bəbəyi kimi qoruyacaqlar. Bəli, o günlərdə Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan belə deyir, belə düşünürdü. O vahiməli, o nigaran günlərdə bu bəyanat bütövlükdə Azərbaycan xalqına, ilk növbədə isə gəncəlilərə ümid və inam gətirdi.

Bakı isə hələ də susurdu. Əksinə səriştəsizlik, bəd əməlləri ucbatından özlərini itirmiş yuxarı dairələrdə qədim Gəncə əhalisinin köçürülməsi, şəhərin bombardman edilməsi barədə sərsəm fikirlər səslənirdi. İyunun 8-də isə Əbülfəz Elçibəyin Milli Məclisdəki məntiqsiz çıxışı və AXC-nin bəyanatı hamını sarsıtdı. Bu düşünülməmiş avantürist hərəkətlərin məntiqi nəticəsi kimi Gəncə elliklə ayağa qalxdı. Vəziyyətin ciddiliyini nəzərə alan siyasi partiyalar, cəmiyyətlər və digər təşkilatlar iqtidara qarşı etiraz bəyanatı imzaladılar.

Sənəddə deyilirdi: *"Prezident Ə.Elçibəyin 08 iyun 1993-cü il tarixdə Milli Məclisdəki çıxışını və onun fikrinin davamı kimi AXC-nin 09 iyun 1993-cü il tarixli bəyanatını və-*

təndaş müharibəsinə çağırış kimi qiymətləndirərək qətiyyətlə pisləyirik!".

O günlərdə Gəncədə aramsız mitinqlər keçirilirdi. Bu mitinqlərdə şəhər əhalisi ölkəni vətəndaş müharibəsinə sürükləyən respublika rəhbərliyinin istefasını və Gəncə hadisələrinə siyasi qiymət verilməsini qətiyyətlə tələb edirdi. Mitinqlərin birində bütün Azərbaycan xalqına bu məsələ ilə əlaqədar müraciət qəbul olundu. Müraciətdə deyilirdi:

"1. Respublikada siyasi, hərbi və hakimiyyət böhranına səbəb olmuş, torpaqlarımızın işğalına, xalqın ləyaqətli övladlarının məhv edilməsinə, milli ləyaqətimizin ləkələnməsinə bais olan, Azərbaycanda qardaş qırğını törədən, ölkəni vətəndaş müharibəsinə sürükləyən respublika rəhbərliyi tam tərkibdə istefa versin.

2. Ali Sovetin fövqəladə sessiyası çağırılsın və Gəncədə baş verən hadisələrə siyasi qiymət verilsin.

3. Törədilən hadisəyə bais olanlar tezliklə cinayət məsuliyyətinə cəlb olunsun.

4. Respublika əhalisində, habelə Ali Sovetin sessiyasında aydın, obyektiv təsəvvür yaradılması məqsədilə Gəncə hadisələri ilə bağlı çəkilmiş videokasetlər Ali Sovetin sessiyasında nümayiş etdirilməklə birbaşa efir vasitəsilə xalqa çatdırılsın.

5. DTK arxivlərini gizli saxlamaqla bu günə kimi 20 noyabr 1991-ci il vertolyot qəzası, Xocalı, Şuşa, Laçın faciələrinin açılmasını təmin etməyən, Kəlbəcər hadisələrini törədən dövlət rəhbərləri bu cinayətlərdə birbaşa təşkilatçı və iştirakçı hesab edilməklə məsuliyyətə cəlb edilsinlər".

İqtidar çaşqınlıq içərisində idi. Belə bir mürəkkəb vəziyyətdə iflasa uğramaları ilə barışmalı olan cəbhəçilər də vəziyyətdən çıxış yolunu xalqın istəyi ilə razılaşaraq Heydər Əliyevin Bakıya dəvət edilməsində görürdülər. Heydər Əliyev bu dövrü belə xatırlayırdı: (YAP-ın I qurultayındakı nitqindən, 23 dekabr 1999-cu il):

"1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı.

Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Dövlətçiliyimizin müqəddəratının həll olunduğu belə bir məqamda Heydər Əliyevin Bakıya gəlişi respublika əhalisində böyük ümidlər yaratdı. Bu çətin vəziyyətdən ölkəni ancaq Heydər Əliyev dühasının xilas edəcəyinə hamı qəlbən inanırdı.

Artıq cəmiyyətdə belə bir fikir formalaşmışdı ki, ölkəni düşdüyü bu fəlakətdən ancaq Vətənin böyük oğlu Heydər Əliyevin hakimiyyətə yenidən qayıtması xilas edə bilər. Bunu o dövrkü iqtidar nümayəndələri də yaxşı başa düşür, ancaq vəzifə və kreslo hərisliyi onlara düzgün addım atmağa imkan vermirdi.

İyunun 13-də Heydər Əliyev vəziyyətlə yerində tanış olmaq üçün Gəncə şəhərinə gəldi, döyüş meydanına çevrilmiş hərbi hissələrin ərazisini gəzdi. Bu mahir siyasətçinin şəhərə gəlişi əhalidə gələcəyə böyük inam yaratdı. O, şəhər sakinləri, hərbi qulluqçularla görüşüb, söhbət etdi. Hər şeyi yerli-yataqlı öyrənəndən sonra, iyunun 15-də respublika Milli Məclisinin növbəti iclasında Gəncə hadisələri barədə öz qəti sözünü dedi:

"Hadisələr dəhşətlidir, qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və bütün qanunu pozmuş adamlar,

cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmiş hansı tərəfdən asılı olmasına baxmayaraq, qanun qarşısında məsuliyyət daşımalıdır".

O dövrdə baş verən mürəkkəb siyasi proseslər fonunda iqtidardakıların səbatsızlığı ucbatından ölkədə yaranmış gərgin şəraitdə tarixin bu acı imtahanı labüd idi. Tanklar üzərində, top-tüfənglə hakimiyyətə gələn cəbhəçilər ölkəni əsla idarə edə bilmir, itaətsizlik, qarət ekspedisiyaları günün reallığına çevrilmişdi.

Separatçılıq meylləri, ölkəyə axın-axın gələn dini ekstremistlər, "bəlkə də qaytardılar" xülyası ilə yaşayan sabiq kommunist rəhbərləri, irticaçı siyasi təşkilatlar öz bəd əməlləri ilə düşmən dəyirmanına su tökür, ölkəmizin ərazi bütövlüyünə ciddi zərbələr vururdular. Torpaqlarımızın dalbadal işğalı, qaçqın və köçkün axını, müxtəlif kəşfiyyat orqanlarının təxribat əməlləri əhalini yormuş, təngə gətirmişdi.

İyunun 15-də Heydər Əliyev xalqın təkidli tələbi və yenilməz iradəsi ilə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Həmin gün parlamentin tarixi iclasında Heydər Əliyev çıxış etdi: *"Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni öz üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki,*

ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək".

Heydər Əliyevin ölkənin Ali qanunvericilik orqanına sədr seçilməsi respublika həyatında cox mühüm bir hadisə oldu. Bu siyasi qayıdış, sözün həqiqi mənasında Azərbaycanı azərbaycanlılara, milləti özünə qaytardı. Bu qayıdış Azərbaycan xalqının və dövlətçiliyinin qurtuluşu oldu!

Müstəqilliyimizin, azadlığımızın, dövlətçiliyimizin müqəddəratının həll edildiyi ən böhranlı günlərdə Heydər Əliyevin xalqın iradəsi ilə ölkə rəhbərliyinə yenidən qayıdışı Azərbaycanımızın milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətlərini məhv olmaq təhlükəsindən xilas etdi. Bu, əslində çox çətin və məsuliyyətli bir missiyanı könüllü olaraq öz üzərinə götürərək "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan Böyük Vətən oğlunun xalqı qarşısında misilsiz fədakarlıq nümunəsi idi.

Bu parlaq dühanın xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, ötən əsrin əvvəllərində mövcud olmuş Xalq Cümhuriyyətinin aqibətindən qurtuldu.

Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi, qətiyyəti və dövlətçilik istedadı sayəsində Azərbaycan tezliklə tələtümlərdən, sarsıntılardan uğurla çıxaraq gələcəyə inamla baxan bir dövlətə çevrildi.

Heç də təsadüfi deyildir ki, sonralar müstəqil Azərbaycanın Parlamenti özünün 1997-ci il 27 iyun tarixli qərarı

ilə Vətənin Böyük oğlunun ölkə rəhbərliyinə qayıdışı gününü – Azərbaycan xalqının Milli Qurtuluş günü elan etdi. 1993-cü ilin 15 iyun günü xalqımızın mübarizələrlə dolu şanlı tarixinə yeni eranın başlanğıcı kimi daxil oldu!

Heydər Əliyev Ali Sovetin sədri kimi ilk gündən parlamentarizm ənənələrinə sadiq qalaraq aşkarlıq prinsipinə üstünlük verdi. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına verildi. Ölkədəki vəziyyət olduğu kimi xalqa çatdırıldı. İctimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün lazımi tədbirlər görülməyə başlandı.

Ölkədə sabitliyin bərqərar olması üçün gərgin iş aparıldığı bir vaxtda Prezident Əbülfəz Elçibəy müəmmalı şəkildə Bakını tərk etdi. İyunun 18-də Heydər Əliyev yaranmış vəziyyətlə əlaqədar xalqa müraciət etdi. O, hamını təmkinli olmağa, milli birliyə, vətəndaş həmrəyliyinə çağırdı. Milli Məclisdə keçən müzakirələrdə Əbülfəz Elçibəyə ünvanlanan müraciətlər bir nəticə vermədi. Parlamentin 23 iyul tarixli iclasında parlament Prezident səlahiyyətlərinin Ali Sovetin sədri Heydər Əliyevə verilməsi barədə qərar qəbul etdi. Bu, artıq bütün hadisələrin dövlətin nəzarəti altına götürülməsi, xalqın iradəsinə tabe edilməsi demək idi.

Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Ali Sovetə rəhbərlik etdiyi dövrdə parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul edildi. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailəsinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Konstitusiyada və müxtəlif hüquqi sənədlərdə dəyişikliklər edildi.

Heydər Əliyev bu dövrdə əhalinin döyüş ruhunu qaldırmaq, müharibə dövrünə uyğun təbliğat aparmaq, qanunsuz silahlı dəstələri zərərsizləşdirmək üçün lazımi tədbirlər

görür, ölkədəki vəziyyət barədə fikirlərini tez-tez xalqla bölüşürdü.

Avqustun 7-də cənub bölgəsində "Talış-Muğan Respublikası" elan olunmuşdu. Bununla əlaqədar Heydər Əliyev avqustun 13-də parlamentdə həmin bölgədən olan deputatlar, ziyalılar, ağsaqqallarla görüşüb vəziyyəti müzakirə etdi. Avqustun 17-də isə Milli Məclis "Azərbaycan Respublikasının Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət haqqında" qərar qəbul edərək "Talış-Muğan Respublikası" avantürasına siyasi qiymət verdi. Tezliklə əhalinin istəyi ilə bu bədnam iddiaya son qoyuldu.

1993-cü il avqustun 29-da Milli Məclisin qərarı ilə Əbülfəz Elçibəyə etimadsızlıqla bağlı referendum keçirildi. Referendumun nəticələri AXC – Müsavat cütlüyünün xalq arasında heç bir dəstəyə malik olmadığını bir daha sübut etdi.

Heydər Əliyev parlamentin sədri kimi Azərbaycanın strateji maraqları əsasında ölkənin yeni xarici siyasət konsepsiyasını, onun beynəlxalq münasibətlər sistemində yerini müəyyənləşdirdi. İlk növbədə AXC hakimiyyətinin bu sahədə buraxdığı kobud səhvlər tezliklə aradan qaldırıldı.

Ali Sovetin sədri mədəniyyətin, elmin və təhsilin inkişafına da böyuk diqqət yetirir, alimlərlə, gənclərlə görüşlər keçirir, onlarla ölkənin gələcəyi barədə fikirlərini bölüşürdü.

Parlamentin sədri vəzifəsində fəaliyyət göstərən Heydər Əliyev qanunun aliliyi, azad vətəndaş cəmiyyəti prinsiplərinin bərqərar olması zəruriliyini dəfələrlə vurğulayırdı:

"Azərbaycan Respublikası demokratik yolla getməlidir, Azərbaycanda həqiqi demokratiya prinsipləri yaranmalıdır, inkişaf etməlidir, Azərbaycanda siyasi plüralizmə imkan yaradılmalıdır. Azərbaycan çoxpartiyalı bir cəmiyyət kimi yaranmalıdır, partiyaların fəaliyyətinə şərait yaradılmalıdır,

Azərbaycan bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə getməlidir. Azərbaycanda milli həmrəylik, insanlar, siyasi partiyalar, qurumlar arasında sülh və sağlam rəqabət əhval-ruhiyyəsi yaranmalıdır".

Milli Məclisin iyulun 3-də keçirilən iclasında Heydər Əliyev bildirdi ki, o, AXC hökuməti zamanı neft sahəsindəki bütün danışıqları müvəqqəti olaraq dayandırır və hesab edir ki, bu məsələ mütəxəssislər tərəfindən ətraflı öyrənilməli və yalnız onların rəyindən sonra hər hansı bir qərar qəbul edilməlidir və bu zaman Azərbaycan xalqının mənafeyi əsas götürülməlidir. Zaman bu görkəmli dövlət xadiminin haqlı olduğunu bir daha sübut etdi.

Cəmi 4 ay Ali Sovetin sədri vəzifəsində çalışsa da, Heydər Əliyev bu qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, Milli Məclisə siyasi mədəniyyət gətirdi. Onun iclası aparmaq tərzi, fikirlərini dəqiq əsaslandırması, çıxışların məğzini tutmaq bacarığı, qiymətli fikirləri ümumiləşdirmək qabiliyyəti özlüyündə parlamentin üzvləri üçün yeni bir örnək, əsl parlamentarizm məktəbi idi.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin Ali Sovetin sədri vəzifəsində çalışdığı qısa zaman kəsiyində Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyuldu. Heç də təsadüfi deyildir ki, 1993-cü il 3 oktyabr Prezident seçkilərində seçicilərin 98,8 faizi Heydər Əliyevə səs verərək ölkənin taleyini bu görkəmli dövlət xadiminə həvalə etmək niyyətində olduqlarını bütün dünyaya nümayiş etdirdilər. Bu seçimlə müstəqillik yolunda Azərbaycan xalqı keyfiyyətcə yeni bir dövrə qədəm qoydu.

Müstəqillik tariximizdə yeni dövrün başlanğıcı: hüquqi dövlətə, demokratiyaya doğru

Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra bu nadir dühanın möhkəm iradəsi, qətiyyəti, uzaqgörənliyi sayəsində əldə edilmiş ictimai-siyasi sabitlik ölkədə hüquqi dövlət quruculuğu, islahatların aparılması, demokratik prinsiplərin bərqərar olması üçün yaxşı zəmin yaratdı.

Bu dövrdə ölkənin Əsas qanunu hələ sovetlər dövründə qəbul edilmiş Konstitusiya idi. 1993-cü ildə Prezident seçkilərinin keçirilməsinə baxmayaraq, ölkənin ictimai-siyasi həyatında baş vermiş dəyişikliklər respublikanın Əsas sənədində öz əksini tapmamışdı. Bütün bunlar müstəqil Azərbaycanın yeni Konstitusiya layihəsinin hazırlanmasını şərtləndirən amillərdən idi. Heydər Əliyevin təşəbbüsü ilə yeni Konstitusiya layihəsinin hazırlanması üçün Milli Məclisdə komissiya yaradıldı. Komissiyanın 5 iyun 1995-ci il tarixli ilk iclasında Heydər Əliyev tarixi keçmişimizə nəzər salaraq komissiyanın qarşısında duran vəzifələri belə xarakterizə etmişdir:

"Komissiyanın qarşısında çox böyük iş durur. Biz gərək həm tarixi keçmişimizi, həm son illərin təcrübəsini təhlil edək və müstəqil Azərbaycan dövləti üçün uzunmüddətli bir Konstitusiya layihəsi hazırlayaq.

Konstitusiya quruculuğumuzun 80 illik tarixi olsa da, ancaq biz müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyasını hazırlamaq üçün əməli işə başlamışıq. Komissiyamızın üzərinə düşən məsuliyyət böyükdür. Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət yaşamasını təmin edən Əsas qanun, tarixi sənəd olsun".

Heydər Əliyevin komissiya üzvləri qarşısında qoyduğu əsas tələblər tarixi keçmişimizin nəzərə alınması, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən bəhrələnmək kimi tələblər idi.

Azərbaycanın Konstitusiya quruculuğunun keçdiyi tarixi yola nəzər saldıqda görürük ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə bir neçə Konstitusiya xarakterli qərarlar, dövlət atributları ilə əlaqədar qanunlar qəbul edilsə də, ölkənin Əsas sənədini təsdiq etməyə vaxt çatmadı. Heç də təsadüfi deyildir ki, Heydər Əliyev bu dövrdə qəbul edilmiş qərarları Konstitusiya quruculuğunun başlanğıcı kimi qiymətləndirmişdir.

Sonralar sovet imperiyasının tərkibində olan respublikamızın ilk Konstitusiyası o dövrkü bolşevik ideyaları əsasında 1921-ci ildə qəbul edilmişdir. SSRİ yarandıqdan sonra müttəfiq respublikaların müstəqilliyi demək olar ki, tamamilə ləğv edilmiş, onlar yeni bir dövlətin tərkibinə daxil olmuşlar. 1924-cü ildə SSRİ Konstitusiyası qəbul olunduqdan sonra, onun əsasında 1925-ci ildə ölkənin Əsas sənədinə dəyişikliklər edilmiş, 1937-ci ildə qəbul olunmuş Konstitusiya isə SSRİ-nin 1936-cı il Konstitusiyasına uyğunlaşdırılmışdır.

Sonrakı proseslərin gedişində 1977-ci ildə qəbul edilmiş yeni SSRİ Konstitusiyasının əsasında Azərbaycan SSRİ Ali Sovetinin 9-cu çağırış 7-ci növbədənkənar sessiyasında, 1978-ci il aprelin 21-də Azərbaycanın yeni Konstitusiyası qəbul edilmişdir. 11 fəsildən, 185 maddədən ibarət bu Konstitusiya 1995-ci ilədək müəyyən dəyişikliklərlə qüvvədə olsa da, ölkənin əvvəlki illərdə qəbul edilmiş əsas sənədlərindən fərqlənirdi.

Sənədin qəbul edildiyi dövrdə proletar diktaturasını ümumxalq dövlətinə çevirmək prinsipi əldə rəhbər tutulsa da, dövlət idarəçiliyi hələ də partiya funksionerlərinin əlində idi.

Bu sənəddə dövlət hakimiyyətinin hüquqi prinsipləri müəyyənləşməmiş, Sovet İttifaqı Kommunist Partiyasının rolu xeyli yüksəldilmişdir.

Müstəqil Azərbaycanın rəhbəri kimi Heydər Əliyev iqtisadi, siyasi, sosial, hüquqi islahatların həyata keçirilməsini, demokratik dəyərlərin cəmiyyətdə bərqərar olunmasını çox önəmli hesab edirdi. Bu məqsədlə o, ölkənin yeni Konstitusiya layihəsinin hazırlanmasına böyük əhəmiyyət verir, bu işə şəxsən özü rəhbərlik edirdi. Heydər Əliyev yeni Konstitusiya layihəsinə verilən tələbləri belə xarakterizə edirdi:


"Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir".

Yeni Konstitusiya layihəsi üzərində işləyərkən Heydər Əliyevin rəhbərliyi ilə komissiya bu sahədəki beynəlxalq təcrübəni dərindən öyrənərək dünyanın ən demokratik dövlətlərinin əsas sənədlərini araşdırmış, Azərbaycan şəraitini də nəzərə almışdır. Dəfələrlə keçirilən müzakirələrdən sonra Konstitusiya layihəsi hazırlanıb 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarıldı. Azərbaycanımızın Referendumda qəbul olunmuş ilk demokratik Konstitusiyası əsrlər boyu azadlıq amalını ürəyində yaşatmış xalqımızın müstəqil, suveren dövlət qurmaq, dünya birliyində öz layiqli yerini tutmaq, bəşəriyyətin inkişafına öz layiqli töhfəsini vermək əzmini bir daha nümayiş etdirdi.

Ölkənin Əsas sənədinin müəllifi bu hadisəni belə şərh etmişdir: ***"1995-ci ildə müstəqil Azərbaycanın ilk milli Konstitusiyası qəbul olundu. Həmin o il Azərbaycanın ilk***






10




SPANISH ESPAGNOL
TURKISH TURC





AZERBAIJAN


Lisbon Sum


osce
ISTANBUL SUMMIT
AZERBAIJAN
osce
ISTANBUL SUMMIT
ISTANBUL SUMMIT
OSCE ISTANBUL SUMMIT
CZECH REPUBLIC


Madrid








UNOCAL
AMOCO
ITOCHU













Milli Məclisi seçildi. Baxmayaraq ki, 1995-ci ildə biz hələ ağır iqtisadi vəziyyətdə yaşayırdıq, ictimai-siyasi vəziyyət ardıcıl surətdə sabitləşdirildi. Bunların hamısı bizə Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, Azərbaycana xarici investisiyanın cəlb edilməsini təmin etmək, Azərbaycanın ordusunu yaratmaq, onu möhkəmləndirmək və insanların rifah halını yaxşılaşdırmaq üçün imkanlar yaratdı".

Müstəqil Azərbaycanın Konstitusiyası ölkəmizdə yeni dövlət quruculuğu üçün, cəmiyyətin inkişafının gələcək modeli üçün hüquqi əsas yaratdı. Bununla Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması baxımından tariximizin ən məhsuldar dövrünün təməli qoyuldu.

Yeni qəbul olunmuş Konstitusiya hakimiyyət bölgüsü, siyasi plüralizm, insan hüquq və azadlıqlarının qorunması kimi prinsipləri özündə ehtiva edirdi. Əvvəlki konstitusiyalardan fərqli olaraq ölkənin yeni Əsas sənədində insan hüquq və azadlıqlarına geniş yer verilmişdir. Ölkənin Əsas sənədində məsələnin bu cür qoyuluşu məhz Heydər Əliyevin təşəbbüsü ilə gerçəkləşmişdir. Sənədin layihəsi üzərində işləyən Komissiyanın iclasında Heydər Əliyev bu sahəyə ciddi diqqət yetirilməsini bir vəzifə kimi komissiya üzvlərinin qarşısına qoymuşdur:

"Respublikamızda tam demokratik dövlət qurulması və demokratiyanın bütün sahələrdə inkişaf etdirilməsi məsələləri Konstitusiyada əks olunmalıdır. Bir də qeyd edirəm ki, insanların bütün azadlıqları, bütün hüquqlarının qorunması, vətəndaşlara bütün fəaliyyət üçün şərait yaradılması məsələləri mütləq qeyd edilməlidir. Mən bərabər hüquqlar haqqında danışanda onu nəzərdə tuturam ki, dinindən, dilindən, milliyyətindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq insanların hamısının eyni hü-

quqlara malik olması və bu hüquqların səmərəli istifadə imkanları əldə etməsi Konstitusiyamızda öz əksini tapmalıdır".

Yeni Konstitusiyada insan haqları ilə əlaqədar öz əksini tapmış müddəalar BMT və ATƏT kimi mötəbər beynəlxalq təşkilatların prinsip və normaları ilə səsləşirdi.

Konstitusiyada təqsirsizlik prezumpsiyası, xüsusi mülkiyyət və azad sahibkarlıq, mülkiyyətin toxunulmazlığı prinsipləri də öz əksini tapmışdır. Yeni Konstitusiyada ilk dəfə olaraq hakimiyyət bölgüsü prinsipi geniş əks olunmuşdur. Ölkənin Əsas sənədində bildirilir ki, qanunvericilik hakimiyyəti Azərbaycan Respublikasının Milli Məclisi, icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidenti, məhkəmə hakimiyyəti isə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən həyata keçirilir.

Konstitusiya komissiyası konstitusiyanın layihəsini hazırlayarkən, eyni zamanda parlamentə seçkilər keçirmək üçün qanun layihəsi də hazırlayaraq Milli Məclisə təqdim etmiş, müzakirələrdən sonra layihə qəbul olunmuşdur. 1995-ci ilin noyabrın 12-də yeni Konstitusiyanın qəbul olunması ilə bağlı keçirilən ümumxalq səsverməsi ilə yanaşı, Milli Məclisə seçkilər də keçirilmişdir.

Məhz Konstitusiyanın verdiyi bu imkanlar sayəsində Azərbaycanda çox qısa bir vaxtda hüquqi, iqtisadi, sosial islahatları həyata keçirmək, demokratik dəyərlərin cəmiyyətdə bərqərar olması yolunda hüquqi addımlar atmaq mümkün olmuşdu. Ölkənin yeni sənədinin qəbulundan sonra dövlət quruculuğunda hüquqi islahatların aparılması məqsədi ilə dövlət başçısının 21 fevral 1996-cı il tarixli sərəncamı ilə Hüquq İslahatları Komissiyası yaradıldı. Heydər Əliyevin başçılıq etdiyi bu komissiyanın respublikada hüquqi islahatların aparılmasında böyük rolu olmuşdur. Komissiyanın 1996-cı il 4 mart tarixli ilk iclasında ulu öndər belə demişdir:

"Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq-mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir. İndi qarşımızda Konstitusiya əsasında qanunların qəbul olunması kimi çox böyük vəzifələr var. Hər sahədə qanunlar qəbul edilməlidir. İndi mən vaxt deyə bilmərəm, – bir il, iki il, – hər halda müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olsun. Dörd ildir ki, Azərbaycan müstəqil dövlətdir. Ancaq qanunların əksəriyyəti keçmiş Sovetlər İttifaqından qalmış qanunlardır. Onlara müəyyən dəyişikliklər, əlavələr olunubdur, ancaq hazırkı qanunların əsası, kökü Sovetlər İttifaqı vaxtında qəbul edilmiş qanunlardır".

Bu işin həyata keçirilməsində ölkə parlamenti həmişə respublika Prezidentinə dəstək vermişdir. 1995-ci ildən başlayaraq Milli Məclisdə yüzlərlə qanun, qərar və digər aktlar qəbul edildi. Ölkədə aparılan məqsədyönlü siyasət nəticəsində Azərbaycan dünyanın mötəbər beynəlxalq təşkilatlarının, o cümlədən Avropa Şurasının tam hüquqlu üzvü oldu.

Bu illər ərzində Milli Məclisdə hüquqi islahatlara dair "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Polis haqqında", "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Notariat haqqında", "Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə ziyanın ödənilməsi haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında", "Bələdiyyələrə seçkilərin qaydaları haqqında", "Bələdiyyələrin statusu haqqında" qanunlar qəbul edilmiş, yeni hüquq sisteminin yaradılması istiqamətində Cinayət,

Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar, Ailə, Əmək, Vergi, Gömrük Məcəllələri qəbul olunmuşdur.

Heydər Əliyevin təşəbbüsü ilə Şərq aləmində ilk demokratik respublika quran Azərbaycan 1998-ci ildə ilk dəfə olaraq ölüm cəzasını ləğv etdi. Bu, insan hüquq və azadlıqlarına dövlət səviyyəsində göstərilən diqqətin bariz nümunəsi idi.

Milli Məclisdə qəbul olunmuş "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında", "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında", "Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Konstitusiya qanunları hüquqi islahatlar sahəsində çox mühüm addım olmuşdur. Bu qanunların qəbul edilməsi onu göstərdi ki, Azərbaycan dövləti üçün birinci dərəcəli məsələ insanların hüquq və azadlıqlarının təminatıdır. Konstitusiyada bu öz əksini tapsa da, ayrıca Konstitusiya qanunlarının qəbul edilməsi və onların Əsas qanunumuzun tərkib hissəsinə çevrilməsi bir daha sübut etdi ki, ölkəmizdə insan hüquq və azadlıqlarının təminatı konkret halda da dövlətin ali məqsədidir.

Söz və mətbuat azadlığı sahəsində parlamentdə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu, ona əlavələr və dəyişikliklər, "Televiziya və radio yayımı haqqında", "İctimai televiziya və radio yayımı haqqında" qanunlar qəbul olunmuşdur.

Milli Məclis Konstitusiyanın müddəalarına uyğun olaraq iqtisadiyyatda bazar prinsiplərinin bərqərar olunması, sahibkarlığın inkişafı sahəsində də mühüm əhəmiyyətli qanunlar qəbul etmişdir.

Tam əminliklə demək olar ki, Konstitusiyada öz əksini tapmış strateji məqsədlər artıq ölkədə reallığa çevrilmişdir.

Heydər Əliyev bu sahədə əldə edilmiş nailiyyətləri belə xarakterizə edirdi:

"Tarixən çox qısa bir müddət ərzində biz qabaqcıl Avropa təcrübəsinə əsaslanaraq, çox şeyə nail ola bildik. Biz bütün çətinliklərə baxmayaraq, liberal iqtisadiyyat və sivil cəmiyyət quruculuğu yolu ilə irəlilədik. Biz insan haqlarının qorunmasını önə çəkdik, vətənimizin və vətəndaşlarımızın totalitarizm dövrünün ağır irsindən xilas olmasına çalışdıq. Biz demokratiyanın inkişafı üçün mühüm şərtlərdən olan daxili sabitliyə nail olduq. Biz azad söz, azad mətbuat və çoxpartiyalı siyasi sistem yaratdıq. Biz müddəalarının üçdə biri insan haqlarının və əsas azadlıqların qorunmasına həsr olunmuş yeni Konstitusiya qəbul etdik. Şərqdə ilk dəfə ölüm hökmünü aradan qaldırdıq, yeni qanunvericilik sistemini yaratdıq, prezident, parlament və bələdiyyə seçkiləri keçirdik. Bir sıra mühüm siyasi və iqtisadi islahatlar apardıq və aparırıq".

Azərbaycan dövlətçiliyinin memarı, görkəmli dövlət xadimi Heydər Əliyev milli qanunvericiliyimizin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunmasının daha etibarlı təmin edilməsi məqsədi ilə 2002-ci il 22 iyun tarixli fərmanı ilə Konstitusiyada dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının referendum aktının layihəsini ümumxalq səsverməsinə çıxardı.

1995-ci ildə ölkəmizin ilk Konstitusiyasının qəbul edilməsindən ötən dövr ərzində cəmiyyət və dövlət həyatının müxtəlif sahələrində köklü dəyişikliklər baş vermiş, demokratik islahatlar aparılmış, respublikanın hüquq sistemi yenidən qurulmuş, müstəqil məhkəmə hakimiyyəti yaradılmış, hüquq-mühafizə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə yeni qanunlar və məcəllələr qəbul edilmişdir.

Ölkədə aparılan islahatlar, Avropaya inteqrasiya istiqamətində atılan addımlar sayəsində Azərbaycan Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tam hüquqlu üzv qəbul

edilmiş, insan hüquq və azadlıqları ilə bağlı müxtəlif konvensiyalara qoşulmuşdur. Heydər Əliyevin bu sahədə atdığı növbəti addım onun dərin fəlsəfi düşüncələrinin məntiqi nəticəsi idi. Referendumda edilmiş dəyişikliklər tam mütərəqqi xarakter daşımaqla yanaşı, ilk növbədə dövlətçiliyimizin, demokratik norma və prinsiplərin daha da möhkəmləndirilməsinə yönəlmişdir.

Ölkənin Milli Məclisi özünün 2002-ci il 29 iyul tarixli növbədənkənar sessiyasında referendum aktı layihəsini geniş müzakirə etmiş və bu məsələ ilə əlaqədar Azərbaycan xalqına müraciət qəbul etmişdir. Müraciətdə deyilirdi: ***"Konstitusiyada edilməsi nəzərdə tutulan dəyişikliklər insan hüquqlarının və azadlıqlarının qorunmasının əlavə təminatları, seçki sistemi, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin tənzimlənməsi, məhkəmə hakimiyyətinin rolunun artması ilə bağlıdır.***

...Azərbaycan Respublikasının Milli Məclisi bəyan edir ki, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin ümumxalq səsverməsinə (referenduma) çıxardığı Konstitusiya dəyişikliklərini dəstəkləyir və onların həyati zəruriliyini bir daha qeyd edir".

Bu, Heydər Əliyev və parlament iş birliyinin ən parlaq nümunələrindən biri idi. Referendumda edilmiş dəyişikliklərdə insan hüquq və azadlıqlarının qorunmasının daha da gücləndirilməsi, vətəndaşlara məhkəmələrə, ombudsmana, Konstitusiya məhkəməsinə müraciət etmək hüququnun verilməsi nəzərdə tutulmuşdu. Referendumun nəticələrinə görə indi hər bir ölkə vətəndaşı Konstitusiya məhkəməsinə müraciət edə bilər.

Hüquq və azadlıqların qorunması ilə bağlı məsələlərdən biri də qanunvericiliyin Avropa Şurası konvensiyalarına uyğunlaşdırılması idi. Konvensiyalarda əks olunan müddəalar Milli Məclisdə ratifikasiya edilsə də, 1995-ci il Konstitusiya-

sında öz əksini tapmamışdır. Referendumda ilk dəfə olaraq ölkədə Ombudsman İnstitutunun yaradılması və bu müddəanın Konstitusiyada əks olunması təsdiqləndi.

2002-ci il 24 avqust referendumu Milli Məclisə seçkiləri daha da demokratikləşdirmək, xalqın iradəsini daha dolğun ifadə etmək üçün seçkilərin birmandatlı dairələr üzrə aparılması qaydasını müəyyən etdi. Bu, son dövrdə Azərbaycanın ictimai-siyasi həyatında baş verən proseslərlə birbaşa bağlı idi.

Ölkənin qüvvədə olan Əsas sənədi ona edilmiş dəyişikliklərlə ölkəmizdə dövlət quruculuğunun daha da möhkəmləndirilməsinə, demokratiyanın həyatın bütün sahələrində bərqərar olmasına və inkişafına xidmət etməklə yanaşı, dövlətçilik ənənələrinin, xalqımızın keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsi idi. Heydər Əliyev hüquqi dövlət quruculuğu prosesində parlamentlə sıx əlaqə şəraitində böyük uğurlara nail oldu.

Statistikaya müraciət etsək, görərik ki, 1993-cü il oktyabrın 10-dan 2002-ci il dekabrın 30-dək Milli Məclis tərəfindən qəbul edilmiş 1715 qanun və qərardan 975-i Prezident Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmişdir.

Ulu öndərin xarici siyasət strategiyasında parlamentin beynəlxalq əlaqələrinin inkişafı mühüm yer tuturdu. Bu siyasətin məntiqi nəticəsi kimi bu gün Milli Məclis respublikanin iştirak etdiyi nüfuzlu beynəlxalq təşkilatların parlament məclislərinin üzvüdür və Avratlantik strukturların parlament qurumları ilə yaxından əməkdaşlıq edir. Bu, bölgə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından çox önəmlidir.

Müstəqil Azərbaycanda Prezident – parlament münasibətlərinin yüksək səviyyədə olduğunu göstərən ən bariz nümunələrdən biri 2001-ci il fevralın 23-24-də Milli Məclisin Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin

sülh yolu ilə həlli prosesinə aid məsələyə həsr edilmiş iclası olmuşdur.

Ölkə başçısının iştirakı ilə keçirilən bu iclasa ölkədə fəaliyyət göstərin siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, habelə ziyalıların, bütövlükdə geniş ictimaiyyətin nümayəndələri dəvət olunmuşdular. Bu, Prezidentin əslində xalqla məsləhətləşməsi idi. Belə vacib tədbirin Milli Məclisdə keçirilməsi, şübhəsiz, Heydər Əliyevin parlamentin nüfuzunu yüksək tutduğunu sübut edir.

Heydər Əliyev parlamentarizm ənənələrinin inkişafına müstəqilliyimizin qorunub saxlanması, daha da möhkəmlənməsi prizmasından yanaşır, bu sahəni dövlətçilik məfkurəsinin ayrılmaz tərkib hissəsi hesab edirdi. O, dəfələrlə qeyd edirdi ki, müstəqil Azərbaycan XX əsrin əvvəllərində mövcud olmuş Xalq Cümhuriyyətinin varisidir. Hakimiyyətin mühüm qollarından biri kimi bugünkü Milli Məclis də varislik prinsipinə sadiq qalaraq parlamentarizm ənənələrini inkişaf etdirir.

Respublika Prezidenti dilimizin qorunması, onun tətbiq dairəsinin genişləndirilməsi sahəsində də çox mühüm əhəmiyyətli tədbirlər həyata keçirdi. Bu dövrdə milli dövlətçilik, azərbaycançılıq ideyaları şüurlara hakim kəsildi. Dünyanın müxtəlif bölgələrində yaşayan soydaşlarımızın tarixi Vətənlə əlaqələrini gücləndirmək məqsədi ilə Bakıda Dünya azərbaycanlılarının I qurultayı (2001-ci il 9-10 noyabr) keçirildi. Heydər Əliyevin bu sahədəki fəaliyyəti barədə respublika Prezidenti İlham Əliyev belə demişdir:

"Müstəqil dövlətçiliyimizin Heydər Əliyev tərəfindən formalaşdırılan mənəvi-ideoloji əsası dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində həlledici rol oynamışdır. Azərbaycan ziyalısını son əsrlərdə ciddi düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin fəaliyyəti sayəsində strateji dövlət siyasətinə, əməli siyasi müstəviyə keçmiş və nəticədə azərbaycançılıq

məfkurəsi şüurlara hakim kəsilmişdir. İki əsrin və iki minilliyin qovuşuğunda xalqımız məhz onun sayəsində milli-mənəvi dəyərləri layiqincə qoruyaraq, üçüncü minilliyə inamla qədəm qoymuşdur. Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir".

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə ölkədə milli ordu quruculuğu sahəsində mühüm işlər görüldü. Cəbhədə atəşkəs elan olundu. Dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Azad və demokratik şəraitdə Prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Ölkədə demokratik dəyişikliklər aparıldı. Söz və mətbuat azadlığının etibarlı təminatı üçün qanunvericilik bazası yaradıldı. Hüquq-mühafizə, məhkəmə sistemi yenidən quruldu. İqtisadiyyatın dirçəldilməsi üçün konkret tədbirlər həyata keçirilməyə başladı. Sənayedə, kənd təsərrüfatında islahatlar aparıldı. Torpaq kəndliyə verildi. Özəlləşmə həyatımızın reallığına çevrildi.

"Əsrin müqaviləsi" adını almış, Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının işlənməsi haqqında Saziş və başqa neft müqavilələri parlamentdə təsdiqlənərək real bəhrəsini verməyə başladı.

Azərbaycan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti kimi iri regional layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Müstəqil Azərbaycan Qədim İpək Yolunun bərpası kimi qlobal miqyaslı layihələrə öz möhürünü vurdu. Ölkənin haqq səsi dünyanın mötəbər kürsülərindən eşidildi.

Bu tarixi qayıdışdan sonra tariximizin qaranlıq səhifələrinin aşkarlanıb ictimaiyyətə çatdırılması sahəsində məqsədyönlü iş aparıldı. Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deporta-

siyası haqqında" fərmanı ilə xüsusi Dövlət komissiyası yaradıldı. 31 mart azərbaycanlıların soyqırımı günü elan edildi. Soyqırımı günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin 1998-ci il 31 mart tarixli bəyanatında göstərilir:

"Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanının tariximizin bu qaranlıq səhifələrinə işıq saçan ilk rəsmi sənəd kimi böyük əhəmiyyətini qeyd edir və 31 mart gününün "Azərbaycanlıların soyqırım günü" elan edilməsini milli yaddaşımızı dirçəldən, tarixi həqiqətlərin üzə çıxmasına və öz yerini tutmasına təkan verən mühüm siyasi-hüquqi və mənəvi aksiya sayır".

Milli dəyərlərin qorunub saxlanması, onların gənc nəslə aşılanması sahəsində də fəal iş aparıldı. Heydər Əliyevin 20 aprel 1997-ci il tarixli fərmanı ilə "Kitabi – Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət komissiyası təşkil edildi və komissiyanın tədbirlər planı haqqında sərəncam imzalandı. Xalqımızın bu qədim tarixi abidəsinin yubileyi ölkədə və onun hüdudlarından çox-çox uzaqlarda yüksək səviyyədə qeyd edildi. Respublika Prezidentinin rəhbərliyi ilə 1998-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi üçün tədbirlər planı hazırlandı, Cümhuriyyətin 85 illiyi də böyük təntənələrlə qeyd edildi.

Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə qoca Qafqazın bu bölgəsində yeni bir siyasi dövr, yeni təfəkkür mərhələsi başlandı. Məhz bu yeni dövr Azərbaycanın XXI əsrə hüquqi, demokratik dövlət kimi adlamasına əsaslı təminat yaratdı.

Ölkə Prezidenti cənab İlham Əliyev 28 May – Respublika günü münasibətilə keçirilən mərasimdə (25 may 2007-ci il) bu barədə belə demişdir:

"1993-2003-cü illər ərzində Azərbaycanın dövlətçiliyi quruldu. Azərbaycanın inkişaf strategiyası müəyyən olundu.

Bütün ölkələrlə xarici əlaqələrimiz qarşılıqlı hörmət və maraqlar əsasında qurulubdur və bu gün də bu belədir. 1993-cü ildən başlanmış və bugünə qədər davam edən iqtisadi və siyasi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı. Bu gün Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən çox sürətlə inkişaf edən ölkədir. Bu islahatlar bu gün də davam edir. Azərbaycanda güclü sosial siyasətin əsasları da məhz o illərdə qoyulubdur. Ona görə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir. Məhz o illərdə Azərbaycan müstəqil ölkə kimi özünü bütün dünyaya təqdim etdi. O illər ərzində Azərbaycanın indiki güclü iqtisadi potensialı formalaşdı. O illərdən başlayaraq bugünə qədər Azərbaycan bütün istiqamətlərdə çox açıq, prinsipial siyasət apararaq öz xalqının milli maraqlarının tam şəkildə təmin olunmasını təşkil edir. Biz də bu siyasətə sadiqik".

Dövlət idarəciliyində yüksək səviyyəli Prezident – Parlament münasibətlərini özündə ehtiva edən Heydər Əliyev ideyalarından bəhrələnən Azərbaycan bu gün uğurları ilə dünyanı heyrətləndirir. Bu nailiyyətlərin qazanılmasında hakimiyyətin mühüm qollarından biri kimi ölkə parlamentinin də payı vardır.

Azadlığı, müstəqilliyi uğrunda bütün cətinliklərə mərdliklə sinə gərmiş mübariz Azərbaycan xalqı bu gün Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi, Prezident İlham Əliyevin rəhbərliyi ilə öz şanlı tarixinin yeni parlaq səhifəsini yazmaqdadır.

Müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin başladığı işlərin onun siyasi varisi – ölkə başçısı tərəfindən uğurlu davamı gələcəyə doğru inamla addımlayan Azərbaycanın XXI əsrdə daha yüksək zirvələr fəth edəcəyindən xəbər verir.

Heydər Əliyev ideyalarına sədaqət nümunəsi

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi ən böyük xidmətlərdən biri cənab İlham Əliyevin şəxsində onun milli məfkurəsinə, müəyyənləşdirdiyi siyasi xəttə, dövlətçilik ideologiyasına və zəngin idarəçilik fəlsəfəsinə sadiq öz siyasi varisini yetişdirməsi oldu. Dövlət idarəçiliyində mövcud ənənələrin və aparılan siyasətin davamlılığının təmin edilməsində varisin varlığı çox əhəmiyyətli bir məsələ kimi ölkənin gələcək inkişafının əsas istiqamətlərini müəyyənləşdirir. Bu gün Heydər Əliyevin dövlətçilik ideologiyasını doğma Azərbaycanımızın uğur faktoruna çevirmiş ölkə Prezidenti İlham Əliyev ümummilli liderin yolunu inamla davam etdirir.

2003-cü il oktyabrın 15-də, Prezident seçkisi zamanı Azərbaycan xalqı tarixi seçim edərək sivil dünyaya inteqrasiyanın güclənməsinə tərəfdar olduğunu, demokratik dəyərlərə sadiqliyini bir daha təsdiqləməklə sabitliyə, tərəqqiyə, bir sözlə, Heydər Əliyev yolunun davam etdirilməsinə səs verdi. 2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimində İlham Əliyev ulu öndər Heydər Əliyevin dövlətçilik irsinə sədaqət andı içərək demişdir:

"Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm."

Bu bəyanat Azərbaycanda Heydər Əliyevin başladığı siyasi plüralizm, demokratik vətəndaş cəmiyyətinin inkişafı, beynəlxalq əməkdaşlığın genişlənməsi, sivil dünya məkanında ölkənin öz layiqli yerini tutması, əsası ulu öndər tərəfindən qoyulmuş neft strategiyasının ən yüksək səviyyədə uğurlu davamı anlamına gəlir.

İlham Əliyev hələ Prezident seçilməzdən əvvəl artıq dünyada tanınmış və qəbul olunmuş təcrübəli dövlət xadimi idi. O, yeni və müstəqil Azərbaycan uğrunda ən ağır mübarizələrdə dahi rəhbərin ən yaxın silahdaşı olmuş, həyata keçirilən islahatlarda fəal iştirak etmiş, sərbəst iqtisadiyyatın qanunauyğunluqlarına mükəmməl yiyələnmişdir. O, Heydər Əliyevin gənclər siyasətinin hazırlanması və həyata keçirilməsində mühüm rol oynamışdır. İlham Əliyev Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, Dövlət Neft Şirkətinin vitse-prezidenti və birinci vitse-prezidenti kimi çox məsul vəzifələrdə çalışmış, Milli Olimpiya Komitəsinə başçılıq etmiş, ölkənin Baş naziri vəzifəsinədək yüksəlmişdir.

İlham Əliyev siyasətə qədəm qoyduğu dövrdən ciddi uğurlara imza ataraq özünü praqmatik siyasətçi kimi təsdiqləmiş, yüksək intellekti, işgüzarlığı, səmimiliyi, mütərəqqi dövlətçilik prinsipləri ilə cəmiyyətin dərin rəğbətini qazanmışdır. O, böyük bir siyasi məktəb keçərək, beynəlxalq qurumlarda, xüsusən Avropa Şurasında Azərbaycan həqiqətlərini beynəlxalq aləmə çatdırmışdır.

İlham Əliyev Azərbaycan parlament nümayəndə heyətinin başçısı olmaqla yanaşı, həmin nüfuzlu beynəlxalq təşkilatın Parlament Assambleyasının vitse-prezidenti və Büro üzvü seçilmişdir. Məhz onun yorulmaz fəaliyyəti, qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları Avropa Şurasında ifşa olunmuş, təşkilatda Dağlıq Qarabağ münaqişəsi barədə 1416 saylı xüsusi qətnamə qəbul edilmişdir. Avropa Şurası Parlament Assambleyasındakı fəaliyyəti İlham Əliyevə Qərb siyasətçiləri arasında böyük nüfuz qazandırmışdır.

Heydər Əliyevin neft strategiyasının reallaşmasına İlham Əliyev ulu öndərin mübariz ideya silahdaşı, müasir təfəkkürə malik siyasətçi kimi öz layiqli töhfəsini vermişdir. Heç də təsadüfi deyildir ki, Prezident seçildikdən sonra da o, bu

sahədə varisliyi təmin edə bilmiş, Bakı–Tbilisi–Ceyhanın ərsəyə gəlməsində böyük xidmətlər göstərmiş, neftdən gələn gəlirlərin milli intibaha xidmət etməsinə nail olmuşdur. Prezident İlham Əliyevin "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında"11 mart 2008-ci il tarixli sərəncamında deyilir:

"1994-cü ildə Heydər Əliyevin neft strategiyasının reallaşmasını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan xalqının öz maddi sərvətlərinin, o cümlədən neftinin həqiqi sahibi kimi çıxış etməsinin təntənəsinə çevrilmişdir. Bu müqavilə ölkəmizin tarixində yeni dövr açmış, dinamik inkişafın təməlini təşkil edərək müstəqilliyimizin iqtisadi bünövrəsinin möhkəmlənməsi və Azərbaycanın bu gün dünyada analoqu olmayan templə davamlı inkişafı üçün zəmin yaratmışdır".

1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilən cənab İlham Əliyev az vaxt içərisində bu sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu sübuta yetirmişdir. Onun təşəbbüsü ilə təkcə Bakıda deyil, eyni zamanda regionlarda da (Naxçıvanda, Gəncədə, Şəkidə, Lənkəranda, Qubada, Şamaxıda və başqa bölgələrdə) olimpiya idmansağlamlıq komplekslərinin tikilib istifadəyə verilməsi, idmanın müxtəlif sahələrinin inkişafı üçün güclü maddi-texniki baza yaradılması xalqın sağlam gələcəyinə yönəlmiş uzaqgörən siyasətin parlaq nümunəsidir. Məhz bu siyasətin məntiqi nəticəsi kimi Azərbaycan 2016-cı il yay Olimpiya oyunlarına ev sahibliyi etmək iddiası ilə çıxış etmişdir.

Ümummilli liderimiz Heydər Əliyev İlham Əliyevə inamını belə ifadə etmişdir:

"O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... İnanıram ki, mənim axıra

çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyiniz ilə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Hadisələrin sonrakı inkişafı Heydər Əliyevin bu inamında haqlı olduğunu sübut etdi. Bu gün İlham Əliyev dövlət başçısı kimi bu şərəfli missiyanı uğurla yerinə yetirir. O, Prezident kimi ilk gündən *"əsl siyasət konkret, real iş görməkdən ibarətdir"* deyərək bu siyasəti hər bir ölkə vətəndaşının həyatında gerçəkliyə çevirmək üçün böyük siyasi iradə və əzmkarlıq nümayiş etdirir.

Heydər Əliyevin müəllifi olduğu sosial-iqtisadi inkişaf strategiyasının onun varisi tərəfindən inamla davam etdirilməsi, yeni dövrün tələblərinə uyğun islahatların aparılması Azərbaycanı dinamik inkişaf yoluna çıxarmış, Cənubi Qafqazda qlobal enerji layihələrinin əsas təminatçısına çevirmiş, ölkənin beynəlxalq əlaqələrinin genişlənməsinə ciddi impuls vermişdir.

Bu gün Azərbaycan Qədim İpək Yolunun bərpası kimi geniş miqyaslı layihədə öz fəallığı ilə dünyanın diqqətini cəlb edir. Əsas neft ixrac boru kəməri ilə yanaşı, Bakı-Tbilisi-Ərzurum qaz xətti artıq günümüzün reallığına çevrilmiş, bütöv bir regionun iqtisadi simasına ciddi təsir göstərə biləcək Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin bünövrəsi qoyulmuşdur. Ölkəmiz iqtisadi inkişaf göstəricilərinə görə dünyada liderlik edir.

İlham Əliyev ölkədə demokratiyanın daha da dərinləşməsini ümdə vəzifələrdən hesab edir. O, dəfələrlə bəyan etmişdir ki, Azərbaycanın inkişafı təkcə təbii sərvətlərin zənginliyindən deyil, demokratikləşmə proseslərində vətəndaş cəmiyyəti institutlarının inkişafından birbaşa asılıdır. O, deyir:

"Ölkədə həm siyasi, həm də iqtisadi sahədə islahatlar cəsarətlə aparılır. Mən tam əminəm ki, siyasi və iqtisadi

islahatlar, iqtisadi yüksəliş və demokratikləşmə prosesləri bir-birini tamamlamalıdır."

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanda liberal dəyərlər daha da möhkəmləndi. Milli həmrəylik təmin edildi. Onun yüksək humanizmi, demokratik dəyərlərə sadiqliyi cəmiyyətdə radikalizm meyllərini aradan qaldırdı, ictimai şüurda dövlətçilik düşüncəsini daha da gücləndirdi.

Cəmiyyətdə etimad mühitinin formalaşdırılması istiqamətində görülən işlər İlham Əliyevin idarəçilik fəlsəfəsində insanpərvərlik ideyalarının parlaq təzahürüdür. Azərbaycanın müxtəlif bölgələrinə səfərləri zamanı vətəndaşlarla birbaşa görüşləri, regionların problemlərinin həllindəki tələbkarlığı və qətiyyəti xalqın Prezidentə olan inamını daha da artırmış, onun ulu öndər Heydər Əliyevin layiqli davamçısı olduğunu bir daha təsdiqləmişdir. Bu günün fövqündən baxanda İlham Əliyevin Prezident kimi verdiyi sözə sadiq qaldığı aydın görünür: ***"Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam."***


Bu gün Azərbaycanın xarici siyasət sahəsində mühüm uğurlara imza atması, Bakının beynəlxalq əməkdaşlıq paytaxtına çevrilməsi bu sahədə varislik ənənələrinin qorunub inkişaf etdirilməsi ilə bağlıdır. Ölkə başçısının xarici siyasətdə ulu öndərimiz tərəfindən müəyyənləşdirilmiş strategiyaya və prioritetlərə sadiqlik nümayiş etdirməsi dünya dövlətlərinin Azərbaycana inamını daha da artırmışdır.

İlham Əliyevin idarəçilik təcrübəsində siyasi varislik ənənələrinin davamı, mütərəqqi inkişaf meyllərinin tətbiqi ideyası üstünlük təşkil edir. O, müasir dünyagörüşlü, qlobal miqyasda baş verən iqtisadi prosesləri dərindən bilən dövlət başçısı kimi ölkənin sosial-iqtisadi tərəqqisində əsas istiqamətləri zamanın tələblərinə uyğun dəyərləndirir. Bu gün Azərbaycanda, eləcə də ölkənin paytaxtında aparılan nəhəng




















Assemblée
Parlementaire
de l' OTAN
26-30 Mai 2006
NATO


Assemblée
parlementaire
Council of Europe
Conseil de l'Europ


ORGANIZATION FOR DEMOCRACY
G U A M
AND ECONOMIC DEVELOPMENT
BAKU
19-19 JUNE 2007




جمهورية أذربيجان
Azerbaijan


TI AÇILIŞ TÖ Nİ
ΡΚΙΑΣ–ΕΛΛ Σ
ATURA
EMBER 2


btc




"AZƏRBAYCAN RESPUBLİ
SOSİAL-İQTİSADİ İNKİŞAFI D
(2004-2008-Cİ İLLƏR)"
YEKUNLARINA HƏ
KONFRA
















ƏRAZİNİN VİZUAL G
















TÜRK DEVLET VE TOPLULUKLARI
DOSTLUK KARDEŞLİK VE İŞBİRLİĞİ VAKFI
BAKI - 17-19 NOYABR - 2007
«Dildə, Fikirdə, İşdə Bir
İsmayıl bəy Qaspıralı
«Türk ildırımd
dünyanı aydın




UNESCO


ЗОЛОТОЕ
СЕРДЦЕ


MİLLİ ŞURA














ZIRVA





quruculuq işlərinin təşəbbüskarı və memarı məhz Prezident İlham Əliyevdir, desək yanılmarıq. O, həm də Heydər Əliyev irsini zənginləşdirən bir liderdir!

Prezident səlahiyyətlərinin icrasına başladığı ilk gündən qarşıdakı hədəfləri dəqiqliklə müəyyənləşdirən cənab İlham Əliyevin 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında fərmanı da məhz qarşıda duran vəzifələrin kompleks həllinə yönəlmişdir. İqtisadiyyatda müasir inkişaf tendensiyasının daha da sürətləndirilməsi, bu prosesdə yüksək dinamizmin təmin olunması yollarının konseptual əsaslarını özündə əks etdirən bu fərman əsas məqsədlərə yetmək baxımından çoxsaylı dövlət proqramlarının hazırlanmasında bir növ baza rolunu oynamışdır.

Çevik və işlək mexanizmlər üzərində reallaşdırılan çoxşaxəli islahatların məqsədyönlü davamı kimi, Prezident İlham Əliyev 11 fevral 2004-cü il tarixdə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı nın təsdiq edilməsi haqqında fərman imzaladı. Regionlarda sosial-iqtisadi infrastrukturun yenidən qurulması, özəl sektor üçün münbit şəraitin yaradılması, ölkə iqtisadiyyatının neft amilindən asılılığının aradan qaldırılması məqsədi ilə kompleks tədbirləri nəzərdə tutan bu sənəddə iqtisadi siyasətin prioritet istiqamətləri öz əksini tapmışdır.

Uğurla həyata keçirilməkdə olan dövlət proqramlarında Azərbaycanın spesifikliyi, milli maraqlarımız mühüm əhəmiyyət kəsb edir. İlham Əliyev ölkəmizin inkişafında keyfiyyətcə yeni və olduqca gərəkli bir proqramın yerinə yetirilməsini qarşıya əsas məqsəd qoyub: "*təbii-tarixi xüsusiyyətlərinə və ənənələrinə uyğun olaraq Azərbaycanın bütün regionlarının sosial-iqtisadi cəhətdən inkişaf etdirilməsinə nail olmaq*". Bu siyasəti bütün xalqımız alqışlayır!

Dövlət proqramının icrası ölkə həyatının bütün sahələrində tezliklə sürətli inkişafa yol açdı, bölgələrdə canlanma yarandı, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdı. Regionlarda yeni müəssisələrin yaradılması hesabına ölkəmizdə işsizliyin səviyyəsi xeyli dərəcədə azaldı. Bu sahədə görülən işlər barədə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasının dörd illik yekunlarına həsr edilmiş konfransda ölkə başçısı belə demişdir:

"2003-cü ildə biz bəyan etmişdik ki, Azərbaycanda işsizliyin aradan qaldırılması üçün beş il ərzində 600 min yeni iş yeri açılmalıdır. Artıq 4 il ərzində 650 min yeni iş yeri açılmışdır ki, onlardan 480 mini yeni iş yerləridir. Bu o deməkdir ki, insanlar işlə təmin olunur, yerli istehsal güclənir. Yerli istehsalın güclənməsi nəticəsində Azərbaycanda qeyri-neft sektoru daha da sürətlə inkişaf edir".

Ölkə vətəndaşlarının rifah halının yüksəldilməsi naminə İlham Əliyev neft amilindən də məharətlə istifadə edir. O, yurdumuzun bölgələrində keçirdiyi görüşlərdə belə bir məqamı önə çəkir ki, ölkənin valyuta ehtiyatları, neft gəlirləri artdıqca xalqın həyat səviyyəsinin yaxşılaşdırılması, yoxsulluğun azaldılması, iqtisadi islahatların gücləndirilməsi istiqamətində əməli addımlar atılır: *"Mən qarşıya vəzifə qoymuşam ki, Azərbaycanda yoxsulluq tam şəkildə aradan qaldırılmalıdır... Azərbaycanda kasıb adamlar olmamalıdır".*

İlham Əliyev əldə olunmuş nailiyyətləri qoruyub saxlamaqla yanaşı, regionların inkişafını sistemli, ardıcıl şəkildə davam etdirmək niyyətindədir. Bu məqsədlə o, 2009-2013-cü illəri əhatə edən yeni proqramın imzalanacağını bəyan etmişdir. Dövlət başçısı hesab edir ki, qarşıda duran vacib vəzifələrdən biri də Azərbaycanın bölgələrində formalaşdırılan infrastrukturun Avropa Birliyi meyarlarına çatdırılmasıdır. Növbəti beş il üçün hazırlanacaq proqramda bu məsələlər öz əksini tapacaq:

"Regionların inkişafına dair ikinci proqramın nəticəsi bu olmalıdır ki, Azərbaycanda bütün infrastruktur dünya səviyyəsinə çatsın və Avropa Birliyinin meyarlarına bərabər olsun. Bu, bütövlükdə bizim siyasətimizin əsasıdır. Biz, il yarım bundan əvvəl Avropa ilə qonşuluq siyasətinə başlayanda – proqramın müddəti beş ildir, – məhz bu məqsədi qarşımıza qoymuşduq ki, beş il ərzində Azərbaycanda mümkün olan bütün meyarlar Avropa Birliyinin meyarlarına uyğunlaşdırılsın. İstər siyasi məsələlər, siyasi sistem, istərsə də iqtisadi, regional, infrastruktur baxımından. Avropa Birliyi təcrübəsi çox müsbətdir və əlbəttə, əgər biz növbəti illərdə buna nail olsaq, demək olar ki, qarşımıza qoyduğumuz əsas məsələləri həll etmiş olarıq. Ona görə çox vacibdir ki, növbəti proqramda məhz bu meyarlar əsas götürülsün və proqramın icrası üçün lazımi tədbirlər görüləcəkdir".

Bu gün ölkə başçısının qarşıya qoyduğu məqsədlərə çatmaq üçün Milli Məclis qanun yaradıcılığı sahəsində öz üzərinə düşən missiyanı şərəflə yerinə yetirir. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş yüksək səviyyəli Prezident-Parlament münasibətləri yeni mərhələdə də uğurla davam etdirilir. Ötən dövrdə ölkədə demokratiyanın daha da dərinləşməsini, iqtisadi-sosial sahənin müasir tələblər səviyyəsində inkişafı, beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından III çağırış Milli Məclisdə qanun yaradıcılığı sahəsində mühüm işlər görülmüşdür. Parlamentin fəaliyyəti barədə İlham Əliyev demişdir:

"Milli Məclis Azərbaycanın inkişafında çox mühüm rol oynayır. Yeni qanunlar qəbul olunur, Milli Məclisin beynəlxalq fəaliyyəti möhkəmlənir və deputatların seçicilərlə

görüşləri çox mütəmadi xarakter alır. Bu, çox önəmlidir, çünki seçicilərin qayğıları, onların arzuları ilk növbədə yerinə yetirilməlidir. Bu baxımdan Milli Məclis üzvlərinin fəaliyyətindən çox şey asılıdır. Bütün görülən işlər, ölkədə gedən inkişaf meylləri bir məqsədə qulluq edir: Azərbaycanı hərtərəfli inkişaf etdirmək, zəngin, qüdrətli dövlətə çevirmək, sosial ədalət prinsiplərini tam şəkildə bərqərar etmək və ölkəmizi müasirləşdirmək".

Bu gün qloballaşan dünyanın bir hissəsi olan müstəqil Azərbaycanda uğurla aparılan islahatlar nəticəsində həyatın bütün sahələrində canlanma və tərəqqi göz önündədir. Təbii ki, bu dəyişikliklər mövcud qanunvericilik bazasının zamanın tələblərinə uyğun təkmilləşdirilməsini, yeni qanun və qərarların qəbulunu zəruri edir.

Parlamentdə ölkənin əsas maliyyə sənədi olan Dövlət büdcəsi hər il müzakirələrdən sonra qəbul olunur. Milli Məclisin iclaslarında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin hesabatları, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın), bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən Ədliyyə Nazirliyinin illik məruzələri dinlənilir.

Milli Məclis qaçqın və məcburi köçkünlərin vəziyyətinə, onların həyat şəraitinin daha da yaxşılaşdırılmasına, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsinə daim diqqət və qayğı ilə yanaşır, onların problemlərinin həlli üçün bütün imkanlardan istifadə edir.

Parlamentdə qəbul olunmuş qanunların əhəmiyyətli bir hissəsi qanunvericilik təşəbbüsü ilə ölkə Prezidenti tərəfindən Milli Məclisin müzakirəsinə təqdim edilmişdir. İlham Əliyev hələ Azərbaycan parlamentinin deputatı olduğu dövrdə, 1995-2003-cü illərdə Milli Məclisin qanun yaradıcılığı işində yaxından iştirak etmiş, ulu öndər tərəfindən ölkədə

aparılan islahatların hüquqi bazasının təkmilləşdirilməsinə və qanunvericiliyimizin Avropa standartları səviyyəsinə yüksəlməsinə, parlamentin beynəlxalq əlaqələrinin genişlənməsinə öz layiqli töhfəsini vermişdir. O, deyir: ***"Mənim üçün Milli Məclis çox əziz və doğma bir yerdir, mənim doğma evimdir... Biz bir məqsədə qulluq edirik. Amalımız da, məramımız da birdir – ölkəmizi möhkəmləndirmək, gücləndirmək, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq, güclü dövlət yaratmaqdır".***

Heç də təsadüfi deyildir ki, Azərbaycan Prezidenti parlamentin fəaliyyətinin daha da təkmilləşdirilməsi, deputatlara günün tələbləri səviyyəsində iş şəraitinin yaradılması məqsədi ilə III çağırış Milli Məclisdə deputat köməkçisi institutunun təsis edilməsinə dövlət başçısı kimi böyük dəstək vermişdir. Bu, millət vəkillərinin yerlərdə öz seçiciləri ilə tez-tez görüşməsi, onları düşündürən məsələlərin öyrənilməsi, ərizə və müraciətlərə operativ cavablar verilməsi baxımından çox əhəmiyyətlidir. Bu isə özlüyündə İlham Əliyevin dövlətçilik fəlsəfəsində mütərəqqi meyllərin üstünlük təşkil etməsi ilə bağlıdır. Ölkə başçısı kimi o, həmişə parlamentdə qaldırılan məsələlərə böyük həssaslıqla yanaşır, yüksək səviyyəli Prezident-Parlament münasibətlərinə keyfiyyətcə yeni çalarlar gətirir.

Milli Məclis ölkənin ictimai-siyasi həyatında baş verən mühüm əhəmiyyətli hadisələrdən kənarda qalmır, onlara öz münasibətini bildirir. Ölkənin qanunvericilik orqanı beynəlxalq arenada baş verən və Azərbaycan üçün vacib olan hadisələrə öz mövqeyini açıqlayır, lazım gəldikdə dünyanın müxtəlif ölkələrinin parlamentlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər, məktublar ünvanlayır.

Parlamentin beynəlxalq əlaqələrinin inkişafı Milli Məclis rəhbərliyinin daim diqqət mərkəzindədir. Milli Məclisin nü-

mayəndə heyətləri bir sıra xarici ölkələrdə rəsmi səfərlərdə olur, beynəlxalq təşkilatların işində yaxından iştirak edirlər.

Parlamentlərarası əlaqələrin inkişafında xarici ölkələrin ali qanunvericilik orqanları ilə dostluq qrupları xüsusi yer tutur. Milli Məclisdə 69 ölkənin qanunvericilik orqanı ilə əlaqələr üzrə işçi qrupları yaradılmışdır. Bu qrupların qanun yaradıcılığı sahəsində təcrübə və informasiya mübadiləsi baxımından əhəmiyyəti böyükdür.

Hazırda Milli Məclis Parlamentlərarası İttifaqın, Avropa Şurası Parlament Assambleyasının, MDB Parlamentlərarası Assambleyanın, ATƏT Parlament Assambleyasının, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin, İslam Konfransı Təşkilatı Parlament Məclisinin, GUAM Parlament Assambleyasının tam hüquqlu, NATO Parlament Assambleyasının isə assosiativ üzvüdür. Milli Məclis Avropa Parlamenti və digər mötəbər beynəlxalq qurumlarla da sıx əməkdaşlıq edir. Deputatlarımız mütəmadi olaraq bu təşkilatların işində yaxından iştirak edir, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırırlar.

Millət vəkilləri ölkəmizin Avropa qurumları ilə əlaqələrinin genişlənməsinə xidmət edən əməli fəaliyyət göstərirlər. Azərbaycanın Avratlantik strukturlara inteqrasiyası barədə ölkə Prezidenti parlamentdəki çıxışında demişdir: ***"Bizim Avratlantik strukturları ilə əməkdaşlığımız çox səmərəlidir və müsbətdir. Bu istiqamətə böyük diqqət göstərilir və xarici siyasətimizin bu istiqaməti növbəti illərdə daha da güclənməlidir. Avropa İttifaqı ilə əlaqələr yüksək səviyyədədir. Azərbaycan beş ildir Avropa Şurasının üzvüdür və Avropa Şurası ilə artıq çox gözəl əməkdaşlıq edir".***

Beynəlxalq əlaqələr sahəsində nəzərə çarpan cəhətlərdən biri də müxtəlif dövlət başçılarının, parlament rəhbərlərinin, görkəmli ictimai-siyasi xadimlərin ölkəmizə səfərləri zamanı Milli Məclislə əlaqələrin genişləndirilməsinə göstərdikləri böyük maraqdır. Ötən dövrdə Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gül, Litva Prezidenti Valdas Adamkus, Koreya Respublikasının Prezidenti Ro Mu Xyun, Ukrayna Prezidenti Viktor Yuşşenko, Xorvatiya Respublikasının Prezidenti Stepan Mesiç, Rusiya Federasiyası Federasiya Şurası Federal Məclisinin Sədri Sergey Mironov, İran İslam Respublikası İslam Şurası Məclisinin Sədri Qulaməli Həddad Adil, İsveçrə Konfederasiyası Milli Şurasının Sədri Kristin Egerszegi-Obrist, ABŞ Senatının Beynəlxalq münasibətlər komitəsinin sədri Riçard Luqar və başqaları ölkəmizə rəsmi səfərləri zamanı parlamentdə olmuş, Milli Məclisin Sədri ilə parlamentlərarası əməkdaşlığın inkişafı barədə fikir mübadiləsi aparmışlar.

Bununla yanaşı, nüfuzlu beynəlxalq qurumların təmsilçiləri, ölkəmizdə fəaliyyət göstərən xarici ölkələrin səfirləri tez-tez parlamentdə olur, ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri barədə fikirlərini bölüşürlər. Bu görüşlərdə parlamentlərarası münasibətlərin genişlənməsi, Dağlıq Qarabağ probleminin və regional münaqişələrin həlli yolları, Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələləri diqqət mərkəzində olur.

Bu gün yeniləşən Azərbaycanda quruculuq işlərinin parlaq nümunəsi kimi Milli Məclisin inzibati binası da tamamilə yeni görkəm almışdır.

Bəli, ulu öndərin sivil dövlət quruculuğu ideyalarının tərənnümçüsü olan bugünkü Milli Məclis müstəqil Azərbaycanın yeni-yeni uğurlar qazanmasına öz töhfəsini verməklə ölkə başçısı İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir.

Azərbaycan Prezidenti İlham Əliyevin daim diqqət mər-

kəzində saxladığı ən mühüm məsələ ölkənin ərazi bütövlüyünün bərpası məsələsidir. Ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ölkə başçısının mövqeyi qətidir. O, dəfələrlə bəyan edib ki, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq hüquq normaları çərçivəsində həll edilə bilər. Azərbaycan Prezidenti ermənilərin ölkəmizə ərazi iddiaları barədə birmənalı şəkildə deyir:

"Azərbaycan heç vaxt öz torpağında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Azərbaycan bütün imkanlarını səfərbər edib, diplomatik, siyasi, iqtisadi, hərbi – bütün imkanlardan istifadə edib öz doğma torpaqlarını azad edəcəkdir."

İlham Əliyev bütün çıxışlarında ermənilərin türk dünyasına qarşı bədnam siyasətinin ifşası üçün daha mütəşəkkil fəaliyyətə ehtiyac olduğunu qətiyyətlə bəyan edir. Bu zaman o, "ən yaxşı müdafiə hücumdur taktikasına üstünlük verir.

Dünya birliyi indi Dağlıq Qarabağ həqiqətlərinə daha açıq gözlə baxmaq məcburiyyətindədir. Artıq beynəlxalq təşkilatlara və aparıcı dövlətlərə də bəllidir ki, Azərbaycan dövləti və bu dövlətin rəhbəri ölkənin bütün ərazisində suveren hüquqlarını bərpa etmək niyyətindədir. Milli Məclisin tribunasından dövlət başçısı bəyan etmişdir:

"Bizim ən böyük güzəştimiz sülh danışıqlarına sadiqliyimizdir. Ancaq biz bütün bu imkanlardan istifadə edib, yeni vəziyyət yaratmalıyıq. Hərbi potensialı möhkəmləndirməklə bərabər, bütün siyasi, iqtisadi, diplomatik və regional amillərdən istifadə edib Ermənistana çox güclü təzyiq göstərə biləcəyik. Bəzi hallarda opponentlərimiz istəyirlər bizi tənqid etsinlər ki, Qarabağ məsələsi niyə həll olunmur? Ona görə həll olunmur ki, Azərbaycan bizi qane etməyən razılaşmaya heç vaxt getməyəcəkdir. Ona görə həll olunmur

ki, bütün təzyiqlərə baxmayaraq, Prezident kimi mən Azərbaycan dövlətinə, Azərbaycan xalqına sərf etməyən razılaşmaya getməyəcəyəm".

Bu gün sosial-iqtisadi problemlər məngənəsində sıxılan Ermənistandan fərqli olaraq Azərbaycanın yüksəlişi, ölkəmizdə günbəgün güclənən ordu quruculuğu prosesi, beynəlxalq təşkilatların ölkəmizə dəstəyi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həllinə geniş imkanlar açır.

İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi diqqət və qayğı göstərir. O, milli-mənəvi dəyərlərimizin qorunmasında Heydər Əliyev məfkurəsinə sadiqlik nümayiş etdirərək ulu öndərin bu siyasətini müasir mərhələdə uğurla davam etdirir. Onun sərəncamı ilə Azərbaycan və dünya klassiklərinin əsərləri latın qrafikasında yenidən çap olunur. O, həm də xalqımızın həyatında mühüm rol oynamış nadir şəxsiyyətlərin zəngin irsinin öyrənilməsini və təbliğini çox önəmli hesab edir, milli tariximizin müəyyən dönəmlərində baş vermiş mühüm hadisələrin əhəmiyyətini yüksək dəyərləndirir. Ölkə Prezidentinin "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında 11 mart 2008-ci il və "Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında" 15 fevral 2008-ci il tarixli sərəncamları buna parlaq misaldır.

Prezident İlham Əliyev Azərbaycan diasporunun fəaliyyətini keyfiyyətcə yeni, daha yüksək səviyyəyə qaldırmaq üçün yeni-yeni addımlar atır. Bu məqsədlə o, 2006-cı il fevralın 8-də Bakı şəhərində Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında sərəncam imzaladı. Həmin il martın 16-da ölkə Prezidentinin iştirakı ilə Heydər Əliyev adına sarayda Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi diaspor quruculuğu sahəsinə xüsusi diqqətin bariz nümunəsi oldu. Qurultay ölkəmizdə 1993-cü ildən başlanan

diaspor quruculuğu siyasətinin yeni mərhələyə qədəm qoyduğunu, davamlı və dönməz səciyyə daşıdığını bir daha təsdiqlədi.

Bu siyasətin məqsədyönlü davamı kimi 2007-ci il martın 9-da ölkə başçısının təşəbbüsü ilə Azərbaycan və türk diasporları rəhbərlərinin I Bakı forumu, noyabrın 17-19-da isə Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı keçirildi. Bu tədbirlərdə ümumi mənafelər naminə birgə fəaliyyətin əsas istiqamətləri barədə geniş fikir mübadiləsi aparıldı.

Öz əməli fəaliyyəti ilə Heydər Əliyev irsinə sədaqət nümunəsi göstərən cənab İlham Əliyev sübut etmişdir ki, o, yurdumuzun hər bir vətəndaşının, onun bütün bölgələrinin Prezidentidir! Heç şübhə yoxdur ki, qarşıdakı 2008-ci il prezident seçkilərində xalqımız ulu öndərin siyasi varisini yenidən ölkə başçısı seçərək Heydər Əliyev yolunun davamına səs verəcəkdir.

Qədirbilən xalqımız əmindir ki, ölkə rəhbərinin müdrik, qətiyyətli və milli maraqların təmin olunmasına yönəlmiş uzaqgörən siyasəti Azərbaycanımızı daha parlaq gələcəyə qovuşduracaqdır!

Milli dövlətçilik sistemində Birinci xanım ənənəsinin yaranması

Bu gün ulu öndər Heydər Əliyev ideyalarının ölkəmizdə reallaşması nəticəsində Azərbaycanda demokratik dəyərlər bərqərar olmuş, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm nailiyyətlər əldə edilmiş, şəxsiyyətin hərtərəfli inkişafı üçün əlverişli şərait yaranmışdır. Məhz bu uğurlar sayəsində Azərbaycan qadını cəmiyyətin fəal üzvü

kimi çıxış etmək imkanı qazanmışdır. Sözsüz ki, günbəgün çiçəklənən və qüdrətli dövlətə çevrilməkdə olan Vətənimizin əldə etdiyi nailiyyətlərdə qadınlarımızın da böyük rolu və əməyi vardır. Bu gün onlar ölkəmizdə əmin-amanlığın qorunması, müstəqil dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin inkişaf etdirilməsi işinə öz layiqli töhfələrini verirlər.

Azərbaycan qadını bəşəri dəyərləri özündə ehtiva edən bügünkü cəmiyyətimizdə "Birinci xanım" ənənələrini bərqərar edərək dövrün tələblərinə uyğun inkişaf etdirməyə nail olmuşdur. Bu vacib dövlətçilik institutunun müasir mərhələdə formalaşması isə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. O, dünyaya göz açıb boya-başa çatdığı ailə, daim əhatə olunduğu vətənpərvərlik, azərbaycançılıq, nəciblik kimi ülvi hisslər üzərində formalaşmış mühit, fəaliyyətində daim istinad etdiyi milli-mənəvi dəyərlər etibarilə əsl Azərbaycan qadınının simvoluna çevrilmişdir.

Mehriban xanım Əliyeva akademik Arif Paşayevin və istedadlı şərqşünas alim mərhum Aida xanım İmanquliyevanın ailəsində dünyaya göz açıb, XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mircəlal Paşayevin və milli mətbuatımızın patriarxı Nəsir İmanquliyevin ocağından nur alıb. Onun həyat müəllimləri isə müstəqilliyimizin memarı Heydər Əliyev və Azərbaycan qadınının şərəf mücəssəməsi olan Zərifə xanım Əliyevadır.

Dünyanın əksər ölkələrində dövlət rəhbərlərinin xanımlarının ictimai-siyasi fəaliyyətləri əsasında qurulan bu ənənənin çağdaş dövrümüzdə ölkəmizdə yaranması məhz Mehriban xanım Əliyevaya nəsib olmuşdur. Onun simasında bu ənənənin müstəqil Azərbaycanın dövlətçilik sistemində

qurulması, ölməz milli ənənələrimizə olan sonsuz ehtiram və sədaqətin bariz nümunəsidir. Bu, əslində milli dövlətçilik tariximizdə vaxtı ilə dərin iz buraxmış Mömınə xatun, Sara xatun ənənələrinə dərin rəğbət anlamına gəlir. Bu, həm də onların irsinə müasir dövrün prizmasından yeni bir baxışdır.

Mehriban xanım Əliyevanın üzərinə götürdüyü böyük missiya Azərbaycanda qadın hüquqlarının yüksək səviyyədə təmin edilməsinə əyani sübutdur. Onun fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamlayır. Heç də təsadüfi deyildir ki, Azərbaycanın Birinci xanımı, fədakarlığı, mədəniyyətimizə, tariximizə, adət-ənənələrimizə bağlılığı ilə əsl ümumxalq sevgisi qazanmışdır.

"Birinci xanım" institutu Azərbaycanda geniş mənada məhz 2003-cü ilin oktyabrından başlayaraq formalaşmışdır. Mehriban xanım Əliyeva bu ənənəni Azərbaycan siyasətinə gətirməklə özünü ölkənin Birinci xanımı kimi təsdiqləyərək bu institutun əhəmiyyətini geniş ictimaiyyətin diqqətinə çatdırdı.

Hələ 1995-ci ildən etibarən onun Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti kimi xalqının maddi və mənəvi mədəniyyət nümunələrinin qorunması, habelə dünya miqyasında təbliği, bu məqsədlə 1996-cı ildə "Azərbaycan-İrs" jurnalının Azərbaycan, ingilis və rus dillərində nəşrə başlaması, 2002-ci ildən isə həm də Azərbaycan Bədii Gimnastika Federasiyasının rəhbəri kimi ölkəmizdə bu idman növünün yüksəlişi istiqamətlərində gördüyü işlər onun cəmiyyətdə Birinci xanım kimi qəbul olunmasına əsaslar yaradırdı.

O, 2004-cü ildən Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin və Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvüdür. Mehriban xanım Əliyeva ona göstərilən hər cür etimada böyük məsuliyyət hissi ilə yanaşdığından, qısa zaman kəsiyində bütün bu sahələrdə çox böyük uğurlara imza atdı.

O, 2004-cü ildə şifahi xalq ədəbiyyatının və musiqi

irsinin qorunub saxlanılması və inkişaf etdirilməsindəki nailiyyətlərinə, nəcib və tərəqqipərvər təşəbbüslərinə görə YUNESKO-nun, 2006-cı ildə isə çoxşaxəli fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, təhsildə və islam aləmində gördüyü işlərə görə İSESKO-nun xoşməramlı səfiri adına layiq görülüb.

Ölkənin Birinci xanımının xalqımız qarşısında ən böyük xidməti Heydər Əliyev Fondu ilə bağlıdır. 2004-cü ilin yayında yaradılmış Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban xanım Əliyevanın bu sahədəki fəaliyyəti həqiqətən heyrətamizdir. Onun təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilmiş layihələr rəhbərlik etdiyi Fondu beynəlxalq miqyasda ən nüfuzlu qeyri-hökumət qurumlarından biri kimi tanıtmışdır.

Heydər Əliyevin siyasi məfkurəsini rəhbər tutan, onun azərbaycançılıq fəlsəfəsini təbliğ edən Fondun ən müxtəlif sahələr üzrə fəaliyyəti, həyata keçirdiyi çoxşaxəli layihələr ölkə vətəndaşlarına yaxşı məlumdur. Ulu öndərin ölkənin iqtisadi, mədəni tərəqqisi, dünya birliyinə inteqrasiyası ilə bağlı fikirlərinin, onun milli dövlətçilik ideyalarının gənc nəslə aşılanması, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya sahələrinə aid iri miqyaslı proqram və layihələri gerçəkləşdirmək, milli-mənəvi dəyərlərə sadiq gənclər yetişdirmək, Azərbaycanın beynəlxalq nüfuzunu artırmaq Fondun əsas məqsədləri sırasındadır.

Bu gün Heydər Əliyev Fondu ümummilli liderimizin tövsiyələrinə sadiq qalaraq Azərbaycanın nurlu sabahı naminə məqsədyönlü işləri davam etdirməkdədir. Zəngin mədəni irsimizin dünyada tanıdılması, təhsil, səhiyyə və mədəniyyət sahəsində heyrətamiz layihələri gerçəkləşdirməklə Fond qısa müddətdə cəmiyyətin diqqətini cəlb etmişdir.

Heydər Əliyevin şərəfli adı ilə bağlı olan bu qurum hazırda milyonlarla insan üçün, sözün əsl mənasında, ümid və

güvənc yerinə çevrilmişdir. İnsanlara qayğı və təmənnasız xidmət amalına sadiq qalan Fond geniş xeyriyyəçilik fəaliyyəti ilə də məşğul olur. Ulu öndərin humanizm prinsiplərini rəhbər tutan Fondun prezidenti Mehriban xanım Əliyeva üzərinə götürdüyü şərəfli missiyanı belə dəyərləndirir:

"İstər YUNESKO-nun xoşməramlı səfiri, istərsə də Heydər Əliyev Fondunun Prezidenti kimi mənə ehtiyac olduğunu hiss edirəm. Mənim adıma hər gün 200-dən çox məktub gəlir. Onların heç biri diqqətsiz qalmır. Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm... Bu mənim seçimimdir".

Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyəti barədə ölkə Prezidenti İlham Əliyev demişdir:

"O, insanlara xoş münasibəti, xoş niyyəti, xoş ünsiyyəti ilə seçilib. Bu, onun xasiyyətinin ən fərqləndirici cəhətidir. Mən əminəm ki, Mehriban Əliyeva xeyriyyəçilik, insansevərlik, mərhəmət, Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, düşüncəsinə, əsrlərdən bəri formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətləri davam etdirməyə çalışacaq".

Mehriban xanım Əliyeva özünün çoxşaxəli fəaliyyəti ilə xalqın dərin rəğbətini və etimadını qazanmışdır. 2005-ci ilin parlament seçkiləri bu baxımdan seçicilərin Mehriban xanım Əliyevaya inamının bariz nümunəsi oldu. O, 14 saylı Əzizbəyov seçki dairəsindən Milli Məclisə deputat seçildi.

Bu gün müstəqil Azərbaycanın III çağırış Milli Məclisinin deputatı kimi ölkənin Birinci xanımı respublikada aparılan islahatların hüquqi bazasının təkmilləşdirilməsində və parlamentin beynəlxalq əlaqələrinin inkişafında təqdirəlayiq fəaliyyət göstərir. Mehriban xanım Əliyevanın Azərbaycan – ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi 2006-cı ilin dekabrında ABŞ-a səfəri çox uğurlu olmuşdur. Səfər zamanı ölkəmizdəki ictimai-siyasi vəziyyət, bölgə həqiqətləri görüş iştirakçılarının diqqətinə çatdırılmış, gələcək əlaqələrimizin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılmışdır. Görüşlərin birində ölkənin Birinci xanımı Azərbaycan-ABŞ əlaqələrindən söz açaraq demişdir: ***"Azərbaycan-Amerika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi hesab edirəm ki, əlaqələrimizin daha da genişlənməsi mühüm əhəmiyyət kəsb edir və əminəm ki, mənim parlament üzvləri ilə birgə Vaşinqtona səfərim həmin məqsədə xidmət edəcəkdir".***

Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyəti ölkənin Birinci xanımının parlament diplomatiyası sahəsində məharətini nümayiş etdirir. O, demək olar ki, bütün xarici səfərlərində, keçirdiyi görüşlərdə erməni işğalçılarının Qarabağda mədəni irsimizə ciddi ziyan vurmasından, tarixi abidələrimizi məhv etməsindən faktlarla danışır və dünya ictimaiyyətini bədnam qonşularımızın bu vəhşiliklərinə son qoymaq üçün təsirli tədbirlər görməyə çağırır. O, bu sahəyə ciddi diqqət yetirilməsinin vacibliyini dönə-dönə vurğulayır:

"...Tarixi və mədəniyyət abidələrinin qorunması ölkəmiz üçün bir də ona görə vacibdir ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistanın işğalı altındadır. Həmin ərazilərdə minlərlə tarixi, mədəniyyət abidələri məhv edilmişdir. Ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün var və onların müəyyən hissəsi hələ də çadırlarda yaşayır. Biz bu faktları beynəlxalq ictimaiyyətə çatdırmaqda davam edəcəyik".

Humanizm prinsipinə söykənən praktik fəaliyyəti ilə cəmiyyətdə böyük ictimai nüfuz qazanmış Heydər Əliyev Fondu bu gün ölkəmizdə insan hüquq və azadlıqlarının etibarlı təminatı, vətəndaş cəmiyyəti quruculuğu prosesinin sü-

rətləndirilməsi prosesinə öz töhfəsini verməkdədir. Fondun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın 2007-ci ilin mayında ulu öndərin ad günü ərəfəsində parlamentdə amnistiya təşəbbüsü ilə çıxış etməsi yüksək humanizmin və insanpərvərliyin əyani təcəssümü idi. Parlamentdə bu barədə çıxışında Mehriban xanım Əliyeva demişdir:

"Ümummilli liderimizin humanist siyasətinə sədaqət nümayiş etdirərək, onun xatirəsinə ehtiramın ifadəsi olaraq amnistiyanın elan edilməsini təklif edirəm... Cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətini nəzərə alaraq, cəzadan azad olunacaq şəxslərin islah olunacaqlarını, öz ailələrinə və cəmiyyətə qovuşacaqlarını arzulayaraq, "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar layihəsini müzakirənizə təqdim edirəm. Ümid edirəm ki, deputat həmkarlarım Heydər Əliyev Fondunun bu təşəbbüsünü dəstəkləyəcəklər".

Amnistiya aktının parlamentdə qəbulu 9 min insana şamil edilmiş, onlara cəmiyyətə yenidən qayıtmaq üçün daha bir imkan vermişdir.

Azərbaycanın Birinci xanımı, YUNESKO-nun, İSESKO-nun xoşməramlı səfiri vətəninde olduğu kimi, onun hüdudlarından çox-çox uzaqlarda da tanınır və sevilir. Mehriban xanım Əliyevanın bəşəri dəyərlərə əsaslanan çoxşaxəli fəaliyyəti beynəlxalq ictimaiyyət tərəfindən də yüksək dəyərləndirilmişdir. O, "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeni və "Qızıl Ürək" Beynəlxalq mükafatları ilə təltif olunmuşdur.

Bu gün Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban xanım Əliyeva mədəni-estetik dəyərlər sistemində milli genofondumuzun inkişafı, təhsilimizin dünya tələbləri səviyyəsində qurulması üçün maddi-texniki, intellektual






mənbəyi xalqdır...
H.ƏLİYEV

















zəminin hazırlanması istiqamətində məqsədyönlü fəaliyyət göstərir.

"Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yalnız 2005-ci ildə Azərbaycanın müxtəlif bölgələrində rekord sayda – 132, 2006-2007-ci illərdə isə 52 yeni məktəb binasının və əlavə korpusların tikilərək istifadəyə verilməsi və lazımi avadanlıqla təchiz olunması bu sahəyə əvəzsiz töhfədir.

Fondun prezidentinin təşəbbüsü ilə hazırlanmış "Uşaq və internat məktəblərinin inkişafı proqramı"na uyğun olaraq Bakıda və ətraf qəsəbələrdə yerləşən uşaq evlərində, internat məktəblərində mövcud problemlərin aradan qaldırılması istiqamətində konkret işlər görülmüşdür. Onun iştirakı ilə Azərbaycanla YUNESKO arasında təhsil sahəsində bir neçə istiqamətdə əməkdaşlıq əlaqələri qurulmuşdur. Bu əlaqələr əsasən "Təhsil hamı üçün" proqramını, "Assosiativ məktəblər", texniki-peşə sahəsində əməkdaşlıq, ali məktəblərdə YUNESKO kafedralarının yaradılması və digər sahələri əhatə edir.

Bütün bu proqramlar, yeni tikilən məktəblər, mədəni irsimizin təbliği ilə bağlı həyata keçirilən irimiqyaslı layihələr məhz milli genofondumuzun qorunub saxlanılmasına, inkişafına, gənc nəslin fəal vətəndaş kimi formalaşmasına xidmət edir.

Heydər Əliyev Fondu BMT İnkişaf Proqramı ilə birgə Azərbaycanda fiziki cəhətdən qüsurlu olan insanların informasiya və kommunikasiya texnologiyalarına çıxışını təmin edən layihəni həyata keçirməyə başlamışdır. Kimsəsiz uşaqların sağlamlığının təmin olunması istiqamətində həyata keçirilən "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri də cəmiyyətdə böyük rəğbətlə qarşılanmışdır.

Ölkənin Birinci xanımı Azərbaycanda yaşayan azsaylı xalqların təhsillə bağlı qayğılarına da böyük həssaslıqla yanaşır. Onun təşəbbüsü ilə Qax, Zaqatala və Balakən bölgələrində yaşayan ingiloylar üçün "Təhsilə dəstək" proqramı çərçivəsində yeni məktəblər tikilərək şagirdlərin ixtiyarına verilib. Bakıda yəhudi uşaqları üçün "Xabad-Or-Avner" təhsil mərkəzinin təməli qoyulub.

Mehriban xanım Əliyeva ölkəmizdə həyata keçirdiyi genişmiqyaslı layihələrlə kifayətlənmir. Onun "Təhsilə dəstək" layihəsi sərhədləri aşır, Gürcüstanda–Tbilisi, Borçalı məktəbləri bərpa olunur, şagirdlər ana dili dərslikləri ilə təmin edilir. MDB məkanında və Avropa ölkələrində də bu siyasət davam etdirilir. Müharibənin və təbii fəlakətin acılarını yaşayan Pakistanda Qız məktəbinin yeni inşa olunmuş binası lazımi avadanlıqlarla təmin olunaraq artıq istifadəyə verilmişdir.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və Heydər Əliyev Fondunun xətti ilə sənəti və mədəniyyəti himayə edən Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərimizin qorunması və təbliğində böyük uğurlar qazanmışdır. Xalqımızın milli sərvəti sayılan muğamın YUNESKO-nun xəttilə bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri sırasına daxil edilməsi, Bakı Muğam Mərkəzinin təməlinin qoyulması, 2005-ci ildə Parisdə – YUNESKO-nun qərargahında "Qarabağ xanəndələri" adlı nəfis albomun buraxılması onun fəaliyyətinin kifayət qədər çoxşaxəli olduğunu göstərir.

Onun təşəbbüsü ilə "Muğam Ensiklopediyası"nın elektron variantının hazırlanması, Muğam telemüsabiqəsinin təşkili – "Muğam dünyası" layihəsinin gerçəkləşdirilməsi Mehriban xanımın Azərbaycana, eyni zamanda sənətşünaslığa və musiqişünaslığa verdiyi töhfələrdir. O, həm də "Muğam" jurnalının təsisçisidir.

Heydər Əliyev Fondunun xətti ilə ölkəmizin mənafelərinə xidmət edən bir sıra nəşrlər işıq üzü görmüşdür. "Qarabağ həqiqətləri" toplusu, "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması", "Müharibə və tarixi mədəniyyət abidələrimiz", xarici nəşrlərdən tərcümə edilmiş Murad Adcinin "Türklər və dünya: munis tariximiz", ABŞ-ın Mərkəzi Asiya–Qafqaz İnstitutu–İpək Yolu Araşdırmalar Proqramının rəhbərləri Frederik Starr və Svante Kornellin "Bakı–Tbilisi–Ceyhan boru kəməri: Qərbə açılan neft pəncərəsi", "Azərbaycan təbiəti", Linda Li Rattonun "Yuxuların çin olduğu yerdə", Rudolf İvanovun "Bəyazidin müdafiəsi: həqiqət və yalan", "Əlahəzrətin general-adyutantı" kitabları bu qəbildəndir. Dünya şöhrətli musiqiçi M.Rastropoviçə və xanımı Q.Vişnevskayaya həsr edilmiş musiqi albomu da populyarlıq qazanmışdır. İSESKO ilə birlikdə görkəmli şərqşünas alim Aida İmanquliyevanın "Yeni ərəb ədəbiyyatının korifeyləri" kitabı ərəb dilində nəşr edilmişdir.

2005-ci ildə Azərbaycan həqiqətlərinin, tarixinin, mədəniyyətinin dünya ictimaiyyətinə çatdırılması baxımından həcminə və keyfiyyətinə görə ölkədə oxşarı olmayan "Azərbaycan" informasiya portalının yaradılması da uğurlu layihələrdən biridir.

Bu gün Azərbaycanın ayrı-ayrı bölgələrində bir çox mədəniyyət abidələrinin yenidən qurulması və bərpası da məhz Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Gəncə şəhərində Cavad xan türbəsinin inşası, Comərd Qəssab məqbərəsinin, Bakının Şüvəlan qəsəbəsində yerləşən Pirhəsən ziyarətgahının bərpası, Abdulla Şaiqin, məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin ev muzeylərinin təmiri də bu baxımdan diqqətə layiqdir. Onun təşəbbüsü ilə Xalq Cümhuriyyətinin XX əsrin əvvəlində Versal Sülh Konfransında dünya dövlətləri tərəfindən tanındığı sarayın qarşısındakı abidə bərpa olunub.

Prezident İlham Əliyevin tapşırığı, Mehriban xanım Əliyevanın iştirakı ilə ilk Cümhuriyyətin qurucularından olan, istedadlı diplomat Əlimərdan bəy Topçubaşovun Fransadakı məzarı üzərində onun abidəsi ucaldılıb. Bu gün Fondun xətti ilə Gürcüstanda uyuyan Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, Əhməd bəy Ağayev kimi maarifpərvərlərin məzarları bərpa edilir, qəbirüstü abidələri yaradılır. Mirzə Cəlilin, Nəriman Nərimanovun Tbilisidəki ev muzeyləri təmir olunur. Heydər Əliyev Fondunun Gürcüstan və Moskva nümayəndəlikləri fəaliyyət göstərir. Əlamətdar haldır ki, Fondun Rusiya nümayəndəliyinə Leyla İlham qızı Əliyeva rəhbərlik edir.

Bu gün müqəddəs dəyərlərimizin keşiyində duran ölkənin Birinci xanımı öz fəaliyyəti ilə həm də Böyük İpək Yolu layihəsinə, sivilizasiyaların dialoquna, ümumbəşəri dəyərlərin daha da zənginləşməsinə töhfələr verir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva ulu öndərimizin müdrik həyat fəlsəfəsinə sadiq qalaraq xalqa xidmət missiyasını uğurla həyata keçirir.

Milli Məclis Heydər Əliyevin demokratik dövlət quruculuğu ideyalarının tərənnümçüsüdür

Azərbaycan Prezidenti İlham Əliyev Milli Məclisdə "Heydər Əliyev Xatirə zalı"nın açılışında iştirak etmiş, parlamentin binasında aparılan yenidənqurma, təmir işləri ilə tanış olmuşdur.

(9 may 2007-ci il, AzərTAC).

Azərbaycan Prezidenti İlham Əliyev mayın 9-da Milli Məclisdə "Heydər Əliyev Xatirə zalı"nın açılışında iştirak etmiş, parlament binasının birinci və ikinci mərtəbəsində aparılan yenidənqurma və bərpa işləri ilə tanış olmuşdur.

Dövlətimizin başçısını binanın qarşısında Milli Məclisin Sədri Oqtay Əsədov və parlament sədrinin müavinləri hörmətlə qarşıladılar.

Prezident İlham Əliyev əvvəlcə Xatirə zalı ilə tanış oldu. Məlumat verildi ki, Xatirə zalında ümummilli liderimizin gələcək nəsillərə örnək olan həyat yolunu, siyasi, dövlətçilik fəaliyyətini əks etdirən eksponatlar toplanmışdır. "Böyük həyatın astanasında", "Dövlət təhlükəsizliyi leytenantından generalınadək..", "Sovet Azərbaycanını ucaldan rəhbər", "Sovet İttifaqının Ali rəhbərliyində", "Qayıdış: müstəqillik uğrunda yenilməz mübariz", "Qurtuluş: müstəqil dövlətin xilaskarı və qurucusu", "Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır", "Azərbaycançılıq, müstəqillik, dövlətçilik..", "Azərbaycanın müstəqil xarici siyasətinin banisi", "Heydər Əliyev işi davam edir" bölmələrində Heydər Əliyevin uşaqlıq, gənclik illərinə, Sovet İttifaqının dövlət təhlükəsizliyi sistemində ilk azərbaycanlı generalın 1944-1967-ci illəri əhatə edən fəaliyyətinə, siyasi və dövlət xadimi kimi Sovet Azərbaycanına başçılıq

etdiyi dövrə, ulu öndərin qurtuluş missiyasına dair, milli-mənəvi dəyərlərimizin qorunmasına, onun xarici siyasətinə aid fotoşəkillər toplanmışdır. Dağlıq Qarabağ probleminə həsr edilmiş guşə, habelə ulu öndərin və Prezident İlham Əliyevin Milli Məclisin fəaliyyəti barədə fikirləri diqqəti cəlb edir.

Zalda Heydər Əliyevin özünün əsərləri, eləcə də onun həyatı, siyasi fəaliyyəti ilə bağlı və ömür-gün yoldaşı Zərifə xanım haqqında yazılmış çoxsaylı kitablar, ulu öndərin 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi üzrə səsvermənin nəticələri, parlamentin sədri seçilməsi haqqında qərar, parlamentə rəhbərlik etdiyi dövrdə imzaladığı sənədlər, beynəlxalq əhəmiyyətli layihələrin reallığa çevrilməsi, xarici və daxili siyasətə, iqtisadi islahatlara, mədəniyyətə və s. dair qəbul olunmuş tarixi qərarların surətləri, ona verilmiş xidməti və deputatlıq vəsiqələri nümayiş etdirilir.

"Heydər Əliyev işi davam edir" adlı xüsusi bölmədə ulu öndərin siyasi varisi Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı fotoşəkillər toplanmışdır. Burada ulu öndərin vəfatından sonra deputatların və Milli Məclis Aparatı əməkdaşlarının ürək sözlərini yazdığı Xatirə kitabı da vardır. Azərbaycan parlamentinə gələcək hər bir xarici qonaq bu zalla da tanış olacaqdır.

Prezident İlham Əliyev ayrı-ayrı stendlərdəki materiallarla tanış oldu, ümummilli liderin burada qoyulmuş büstünə baxdı.

Dövlətimizin başçısı Xatirə zalının Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Heydər Əliyev Xatirə zalında nümayiş etdirilən eksponatlar ulu öndərin həyat və fəaliyyətini əks etdirir. Bütün dövrlərdə Heydər Əliyev doğma xalqına sədaqətlə xidmət etmişdir. 70-80-ci illərdə Azərbaycanın rəhbəri kimi və müstəqil Azərbaycanın Prezidenti kimi Azərbaycanın inkişafında, dövlət müstəqilliyinin qorunub saxlanmasında

və möhkəmlənməsində onun müstəsna xidmətləri olmuşdur.

1993-cü ildə Milli Məclisin sədri kimi Azərbaycanın ağır və təhlükəli vəziyyətdən çıxarılmasında ulu öndərin müdrikliyi, siyasi təcrübəsi və cəsarəti əsas rol oynamışdır. Həmişə öz fəaliyyətində Azərbaycan xalqına arxalanan milli liderimiz 1993-2003-cü illərdə müstəqil Azərbaycanın Prezidenti kimi ölkəmizin hərtərəfli inkişafında və beynəlxalq mövqelərinin möhkəmlənməsində əsas və əvəzolunmaz rol oynamışdır.

Ulu öndər Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
9 may 2007-ci il".

Prezident İlham Əliyev sonra Milli Məclisin inzibati binasının birinci və ikinci mərtəbələrində aparılan yenidənqurma və təmir işləri ilə tanış oldu, kiçik konfrans salonuna baxdı. Bildirildi ki, müasir standartlara uyğun təmir olunan salonda, əsasən, parlamentin daimi komissiyaları iclaslarının, xarici qonaqlarla görüşlərin və brifinqlərin keçirilməsi nəzərdə tutulur. Dövlətimizin başçısı burada davam etdirilən təmir işlərinin baş planı ilə tanış oldu, paytaxtın mənzərəsini seyr etdi. Yenidənqurma və təmir işlərinin yüksək səviyyədə aparıldığını bildirən Prezident dedi ki, mən dünya ölkələrinin bir çoxunun parlamentlərində olmuşam, ancaq belə gözəllik görməmişəm.

Milli Məclisin Sədri Oqtay Əsədov dövlət başçısına təşəkkür edərək dedi ki, cənab Prezident, ölkəmizdə aparılan bütün abadlıq, quruculuq işləri Sizin adınızla bağlıdır. Azərbaycan inkişaf edir, günü-gündən qüdrətlənir.

Bildirildi ki, ölkəmizin "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti və Türkiyənin "Dim proje" şirkəti yenidənqurma və təmir işlərini uğurla başa çatdırmışdır. Layihə müəllifləri memarlar Cəlal Özkan, Ayhan Türker və Mehman Göyüşovdur.

Sonra dövlətimizin başçısı parlament iclaslarının keçirildiyi salonda deputatlar və jurnalistlər üçün yaradılmış şəraitlə maraqlandı, ikinci mərtəbədəki foyeni gəzdi, yüksək səviyyədə görülən təmir işlərindən razılığını söylədi. Prezidentə məlumat verildi ki, xalq rəssamı Toğrul Nərimanbəyovun 1980-ci ildə foyenin divarında çəkdiyi böyük panno da bərpa olunmuşdur. Bu, ulu öndər Heydər Əliyevin sevdiyi nadir əsərlərdən biri idi.

Dövlətimizin başçısı burada parlamentin sədri və müavinləri ilə xatirə şəkli çəkdirdi.

Prezident İlham Əliyev binanın birinci mərtəbəsinin əsas girişində Heydər Əliyevin tuncdan hazırlanmış abidəsi önünə gül dəstəsi qoydu.

Dövlətimizin başçısı Milli Məclisin qarşısında və ətrafında aparılan tikinti-təmir işləri ilə də maraqlandı. Bildirildi ki, şəhərimizin simasında öz yeri olan parlament binasının ətrafı da tamamilə yenidən qurulacaq, müasir fəvvarə quraşdırılacaqdır. Hazırda əsas binanın yanında deputatlar üçün korpusun tikintisinə başlanmışdır.

Bakı şəhəri,
9 may 2007-ci il

HEYDƏR ƏLİYEV NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA FƏALİYYƏT GÖSTƏRDİYİ DÖVRDƏ MUXTAR PESPUBLİKANIN ALİ MƏCLİSİNDƏ QƏBUL OLUNMUŞ QƏRARLAR VƏ DİGƏR SƏNƏDLƏR

III

Heydər Əlirza oğlu Əliyev yoldaşın Naxçıvan MSSR vətəndaşı sayılması haqqında

NAXÇIVAN MSSR ALİ SOVETİ
RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti **qərara alır:**

Naxçıvan şəhərində anadan olduğunu, təhsil aldığını, uzun illər xidmət etdiyini və hazırda Ümumittifaq əhəmiyyətli təqaüdçü olub Naxçıvan şəhərində yaşadığını nəzərə alaraq, Naxçıvan MSSR Konstitusiyasının 28-ci maddəsinə uyğun olaraq, 1923-cü ildə anadan olmuş, Azərbaycan SSR pasportu olan, azərbaycanlı Heydər Əlirza oğlu Əliyev yoldaş Naxçıvan MSSR vətəndaşı sayılsın.

Naxçıvan MSSR Ali Soveti
Rəyasət Heyətinin Sədri
A. CƏLİLOV

Naxçıvan MSSR Ali Soveti
Rəyasət Heyətinin katibi
H. XƏLİLOV

Naxçıvan şəhəri,
21 avqust 1990-cı il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN BİRİNCİ SESSİYASININ STENOQRAMINDAN
(17 noyabr 1990-cı il)

İclasa sədrlik edən deputat **H.Əliyev:** – Gündəlikdə Naxçıvanın və o cümlədən Azərbaycanın dövlət rəmzləri, birinci növbədə bayraq məsələsi durur.

Çox ciddi müzakirələr keçdi. Hamı öz fikrini dedi. Yenə də təkrar edirəm, üç təklif var: Biri odur ki, Azərbaycanın milli bayrağı Naxçıvanda qaldırılsın və Azərbaycanın ali hakimiyyət orqanı qarşısında bu bayrağı qəbul etmək məsələsi qoyulsun.

İkincisi, bu gün qərar qəbul eləyirik və Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldırırıq ki, onlar Azərbaycanın dövlət rəmzlərinə baxsınlar. Üçüncüsü də, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Azərbaycan Demokratik Respublikasının üçrəngli milli bayrağını Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edirik və Azərbaycanın ali hakimiyyət orqanına bunu çatdırırıq. Eyni zamanda Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qoyuruq ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında qərar qəbul etsin.

Üç təklif var. Üçünə də baxdıq. İndi bunları ayrı-ayrılıqda səsə qoyaq, yaxud bir təklifin üstündə hamımız eyni fikrə gələk?

(Zaldan səslər: Bir təklif olsun.)

Bir təklifin üstündə dayanaq. Mən çox dərin fikirləşdim və bir az da müzakirə elədim. Mən bu fikirdəyəm ki, üçüncü təklifi həyata keçirək və bununla da bu məsələni qurtaraq. Etirazınız yoxdur ki? Yoxdur.

Demək, üçüncü təklif nədir? Bunu yazın, xahiş edirəm. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunsun.

(Alqışlar)

Etirazınız yoxdur buna? Kim bu təklifin tərəfdarıdır vəsiqəsini qaldırsın. Salın aşağı. Kim əleyhinədir? Əleyhinə yoxdur. Kim səs verməyib? Heç kəs.

Demək, Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı qəbul olundu!

(Gurultulu, sürəkli alqışlar altında üçrəngli bayraq Ali Məclisin iclas zalına gətirilir.)

Qərarın ikinci bəndini yazın:

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının ali qanunvericilik orqanından xahiş edir ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında məsələyə baxsın və Azərbaycan Respublikasının milli-tarixi ənənələrinə uyğun olaraq yeni dövlət rəmzləri – bayrağı, gerbi və himni qəbul olunsun. Belə bir qərarı biz qəbul edə bilərik. Biz qərar qəbul edirik və Azərbaycan ali hakimiyyət orqanından xahiş edirik.

Bu qərarın qəbul edilməsinə kim razıdır, xahiş edirəm, vəsiqəsini qaldırsın. Salın. Kim əleyhinədir? Kim səs vermədi? Yekdilliklə qəbul olundu...

Beləliklə, biz Naxçıvan Muxtar Respublikasının həyatında böyük tarixi qərarlar qəbul etdik. Naxçıvan Muxtar Respublikasının yeni adı qəbul olundu. Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanının yeni adı qəbul olundu və Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı, milli bayrağı qəbul olundu. Böyük məsələlər həll etdik və bu məsələlərin həll olunmasında deputatlar çox böyük maraqla, böyük səylə iştirak etdilər, ona görə mən bir də bu böyük məsələlərin qəbul olunması ilə əlaqədar olaraq Sizi təbrik edirəm və Sizin hamınıza bu işdə fəaliyyət göstərdiyinizə görə minnətdarlığımı bildirirəm.

(Alqışlar)

AZƏRBAYCAN SSR PREZİDENTİNƏ, AZƏRBAYCAN SSR ALİ SOVETİNİN SƏDRİNƏ, AZƏRBAYCAN SSR NAZİRLƏR SOVETİNİN SƏDRİNƏ, AZƏRBAYCAN SSR RƏSMİ MƏTBUAT VƏ İNFORMASİYA VASİTƏLƏRİNİN RƏHBƏRLƏRİNƏ

1990-cı il noyabrın 17-də Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan MSSR Ali Sovetinin sessiyası öz işinə başlamışdır. Sessiyada Naxçıvan MSSR-in adı və dövlət rəmzlərinin dəyişdirilməsi məsələsi qaldırılmışdır. Xalq deputatı Heydər Əlirza oğlu Əliyevin sədrliyi ilə keçən sessiya Azərbaycan Milli Dövlət dirçəlişi ideyasının həyata keçirilməsi yolunda yekdilliklə mühüm tarixi, siyasi əhəmiyyəti olan qərarlar qəbul etmişdir:

1. Naxçıvan MSSR-in adı dəyişdirilib Naxçıvan Muxtar Respublikası adlandırılmış;

2. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilib Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılmış;

3. Naxçıvan Muxtar Respublikasının bayrağı kimi Azərbaycan Demokratik Cümhuriyyətinin üçrəngli bayrağı qəbul olunmuş;

4. Gerb və himnin qəbul edilməsi üçün müsabiqə elan olunması qərara alınmış;

5. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Afiyəddin Cəlil oğlu Cəlilov seçilmişdir.

İttifaq və dünya informasiya vasitələrinin bu haqda yaydığı məlumatlar artıq İttifaq və dünya ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanmış və geniş əks-səda tapmışdır. Lakin Azərbaycan SSR-in rəsmi mətbuat və informasiya vasitələrinə bu haqda məlumat verilməsinə baxmayaraq, onlar bu günə qədər bizə məlum olmayan səbəblərə görə susurlar.

Muxtar Respublika Ali Məclisinin xalq deputatları bu hərəkətə görə respublikanın rəsmi mətbuat orqanlarına və informasiya vasitələrinə özlərinin qəti etirazlarını bildirir, bunu Naxçıvan Muxtar Respublikasının informasiya blokadasına alınması kimi qiymətləndirirlər.

Biz deputatlar, bu qərarların təcili surətdə Azərbaycan xalqına çatdırılmasını vacib hesab edirik və bundan sonra Muxtar Respublika Ali Məclisinin işinin vaxtlı-vaxtında işıqlandırılması və yayılması üçün qəti tədbirlər görülməsini tələb edirik.

Naxçıvan Muxtar Respublikasının
Ali Məclisi

Naxçıvan şəhəri,
19 noyabr 1990-cı il

1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN QƏRARI

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər.

Bununla SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinin tələbləri kobudcasına pozulmuş və Azərbaycan SSR-in suveren hüquqlarına açıq-aşkar qəsd edilmişdir.

Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır.

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S.Qorbaçov, həmin müddətdə Bakıda olan Sov. İKP MK katibi A.Girenko, SSRİ Ali Soveti İttifaq Sovetinin keçmiş sədri Y.Primakov, SSRİ müdafiə naziri D.Yazov, SSRİ daxili işlər naziri B.Bakatin, Sov. İKP MK-nın məsul işçisi A.Mixaylov, eləcə də respublika rəhbərliyi – Azərbaycan KP MK-nın keçmiş birinci katibi Ə.Vəzirov, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri E.Qafarova, Azərbaycan SSR Nazirlər Sovetinin o zamankı sədri A.Mütəllibov, Azərbaycan KP MK-nın büro üzvlərindən V.Polyaniçko, M.Məmmədov,

V.Hüseynov xalqa qarşı həyata keçirilən bu siyasi və hərbi qəsd üçün cavabdehdirlər və birbaşa məsuliyyət daşıyırlar.

Respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətin iştirakçısı ola-ola, zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır.

Qanlı Yanvar hadisələrinin günahkarlarını üzə çıxarmaq, onu təhlil etmək və siyasi qiymət vermək üçün respublika əhalisinin təkidli tələbinə baxmayaraq, faktiki olaraq heç bir tədbir görülməmişdir. Yanvar ayının 22-də çağırılan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoymuş, Yanvar hadisələrinə siyasi qiymət verməli olan həmin sessiya bu günədək öz işinə başlamamış, sonrakı sessiyalarda da bu məsələyə baxılmamışdır. Qəribədir ki, respublika Ali Sovetinin Yanvar hadisələrini təhqiq etməli olan komissiyasının işi də başa çatdırılmamışdır (komissiyanın sədri M.Abbasov).

Yanvar faciələrinin səbəbkarlarının – istər ittifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq mühafizə orqanları işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək, İnsan Hüquqları Bəyannaməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutaraq **qərara alır:**

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi

texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsinə, bununla əlaqədar yaradılmış xüsusi deputat komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmamasına, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun.

Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.

4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında milli matəm günü kimi qeyd edilsin.

5. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də milli matəm günü kimi qeyd edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
A. CƏLİLOV

Naxçıvan şəhəri,
21 noyabr 1990-cı il

Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikasının Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz tərkib hissəsi olduğunu qeyd edərək Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti və onun ətrafında, Şaumyan rayonunda, Xanlar rayonunun Çaykənd kəndində yaranmış ağır vəziyyətə münasibətini bildirməyi özünün tarixi milli borcu hesab edir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, son üç il ərzində bütün erməni lobbisinin himayəsi və havadarlığı altında Ermənistan SSR-in millətçi ekstremist dairələri, rəsmi partiya və dövlət orqanları Dağlıq Qarabağın şovinist əhval-ruhiyyəli əhalisi ilə birlikdə açıq məqsədyönlü iş apararaq Azərbaycanın ərazisinin müəyyən hissəsini – DQMV-ni zorla qoparıb Ermənistana birləşdirmək istəyirlər.

Azərbaycanın partiya, dövlət rəhbərliyi DQMV-də Konstitusiyaya zidd, millətçilik zəminində baş verən və inkişaf edən hadisələri vaxtında anlamamış, onların qarşısını ala bilməmiş, Ermənistanın Azərbaycan Respublikasının daxili işlərinə qarışmasının qarşısını almağa, Ermənistanın qeyri-qanuni ərazi iddialarını dəf etməyə qabil olmamış, Azərbaycanın ərazi bütövlüyünü, Azərbaycan xalqının şərəfini və ləyaqətini müdafiə etmək iqtidarında olmamışdır.

SSRİ-nin partiya və dövlət rəhbərliyi, ən əvvəl şəxsən M.Qorbaçov hadisələrin təhlilinə və qiymətinə qeyri-obyek-

tiv yanaşmış, SSRİ Konstitusiyası ilə onlara verilmiş səlahiyyətləri yerinə yetirməyərək Azərbaycan SSR-in Konstitusiya hüquqlarını müdafiə etməmiş, Ermənistan SSR-in Azərbaycanın ərazisinin bir hissəsini zorla almaq cəhdinin dəf edilməsi üçün təsirli tədbirlər görməmiş, əsası olmadan Azərbaycanın rəhbərliyini DQMV əhalisinin sosial-iqtisadi və mədəni inkişaf sahəsindəki hüquqlarının məhdudlaşdırılmasında günahlandırmış, özlərinin hüquqi əsası olmayan qərarları və bəyanatları ilə DQMV və onun ətrafında baş verən hadisələri daha da kəskinləşdirərək, erməni tərəfinə havadarlıq etmişlər.

Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1988-ci ilin mart ayında qəbul etdiyi "DQMV-in xalq təsərrüfatının inkişafı tədbirləri haqqında" və SSRİ Ali Soveti Rəyasət Heyətinin iyul (1988-ci il) qərarları tarixən bağışlanmaz siyasi səhv kimi qəbul olunmalıdır. Ona görə ki, həmin qərarların qəbul olunması ilə Ermənistana Azərbaycan SSR-in daxili işlərinə müdaxilə etmək hüququ verilmiş, DQMV-in işləri ilə məşğul olmaq imkanı əldə edilmiş, SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə yaradılmış DQMV-in Xüsusi İdarə Komitəsi isə muxtar vilayəti faktiki olaraq Azərbaycan dövlətinin tabeliyindən çıxarmışdır. Bu qərarlar SSRİ Konstitusiyasına, Azərbaycan SSR Konstitusiyasına tam ziddir. Azərbaycanın dövlət suverenliyinin və ərazi bütövlüyünün kobud surətdə pozulmasına gətirib çıxartmışdır.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi dərin hiddətlə qeyd edir ki, bu qərarların hamısı Azərbaycan KP MK-nın və şəxsən Ə.Vəzirovun, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti rəhbərliyinin iştirakı və razılığı ilə qəbul olunmuş, Azərbaycanın siyasi rəhbərliyi tərəfindən DQMV və bütün regionda vəziyyəti normallaşdırmağa yönəldilən tədbirlər kimi geniş təbliğ edilmişdir.

Əsl həqiqətdə isə Dağlıq Qarabağ Muxtar Vilayətində və onun ətrafında vəziyyət getdikcə kəskinləşmiş, Azərbaycan SSR və Ermənistan SSR, Azərbaycan və erməni xalqları arasında millətlərarası münaqişə daha da ciddi şəkil almışdır. Ermənistandan bütün azərbaycanlı əhali qovulmuş, buna cavab olaraq Bakıdan və Azərbaycanın digər şəhər və rayonlarından erməni əhalisi çıxarılmağa başlanmışdır. Stepanakert şəhərindən və Dağlıq Qarabağın digər yaşayış məntəqələrindən azərbaycanlıların qovulması xüsusilə dözülməzdir. Həm də bütün bu hadisələr Dağlıq Qarabağda Xüsusi İdarə Komitəsinin fəaliyyəti dövründə baş vermişdir. Azərbaycanın siyasi rəhbərliyinin öz respublikası ərazisində Azərbaycan əhalisinin mənafeyini erməni zorakılığından müdafiə etməkdə acizlik göstərməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarını daha da hiddətləndirmişdir.

Azərbaycan və erməni əhalisinin daimi yaşayış yerlərindən kütləvi surətdə qovulması insan ölümü və xəsarətlərlə, adamların yaşadıqları evlərindən və mənzillərindən, əmlaklarından, şəxsi mal-qarasından, həyətyanı sahələrindən məhrum edilməsi ilə müşayiət olunurdu ki, bu da böyük iqtisadi və mənəvi sarsıntılarla nəticələnirdi.

Ermənistan SSR tərəfindən Azərbaycan SSR-in sərhəd kəndlərinə və yaşayış məntəqələrinə quldur, ekstremist birləşmələrinin silahlı basqınları başlanmış və bu gün də davam etməkdədir. Nəticədə qanlar axıdılır, əhali arasında həlak olanlar var, kəndlər və evlər dağıdılır, yandırılır, mal-qara oğurlanır, digər acınacaqlı hadisələr baş verir.

Ermənistan SSR tərəfindən vaxtaşırı edilən silahlı quldur basqınlarına Naxçıvan Muxtar Respublikasının sərhədyanı yaşayış məntəqələri də məruz qalır. 1990-cı ilin yanvar-mart aylarındakı quldur basqınları nəticəsində sovet silahlı qüvvələri hissələrinin köməyi və səhlənkarlığından istifadə

edən erməni quldur birləşmələri Şərur rayonunun Kərki kəndini işğal etmişlər.

Bütün bunlar Azərbaycanda mənəvi-psixoloji vəziyyəti daha da kəskinləşdirmiş, xalqın dərin qəzəbinə və narazılığına səbəb olmuşdur. Azərbaycanın dövlət suverenliyinin və ərazi bütövlüyünün müdafiəsi uğrunda, Ermənistan SSR-in qəsbkarlıq əməllərinə qarşı xalq kütlələrinin aşağıdan etiraz hərəkatı başlanmışdır. Bakıda, respublikanın bir çox şəhər və rayonlarında çoxminli mitinqlər və nümayişlər keçirilmişdir. Təəssüflər olsun ki, Azərbaycanın partiya-dövlət rəhbərliyi respublikanın ərazi bütövlüyünün təmin edilməsində və DQMV-də vəziyyətin normal hala salınmasında bacarıqsızlıq göstərmiş, xalqla dialoqa girməmiş, əksinə vətənpərvərlik hissi ilə çıxış edənləri ekstremizmdə, milli ədavəti qızışdırmaqda və digər hərəkətlərdə əsassız olaraq günahlandırmış, hətta repressiya tədbirlərinə belə əl atmışdır. İki ilə yaxındır ki, respublikanın paytaxtı Bakı şəhəri fövqəladə vəziyyət, komendant saatı şəraitində yaşayır və işləyir. Bununla da həmvətənlərimizin hüquq və azadlıqları tapdanır, vəziyyət sağlamlaşmaq əvəzinə daha da mürəkkəbləşir. Çoxlu insan qırğınına səbəb olan 1990-cı ilin Qanlı Yanvar hadisələri Azərbaycan xalqı üçün böyük faciəyə çevrilmişdir.

Dağlıq Qarabağ Muxtar Vilayəti probleminin əmələ gəlməsindən artıq üç il keçmişdir. Ancaq orada vəziyyət heç də normallaşmamışdır, Ermənistan SSR tərəfindən edilən basqınçılıq əməlləri azalmamış, əksinə, güclənmişdir. Ermənistandakı üzdəniraq Qarabağ hərəkatı görünməmiş geniş miqyas almış, mahiyyətcə yüksək partiya, dövlət siyasətinin başlıca məsələsinə çevrilmişdir.

Dağlıq Qarabağ haqqında məsələ son illər dəfələrlə Ermənistan SSR Ali Sovetinin sessiyalarında, Ermənistan KP-nın qurultaylarında və MK-nın plenumlarında müzakirə edilmişdir.

Ermənistanın rəhbərləri Azərbaycanın daxili işlərinə kobudcasına müdaxilə etmələrini utanmadan nümayiş etdirirlər.

Erməni hərbi silahlı birləşmələrinin liderlərinin elan etdiyinə görə son illərdə Ermənistanda ümumi sayı 140-160 minə çatan qeyri-qanuni silahlı hərbi birləşmələr yaradılmışdır. SSRİ prezidentinin qanunsuz hərbi birləşmələrin buraxılması və əhalidən silahların geri alınması haqqında fərmanı Ermənistanda yerinə yetirilməmişdir. Beləliklə, qonşu Ermənistan Respublikasında Azərbaycana qarşı yönəldilmiş və Azərbaycan xalqı üçün böyük təhlükə törədən qanunsuz hərbi potensial yaradılmışdır.

Ali Məclisin sessiyası hesab edir ki, son illər Azərbaycanda yaranmış mürəkkəb siyasi vəziyyətin, regional ardıarası kəsilməyən millətlərarası nifaqın mənbəyi Ermənistanın Azərbaycana qarşı işğalçılıq niyyətləridir və DQMV-də vəziyyətin normallaşdırılması üçün qəti səmərəli tədbirlərin həyata keçirilməməsidir. Bununla əlaqədar SSRİ Ali Sovetinin qərarı ilə yaradılan DQMV-in Xüsusi İdarə Komitəsinin çirkin mövqeyi qeyd edilməlidir. Komitənin fəaliyyəti dövründə Dağlıq Qarabağda vəziyyət nəinki yaxşılaşmış, əksinə daha da pisləşmişdir. Komitənin rəhbərləri, ilk növbədə onun sədri A.Volski erməni millətçilərinə himayədarlıq etmiş, ermənipərəst mövqe tutmuş, Stepanakert şəhərindən azərbaycanlıların qovulmasına şərait yaratmışlar. DQMV-də vəziyyətin qeyri-sabitliyinin təşəbbüskarları və təşkilatçılarından olan Z.Balayan, Q.Poqosyan və başqaları kimi qatı millətçilər məhz Xüsusi İdarə Komitəsinin idarəçiliyi dövründə Azərbaycan SSR-in DQMV-dən SSRİ xalq deputatları seçilmişlər. A.Volski özü də Azərbaycan SSR-dən xalq deputatı olmasına baxmayaraq respublikaya, xüsusilə DQMV-də vəziyyətin normallaşdırılmasına heç bir köməklik etməmişdir.

Bir ildən artıq fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycan SSR-in DQMV üzrə Təşkilat Komitəsinin işinin də heç bir əməli nəticəsi yoxdur. Dağlıq Qarabağda vəziyyət əvvəlki kimi gərgin olaraq qalmaqdadır. Ekstremist, quldur dəstələri yenə də fəaliyyətdədir, millətlərarası münaqişə ləğv edilməyib, respublika Təşkilat Komitəsinin etinasızlığı nəticəsində Dağlıq Qarabağ Muxtar Vilayətindən Ermənistan SSR Ali Sovetinə seçkilər keçirilmişdir. Seçilən deputatlar isə Ermənistan parlamentinin işində fəal iştirak edir, DQMV-ni Ermənistan SSR-ə birləşdirməyə çalışırlar. Dağlıq Qarabağ Muxtar Vilayətində Azərbaycan SSR Ali Sovetinə seçkilərin keçirilməsi üçün Respublika Təşkilat Komitəsinin bu günədək tədbir görməməsi təəccüb doğurur.

Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti hüquqi cəhətdən Azərbaycanın tərkibində olmasına baxmayaraq, faktiki olaraq uzun müddətdir ki, Azərbaycanın dövlət idarəçiliyinə tabe olmur və Ermənistanla geniş siyasi-iqtisadi və mənəvi əlaqələr həyata keçirir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR-in Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış qeyri-normal vəziyyətlə əlaqədar öz ciddi narahatlığını bildirir. Bu inzibati qurumlar Azərbaycan SSR Konstitusiyasını kobud şəkildə pozaraq xeyli vaxtdır ki, Azərbaycanın partiya və dövlət orqanlarının tabeçiliyindən çıxmış, əslində isə muxtar özünüidarəni həyata keçirərək Ermənistan SSR-lə sıx əlaqə saxlayırlar. Şaumyan rayonunda da Azərbaycan SSR Ali Sovetinə seçkilər keçirilməmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası böyük narahatlıqla qeyd edir ki, Azərbaycan SSR-in dövlət suverenliyi və ərazi bütövlüyü pozulmuşdur. Bu vəziyyət uzun müddətdir ki, davam edir. Lakin Azərbaycanın partiya

və dövlət rəhbərliyi tərəfindən respublikanın Konstitusiya hüquqlarının müdafiəsi, onun bütün ərazisində tam dövlət suverenliyinin təmin edilməsi üçün qəti tədbirlərin həyata keçirilməməsi təəccüb doğurur.

Belə bir şəraitdə Azərbaycan SSR Ali Soveti lazımi məsuliyyət göstərməmiş, DQMV-də, Şaumyan rayonunda, Xanlar rayonunun Çaykənd kəndində baş verən proseslərin dərindən öyrənilməsində öz hüquq və səlahiyyətlərindən istifadə etməmiş və zəruri tədbirlər görməmişdir. Azərbaycanın taleyi üçün əhəmiyyətli olan bu məsələlər respublika Ali Sovetinin fəaliyyətində öz lazımi yerini tapmamış, onun sessiyalarında əsaslı müzakirə mövzusuna çevrilməmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi, tarixən Azərbaycan torpağıdır.

DQMV-də yaranmış və üç il ərzində davam edən vəziyyət vilayətin ayrı-ayrı millətçi, ekstremist dairələrinin, Ermənistanın rəsmi partiya və dövlət rəhbərliyinin SSRİ Konstitusiyasını, Azərbaycan SSR Konstitusiyasını kobud şəkildə pozması Ermənistanın Azərbaycan SSR-in daxili işlərinə qarışması ilə əlaqədardır.

Dağlıq Qarabağ Muxtar Vilayətində baş verən Konstitusiyaya zidd qeyri-hüquqi hərəkətlər pislənilsin, Ermənistan Azərbaycana qarşı bütün ərazi iddialarından əl çəksin.

2. Qeyd edilsin ki, Azərbaycanın partiya və dövlət rəhbərliyi Dağlıq Qarabağ Muxtar Vilayətində əmələ gələn vəziyyətin qiymətləndirilməsinə, onun normallaşdırılmasına yönəldilən tədbirlərin müəyyənləşdirilməsində kobud səhvlərə və yanlışlıqlara yol vermiş, Azərbaycan SSR-in dövlət suverenliyi və ərazi bütövlüyünü, Azərbaycan xalqının şərəf və ləyaqətini müdafiə etməmiş, qətiyyətsizlik göstərmişdir.

Dağlıq Qarabağ Muxtar Vilayətindəki vəziyyətin İttifaq orqanlarında müzakirəsi zamanı və Ermənistan SSR-ə münasibətlərdə barışdırıcılıq və prinsipsizlik göstərən Azərbaycan KP MK-nın, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin rəhbərliyinin mövqeyi pislənilsin. Qeyd edilsin ki, belə mövqe Azərbaycanın milli mənafeyinə ciddi ziyan vurmuşdur.

Respublikanın Ali Qanunvericilik orqanının – Azərbaycan SSR Ali Sovetinin icazəsi olmadan SSRİ Ali Soveti Rəyasət Heyətinin DQMV Xüsusi İdarə Komitəsinin yaradılmasına razılıq vermiş Azərbaycan rəhbərlərinin hərəkəti pislənilsin.

DQMV-in Xüsusi İdarə Komitəsinin yaradılması Azərbaycanın dövlət suverenliyini pozan qeyri-qanuni, Konstitusiyaya zidd akt hesab edilsin, bu, konstitusiya praktikası tarixində görünməmiş akt kimi pislənilsin.

Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, son üç il ərzində DQMV-də baş verən bütün prosesləri təhqiq etmək, Azərbaycan SSR-in dövlət suverenliyini pozan səbəbləri və günahkarları aşkar etmək üçün xüsusi komissiya yaratsın. Komissiyanın işinin nəticələrinə Azərbaycan SSR Ali Sovetinin sessiyasında baxılsın.

Azərbaycan SSR Ali Sovetindən xahiş olunsun ki, Dağlıq Qarabağ Muxtar Vilayətində yaranmış vəziyyət və respublikanın bütün ərazisində dövlət suverenliyini təmin edən tədbirlər haqqında məsələni birinci sessiyanın müzakirəsinə çıxarsın. Bu məsələ ilə əlaqədar olaraq Azərbaycan SSR-in DQMV üzrə respublika Təşkilat Komitəsinin hesabatı dinlənilsin.

3. Qeyd edilsin ki, SSRİ Ali Soveti, SSRİ prezidenti Dağlıq Qarabağ məsələsində qeyri-obyektiv və birtərəfli mövqe tutur, bu məsələ ilə əlaqədar SSRİ Konstitusiyasının, Azərbaycan müttəfiq respublikasının konstitusiya hüquqlarının tələblərinin yerinə yetirilməsini təmin etmirlər. SSRİ Ali Sovetindən, SSRİ prezidentindən tələb edilsin ki, öz hüquq və səlahiyyətlərindən istifadə edərək Ermənistan Respublikasının Azərbaycan SSR-in daxili işlərinə qarışmasına son qoysunlar. Ermənistanın Azərbaycana qarşı torpaq iddialarının qarşısını alsınlar, Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyətin normal hala salınması üçün Azərbaycanın qanuni orqanlarına sərbəst fəaliyyət göstərmələri üçün şərait yaratsınlar.

4. Azərbaycan SSR Ali Sovetindən xahiş olunsun ki, Şaumyan rayonunda, Çaykənd kəndində vəziyyəti normal hala salmaq üçün təxirəsalınmaz tədbirlər görsün, həmin inzibati ərazilərdə respublikanın hakimiyyət fəaliyyətinin bərqərar olmasını təmin etsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
A. CƏLİLOV

Naxçıvan şəhəri,
14 dekabr 1990-cı il

AZƏRBAYCAN ALİ SOVETİNİN RƏYASƏT HEYƏTİNƏ

Aşağıdakı məsələlərə baxılması üçün təcili olaraq Azərbaycan Ali Sovetinin növbədənkənar fövqəladə sessiyasının çağırılmasını təklif edirəm:

1. Azərbaycan prezidenti, Sov. İKP MK üzvü, Azərbaycan KP MK-nın birinci katibi A.Mütəllibovun və Azərbaycan rəhbərliyinin hərbi xunta – üzdəniraq DFVK tərəfindən həyata keçirilmiş dövlət çevrilişi ilə bağlı mövqeyi və fəaliyyəti müzakirə olunsun və obyektiv qiymət verilsin.

Xarici ölkələrin və ittifaqın kütləvi informasiya vasitələri Mütəllibovun dövlət çevrilişini bəyənməsi barədə məlumatlar yayıblar. Avqustun 21-də günorta çağı A.Mütəllibov Azərbaycan televiziyası ilə bəyanat verərək, dövlət çevrilişini, dövlət cinayətkarları dəstəsinin hərəkətini xalqın adından bəyəndiyini bildirmiş, ölkənin bir çox yerlərində fövqəladə vəziyyət elan edilməsinin məcburi tədbir olduğunu etiraf etmiş və bildirmişdir ki, respublikanın qarşısında duran mürəkkəb məsələlərin həllində öz ümidini DFVK-ya bağlayır. Ancaq avqustun 23-də irtica qüvvələri boğulduqdan sonra, prezidentin nəzarətində olan Azərinform avqustun 21-də televiziya ilə verilmiş, sonra isə Azərbaycanın demokratik nəşrlərində çap olunmuş bəyanat barədə susaraq, xarici və ittifaq orqanlarında Mütəllibovun mövqeyi barədəki məlumatları təkzib edən bəyanat dərc etmişdir.

Respublikanın ali qanunvericilik orqanının sessiyasında bu məsələ müzakirə olunmalı və açıqlanmalıdır. Azərbaycan xalqı həqiqəti bilməlidir.

2. Sov. İKP-nin tərkib hissəsi olan Azərbaycan KP-nin respublikada təkhakimiyyətlikdən kənarlaşdırılması məsələsi müzakirə olunmalıdır. Onun hərbi xunta ilə əməkdaşlığının məsuliyyət dərəcəsi müəyyən edilməmişdir.

Məlumdur ki, dövlət çevrilişi olan andan Azərbaycan KP MK-sı, Sov. İKP MK-dan və DFVK-dan gələn bütün göstərişləri yerinə yetirib. Azərbaycan KP MK rəhbərliyinin göstərişi ilə şəhər, rayon partiya komitələrinin, nazirlik və idarələrin, ali məktəb və elmi institutların rəhbərləri DFVK-nın fəaliyyətini alqışlayan və tərəfdar çıxan çoxsaylı teleqramlar göndəriblər.

Xarici radiostansiyalar Azərbaycan KP MK-nın ikinci katibi Polyaniçkonun hərbi çevrilişi razılıqla qarşılaması ilə bağlı verdiyi mətbuat konfransı barədə məlumatlar yayıblar.

Azərbaycan KP MK-nın mətbu orqanları olan və DFVK-nın qərarlarını tam yerinə yetirən "Kommunist", "Bakinski raboçi", "Vışka" və b. qəzetlərin fəaliyyətinin dayandırılması barədə qərar qəbul etmək lazımdır.

3. 1991-ci il avqustun 23-də olan qanlı hadisələr – mitinq zamanı dinc əhaliyə qarşı hakimiyyət orqanları tərəfindən güc tətbiq edilməsi və nəticədə adamların, o cümlədən xalq deputatlarının xəsarət alması məsələsi müzakirə olunmalı və qərar qəbul edilməlidir.

4. Azərbaycan SSR Ali Sovetinin "Bakıda fövqəladə vəziyyətin ləğvi haqqında" 22 yanvar 1990-cı il tarixli qərarının dərhal həyata keçirilməsi barədə qərar qəbul edilməlidir.

5. Yuxarıda göstərilən məsələlər aydınlaşana kimi, sentyabrın 8-nə təyin olunmuş prezident seçkilərinin keçirilməsi təxirə salınmalıdır.

Azərbaycan Respublikasının
xalq deputatı
Heydər ƏLİYEV

24 avqust 1991-ci il

Heydər Əlirza oğlu Əliyev yoldaşın Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi haqqında

NAXÇIVAN MUXTAR
RESPUBLİKASI ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Heydər Əlirza oğlu Əliyev yoldaş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisi Sədrinin müavini
A. SƏFƏROV

Naxçıvan şəhəri,
3 sentyabr 1991-ci il

Azərbaycan Respublikası prezidentliyinə seçkilər haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikası Ali Sovetinin 26 iyun 1991-ci il tarixli qərarı ilə 8 sentyabr 1991-ci il tarixdə Azərbaycan Respublikasında prezident seçkiləri keçirilməsi müəyyənləşdirilmişdir.

Prezident seçkiləri Azərbaycanda demokratiya və xalqın səsinin boğulması şəraitində keçirildiyindən, bütün demokratik qüvvələr həmin seçkilərin təxirə salınmasını tələb etsə də, nəyin bahasına olursa-olsun hakimiyyəti əlində saxlamağa çalışan A.Mütəllibov Ali Sovetə seçkilərin təxirə salınmasına bütün vasitələrlə mane olur.

1990-cı il 19 yanvar Bakı qırğınlarından il yarımdan artıq müddət keçməsinə baxmayaraq həmin hadisələrə siyasi və hüquqi qiymət verilməmiş, bir sıra rəsmi orqanların və informasiya vasitələrinin məlumatlarında A.Mütəllibovun Bakıya qoşun yeridilib dinc əhalinin güllələbaran edilməsində, tankların və zirehli transportyorların altına salınmasında təqsirli olması bildirilsə də, hətta özü belə bunu təkzib etməmişdir.

Təsadüfi deyildir ki, Bakıya qoşun yeridilməsi və Naxçıvan torpağına ermənilərin hücumu eyni vaxta düşür. Naxçıvan torpağında günahsız qanlar axıdılması, hətta uşaqların belə erməni güllələrindən tələf edilməsi xalqımızın gələcəyi haqqında daha ciddi düşünməyə bizi vadar edir.

1991-ci il 19-21 avqust dövlət çevrilişinə və Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinə münasibətdə də A.Mütəllibov özünün irticaçı niyyətini gizlətməmiş, qiyamçıları açıq-aşkar müdafiə etmişdir.

A.Mütəllibovun alternativsiz namizədliyi, Azərbaycanda faktiki olaraq çoxpartiyalılığın mövcud olmaması, yeganə müxalifət qüvvəsi olan Xalq Cəbhəsinin zorakılıq və qanunsuzluqlara görə seçkilərdə iştirakdan imtina etməsi, seçki komissiyası və məntəqəsi üzvlərinin partokratiya nümayəndələrinin sifarişi ilə təyin edilməsi, nəhayət A.Mütəllibovun əsas dəstəkləyicisi olan kommunist partiyasının süqutu prezident seçkilərinin dayandırılmasını zəruri etmişdir.

Bütün bunlarla yanaşı, nəzərə alınmalıdır ki, prezident seçkiləri Azərbaycan xalqının qərinələrlə sürən azadlıq

arzusu ilə bağlıdır və bütün xalqın istəyi və iştirakı təmin olunmalıdır. Bu seçkilər kiminsə hakimiyyət hərisliyindən doğan arzusunun təmin olunmasına yönəldilə bilməz. Nəhayət, prezident seçkilərinin təxirə salınmasında qanunsuzluq yoxdur, bu yalnız ədalətin və xalqın istəyinin yerinə yetirilməsinə xidmət edir.

Bütün bunları nəzərə alaraq Naxçıvan MR Ali Məclisi **qərara alır:**

1) Azərbaycan Respublikası prezidentinin seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin Naxçıvan MR ərazisində keçirilməsi dayandırılsın.

2) Azərbaycan Respublikası Ali Sovetindən respublika prezidentliyinə seçkilərin daha sonrakı müddətə keçirilməsi xahiş edilsin.

3) Həmin qərar barədə SSRİ Xalq deputatlarının qurultayına bildirilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
4 sentyabr 1991-ci il

Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN QƏRARI

Məlum olduğu kimi, SSRİ Prezidentinin fərmanı ilə Sov. İKP MK-nın və onun Siyasi Bürosunun fəaliyyəti dayandırılmışdır. Naxçıvan MR Ali Məclisinin 26 avqust 1991-ci il tarixli sessiyasında Naxçıvan Vilayət Partiya Komitəsi və partiya təşkilatlarının bütün strukturları ləğv edilmişdir. Lakin Sov.İKP-nin tərkib hissəsi olan Azərbaycan Kommunist Partiyası, onun Mərkəzi Komitəsi öz fəaliyyətini davam etdirməkdədir. Hətta, sentyabr ayında özünün qurultayını çağırmağı qərara almışdır. Bu, yolverilməz fəaliyyətdir və Azərbaycanın istiqlalına bir maneədir. Buna görə Naxçıvan MR Ali Məclisi qərara alır:

1. Naxçıvan MR Ali Məclisinin sessiyası bildirir ki, Sov. İKP MK-nın və onun Siyasi Bürosunun fəaliyyətinin SSRİ prezidentinin fərmanı ilə dayandırılmasına baxmayaraq, Sov. İKP-nin tərkib hissəsi olan Azərbaycan Kommunist Partiyasının, onun Mərkəzi Komitəsinin hələ də fəaliyyət göstərməsi yolverilməzdir.

2. Azərbaycan Respublikası Ali Sovetindən xahiş edilsin ki, ölkədə gedən demokratik proseslərə uyğun olaraq, Azərbaycan Kommunist Partiyasının və onun Mərkəzi Komitəsinin fəaliyyətini dərhal dayandırmaq haqqında qərar qəbul etsin. Qısa müddətdə Azərbaycan Kommunist Partiyasının, onun bütün təşkilatlarının əmlakının milliləşdirilməsini təmin etsin.

3. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin bütün strukturlarının ləğv edilməsi və əmlakının milliləşdirilməsi

haqqında Naxçıvan MR Ali Məclisinin 26 avqust 1991-ci il tarixli qərarı bir daha bəyənilsin.

4. Naxçıvan MR Ali Məclisinin qərarına uyğun olaraq, Naxçıvan MR-də partiya təşkilatlarının əmlaklarının milliləşdirilməsini təmin etmək üçün Naxçıvan MR Ali Məclisi deputatlarından ibarət deputat komissiyası yaradılsın və bir həftə ərzində qərarın yerinə yetirilməsi təmin olunsun.

5. Siyasi əqidəsinə görə və kommunist partiyasının siyasətinə etiraz əlaməti olaraq partiya biletlərindən imtina etdikləri üçün keçmişdə təqib olunan şəxslərin hüquqlarının bərpa edilməsi haqqında Muxtar Respublika Ali Məclisinin Rəyasət Heyətində məsələ qaldırılması həmin deputat komissiyasına həvalə olunsun.

6. Həmin qərar SSRİ Xalq deputatları qurultayına göndərilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
4 sentyabr 1991-ci il

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin pozulmasına yönəldilmiş hərəkətlər haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan KP mərkəzi orqanlarının və Azərbaycan KP Naxçıvan vilayət komitəsinin təzyiqi nəticəsində uzun müddət – 5 aprel 1991-ci il tarixdən etibarən fəaliyyətsiz vəziyyətə düşmüş, muxtar respublikada ictimai-siyasi həyat öz məcrasından çıxmış, problemlər kəskinləşmişdir.

Bunu nəzərə alan bir qrup deputat fövqəladə sessiya çağırılmasını tələb etmişdir. 3 sentyabr 1991-ci il tarixdə Naxçıvan MR Ali Məclisinin sessiyasının keçirilməsi qərara alınmışdır. Lakin Azərbaycan Respublikası rəhbərliyindən bəzi şəxslər həmin sessiyanın gedişini qəsdən pozmaq üçün Naxçıvan MR Daxili İşlər Nazirliyi və sovet idarələrində işləyən 40 nəfərə yaxın muxtar respublika deputatını, rayon və şəhər məclis sədrlərini müxtəlif bəhanələrlə Bakı şəhərinə çağırmış, bununla sessiyada yetərsay alınmasına, nəticə etibarilə sessiya keçirilməsinə mane olmağa çalışmışlar.

Bu qanunsuz hərəkətlərdə Azərbaycan KP Mərkəzi Komitəsi, Azərbaycan Respublikası Ali Soveti və Nazirlər Kabineti də bilavasitə iştirak etmişdir.

Göstərilənləri nəzərə alıb, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin, Nazirlər Kabinetinin Naxçıvan MR Ali Məclisinin işini pozmağa yönəldilmiş hərəkətləri pislənilsin.

2. Bu barədə Azərbaycan Respublikası Ali Sovetinə bildirilsin və gələcəkdə bu kimi hallara yol verilməməsi üçün tədbirlər görülməsi qətiyyətlə tələb edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
5 sentyabr 1991-ci il

HEYDƏR ƏLİYEVİN BƏYANATI

Ali Məclisin sessiyası öz işini davam etdirir. Sessiyada 77 nəfər deputat iştirak edir.

Bundan əvvəl, avqustun 26-da keçirilən sessiyada qərar qəbul olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aprelin 5-də keçirilmiş sessiyasında yetərsay olmadığına görə Ali Məclisin sədrinin seçilməsi qanunsuz hesab olunsun.

Dünən Ali Məclisin sədrinin seçilməsi məsələsinin müzakirəsi başlandı. Müzakirə vaxtı deputatlar çıxış etdilər, fikirlərini söylədilər. Ali Məclisin sədrliyinə Ali Məclisin demokratik bloku Qafar müəllimin namizədliyini irəli sürdü. O biri deputatlar isə mənim namizədliyimi irəli sürdülər. Dünən dörd dəfə çıxış etdim, bildirdim və xahiş etdim ki, mənim namizədliyim müzakirə olunmasın. Nə səbəbə? Ona görə ki, mən hələ keçən il Moskvadan Azərbaycana gələrkən, jurnalistlərə verdiyim müsahibələrdə və görüşlərdə, bu ilin əvvəlində Azərbaycan Ali Sovetinin sessiyasında çıxış

edərkən və nəhayət, son sessiyada bildirmişdim ki, Azərbaycana hakimiyyətə qayıtmaq üçün gəlməmişəm. Mən ancaq Azərbaycanın bu ağır dövründə, çətin vaxtında xalqıma kömək etmək, xidmət etmək üçün gəlmişəm. Mənə bir neçə dəfə Moskvada, elə burada da sual verilmişdi ki, bəs siz öz köməyinizi nədə görürsünüz? Cavab vermişdim ki, mən Azərbaycan xalqının hər bir tapşırığını yerinə yetirməyə hazıram.

Mənim razılığım olmadan, mən bunu qətiyyətlə deyirəm və bunu hamı bilməlidir, məni Naxçıvan MR Ali Məclisinə sədr seçdilər. Sədr seçiləndən sonra da mən sədrlik etməkdən imtina etdim. İclası axıra qədər sədrin müavini Anar Səfərov aparırdı. Çox böyük əziyyət, mənəvi əziyyət içərisindəydim ki, mənim razılığım olmadan məni sədr seçdilər. Ancaq bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. Dünən sessiya keçirilərkən binanın qarşısında minlərlə Naxçıvan əhalisi (təkcə şəhərdən yox, rayonlardan, kəndlərdən gələnlər) kənardan sessiyaya təsir göstərir və tələb edirdilər ki, Heydər Əliyev seçilsin. Onların təzyiqinin qarşısında dura bilməzdim. Xalqın bu əhvali-ruhiyyəsini, tələblərini, sonra sessiyadakı çıxışları nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Yəqin etdim ki, mən öz prinsiplərimə sadiq qalaraq eyni zamanda indi Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənin üzərimə nəinki deputatların, binanın qarşısında, ətrafında toplaşan naxçıvanlıların qoyduqları vəzifənin icrasından geri çəkilsəm, bu, xalqın ağır günündə qaçmaq deməkdir. Ona görə belə bir ziddiyyətli vəziyyətdəyəm və bu vəziyyətdə də qalıram.

Ancaq eyni zamanda mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm. Mən bu sözləri sizə çatdırmalıydım.

İkincisi, bizim sessiyanın, Ali Məclisin bu günə, bu vəziyyətə düşməsinin çox dərin səbəbləri var. Bildiyiniz kimi, keçən ilin sentyabr ayının 30-da Naxçıvan Muxtar Respublikası ali hakimiyyət orqanlarına seçkilər keçirildi.

Noyabrın 17-də Ali Məclisin sessiyası öz işinə başladı. Çox yaxşı qərarlar qəbul olundu. İlk qərarda Naxçıvan MR adından "Sovet Sosialist sözləri götürüldü, Naxçıvan MR-in dövlət bayrağı məsələsi müzakirə olundu və biz 1918-ci ildə yaradılan Azərbaycan Demokratik Respublikasının bayrağını qəbul etdik.

Müxtəlif qərarlar qəbul olundu. Xüsusilə 1990-cı ilin yanvar ayında Bakıdakı qanlı hadisələrə, Azərbaycan xalqına qarşı hərbi təcavüzə siyasi qiymət verildi, qərar qəbul edildi və mətbuatda da dərc olundu. Dağlıq Qarabağda, keçmiş Şaumyan rayonunda, Xanlar rayonunun Çaykənd kəndində əmələ gəlmiş vəziyyət haqqında qərar qəbul olundu və bu qərar da dərc olundu. Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı.

Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı. Həmin sessiyada, nəhayət ki, ilk dəfə olaraq Dağlıq Qarabağda olan vəziyyət müzakirə olundu. Düzdür, müzakirə və onunla əlaqədar qəbul olunan qərar deputat kimi məni razı salmadı. Mən deyərdim ki, məsələyə çox səthi baxıldı. Ancaq mənə belə gəlir ki, qərarların qəbul olunmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların böyük təsiri oldu.

Təəssüf ki, uğurla işə başlayan Naxçıvan Ali Məclisi bir müddət sonra müxtəlif səbəblərə görə öz fəaliyyətini zəiflətdi. Ali Məclis iflic vəziyyətinə düşdü. Mənim fikrim belədir ki, muxtar respublikanın Ali Məclisi Naxçıvan Vilayət

Partiya Komitəsinin təzyiqi altında idi. Məclisin qəbul etdiyi qərarlar demokratik ruhlu olduğundan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində narazılıqlar törətdi. Mərkəzi Komitə Vilayət Komitəsinə təzyiq göstərdi. Vilayətin rəhbərləri bu təzyiqlərə dözə bilmədilər və yaxud ikitərəfli, ikiüzlü mövqe tutdular və beləliklə, sessiyanın işində böyük pozuntular əmələ gəldi.

Demokratik ruhlu deputatların dəfələrlə təkid etməsinə baxmayaraq sessiya keçirilmirdi. Bütün bunlar hamısı bizə göstərdi ki, Azərbaycan Kommunist Partiyası, onun tərkib hissəsi olan Naxçıvan Vilayət Partiya Komitəsi və onun bürosu mürtəce mövqe tutur və xalq tərəfindən seçilmiş Ali Məclisin işinə məhz onların diktatorluq, inzibati amirlik üsuli-idarəsi mane oldu.

O vaxtdan Məclisin işi pozulmuş və bu iş getmirdi. Bildiyiniz kimi, noyabrın 17-də seçilmiş Məclisin sədri A.Cəlilov naməlum səbəblərə görə Naxçıvanı tərk etdi və onun yerinə Naxçıvan Vilayət Partiya Komitəsinin qərarı ilə Əkbər Əliyev seçildi.

Deputatlar bildirdilər ki, bu sessiya keçirilərkən yetərsəs olmamışdır, buna görə də sessiyanın qərarı ləğv edilmişdir. Bildiyiniz kimi, aprelin 5-də keçirilən sessiyadan iki saat əvvəl mənə zəng edib bildirdilər ki, onun işində iştirak edim. Lakin həmin vaxt xəstə idim və sessiyaya gələ bilməzdim. Mənim yanıma Nehrəm kəndindən çox hörmət etdiyim bir neçə ağsaqqal gəldi, dedilər ki, Əkbər Əliyev xahiş edir mən sessiyaya gəlim. Vəziyyətim pis olsa da, mən sessiya keçirilən binaya gəldim və gördüm ki, artıq deputatlar iki yerə ayrılıblar. Foyedə Əkbər Əliyevlə görüşdüm. O xahiş etdi ki, mən ona kömək edim. Mən demokratik blokla görüşdüm və onların hansı əhvali-ruhiyyədə olduğunu hiss etdim. Gəlib Ə.Əliyevə dedim ki, bu vəziyyətdə, bu şəraitdə sessiyanı ke-

çirmək olmaz. Sessiyanı təxirə salmaq lazımdır, deputatlarla məsləhətləşmək lazımdır.

Onu deyim ki, bir gün əvvəl vilayət partiya komitəsinin plenumu olmuşdur. Azərbaycan KP MK-nın katibi Z.Abdullayev həmin plenumda iştirak edirdi. Eləcə də orada partiya, sovet işinə aidiyyəti olmayan müxtəlif adamlar gəlib oturmuşdular. Elə həmin plenumda məclisin sədri məsələsi həll edilmişdir. Mən bunları bildiyimə görə Ə.Əliyevə dedim ki, bu vəziyyətdə Ali Məclisə seçilsəniz, gələcəyi olmayacaq. Bir halda ki, siz Ali Məclisə sədr seçilirsiniz, gərək vilayət partiya komitəsinin birinci katibi vəzifəsindən imtina edəsiniz. Mən hələ buna bənzər bir təklifi mart ayında Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında demişdim. Mən orada dedim ki, yuxarıdan aşağı bütün partiya rəhbərləri sovet orqanlarında heç bir vəzifə tutmamalıdırlar. Düzdür o vaxt mənim təklifim müdafiə olunmadı. Mən o vaxt təklif etdim ki, Azərbaycan Kommunist Partiyası hakimiyyətdən getməlidir. Bu çıxışıma görə mən bir çox hücumlara məruz qaldım. Bu bir neçə ayın hadisələri sübut etdi ki, kim düz fikirdə idi, kim səhv etmişdi. Yuxarıda dediyim fikirləri əsas tutaraq mən Ə.Əliyevə bir daha öz fikrimi bildirdim. Lakin o razı olmadı, mən də çıxıb getdim. Bütün bunları isə ona görə çatdırdım ki, Naxçıvanda gedən proseslər həm sizə, həm də Naxçıvan əhalisinə aydın olsun, eyni zamanda bütün bunlar sübut edir ki, Naxçıvanda da, bütün Azərbaycanda da Kommunist Partiyasının hakim diktator rejimi bəzi dəyərli adamları, xalqı üçün, məmləkəti üçün faydalı adamları pis vəziyyətdə qoyur. A.Cəlilov və Ə.Əliyev də təəssüf ki, belə diktatorluq rejiminin qurbanı oldular. Onlar gərək demokratiya yoluna düşəydilər.

İndi mən də əvvəldə dediyim kimi, çətin vəziyyətdəyəm. Çünki minlərlə adam meydandadır, burada zalda da deputatlar parçalanıb. Mən bir gün əvvəl mitinqdə demişdim ki, Azərbaycanda bəzi qüvvələr xalqı parçalayır. Naxçıvanda

da bunu həyata keçirmək istəyirlər. Biz Naxçıvanda birlik yaratmalıyıq. Azərbaycanda da belə birlik ola bilər. Dəfələrlə çıxışlarımda dediyim kimi, bu birlik demokratik prinsiplər əsasında, plüralizm əsasında olmalıdır. Kommunist Partiyası məhv oldu. Sovet imperiyası dağıldı. Şəxsi mənafedən istifadə etmək istəyən Azərbaycan Kommunist Partiyasının rəhbərləri artıq indi pis günə düşüblər. Ona görə də dəfələrlə dediyim kimi, mən bir daha təkrar edirəm, gəlin bir olaq, hamımız xalqımıza xidmət edək, respublikamız, Azərbaycan xalqı, Naxçıvan haqqında düşünək və demokratik prinsiplər əsasında birləşək.

Məni bir deputat kimi bir məsələ də narahat edir. Sessiyalarda biz nə Nazirlər Kabinetinin, nə də nazirliklərin nümayəndələrini görürdük. Çünki Ali Məclis Naxçıvanda da, Bakıda olduğu kimi partiya təşkilatının əlində oyuncağa dönüb. Ali Məclisə vilayət partiya komitəsi rəhbərlik edir. Ona görə də məclisə nə nazir çağırılırdı, nə də Nazirlər Kabinetinin işinə baxılırdı. Onlar vilayət partiya komitəsinə yığılır və bütün məsələlər orada onların iclaslarında müzakirə olunurdu. Bu da ikiüzlü siyasətin çox açıq forması idi. Bunların hamısına son qoymaq lazımdır. Elə ona görə bu gün sessiyada Naxçıvan Muxtar Respublikasının nazirləri, idarə, müəssisə rəhbərləri, rayon, şəhər icraiyyə komitələri sədrləri iştirak edirlər. Onları ona görə dəvət etmişik ki, gəlsinlər, oturaq, fikirləşək görək bu çətin vəziyyətdən necə çıxırıq.

Mən sözümün sonunda bir daha üzümü Ali Məclisə tutaraq deyirəm, əgər mümkünsə, sədr yenidən seçilsin.

Mən sizə müraciət etməyə borcluyam. Naxçıvan Muxtar Respublikasını ağır vəziyyətdən çıxarmaq üçün sizin hamınız mənə kömək etməlisiniz. Bax, bu şərtlə bu yükün altına girirəm.

Naxçıvan şəhəri,
5 sentyabr 1991-ci il.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN BƏYANATI

Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1991-ci il 4 sentyabrda cari ilin sentyabr ayının 8-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin muxtar respublika ərazisində dayandırılması haqqında qərar qəbul etmişdir.

Belə bir qərarın qəbul edilməsi üçün aşağıdakılar əsas olmuşdur: .

Prezidentlik vəzifəsinə namizədliyə yalnız Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi A.Mütəllibov alternativsiz əsasda irəli sürülmüşdür.

Yeganə müxalifət qüvvəsi olan Xalq Cəbhəsi təzyiq və qanunsuzluq şəraitində prezident seçkilərində iştirakından imtina etmişdir. Seçki komissiyaları və məntəqələrinin üzvləri Kommunist Partiyası orqanlarının birbaşa göstərişi ilə təyin olunmuşlar.

Avqustun 19-da ölkədə dövlət çevrilişi etmiş SSRİ Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyəti ilə bağlı olaraq dövlət çevrilişində iştirakına və cinayət etdiyinə görə Sov.İKP MK-nın Siyasi Bürosu və Sov.İKP Mərkəzi Komitəsi buraxılmışdır. Sov. İKP üzvü, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Ayaz Mütəllibov mənsub olduğu təşkilatla birlikdə bu cinayətlə bağlıdır və hər hansı bir seçkidə onun iştirak etməyə hüququ yoxdur. Azərbaycanda Kommunist Partiyasının fəaliyyəti, onun Mərkəzi Komitəsinin diktator rejimi davam edir.

1990-cı il yanvarın 19-da Bakıya qoşun yeridilməsi zamanı insan tələfatına səbəb olmuş Azərbaycan xalqına qarşı

hərbi təcavüzdə Mütəllibovun iştirakına dair əsaslı məlumatlar vardır.

A.Mütəllibov ölkədə dövlət çevrilişi etmiş SSRİ Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyətini bəyənmişdir.

Azərbaycan Respublikasının kommunist rəhbərliyi tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və muxtar respublika sakinlərinin iradəsinə hər cür təzyiqlər göstərilir. Ali Məclisin 1991-ci il sentyabrın 3-də keçirilməsi nəzərdə tutulmuş sessiyasının işinin pozulması məqsədilə Azərbaycanın kommunist rəhbərliyi heç bir əsas olmadan Ali Məclisin 40-dək deputatının, şəhər və rayon sovetləri icraiyyə komitələrinin sədrlərinin Bakı şəhərinə çağırılmasını təşkil etmişdir.

Sentyabrın 2-də Naxçıvan şəhərinə 9 nəfər Azərbaycan xalq deputatı, o cümlədən 2 general və hüquq-mühafizə orqanlarının rəhbər işçiləri gəlmişdir. Bu deputat qrupu özünü Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim etməmiş, öz fikrini açıq şəkildə bildirməmiş və anlaşılmayan bir fəaliyyətlə məşğul olmuşdur.

Elə bu günlərdə məlum olmayan səbəblərə görə Azərbaycan daxili işlər nazirinin müavini başda olmaqla Azərbaycan Daxili İşlər Nazirliyi işçilərinin böyük bir qrupu Naxçıvana gəlmişdir.

Bütün bunlar bir daha inandırıcı şəkildə ona dəlalət edir ki, Azərbaycanın kommunist rəhbərliyi respublikanın ali qanunvericilik orqanının fəaliyyətinə, respublikanın əhalisinə təzyiq göstərməyə can atır və Naxçıvan Muxtar Respublikasında baş verən demokratik prosesləri boğmağa çalışır.

Bütün bu qeyri-qanuni hərəkətlərə etiraz edərək Sovet İttifaqının bütün demokratik təşkilatlarına, bütün demokratik

beynəlxalq təşkilatlara, müstəqil jurnalistlərə müraciət edərək, Naxçıvan Muxtar Respublikasındakı vəziyyətin obyektiv şəkildə öyrənilməsi üçün, xüsusən Azərbaycanda prezident seçkilərinin keçirilməsi nəzərdə tutulduğu gün, sentyabrın 8-də öz nümayəndələrini muxtar respublikaya göndərmələrini xahiş edirəm.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

6 sentyabr 1991-ci il

Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, ölkədə yaranmış gərgin sosial-ictimai və siyasi vəziyyət Naxçıvan Muxtar Respublikasında daha kəskin xarakter almışdır.

Belə ki, Ermənistan Respublikası ilə həmsərhəd olan muxtar respublikanın ərazisi 1988-ci ildən başlayaraq bu günə kimi erməni diasporu və lobbisi tərəfindən müdafiə olunan və silahlandırılan, Mərkəzin himayədarlığından hər vasitə ilə istifadə edən erməni silahlı quldur dəstələrinin basqınlarına məruz qalır. Bu müddət ərzində muxtar respublikanın Şərur

rayonunun Kərki kəndi Sovet ordusunun birtərəfli mövqeyi nəticəsində Ermənistan tərəfindən işğal edilmiş, Sədərək kəndi ətrafındakı vuruşmalarda insanlar həlak olmuş, dövlət mülkiyyətinə və şəxsi mülkiyyətə xeyli ziyan vurulmuş, Havuş kəndi, o cümlədən bir sıra yaşayış məntəqələri toplardan intensiv atəşə tutularaq tamamilə dağıdılmış, Babək rayonunun Kərəməçataq, Yuxarı Buzqov, Şahbuz rayonunun Şada kəndlərinə və Batabat yaylağına ardı-arası kəsilməyən hücumlar olmuş, xeyli miqdarda mal-qara aparılmış, çobanlar öldürülmüş və girov götürülmüşlər.

Törədilən talanlar və qırğınlar barədə Mərkəzə, Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Ali Sovetinə dəfələrlə məlumat verilməsinə baxmayaraq, qəti tədbirlər görülməmiş, əksinə qonşu respublika tərəfindən silahlı basqınların sayı daha da artmışdır. Sovet Ordusu isə həmişə olduğu kimi erməni diasporunun göstərişlərini yerinə yetirən Mərkəzin siyasətinə uyğun olaraq, respublikanın ərazisini qonşu respublikadan edilən silahlı təcavüzdən qorumağa cəhd göstərməmişdir. Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikası ilə birləşdirən dəmiryolu mütəmadi blokadaya alınmış, Ermənistan ərazisindən keçən yeganə avtomobil yolu isə 1988-ci ildən tamamilə bağlanmışdır. Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Azərbaycandan, ümumiyyətlə, xarici aləmdən təcrid olunmuş vəziyyətə salınmışdır.

Naxçıvan Muxtar Respublikasını yaranmış vəziyyətdən xilas etmək və qonşu Ermənistan Respublikası ərazisindən edilən silahlı basqınlardan qorumaq, əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə, Naxçıvan Muxtar Respublikasının suverenliyini və ərazi bütövlüyünü müdafiə naminə, Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust 1991-ci il tarixli

"Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə"sinə, "Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərarına və Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına əsaslanaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik və hüquq-mühafizə məsələləri komissiyasına tapşırılsın ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti ilə birlikdə Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin statusu, strukturu və təşkili qaydası haqqında Naxçıvan Muxtar Respublikası qanununun layihəsini hazırlasın və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının növbəti iclasının müzakirəsinə versinlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
7 sentyabr 1991-ci il

Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin bəyanatı barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin bəyanatı barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyanatının mətni bəyənilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
7 sentyabr 1991-ci il

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN BƏYANATI BARƏDƏ

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin 1991-ci il sentyabr ayının 6-da verdiyi bəyanata baxaraq bir daha qeyd edir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 04 sentyabr 1991-ci il tarixdə qəbul etdiyi Azərbaycan Respublikası prezidentinin seçkiləri haqqında qərar prinsipial xarakter daşıyır.

Qəbul olunan qərarda göstərildiyi kimi, prezidentlik vəzifəsinə namizədliyə yalnız Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi A.Mütəllibovun alternativsiz qaydada seçkiyə buraxıldığını, prezidentliyə namizədliyi fövqəladə vəziyyət şəraitində verildiyini, müxalifət qüvvəsi olan xalq cəbhəsinin təzyiq və qanunsuzluq şəraitində prezident seçkilərində iştirakdan imtina etdiyini, seçki komissiyaları və məntəqələrinin üzvlərinin Kommunist Partiyası orqanlarının birbaşa göstərişi ilə təyin olunduğunu, avqustun 19-da ölkədə dövlət çevrilişi etmiş SSRİ Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyəti ilə bağlı olaraq dövlət çevrilişində iştirakına və cinayət etdiyinə görə Sov.İKP MK Siyasi Bürosunun və Sov.İKP Mərkəzi Komitəsinin buraxıldığını, Sov.İKP MK üzvü, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Ayaz Mütəllibovun mənsub olduğu təşkilatlarla birlikdə bu cinayətlə bağlılığını və buna görə hər hansı bir seçkidə onun iştirak etmək hüququ olmadığını, Azərbaycanda Kommunist Partiyasının fəaliyyətini, onun Mərkəzi Komitəsinin diktator rejimini davam etdirdiyini, 1990-cı il yanvarın 19-da Bakıya qoşun yeridilməsi zamanı insan tələfatına səbəb olmuş Azərbaycan xalqına qarşı hərbi təcavüzdə A.Mütəllibovun iştirakına dair təkzibedilməz məlumatlar olduğunu, onun ölkədə dövlət çevrilişi etmiş SSRİ Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyətini əsas tutaraq seçkilərin təxirə salınmasını nəzərdə tutmuş və Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətindən xahiş etmişdir ki, seçkiləri başqa vaxta keçirsin.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN BƏYANATI

Mərkəzi televiziyanın "Vremya" proqramı ilə 1991-ci il 9 sentyabrda verilmiş Azərbaycan prezidenti A.Mütəllibovun mətbuat konfransı haqqında reportajında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı təhrif olunmuşdur. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi A.Mütəllibov 1991-ci il 8 sentyabra təyin edilmiş prezident seçkilərinin Naxçıvan Muxtar Respublikası ərazisində dayandırılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bağlı Naxçıvan Muxtar Respublikası parlamentinin ünvanına hədə-qorxu gəlmişdir. A.Mütəllibov demişdir ki, guya Naxçıvan Muxtar Respublikasında prezident seçkiləri qadağan edilmişdir və parlamentin ünvanına: "Biz elə edərik ki, onlar özlərinə gələrlər" ifadəsini işlətmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti bu cür hərəkətləri demokratiya prinsiplərinin pozulması, təzyiq göstərilməsi və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin tutduğu diktatura yolunun davamı kimi qiymətləndirir.

Ali Məclisin Rəyasət Heyəti antidemokratik, diktatorluq təzahürlərinə, Ali Məclisin qəbul etdiyi qərarların qəsdən təhrif edilməsinə qəti etirazını bildirir və xatırladır ki, Naxçıvan Muxtar Respublikasının parlamenti öz konstitusiya hüquqlarını və qəbul etdiyi qərarları müdafiə etmək iqtidarındadır. Dövlət çevrilişi etmiş irtica qüvvələrinin dəf olunmasından sonra ölkədə genişlənən böyük demokratik dəyişikliklər şəraitində A.Mütəllibovun bu cür hərəkətləri xüsusilə yolverilməzdir.

Eyni zamanda, qeyd etmək zəruridir ki, muxtar respublika parlamentinə bu cür təzyiq göstərilməsi, onun konstitu-

siya hüquqlarının tapdalanması yeganə hal deyil. Son zamanlar Azərbaycanın kommunist rəhbərliyi tərəfindən Naxçıvan Muxtar Respublikasına qarşı informasiya blokadası təşkil olunmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 5 gün işini davam etdirən növbədənkənar sessiyası Azərbaycanın informasiya orqanları tərəfindən qətiyyən işıqlandırılmamışdır. Halbuki onlara sessiyanın işi və qəbul etdiyi qərarlar haqqında müntəzəm olaraq məlumat verilmişdir. Bunlar azmış kimi, Azərbaycan televiziyası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının işi haqqında ağ yalan və böhtanlarla dolu veriliş təşkil etmişdir ki, bununla Azərbaycan ictimaiyyətinə yanlış məlumat verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Azərbaycanın Kommunist rəhbərliyi tərəfindən təşkil olunmuş bu cür antidemokratik hərəkətlərə qarşı öz etirazını bildirir və onları Naxçıvan Muxtar Respublikasında gedən demokratik prosesləri boğmaq cəhdi kimi qiymətləndirir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
10 sentyabr 1991-ci il

Azərbaycan Kommunist Partiyasının qurultayına nümayəndələr seçilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin məktubları barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN QƏRARI

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, Ali Məclis 26 avqust və 4 sentyabr 1991-ci il tarixlərində Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, şəhər, rayon partiya komitələrinin və kommunist partiyasının bütün strukturlarının fəaliyyətinin muxtar respublikanın ərazisində dayandırılması və onların əmlakının milliləşdirilməsi barədə qərarlar qəbul etmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qəbul olunmuş qərarların müddəalarına uyğun olaraq Azərbaycan Respublikasının Ali Sovetinə müraciət edərək Sov.İKP-nin tərkib hissəsi olan Azərbaycan Kommunist Partiyasını buraxmaq, onun Mərkəzi Komitəsinin fəaliyyətini dayandırmaq təklifini vermişdir.

Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə artıq məlum idi ki, 26 avqust 1991-ci il tarixdən muxtar respublika ərazisində Azərbaycan Kommunist Partiyasının bütün təşkilatlarının fəaliyyəti dayandırılmış və vilayət partiya təşkilatının bütün strukturları ləğv edilmişdir.

Lakin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların və müvafiq müraciətin əksinə olaraq, 9–10 sentyabr 1991-ci il tarixdə Azərbaycan KP Mərkəzi Komitəsinin katibi F. Muradəliyevin imzası ilə Azərbaycan KP MK-dan fəaliyyəti dayandırılmış və əmlakı milliləşdirilmiş Naxçıvan vilayət, şəhər və rayon partiya komitələrinə cari ilin sentyabr ayının 14-də keçirilməsi nəzərdə tutulan Azərbaycan Kommunist Partiyasının qurultayına nümayəndələrin seçilməsi üçün məxfi məktublar göndərilmişdir. Mər-

kəzi Komitənin həmin sərəncamına Azərbaycan Kommunist Partiyasının növbədənkənar qurultayına nümayəndələrin seçilməsi qaydası da əlavə edilmişdir.

Azərbaycan KP Mərkəzi Komitəsindən daxil olan məxfi məktubların təhlili bir daha sübut edir ki, Kommunist Partiyasının rəhbər və istiqamətverici rolu barədə müddəaların Azərbaycan Konstitusiyasının 6-cı maddəsindən çıxarılmasına baxmayaraq Azərbaycan KP Mərkəzi Komitəsi Azərbaycan Respublikası Ali Sovetinin müvafiq qərarının ziddinə olaraq və Azərbaycan Respublikasının Konstitusiyasını (Əsas Qanunu) pozaraq zorakılıqla hakimiyyətini saxlamaq niyyətindədir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan Kommunist Partiyasının qurultayına nümayəndələr seçilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin məktubları Azərbaycan Konstitusiyasına, həmçinin muxtar respublikanın ali qanunvericilik orqanının qərarlarına zidd hərəkət kimi qəbul edilsin və qətiyyətlə pislənilsin.

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 avqust və 4 sentyabr 1991-ci il tarixli Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, şəhər, rayon partiya komitələrinin, kommunist partiyasının bütün strukturlarının fəaliyyətlərinin Naxçıvan Muxtar Respublikasının ərazisində dayandırılması barədə qərarlarının ziddinə hərəkət edən ayrı-ayrı vəzifəli kommunistlərin fəaliyyəti demokratikləşdirmə prosesinə, muxtar respublikada vəziyyətin sabitləşməsinə qarşı yönəldilmiş cəhd kimi qiymətləndirilsin.

3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Konstitusiyaya zidd fəaliyyətinə özünün qəti etirazını bildirir və qeyd edir ki, muxtar respublika parlamenti tərəfindən qəbul edilmiş qərarlar, o cümlədən Azərbaycan Kommu-

nist Partiyasının fəaliyyəti ilə bağlı olan qərarlar muxtar respublika ərazisində dəyişilməzdir.

4. Həmin qərar məlumat üçün Azərbaycan Respublikasının Ali Sovetinə göndərilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
12 sentyabr 1991-ci il

Azərbaycan Kommunist Partiyasının qurultayına nümayəndələr seçilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin məktubu ilə əlaqədar Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin bəyanatı barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

Azərbaycan KP-nin qurultayına nümayəndələr seçilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin məktubu ilə əlaqədar Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin bəyanatının mətni bəyənilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
12 sentyabr 1991-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN B Ə Y A N A T I

Naxçıvan Muxtar Respublikası Ali Məclisi 26 avqust və 4 sentyabr 1991-ci il tarixlərində Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, şəhər, rayon partiya komitələrinin, Kommunist partiyasının bütün strukturlarının fəaliyyətinin Naxçıvan Muxtar Respublikası ərazisində dayandırılması və onların əmlakının milliləşdirilməsinə dair qərar qəbul etmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Ali Sovetinə müraciət edərək Sov.İKP-nin tərkib hissəsi olan Azərbaycan Kommunist Partiyasının buraxılması, onun Mərkəzi Komitəsinin fəaliyyətinin dayandırılması təklifini vermişdir. Ali Məclis tərəfindən qəbul edilmiş qərar dərhal Azərbaycan Ali Sovetinə, Azərbaycanın və ölkənin bütün kütləvi informasiya orqanlarına göndərilmişdir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasındakı demokratik proseslərin və mövcud reallıqların Azərbaycan Ali Soveti və öz fəaliyyətini davam etdirən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən başa düşülməməsi hiddətə səbəb olur.

1991-ci ilin 9 sentyabrında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi F.Muradəliyevin imzası ilə Naxçıvan vilayət partiya komitəsinə, Naxçıvan şəhər və rayon partiya komitələrinə məxfi məktublar göndərilmişdir. Bu məktublarda cari ilin sentyabr ayının 14-də keçirilməsi nəzərdə tutulmuş Azərbaycan Kommunist Partiyasının qurultayına nümayəndələrin seçilməsi üçün partiya konfranslarının keçirilməsi zərurəti göstərilmişdir. Mərkəzi Komitənin həmin sərəncamına Azərbaycan Kommunist Partiyasının növbədənkənar qurultayına nümayəndələrin seçilməsi qaydası da əlavə edilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə yaxşı məlumdur ki, 26 avqust 1991-ci il tarixdən muxtar respublika ərazisində Azərbaycan Kommunist Partiyasının bütün təşkilatlarının fəaliyyəti dayandırılmış və vilayət partiya təşkilatının bütün strukturları ləğv edilmişdir.

Bunların hamısı belə bir nəticəyə gəlməyə əsas verir: Kommunist Partiyasının rəhbər və istiqamətverici rolu haqqındakı müddəaların Azərbaycan Konstitusiyasının 6-cı maddəsindən çıxarılmasına dair Azərbaycan Respublikası Ali Sovetinin qərarının ziddinə olaraq Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi özbaşınalıqla hakim vəziyyətini saxlayır və bununla da Azərbaycan Respublikasının Konstitusiyasını kobudcasına pozur.

Azərbaycan Konstitusiyasına, həmçinin muxtar respublikanın ali qanunverici orqanının qərarlarına zidd olan bu hərəkətləri pisləyərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin fəaliyyətinə qarşı özünün qəti etirazını bildirir və bəyan edir ki, muxtar respublika parlamenti tərəfindən qəbul edilmiş qərarlar, o cümlədən Azərbaycan Kommunist Partiyasının fəaliyyəti ilə bağlı olan qərar dəyişməzdir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
12 sentyabr 1991-ci il

RUSİYA FEDERASİYASI, QAZAXISTAN, AZƏRBAYCAN VƏ ERMƏNİSTAN RƏHBƏRLƏRİNİN SENTYABRIN 23-də JELEZNOVODSK ŞƏHƏRİNDƏ İMZALADIQLARI RƏSMİ MƏLUMATLA ƏLAQƏDAR NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN B Ə Y A N A T I

Erməni millətçi dairələrinin günahı üzündən dörd il bundan əvvəl yaradılmış üzdəniraq Dağlıq Qarabağ problemi ağır nəticələrə gətirib çıxarmışdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü pozulmuş, muxtar vilayətin böyük bir hissəsi faktiki olaraq respublikanın idarəçiliyindən çıxmış, Ermənistanla Azərbaycan arasındakı münasibətlər son dərəcə kəskinləşmişdir. Azərbaycanın ərazisində Ermənistandan idarə olunan qanunsuz quldur dəstələri fəaliyyət göstərir. Bütün bunlar isə saysız-hesabsız insan qurbanları, yaşayış məntəqələrinin dağıdılması ilə nəticələnən arasıkəsilməyən millətlərarası münaqişələrə gətirib çıxarmış, əhaliyə maddi və mənəvi zərər vurulmuşdur.

Naxçıvan Muxtar Respublikasının Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğuna istinad edən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycanın dövlət suverenliyi və ərazi bütövlüyünün müdafiəsi naminə Dağlıq Qarabağda vəziyyətin sabitləşdirilməsi, onun bütün ərazisində Azərbaycanın tam suverenliyinin bərpası və münaqişəli məsələlərin həllinə doğru atılmış bütün addımları bəyənir.

Üzdəniraq DQMV problemi Azərbaycanın bütün ərazisinə, o cümlədən Ermənistanla həmsərhəd olan Naxçıvan

Muxtar Respublikasındakı vəziyyətə də özünün mənfi təsirini göstərmişdir.

Məhz Ermənistanla Azərbaycan arasındakı münasibətlərin gərginləşdiyi şəraitdə Ermənistan tərəfindən silahlı quldur dəstələrinin və SSRİ Müdafiə Nazirliyinin 7-ci ordu hissələrinin vasitəsilə 1990-cı ilin yanvar ayında Azərbaycan ərazisinin bir hissəsi – Naxçıvan Muxtar Respublikasının Kərki kəndi işğal edilmişdir.

Dəfələrlə tələb olunmasına baxmayaraq, Kərki kəndi bu günədək qaytarılmamış, doğma ocaqlarını məcburi tərk etmiş kəndin sakinləri isə başqa yerlərdə sığınacaq tapmışlar.

Bunun üçün də Naxçıvan əhalisi DQMV-də vəziyyətin normallaşdırılmasının, xüsusilə Ermənistanla həmsərhəd olan rayonlarda millətlərarası münaqişələrin tez bir zamanda aradan qaldırılmasının tərəfdarlarıdırlar.

Yuxarıda qeyd olunanlardan nəticə çıxaran Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Rusiya Federasiyasının Prezidenti B.N.Yeltsinin, Qazaxıstan Prezidenti N.A.Nazarbayevin DQMV-də vəziyyətin normallaşdırılması işindəki vasitəçilik missiyalarına razılıq hissi ilə yanaşır. Lakin, Ali Məclis Dağlıq Qarabağ Muxtar Vilayətindəki vəziyyətin sabitləşdirilməsi ilə bağlı danışıqlarda Ermənistan Respublikasının bərabər tərəf sifəti ilə iştirak etməsinə Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə və onun dövlət suverenliyinə etinasızlıq kimi qiymət verir. Ermənistanın Azərbaycana hər hansı bir ərazi, xüsusilə Dağlıq Qarabağa olan iddiasından rəsmi şəkildə imtina etməsi bu danışıqların başlanması və bu cür sənədin qəbul edilməsi üçün əsas şərt kimi qoyulmalı idi.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi iki respublika arasındakı gərginliyin aradan qaldırılması və həmsərhəd rayonlardakı münaqişələrin dayandırılması üçün Azər-

baycanla Ermənistan arasındakı danışıqları zəruri hesab edir. Dağlıq Qarabağ məsələsi isə Azərbaycanın müstəsna səlahiyyətinə daxildir və onu Azərbaycan Respublikasının özü həll etməlidir.

Azərbaycanın nümayəndə heyəti danışıqlara getməzdən əvvəl DQMV və onun ətrafında baş verən hadisələrin bütün Azərbaycan xalqının milli mənafeyinə toxunduğunu nəzərə almalı, məsələnin bu cür həllində öz xalqının, heç olmazsa ali qanunvericilik orqanının – Azərbaycan Respublikası Ali Sovetinin zəmanətinə nail olmalı idi.

Onu da qeyd etmək lazımdır ki, Rusiya Federasiyasının Prezidenti B.N.Yeltsin, Qazaxıstan Prezidenti N.A.Nazarbayev, Azərbaycan Respublikasının Prezidenti A.N.Mütəllibov və Ermənistan Respublikası Ali Sovetinin sədri L.A.Ter-Petrosyan tərəfindən imzalanmış rəsmi məlumatda Azərbaycan Respublikasının milli mənafeyinə toxunan, gözlənilməz nəticələrə gətirə biləcək müddəalar vardır.

Mövcud sənədin müddəaları bəzi hallarda yovuşmaz, qeyri-müəyyən xarakter daşıyır. Sənəddə əldə edilmiş razılaşmaların həyata keçirilməsi mexanizmi nəzərdə tutulmur. Buna görə də mövcud rəsmi məlumatın arzu edilən nəticələrə nail olunmasına təminat verəcəyinə ümid azdır. Son həftədə baş vermiş hadisələr də bunu bir daha təsdiq edir. Sənədin imzalanmasından sonra regionda nəinki sabitləşmə, əksinə DQMV-də erməni quldur dəstələrinin fəaliyyəti nəticəsində gərginliyin artması müşahidə olunur. Təəccüblüdür ki, rəsmi məlumatda işğal edilmiş Azərbaycan kəndi Kərkinin qaytarılması əksini tapmamışdır.

Sentyabrın 23-də Jeleznovodsk şəhərində imzalanmış rəsmi məlumata özünün tənqidi münasibətini açıq ifadə edən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi prezidentlər

B.N.Yeltsin və N.A.Nazarbayevin vasitəçilik missiyalarının davam edəcəyinə inanır, Azərbaycanın dövlət suverenliyinə və Azərbaycan xalqının milli mənafeyinə ciddi riayət olunması şərti ilə DQMV-də vəziyyətin tezliklə normallaşdırılması, regionda millətlərarası münaqişənin ləğv edilməsi naminə bundan sonra da əməli fəaliyyət göstərəcəklərinə ümid bəsləyir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
1 oktyabr 1991-ci il

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SESSİYASINA

Naxçıvan Muxtar Respublikasının əhalisi Azərbaycan Respublikasının 18 oktyabr 1991-ci il tarixli sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı münasibətilə bütün Azərbaycan xalqını təbrik edir və bunu böyük tarixi hadisə kimi qəbul edir.

Naxçıvan Muxtar Respublikasının demokratik qüvvələri son üç ildə Azərbaycan Respublikasının milli azadlığı, müstəqilliyi uğrunda fəal mübarizə aparıb, bu yolda qurbanlar verib və 18 oktyabr 1991-ci il tarixdə qəbul olunmuş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktını bütün Azərbaycanın demokratik qüvvələrinin böyük qələbəsi kimi qiymətləndirir. 17 mart 1991-ci il tarixdə

Sovet Sosialist Respublikaları İttifaqının saxlanması haqqında keçirilmiş referendumda Naxçıvan Muxtar Respublikası əhalisinin iştirak etməməsi məhz muxtar respublikanın demokratik qüvvələrinin Azərbaycanın milli azadlıq, istiqlaliyyət uğrunda apardığı mübarizə ilə əlaqədardır.

Biz bu gün xoşbəxtik ki, nəhayət Azərbaycan Respublikası ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
19 oktyabr 1991-ci il

Azərbaycan Respublikası Ali Soveti tərəfindən "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" 8 oktyabr 1991-ci il tarixdə qəbul olunmuş Qanuna və bununla əlaqədar "Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində, şəhər rayonlarında, kəndlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 oktyabr 1991-ci il tarixli fərmanına münasibət haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN QƏRARI

Azərbaycan KP MK-nın birinci katibi kimi çox yüksək səlahiyyətlərə malik olmasına baxmayaraq, A.Mütəllibov hüquqlarını daha da artırmaq məqsədilə respublikada Prezidentlik institutunun yaradılmasının bilavasitə təşəbbüsçülərindən olmuş, "Azərbaycan Respublikasının Konstitusiyasına (Əsas Qanuna) dəyişiklik və əlavələr haqqında" 18 may 1990-cı il tarixli Azərbaycan SSR Qanunu ilə Prezident vəzifəsi təsis edilmiş və elə həmin gün o, səlahiyyət müddəti qurtarmış Ali Sovetin qərarı ilə Prezident seçilmişdir.

5 mart 1991-ci il tarixdə "Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Konstitusiyasında (Əsas Qanunda) dəyişikliklər və əlavələr

haqqında" Azərbaycan Respublikası Qanunu ilə Prezident statusunda əsassız olaraq dəyişikliklər edilmiş və onun səlahiyyətləri daha da artırılmışdır.

Əlbəttə, prezidentlik institutu hər bir demokratik cəmiyyətin və hüquqi dövlətin zəruri atributudur. Lakin Azərbaycanda həqiqi demokratiya olmadığından, üstəlik siyasi mühitin demokratikləşdirilməsinin qarşısına hər vəchlə sədd çəkildiyindən və respublikada elan edilmiş fövqəladə vəziyyət şəraitində prezident idarəsinin yaradılması ilə Mütəllibova qeyri-məhdud səlahiyyətlərin verilməsinə heç cür haqq qazandırmaq olmaz.

Təsadüfi deyil ki, dəfələrlə səlahiyyətləri artırılmış M.Qorbaçov kimi, A.Mütəllibov da güclü icra və sərəncam hakimiyyətinə malik olduqdan sonra belə respublikanı düşdüyü dərin mənəvi və iqtisadi-siyasi böhran vəziyyətindən çıxarmağa nail olmamış, artırılmış statusundan heç cür istifadə edə bilməmişdir. Respublikada iqtisadi vəziyyət getdikcə pisləşmiş, sosial problemlərin həlli sahəsində heç bir nəticə əldə olunmamış, hakimiyyətin ədalətsizliyi siyasi mühiti daha da mürəkkəbləşdirmiş, cinayətkarlıq baş alıb getmiş, istehlak bazarında gərginlik daha da artmışdır. Bütün bunlar əhalinin narazılığının güclənməsinə səbəb olmuşdur. Bu problemləri aradan qaldırmaq əvəzinə Prezident sabitləşdirmə bayrağı altında demokratik qüvvələri buxovlamaq, öz hakimiyyətini gücləndirmək məqsədi güdmüşdür. Bu siyasətin davamı olaraq 3 sentyabr 1991-ci il tarixdə keçirilmiş müşavirədə Prezident mövcud siyasi şəraitlə əlaqədar ən qəti tədbirlər görülməsi, yaranmış vəziyyətdə operativ qərarlar qəbul edilməsi üçün ona bir daha əlavə səlahiyyətlər verilməsini tələb etmişdir. Həmin müşavirənin protokolundan göründüyü kimi, bu səlahiyyətlər Prezidentə Azərbaycan Xalq Cəbhəsi və onun ətrafında birləşmiş siyasi partiya və hərəkatların əleyhinə qəti tədbirlər görmək, Naxçıvan Muxtar Respublikasında son vaxtlar baş verən demokratikləşmə pro-

seslərinin qarşısını almaq, bununla da kommunist rəhbərliyinin hakimiyyətini gücləndirmək üçün lazım olmuşdur.

Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti Prezidentin arzusunu ifadə edərək "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" məsələnin oktyabr ayının 8-11-də keçirilən fövqəladə sessiyasının gündəliyinə salınmasına nail olmuşdur. Bu qərar, onun mahiyyəti deputatlara izah edilmədən və müzakirə olunmadan, həmçinin deputatların bir hissəsinin sessiya keçirilən zalda iştirak etmədiyi şəraitdə, müəmmalı şəkildə qəbul edilməklə prezidentə istədiyi əlavə səlahiyyətləri vermişdir. Bununla da Prezident xalq təsərrüfatını idarəetmənin təşkili məsələləri, yerli dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkili və fəaliyyəti qaydasının müəyyən olunması, mərkəzi dövlət idarəetmə orqanlarının yaradılması, ləğvi məsələlərinin həllində fərmanlar vermək hüququ almışdır. Əslində o, mütləq hakim, məhdudiyyətsiz səlahiyyət sahibi olmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, respublikanın Ali Soveti bu Qanunu qəbul etməklə "hakimiyyətlər bölgüsü" prinsipini pozan paralel qanunverici hakimiyyət orqanı yaratmışdır. İcra hakimiyyətinin başçısına Konstitusiyanı dəyişdirmək və ona əlavələr etmək səlahiyyəti verilməklə, o, qanunvericilik sahəsində Ali Sovetdən yüksəyə qaldırılmışdır. Bu, hüquqi dövlət prinsipinə və hər cür demokratiya anlayışına ziddir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti 10 oktyabr 1991-ci il tarixli bəyanatında həmin Qanunun demokratik proseslərin qarşısını alacağını, hakimiyyətin bir adamın əlində cəmləşdirilməsinin son dərəcə təhlükəli xarakter daşıyacağını irəlicədən görmüş və bunun digər hakimiyyət orqanlarının səlahiyyətlərini məhdudlaşdıracağını narahatlıqla bildirmişdir.

Bundan bir neçə gün sonra – oktyabrın 18-də prezident yuxarıda göstərilən Qanuna əsaslanaraq "Azərbaycan Res-

publikasının rayonlarında, şəhərlərində, şəhər rayonlarında, kəndlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında" fərman vermiş, bununla da demokratiyanın qarşısının alınmasına doğru daha bir addım atmışdır. Bu fərmanda prezident yerli dövlət hakimiyyəti və idarə orqanlarının təşkili və fəaliyyət qaydasını təkbaşına, elan və dərc olunmamış "Əsasnamə"yə istinad edərək həyata keçirir, icra hakimiyyətinin başçısını birbaşa təyin edir ki, bununla da xalq hakimiyyəti orqanlarının səlahiyyəti ciddi surətdə məhdudlaşdırılır.

Prezident bu qanunsuz fərmanı ilə qeyri-demokratik yolla hakimiyyətə gəlmiş mühafizəkar qüvvələrin – formal olaraq buraxılmış, lakin faktiki hakimiyyətdə saxlanılan Azərbaycan Kommunist Partiyası və onun yerli strukturlarının keçmiş rəhbərlərinin hakimiyyətini qanun pərdəsi arxasında reallaşdırmaq niyyəti güdmüşdür. Onun sonrakı fərmanları ilə Azərbaycanın bir çox rayonlarına icra hakimiyyəti başçılarının keçmiş rayon partiya komitələrinin birinci katiblərinin təyin edilməsi bunu bir daha sübut edir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi belə hesab edir ki, respublika prezidentinin "Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində, şəhər rayonlarında, kəndlərində və qəsəbələrində dövlət hakimiyyət orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında" fərmanı demokratiyanı boğmağa, həqiqi xalq hakimiyyəti strukturlarının fəaliyyətini dayandırmağa yönəldildiyinə və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının normaları ilə ziddiyyət təşkil etdiyinə görə, Naxçıvan Muxtar Respublikasının şəhər və rayon xalq deputatları Məclisi sessiyaları "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Qanunu və respublika prezidentinin 18 oktyabr

tarixli məlum fərmanını müzakirə edərək, bunların antidemokratik, antikonstitusiya mahiyyətini açıb göstərmiş, muxtar respublika seçicilərinin iradəsini ifadə edərək, həmin Qanun və Fərmanın muxtar respublika ərazisində tətbiqinin yolverilməzliyini qəti şəkildə bildirmiş və bu barədə Naxçıvan Muxtar Respublika Ali Məclisi qarşısında məsələ qaldırmışlar.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının prezidenti A.Mütəllibova qeyri-qanuni əlavə səlahiyyətlər verən "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının 8 oktyabr 1991-ci il tarixli Qanunu və "Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində, şəhər rayonlarında, kəndlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında" respublika prezidentinin 18 oktyabr 1991-ci il tarixli Fərmanı siyasi baxımdan mürtəce və antidemokratik xarakter kəsb edən, hüquqi cəhətdən konstitusiyaya zidd olan akt kimi pislənilsin.

2. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Muxtar Respublika əhalisinin iradəsini ifadə edərək Azərbaycan Respublikasının Ali Sovetindən qəti olaraq tələb edir ki, demokratiyanın boğulmasına yönəldilmiş hüquqi aktların qəbul edilməsinə birdəfəlik son qoysun. Bildirilsin ki, demokratiyaya zidd olan bu cür qərarlar Naxçıvan Muxtar Respublikası üçün qəbuledilməzdir.

3. Naxçıvan Muxtar Respublikası şəhər və rayon xalq deputatları Məclisi sessiyalarının qərarları nəzərə alınaraq, Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında həyata keçirilən demokratik prosesləri məhdudlaşdırdığı üçün və Naxçıvan Muxtar Respublika-

sının Konstitusiyasına zidd olan hüquqi sənəd kimi Azərbaycan Respublikası Prezidentinin 18 oktyabr 1991-ci il tarixli fərmanı Naxçıvan Muxtar Respublikası ərazisində tətbiq edilməsin.

4. Azərbaycan Respublikasının Ali Sovetindən xahiş olunsun ki, respublika prezidentinə əlavə səlahiyyətlər verən 8 oktyabr 1991-ci il tarixli Azərbaycan Respublikası Qanununa yuxarıda göstərilən səbəblərə görə yenidən baxılıb ləğv edilməsini təmin etsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
26 oktyabr 1991-ci il

Vətəndaşların siyasi əqidəsinə görə təqib olunmasına münasibət haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

1990-cı ilin yanvar ayında işğalçı sovet ordusunun qoşun hissələri Azərbaycan xalqına təcavüz etmiş, qanlı qırğınlar törətmiş, yüzlərlə adam həlak olmuşdur. Sovet İttifaqı Kommunist Partiyasının və Azərbaycan Kommunist Partiyası rəhbərlərinin bu cinayətlərdə bilavasitə iştirakına etiraz əlaməti olaraq minlərlə kommunist partiya biletindən imtina etmişdir. 20 Yanvar faciəsindən sonra müvəqqəti olaraq mövqeyini möhkəmlətmiş Azərbaycan Kommunist Partiyası və onun yerli strukturları, Naxçıvan Vilayət Partiya Komitəsi muxtar respublikada gedən demokratik başlanğıclara qarşı mənəvi və siyasi terroru daha da gücləndirmiş, partiya biletini təhvil verənləri əsassız olaraq təqib etmiş, partiya üzvlüyündən imtina edən rəhbər şəxsləri tutduqları vəzifədən azad etmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, insanın siyasi və şəxsi hüquqlarına qəsd edən hərəkətlərə etiraz edərək, bu kimi halların hüquqi və demokratik cəmiyyətdə yolverilməzliyi prinsipinə əsaslanaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Siyasi əqidəsinə və Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk etdiklərinə görə ayrı-ayrı vətəndaşların Azərbaycan Kommunist Partiyası və Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən təqib olunmaları qətiyyətlə pislənilsin, bu hərəkətlər demokratiyanın və insan hüquqlarının pozulması kimi qiymətləndirilsin.

2. Qeyd edilsin ki, demokratik təsisatlara uyğun olaraq, ictimai həyatın siyasiləşdirilməsi proseslərinin sürətləndirilməsi, azadfikirlilik, insan azadlığı, siyasi partiya və hərəkatların azad və müstəqil, muxtar respublikanın Konstitusiya tələblərini pozmayan, insan hüquqları haqqında beynəlxalq akta müvafiq gələn fəaliyyətləri bundan sonra Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən qorunur və müdafiə edilir.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, şəhər və rayon xalq deputatları məclislərinə tapşırılsın ki, siyasi əqidəsinə görə təqib edilən vətəndaşların pozulmuş hüquqlarının bərpa olunması üçün müvafiq tədbirlər görsün.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
26 oktyabr 1991-ci il

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası Referendumunun keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 15 noyabr 1991-ci il tarixli qərarı haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Ali Soveti 15 noyabr 1991-ci il tarixdə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası Referendumunun keçirilməsi haqqında" qərar qəbul etmiş və ümumxalq səsverməsinin keçirilməsini 29 dekabr 1991-ci ilə təyin etmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi və onun suveren dövlət kimi tanınması, beynəlxalq hüququn subyekti kimi fəaliyyət göstərməsi yolunda atılan hər bir addımı bəyənir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, üç ildən artıq müddət ərzində Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi yolunda xalqın demokratik qüvvələrinin mübarizəsi ciddi müqavimətlərlə qarşılaşmışdır. Belə ki, Sovet İttifaqı Kommunist Partiyasının mövqeyini müdafiə edən Azərbaycan Kommunist Partiyasının rəhbərliyi həmin mübarizənin qarşısını almağa uzun müddət cəhd etmiş, xalqın istəyinə zidd olaraq qeyri-real, antidemokratik siyasət yeritmişdir.

1988-1990-cı illərdə Azərbaycanda milli-azadlıq, müstəqillik, respublikanın ərazi bütövlüyünün qorunub saxlanması uğrunda, Dağlıq Qarabağ Muxtar Vilayətində Azərbaycanın əslində itirilmiş dövlət hakimiyyətinin bərpa

olunması məqsədilə mübarizəyə qalxan demokratik qüvvələr, geniş xalq kütlələri dəfələrlə respublika rəhbərliyi tərəfindən hüquq mühafizə orqanlarının, hərbi hissələrin vasitəsilə boğulmuş, repressiyalara məruz qalmışlar. Azərbaycan xalqına qarşı törədilmiş hərbi təcavüz, 1990-cı ilin yanvarın 20-də SSRİ Silahlı Qüvvələrinin böyük hissələrinin Bakı şəhərinə yeridilməsi məhz Azərbaycanın milli azadlığı, dövlət müstəqilliyi üçün mübarizə aparan demokratik qüvvələrin əzilməsinə yönəldilmişdi. Elə həmin məqsədlə də heç bir əsas olmadan 1990-cı ilin yanvarından 1991-ci ilin avqust ayının 30-na qədər Bakı şəhərində fövqəladə vəziyyət rejimi hökm sürmüşdür.

Fövqəladə vəziyyət şəraitində, 1991-ci ilin mart ayının 17-də Azərbaycanda Sovet Sosialist Respublikaları İttifaqının qorunub saxlanması haqqında Referendum keçirilmiş və müsbət nəticə elan edilmişdir. Çox qəribədir ki, SSRİ-nin qorunub saxlanması haqqında Ümumittifaq referendumunda Azərbaycan Respublikasının iştirakı barəsində məsələ Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında martın 7-də referendum gününə cəmi on gün qalanda müzakirə olunmuşdur. Demokratik fikirli deputatlar sessiyada SSR İttifaqının qorunub saxlanması haqqında Ümumittifaq referendumunda Azərbaycan Respublikasının iştirak etməsinin əleyhinə çıxdılar. Azərbaycanın dövlət müstəqilliyinə nail olmasını tələb etdilər. Ancaq Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təzyiqi, Mərkəzi Komitənin birinci katibi A.Mütəllibovun sessiyada məzmunsuz və əsassız çıxışının nəticəsində parlament deputatlarının mühafizəkar əksəriyyəti Azərbaycan Respublikasının referendumda iştirak etməsinə səs verdi.

Azərbaycan Kommunist Partiyasının və onun yerli strukturlarının rəhbərliyi və təzyiqi altında keçirilmiş referendumun nəticələri saxtalaşdırıldı. Azərbaycan Respublikası

Mərkəzi Seçki Komissiyasının məlumatına görə, SSR İttifaqının qorunub saxlanmasına referendumda iştirak edənlərin 93,3 faizi səs vermişdir. Beləliklə, Azərbaycan xalqı öz istəyinə və mənafeyinə zidd olan fakt qarşısında qoyulmuşdur.

Azərbaycan rəhbərliyinin özünü İttifaqdan ayrı təsəvvür edə bilməməsindən və taleyüklü məsələlərə İttifaq mövqeyindən yanaşmaq cəhdlərindən fərqli olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hələ 1990-cı ilin dekabrında keçirilən sessiyasında xalqın iradəsini ifadə edərək İttifaq müqaviləsini ciddi tənqid etmiş, Azərbaycan xalqının 1918-1920-ci illərdə fəaliyyət göstərmiş dövlət qurumunun – Azərbaycan Demokratik Cümhuriyyətinin hərbi yolla devrilməsini Şimali Azərbaycanın işğalı kimi qiymətləndirmiş və yeni ittifaqa daxil olmağı qeyri-məqbul hesab etmişdir.

Partiya orqanlarının təzyiqinə baxmayaraq, SSR İttifaqının saxlanması üzrə keçirilən referendumda Naxçıvan Muxtar Respublikası seçicilərinin cəmi 20 faizi iştirak etmişdir ki, bunların da əksəriyyəti muxtar respublika ərazisində xidmət edən hərbi qulluqçular və onların ailə üzvləri olmuşlar. Beləliklə, xalqın iradəsinə zidd olaraq keçirilən bu referendum muxtar respublika əhalisi tərəfindən boykot edilmişdir. Bununla əlaqədar Azərbaycan Respublikasının rəhbərliyi Naxçıvan Muxtar Respublikasına qarşı Azərbaycanda kütləvi informasiya vasitələrindən istifadə edərək böhtançı məlumatlar yaymış, mənfi ictimai rəy yaratmağa çalışmış, Naxçıvan Muxtar Respublikası əhalisinin SSRİ-nin qorunub saxlanması əleyhinə səs verməsini Naxçıvanın Azərbaycandan ayrılması meyli kimi qələmə vermişdir.

Məhz bu səbəbdən Muxtar Respublika Ali Məclisinin sədri işdən azad edilmiş, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin qərarı ilə Muxtar Respublika Konstitusiyası kobudcasına pozularaq, vilayət partiya komitəsinin

yenicə təyin olunmuş birinci katibi, eyni zamanda, Muxtar Respublika Ali Məclisinin sədri vəzifəsinə təyin olunmuşdur. Bunun nəticəsində Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi vəziyyət daha da kəskinləşmiş, beş aya qədər davam edən parlament böhranı yaranmışdır.

19-21 avqust dövlət çevrilişini müdafiə edən respublika rəhbərliyi xalqın artan təzyiqi ilə əlaqədar, eləcə də öz hakim mövqeyini qoruyub saxlamaq üçün 1991-ci il avqustun 30-da Ali Sovetin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" bəyannamə qəbul etməyə məcbur oldu. Bu bəyannamənin qəbul edilməsi və həmin gün Bakıda fövqəladə vəziyyət rejiminin ləğv olunması, sentyabrın 8-də Azərbaycanda keçiriləcək prezident seçkisini təmin etməyə yönəldilmişdi.

Qeyd etmək lazımdır ki, SSRİ-nin qorunub saxlanması ilə əlaqədar referendumun keçirilməsinə hər vasitə ilə çalışan Azərbaycanın kommunist rəhbərliyi 1991-ci il avqustun 30-da bəyannamə qəbul edilərkən, deputatlardan bir neçəsinin təkidinə baxmayaraq, ümumxalq səsverməsi yolu ilə xalqın iradəsini öyrənməyi lazım bilmədi. Nəticədə həmin bəyannamə ölkə və dünya ictimaiyyəti tərəfindən hüquqi və siyasi sənəd kimi qəbul edilmədi.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" bəyannamədə iki həftə ərzində "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının qəbul edilməsi nəzərdə tutulmuşdu. Lakin bu aktın qəbul edilməsi respublika rəhbərliyi tərəfindən naməlum səbəbə görə 48 gün, mətbuatda dərc edilməsi isə qanunsuz olaraq 20 gün yubadılmışdır.

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 18-də sessiyada "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı qəbul edərkən, bununla

əlaqədar respublika referendumu keçirilməsi barəsində qərar qəbul etməli idi. Lakin, yenə də məlum olmayan səbəbdən belə bir qərar qəbul edilmədi. Yalnız bir ay keçəndən sonra, 1991-ci il noyabrın 15-də Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası Referendumunun keçirilməsi haqqında" qərar qəbul etmişdir.

Bu mühüm və tarixi qərarların qəbul edilməsinin əsassız olaraq gecikdirilməsi Azərbaycan Respublikası Ali Sovetinin işində ciddi nöqsanların olduğunu, respublika rəhbərliyinin Azərbaycan Respublikasının dövlət müstəqilliyinə nail olmasına daxilən müqavimət göstərdiyini sübut edir.

Respublika rəhbərliyinin ikiüzlü, qeyri-ardıcıl siyasəti, vaxtında respublikanın real müstəqilliyi üçün əməli addımlar atmaması Qarabağın bütün ərazisində bu günədək Azərbaycanın hakimiyyətinin bərpa edilməməsinin əsas səbəblərindən biridir.

Belə bir cəhət də təəccüblü görünür ki, Azərbaycanın dövlət müstəqilliyi ilə əlaqədar qəbul edilən Konstitusiya aktına zidd olaraq respublika Prezidenti Azərbaycan Respublikasının bilavasitə müstəsna səlahiyyətinə aid olan bir sıra məsələləri keçmiş İttifaqın Dövlət Şurasının iştirakı ilə həll etməyə çalışmış, hərbi qüvvələrin vahid İttifaq rəhbərliyinə tabe edilməsinə razılığını bildirmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il sentyabrın 5-də qəbul olunmuş "Keçid dövründə SSR İttifaqının dövlət hakimiyyət və idarəetmə orqanları haqqında" SSRİ Qanununu müzakirə etmədən yeni yaranan SSRİ Ali Sovetində iştirak etmək üçün 27 deputat göndərilməsinə cəhd etmişdir. Yalnız demokratik fikirli deputatların ciddi müqaviməti nəticəsində bunun qarşısı alınmışdır.

Siyasi proseslərin bu cür qorxulu və ziddiyyətli gedişi respublika rəhbərliyinin Azərbaycanın müstəqilliyi haqqında

Konstitusiya aktı qəbul ediləndən sonra da müstəqil siyasi xətt yeridəcəyinə heç bir təminat vermir.

SSR İttifaqının saxlanılması ilə əlaqədar keçirilmiş referendumda və digər seçki kampaniyalarında ciddi saxtakarlığa yol vermiş, bununla da mənəvi hüququnu itirmiş Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında referendum keçirilməsinin tapşırılması yolverilməzdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Qeyd olunan tənqidi müddəalara baxmayaraq "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə əlaqədar 1991-ci il dekabrın 29-da Naxçıvan Muxtar Respublikasında referendum keçirilsin.

2. 1991-ci il martın 17-də SSR İttifaqının qorunub saxlanması ilə əlaqədar Azərbaycan Respublikasında keçirilmiş referendumun nəticələri saxtalaşdırılmış hesab olunsun və onların ləğv edilməsi üçün qərar verilməsi Azərbaycan Respublikası Ali Sovetindən xahiş edilsin.

3. SSR İttifaqının qorunub saxlanması ilə əlaqədar Referendumun keçirilməsində, digər seçkilərdə ciddi qanun pozuntularına yol verdiyinə görə mənəvi hüququnu itirmiş Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına etimadsızlıq göstərilsin.

Azərbaycan Respublikası Ali Sovetindən xahiş edilsin ki, Respublika Mərkəzi Seçki Komissiyasını buraxsın.

4. Naxçıvan Muxtar Respublikası üzrə Mərkəzi Seçki Komissiyası, rayon, şəhər seçki komissiyaları buraxılsın və üç gün müddətində yeni tərkibdə seçki komissiyaları təşkil edilsin.

5. Azərbaycan Respublikası Ali Sovetinin deputatlarının əksəriyyəti Kommunist Partiyasını təmsil edir və xalqın

taleyüklü məsələlərinin həllində kobud səhvlərə yol verirlər, bütövlükdə Ali Sovet öz vəzifəsinin öhdəsindən gələ bilmir. Buna görə Azərbaycan Respublikasının Ali Sovetinin buraxılması tələb olunsun və demokratiya əsasında yeni seçkilər keçirilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
5 dekabr 1991-ci il

Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyəti haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, xalq deputatlarının bir çoxunun çıxışlarında muxtar respublikanın Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyətində ciddi nöqsanlar olduğu, muxtar respublikadakı ictimai-siyasi vəziyyətin qiymətləndirilməsində Dövlət Təhlükəsizlik Komitəsinin antidemokratik, antihumanist mövqe tutması haqqında konkret faktlar və dəlillər göstərilmişdir. Qeyd edilmişdir ki, son illər Dövlət Təhlükəsizlik Komitəsi Naxçıvanda gedən demokratik proseslərə qarşı fəal əks tədbirlər aparmış, onların boğulması üçün ciddi fəaliyyət göstərmiş, ictimai-siyasi hadisələr haqqında yuxarı instansiyalara yanlış məlumatlar vermiş, demokratik hərəkatın ayrı-ayrı nümayəndələrinə qarşı repressiya tədbirlərində iştirak etmişdir.

Bununla yanaşı, tam qətiyyətlə israr etmək olar ki, Dövlət Təhlükəsizlik Komitəsi muxtar respublikada təhlükəsizliyi təmin etmək sahəsində üzərinə düşən birbaşa vəzifələrinin yerinə yetirilməsinə hədsiz dərəcədə məsuliyyətsiz yanaşmışdır.

SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin orqanları Azərbaycan xalqının milli mənafeyinin ziddinə olaraq, mərkəzin imperiya siyasətini dönmədən və ardıcıl surətdə həyata keçirmişlər.

Ali Məclis qeyd edir ki, Azərbaycan Respublikasının Ali Soveti 1 noyabr 1991-ci il tarixdə "Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinə çevrilməsi haqqında" qanun qəbul edərkən ciddi səhvə yol vermiş, Azərbaycan Respublikası DTK-nın fəaliyyətinə, onun respublikada gedən demokratik proseslərə qarşı çirkin, xalqa zidd roluna siyasi qiymət verməmişdir. Məlum olmayan səbəblərdən Ali Sovet 1990-cı ilin 20 yanvarında Azərbaycan xalqına qarşı həyata keçirilən və çoxlu insan tələfatları ilə nəticələnən hərbi təcavüzdə Azərbaycan DTK orqanlarının nə dərəcədə iştirak etdiyini və təqsirini müəyyən etməyi vacib saymamış, DTK-nın ictimaiyyətə məlum olan terrorçu hərəkətlərdə iştirakı haqqında faktları aydınlaşdırmamışdır.

Bütün bunları nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır**:

1. Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyəti Naxçıvan Muxtar Respublikasının bütün ərazisində dayandırılsın. Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyəti yoxlanılsın. Naxçıvan Muxtar Respublikasında dövlət təhlükəsizliyinin təmin edilməsi üçün yeni struktur-

ların yaradılması məqsədəuyğunluğu müəyyən edilsin. Bu məsələlərin həll edilməsi üçün yaradılan komissiyaya tapşırılsın ki, 10 gün müddətində görülən işlər haqqında məlumat və müvafiq təkliflərini təqdim etsin.

Azərbaycan Xalq Cəbhəsinə, onun Naxçıvan şöbəsinə, demokratik partiyalara və qurumlara, muxtar respublika vətəndaşlarına müraciət edilsin ki, Naxçıvan Muxtar Respublikası DTK-nın və onun yerli orqanlarının demokratiyaya, xalqa və hüquqa zidd fəaliyyəti haqqında onlara məlum olan faktları komissiyaya bildirsinlər.

2. İsfəndiyar İsa oğlu Mirzəyev Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsindən azad edilsin.

3. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi adlandırılan Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyətinin dayandırılması haqqında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilsin. Azərbaycan Respublikası DTK-nın fəaliyyətinin əsaslı surətdə yoxlanılması zəruri hesab edilsin. Bu orqanın respublikada demokratik proseslərin inkişafı illəri ərzindəki fəaliyyəti xüsusi araşdırılsın. Son illərdə Azərbaycan xalqının başına gətirilən faciələrdə Azərbaycan DTK, SSRİ DTK-nın təqsirlərinin müəyyən edilməsi vacib bilinsin. Bunların nəticələri haqqında ictimaiyyətə məlumat verilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
15 dekabr 1991-ci il

31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, uzun əsrlik tarixə malik olan Azərbaycan türkləri öz inkişafının müxtəlif mərhələlərində dəfələrlə xarici istilaya məruz qalmış, onun ərazisi zəbt edilmiş və parçalanmış, dövlət müstəqilliyi və istiqlaliyyəti əlindən alınmışdır. Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri ilə Azərbaycan türkləri və onun tarixi ərazisi bir daha parçalanaraq, Rusiya ilə İran dövlətləri arasında mənafe dairələrinə bölünmüşdür.

Lakin dəfələrlə tarixi ədalətsizliyə məruz qalsa da, iqtisadi, siyasi və mədəni bütövlüyü, milli dövlət qurumu ləğv edilsə də, Azərbaycan türkləri müstəqillik və bütövlük yolunda mübarizəsini dayandırmamış, iyirminci yüzilliyin əvvəllərində yaranmış mürəkkəb tarixi şəraitdə öz müstəqilliyini bərpa etmək yolunda mühüm addımlar atmışlar. İmperiya zülmündən azad olan Quzey Azərbaycan türkləri 1918-ci il mayın 28-də dövlət müstəqilliyi qazanaraq öz tarixi ərazisində milli dövlət qurumunu – Azərbaycan Demokratik Cümhuriyyətini təşkil etdilər. Çox keçmədən Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü yeni təcavüzə – bolşevik Rusiyasının silahlı müdaxiləsinə məruz qaldı. Beləliklə, qanuni seçilmiş hakimiyyət orqanı zorakılıqla devrildi və Azərbaycan türklərinin çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoyuldu. Azərbaycanın quzeyi 1804-

1828-ci illərdə olduğu kimi yenidən Rusiya tərəfindən ilhaq edildi. Xalqın demokratik və istiqlalçı qüvvələrinin əksəriyyəti repressiyaya məruz qaldı, bir qismi isə mühacirət etməyə məcbur oldu.

Sovet imperiyası tərkibinə qatıldığı 70 il ərzində Azərbaycana qarşı müstəmləkəçilik siyasəti yeridilmiş, Azərbaycan türkləri təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalmışlar. İmperiya siyasəti dünya türklərini bir-birindən təcrid etmək məqsədilə pantürkizm məfhumunu şərq aləmində təhlükəli bir ideya kimi təbliğ edərək, dünya türklərinin və o cümlədən Sovetlər İttifaqında yaşayan türklərin arasında əlaqələrin məhdudlaşmasına, kəsilməsinə cəhd göstərmişdi. Bu siyasətin təzahürü kimi qanunsuz çəkilən sərhəd çəpərləri Azərbaycan türklərini ikiyə parçaladı. Bütün bunlara baxmayaraq Azərbaycan türkləri milli dövlət quruculuğu, milli və mənəvi bütövlük, müstəqillik uğrunda mübarizəni davam etdirmişlər.

Son illərdə xalqın milli özünüdərki güclənmiş, ictimai həyatın demokratikləşməsi istiqamətində genişlənən xalq hərəkatı zəminində muxtar respublikada milli ziyalıları və demokratik qüvvələri vahid milli birlik və müstəqillik ideyası uğrunda mübarizə ətrafında birləşdirən siyasi dərnəklər və ictimai birliklər yaranmışdır. Azərbaycan Xalq Cəbhəsi Naxçıvan vilayət şöbəsinin 1989-cu ilin noyabrında keçirilən məclisi xalqın iradəsini bir daha ifadə edərək zorakılıqla ikiyə bölünmüş Güney və Quzey Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhəd çəpərlərinin götürülməsi və mühəndis-texniki qurğuların sökülməsi haqqında qərar qəbul etdi.

Sovet İttifaqı Kommunist Partiyası, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitələri və onların yerli orqan-

ları, ölkənin sərhəd qoşunlarının rəhbərliyi buna mane olmaq üçün bütün hərbi – siyasi təsir vasitələrinə əl atdılar. Lakin buna baxmayaraq Azərbaycan Xalq Cəbhəsi Naxçıvan vilayət şöbəsi ardıcıl olaraq "Sərhəd hərəkatı" adı ilə bir sıra siyasi aksiyalar həyata keçirdi. Genişlənən demokratik hərəkatın nəticəsində SSRİ-nin dövlət sərhədi boyunca çəkilən sərhəd çəpərləri elliklə söküldü. İlk dəfə olaraq Arazın o tayında olan qohumların, həmvətənlərin ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi. Beləliklə, 1989-cu il dekabrın 31-i dünya Azərbaycan türklərinin həmrəyliyi bayramına çevrildi, 1990-cı ildə isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi.

Naxçıvan Muxtar Respublikasından başlanıb, Azərbaycanın digər sərhəd rayonlarına da keçən bu ümumxalq hərəkatına imperiya və hegemonluq mövqeyindən yanaşan SSRİ-nin və Azərbaycanın kommunist rəhbərliyi, hərbi dairələr qara yaxaraq onu antidemokratik, bir qrup ekstremistin və cinayətkar ünsürün əməli kimi qiymətləndirib, dünya ictimaiyyətinin gözündən salmağa çalışırdılar. Bu məqsədlə əsassız olaraq sərhəd zonasında fövqəladə vəziyyət rejimi yaradıldı. Sərhəd hərəkatı ilə bağlı kommunist rəhbərlərin göstərişinə əsasən xalq cəbhəsi üzvlərinə qarşı repressiya daha da gücləndi, onlardan bir neçəsi əsassız həbs olundu, işdən çıxarıldı, bir çox yerlərdə sökülmüş sərhəd çəpərləri bərpa olundu.

Kommunist ruhlu kütləvi informasiya vasitələri var gücü ilə sərhədlərin sökülməsini vəhşilik adlandırdı, nəyin bahasına olursa-olsun xalqın iradəsini, inamını qırmağa cəhd göstərdilər. Lakin qonşu ölkələrin, dünyanın müxtəlif yerlərində yaşayan Azərbaycan türklərinin, ümumən türk dünya-

sının bu prosesə parçalanmış xalqların təbii birləşmə meyli kimi baxması və müdafiə etməsi, onu ölkədə və dünyada gedən demokratik proseslər mövqeyindən qiymətləndirməsi xalqımıza qarşı yönəldilmiş mürtəce təbliğatın qarşısını qismən aldı. 1990-cı ilin noyabr ayının 3-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan Türk dərnəkləri qurultayı isə Naxçıvan Muxtar Respublikasından başlanmış sərhəd hərəkatının real nəticəsi kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. Noyabr ayının 5-də qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il geniş qeyd edilməsi zərurəti irəli sürüldü.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü elan olunsun və hər il bayram edilsin. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin.

2. 31 dekabrın Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilsin.

3. Naxçıvan Muxtar Respublikasının şəhər və rayon Məclislərinə tapşırılsın ki, bayram günləri demokratik təşkilatların iştirakı ilə təntənəli mərasimlər hazırlayıb həyata keçirsinlər.

4. Akad. Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə, Azərbaycan EA Naxçıvan şöbəsinə, Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan vilayət şöbəsinə, Xalq Təhsili Nazirliyinə tapşırılsın ki, 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik gününə həsr olunmuş elmi konfrans keçirsinlər.

5. Sərhəd çəpərlərinin bərpa edilməsi qanunsuz hesab edilsin və onların ləğv edilməsini təmin etmək üçün deputat komissiyası yaradılsın.

Bu qərarın dünya Azərbaycan türklərinə çatdırılması təmin edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
16 dekabr 1991-ci il

"Naxçıvan Muxtar Respublikasında yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 oktyabr 1991-ci il tarixli qərarının icra vəziyyəti barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisi 26 oktyabr 1991-ci il tarixdə keçirilən sessiyasında Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında məsələ müzakirə etmiş, bu məsələnin hərtərəfli öyrənilməsi və təhlili, yerli hakimiyyət orqanları ilə hərbi hissələrin qarşılıqlı əlaqəsinin təkmilləşdirilməsi, yerli əhali ilə hərbçilər arasındakı münaqişələrin qarşısını almaq sahəsində tədbirlər hazırlanması məqsədi ilə xüsusi komis-

siya yaratmış, Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən sərhəd məntəqələrinin 41-ci sərhəd dəstəsinə tabe edilməsi haqqında qərar qəbul etmişdir.

Həmin sessiyadan keçən müddət ərzində Zaqafqaziya hərbi dairəsi tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən sərhəd zastavalarının hamısı 41 nömrəli Naxçıvan sərhəd dəstəsinə tabe edilsə də, hərbi hissələrin statusunun müəyyənləşdirilməsi məsələsi tam həllini tapmamışdır.

Qeyd etmək lazımdır ki, ölkədə son vaxtlar ciddi dəyişikliklər baş vermiş, İttifaqa daxil olan respublikaların bir çoxu özünü müstəqil dövlət elan etmişlər. Rusiya, Ukrayna və Belarus Minsk şəhərində müstəqil slavyan dövlətləri birliyi yaradaraq Sovet İttifaqının dağılmasını bəyan etmişlər. Vahid SSR İttifaqının dağılması onun vahid silahlı qüvvələrinin də bölünməsi məsələsini ortaya çıxarmışdır. Müstəqil dövlətlərin bir neçəsi ərazilərində yerləşən SSRİ silahlı qüvvələri hissələrinin yalnız onların ali hakimiyyət orqanlarına tabe olması haqqında qərar qəbul etmişlər.

Yaranmış şəraitdə Azərbaycan Respublikası Ali Soveti milli ordunun yaradılmasını qərara almış, Azərbaycan hökuməti isə 16 oktyabr 1991-ci il tarixdə "Azərbaycan Respublikası silahlı qüvvələri haqqında" 225 №-li sərəncam vermişdir. Həmin sərəncamda göstərilmişdir ki, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, ərazilərində SSRİ Müdafiə Nazirliyinin, SSRİ Daxili İşlər Nazirliyinin, SSRİ DTK-nın birləşmələri, hissələri, sərhəd, dəmiryol qoşunları və s. yerləşən rayon və şəhərlərin xalq deputatları Sovetlərinin icraiyyə komitələri Azərbaycan Respublikası Nazirlər Kabineti komissiyasının xüsusi icazəsi olmadan öz bölgələrinin

hüdudlarından kənara hərbi texnika, avadanlıq, silah və digər hərbi əmlak aparılmasına yol verməsinlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi belə hesab edir ki, İttifaqın dağılması və Zaqafqaziyada müstəqil dövlətlərin yaranması ilə əlaqədar olaraq Zaqafqaziya hərbi dairəsi öz mövqeyini müəyyən etməli, bu dövlətlərdə yerləşən hərbi hissələrin yerləşdikləri ərazilərdən çıxarılması və yaxud onların ali hakimiyyət orqanlarına tabe etdirilməsi məsələsi həll edilməlidir.

Göstərilənlərə əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisi muxtar respublika ərazisində yerləşən hərbi hissələrin statusunun dəqiqləşdirilməsini, həmin hissələrin Naxçıvan Muxtar Respublikasında qalmalarının məqsədəuyğunluğunun araşdırılmasını və muxtar respublikanın ali hakimiyyət orqanlarına tabeçilik məsələsinin həll edilməsini zəruri hesab edir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır**:

1. 41 №-li Naxçıvan sərhəd dəstəsinin komandiri deputat Jukovun Zaqafqaziya dairəsi sərhəd qoşunları komandanlığının Azərbaycan Respublikası, o cümlədən Naxçıvan Muxtar Respublikası hakimiyyət orqanları ilə Azərbaycanda və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sərhəd qoşun hissələrinin bundan sonrakı statusunu müəyyən etmək məqsədilə yaxın vaxtlarda əlaqə yaradacağı nəzərə alınsın.

2. Ali Məclisin sessiyasının 26 oktyabr tarixli iclasında yaradılmış, Ali Məclisin sədr müavini Qafar Məmmədovun başçılıq etdiyi xüsusi komissiyaya tapşırılsın ki, 75 №-li mexanikləşdirilmiş motoatıcı diviziyasının komandanı R.Slaboşeviç və digər hərbi hissələrin rəhbərləri ilə birgə müstəqil Azərbaycan dövlətinin ayrılmaz hissəsi olan Naxçıvan

Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələrin statusu haqqında 10 gün müddətində konkret təkliflərini müəyyən edib Ali Məclisə təqdim etsinlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
16 dekabr 1991-ci il

Keçmiş SSRİ-nin silahlı qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki hissələrinin statusunun müəyyən edilməsi və onların yerli dövlət hakimiyyət orqanları ilə qarşılıqlı fəaliyyəti ilə bağlı bir sıra məsələlər haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, Rusiya, Ukrayna və Belarus müstəqil slavyan dövlətləri İttifaqı haqqında Brestdə bağlanmış sazişdən və Müstəqil Dövlətlər Birliyi haqqında müqavilə imzalamış on bir respublikanın dövlət başçılarının 1991-ci il dekabrın 21-də Almatı şəhərində görüşündən sonra SSRİ vahid bir dövlət kimi ləğv olunmuşdur. M.Qorbaçov 1991-ci il 25 dekabr tarixli bəyanatında SSRİ prezidenti kimi öz fəaliyyətinə son qoyulmasını elan etmişdir. Lakin 1991-ci il 21 dekabrda Almatıda imzalanmış sənəddə keçmiş SSRİ-nin

silahlı qüvvələrinin dövlət hüququ baxımından bundan sonra mövcud olub-olmayacağı dəqiq müəyyən edilməmişdir.

1991-ci il 30 dekabrda Birlik üzvü olan on bir müstəqil dövlət başçısının Minskdə keçirilmiş görüşündə də bu məsələ aydınlaşdırılmamışdır. Məlumdur ki, müttəfiq respublikaların ərazisində yerləşən keçmiş SSRİ-nin silahlı qüvvələrinin statusu haqqında məsələ getdikcə daha mürəkkəb xarakter kəsb etmişdir. Bir sıra müttəfiq respublikalar hələ SSRİ-nin dağılmasından xeyli qabaq dövlət müstəqilliklərini elan edərək, ərazilərində yerləşən Sovet silahlı qüvvələri hissələrinin onlara məxsus olması haqqında bəyanat vermişlər. Azərbaycan Nazirlər Kabineti 1991-ci il 16 oktyabrda "Azərbaycan Respublikasının silahlı qüvvələri haqqında" sərəncam vermişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi göstərilənlərə əsaslanaraq və ölkədə siyasi proseslərin ehtimal olunan nəticələrini nəzərə alaraq 1991-ci il 26 oktyabrda "Naxçıvan Muxtar Respublikasında yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında" qərar qəbul etmiş və bu məqsədlə xüsusi komissiya yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 14-16 dekabrda keçirilmiş sessiyasında keçmiş SSRİ-nin silahlı qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki hissələrinin statusunun müəyyən edilməsi haqqında məsələ yenidən müzakirə olunmuş və müvafiq tapşırıqlar verilmişdir. Lakin Ali Məclisin 1991-ci il 26 oktyabrda yaradılmış komissiyasının (sədr Q.Məmmədov) lazımi səviyyədə fəaliyyət göstərməməsi, silahlı qüvvələr hissələrinin komandanlığının səhv hərəkətlərinin, gözləmə mövqeyi tutmasının nəticəsində bu məsələlər həll olunmamışdır. Azərbaycan Respublikasının siyasi rəhbərliyinin göstərilən məsələlərlə əlaqədar qeyri-müəyyən, qeyri-ardıcıl və bəzən anlaşılmaz mövqeyi respublikanın həyatında müasir mərhələdə mühüm əhəmiyyətə

malik olan problemin həllinə imkan vermir. Eyni zamanda, muxtar respublika ərazisindəki silahlı qüvvələrin hissələri və yerli əhali arasında münasibətlər daha da mürəkkəbləşir. Hərbi hissələrin ayrı-ayrı nümayəndələri tərəfindən respublikanın dövlət qanunlarına və qaydalarına, milli adət və ənənələrə hörmətsizlik və etinasızlıq, həmçinin bəzi yerli sakinlər tərəfindən hərbi qulluqçuların şərəf və ləyaqətinin təhqir edilməsi, hərbi hissələrə məxsus olan avtomaşınların oğurlanması faktları mövcuddur.

Ayrı-ayrı hərbi bölmələrin komandanlığının qanunsuz hərəkətləri muxtar respublikadakı vəziyyəti daha da kəskinləşdirir. Belə ki, respublikanın müxtəlif rayonlarına heç bir ehtiyac olmadan hərbi qulluqçuların böyük silahlı dəstələri çıxarılır, yerli dövlət hakimiyyət orqanlarından xəbərsiz avtomobil və hava nəqliyyatı vasitəsilə gəliş-gediş, hərbi sursatın daşınması əməliyyatları həyata keçirilir.

31 dekabrda – Azərbaycan türklərinin həmrəyliyi və birliyi bayram edilən gün dövlət sərhəddi boyunca bəzi sahələrə 41-ci sərhəd dəstəsi komandanlığının silahlı sərhədçilər və gözətçi itlər çıxarmasını heç cür izah etmək və bu hərəkətə bəraət qazandırmaq olmaz.

Cəhri kəndi yaxınlığında yerləşən hava hücumundan müdafiə batalyonu komandanlığının orada olan bütün hərbi sursat və təsərrüfat əmlakının tamamilə talan edilməsi ilə nəticələnən hərəkəti hiddət doğurur. Göstərilən hərbi obyektə heç bir aidiyyəti olmayan 75-ci mexanikləşdirilmiş motoatıcı diviziyanın bir dəstə silahlı hərbi qulluqçusu da bu talanda iştirak etmişdir.

Yuxarıda göstərilənlərə əsalanaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının ərazisindəki bütün yeraltı və yerüstü sərvətlərin Azərbaycan xalqının, muxtar

respublika əhalisinin milli sərvəti olduğunu əsas tutaraq Ali Məclis qeyd edir ki, muxtar respublika ərazisində yerləşən silahlı qüvvələr hissələrinin bütün hərbi və təsərrüfat tikililəri, əmlakı, silahları və hərbi sursatları, hərbi və mülki texnikası Naxçıvan Muxtar Respublikasına məxsusdur.

Hərbi hissələrin komandanlıqları yuxarıda göstərilənlərin hamısı, sərəncamlarında olan hər bir şey haqqında beş gün müddətində muxtar respublika Ali Məclisinə yazılı məlumat təqdim etməli və Ali Məclisin icazəsi olmadan respublika ərazisindən, hərbçilərin şəxsi əşyaları istisna olmaqla, heç bir şey aparmamalıdırlar.

2. Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrin komandanlıqları onların muxtar respublika ərazisində bundan sonra qalmalarının hüquqi statusu haqqında öz təkliflərini on gün müddətinə Ali Məclisə təqdim etsinlər. Ali Məclisin 1991-ci il 26 oktyabrda yaradılmış komissiyası (Q.Məmmədov) bütün bu məsələlərə baxsın və Ali Məclisin müzakirəsinə versin. Bu məsələlər qəti həll olunanadək muxtar respublika ərazisində yerləşən silahlı qüvvələrin bütün hissələri bundan sonra muxtar respublika Ali Məclisinə tabe olmalı, prinsipial məsələlərdə fəaliyyətlərini Ali Məclis ilə razılaşdırmalıdırlar.

3. Q.Məmmədovun sədrliyi ilə yaradılan komissiyaya tapşırılsın ki, hərbi hissələrin nümayəndələri və ayrı-ayrı yerli sakinlər arasında münaqişəli hallar haqqında bütün məlumatları yoxlayıb, onlar barəsində zəruri tədbirlər görsün və nəticələri haqqında Ali Məclisə məlumat versin.

Şərur rayonunda magistral şosse yolunda təşkil edilmiş yoxlama-nəzarət məntəqələrinin nə dərəcədə zəruri və əsaslı olması məsələsinə baxılsın.

Cəhri kəndi yaxınlığında yerləşən hava hücumundan müdafiə batalyonu komandanlığının hərbi və təsərrüfat

əmlakının tamamilə talan edilməsi ilə nəticələnən hərəkətləri haqqında daxil olmuş məlumatlar təcili yoxlanılsın. Yoxlamanın nəticələri haqqında Ali Məclisə məlumat verilsin.

4. Naxçıvan Muxtar Respublikası prokuroru (H.Hüseynov), Naxçıvan qarnizonunun hərbi prokuroru (V.Voytenko) Ali Məclisin Rəyasət Heyətinin iclasında podpolkovnik S.Sikorskinin göstərdiyi faktlar üzrə təhqiqat aparsınlar.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
2 yanvar 1992-ci il

1990-cı İLİN YANVAR AYINDA BAKI FACİƏSİ İLƏ ƏLAQƏDAR NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN BƏYANATI

İki il bundan əvvəl Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmiş, xalqın milli mənliyi və qüruru təhqir olunmuşdur. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet Ordusunun xüsusi təyinatlı cəza dəstələri, Hərbi Dəniz Donanmasının və Daxili Qoşunların bölmələri qəflətən Bakı şəhərinə yeridilmiş, qanlı qırğın törədilmiş, dinc əhaliyə qarşı misli görünməmiş vəhşiliklər edilmişdir.

Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu hərbi təcavüz nəticəsində yüzlərlə günahsız insan, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yaralanmış və itkin düşmüşdür.

Bakı faciəsi ilə eyni zamanda Azərbaycanın ayrı-ayrı rayonlarında da demokratik qüvvələrə divan tutulmuş, Naxçıvan Muxtar Respublikası Sovet Ordusunun himayəsi ilə erməni təcavüzünə məruz qalmış, Kərki kəndi işğal və ilhaq edilmişdir.

Acınacaqlı olsa da, qeyd edilməlidir ki, bu qanlı faciələr imperiya qüvvələri ilə Azərbaycanın xalqa xəyanət yolu tutmuş kommunist rəhbərliyi tərəfindən birgə həyata keçirilmişdir.

Hakim mövqeyini saxlamaq üçün öz xalqına qarşı çoxminli qoşun kontingentinin təcavüzünü təşkil edən respublika rəhbərliyi qanlı yanvar faciəsinə indiyədək siyasi qiymət verməmiş, xalqın tələbinə baxmayaraq, günahkarları üzə çıxarmaq üçün bu günə qədər heç bir tədbir görməmişdir.

Heç də təəccüblü deyildir ki, 1990-cı il yanvarın 22-də çağırılmış Azərbaycan SSR Ali Sovetinin yanvar hadisələrinə qiymət verməli olan sessiyası öz işini dayandırmış, sonradan onu davam etdirmişdir.

1990-cı il yanvarın 20-dən Bakıda hüquqi əsası olmadan tətbiq edilmiş fövqəladə vəziyyət rejimi demokratik qüvvələrin təkidinə baxmayaraq, uzun müddət hökm sürmüş, yalnız 1991-ci il avqust ayının 30-da Azərbaycan Prezidenti seçkilərinə bir həftə qalmış ləğv edilmişdir.

Respublika Ali Sovetinin yanvar faciəsini təhqiq etməli olan deputat komissiyası (komissiyanın sədri Azərbaycan Respublikasının indiki dövlət katibi M.Abbasovdur) Azərbaycan xalqının həyatında baş vermiş bu dəhşətli faciəyə siyasi qiymət verilməsinə təşəbbüs göstərməmiş, bu cinayəti törədən ittifaq və respublika partiya rəhbərlərini, hüquq mühafizə orqanları işçilərini, imperiya ordusu cəlladlarını məsuliyyətə cəlb etmək üçün heç bir iş görməmişdir.

Bütün bunlar bir daha təsdiq edir ki, respublika rəhbərliyi yanvar faciəsinin açılmasının qəti əleyhinədir və özünün

bu qanlı cinayətdəki rolunu cürbəcür yolverilməz vasitələrlə ört-basdır etməyə çalışır.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hələ 1990-cı il noyabr ayının 21-də öz qərarı ilə Bakıda törədilən faciələri respublikada gedən demokratik proseslərə qəsd, dəqiq düşünülmüş hərbi təcavüz, Azərbaycan Respublikasının suveren hüquqlarını, ümumiyyətlə insan hüquqlarını pozan hərəkət kimi qiymətləndirmiş və ittiham etmişdir. Həmin qərarda bu siyasi və hərbi qəsd üçün bilavasitə cavabdeh olan M.Qorbaçovun, həmin müddətdə Bakıda olan Sov.İKP MK katibi A.Girenkonun, SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakovun, SSRİ müdafiə naziri D.Yazovun, SSRİ daxili işlər naziri V.Bakatinin, Sov.İKP MK-nın məsul işçisi A.Mixaylovun, eləcə də respublika rəhbərliyi – Azərbaycan KP MK-nın keçmiş birinci katibi Ə.Vəzirovun, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri E.Qafarovanın, Azərbaycan SSR Nazirlər Sovetinin o zamankı sədri A.Mütəllibovun, Azərbaycan KP MK-nın büro üzvlərindən V.Polyaniçkonun, M.Məmmədovun, V.Hüseynovun məsuliyyət daşıdıqları göstərilmişdir.

Həmçinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycanın ali hakimiyyət orqanının Bakı faciələrinə siyasi qiymət vermədiyinə, bununla əlaqədar yaradılmış xüsusi deputat komissiyasının öz işini başa çatdırmadığına, qanlı hadisələrin günahkarlarını aşkara çıxarmadığına və məsuliyyətə cəlb olunmadıqlarına qəti etirazını bildirmiş, Azərbaycan SSR Ali Sovetindən tələb etmişdir ki, ən qısa müddətdə həmin məsələni müzakirəyə çıxarsın. Lakin 1990-cı ilin noyabr ayında irəli sürülən həmin tələbə bu günədək baxılmamışdır. Beləliklə, açıq təcavüzə məruz qalan Azərbaycan xalqı bu işdə təqsiri olan respublikanın ali hakimiyyət orqanının və bir qrup vəzifəli şəxsin xalqa zidd mövqeyi ucbatından öz övladlarının qatillərini ittiham və mühakimə etmək imkanından məhrum olmuşdur.

Azərbaycanın dövlət müstəqilliyi elan olunandan sonra da, hətta qanlı yanvar faciəsinin 2-ci ildönümü qarşısında bu faciəyə siyasi qiymət verilməməsi bağışlanmazdır və təbii olaraq respublikada gərginliyi artırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti tələb edir ki, yol verilmiş tarixi ədalətsizlik aradan qaldırılsın, Azərbaycan xalqının günahsız övladlarının qatilləri aşkar edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
13 yanvar 1992-ci il

Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyinin təsis edilməsi haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyi təsis edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
24 fevral 1992-ci il

AZƏRBAYCANA BAĞLI NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ TÜRKİYƏ CÜMHURİYYƏTİ ARASINDA ƏMƏKDAŞLIQ

P R O T O K O L U

Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1992-ci il martın 22-dən 24-dək Türkiyəni ziyarət etmişdir.

Bu ziyarət zamanı təşkil edilmiş görüşlərdə, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında mövcud dostluq, əməkdaşlıq və yaxşı qonşuluq müqaviləsi, iki ölkə Xarici İşlər Nazirlikləri arasındakı əməkdaşlıq protokolu və Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasındakı tarixi və mədəni qardaşlıq əlaqələri göz önünə alınaraq hər sahədə daha yaxşı əməkdaşlıq təşkil edilməsi məqsədi ilə aşağıdakı xüsuslarda razılığa gəlinmişdir.

1. Türkiyə Cümhuriyyəti hökuməti Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı, sənaye, qida və istehlak malları, nəqliyyat, telekommunikasiya, tikinti və turizm kimi sahələrdəki zəruri ehtiyaclarını təmin etmək üçün bütünlükdə 100 milyon dollarlıq bir kredit təsis edəcək.

2. Naxçıvan Muxtar Respublikası bu kreditin həyata keçirilməsi üçün ehtiyac zərurətlərinə görə hazırlayacağı və kredit hissələrinin istifadə edilmə proqramını təsbit edən layihələrini Türkiyə tərəfinə təqdim əsasında lazım olan maliyyə məsələlərinin həlli iki tərəfin texniki məsul şəxsləri ilə müəyyən ediləcək.

3. Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasındakı enerji xətləri ən qısa vaxtda yaradılacaq, Naxçıvan Muxtar Respublikası Türkiyənin elektrik sisteminə daxil ediləcək.

4. Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu və avtomaşın yolu şəbəkəsinin təsis edilməsi üçün davam edən işlər sürətləndiriləcək və körpü tikintisi ən qısa vaxtda bitiriləcək.

5. TRT İdarəsinin televiziya verilişlərinin Naxçıvan Muxtar Respublikasında rahatca seyr edilə biləcək vəziyyətə gətirilməsi üçün Türkiyə tərəfi lazımi tədbirləri sürətlə həyata keçirəcəkdir. Ayrıca Naxçıvan tərəfindən tələb edildikdə TRT İdarəsi proqramlar verəcək.

6. Türkiyə Cümhuriyyəti Naxçıvan Muxtar Respublikası ilə avtomaşın və dəmir yollarına əlavə olaraq hava xəttini ən qısa vaxtda həyata keçirəcək.

7. Telekommunikasiya sahəsində Naxçıvan Muxtar Respublikasının zəruri ehtiyaclarının təmin edilməsi, telefon, faks, teleks kimi xəbər sistemlərinin ən qısa vaxtda işlək vəziyyətə gətirilməsi üçün iki tərəfin səlahiyyətli şəxsləri tərəfindən sürətlə tətbiq edilə biləcək bir proqram hazırlayacaqlar.

8. Türkiyə Cümhuriyyəti Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı sahələrində ehtiyac olan toxum, avadanlıq və digər vasitələri və lazım olan mütəxəssislərin əkin mövsümünə çatdırıla biləcək şəkildə sürətlə təmini üçün üzərinə düşən işləri və hazırlıqları qısa müddətə həyata keçirəcək.

9. Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında bank işi sahəsində geniş əməkdaşlıq əlaqələri yaradılması imkanları sürətlə təsdiq ediləcək və Türkiyə Cümhuriyyəti Ziraat Bankının Naxçıvanda bir şöbəsinin açılmasının ilkin hazırlıq işlərinə başlanacaq.

10. Turizm sahəsində Naxçıvan Muxtar Respublikasının imkanlarının dəyərləndirilməsi üçün təsis edilən kredit çərçivəsində mehmanxana inşası daxil olmaqla gərəkli

kömək və texniki kömək Türkiyə Cümhuriyyəti hökuməti tərəfindən yerinə yetiriləcək.

11. Naxçıvan Muxtar Respublikasındakı mədəni həyatın inkişafına kömək etmək üçün Türkiyə Cümhuriyyəti, mətbəə təmini də daxil olmaqla mətbuat avadanlıqlarının ehtiyaca görə təminini həyata keçirəcək.

12. Naxçıvan Muxtar Respublikasından 100 tələbənin təhsili Türkiyə Cümhuriyyəti tərəfindən təmin ediləcək.

13. Bütün əməkdaşlıq layihələrinin koordinasiyası və icra edilməsinə Türkiyə Cümhuriyyəti Xarici İşlər Bakanlığı ilə İqtisadi, mədəni, maarif və texniki əməkdaşlıq idarəsi sədrliyi məsul olacaq.

Bu protokol 24 mart 1992-ci il tarixdə Ankarada türkcə, iki nüsxədə imza edilmişdir.

Türkiyə Cümhuriyyəti adından
Baş nazir
Süleyman DƏMİRƏL

Naxçıvan Muxtar Respublikası adından
Ali Məclisin Sədri
Heydər ƏLİYEV

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Türkiyə Cümhuriyyətinə rəsmi səfəri və Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 24 mart 1992-ci il tarixli Ankara Əməkdaşlıq protokolu haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə rəsmi səfəri, Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalla, Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəllə və digər rəsmi şəxslərlə aparılmış danışıqlar bəyənilsin.

2. Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 1992-ci il martın 24-də Ankarada imzalanmış Əməkdaşlıq Protokolu təsdiq edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında mövcud dostluq, əməkdaşlıq və yaxşı qonşuluq müqaviləsi, iki ölkə Xarici İşlər Nazirlikləri arasındakı əməkdaşlıq protokolu və Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasındakı tarixi və mədəni qardaşlıq əlaqələri əsasında Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmış Ankara Əməkdaşlıq Protokolunu böyük əhəmiyyətə malik olan tarixi sənəd kimi qəbul edir və yüksək qiymətləndirir.

Ali Məclis qeyd edir ki, Azərbaycan Respublikasının, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ağır iqtisadi

böhran vəziyyətində olduğu bir dövrdə Türkiyə Cümhuriyyəti hökumətinin Naxçıvan Muxtar Respublikasına böyük maliyyə, maddi-texniki yardım göstərməsi Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına, böhrandan çıxmasına, əhalinin rifah halının yaxşılaşmasına geniş imkan yaradacaq.

Bu imkanlardan səmərəli istifadə olunması Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, bütün idarə və orqanların mühüm vəzifələri olmalıdır.

Ali Məclis Naxçıvan Muxtar Respublikasının əhalisi adından Türkiyə Cümhuriyyəti hökumətinə, Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özala, Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirələ dostluq və qardaşlıq münasibətlərinə görə, Əməkdaşlıq Protokolunda nəzərdə tutulmuş yardıma görə dərin minnətdarlığını və təşəkkürünü bildirir.

4. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin daimi komissiyalarına, muxtar respublika Nazirlər Kabinetinə, rayon və şəhər xalq deputatları məclislərinə, onların icraiyyə komitələrinə tapşırılsın ki, Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmış Əməkdaşlıq Protokolunun icrası ilə əlaqədar konkret təkliflərini hazırlayıb 15 gün müddətinə Ali Məclisin Rəyasət Heyətinə təqdim etsinlər.

Təkliflər daimi komissiyalarda, Nazirlər Kabinetində müvafiq mütəxəssislərin iştirakı ilə müzakirə olunsun.

5. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinə tapşırılsın ki, Əməkdaşlıq Protokolundan irəli gələn məsələlərin təşkil olunması və yüksək səviyyədə həyata keçirilməsi məqsədilə koordinasiya komissiyası yaratsın.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
4 aprel 1992-ci il

Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılması haqqında" muxtar respublika Nazirlər Kabinetinin və Ali Məclisin Kəndin sosial quruculuğu və aqrar-sənaye daimi komissiyasının təqdim etdiyi tövsiyələr bəyənilsin.

2. Rayon xalq deputatları məclislərinə, onların icraiyyə komitələrinə, rayon aqrar-sənaye kombinatlarına tapşırılsın ki, zərərlə işləyən təsərrüfatların özəlləşdirilməsi məqsədilə bu tövsiyələrdən irəli gələn tədbirləri həyata keçirməklə iqtisadi islahatın mütəşəkkilliklə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun başa çatdırılmasını təmin etsinlər.

3. Zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi yerli şəraitə uyğun olaraq rayon XDM-nin müəyyən etdiyi mərhələlər üzrə həyata keçirilsin.

4. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə (Y.Vəliyev) tapşırılsın ki, islahatın təşkilati, hüquqi, texniki məsələlərinin həlli üçün mütəxəssislərin yerlərə göndərilməsini təmin etsin.

5. Muxtar Respublikanın Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi, Meliorasiya və Su Təsərrüfatı Nazirliyi, "Kəndkimya" birliyi, rayonların aqrar-sənaye kombinatları, aqrar-sənaye səhmdar kommersiya bankları zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi ilə yaradılan şəxsi təsərrüfatlara əməli köməklik məqsədilə toxum, gübrə, maşın-mexanizm-

lərin və sairə lazım olan maddi-texniki avadanlığın ayrılmasını təmin etsinlər.

6. İslahatların mahiyyətini əhaliyə çatdırmaq məqsədilə bütün informasiya vasitələrindən, xüsusən televiziyanın imkanlarından geniş istifadə edilsin.

7. Qərarın icrasına nəzarət Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Kəndin sosial quruculuğu və aqrar-sənaye daimi komissiyasına və muxtar respublika Nazirlər Kabinetinə həvalə edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
6 aprel 1992-ci il

"Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 25 mart 1992-ci il tarixli qərarı haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Ali Soveti 25 mart 1992-ci il tarixdə "Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqında" qərar qəbul etmiş və seçkiləri 1992-ci il iyun ayının 7-nə, bazar gününə təyin etmişdir.

Həmin qərarla müəyyən edilmişdir ki, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasının səlahiyyətlərini on ikinci çağırış Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komis-

siyası həyata keçirir. Bununla əlaqədar Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasına tapşırılmışdır ki, Azərbaycan Respublikasında rayonların, rayon bölgüsü olmayan respublika tabeli şəhərlərin, şəhərlərdə rayonların sərhədləri daxilində Azərbaycan Respublikası Prezidenti seçkilərinin təşkili və keçirilməsi üçün seçki dairələri yaratsın.

Bu qərarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinə, rayon və şəhər xalq deputatları sovetlərinə Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə seçki məntəqələrinin və məntəqə seçki komissiyalarının təşkilinin təmin edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası 30 mart 1992-ci il tarixdə birinci iclasını keçirmiş, seçkilərin təşkili və keçirilməsi üçün seçki dairələri yaratmış, seçkilərin keçirilməsi üzrə əsas tədbirlərin təqvim müddətlərini və qaydasını müəyyən etmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, Azərbaycan Respublikası Ali Sovetinin 25 mart 1992-ci il tarixli qərarında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinə Respublika Prezidenti seçkiləri üzrə seçki məntəqələrinin və məntəqə seçki komissiyalarının təşkilini təmin etmək tapşırığı anlaşılmazdır. Ona görə ki, "Azərbaycan SSR Yerli Xalq Deputatları Sovetləri deputatlarının seçkiləri haqqında" 26 iyun 1990-cı il tarixli qanunun tələblərinə əsasən seçki dairələrinin təşkili Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, seçki məntəqələrinin və seçki komissiyalarının təşkili isə rayon sovetlərinin səlahiyyətlərinə aid edilmişdir.

Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası isə muxtar respublika seçki dairələrinin yaradılması məsələsini Ali Məclislə razılaşdırmamışdır.

Beləliklə, Azərbaycan Respublikası Ali Sovetinin 25 mart 1992-ci il və Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasının 30 mart 1992-ci il tarixli qərarlarında Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqlarının pozulmasına yol verilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası Referendumunun keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 15 noyabr 1991-ci il tarixli qərarı barədə 1991-ci il dekabr ayının 14-də Ali Məclisin sessiyasında məsələ müzakirə edilərkən SSR İttifaqının qorunub saxlanılması ilə əlaqədar Referendum keçirilməsində və digər seçkilərdə ciddi qanun pozuntularına yol verdiyinə görə mənəvi hüququnu itirmiş Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına etimadsızlıq göstərilmiş və onun buraxılması qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetindən xahiş edilmişdir. Təəssüf ki, Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yuxarıda göstərilən qərarına bu günə kimi baxmamışdır. Buna görə də həmin seçki komissiyasına yeni prezident seçkilərinin keçirilməsinin tapşırılması demokratik prinsiplərə zidd hərəkət və bağışlanmaz səhv kimi qiymətləndirilməlidir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikası Ali Sovetinin 25 mart 1992-ci il tarixli qərarına münasibətini bildirərək qeyd edir ki, respublikada ictimai-siyasi şəraitin belə bir mürəkkəb vəziyyətində Azərbaycan Respublikasında prezident seçkilərinin keçirilməsi anlaşılmazdır və bəyənilə bilməz.

Dörd ildən artıq davam edən Dağlıq Qarabağ məsələsi Azərbaycan üçün faciəvi bir mərhələyə çatmışdır. Dağlıq Qarabağda Azərbaycan Respublikasının dövlət hakimiyyəti

əldən getmişdir. Azərbaycan müharibə vəziyyətindədir. Ermənistanla həmsərhəd rayonlarında mütəmadi olaraq hərbi döyüşlər gedir, hər gün insan tələfatı baş verir, kəndlərimiz dağıdılır, yandırılır, əhali böyük həyəcan hissi keçirir. Ermənistandan didərgin düşmüş qaçqınlar indiyə qədər tam məskunlaşmamışdır. Qarabağdan qaçmış dinc əhali özünə yaşayış yeri müəyyən edə bilməmişdir. Xocalı faciəsi Azərbaycan xalqının qəlbində qaysaqlanmış dərin yaradır. Bunların hamısı Azərbaycanda çox gərgin mənəvi-psixoloji bir mühit yaratmışdır. Respublika üçün ağır və gərgin olan bir şəraitdə prezident seçkisi kampaniyasına iki ay vaxt sərf etmək anlaşılmazlıq doğurur, məqsədəuyğun hesab edilə bilməz və vəziyyəti daha da gərginləşdirə bilər.

Belə olan tərzdə prezident seçkilərinin keçirilməsində ədalətliliyi və obyektivliyi tam təmin etmək böyük şübhə altındadır.

Bütün bunlarla yanaşı, "Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1992-ci il 25 mart tarixli qərarını nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasına, rayon, şəhər xalq deputatları məclislərinə tapşırılsın ki, Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsini təmin etsinlər.

2. Azərbaycan Respublikası xalq deputatları seçkilərinin, SSRİ-nin qorunub saxlanılması üzrə referendumun və 8 sentyabr 1991-ci ildə Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsində böyük saxtakarlıqlara yol verdiyi üçün Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının fəaliyyətinə prinsipial qiymət verilməsi və göstərilən

səbəblərə görə onun tamamilə buraxılması haqqında qərar qəbul edilməsi təklif olunsun.

3. Azərbaycan Respublikası Ali Sovetinin 25 mart 1992-ci il və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 30 mart 1992-ci il tarixli qərarlarında Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarının kobud surətdə pozulmasına etiraz edilsin.

4. A.Mütəllibovun Azərbaycan xalqına xəyanət etməsi və xalqın təzyiqi nəticəsində prezident vəzifəsindən istefa verməsi ilə əlaqədar prezident aparatının tamamilə buraxılması tələb edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
7 aprel 1992-ci il

Naxçıvanın inkişafı və müdafiəsi fondunun yaradılması haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN Q Ə R A R I

Ermənistanın Azərbaycana silahlı müdaxiləsi nəticəsində Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi vəziyyət daha da kəskinləşmişdir. Hökm sürən böhran iqtisadiyyatı həddindən artıq pisləşdirmiş, muxtar respublika əhalisinin maddi rifah halına mənfi təsir göstərmişdir.

Ermənistanın silahlı qüvvələrinin Naxçıvan Muxtar Respublikasının ərazisinə 1992-ci il may ayının 1-dən

başlamış və qısa fasilədən sonra mayın 18-dən indiyə qədər davam edən hücumları nəticəsində Sədərək kəndi tamamilə dağıdılmış, ölənlər və yaralananlar vardır. Sədərək kəndinin və Şərur rayonunun bir neçə yaşayış məntəqəsinin əhalisi daimi yaşayış yerlərini tərk edərək qaçqın düşmüşdür. Bunların hamısı iqtisadi, siyasi və psixoloji vəziyyəti daha da gərginləşdirmişdir. Dəmir yolunun uzun müddət blokadaya alınması nəticəsində Naxçıvan Muxtar Respublikasında ərzaq, yanacaq və başqa ləvazimatların ehtiyatı həddindən artıq azalmışdır.

Belə bir şəraitdə Naxçıvan Muxtar Respublikasının daxili imkanlarından daha da səmərəli istifadə etmək, eyni zamanda iqtisadiyyatın lazımi səviyyədə işlədilməsi zəruriyyəti ciddi surətdə meydana çıxır. Bu tədbirlərin həyata keçirilməsi üçün muxtar respublikanın sənaye, kənd təsərrüfatı, tikinti müəssisələrinin, bütün idarələrin və təşkilatların, hər bir vətəndaşın maksimum səy göstərməsi tələb olunur. Ermənistanın silahlı qüvvələrinin hərbi təcavüzlərinin qarşısını almaq, muxtar respublikanın ərazi bütövlüyünü qoruyub saxlamaq, əhalinin normal yaşayış və iş şəraitini təmin etmək üçün respublikanın müdafiəsinin möhkəmləndirilməsi ən əsas vəzifələrdən biridir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafını və müdafiəsini təmin etmək üçün hər bir vətəndaşın fəal vətənpərvərlik səyi göstərməsinə böyük ehtiyac var.

Yuxarıda göstərilənləri əsas tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafına və müdafiəsinə yardım məqsədilə Naxçıvanın inkişafı və müdafiəsi fondu yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının nazirliklərinə, dövlət komitələrinə, idarələrinə, sənaye, kənd təsərrüfatı,

tikinti müəssisələrinə, assosiasiyalara, kooperativlərə, bütün təşkilatlara, ayrı-ayrı vətəndaşlara Naxçıvanın inkişafı və müdafiəsi fondunun təşkilində iştirak etmək barədə müraciət olunsun.

Naxçıvan Muxtar Respublikasının hüdudlarından kənarda, Azərbaycanda, başqa ölkələrdə Naxçıvana vətənpərvərlik hissləri olan bütün azərbaycanlılara, türklərə Naxçıvanın inkişafı və müdafiəsi fondunun yaradılmasında iştirak etməsi barədə müraciət edilsin.

3. Naxçıvanın inkişafı və müdafiə fonduna bütün vəsaitlər Naxçıvan dövlət bankının 70090 nömrəli hesabına keçirilməlidir. Bu fonda yardım edənlərə bank idarələri tərəfindən müvafiq vəsiqələr verilir.

4. Naxçıvanın inkişafı və müdafiəsi fondunun təşkil olunması işlərinə, toplanan vəsaitin istifadəsinə nəzarət etmək üçün aşağıdakı tərkibdə komissiya yaradılsın:

H.Əliyev – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri (sədr), A.Kələntərli – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini (sədr müavini), Ə.Sadiqov – Naxçıvan Muxtar Respublikası Baş Nazirinin birinci müavini (sədr müavini), üzvləri: A.Səfərov – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini, Ş.Xanbabayev – Naxçıvan Muxtar Respublikası Dövlət Plan Komissiyasının sədri, E.Abbasov – Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin sədri, M.Məmmədov – Naxçıvan Muxtar Respublikası daxili işlər naziri, N.İmanov – Naxçıvan Muxtar Respublikasının maliyyə naziri, T.Babayev – Naxçıvan Dövlət Bankının direktoru, F.Şirzadov – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin Qanunçuluq, qanunvericilik və hüquq-mühafizə şöbəsinin müdiri, H.Hüseynov – Naxçıvan Muxtar Respublikası prokuroru, A.Rəhimov – Azərbaycan Xalq Cəbhəsi Naxçıvan vilayət

şöbəsinin sədri, H.Abdullayev – Naxçıvan şəhər Xalq Deputatları Məclisi İcraiyyə Komitəsinin sədri, V.Əsgərov – Şərur rayon Xalq Deputatları Məclisi İcraiyyə Komitəsinin sədri, M.Rəhimov – Babək rayon Xalq Deputatları Məclisi İcraiyyə Komitəsinin sədri, R.Tağıyev – Culfa rayon Xalq Deputatları Məclisinin sədri, R.Şəfiyev – Ordubad rayon Xalq Deputatları Məclisi İcraiyyə Komitəsinin sədri, X.Abbasov – Şahbuz rayon Xalq Deputatları Məclisinin sədri.

5. Müəssisələrdən və əhalidən bank hesablarına və başqa mənbələrə indiyə qədər toplanmış bütün vəsaitlər Naxçıvanın inkişafı və müdafiə fonduna, yəni Naxçıvan bankında açılan 70090 nömrəli hesaba köçürülməlidir. Bundan sonra başqa vasitələrlə bank hesablarına əhali tərəfindən və müəssisələrdən vəsait toplanması lüzumsuz hesab edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
25 may 1992-ci il

GƏNCƏ ŞƏHƏRİNDƏKİ NAXÇIVAN XEYRİYYƏ CƏMİYYƏTİNİN SOYDAŞLARIMIZA MÜRACİƏTİ

Əziz həmvətənlərimiz!

Bu gün Azərbaycan torpağı özünün narahat günlərini yaşayır. Beş ilə yaxındır ki, torpaqlarımız erməni təcavüzünə məruz qalır. Demək olar ki, hər gün, hər saat şəhərlərimiz, kəndlərimiz fasiləsiz atəşə tutulur, günahsız qanlar axıdılır. Digər tərəfdən isə ictimai həyatımızı bürüyən iqtisadi böhran

getdikcə dərinləşir. Bir sözlə, hazırkı şəraitdə xalqımız bəlkə də özünün ən ağır günlərini yaşayır.

Bütün bu yuxarıda qeyd olunanları bütövlükdə respublikamızın ayrılmaz parçası olan Naxçıvan torpağına da aid etmək olar. Bütün dövrlərdə özünün ictimai-siyasi sabitliyi ilə fərqlənən Naxçıvan haqqında son zamanlar respublika mətbuatında rast gəlinən bir sıra materiallar bizdə təəssüf hissi doğurur, ürəyimizi ağrıdır. Bizim Sizə müraciətimiz də məhz bu zərurətdən doğur.

Hamıya məlumdur ki, 1991-ci ilin sentyabrında H.Əliyevin Naxçıvanda hakimiyyətə gəlməsi ilə muxtar respublikanın ictimai-siyasi həyatında sözün əsl mənasında sabitlik yarandı, elə bu vaxtdan da orada olan demokratik qüvvələrin tam sərbəst fəaliyyətləri üçün geniş meydan açıldı.

Təsadüfi deyildir ki, muxtar respublikada olan bir sıra dövlət postlarına demokratik qüvvələrin nümayəndələri gəldilər.

Qeyd etmək lazımdır ki, hələ o vaxtlar respublikamızın digər bölgələrində, o cümlədən Bakı şəhərində demokratik qüvvələrə qarşı üzdəniraq A.Mütəllibov hakimiyyəti bütün gücü ilə mübarizə aparırdı. Görünür ki, Naxçıvanda olan siyasi sabitlik həm onun daxilindəki, həm də kənardakı bir sıra qüvvələri bərk narahat edirdi. Ona görə də müxtəlif vasitələrlə buradakı sabitliyi pozmağa çalışırdılar. Ürək ağrısı ilə qeyd edirik ki, onlar buna az da olsa nail ola bilmişlər.

Lakin biz xalqımızın ağlına, siyasi müdrikliyinə, zəkasına və ağsaqqal sözünə qulaq asmaq kimi insani keyfiyyətlərinə inanırıq. Ümidvarıq ki, xalqımızın bu ağır günündə muxtar respublikada mövcud olan bütün qüvvələr Ali Məclisin rəhbərliyi altında sıx birləşəcək və yaranmış ağır siyasi vəziyyətdən alnıaçıq, üzüağ çıxacaqlar.

Müraciət Naxçıvan Xeyriyyə Cəmiyyətinin 20 iyun 1992-ci il tarixli iclasında yekdilliklə qəbul edilmişdir.

GƏNCƏ ŞƏHƏRİNDƏKİ NAXÇIVAN XEYRİYYƏ CƏMİYYƏTİNƏ

Hörmətli bacılar və qardaşlar!

Gəncə şəhərində Naxçıvan Xeyriyyə Cəmiyyətinin yaranması qədim Naxçıvan diyarında böyük hörmət və minnətdarlıq hissi ilə qarşılanmışdır. Cəmiyyətin üzvlərinə, Gəncə şəhərinin sakinlərinə naxçıvanlıların səmimi salamını və dərin məhəbbətini bildiririk.

Həmrəylik və yardım üçün minnətdarıq. Gələcək fəaliyyətinizdə uğurlar, Azərbaycanın qədim diyarları Gəncə və Naxçıvan arasında qardaşlıq və dostluq münasibətlərinin daha da inkişaf etməsini arzulayırıq.

Bütün gəncəlilərə can sağlığı, səadət diləyirik.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

24 iyun 1992-ci il

Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasındakı Sədərək-Dilucu körpüsü haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Azərbaycan ilə Türkiyə arasında sərhəd keçidi yaratmaq məqsədilə Araz çayı üzərində Naxçıvan Muxtar Respublikasının ərazisində Sədərək-Dilucu bölgəsində Türkiyə Cümhuriyyəti avtomobil nəqliyyatı yolu üçün körpü tikmişdir.

1992-ci il may ayının 28-də bu körpünün rəsmi açılışına Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl başda olmaqla Türkiyədən Naxçıvana böyük dövlət nümayəndə heyəti gəlmişdir. Həmin gün Türkiyə Cümhuriyyətinin, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının rəhbərliyinin, Araz çayının o tayında, bu tayında toplanmış Naxçıvanın və Türkiyənin çoxminli əhalisinin iştirakı ilə Türkiyə və Azərbaycan arasındakı körpünün rəsmi açılışı olmuşdur. Beləliklə, iki qardaş xalqın uzun illər həsrətində olduğu arzuları yerinə yetmiş, Sədərək-Dilucu "Həsrət körpüsü", "Ümid körpüsü" yaranmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Sədərək-Dilucu körpüsünün yaranmasını böyük əhəmiyyətə malik olan bir hadisə kimi qiymətləndirir və qeyd edir ki, bu körpü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında iqtisadi, mədəni, insani əlaqələrin genişlənməsinə və inkişaf etməsinə, Araz çayının o tayında və bu tayında olan qardaş xalqların bir-birinə yaxınlaşmasına xidmət edəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında 24 mart 1992-ci ildə Ankarada imzalanmış Əməkdaşlıq protokolunun həyata keçirilməsi, Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikasına Protokolda nəzərdə tutulmuş maddi, texniki və mədəni yardımının təmin olunması üçün geniş imkan açır.

Yuxarıda qeyd olunanları əsas tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. İstifadəyə verilmiş Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan edilsin.

2. Sədərək-Dilucu rəsmi sərhəd keçid qapısının işinin təşkil edilməsi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
9 iyul 1992-ci il

Azərbaycan televiziyası verilişlərinin Naxçıvan Muxtar Respublikasına translyasiyasında və respublika qəzetlərinin muxtar respublikaya göndərilməsində uzun müddət davam edən ciddi nöqsanlar haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, 1991-ci il sentyabr ayının 20-də erməni silahlı quldur dəstəsi Ermənistanın Sisyan rayonu tərəfindən muxtar respublikanın Şahbuz rayonunun Batabat aşırımında yerləşən Biçənək teleötürücü stansiyasına basqın edərək transformator stansiyasını yandırmış, bütün avadanlığı sıradan çıxarmışdır. Beləliklə, teleradioötürücü vasitəsilə Naxçıvan Muxtar Respublikasına Azərbaycan televiziya verilişlərinin çatdırılması dayandırılmışdır. Sonrakı dövrdə başqa vasitələrlə Azərbaycan televiziyası verilişlərinin Naxçıvan ərazisində yayılması fasilələrlə məhdud həcmdə təmin olunmuşdur.

1992-ci il iyun ayının birindən isə Azərbaycan televiziyasının verilişlərinin muxtar respublika ərazisində yayılması tamamilə dayandırılmışdır.

Muxtar respublika rəhbərliyinin Azərbaycan Respublikasının aidiyyatı təşkilatlarına dəfələrlə etdiyi müraciətlərə baxmayaraq, bu günə kimi televiziya verilişlərinin Naxçıvana ötürülməsi sahəsində konkret tədbirlər görülməmişdir.

Azərbaycan Respublikası qəzetlərinin və digər mətbuat vasitələrinin Naxçıvan Muxtar Respublikasına göndərilməsi sahəsində də ciddi nöqsanlar mövcuddur. Azərbaycan Respublikası bağlanmış müqavilələr tez-tez pozulduğundan Azərbaycan Respublikasının paytaxtı Bakıda dərc olunan qəzet və jurnallar vaxtlı-vaxtında Naxçıvan Muxtar Respublikasına gətirilmir, qəzetlərin çox nömrələri abunəçilərə çatdırılmır.

Belə vəziyyət Naxçıvan Muxtar Respublikası əhalisini Azərbaycanda gedən ictimai-siyasi, iqtisadi proseslər və həyata keçirilən tədbirlər haqqında lazımi məlumatların tam və vaxtında alınmasından məhrum etmiş, muxtar respublikanı Azərbaycan paytaxtından və başqa regionlardan təcrid edib, sözün əsl mənasında Naxçıvanı informasiya blokadasına salmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətindən, Azərbaycan Respublikası Rabitə Nazirliyindən tələb olunsun ki, Azərbaycan televiziyası verilişlərinin bütün proqramlarının Naxçıvan Muxtar Respublikası əhalisinə birbaşa verilməsini təcili olaraq təmin etsinlər.

2. Azərbaycan Respublikası Rabitə Nazirliyindən və "Azal" hava nəqliyyatı şirkətindən tələb edilsin ki, qəzetlərin və digər mətbuat vasitələrinin, bağlamaların Naxçıvan Muxtar Respublikasına vaxtlı-vaxtında göndərilməsinə nail olsunlar.

3. Azərbaycan Respublikası Milli Məclisindən, Azərbaycan Respublikası Nazirlər Kabinetindən xahiş edilsin ki, Naxçıvan Muxtar Respublikası əhalisinin məruz qaldığı informasiya blokadasına son qoyulması üçün təcili konkret tədbirlər görsünlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
25 iyul 1992-ci il

Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili ilə əlaqədar bəzi məsələlər haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət heyəti **qərara alır:**

1. Rusiyanın Müdafiə Nazirliyi, Zaqafqaziya hərbi dairəsinin və 75-ci motoatıcı diviziyanın komandanlıqları ilə aparılan danışıqlar nəticəsində Naxçıvan şəhərində yerləşən 75-ci motoatıcı diviziyanın ləğv edilməsi və diviziyanın bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında əldə olunmuş razılıq barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri H.Əliyevin məlumatı nəzərə alınsın.

2. Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinə tapşırılsın ki, 75-ci motoatıcı diviziyanın bütün hərbi və təsərrüfat əmlakının planlı, mütəşəkkil surətdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sərəncamına verilməsi üçün lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Yuxarıda göstərilənlərə əsasən, Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yenidən təşkil olunması və onun bazasında Azərbaycan Müdafiə Nazirliyinin tərkibində müvafiq hərbi strukturun yaradılması zəruri hesab edilsin.

4. 75-ci motoatıcı diviziyanın hissələrində xidmət edən bütün azərbaycanlıların Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin tərkibinə daxil olması barədə məlumat nəzərə alınsın.

5. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə, Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinə tapşırılsın ki, 75-ci motoatıcı diviziyanın ləğvi ilə əlaqədar əmələ gələn məsələlərin həllində diviziyanın komandanlığına lazımi köməklik göstərsinlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
25 iyul 1992-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ İRAN İSLAM RESPUBLİKASI ARASINDA MÜXTƏLİF SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ HAQQINDA

P R O T O K O L

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Heydər Əliyev başda olmaqla yüksək nümayəndə heyəti İran İslam Respublikası xarici işlər naziri cənab Əli Əkbər Vilayətinin rəsmi dəvəti ilə hicriyə şəmsi tarixi ilə 31.5.1371 – 3.6.1371-ci il, miladi tarixi ilə 22.8.1992 – 25.8.1992-ci il tarixdə İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur.

Səfər zamanı İran İslam Respublikasının Prezidenti cənab Haşimi Rəfsəncani cənab Heydər Əliyevi qəbul etmişdir. Bundan əlavə, cənab Heydər Əliyev İran İslam Respublikası Məclisinin Sədri cənab Natiq Nuri, xarici işlər naziri

cənab Əli Əkbər Vilayəti ilə iki dəfə və həmçinin yol və nəqliyyat naziri cənab Səidi Kiya, kooperasiya naziri cənab Şafeyi, energetika naziri cənab Zəngəne, rabitə naziri cənab Ğərrazi, neft və qaz naziri Ağazadə, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust, "Hilal Əhmər" cəmiyyətinin sədri cənab Vahid Dəstgerdi ilə danışıqlar aparmışlar.

Qarşılıqlı siyasi, iqtisadi, ticarət və mədəni əlaqələri genişləndirmək, Naxçıvan Muxtar Respublikasını böhran vəziyyətindən çıxarmaq və Naxçıvan əhalisinə kömək göstərmək məqsədi ilə aşağıdakılar üzrə razılıq əldə edilmişdir:

1. Naxçıvan Muxtar Respublikasının azad iqtisadi zona elan edilməsi nəzərə alınaraq İran İslam Respublikasında və Naxçıvan Muxtar Respublikasında hər iki tərəfin ticarət nümayəndəliklərinin şirkətlərinin və birgə müəssisələrinin açılmasına razılıq verilir. İran banklarında Naxçıvan şirkətlərinin və Naxçıvan banklarında İran şirkətlərinin hesablarının açılmasına təminat verilir.

2. Naxçıvan şəhərində İran İslam Respublikasının Baş konsulluğunun açılması tezləşdirilsin. Bu məqsədlə Naxçıvan şəhərində Baş konsulluq üçün müvafiq bina ayrılsın.

3. İki tərəf şirkətlər arasında ticarət əlaqələrinin daha da genişləndirilməsinə, ticarət qaydalarının yüngülləşməsinə, gömrük siyasətinin liberallaşdırılmasına və sadələşməsinə, mal mübadiləsinin intensiv inkişafına, qadağaların aradan qaldırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi təmin edilsin.

4. İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında mədəniyyət, elm, təhsil, incəsənət, nəşriyyat, turizm və idman sahələrində əlaqələrin genişlənməsi daim diqqət mərkəzində saxlanılır. Hər iki tərəfin ayrı-ayrı nazirlik, baş idarə, müəssisə və təşkilatları arasında qeyd

edilən sahələrində əməkdaşlıq müqavilələri bağlanmasına şərait yaradılır.

5. Tərəflər razılığa gəlmişlər ki, İran İslam Respublikası gənclərinin Naxçıvan ali və orta ixtisas məktəblərində, Naxçıvan gənclərinin isə İran İslam Respublikasının ali və orta ixtisas məktəblərində təhsil almaları üçün şərait yaradılır.

6. İran İslam Respublikası vətəndaşlarının Naxçıvan televiziyasına, eləcə də Naxçıvan əhalisinin İran televiziyasının ayrı-ayrı proqramlarına baxmaları üçün lazımi tədbirlər həyata keçirilir. Naxçıvan televiziyası ilə İran İslam Respublikasının "Seda və Sima" televiziya şirkəti arasında əməkdaşlıq protokolu imzalansın.

7. Naxçıvan Muxtar Respublikası ilə "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu arasında bu protokolun tərkib hissəsi olmaqla, iqtisadi və ticarət əlaqələrinin yaradılmasına dair protokol imzalanmışdır.

8. Naxçıvan Muxtar Respublikasının çətinliyi nəzərə alınsın, Araz su qovşağı rayonunda tikilən xətt vasitəsilə oktyabr ayından etibarən Naxçıvana 200 milyon kvt/saat (3-40 meqavatt) enerji verilsin. Verilən enerjinin əvəzi Parsabad və ya Astara rayonları ərazisində Azərbaycan Respublikasından alınsın.

9. Naxçıvan, muxtar respublikaya kömək göstərmək məqsədilə İran İslam Respublikasından öz ərazisində Ordubad-Mincivan dəmir yolu xəttinin tikilməsini xahiş etmişdir. Həmin xahişə cavab olaraq İran tərəfi bildirir ki, halhazırda göstərilən xəttin texniki cəhətdən öyrənilməsinə başlanılmış və bu iş davam etdirilir. Qısa müddətdə bu işin qurtarması üçün lazımi tədbirlər həyata keçirilsin.

10. İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında yük və sərnişin daşınmasını genişləndirmək, vətəndaşların keçidi üçün yeni qapı açmaq üçün Qərbi Azərbaycanın Poldəşt və Naxçıvanın Şahtaxtı kəndi

yaxınlığında Araz çayı üzərində müvəqqəti körpünün tikintisi qısa müddətdə başa çatdırılsın və əsas körpünün texniki axtarışı işləri sürətləndirilsin.

11. Naxçıvan dindarlarının islamın müqəddəs yerlərini ziyarət etmələri üçün Naxçıvan-Məşhəd-Naxçıvan təyyarə reyslərinin açılmasına razılıq verilir. Bu məqsədlə uçuşlar Naxçıvan təyyarələri vasitəsilə həyata keçiriləcəkdir.

12. Naxçıvan-Bakı-Naxçıvan marşrutu ilə təyyarələrin İran İslam Respublikasının qısa hava koridorundan uçması xahişinə İran tərəfi prinsipial razılıq vermişdir. Bu məqsədlə bir ay müddətində Azərbaycan Hava Yolları Konserninin və İran İslam Respublikası "Hava peymayi" və "Hava peymayiye Keşvəri" şirkətləri mütəxəssislərinin danışıqlar aparması məqsədə müvafiq hesab edilsin.

13. Naxçıvan Muxtar Respublikasının xahişinə uyğun olaraq İran İslam Respublikasının Neft və Qaz Sənayesi Nazirliyi Naxçıvan Muxtar Respublikasının qaza olan tələbatını ödəmək məqsədi ilə Xoy-Culfa qaz kəmərinin tikintisini öz üzərinə götürür. Naxçıvan Muxtar Respublikasına ildə 360 milyon kub.m (sutkada 1,0 milyon kub.m) qaz verir. Qaz İran-Naxçıvan sərhəd məntəqəsində təhvil verilir. Kəmərin tikintisi bir il müddətinə başa çatdırılır. Naxçıvan Muxtar Respublikasında qaz təsərrüfatı, qazın ötürülməsi, paylanması və istifadəçilərə verilməsi İranın Naxçıvanda yaradılacaq şirkəti vasitəsi ilə həyata keçirilir. Verilən qaz İran İslam Respublikasının milli qaz şirkəti vasitəsilə istifadəçilərə satılır və qoyulan əsaslı vəsait çıxarılır. Tərəflər razılaşmışlar ki, iki tərəfin müvafiq şirkətlərinin nümayəndələri bir ay ərzində müqavilələr hazırlasınlar.

Naxçıvanın maye qaza olan ehtiyacını nəzərə alaraq İran İslam Respublikası Naxçıvana avqust ayından etibarən ayda 100 ton maye qaz verir.

Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikasının Neft və Qaz Sənayesi Nazirliyi bu sənədin imzalandığı tarixdən etibarən bir ay müddətində öz dövlətlərinin müvafiq icazəsini almalıdır. Əks təqdirdə qaz kəmərinin icrası ləğv ediləcəkdir.

14. Naxçıvan tərəfi avtomobil yükdaşıma sahəsində yaranmış çətinliyi aradan qaldırmaq məqsədilə yüklərin İran İslam Respublikasının ərazisində Culfa-Xudafərin qısa yolu ilə daşınmasını xahiş etmişdir. Həmin yol hazırda tikilir və təmir olunur. Yolun bir hissəsinə asfalt örtük salınmış, istismara təhvil veriləcəkdir. Qalan hissəsi isə tikilməklə bərabər istifadə oluna bilər. Tərəflər razılığa gəlmişlər ki, hər iki tərəfin ekspertləri birlikdə 1992-ci il avqust ayının axırınadək istifadə etmək üçün yolun vəziyyətini yoxlayacaqlar. Yoldan istifadə edilməsi üçün hər iki tərəf lazımi tədbirlər görəcəklər.

15. Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq və yanacaq ehtiyaclarını ödəmək məqsədilə İran İslam Respublikası öz razılığını bildirmişdir ki, aşağıda göstərilən arzaq və yanacaq məhsullarını Culfa sərhəd məntəqəsində 9 (doqquz) ay ərzində təhvil verəcəkdir. Bunun müqabilində Azərbaycan Respublikası İran İslam Respublikasına müxtəlif mallar verəcəkdir. Buna aid məsələlər və onun icrası İran-Azərbaycan iqtisadi-mədəni əlaqələr komissiyasında öz əksini tapacaqdır.

avtobenzin	– 15,0 min ton
dizel yanacağı	– 30,0 min ton
mazut	– 50,0 min ton
daş kömür	– 90,0 min ton
ağ neft	– 1,0 min ton
şəkər tozu	– 5,0 min ton
bitki yağı	– 1,8 min ton
makaron	– 1,5 min ton

soğan – 15,0 min ton
un – 25,0 min ton

16. Hər iki tərəf razılaşdılar ki, Naxçıvan Muxtar Respublikası "Real" informasiya agentliyi ilə İran İslam Respublikasının "İRNA" informasiya şirkəti bir-biri ilə əməkdaşlıq müqaviləsi imzalasınlar. Tərəflər öz ərazilərində şirkətin müxbir məntəqələrini yaradır və onlara mübadilə yolu ilə yer ayırır.

Protokol 24 avqust 1992-ci il hicriyə şəmsi tarixi ilə 1371-ci il şəhrivər ayının 2-də 16 maddədən ibarət olmaqla Tehran şəhərində Azərbaycan və fars dillərində iki nüsxədə imzalanmış və imzalandığı tarixdən etibarlıdır.

Azərbaycan Respublikasının
Naxçıvan Muxtar Respublikası
tərəfindən Ali Məclisin Sədri
Heydər ƏLİYEV

İran İslam Respublikası
tərəfindən xarici işlər naziri
Əli Əkbər VİLAYƏTİ

AZƏRBAYCAN RESPUBLİKASININ NAXÇIVAN MUXTAR RESPUBLİKASI İLƏ İRAN İSLAM RESPUBLİKASININ "BONYADE MOSTEZƏFAN VƏ CANBAZANE ENQELABE ESLAMİ" FONDU ARASINDA İQTİSADİ, TİCARƏT VƏ DİGƏR ƏLAQƏLƏRİN YARADILMASI HAQQINDA ƏMƏKDAŞLIQ

PROTOKOLU

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Heydər Əliyev və İran İslam Respublikası "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust hicriyə şəmsi tarixi ilə 1371-ci ilin şəhrivar ayının 1-də, miladi tarixi ilə 1992-ci il 23 avqustda Tehran şəhərində görüşmüş, danışıqlar aparmış və tərəflər qarşılıqlı siyasi və iqtisadi qurumlara hörmət prinsiplərini əsas tutaraq iki tərəf arasında iqtisadi, ticarət, mədəni və digər əlaqələri inkişaf etdirmək məqsədilə aşağıdakı razılığa gəlmişlər:

1. Birinci tərəf – "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" Naxçıvanda İranın və başqa xarici dövlətlərin şirkətləri, konsernləri, ticarət əlaqələri yaradılmasına çalışacaq və muxtar respublikada xarici ticarəti genişləndirəcəkdir.

2. Birinci tərəf – icraçı Naxçıvan Muxtar Respublikasında nəzərdə tutulan aşağıdakı layihələri tərəf-müqabilinə təqdim edir:

a) Naxçıvanda öz vəsaiti hesabına məscid tikmək;

b) Babək rayonunun Çeşməbasar kəndi yaxınlığında illik gücü 65 milyon ədəd olan kərpic zavodu tikmək;

c) Babək rayonu ərazisində fəaliyyət göstərən kərpic zavodunun texnoloji avadanlığını dəyişib illik gücü ildə 20 milyon ədəd kərpicə çatdırmaq;

ç) Alt trikotaj fabrikinə ildə 3 min ton iplik və 3,0 milyon metr rezin vermək;

d) Culfa karbon qazı bazasında gücü saatda 12,0 min butulka olan "Nüşabə" ("Pepsi-Kola") zavodu tikmək;

e) Şərur konserv zavodunda gücü saatda 2,0 min paket olan meyvə şirəsi buraxan xətt quraşdırmaq;

ə) "Badamlı" mineral suları zavodu bazasında illik gücü 25,0 milyon butulka olan yeni xətt quraşdırmaq və tutumu 0,5–1,0 litrlik plastik qab istehsal edən sex quraşdırmaq;

f) Naxçıvanda həna sexi tikmək, bu sex üçün xammal (İkinci tərəf) Naxçıvan Muxtar Respublikası tərəfindən təmin ediləcəkdir.

g) "İkinci tərəf Naxçıvanda "Birinci tərəf"in istifadəsinə münasib hazır bina və torpaq sahəsi ayırır. Ayrılmış torpaq sahəsində tikinti-quraşdırma işləri "Birinci tərəf" tərəfindən aparılır.

Yuxarıda qeyd olunanların icrasını təmin etmək üçün "Birinci tərəf" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti ilə mütəxəssislərin iştirakı ilə müqavilələr bağlayır.

"İkinci tərəf" "Birinci tərəf"in göstərilən maddələr üzrə əsaslı vəsait qoyuluşuna tam təminat verir.

Bu protokol hicriyə şəmsi tarixi ilə 1371-ci il şəhrivar ayının 2-də, miladi tarixi ilə 1992-ci il 24 avqust tarixlərdə Tehran şəhərində iki nüsxədən ibarət Azərbaycan və fars dillərində imzalanmış və hər ikisi eyni qüvvəyə malikdir.

Azərbaycan Respublikasının
Naxçıvan Muxtar Respublikası
tərəfindən Ali Məclisin Sədri
Heydər ƏLİYEV

İran İslam Respublikası
"Bonyade Mostezəfan və
Canbaze Enqelabe Eslami"
tərəfindən fondun prezidenti
Möhsen RƏFİQDUST

İRAN İSLAM RESPUBLİKASININ RƏHBƏRİ AYƏTULLA XAMENEYİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm Xameneyi cənabları!

İran İslam Respublikasında olarkən Sizinlə, islam aləminin böyük siyasi, din və dövlət xadimi ilə görüşümüz və dostluq, qardaşlıq şəraitində keçən səmimi söhbətlərimiz üçün, Naxçıvan Muxtar Respublikasına Sizin tərəfdən göstərilən qayğıya görə dərin minnətdarlığımı bildirirəm.

İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanan Əməkdaşlıq protokolları Sizin müstəqil Azərbaycan Respublikasına qayğınızın ifadəsidir.

Ümidvaram ki, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etməsi naminə Ali həzrətləriniz bundan sonra da səylərini əsirgəməyəcəkdir.

Dərin hörmət və ehtiramla,

Heydər ƏLİYEV
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

Naxçıvan şəhəri,
28 avqust 1992-ci il

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ AĞAYİ SEYİD HAŞİMİ RƏFSƏNCANİ HƏZRƏTLƏRİNƏ

Çox hörmətli Prezident!

İran İslam Respublikasında olarkən Sizin və İranın rəsmi dairələrinin Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinə, şəxsən mənə göstərdiyi diqqət və qardaşlıq münasibətinə görə sonsuz minnətdarlıq hisslərimi bildirir, təşəkkür edirəm.

Tehran şəhərində İran İslam Respublikası ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında imzalanmış Əməkdaşlıq protokolları şəxsən Sizin diqqət və qayğınızın nəticəsidir. Naxçıvan Muxtar Respublikasının bugünkü ağır və böhranlı vəziyyətində dost köməyiniz heç vaxt yaddan çıxmayacaqdır.

Ümidvaram ki, Sizin şəxsi səyiniz nəticəsində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq əlaqələri bundan sonra daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Dərin hörmət və ehtiramla,

Heydər ƏLİYEV
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

Naxçıvan şəhəri,
28 avqust 1992-ci il

Naxçıvan Muxtar Respublikasında mövcud sosial-iqtisadi vəziyyət, baş vermiş çətinliklərin aradan qaldırılması və qış mövsümünə hazırlıq tədbirləri haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, son illər Azərbaycan Respublikasının hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında da ağır vəziyyət yaranmışdır. Köhnə iqtisadi mexanizmin dağılması, yenisinin isə yaranmaması öz mənfi təsirini bütün istehsal sahələrində göstərmiş, böhran ilbəil dərinləşmişdir.

Keçən ilin dekabr ayından muxtar respublikaya qazın verilməməsi, Naxçıvan-Bakı dəmir yolunun fasilələrlə işləməsi, bu ilin aprel ayının 24-dən tamamilə dayandırılması, elektrik enerjisinin fasilələrlə verilməsi və iyul ayının 13-dən tamamilə kəsilməsi muxtar respublikada mövcud olan böhranı daha da kəskinləşdirmiş, gərgin vəziyyət yaratmışdır.

Dəmir yolu işləmədiyindən Naxçıvan Muxtar Respublikasının Azərbaycanla əlaqəsi kəsilmiş, sənaye, tikinti təşkilatları lazım olan xammalla, komplektləşdirici avadanlıqlarla, inşaat materialları ilə təmin edilmədiyindən onların əksəriyyətinin fəaliyyəti dayanmışdır. İstehsal edilmiş məhsullar satılmamış, müqavilə öhdəlikləri pozulmuşdur. Keçən illə müqayisədə 8 ayın yekununa görə sənaye məhsulu istehsalının ümumi həcmi 49,7 faiz, xalq istehlakı malları 60 faiz azalmış, heç bir sosial obyekt tikilib istifadəyə verilməmişdir. Sənaye və tikinti sahəsində çalışan 25 mindən artıq fəhlə və qulluqçu işsiz qalmışdır.

Kənd təsərrüfatı işçilərinin gərgin əməyinin nəticəsində bu il yaxşı məhsul yetişdirilmişdir. Lakin yanacaq qıtlığının yaranması, kənd təsərrüfatı maşın və mexanizmlərinin ehtiyat hissələrlə təmin edilməməsi, emal müəssisələrinə elektrik enerjisinin fasilələrlə verilməsi, sudartan elektrik nasoslarının işləməməsi məhsulun vaxtında tədarük və emal edilməsində gərginlik yaratmışdır.

Qeyd olunan səbəblərin nəticəsidir ki, taxıl biçini müddəti xeyli uzanmışdır. Xırmanlarda taxıl əsasən təmizlənmədən dəyirman kombinatına təhvil verilmişdir. Keçən illə müqayisədə taxıl istehsalı və tədarükü azalmasa da, məhsul itkisinə yol verilmişdir.

Hazırda kənd təsərrüfatında gərginlik son həddə çatmışdır. Üzümün, tütünün, meyvənin, tərəvəzin kütləvi yığım dövrüdür. Payızlıq taxıl əkini keçirilməlidir. Lakin yanacağın və elektrik enerjisinin olmaması bütün işləri iflic vəziyyətinə salmışdır. İxrac etmək mümkün olmadığından 100 milyonlarla manatlıq hazır şərab məhsullarının xarab olması təhlükəsi yaranmışdır.

Bütün bunlar müharibə şəraitində ağır zəhmətlə yetişdirilmiş məhsulların itkisinə, məhv olmasına səbəb olur, ayrı-ayrı təsərrüfatlara, kənd sakinlərinə maddi və mənəvi ziyan vurur, kənd əhalisinin haqlı narazılığına səbəb olur, muxtar respublikanın ərzaq təminatını daha da çətinləşdirir.

Muxtar respublikanın tələbatının 20 faizini ödəyən mövcud elektrik enerjisi həyati vacib obyektlərə, xəstəxanalara, çörək zavodlarına, dəyirman kombinatına və digər fasiləsiz obyektlərə yönəldildiyindən şəhərlərin, kəndlərin işıqlandırılması tamamilə pisləşmiş, əhalinin içməli su ilə təminatında həddindən artıq çətinlik yaranmış, təhlükəli yoluxucu xəstəliklərin baş verməsi qorxusu vardır.

Təbii qazın olmaması, dəmir yolunun uzun müddət işləməməsi qışa hazırlığı hədsiz dərəcədə çətinləşdirmişdir. Əha-

linin ehtiyacı üçün tələb olunan min tonlarla daş kömürün, ocaqxanaların və digər vacib obyektlərin işləməsi üçün min tonlarla mazutun gətirilməsi vaxtı artıq keçmiş və buna görə də qış mövsümündə əhalinin normal yaşaması üçün ağır vəziyyət yaranmışdır.

Muxtar respublikanın blokada şəraitində olmasının ən təhlükəli cəhəti bir də ondan ibarətdir ki, əhalinin ən zəruri ərzaqa – una, çörəyə olan tələbatının ancaq minimum miqdarı ödənilir. Un ehtiyatı cəmi iki-üç günlükdür.

May ayının əvvəllərindən mütəmadi olaraq Ermənistan tərəfindən silahlı hərbi təcavüzə məruz qalmış muxtar respublikanın Sədərək, Günnüt, Havuş, Yuxarı Buzqov, Şada, Biçənək və bir sıra sərhəd kəndləri dağıdılmış, on minlərlə əhali çadırlarda, meşələrdə ağır şəraitdə məskunlaşmışlar. Təcavüz nəticəsində xeyli ölən və yaralanan var.

Muxtar respublikaya Azərbaycan televiziyası verilişlərinin xeyli müddət çatdırılmaması, Azərbaycan Respublikası qəzetlərinin və digər mətbuat vasitələrinin göndərilməməsi nəticəsində Naxçıvan Muxtar Respublikası əhalisi Azərbaycanda gedən ictimai-siyasi, iqtisadi proseslər və həyata keçirilən tədbirlər haqqında lazımi məlumatların tam və vaxtında alınmasından məhrum olmuş, Naxçıvan informasiya blokadasına salınmışdır.

Vəziyyətin təhlili onu göstərir ki, muxtar respublika sözün əsl mənasında qapalı bir şəraitdə qalmış, hədsiz dərəcədə iqtisadi və sosial gərginlik yaranmış, əhalinin yaşayış tərzi dözülməz vəziyyətə düşmüş, sosial partlayış üçün zəmin yaranmışdır.

Azərbaycan Respublikasının ali hakimiyyət orqanları tərəfindən Naxçıvan Muxtar Respublikasının mövcud vəziyyətdən çıxması məqsədilə bir sıra tədbirlər müəyyənləşdirilmiş, lakin onların həyata keçirilməsi əsasən təmin edilməmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasının etibarlı kommunikasiya əlaqələrinin inkişafı haqqında" 11 fevral 1992-ci il tarixli qərarında muxtar respublikanın qaz, elektrik enerjisi təchizatı, rabitə, avtomobil, dəmir yolları və digər kommunikasiya tədbirləri nəzərdə tutulsa da, Azərbaycan Respublikasının aid nazirlik və baş idarələri tərəfindən yerinə yetirilməmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi 1992-ci il iyul ayının 15-də "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət haqqında" məsələ müzakirə etmiş və müvafiq qərarlar qəbul etmişdir.

Qərarda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, nazirlik və baş idarələrə tapşırıq verilmişdir ki, Naxçıvan Muxtar Respublikasında yaranmış gərginliyin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görsünlər və bu barədə bir ay müddətində Azərbaycan Respublikasının Milli Məclisinə hesabat versinlər.

Bir ay keçdikdən sonra qəbul edilmiş qərarın icrası Milli Məclisdə 18 avqust 1992-ci il tarixdə müzakirə edilmiş, Azərbaycan Respublikasının ali icra hakimiyyəti orqanlarına dəmir yolunun açılması məsələsinin həll edilməsi tapşırılmışdır. Əfsuslar olsun ki, bu qərarın da icrası təmin edilməmişdir.

Gözləmək olardı ki, dəmir yolunun açılmamasını nəzərə alıb respublika təşkilatları muxtar respublikanın minimum ehtiyaclarını ödəmək üçün müvafiq tədbir görəcəklər. Təəssüflər olsun ki, Azərbaycan Energetika və Elektrikləşmə Baş İdarəsi müstəsna olmaqla, qalan nazirlik və baş idarələr qaldırılan məsələlərə laqeyd münasibət göstərirlər. Belə nəticəyə gəlmək olur ki, qəbul edilən qərarlar gözlənilən nəticələri vermir, Naxçıvan Muxtar Respublikasının ağır sosial-iqtisadi vəziyyətinin yüngülləşməsinə heç bir təsiri olmur. Vəziyyət getdikcə ağırlaşır və fövqəladə tədbirlər görülməsi tələb olunur.

Muxtar respublikanın Ali Məclisi və Nazirlər Kabineti muxtar respublikada gedən ictimai-siyasi proseslərin ağır nəticələr verməsinin qarşısını almaq məqsədilə bir sıra əsaslı tədbirlər həyata keçirir.

Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında 24 mart 1992-ci ildə bağlanmış iş birliyi protokoluna əsasən Türkiyə hökuməti Naxçıvana yardım olaraq 1002 ton azot gübrəsi, 280 ton göy daş, 80 ton pres ipi, 20 ton elektrod, 840 ədəd müxtəlif markalı akkumulyator, 10 ton karbit göndərmişdir. Bunlar muxtar respublikanın kənd təsərrüfatı ehtiyaclarını ödəmək üçün kolxozlara, sovxozlara və digər kənd təsərrüfatı müəssisələrinə satılmışdır. Göstərilən malmaterialların dövlət satış qiyməti ilə ümumi dəyəri 12,6 milyon manatdır. Satışda əldə edilən 9,5 milyon manatlıq vəsait Naxçıvan Muxtar Respublikasının inkişaf və müdafiə fonduna köçürülmüşdür.

Həmin müqavilənin icrası ilə əlaqədar Türkiyə hökuməti tərəfindən ayrılmış kredit hesabına muxtar respublika əhalisinin ərzaq məhsulları ilə təmin edilməsinə də artıq başlanmışdır. 15 sentyabr 1992-ci ilə qədər 600 ton makaron, 200 ton zeytun yağı, 100 ton kərə yağı, 282 ton quş əti, 117 ton düyü muxtar respublikaya daxil olmuş, rayon əhalisi nəzərə alınmaqla, müvafiq qaydada bölünüb əhaliyə satışı təşkil edilmişdir.

Türkiyə Respublikasının "Qızıl ay" və İran İslam Respublikasının "Hilal Əhmər" cəmiyyətlərindən bu ilin mart ayından muxtar respublikaya yardım olaraq 785 ton un, 56 ton yağ, 87 ton şəkər daxil olmuş və ərzaq komissiyası vasitəsi ilə qiymətləndirilmiş, əhaliyə satılmışdır.

Muxtar Respublika və İran İslam Respublikası arasında 24 avqust 1992-ci il tarixdə bağlanmış protokola əsasən muxtar respublikanın kommunikasiya xətlərinin İran ərazisindən keçirilməsi, bir il ərzində qaz kəmərinin İran hökumətinin

vəsaiti hesabına çəkilməsi, sentyabr ayından başlayaraq hər ayda 100 ton maye qazın verilməsi kimi həyati vacib məsələlər həll olunmuşdur.

Muxtar respublikanın qışa hazırlığı, ərzaqla təmin edilməsi ilə əlaqədar müqavilədə konkret öhdəliklər qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, iqtisadiyyatda yaranmış ağır vəziyyətdən çıxmaq üçün hər bir təşkilatda, kollektivdə, rayonda, nazirlik və baş idarələrdə möhkəm əmək intizamının olması, müharibə şəraiti üçün iş qaydaları müəyyən edilməsi başlıca vəzifə hesab edilməlidir.

Yaranmış mürəkkəb şəraitdən istifadə edib, xalqın malını dağıdanlara, cinayət əməllərinə, xuliqanlığa yol verənlərə qarşı inzibati orqanlar tərəfindən qanunun gücündən istifadə edib, ciddi və təsirli tədbirlər görülməlidir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, Naxçıvan Muxtar Respublikasının düşdüyü bu ağır vəziyyətdən çıxması üçün, qış mövsümünün nisbətən normal şəraitdə keçməsi üçün Naxçıvan-Bakı dəmir yolunun təcili olaraq işə başlaması, Azərbaycandan muxtar respublika ərazisinə elektrik enerjisi verilməsi başlıca şərtdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının Prezidentindən, Azərbaycan Respublikasının Milli Məclisindən, Azərbaycan Respublikasının Nazirlər Kabinetindən bir daha xahiş edilsin ki, Naxçıvan Muxtar Respublikasında yaranmış iqtisadi və sosial gərginliyi nəzərə alaraq, təxirəsalınmaz, konkret tədbirlər görsünlər. Bunun üçün dəmir yolunun dərhal açılması, muxtar respublikanın elektrik enerjisi ilə təmin edilməsi başlıca vəzifə hesab edilsin.

Nəzərə alınsın ki, Ermənistan Respublikasının Muxtar Respublika ilə həmsərhəd rayonlarının rəhbərləri ilə sentyabr ayının 14-də aparılan danışıqlar nəticəsində məlum olmuşdur

ki, Naxçıvan ərazisində dəmir yolunun işləməsinə onlar tərəfindən etiraz yoxdur.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, nazirlik və baş idarələrinə, rayon icraiyyə komitələrinə tapşırılsın ki, muxtar respublikanın ağır sosial-iqtisadi vəziyyətdən çıxarılması, qışa hazırlıqla əlaqədar Azərbaycan Respublikasının nazirlik və baş idarələri ilə birgə daxili imkanlardan tam istifadə etməklə, İran İslam Respublikası ilə Muxtar Respublika arasında bağlanmış müqavilədə nəzərdə tutulan bütün öhdəliklərin yerinə yetirilməsini, o cümlədən, ilk növbədə, köməkçi elektrik stansiyasının istifadəyə verilməsinin oktyabr ayının axırına kimi başa çatdırılmasını, bərk və maye yanacaq materiallarının gətirilməsini təmin etsinlər.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə, rayonların XDM icraiyyə komitələrinə, rayon aqrokombinatlarına tapşırılsın ki, üzümün yığılması və tədarük edilməsini, payızlıq taxıl əkininin, mal-qaranın qışdan çıxarılmasını və digər kənd təsərrüfatı işlərinin mütəşəkkil həyata keçirilməsi üçün bütün təşkilati tədbirləri həyata keçirsinlər.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetindən xahiş edilsin ki, muxtar respublikada sənayenin, tikintinin, kənd təsərrüfatının və iqtisadiyyatın digər sahələrinin ahəngdar fəaliyyətini təmin etmək, əhalinin ərzaq və xalq istehlakı mallarına olan tələbatını ödəmək, qışa mütəşəkkil hazırlaşmaq, müdafiəni möhkəmləndirmək, Azərbaycan televiziyası verilişlərinin bütün proqramlarının muxtar respublika əhalisinə birbaşa verilməsini, qəzetlərin və digər mətbuat vasitələrinin vaxtlı-vaxtında göndərilməsi məqsədilə təcili olaraq bütün yardımların və tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

İran İslam Respublikası ilə Muxtar Respublika arasında 24 avqust 1992-ci ildə bağlanmış protokolla muxtar respubli-

kanın ehtiyaclarını ödəyəcək yanacaq, ərzaq və digər malların alınmasında Azərbaycan Respublikasının öhdəsinə düşən məsələlərin həllində müvafiq tədbirlər görülsün.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
16 sentyabr 1992-ci il

Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin İran İslam Respublikasına rəsmi səfəri və Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 1992-ci il avqustun 24-də Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə Əməkdaşlıq protokolları haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev başda olmaqla Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti İran İslam Respublikasının Xarici İşlər naziri doktor Əli Əkbər Vilayətinin dəvəti ilə bu il avqust ayının 22-dən 26-dək İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur.

Səfər zamanı Heydər Əliyev İran İslam Respublikasının rəhbəri Ayətulla Seyid Əli Xameneyi, İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani, İran İslam Respublikası

Milli Məclisinin Sədri Natiq Nuri ilə görüşmüş və danışıqlar aparmışdır.

Bundan başqa Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İran İslam Respublikası xarici işlər naziri doktor Əli Əkbər Vilayəti, İranın yol və nəqliyyat naziri Səidi Kiya, kooperasiya naziri Şafei, energetika naziri Zəncane, neft və qaz sənayesi naziri Qulam Rza Ağazadə, rabitə naziri Ğərrazi, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust və İran İslam Respublikası "Hilal Əhmər" cəmiyyətinin sədri Vəhid Dəstgərdi ilə görüşmüş və danışıqlar aparmışdır.

Görüşlər və danışıqlar zamanı Heydər Əliyev Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etdikdən sonra qarşılaşdığı çətinliklər, uzun sürən erməni təcavüzü ilə əlaqədar vəziyyət, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi böhran içəricəsində olması və bütün bunlarla bağlı həyata keçirilən tədbirlər haqqında məlumat vermişdir. Naxçıvan Muxtar Respublikasının uzun müddət iqtisadi və informasiya blokadasında yaşadığını, xüsusilə elektrik enerjisi, yanacaq və ərzaq qıtlığı nəticəsində əhalinin yaşayış tərzinin daha da pisləşməsini bildirmişdir.

Dostluq, mehribanlıq və qarşılıqlı anlaşma şəraitində keçən danışıqlar zamanı İran İslam Respublikasının rəhbərləri və nazirləri Azərbaycan Respublikasına, o cümlədən Naxçıvan Muxtar Respublikasına hər vasitə ilə kömək göstərməyə hazır olduqlarını bildirmişlər.

Rəsmi danışıqlar nəticəsində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə Əməkdaşlıq protokolları imzalanmışdır.

Protokolları Naxçıvan Muxtar Respublikası tərəfindən Ali Məclisin Sədri Heydər Əliyev, İran İslam Respublikası tərəfindən xarici işlər naziri doktor Əli Əkbər Vilayəti, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun

prezidenti Möhsen Rəfiqdust 1992-ci il avqust ayının 24-də Tehran şəhərində imzalamışlar.

İmzalanmış protokollarda qarşılıqlı siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrin genişləndirilməsi, muxtar respublikanı böhran vəziyyətindən çıxarmaq və Naxçıvan əhalisinə kömək göstərmək məqsədilə bir çox məsələlər barədə razılıq əldə edilmişdir.

Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi böhranından çıxarmaq üçün Araz su qovşağı rayonunda tikilən xətt və transformator yarımstansiyası vasitəsilə oktyabr ayının axırlarından etibarən İran İslam Respublikasından Naxçıvana 40 meqavatt gücündə elektrik enerjisi verilməsi nəzərdə tutulmuşdur. Alınan elektrik enerjisinin əvəzi Azərbaycanın Horadiz və Astara rayonlarından İran İslam Respublikasına veriləcəkdir.

Naxçıvan Muxtar Respublikasının xahişi nəzərə alınaraq, muxtar respublikanın qaz ehtiyatlarını təmin etmək məqsədilə Xoy-Culfa magistral qaz kəmərinin tikintisini İran İslam Respublikasının Neft və Qaz Sənayesi Nazirliyi öz üzərinə götürmüşdür. Qaz kəməri tikintisinin bir il müddətinə başa çatdırılması və bu kəmər vasitəsilə Culfa sərhəd məntəqəsindən Naxçıvana ildə 360 mln.kub.m. təbii qazın verilməsi razılaşdırılmışdır. Bundan əlavə qaz kəməri istifadəyə verilənədək Naxçıvana ayda 100 ton maye qaz verilməsi barədə razılıq əldə olunmuşdur.

Yükdaşıma sahəsindəki çətinlikləri nəzərə alaraq avtomobillərin Naxçıvan-Bakı və əks istiqamətdə İran İslam Respublikası ərazisindən keçməklə qısa məsafədən – Culfa-Xudafərin yolu ilə hərəkət etməsi razılaşdırılmış, bu məqsədlə hər iki tərəf lazımi tədbirlər görəcəkləri və tez bir zamanda bu yoldan istifadə olunması razılığına gəlmişlər.

Muxtar Respublika rəhbərliyinin xahişinə cavab olaraq İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi bildir-

mişdir ki, Ordubad-Mincivan dəmir yolunun İran İslam Respublikası ərazisindən keçməklə tikintisinin texniki cəhətdən öyrənilməsi və bu işin başa çatdırılması üçün tədbirləri həyata keçirəcəkdir.

İran İslam Respublikası Qərbi Azərbaycanın Poldəşt və Naxçıvanın Şahtaxtı kəndi yaxınlığında Araz çayı üzərindəki müvəqqəti körpünün tikintisinin İran İslam Respublikası tərəfindən qısa müddətdə başa çatdırılması və əsas körpünün tikintisi üçün texniki-axtarış işlərinin sürətləndirilməsini qərara almışdır.

Naxçıvan dindarlarının İslamın müqəddəs yerlərini ziyarət etmək üçün Naxçıvan-Məşhəd-Naxçıvan təyyarə reysinin açılması və Naxçıvan-Bakı-Naxçıvan təyyarə reyslərinin yeni qısa marşrutla – Mincivan-Ordubad rayonları arasındakı 50 km-lik məsafədə İran İslam Respublikasının hava koridorundan istifadə etmək razılığı əldə olunmuşdur.

İran İslam Respublikası Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq və yanacaq ehtiyaclarını ödəmək məqsədilə 9 ay müddətində Culfa sərhəd məntəqəsindən muxtar respublikaya 90,0 min ton daş kömür, 50,0 min ton mazut, 30,0 min ton dizel yanacağı, 15,0 min ton avtobenzin, 1,0 min ton ağ neft, 25,0 min ton un, 15 min ton kartof, 5 min ton şəkər tozu, 5,0 min ton soğan, 1,5 min ton makaron, 1,8 min ton bitki yağı göndərilməsinə razılıq vermişdir. Muxtar respublikaya veriləcək ərzaq və yanacaq məhsullarına aid məsələlərin Azərbaycan-İran iqtisadi-mədəni əlaqələr komissiyasında öz əksini tapacağı qeyd edilmişdir. Nəzərə alınmışdır ki, İrandan Naxçıvana göndəriləcək ərzaq və yanacaq mallarının əvəzində Azərbaycan Respublikası İran İslam Respublikasına müxtəlif mal-material verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə İranın "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami"

fondunun prezidenti arasında imzalanmış protokola əsasən Babək rayonunun Çeşməbasar kəndi yaxınlığında illik gücü 65,0 milyon ədəd olan kərpic zavodunun tikintisini, həmin rayonda fəaliyyət göstərən kərpic zavodunun texnoloji avadanlıqlarını dəyişməklə illik gücünü 20,0 mln. ədəd kərpicə çatdırılmasını, Culfa karbon qazı bazasında gücü saatda 12 min butulka olan "Nüşabə" ("Pepsi-Kola") zavodunun tikintisini, Şərur konserv zavoduna gücü saatda 2,0 min paket olan meyvə şirəsi buraxan xəttin quraşdırılmasını, Badamlı mineral sular zavodu bazasında illik gücü 25,0 min ədəd butulka buraxacaq yeni xəttin və tutumu 0,5–1,0 litr plastik qab istehsal edən sexin quraşdırılmasını, həna sexinin tikintisini, alt trikotaj fabrikinə ildə 3,0 min ton iplik, 3,0 mln. metr rezin verilməsini "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu öz üzərinə götürmüşdür.

Bundan başqa həmin fond Naxçıvan şəhərində müasir tələblərə cavab verən məscid tikəcəkdir.

Tərəflər razılığa gəlmişlər ki, İran İslam Respublikası gənclərinin Naxçıvanın ali və orta ixtisas məktəblərində, Naxçıvan gənclərinin isə İran İslam Respublikasının ali və orta ixtisas məktəblərində təhsil almaları üçün şərait yaradılsın, hər tərəf qarşı tərəfin televiziya verilişlərinin ayrı-ayrı proqramlarına baxmaları üçün lazımi tədbirlər həyata keçirsinlər.

İran islam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında mədəniyyət, elm, incəsənət, nəşriyyat, turizm və idman sahələrində əlaqələrin genişləndirilməsini daimi diqqət mərkəzində saxlamaq nəzərdə tutulmuşdur.

Hər iki tərəf ticarət nümayəndəliklərinin, şirkətlərin, birgə müəssisələrin açılması, ticarət əlaqələrinin daha da genişləndirilməsi, gömrük siyasətinin sadələşməsi razılığına gəlmişlər.

Naxçıvan şəhərində İran İslam Respublikasının Baş konsulluğunun açılmasının tezləşdirilməsi və bu məqsədlə Naxçıvan şəhərində Baş konsulluq üçün müvafiq binanın ayrılması qərara alınmışdır.

Muxtar respublikanın nümayəndə heyəti səfər zamanı İran İslam Respublikasının Məşhəd və Təbriz şəhərlərində də olmuş, bir sıra rəsmi görüşlər keçirmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası nümayəndə heyətinin İran İslam Respublikasına rəsmi səfəri və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin İran İslam Respublikasının rəhbərləri, nazirləri və digər rəsmi şəxsləri ilə apardığı danışıqlar bəyənilsin.

2. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 1992-ci ilin avqust ayının 24-də Tehran şəhərində imzalanmış Əməkdaşlıq protokolu təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu arasında 1992-ci ilin avqust ayının 24-də Tehran şəhərində imzalanmış Əməkdaşlıq protokolu təsdiq edilsin.

4. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə Əməkdaşlıq protokollarının Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrinin genişlənməsi və daha da inkişaf etməsi üçün böyük əhəmiyyəti olan bir tarixi sənəd kimi qəbul edir və yüksək qiymətləndirir.

Ali Məclis qeyd edir ki, imzalanmış protokollara əsasən İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasına göstərəcəyi köməklik muxtar respublikanın sosial-iqtisadi

böhrandan çıxmasında, əhalinin həyat tərzinin yaxşılaşmasında mühüm rol oynayacaqdır.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikasının əhalisi adından İran İslam Respublikasına, İran İslam Respublikasının rəhbəri Ayətulla Seyid Əli Xameneyiyə, İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncaniyə, İran İslam Respublikası Milli Məclisinin Sədri Natiq Nuriyə, İran İslam Respublikasının xarici işlər naziri doktor Əli Əkbər Vilayətiyə, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdusta dostluq və qardaşlıq münasibətlərinə görə, Əməkdaşlıq protokollarında nəzərdə tutulan bütün köməkliklərə görə dərin minnətdarlığını və təşəkkürünü bildirir.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, muxtar respublikanın aid nazirliklərinə, dövlət komitələrinə, baş idarələrinə tapşırılsın ki, Əməkdaşlıq protokollarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

6. Naxçıvan Muxtar Respublikasında yaranmış gərgin sosial-iqtisadi vəziyyət nəzərə alınaraq, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, 1992-ci il avqust ayının 24-də Tehran şəhərində imzalanmış Əməkdaşlıq protokolunun 15-ci maddəsində nəzərdə tutulmuş İran İslam Respublikasından Naxçıvan Muxtar Respublikasına veriləcək ərzaq və yanacaq mallarının təcili surətdə gətirilməsi üçün lazımi tədbirlər görsün.

7. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Hava Yolları Konserninin, Azərbaycan Qaz Şirkətinin, Azərbaycan Dövlət Gömrük Komitəsinin, Azərbaycan Dövlət Yanacaq Komitəsinin, "Azərbaşenerji" İstehsalat Birliyinin, Azərbaycan-İran İşgüzar Əməkdaşlıq Şurasının, Azərbaycan Dəmir Yolu İdarəsinin, Azərbaycan Sərhəd Qoşunları Komitəsinin və Azərbaycan

Respublikasının digər aid nazirliklərinin mütəxəssisləri ilə İran İslam Respublikasının aid nazirliklərinin mütəxəssislərinin müvafiq vaxtlarda görüşlərini təşkil edib, protokolların icrasını təmin etsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetindən xahiş edilsin ki, protokolların icrası ilə əlaqədar Azərbaycan Respublikasının aidiyyəti nazirliklərinin muxtar respublikaya lazımi köməklik göstərmələri barədə müvafiq qərarlar qəbul etsin.

9. Naxçıvan şəhər Xalq Deputatları Məclisinə, onun İcraiyyə Komitəsinə tapşırılsın ki, Naxçıvan şəhərində İran İslam Respublikasının Baş konsulluğu üçün müvafiq bina, "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu üçün müvafiq bina və torpaq sahəsi ayrılmasını təmin etsin.

10. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, şəhər, rayon xalq deputatları məclislərinə, onların icraiyyə komitələrinə tapşırılsın ki, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında imzalanmış Əməkdaşlıq protokollarının icrasını daim diqqət mərkəzində saxlasınlar və Ali Məclisə mütəmadi olaraq məlumat versinlər.

11. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 1992-ci il avqust ayının 24-də Tehran şəhərində imzalanmış Əməkdaşlıq protokolları Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Ali Sovetinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunsun.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
18 sentyabr 1992-ci il

Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Dövlət müstəqilliyini əldə etməsi, özünün milli ordusunun yaradılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilməsi zəruriyyətini əsas tutaraq 1991-ci il sentyabr ayının 6-da Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsini yaratmışdır. Dövlət Müdafiə Komitəsi muxtar respublikanın ərazisində Ermənistan tərəfindən edilən təcavüzə qarşı müdafiə işinin təşkil olunması ilə məşğul olmuş və ötən müddət ərzində bu istiqamətdə lazımi fəaliyyət göstərmişdir.

Bununla yanaşı Ali Məclis SSRİ-nin dağılması ilə əlaqədar olaraq yaranmış şəraitdə Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən SSRİ Silahlı Qüvvələrinin hərbi hissələrinin fəaliyyətini nəzarət altına almağa çalışmış və bu hissələrlə yerli hakimiyyət orqanlarının münasibətlərinin yeni əsaslar üzərində qurulması üçün müvafiq tədbirlər həyata keçirmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il oktyabrın 26-da və dekabrın 16-da keçmiş SSRİ Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən hərbi hissələrinin statusunun müəyyən edilməsi haqqında qərarlar qəbul etmişdir. Lakin Azərbaycan Respublikasının o zamankı siyasi rəhbərliyinin göstərilən məsələlərdə qeyri-müəyyən, qeyri-ardıcıl və bəzən Azərbaycan xalqının mənafeyinə zidd mövqe tutması bu qərarların həyata keçirilməsinə imkan verməmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi muxtar respublikanın ərazisində yerləşən keçmiş SSRİ Silahlı Qüvvələrinin hərbi hissələrinin statusunun müəyyən edilməsi haqqında 1992-ci il yanvar ayının 2-də təkrarən qərar qəbul etmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisindəki yeraltı və yerüstü sərvətlərin Azərbaycan xalqının, Azərbaycan Respublikasının, muxtar respublika əhalisinin milli sərvəti olduğunu əsas tutaraq Ali Məclis qeyd etmişdir ki, muxtar respublika ərazisində yerləşən keçmiş SSRİ Silahlı Qüvvələrinin hərbi hissələrinin bütün silahları, hərbi sursatları, texnikası, hərbi və mülki əmlakı Naxçıvan Muxtar Respublikasına məxsusdur. Ona görə də, hərbi hissələrin komandanlığına təklif olunmuşdur ki, onların bundan sonra respublika ərazisində qalmasının hüquqi statusu müəyyən edilsin. Bildirilmişdir ki, bu məsələ həll olunana qədər muxtar respublika ərazisində yerləşən bütün silahlı qüvvələr Ali Məclisə tabe olmalı, prinsipial məsələlərdə fəaliyyətini Ali Məclislə razılaşdırmalıdırlar.

Bu qərarın həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ardıcıl və prinsipial xarakterli addımlar atmışdır.

Naxçıvan ərazisində yerləşən keçmiş SSRİ Silahlı Qüvvələrinin hissələrinin artıq Rusiyanın tabeliyinə keçdiyini nəzərə alaraq Muxtar Respublika Ali Məclisinin rəhbərliyi Rusiyanın Müdafiə Nazirliyinin, təhlükəsizlik orqanının rəhbərləri ilə, Rusiya Sərhəd Qoşunları Baş Komandanlığının rəhbərləri ilə, Zaqafqaziya Hərbi Dairəsinin, Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin, Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyanın, 41-ci sərhəd qoşunları dəstəsinin komandanlıqları ilə müxtəlif vaxtlarda danışıqlar aparmış, Naxçıvan ərazisində yerləşən və eyni zamanda Azərbaycan Respublikasının tabeliyində olmayan qoşun hissələrinin ləğv

olunmasını tələb etmişdir. Bu danışıqlarda Muxtar Respublika Ali Məclisinin rəhbərliyi Azərbaycan Respublikasının artıq tam müstəqil dövlət olduğunu və dünya dövlətləri tərəfindən müstəqil dövlət kimi tanındığını əsas tutaraq Azərbaycanın, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisində başqa dövlətin hərbi hissələrinin qalmasının qeyri-mümkün olduğunu qətiyyətlə bildirmişdir. Bütün bu prinsipial xarakterli, səmərəli danışıqlar nəticəsində Rusiya dövləti, onun Müdafiə Nazirliyi, təhlükəsizlik orqanı, Sərhəd Qoşunları Baş Komandanlığı Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən 75-ci motoatıcı diviziyanın, 41-ci sərhəd qoşunları dəstəsinin ləğv olunması və bu hərbi hissələrin sərəncamında olan silahların, sursatların, texnikanın, hərbi və mülki əmlakın Naxçıvanda Azərbaycanın sərəncamına verilməsi haqqında 1992-ci ilin iyul, avqust və sentyabr aylarında müvafiq qərarlar qəbul etmişlər.

Bu qərarlara əsasən 1992-ci il iyul ayının 27-dən avqust ayının 15-dək 75-ci motoatıcı diviziyanın sərəncamında olan silahlar, sursatlar, texnika, hərbi və mülki əmlak xüsusi komissiyaların aktları ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinə təhvil verilmişdir. Bu proseslər nəticəsində Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin və təhvil alınan 75-ci motoatıcı diviziyanın hərbi hissələrinin bazasında Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvanda 5-ci ələhiddə motoatıcı briqadası yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin sədri Elman Abbasov Azərbaycanın Müdafiə Nazirinin əmri ilə 5-ci ələhiddə briqadanın komandiri təyin olunmuşdur.

75-ci motoatıcı diviziyanın şəxsi heyəti və onların ailə üzvləri son aylarda Naxçıvanın ərazisindən getmişlər. Diviziyanın komandiri general R.Slaboşeviç, digər yüksək rütbəli zabitlər və son qrup əsgərlər 1992-ci il avqust ayının 18-də

xüsusi hərbi təyyarələrlə Naxçıvan aeroportundan yola salınmışlar. Beləliklə, azərbaycanlılardan başqa 75-ci motoatıcı diviziyanın başqa millətlərə mənsub olan bütün zabitləri, hərbi qulluqçuları və əsgərləri artıq Naxçıvanın ərazisini tərk etmişlər.

Məmnuniyyətlə qeyd etmək lazımdır ki, 75-ci motoatıcı diviziyanın ləğv olunması və onun sərəncamında olan hərbi və mülki əmlakın təhvil verilməsində heç bir hadisə baş verməmiş, bu proses qarşılıqlı hörmət və anlaşma şəraitində keçmiş, təhvil-təslim aktlarına əsasən hesab etmək olar ki, diviziyanın ixtiyarında olan bütün əmlak tamamilə Naxçıvanda Azərbaycan Respublikasına təhvil verilmişdir. 75-ci motoatıcı diviziyanın komandanlığı bu prosesin layiqli, dövlət səviyyəsində keçirilməsi ilə əlaqədar olaraq diviziyanın şəxsi heyətinə göstərilən diqqət və hörmətə görə minnətdarlığını bildirmişdir.

Aparılan danışıqlar nəticəsində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisində İran İslam Respublikası və Türkiyə Respublikası ilə sərhədlərin qorunmasını təmin edən 41-ci sərhəd qoşunları dəstəsinin ləğv olunması, onun sərəncamında olan bütün silahların, sursatların, texnikanın və mülki əmlakın Azərbaycana verilməsi haqqında 1992-ci ilin avqust və sentyabr aylarında Rusiya dövləti tərəfindən qərarlar qəbul olunmuşdur. 41-ci sərhəd qoşunları dəstəsinin ləğv olunması məsələsini həll edərkən Naxçıvan Muxtar Respublikası ərazisində İran və Türkiyə ilə sərhədlərin qorunmasının təşkil olunması üçün lazımi tədbirlər görülmüşdür.

1992-ci il iyul ayının 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təklifi ilə Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının Naxçıvan ərazisində 1-ci sərhəd qoşunları dəstəsi yaradılmış, Cahangir Qulamov bu dəstəyə koman-

dir təyin olunmuşdur. O vaxtdan Azərbaycan Sərhəd Qoşunlarının 1-ci sərhəd qoşunları dəstəsi 41-ci sərhəd qoşunları dəstəsi ilə yanaşı fəaliyyət göstərməyə başlamış, sərhədin mühafizəsini təmin etmək üçün şəxsi heyətin toplanması və başqa təşkilati işlərlə məşğul olmuşdur. İndi artıq 41-ci sərhəd qoşunları dəstəsinin sərhədi mühafizə sahələri planlı şəkildə Azərbaycan Sərhəd Qoşunlarının 1-ci sərhəd qoşunları dəstəsi tərəfindən təhvil alınır. İran və Türkiyə ilə olan sərhədin 40 faizi milli sərhəd qoşunları tərəfindən mühafizə olunur. Sentyabr ayının 30-na qədər 41-ci sərhəd qoşunları dəstəsi tamamilə ləğv olunacaq və onun bütün hərbi və mülki əmlakı Naxçıvanda yerləşən Azərbaycanın Milli Sərhəd Qoşunlarının sərəncamına veriləcəkdir. 41-ci sərhəd qoşunları dəstəsinin şəxsi heyətinin əksər hissəsi və bütün ailə üzvləri artıq Naxçıvanı tərk edib, qalmış hissəsi isə sentyabr ayının sonunadək Naxçıvandan yola salınacaqdır.

Beləliklə, 1992-ci il sentyabr ayının sonuna qədər Naxçıvan Muxtar Respublikasının ərazisində digər dövlətin, Rusiyanın heç bir hərbi hissəsi, hərbi qulluqçusu qalmayacaqdır. Təxminən iki əsr müddətində Naxçıvan torpağında əcnəbi ölkənin hərbi hissəsinin yerləşməsinə son qoyulur. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Milli Ordusunun və Azərbaycan Milli Sərhəd Qoşunlarının hissələri fəaliyyət göstərməkdədir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisində uzun illər boyu yerləşmiş keçmiş SSRİ Silahlı Qüvvələrinin, sonra isə Rusiya Federasiyasının tabeliyində olan hərbi hissələrin ləğv olunması, onların sərəncamında olan silahların, hərbi sursatların, texnikanın, hərbi və mülki əmlakın Azərbaycan xalqına, müstəqil Azərbaycan dövlətinə təhvil verilməsi, digər dövlətə mənsub olan hərbi

qulluqçuların tamamilə Naxçıvanın ərazisini tərk etməsi ədalətli, hüquqi, böyük tarixi əhəmiyyətə malik olan bir hadisə kimi qiymətləndirilsin.

2. Keçmiş SSRİ Silahlı Qüvvələrinin, sonradan isə Rusiya Federasiyasının tabeliyində olan və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən hərbi hissələrin ləğv olunması, onların hərbi və mülki əmlakının Azərbaycan xalqına təhvil verilməsi, müstəqil Azərbaycan dövlətinin Naxçıvan ərazisində milli silahlı qüvvələrinin yaranması naminə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, onun rəhbərliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin həyata keçirdikləri tədbirlər bəyənilsin və təqdirəlayiq hesab edilsin.

3. 75-ci motoatıcı diviziyanın hərbi və mülki bazası, Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinin bazası əsasında Naxçıvanda Azərbaycan Müdafiə Nazirliyinin yeni hərbi hissəsinin təşkil edilməsi ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsi ləğv olunsun.

Nəzərə alınsın ki, Naxçıvan Muxtar Respublikası ərazisində yaranan Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yeni hissələri öz fəaliyyətlərini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə sıx əlaqədə həyata keçirəcək, Naxçıvanın Ermənistan tərəfindən hərbi təcavüzdən müdafiə olunması tədbirlərini Ali Məclisin, Naxçıvan Muxtar Respublikası Müdafiə Şurasının rəhbərliyi altında aparacaqdır.

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisində yeni vahid hərbi hissələrinin yaranmasını, bütün müdafiə məsələlərinin bu hissələrin tərəfindən təşkil olunmasını nəzərə alaraq Naxçıvan Muxtar Respublikasında Xalq Cəbhəsinin silahlı qüvvələri buraxılsın. Bütün silahlar, sursatlar Azərbaycanın Müdafiə Nazirliyinin Naxçıvanda yerləşən hərbi hissəsinə təhvil verilsin.

Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan bütün silahlı dəstələr ləğv olunsun. İyirmi gün müddətində əhalidə olan bütün qeyri-qanuni silahlar yığılsın.

Bu tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrinə, Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinə həvalə olunsun.

4. Nəzərə alınsın ki, 75-ci motoatıcı diviziyanın hissələrində, 41-ci sərhəd qoşunları dəstəsinin hissələrində xidmət etmiş azərbaycanlılar, Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinin hissələrində xidmət edən hərbi qulluqçular Naxçıvan Muxtar Respublikasının ərazisində yaranan Azərbaycan milli silahlı qüvvələrinin hissələrində xidmət edəcəklər.

5. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə tapşırılsın ki, Naxçıvanın ərazisində yeni yaranan Azərbaycan milli silahlı qüvvələrinin hərbi hissələrinin təşkil olunmasında və fəaliyyət göstərməsində lazımi köməklik göstərsinlər.

Naxçıvan Muxtar Respublikasının
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
19 sentyabr 1992-ci il

Naxçıvan Muxtar Respublikasının əhalisinə göstərilən səhiyyə xidmətinin vəziyyəti haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 1992-ci il sentyabr ayının 14-də "Muxtar respublikada əhaliyə göstərilən tibbi xidmətin vəziyyəti və bu sahədə əsaslı islahatlar aparılması tədbirləri barədə" məsələ müzakirə etmiş, əhalinin sağlamlığının qorunması, dispanserizasiyanın təşkili, ana və uşaqlara göstərilən tibb xidmətinin səviyyəsi, sanitar rejiminin gözlənilməsi, kadrların seçilib yerləşdirilməsi və müəssisələrin gücündən istifadə olunması sahəsində ciddi nöqsanlara yol verildiyini qeyd etmişdir.

Bu nöqsanlarla əlaqədar Muxtar respublikanın Nazirlər Kabineti Səhiyyə naziri F.C.Cəfərquliyevin məsuliyyət daşıdığını nəzərə alıb, onun bundan sonra nazir vəzifəsində qalmasının mümkün olmadığını bildirmiş və məsələnin Ali Məclisin sessiyasının müzakirəsinə çıxarılması təklifini vermişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Muxtar respublikada əhaliyə göstərilən tibbi xidmətin vəziyyəti və bu sahədə əsaslı islahatlar aparılması tədbirləri barədə" 14 sentyabr 1992-ci il tarixli qərarı nəzərə alınsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, əhaliyə tibb xidməti göstərilməsi sahəsində, səhiyyə orqanlarının işində buraxılan ciddi nöqsanların qısa müddətdə aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.

Görülən işlər haqqında 1992-ci il dekabr ayının 1-nə qədər Ali Məclisə hesabat verilsin.

3. İşdə buraxdığı ciddi nöqsanlara görə Fərhad Cəfərqulu oğlu Cəfərquliyev Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
20 sentyabr 1992-ci il

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yaranmış vəziyyət haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Rəyasət Heyəti bu məsələni birgə iclasda müzakirə edib qeyd edir ki, son iki ay müddətində muxtar respublikanın Daxili İşlər Nazirliyində, onun yerli orqanlarında yaranmış qeyri-normal vəziyyət polisin cinayətkarlığa qarşı mübarizə sahəsində fəaliyyətinə mənfi təsir göstərmiş, muxtar respublikada ictimai-siyasi şəraitin gərginləşməsinə səbəb olmuşdur.

Belə bir vəziyyətin əmələ gəlməsinin əsas səbəbi Azərbaycan Respublikası daxili işlər naziri İ.Həmidovun konstitusiya normalarını pozan əmrləri, göstərişləri və hüquqa zidd hərəkətləri olmuşdur.

Azərbaycan Respublikası daxili işlər naziri İ.Həmidov 1992-ci il avqust ayının 20-21-də Naxçıvanda olarkən M.Məmmədovun Naxçıvan Muxtar Respiblikasının daxili işlər naziri vəzifəsindən azad olunması, həmin vəzifəyə daha layiqli, bacarıqlı və təcrübəli adamın təyin olunmasının zəruriliyini bildirmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəhbərliyi daxili işlər nazirinin arzusunu nəzərə alaraq onun təklifi ilə razılaşmışdır. Razılıq əldə edilmişdir ki, M.Məmmədov Bakıya işə keçirilir, muxtar respublika daxili işlər nazirinin vəzifəsi birinci müavin Ə.Ələkbərova həvalə edilir, on gündən sonra isə muxtar respublikanın Ali Məclisi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə muxtar respublikanın daxili işlər naziri vəzifəsinə namizəd barədə qəbul etdiyi son qərarı Ali Məclisin sessiyasının müzakirəsinə verir.

Lakin 1992-ci il avqust ayının 25-də Ali Məclisin sədri İranda olarkən Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinə muxtar respublikanın Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri işləyən S.Mustafayevin muxtar respublikaya daxili işlər naziri vəzifəsinə təyin olunması barədə əmr daxil olmuş və bununla da əldə olunmuş razılaşma pozulmuşdur. Son dərəcə təəccüblüdür ki, S.Mustafayevin təyin edilməsi barədə əmri İ.Həmidov 18 avqust 1992-ci ildə, yəni Naxçıvana gəlməmişdən iki gün əvvəl imzalamışdır. Muxtar respublikaya daxili işlər nazirinin təyin olunması məsələsi ilə əlaqədar razılığın İ.Həmidov tərəfindən pozulması, həmin vəzifəyə lazımi bilik və təcrübəsi olmayan adamın irəli sürülməsi şəxsi heyətdə böyük narazılıq və etiraz hissi yaratmış, yığıncaqların keçirilməsinə, bəyanatların qəbul olunmasına, hətta Naxçıvan şəhər ictimaiyyətinin iştirakı ilə mitinqlərin keçirilməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 1992-ci il avqust ayının 26-da İrandan Naxçıvana qayıdan

kimi əmələ gəlmiş gərgin vəziyyəti aradan qaldırmaq və Konstitusiyanın tələblərinə müvafiq olaraq muxtar respublika daxili işlər nazirinin məsələsini həll etmək üçün İ.Həmidovla telefon əlaqəsi yaratmağa cəhd etmişdir. Lakin telefon zənglərinə cavab verilməmiş, İ.Həmidovla danışmaq və məsələni aydınlaşdırmaq mümkün olmamışdır. Sonrakı günlərdə də dəfələrlə İ.Həmidovla telefon əlaqəsi yaratmaq səyləri indiyə qədər heç bir nəticə verməmişdir.

İ.Həmidovun muxtar respublikanın Ali Məclisi ilə telefon danışıqlarından qaçdığını, Naxçıvan Muxtar Respublikasında vəziyyəti gərginləşdirən hərəkətlərə yol verdiyini nəzərə alaraq Ali Məclisin Sədri mövcud vəziyyətlə əlaqədar bir neçə dəfə telefonla Azərbaycan Respublikası Ali Sovetinin Sədri İ.Qəmbərova, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə məlumat vermiş və müvafiq tədbirlər görülməsini xahiş etmişdir. Təəssüf ki, bu danışıqlar da müsbət nəticələr verməmişdir.

Bu müddətdə İ.Həmidov Naxçıvan Muxtar Respublikasının qanuni hakimiyyət orqanlarını saymayaraq S.Mustafayevin daxili işlər naziri təyin olunması barədə Konstitusiya normalarının ziddinə olan 18 avqust 1992-ci il tarixli əmrinin inadkarlıqla həyata keçirilməsinə nail olmağa çalışmışdır. Bu məqsədlə Azərbaycan Respublikası daxili işlər nazirinin müavini R.Quliyevin S.Mustafayevi nazir kimi muxtar respublika Daxili İşlər Nazirliyinin kollektivinə təqdim etmək tapşırığı ilə Naxçıvana gəlməsi Daxili İşlər Nazirliyinin əməkdaşlarında yeni etiraz dalğasının yaranmasına səbəb olmuşdur. Muxtar respublika daxili işlər orqanlarının əməkdaşlarına təzyiq göstərmək məqsədilə onların fəaliyyətini yoxlamaq üçün böyük komissiya göndərilmişdir.

1992-ci il sentyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasının işə başladığı gün S.Mustafayevin

daxili işlər naziri təyin edilməsi barədə Azərbaycan Respublikası daxili işlər nazirinin 18 avqust 1992-ci il tarixli əmrinin yerinə yetirilməsi tapşırığı ilə Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini M.Cəfərov Naxçıvana gəlmişdi. Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri haqqında məsələ 1992-ci il sentyabr ayının 16-da öz işinə başlayan sessiyanın gündəliyinə daxil edilmişdir. Buna görə M.Cəfərova xəbərdarlıq olunmuşdur ki, daxili işlər nazirinin məsələsi yalnız Azərbaycan Respublikası Konstitusiyasına və Naxçıvan Muxtar Respublikası Konstitusiyasına müvafiq surətdə Ali Məclisin sessiyasında həll edilə bilər və o, sessiyanın bu məsələ ilə əlaqədar iclasına dəvət olunur. Lakin M.Cəfərov bu dəvətdən imtina etmiş, Azərbaycan Respublikası daxili işlər nazirinin qeyri-qanuni əmrini güc işlətməklə həyata keçirməyə cəhd göstərmişdir.

Təəssüf hissi doğuran fakt odur ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi rəhbərliyinin bu hüquqa zidd, antikonstitusion hərəkətlərinə Naxçıvan Xalq Cəbhəsinin bəzi üzvləri də qoşulmuşlar. M.Cəfərovla birlikdə Xalq Cəbhəsinin rəhbərləri A.Rəhimov, A.Quliyev Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyində olmuş, S.Mustafayevin nazir təyin olunması barədə əmrin həyata keçirilməsi məqsədilə daxili işlər orqanlarının əməkdaşlarına təzyiq göstərməyə cəhd etmiş, əks təqdirdə məsələnin ağır nəticələr doğuracağı ilə hədələmişlər.

Belə bir şəraitdə 1992-ci il sentyabr ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası Azərbaycan Respublikasının Konstitusiyası və Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ilə ona verilən hüquq və səlahiyyətlərdən istifadə edərək muxtar respublika daxili işlər naziri haqqında məsələni müzakirə etmişdir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin daxili işlər naziri vəzifəsi-

nə nazirin birinci müavini, polis polkovniki Ə.Ələkbərovun təyin olunması barədə təklifi müzakirə olunmuşdur. Xalq deputatlarının əksəriyyətinin səs çoxluğu ilə Ali Məclisin sessiyasında qəbul olunmuş qərarla Ə.Ələkbərov Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsinə təyin edilmişdir (iştirak edən 86 deputatın 69-u bu qərarın lehinə səs vermişdir).

Sessiya həmçinin S.Mustafayevin Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri təyin olunması barədə Azərbaycan Respublikası daxili işlər nazirindən 1992-ci il avqust ayının 28-də Ali Məclisə daxil olmuş təklifi də müzakirə etmişdir. Onu da qeyd etmək lazımdır ki, bu təklif S.Mustafayev haqqında qanunsuz əmrin imzalanmasından 10 gün sonra Ali Məclisə daxil olmuşdur. Bu təklif xalq deputatları tərəfindən müdafiə olunmamış, 86 deputatın yalnız 3 nəfəri onun lehinə səs vermişdir.

1992-ci il sentyabr ayının 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən muxtar respublikaya daxili işlər nazirinin təyin olunması barədə qərar qəbul olunan gün Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini M.Cəfərov Naxçıvanda Daxili İşlər Nazirliyi və onun ətrafında yaranmış gərgin vəziyyətin şahidi olmuşdur.

Güman etmək olardı ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi yaranmış vəziyyəti nəzərə alacaq, bundan sonra Azərbaycan Respublikası Konstitusiyasına, Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarına hörmət edəcək. Lakin həmin gün daha bir hüquqa zidd hərəkət baş verdi. Azərbaycan Daxili İşlər Nazirliyi Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsinə yenicə təyin olunmuş polis polkovniki Ə.Ələkbərovun, daxili işlər nazirinin müavini, polis polkovniki, muxtar respublikanın xalq deputatı N.Həsənovun, istintaq bölməsinin rəisi, polis

polkovniki M.Həsənovun, qərargah rəisi, polis podpolkovniki O.Zalovun, bölmə rəisi, polis podpolkovniki B.Əyyubovun, mühafizə bölməsinin rəisi, polis podpolkovniki A.Məmmədovun, kadr və şəxsi heyətlə iş şöbəsinin rəisi, polis mayoru A.Qurbanovun daxili işlər orqanlarından çıxarılmaları haqqında əmr verdi.

Bununla əlaqədar muxtar respublika Daxili İşlər Nazirliyinin 1992-ci il sentyabrın 17-də əmrlə daxili işlər orqanlarından çıxarılan bir qrup rəhbər işçisi Azərbaycan Respublikasının rəhbər instansiyalarına şikayət etmişlər. Onlar Azərbaycan Respublikası Ali Sovetinin şöbələrində, Azərbaycan Respublikası Ali Sovetinin sədri İ.Qəmbərovun yanında, Azərbaycan Respublikası Prezidentinin aparatında və Azərbaycan Respublikası Prokurorluğunda qəbulda olmuşlar. Lakin heç bir qaneedici cavab ala bilməmişlər.

İ.Həmidov tərəfindən Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarına və səlahiyyətlərinə məhəl qoyulmaması özünü bir daha onda göstərmişdir ki, Ali Məclisin Ə.Ələkbərovun Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsinə təyin olunması barədə qərarından sonra o, muxtar respublika Daxili İşlər Nazirliyinin şöbə rəisi T.Allahyarovu Bakıya çağırmış, öz əmri ilə onu nazir müavini təyin etmiş və nazir vəzifəsini aparmağı ona həvalə etmişdir. Bununla o, muxtar respublika Daxili İşlər Nazirliyinin rəhbər işçiləri arasında qarşılıqlı münasibətin kəskinləşməsinə nail olmaq istəmişdir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqları Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən onun Ordubad rayon daxili işlər şöbəsinin rəisi haqqında 14 avqust 1992-ci il əmri ilə də pozulmuşdur. Bu əmrlə rayon daxili işlər şöbəsinin rəisi F.Əhmədov heç bir əsas olmadan və Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin

xəbəri olmadan tutduğu vəzifədən azad edilmişdir. Rayon daxili işlər şöbəsinin rəisi vəzifəsinə, əmrdə göstərildiyi kimi, Ordubad rayon Xalq Cəbhəsinin təqdimatı ilə əvvəllər müəllimlik edən, daxili işlər orqanlarında işləmək üçün heç bir təcrübəsi və təhsili olmayan İ.Məmmədov təyin olunmuşdur. Narahatlıq doğuran odur ki, bu əmrə istinad edən Xalq Cəbhəsinin silahlı dəstəsi rayon milis şöbəsini güc işlətməklə qorxudaraq, təzyiq göstərməyə cəhd etmişdir. Sonradan Azərbaycan Daxili İşlər Nazirliyinin əmrinə əsaslanan Ordubad rayon Xalq Deputatları Məclisi rayon daxili işlər şöbəsinin rəisi haqqında qərar qəbul etmiş, eyni zamanda qanunsuz hərəkətlərə yol verərək rayon daxili işlər şöbəsinin telefon xətlərini kəsmiş, onu elektrik enerjisindən, su təchizatından və s. məhrum etmiş və bank hesabını bağlamışdır.

Azərbaycan Respublikasının daxili işlər naziri İ.Həmidov yuxarıda göstərilən bütün əmr və hərəkətləri ilə Azərbaycan Respublikası Konstitusiyasının 131-ci, 133-cü maddələrini, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 68-ci, 92-ci, 104.1-ci maddələrini kobud surətdə pozmuş, muxtar respublikanın Konstitusiya hüquqlarına və səlahiyyətlərinə müdaxilə etmişdir.

Bütün yuxarıda göstərilən hərəkətlərin nəticəsində uzun müddət Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin fəaliyyəti iflic olmuşdur. Bu elə bir məqamda baş vermişdir ki, 6 aydan artıq muxtar respublikanın Bakı və digər regionlarla dəmiryol əlaqəsi kəsilmiş, yaranmış iqtisadi blokada nəticəsində Naxçıvanda sosial-iqtisadi, ictimai-siyasi şərait daha da gərginləşmiş, cinayətkarlıq artmışdır. Bütün bu çatışmazlıqların aradan qaldırılmasında fəal iştirak etmək, cinayətkarlarla ciddi mübarizə aparmaq, bəzi dəstələrdə, ayrı-ayrı şəxslərdə qanunsuz saxlanılan silahların yığılması ilə

məşğul olmaq, Ermənistanla həmsərhəd yaşayış məntəqələrinin təhlükəsizliyinin və müdafiəsinin təşkilinə nail olmaq əvəzinə, daxili işlər orqanlarının əməkdaşları yaranmış qeyri-normal şəraitlə əlaqədar öz hüquqlarının müdafiəsi və qorunması ilə məşğul olmuş, müxtəlif proseslərə cəlb edilmişlər. Bu hal isə muxtar respublikada asayişin qorunması işinə böyük ziyan vurmuşdur.

Bütün bu müddət ərzində Naxçıvan Muxtar Respublikasının Ali Məclisi daxili işlər nazirinin Konstitusiyaya zidd, qeyri-qanuni qərarlarına və hərəkətlərinə təmkinli münasibət bəsləmiş, onunla əlaqə yaratmağa çalışmış, qarşılıqlı anlaşma və işgüzar şəraitdə süni surətdə yaradılmış problemləri həll etməyə cəhd etmişdir. Lakin bütün bunlar istənilən nəticəni verməmişdir. Əksinə, daxili işlər naziri Ə.Ələkbərovun və onun müavini T.Allahyarovun verdikləri məlumatdan aydın olur ki, dünən, 1992-ci il oktyabr ayının 14-də İ.Həmidov telefonla Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə zəng etmiş, nazir Ə.Ələkbərovla danışmaq istəmədiyini bildirərək, nazir müavini T.Allahyarovu telefona çağırtdırmış və xəbərdarlıq edərək demişdir ki, əgər onun əmri ilə işdən çıxarılmış Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin rəhbər işçiləri üç gün müddətində tutduqları vəzifədən azad olunmasalar, o, Naxçıvana gələcək və güc tətbiq etməklə istədiyinə nail olacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyətləri Azərbaycan Respublikası daxili işlər nazirinin bu cür hədə-qorxusuna qarşı qəti etirazlarını bildirir və bəyan edirlər ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqları toxunulmazdır, onlar qanunlar və muxtar respublikanın qanuni hakimiyyət orqanları tərəfindən müdafiə olunacaq və heç kimə onu pozmaq imkanı verilməyəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyətləri belə hesab edirlər ki, Azərbaycan Respublikasının daxili işlər naziri İ.Həmidovun 18 avqust 1992-ci il Konstitusiyaya zidd əmri, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sonrakı qeyri-qanuni qərarları, muxtar respublika Daxili İşlər Nazirliyinin fəaliyyətinə aid məsələlərin obyektiv müzakirəsində və həllində Azərbaycanın yuxarı instansiyalarının biganəliyi Naxçıvan Muxtar Respublikasında sabitliyi pozmaq istəyən Azərbaycanın bəzi dairələrinin qəsdən bu istiqamətə yönəldilmiş cəhdi kimi qiymətləndirilə bilər.

Yuxarıdakıları əsas tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyətləri **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşlarına qarşı əmrlərində və göstərişlərində öz əksini tapan Azərbaycan Respublikası daxili işlər naziri İ.Həmidovun hərəkətləri Azərbaycan Respublikası Konstitusiyasında, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında nəzərdə tutulan Naxçıvan Muxtar Respublikasının hüquqlarının və səlahiyyətlərinin pozulmasına yönəldilmiş hərəkət kimi pislənsin.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyətləri ümid edirlər ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyində əmələ gəlmiş vəziyyətə obyektiv, hissiyyata qapılmadan baxacaq, bu orqanın normal fəaliyyətini təmin etmək üçün lazımi tədbirlər həyata keçirəcək.

2. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyindən və onun yerli orqanlarından tələb edilsin ki, hüquq qaydalarını möhkəmləndirmək işini və cinayətkarlıqla mübarizəni gücləndirsin, işində olan ciddi nöqsanları qətiyyətlə aradan qaldırsın, şəxsi heyətin fəaliyyətində intizamı, qanunqaydanı, qanunçuluğu möhkəmləndirsin, bütün qanun pozanlara qarşı qəti tədbirlər həyata keçirsinlər.

3. Azərbacyan Respublikası Prezidentindən, Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilsin ki, bu qərara baxıb Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarının və səlahiyyətlərinin qorunması üçün müvafiq tədbirləri həyata keçirsinlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan Muxtar Respublikasının
Baş naziri
Ş.XAN-BABAYEV

Naxçıvan şəhəri,
15 oktyabr 1992-ci il

Naxçıvan Muxtar Respublikasında baş vermiş dövlət çevrilişi cəhdi haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qeyd edir ki, 1992-ci il oktyabr ayının 24-də Naxçıvan şəhərində baş vermiş hadisələr ictimai-siyasi mühitin həddindən artıq kəskinləşməsinə səbəb olmuş, muxtar respublika əhalisinin mənəvi-psixoloji vəziyyətinə ağır zərbə vurmuşdur.

1992-ci il oktyabrın 24-də Azərbaycan Xalq Cəbhəsi Naxçıvan vilayət şöbəsinin 300 nəfərə yaxın silahlı dəstəsi (sonradan məlum olduğu kimi onlardan 100 nəfəri xüsusi avtobuslarla Ordubaddan gəlmişdir) Naxçıvan Xalq Cəbhəsinin sədri A.Quliyevin və Ordubad rayon Xalq Cəbhəsinin sədri, Azərbaycan Respublikasının xalq deputatı F.Quliyevin rəhbərliyi ilə iş günü olmamasından və bununla əlaqədar Daxili İşlər Nazirliyində yalnız bir neçə əməkdaşın olmasından istifadə edib, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin və telestudiyanın binalarını qəflətən işğal etmişlər. İşğalçılar silah işlətməklə hədə-qorxu gələrək Daxili İşlər Nazirliyinin əməkdaşlarını öz xidməti vəzifələrini yerinə yetirməkdən kənarlaşdırmış, onları ayrı-ayrı otaqlarda bağlı qapı arxasında saxlamış, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Elman Həbibi öz xidməti otağında faktiki olaraq həbs etmiş, onu xarici aləmlə əlaqə saxlamaq imkanından məhrum etmiş, telefon aparatlarını və xətlərini sıradan çıxarmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bu hadisədən xəbər tutan kimi Xalq Cəbhəsinin rəhbərlərindən öz qanunsuz hərəkətlərinə son qoymağı, Daxili İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını boşaltmağı, silahla güc göstərmək hərəkətlərindən əl çəkməyi tələb etmiş və bunların ağır nəticələr verə biləcəyi barədə xəbərdarlıq etmişdir. Bu məqsədlə milli təhlükəsizlik naziri A.Əsgərov və digər nüfuzlu şəxslər A.Quliyevlə, F.Quliyevlə danışıqlar aparmışlar. Lakin bu danışıqlar müsbət nəticələr verməmişdir. Xalq Cəbhəsinin rəhbərləri bildirmişlər ki, onlar öz hərəkətlərindən və niyyətlərindən əl çəkməyəcəklər.

İşğalçılarla danışıqlar aparmaq üçün Ali Məclisin sədr müavini, Xalq Cəbhəsinin üzvü Q.Məmmədov Daxili İşlər

Nazirliyinə göndərilmiş, lakin onu ora buraxmamışlar. Daxili İşlər Nazirliyinin binasının qarşısındakı küçə hər iki tərəfdən yük avtomobilləri ilə kəsilmişdi və Xalq Cəbhəsinin silahlı üzvləri tərəfindən qorunurdu.

Ali Məclisin Sədri Heydər Əliyev vəziyyəti nəzərə alaraq, telefonla Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə müraciət etmiş, baş verən hadisə barədə ona məlumat vermiş və Xalq Cəbhəsinin qanunsuz hərəkətlərinin və bununla əlaqədar baş verə biləcək ağır nəticələrin qarşısını almaq üçün təxirəsalınmaz tədbirlər görməsini xahiş etmişdir. Lakin Azərbaycan Respublikasının Prezidenti tərəfindən lazımi tədbirlər görülməmişdir. Vəziyyət isə getdikcə gərginləşirdi. Naxçıvan şəhərinin, yaxınlıqda yerləşən kəndlərin və demək olar ki, bütün rayonların əhalisi hadisədən xəbər tutan kimi və Xalq Cəbhəsinin silahlı qüvvələrinin Ali Məclisə hücum edəcəyindən ehtiyat edərək iki-üç saat ərzində Ali Məclisin qarşısındakı meydana toplaşdı və mitinq başlandı. Müxtəlif yaşa, peşəyə və əqidəyə mənsub olan adamlar Xalq Cəbhəsinin qanuna zidd hərəkətlərinə qarşı öz hiddət və qəzəbini bildirərək onların qarşısını öz qüvvələri ilə almaq əzmində olduqlarını bəyan etmişlər. Eyni zamanda, naxçıvanlıların böyük bir hissəsi Daxili İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını əhatə etmiş və həmin hərəkətləri edəcəklərini bildirmişlər. Muxtar respublikanın rəhbərliyi Naxçıvanın nüfuzlu və hörmətli şəxslərinin köməyi ilə canlı toqquşmanın, güc işlədilməsinin və baş verə biləcək silahlı konfliktin qarşısını almaq üçün tədbirlər görürdü.

Vəziyyət kritik xarakter almış, Ali Məclisin qarşısındakı meydana, Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarının qarşısına toplaşan qəzəbli və hiddətli adamların hərəkətlərinin nəzarətdən çıxmaq təhlükəsi yaranmışdı. Onların sayı otuz mindən çox idi.

Belə bir şəraitdə Ali Məclisin Sədri Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəylə, Azərbaycan Respublikası Ali Sovetinin Sədri İsa Qəmbərovla dəfələrlə telefon danışıqları aparmış, Naxçıvan Xalq Cəbhəsinin qeyri-qanuni hərəkətlərinin qarşısını almaq, Naxçıvanda əmələ gəlmiş gərginliyi aradan qaldırmaq üçün təcili tədbirlər görülməsini tələb etmişdir. Ali Məclisin Sədrinin xahişi ilə Ali Məclisin sədr müavinləri, Xalq Cəbhəsinin üzvləri Q.Məmmədov və A.Kələntərli də onun kabinetindən prezident Əbülfəz Elçibəylə telefonla danışmış, lazımi ciddi tədbirlər görülməsini xahiş etmişlər.

Lakin böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bütün bu xahişlər, çağırışlar və tələblər nəticə verməmiş, Azərbaycan Prezidenti və digər rəhbər şəxslər tərəfindən bu istiqamətdə heç bir qəti tədbir həyata keçirilməmişdir.

Hər dəfə lazımi tədbirin görülməsi barədə xahiş olunarkən Prezident Əbülfəz Elçibəy bildirirdi ki, o, həmkarlarını yığacaq, məsləhətləşəcək və tədbirlər müəyyən edəcək. Lakin yaranmış şərait yaxınlaşmaqda olan qəzanın qarşısını almaq üçün Prezidentdən öz imkanlarından istifadə edib təcili tədbirlər görməsini tələb edirdi. Azərbaycan Prezidentinin "hansı lazımi tədbirləri görmək lazımdır?" – sualına muxtar respublika Ali Məclisinin Sədri demişdir ki, Əbülfəz Elçibəy eyni zamanda Azərbaycan Xalq Cəbhəsinin sədridir. Naxçıvanda vəziyyətin gərginləşməsinin səbəbi Naxçıvan Xalq Cəbhəsinin rəhbərlərinin qeyri-qanuni hərəkətləridir. Ona görə də Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəy bir neçə dəqiqə ərzində Naxçıvan Xalq Cəbhəsinin rəhbərlərinə telefonla göstəriş verib, onların öz qanunsuz hərəkətlərindən imtina etməsinə nail ola bilər. Lakin bu təkliflər də nəzərə alınmamışdır.

Silah gücü ilə işğal olunmuş Naxçıvan televiziyası ilə çıxış edən Naxçıvan Xalq Cəbhəsinin sədri A.Quliyev və

Ordubad Xalq Cəbhəsinin sədri F.Quliyev özlərinin əsassız böhtançı bəyanatları ilə ictimaiyyətə yanlış məlumatlar verməyə cəhd etmiş, qanunsuz hərəkətlərinə haqq qazandırmaq istəmişlər. Televiziya ilə çıxışlarında və onlarla aparılan danışıqlarda bildirmişlər ki, onların hərəkətləri Bakı ilə, İsgəndər Həmidovla və hətta Prezident Əbülfəz Elçibəylə razılaşdırılmışdır. Onlar elan etmişlər ki, Azərbaycan Respublikasının daxili işlər naziri İ.Həmidov sabah Naxçıvana gələcək və onlar birlikdə burda qayda-qanun yaradacaqlar.

Vəziyyətin son dərəcə kəskinləşdiyini nəzərə alan Ali Məclisin Sədri Heydər Əliyev bu barədə telefonla Əbülfəz Elçibəyə məlumat vermiş və bildirmişdir ki, silahlı toqquşma yaxınlaşır, vətəndaş müharibəsi başlana, qan tökülə bilər. Belə olan halda bütün məsuliyyət Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Xalq Cəbhəsi sədrinin üzərinə düşür. Çünki o, bu hadisələrin qarşısını almaq üçün vaxtında lazımi tədbirlər görə bilərdi.

Saat 20-də Heydər Əliyev Ali Məclisin binasının qarşısındakı meydana toplaşmış naxçıvanlıların qarşısında çıxış etmiş, Xalq Cəbhəsinin qanunsuz hərəkətlərini pisləmiş, bununla yanaşı, toplaşanları təmkinli və səbrli olmağa dəvət etmiş, düşünülməmiş hərəkətlərə yol verilməməsinə çağırmışdır. Eyni zamanda, Xalq Cəbhəsinə xəbərdarlıq edilmişdir ki, əgər onun silahlı dəstələri bir saat ərzində Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını azad etməsələr, silahsız xalq kütləsi buna özünün təzyiq gücü ilə nail olacaq.

Təxminən saat 21-də Xalq Cəbhəsinin silahlı dəstələri Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını tərk etmişlər. Geri çəkilərkən Xalq Cəbhəsinin silahlı dəstələri tərəfindən odlu silahlardan çoxlu atəş açılmış, Televiziya və Radio Verilişləri Komitə-

sinin binasının qarşısına toplaşan silahsız naxçıvanlılara qarşı hərbi zirehli BMP-2, MTLB maşınlarından istifadə olunmuş və onlardan da atəş açılmışdır. Bu zaman Daxili İşlər Nazirliyinin üç əməkdaşı yaralanmış, Televiziya və Radio Verilişləri Komitəsinin otaqlarına, texnika və aparatlarına ciddi zərər dəymiş, Daxili İşlər Nazirliyinin binasına maddi ziyan vurulmuşdur.

Ali Məclisin qarşısına toplaşan əhalinin əksəriyyəti qanunsuz hərəkətlərin yenidən baş verməsindən ehtiyat edərək narahat və həyəcanlı halda meydanda qalmaqda davam etmiş və yalnız oktyabrın 25-də, səhər saat 4-də evlərinə getmişlər.

Oktyabrın 25-də, səhər tezdən Ali Məclisin qarşısındakı meydan muxtar respublikanın ayrı-ayrı rayonlarından, yaşayış məntəqələrindən gələn adamlarla dolmuşdur. Bir neçə saat ərzində təbii yaranmış mitinq keçirilmişdir. Toplaşanlar Xalq Cəbhəsinin qanunsuz hərəkətlərinə, Azərbaycanın dövlət hakimiyyət orqanlarının onlara himayədarlıq etməsinə qarşı etirazlarını bildirmiş, Xalq Cəbhəsinin silahlı dəstələrinin təcili ləğv olunmasını, bütövlükdə Xalq Cəbhəsinin fəaliyyətinin dayandırılmasını qəti tələb etmişlər.

Keçən iki gün ərzində muxtar respublikanın demək olar ki, bütün əhalisi böyük narahatçılıq içində yaşamış, mənəvi-psixoloji zərbə almış, alçaldılmış vəziyyətə salınmışdır. Və bütün bu hadisələr Naxçıvan Muxtar Respublikasının iqtisadi blokada şəraitində olduğu, maddi çətinliklər çəkdiyi bir vaxtda baş verir.

Belə bir dövrdə, hamının birləşib zəruri sosial-iqtisadi problemlərin həll olunması, əhalinin ərzağa, yanacağa, elektrik enerjisinə, nəqliyyata olan ən cüzi tələblərini təmin etmək yollarını araşdırmaq tələb olunduğu halda, Xalq Cəbhəsi silahla oynayır, xalqın pulu ilə alınmış silahları xalqa qarşı çevirir.

Naxçıvan Xalq Cəbhəsinin düşünülməmiş, cəzasız hərəkətləri, muxtar respublikanın dövlət orqanlarını silah gücü ilə işğal etmək cəhdi açıq surətdə sübut edir ki, muxtar respublikada vəziyyətin sabitliyini pozmaq və qanuni dövlət hakimiyyəti orqanlarını devirməyə nail olmaq planı praktiki olaraq həyata keçirilir.

Tam əsasla demək olar ki, burada məsələ təkcə Xalq Cəbhəsinin silah gücü ilə Azərbaycan Daxili İşlər Nazirliyinin 18 avqust 1992-ci il tarixli qeyri-qanuni əmrini həyata keçirməklə, S.Mustafayevi nazir vəzifəsinə oturtmaqla bağlı deyil. Söhbət Xalq Cəbhəsinin daha da geniş iddialarından, onların muxtar respublikada dövlət çevrilişi etməsindən və silah gücü ilə Heydər Əliyevin Ali Məclisin sədri vəzifəsindən kənar edilməsindən gedir. Bu, həm də onunla izah olunur ki, Naxçıvan Xalq Cəbhəsi son aylarda düzgün olmayan, qanuna zidd hərəkətləri ilə əhali arasında durmadan nüfuzunu itirir və yalnız silahlı dəstələrin gücü ilə özünü saxlamağa çalışır.

1992-ci il sentyabr ayının 18-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Xalq Cəbhəsinin silahlı dəstələrinin ləğv olunması və onlarda olan bütün silahların Naxçıvanın ərazisində yerləşən hərbi hissələrə verilməsi barədə qərar qəbul etmişdir. Məlumdur ki, onlar Naxçıvanın Ermənistan tərəfindən hərbi təcavüzdən müdafiəsində iştirak etmirlər. Lakin Azərbaycan Respublikasının dövlət orqanlarının himayədarlığına arxalanan Xalq Cəbhəsi Naxçıvan Muxtar Respublikası ali dövlət hakimiyyəti orqanının bu qərarını yerinə yetirmir, hətta bu silahlardan muxtar respublikanın dövlət orqanlarını tutmaq və dövlət çevrilişi etmək üçün istifadə edirlər.

Demokratiya, milli müstəqillik, insan azadlığı və insan hüquqları prinsipləri əsasında yaranmış və formalaşmış Azərbaycan Xalq Cəbhəsinə Ali Məclis bir daha öz hörmətini

bildirir. Eyni zamanda, onun sıralarında bu prinsiplərin pozulmasına və avtoritar üsuli-idarə metodlarının tətbiq olunmasına çox təəssüf edir. Bununla əlaqədar Xalq Cəbhəsini ləkələyən və onun nüfuzuna ağır zərbə vuran Naxçıvan Xalq Cəbhəsinin rəhbərləri A.Quliyevin, onların sərəncamında olan silahlı dəstələrin Konstitusiyaya zidd, güc işlətmək yolu ilə etdikləri hərəkətlərə qarşı qəti etirazını bildirir. Naxçıvan Xalq Cəbhəsinin keçmiş sədri, indi isə Azərbaycan Xalq Cəbhəsinin sədr müavini vəzifəsinə irəli çəkilmiş Arif Rəhimovun Naxçıvanda bu sahədə apardığı zərərli pozuculuq fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

Dərin təəssüf hissi doğuran hal odur ki, Naxçıvan Xalq Cəbhəsində baş verən bu proseslər Azərbaycan Xalq Cəbhəsinin rəhbərliyi, Azərbaycan Respublikasının dövlət instansiyaları tərəfindən nəinki dəf olunmur, əksinə, bəyənilir, qızışdırılır və demək olar ki, istiqamətləndirilir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi böyük narahatlıqla qeyd edir ki, muxtar respublikanın konstitusiya hüquqlarının Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən pozulması, Naxçıvan Xalq Cəbhəsinin 1992-ci ilin oktyabr ayının 24-də törətdiyi qanuna zidd hərəkətlər Azərbaycanın rəhbər dövlət orqanlarının Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqlarının tapdalanmasına yönəldilmiş böyük tədbirlərinin bir hissəsidir.

Son zamanlar Azərbaycan Prezidentinin ətrafında olan bəzi yaxın şəxslər özlərinin subyektiv konyuktur mənafelərini üstün tutaraq Naxçıvanın statusunun dəyişdirilməsi, Naxçıvanın muxtar respublika hüququndan məhrum olunması, Azərbaycan Konstitusiyasının Naxçıvan Muxtar Respublikası haqqında maddələrinin dəyişdirilməsi, muxtar respublika Ali Məclisinin konstitusiya hüquqlarının məhdudlaşdırılmasının zəruriyyəti haqqında fikirlər yayırlar. Təəssüflər olsun ki, bu

işlərdə dövlət və hüquq sahəsində heç bir əməli təcrübəsi olmadan yüksək vəzifələrə təyin olunmuş naxçıvanlılar – Prezident Aparatının əməkdaşı F.Mustafayev, Azərbaycan Respublikası ədliyyə nazirinin birinci müavini A.Kərimov xüsusi canfəşanlıq göstərirlər. Ali Məclis Azərbaycan Respublikasının Prezidentindən xahiş edir ki, gələcəkdə bu şəxslərin Naxçıvan Muxtar Respublikası ilə əlaqədar məsələlərə baxılmasında və həll olunmasında iştirakına yol verilməsin və onlar Prezidentin özünün işinə zərər gətirdiklərinə görə tutduqları vəzifədən azad edilsinlər.

Belə fikirləri yayarkən 18 oktyabr 1992-ci il tarixdə Azərbaycan Ali Soveti tərəfindən qəbul olunmuş Konstitusiya aktında Azərbaycanın unitar dövlət olmasına istinad edilir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi muxtar respublikanın konstitusiya hüquqlarının pozulmasına, Naxçıvanın konstitusiya statusunun dəyişdirilməsinə yönəldilmiş bütün cəhdlərə qarşı öz qəti etirazını bildirir. Azərbaycanı unitar dövlət kimi müəyyən edən konstitusiya aktına gəldikdə isə Ali Məclis bəyan edir ki, Naxçıvan Muxtar Respublikasının ali dövlət hakimiyyəti orqanları belə bir qərarın qəbul edilməsində iştirak etməmiş və onu qeyri-qanuni hesab edir. Onu da qeyd etmək lazımdır ki, həmin konstitusiya aktı respublikanın rəhbərliyində A.Mütəllibov olduğu vaxt qəbul edilmişdir. Məlumdur ki, Naxçıvanda A.Mütəllibovun prezident seçilməsi ilə əlaqədar seçkilərin qadağan edilməsinə görə, o, Naxçıvan Muxtar Respublikasına qarşı çox mənfi mövqedə durmuşdur. Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqlarının pozulmasına yönəldilmiş Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinin Ali Sovetin sessiyasında dəyişdirilməsi üçün göstərilən cəhd də məhz bununla əlaqədardır.

Böyük təəssüf hissi ilə qeyd etmək lazım gəlir ki, indi Azərbaycanda yüksək dövlət vəzifələri tutan bəzi şəxslərin Naxçıvan Muxtar Respublikasına münasibəti də keçmiş rəhbərliyin münasibəti kimidir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hesab edir ki, xüsusi coğrafi və geopolitik şəraitdə yerləşən Naxçıvanın 70 il bundan əvvəl muxtar respublika statusu əldə etməsi tarixi nailiyyətdir və ona edilən hər bir qəsdi müstəqil Azərbaycanın milli dövlətçiliyinə, Naxçıvan Muxtar Respublikasının hər bir vətəndaşının hüquq və mənafeyinə edilən qəsd kimi qiymətləndirmək lazımdır.

Muxtar Respublika əhalisinin iradəsini ifadə edərək Ali Məclis Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqlarının sarsılmazlığını bəyan edir və onların pozulmasına cəhd göstərənlərin hamısına məsuliyyətləri haqqında xəbərdarlıq edir.

Naxçıvandakı son hadisələrlə, Azərbaycandakı mürəkkəb siyasi proseslərlə əlaqədar Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bəyan etməyi lazım bilir ki, xalq tərəfindən seçilən Azərbaycan Respublikasının xalq deputatlarını konstitusiya hüquqlarından məhrum edən Milli Məclisin yaranması və fəaliyyəti hüquqa, Konstitusiyaya zidd xarakter daşıyır. Bununla əlaqədar olaraq, qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin buraxılması, Ali Sovetin sessiyasının çağırılması və onun normal, tam fəaliyyəti üçün şərait yaradılması barədə təklif irəli sürülür. Əgər Ali Sovet lazım bilirsə, onun özünü buraxması məsələsinə də baxa bilər. Milli Məclisin konstitusiya normalarını pozması barədə lazımi qədər fakt var. Azərbaycan Respublikasının xarici işlər naziri T.Qasımov, eyni zamanda xalq deputatı, Milli Məclisin üzvü və hətta Ali Sovetin daimi komissiyasının sədri vəzifəsini daşıyır. Bu, yeganə hal deyil.

Ali Məclis qeyd etməyi lazım bilir ki, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin rəhbərliyi Naxçıvan Muxtar Respublikasına münasibətində qeyri-obyektiv, qərəzli mövqe tutur və bir çox hallarda muxtar respublikanın həyatı barədə Azərbaycanın ictimaiyyətinə yanlış məlumatlar verir. Azərbaycan televiziyasının 1992-ci il oktyabrın 24-də Naxçıvanda baş vermiş hadisələrə dair verilişləri təhrikçilik xarakteri daşımış, ictimaiyyətə bu barədə yalan məlumatlar verilmişdir.

Ali Məclis Heydər Əliyevin Bakıda ayrı-ayrı dairələr və Naxçıvan Xalq Cəbhəsindən olan bəzi adamlar tərəfindən ona qarşı hazırlanan terrorçuluq aktı barədə məlumatın və bütün məsuliyyətin Azərbaycanın dövlət rəhbərliyinin üzərinə düşdüyü barədə bəyanatını narahatlıqla və həyəcanla qəbul etdi.

Yuxarıda qeyd olunanları əsas tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin 1992-ci ilin oktyabr ayının 24-də Naxçıvan Xalq Cəbhəsi və onun silahlı qüvvələri tərəfindən işğal olunması, bu dövlət orqanlarının işinin bir neçə saat ərzində iflic vəziyyətinə salınması və beləliklə, bütün əhaliyə böyük mənəvi zərbə vurulması Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi cəhdi kimi qiymətləndirilsin.

2. Naxçıvan Muxtar Respublikasının Prokurorluğuna tapşırılsın ki, Naxçıvan Muxtar Respublikasında Xalq Cəbhəsi tərəfindən dövlət çevrilişi etmək cəhdi ilə əlaqədar əsaslı surətdə istintaq aparılsın və günahkarlar cinayət məsuliyyətinə cəlb edilsinlər. Görülən tədbirlər və onların nəticəsi barədə Ali Məclisə məlumat verilsin.

3. Azərbaycan Xalq Cəbhəsinin Naxçıvan vilayət şöbəsindən tələb edilsin ki, bütün silahlı dəstələrini ləğv etsin və

üç gün müddətində onların sərəncamında olan silahların Naxçıvanın ərazisində yerləşən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi hissəsinə təhvil versin.

Silahların təhvil verilməsi və bu işə nəzarətin təşkil edilməsi məqsədilə aşağıdakı tərkibdə deputat komissiyası yaradılsın:

Q.Məmmədov – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini (sədr), A.Kələntərli – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini, T.Sadıqov, E.Hüseynov, F.Şirzadov, Ə.Talıbov, R.İbadov, M.Mahmudov, H.Həsənov, T.Allahyarov, E.Cəlilov – Naxçıvan Muxtar Respublikasının xalq deputatları.

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəydən xahiş edilsin ki, Naxçıvan Xalq Cəbhəsinin silahlı dəstələrinin ləğv edilməsi və onlarda olan bütün silahların təhvil verilməsi üçün lazımi göstəriş versin.

4. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi cəhdinin aradan qaldırılmasında iştirak edən bütün həmvətənlərə minnətdarlığını bildirir və bəyan edir ki, Ali Məclis bundan sonra da Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqlarının, hər bir vətəndaşın hüquq və azadlıqlarının qorunmasını təmin edəcək.

5. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəydən, Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilsin ki, bu qərara baxıb onunla əlaqədar lazımi tədbirlər görsünlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisi sədrinin birinci müavini
R.HƏSƏNOV

Naxçıvan şəhəri,
25 oktyabr 1992-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI İCTİMAİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN BƏYANATI

24 oktyabr 1992-ci il tarixdə AXC Naxçıvan bölgəsinin qanunsuz fəaliyyət göstərən silahlı qüvvələri hərbi zirehli texnikanın köməyi ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyini və Naxçıvan televiziya mərkəzini zor tətbiq etməklə zəbt etmişlər.

Onlar televiziya vasitəsilə bu qanunsuz hərəkətlərindən Azərbaycan Respublikasının daxili işlər naziri İ.Həmidovun, hətta Azərbaycan Respublikasının prezidenti, Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəyin məlumatı olduğunu bildirmişlər. AXC Naxçıvan bölgəsinin liderlərindən A.Quliyev və F.Quliyevin fitnəkar çıxışları Naxçıvan əhalisini çaşdıra bilməmiş, əksinə, onları muxtar respublikanın Konstitusiya hüquqlarını müdafiə etməyə yönəltmişdir.

Muxtar Respublikanın ictimaiyyəti qanunsuz silahlı dəstələrin azğın hərəkətlərindən son dərəcə hiddətlənmiş, bu fitnəkarlığa son qoymağı, qanunsuz yolla zəbt edilən dövlət binalarını dərhal boşaltmağı qətiyyətlə tələb etmişlər. Bu çevriliş həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə qarşı terror aktı idi.

Bizi hiddətləndirən odur ki, AXC Naxçıvan bölgəsinin silahlı qüvvələrinin qanunsuz hərəkətləri başlayan andan bu əməllər barədə Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəyə, Azərbaycan Respublikası Ali Sovetinin sədri İsa Qəmbərova məlumat verilsə də, qanunun və haqqın müdafiəsi üçün Azərbaycan Respublikasının rəhbərliyi heç bir tədbir görməmiş, əksinə, Naxçıvan Muxtar Respublikasında silahlı yolla hakimiyyəti devirmək istəyən qüvvələrə razılıq vermişdir.

Muxtar Respublika sakinlərinin Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarını və qanuni hakimiyyət orqanlarını fəal müdafiəyə qalxması nəticəsində basqınçılar məğlubiyyətə uğramış, qanunsuz saxladıqları zirehli texnikanın köməyi ilə qaçıb gizlənə bilmişlər.

Naxçıvan Muxtar Respublikasının ağsaqqalları və ziyalıları bütün bu əməlləri dövlət çevrilişi kimi qiymətləndirirlər.

İrticaçı məqsədinin baş tutmadığını görən İ.Həmidov 27 oktyabr tarixdə xüsusi təlim görmüş 350 nəfərdən ibarət "Bozqurd" silahlı dəstəsi ilə Naxçıvana gəlməyə cəhd etmişdir. Onun bu gəlişdə niyyəti 27 oktyabr 1992-ci il tarixli "Komsomolskaya pravda" qəzetinin müxbirinə verdiyi müsahibəsində dediyi kimi – "H.Əliyevin alnına şəxsən özü patron çaxmaq" olmuşdur. Lakin görülmüş tədbirlər nəticəsində İ.Həmidovun Naxçıvana təkrar uçuş cəhdi baş tutmamışdır.

Verilən məlumata görə, İ.Həmidov Naxçıvana qarşı növbəti təxribat hazırlayır. Belə ki, o, Bakı şəhərində yaşayan naxçıvanlı gənclərə müxtəlif vəzifə vədləri verərək, onları müxtəlif qruplarla, ayrı-ayrı təyyarələrdə Naxçıvana göndərir və Naxçıvan Xalq Cəbhəsinin sıralarına qatır. Toplantı iştirakçıları İ.Həmidovun bu hərəkətini pisləyir və Naxçıvana qarşı yeni təcavüzkarlıq planı kimi qiymətləndirirlər. Biz respublika rəhbərliyindən İ.Həmidovun bu hərəkətlərinə görə məsuliyyətə alınmasını və istefa verməsini tələb edirik.

Naxçıvan Xalq Cəbhəsi irticaçı mövqeyindən əl çəkmək istəmir. Onlar respublikanın daxili işlər naziri İsgəndər Həmidovun təzyiqi və təkidi ilə Naxçıvan əhalisini qanda boğmağa çalışırlar. Əgər Naxçıvan Xalq Cəbhəsi bu qəddar, amansız niyyətdən əl çəkməsə, bu təhlükəni aradan qaldırarkən bütün məsuliyyət Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətdə olan başçılarının, xüsusən İsgəndər Həmidovun üzərinə düşür.

Toplantı iştirakçıları qəti tələb edirlər ki, yeni Azərbaycan Konstitusiyası qəbul edilənədək mövcud Konstitusiyada heç bir dəyişiklik aparılmasın. Biz eyni zamanda, 25 oktyabr tarixli Ali Məclisin fövqəladə sessiyasının xalqın vəsaiti hesabına alınmış və xalqa qarşı çevrilmiş silahların Xalq Cəbhəsi üzvlərindən yığılması barədə qəbul etdiyi qərarı bəyənirik.

Çevrilişlə əlaqədar sessiyanın qəbul etdiyi qərarda göstərilmişdir ki, MR Prokurorluğu təcili surətdə cinayətkarları müəyyən etməli və onları məsuliyyətə almalıdır. Təəssüf ki, qərar bu günədək icra olunmamışdır. Muxtar respublika prokuroru Ə.Əhmədovun bu dövlət cinayətinə olan laqeydliyi və məsuliyyətsizliyi pislənməlidir. Əgər bir sutka ərzində işində dönüş yaratmasa, o, tutduğu vəzifədən kənarlaşdırılmalıdır.

Naxçıvan ictimaiyyəti eyni zamanda, onu da pisləyir ki, Azərbaycan Respublikasının bəzi dairələri, o cümlədən televiziya şirkəti minlərlə adamın qanuni şəkildə və haqqın müdafiəsinə qalxaraq keçirdikləri mitinqlərə başqa don geydirərək onların təsirini azaltmağa çalışırlar.

Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinin son günlər Naxçıvan və onun rəhbərliyi haqqında yaydığı yalan məlumatlar Naxçıvanın Ali Məclisinə və onun rəhbərliyinə qarşı təxribat kimi qiymətləndirilir.

Toplantı iştirakçıları Azərbaycan Respublikası Prezidentindən öz andına əməl edərək Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqlarının qorunmasını xahiş və tələb edir.

Bəyanat bütün kütləvi informasiya vasitələrinə göndərilsin.

(Bəyanat 28 oktyabr 1992-ci il tarixdə Naxçıvan Muxtar Respublikası ictimaiyyəti nümayəndələrinin toplantısında qəbul edilmişdir).

YENİ AZƏRBAYCAN PARTİYASININ BƏYANATI

Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi tarixi bir hadisədir. Bu müstəqillik Azərbaycanın dövlət orqanları və bütün vətəndaşları qarşısında məsul və mürəkkəb vəzifələr qoyur.

Hamıya məlumdur ki, bu gün respublika ağır siyasi, iqtisadi, sosial və mədəni böhran keçirir. Lakin bu böhran nə qədər dərin olsa da, başlıca şərt respublikanın bütün həyat sahələrində sabitlik yaratmaq və bu vəziyyətdən çıxmaq üçün təsirli tədbirlər görməkdən ibarətdir.

Yeni Azərbaycan Partiyası parlament tipli siyasi partiya olub, qanunun amirliyi, hamının qanun qarşısında bərabərliyi, dövlət və vətəndaşın qarşılıqlı məsuliyyəti və Konstitusiya ilə təsbit edilmiş normalara hörmət edilməsi prinsipini əldə rəhbər tutur.

Yeni Azərbaycan Partiyasının başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı demokratik hüquqi dövlətin yaradılması, möhkəm əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaqdan, irqindən, milliyyətindən, dinindən və dilindən asılı olmayaraq, şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli inkişafı və etibarlı müdafiəsini təmin etmək məqsədilə geniş demokratik islahatların həyata keçirilməsi uğrunda mübarizə aparmaqdan ibarətdir. Bizim şüarımız: müxalifət naminə müxalifət ola bilməz. Bizim prinsipimiz – konstruktivlikdir.

Müasir şəraitdə partiya öz iqtisadi strategiyasının əsasını respublikanın iqtisadi-sosial vəziyyətini, millətin mentaliteti, onun tarixi-mədəni ənənələrini nəzərə almaqla tənzimlənən bazar iqtisadiyyatına keçməkdə görür. Bu, inkişaf etmiş

dövlətlərin təcrübəsinə, xalq təsərrüfatında çoxukladlığa və mülkiyyətin müxtəlif formalarına əsaslanmaqla müstəqil iqtisadi proqramın hazırlanmasını tələb edir.

Partiyanın fikrincə, müstəqil Azərbaycanın gələcəyi qanunun, humanizmin və praqmatizmin təntənəsindən asılıdır. Əsl demokratik islahatlar dövlət hakimiyyətinin üç güclü, müstəqil bölgüsünə əsaslanmalıdır. Sivilizasiyalı dövlətin həyat fəaliyyətinin bu əsas prinsipi tətbiq edilmədən peşəkarlığın üstünlüyünə, klanlığın, qrupbazlığın, korrupsiyanın ləğvinə ümid bəsləmək olmaz. Yaxşı hökumət o deyil ki, insanları xoşbəxt etmək istəyir, yaxşı o hökumətdir ki, buna hansı yollarlasa nail olmağı bacarır.

Yeni Azərbaycan Partiyası qarşıya qoyulan bu məqsədlərə çatmaq üçün bütün siyasi partiyalar və ictimai təşkilatlarla, ictimaiyyətin geniş dairələri ilə fəal əməkdaşlıq etməyə, bütün səviyyələrdə ümumi mənafeləri razılaşdırmağa, başqa siyasi mövqedə və əqidədə olanlarla açıq, vicdanlı dialoq və danışıqlar aparmağa hazır olduğunu bildirir.

Yeni Azərbaycan Partiyası əmindir ki, onun Proqram və Nizamnaməsində irəli sürdüyü bu müddəalar Azərbaycan Respublikasının vətəndaşları tərəfindən rəğbətlə qarşılanacaq.

21 noyabr 1992-ci il

Naxçıvan Muxtar Respublikasında və onun ətrafındakı vəziyyətlə əlaqədar bəzi məsələlər haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN Q Ə R A R I

Artıq uzun müddətdir ki, Naxçıvan Muxtar Respublikası son dərəcə ağır şəraitdə yaşayır. Səkkiz aydan artıqdır ki, Ermənistanın ərazisindən keçən, muxtar respublika iqtisadiyyatının və əhalisinin ehtiyaclarını təmin etmək üçün yüklərin daşınmasında yeganə nəqliyyat vasitəsi olan Naxçıvanla Bakı arasında dəmir yol magistralı işləmir. Dörd aydır ki, Azərbaycandan Naxçıvana gələn elektrik enerjisi kəsilmiş, Araz çayı üzərində olan balaca hidroelektrik stansiyası isə muxtar respublikanın tələbatının yalnız iyirmi faizini ödəyir. Bakı-Astara-Culfa-Naxçıvan marşrutu ilə İran ərazisindən keçən avtomobil yolundan məsafənin çox uzunluğuna və digər obyektiv və subyektiv səbəblərə görə səmərəli istifadə olunmur.

Beləliklə, Ermənistan ərazisi ilə Azərbaycanın əsas ərazisindən ayrılmış, Bakı ilə kommunikasiya xətlərindən məhrum olmuş Naxçıvan Muxtar Respublikası tam blokada vəziyyətinə düşmüşdür. Bütün bunlar muxtar respublikanın iqtisadiyyatında son dərəcə ağır vəziyyət yaratmış, əhalinin maddi və məişət şəraitinin tamamilə pisləşməsinə gətirib çıxarmışdır. Sənaye və əsaslı tikinti tamamilə iflic olmuş, kənd təsərrüfatı kritik vəziyyətə düşmüşdür. Muxtar respublikada təqribən 50 min nəfər işsiz vardır.

Qışın gəlməsi ilə əlaqədar bunaların istiliklə təmin olunmasında çətin vəziyyət yaranmışdır. Yaşayış evlərində, ictimai binalarda qazanxana təsərrüfatı işləmir. Bir çox

yaşayış məntəqələrində yanacaq kimi istifadə məqsədilə ağaclar kütləvi surətdə kəsilir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları nəzərə alaraq və payız-qış mövsümündə vəziyyətin daha da gərginləşəcəyini görərək dəfələrlə Azərbaycan Prezidentinə, Azərbaycan Respublikasının Ali Sovetinə və Nazirlər Kabinetinə müraciət edib sosial-iqtisadi məsələlərin həlli üçün səmərəli tədbirlərin qəbul olunmasını xahiş etmiş, muxtar respublikanı blokada vəziyyətindən çıxarmaq məqsədilə Bakı ilə Naxçıvan arasındakı dəmir yolunun işinin bərpa olunmasının vacibliyini irəli sürmüşdür.

Azərbaycan Respublikasının Milli Məclisi iki dəfə – 1992-ci il iyul ayının 15-də və 1992-ci il avqust ayının 18-də Naxçıvan Muxtar Respublikasında vəziyyət haqqında məsələ müzakirə edərək müvafiq qərarlar qəbul etmişdir. Lakin onlar Azərbaycanın nazirlikləri və baş idarələri tərəfindən yerinə yetirilməmiş, muxtar respublikanın sosial-iqtisadi həyatına mahiyyətcə heç bir müsbət təsir göstərməmişdir. Dəmir yolunun işinin bərpası və Naxçıvanda iqtisadi blokadanın ləğvi üçün lazımi tədbirlər görülməmişdir. Çox təəssüf ki, Azərbaycanın dövlət hakimiyyəti orqanlarının bəzi rəhbərləri muxtar respublikanın 350 minlik əhalisinin taleyi ilə hesablaşmayaraq, Bakı ilə Naxçıvan arasında dəmir yolunun işinin bərpası məsələsində hətta neqativ mövqe tutmuşlar.

Belə bir şəraitdə muxtar respublikanın Ali Məclisi və Nazirlər Kabineti muxtar respublikanın çox az olan daxili imkanlarından maksimum istifadə etməyə çalışır, qonşu dövlətlərlə – Türkiyə və İranla iqtisadi əlaqələrin inkişafı üçün lazımi tədbirlər həyata keçirirlər.

1992-ci il mart ayının 24-də Ankarada Türkiyə Respublikası hökuməti ilə Naxçıvan Muxtar Respublikası arasında müqavilə imzalanmışdır. Belə bir müqavilə də 1992-ci il av-

qust ayının 24-də Tehranda İran İslam Respublikası hökuməti ilə Naxçıvan Muxtar Respublikası arasında imzalanmışdır.

Həmin müqavilələrdə iqtisadi, ticarət, mədəni əməkdaşlığın inkişaf etdirilməsi, Naxçıvan üçün həyati vacib bəzi məsələlərin həlli, Naxçıvan Muxtar Respublikasına iqtisadi yardım göstərilməsi nəzərdə tutulmuşdur. Bu müqavilələrə əsasən son vaxtlar Naxçıvana ərzaq və yanacaq malları daxil olur və bu da muxtar respublikanın tələbatını qismən ödəməyə imkan yaradır.

Türkiyə Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına ərzaq malları alınması üçün ayrılmış 10 milyon Amerika dolları məbləğində kredit hesabına son dörd ayda Naxçıvana 293 ton mal əti, 250 ton kərə yağı, 700 ton marqarin, 182 ton zeytun yağı, 363 ton günəbaxan yağı, 460 ton toyuq əti, 2283 ton şəkər tozu, 400 ton düyü, 600 ton makaron, 6 min ton un gətirilmişdir.

Bu yardımın nə qədər əhəmiyyətli olduğunu təsəvvür etmək üçün bildirmək lazımdır ki, keçən dörd ay ərzində Bakıdan Naxçıvana cəmi 15 ton mal əti, 219 ton kərə yağı, 35 ton şəkər tozu, 164 ton düyü, 2 ton makaron, 3200 ton un gəlmişdir.

Oktyabr-noyabr aylarında İran İslam Respublikasından 520 ton dizel yanacağı, 540 ton mazut, 220 ton daş kömür, 955 ton kartof, 350 ton un, 97 ton soğan daxil olmuşdur.

Bu il dekabr ayının 3-dən İran İslam Respublikasından Naxçıvana təqribən 30 mqvt gücündə elektrik enerjisinin verilməsinə başlanmışdır. Bir ay ərzində Türkiyədən (İqdır şəhəri) Naxçıvana çəkilən elektrik xəttinin tikintisi başa çatacaq, muxtar respublikanın elektriklə təminatı xeyli yaxşılaşacaqdır.

Lakin bütün bunların hamısı muxtar respublika əhalisinin ərzaq mallarına və yanacağa olan minimum tələbatını

belə ödəmir, qışın sərt dövründə insanların həyatı üçün təhlükəli ola biləcək halların qarşısını almağa imkan vermir.

Belə bir çətin şəraitdə Naxçıvan Muxtar Respublikasının əhalisi Azərbaycanın dövlət rəhbərliyindən lazımi diqqət və qayğı, sosial-iqtisadi məsələlərin həlli üçün konkret tədbirlərin həyata keçirilməsini, real praktiki kömək edilməsini gözləyir.

Təəssüflər olsun ki, belə bir münasibət hiss olunmur. Əksinə, Azərbaycan dövlət hakimiyyət orqanlarının bəzi rəhbərləri muxtar respublikaya kömək etmək əvəzinə onun rəhbərliyinə təzyiq göstərməyə cəhd edir, Naxçıvan Muxtar Respublikasının Konstitusiya statusunda dəyişiklik etmək, onun konstitusiya hüquqlarını məhdudlaşdırmaq tədbirlərinə əl atırlar. Onlar hətta Naxçıvan Muxtar Respublikasının dövlət quruculuğu sistemində dəyişikliklər etməyə cəhd edərək pozucu elementlərə, Azərbaycan rəhbərliyi ilə Naxçıvan rəhbərliyi arasındakı münasibətləri gərginləşdirməyə, şəraiti sabitsizləşdirməyə əsas verirlər.

Görünür, Azərbaycan Xalq Cəbhəsinin bu yaxınlarda keçirilən qurultayının Naxçıvana qarşı tutduğu neqativ mövqeyini də bununla izah etmək olar. Naxçıvandakı vəziyyət təhrif olunmuş, ictimaiyyətə böhtançı formada yanlış məlumatlar verilmişdir. Naxçıvandan olan bəzi nümayəndələrin və Azərbaycanın rəsmi rəhbərliyinin nümayəndəsinin çıxışlarında muxtar respublikanın ali hakimiyyət orqanının qanuni seçilmiş sədrinin silah yolu ilə devrilməsinə yönəldilən antikonstitusion, hüquqa zidd, hətta terrorizmə, vandalizmə çağırışlar səslənmişdir.

Ən təhlükəlisi ondan ibarətdir ki, qurultayın işində iştirak edən Azərbaycanın dövlət hakimiyyəti orqanlarının rəhbərləri bu kimi hücumların və çağırışların qarşısını almamışlar. Əksinə, bu çağırışlar dövlət televiziyası və bəzi mətbuat orqanları tərəfindən geniş reklam edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cəbhəsinin qurultayı öz iş vaxtının böyük hissəsini Naxçıvanın dövlət hakimiyyəti orqanlarına aid süni surətdə ortaya atılmış məsələlərə həsr edərək muxtar respublikanın mürəkkəb sosial-iqtisadi problemlərinə heç bir maraq göstərməmiş, əhalini çörəklə, digər ərzaq məhsulları ilə, elektrik enerjisi ilə, yanacaqla təmin etmək kimi mühüm məsələlərə qətiyyən toxunmamışdır.

Azərbaycan Xalq Cəbhəsinin qurultayında Naxçıvan Xalq Cəbhəsi rəhbərliyinin terrorizmə, zorakılığa səsləyən çağırışları təsadüfi xarakter daşımır. Məlum olduğu kimi, 1992-ci il oktyabr ayının 24-də Naxçıvan Xalq Cəbhəsinin rəhbərləri sərəncamlarında olan qanunsuz dəstələrdən istifadə edərək Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi etməyə cəhd göstərmişlər. Onlar muxtar respublika Daxili İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binalarını zəbt etmiş, bir neçə saat ərzində onların fəaliyyətini iflic etmiş, vəzifəli şəxslərə qarşı hüquqa zidd hərəkətlərə yol vermiş, bütün əhaliyə böyük mənəvi zərbə vurmuşlar. Yalnız Naxçıvan əhalisinin fəal müqaviməti nəticəsində Xalq Cəbhəsinin rəhbərləri öz cinayətkar məqsədlərinə nail ola bilməmişlər.

Bu məsələ 1992-ci il oktyabr ayının 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasının iclasında müzakirə edilmişdir. Naxçıvan Xalq Cəbhəsinin, onun silahlı dəstələrinin 1992-ci il oktyabr ayının 24-də törətdikləri qanuna zidd hərəkətləri Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi cəhdi kimi qiymətləndirmişdir. Ali Məclis tələb etmişdir ki, Xalq Cəbhəsinin qanunsuz silahlı dəstələri ləğv edilsin və bütün silahlar Naxçıvanda yerləşən Azərbaycan Müdafiə Nazirliyinin hərbi hissəsinə təhvil verilsin.

Ali Məclisin sessiyasının qərarında həmçinin Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqları, Azərbaycan

Respublikasının Milli Məclisinin fəaliyyəti ilə əlaqədar məsələlər də qaldırılmışdır.

Muxtar respublikanın Ali Məclisi göstərilən qərarını Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə, Azərbaycan Respublikasının Ali Sovetinə təqdim edərək xahiş etmişdir ki, bu qərara baxılsın və lazımi tədbirlər görülsün. Lakin uzun müddət keçməsinə baxmayaraq Azərbaycanın ali dövlət hakimiyyəti orqanları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin xahişinə baxmamış, muxtar respublikanın konstitusion orqanına və onun bütün əhalisinə hörmətsizlik göstərmişdir. Təəccüblü deyil ki, Naxçıvan Xalq Cəbhəsinin rəhbərləri və onların Azərbaycanın hakimiyyət orqanlarında olan himayədarları qanuna zidd hərəkətlərinə görə öz cəzasızlıqlarını hiss edərək zorakılığa, terrorizmə, Naxçıvan Muxtar Respublikasının qanuni seçilmiş dövlət hakimiyyəti orqanlarının rəhbərliyinin silah yolu ilə devrilməsinə açıq çağırışlarla çıxışlar edirlər.

Ali Məclisin Rəyasət Heyəti qeyd edir ki, Bakının bəzi dairələri tərəfindən qızışdırılan Naxçıvan Xalq Cəbhəsinin pozucu, konstitusiyaya zidd mövqeyi muxtar respublikada ictimai-siyasi vəziyyəti gərginləşdirir və Naxçıvanın hakimiyyət orqanlarına ərzağın, yanacağın və digər malların kəskin çatışmadığı dövrdə, blokada şəraitində muxtar respublikanın təminatının əsas məsələlərini həll etməyə ciddi maneçilik törədir.

Ali Məclisin Rəyasət Heyəti bəyan etməyi zəruri hesab edir ki, Bakıda və Naxçıvanda ayrı-ayrı dairələr tərəfindən Naxçıvan Muxtar Respublikası rəhbərliyinin fəaliyyətindəki separatizm haqqında yayılan şayiələr uydurmadır, böhtan xarakteri daşıyır və heç bir əsası yoxdur. Türkiyə və İranla əlaqələrin inkişaf etdirilməsi Azərbaycan Respublikasının ümumi siyasətinin tərkib hissəsidir, uzun müddət blokada

şəraitində olan muxtar respublikanın sosial-iqtisadi problemlərinin həll edilməsinin zəruriliyindən irəli gəlir.

Ermənistanın nümayəndələri ilə görüş və danışıqlara gəldikdə isə, onlar Azərbaycanın dövlət rəhbərliyinin nümayəndələrinin iştirakı ilə aparılır, spesifik coğrafi şəraitdə olan muxtar respublika əhalisinin təhlükəsizliyini təmin etmək zərurətindən doğur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Azərbaycan Xalq Cəbhəsinin ikinci qurultayında Naxçıvan Muxtar Respublikasında silahlı dövlət çevrilişinə dair səslənən məsuliyyətsiz və təhlükəli çağırışlar pislənilsin. Bu cür çağırışların törədə biləcəyi nəticələrin məsuliyyəti Azərbaycan Xalq Cəbhəsinin üzərinə düşür.

Azərbaycan Respublikasının Prezidentindən xahiş edilsin ki, Naxçıvan Xalq Cəbhəsinin muxtar respublikada sabitliyin pozulmasına yönəlmiş və ağır nəticələr verə biləcək hüquqa zidd, antikonstitusion hərəkətlərinin qarşısını almaq üçün tədbirlər görsün.

2. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəydən, Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilsin ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi cəhdi haqqında 25 oktyabr 1992-ci il tarixli qərarına baxılsın, qərardan irəli gələn məsələlərin həyata keçirilməsi üçün tədbirlər görülsün. Naxçıvan Xalq Cəbhəsinin rəhbərliyinin və onun silahlı qruplarının Konstitusiyaya zidd hərəkətlərinə siyasi və hüquqi qiymət verilməlidir.

3. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəydən, Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilsin ki, qərəzli və konyuktur məqsədlər güdən, Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqlarını

tapdalamağa cəhd edən ayrı-ayrı qüvvələrin qarşısını almaq üçün ciddi tədbirlər görülsün.

Belə cəhdlərin Azərbaycan Respublikası üçün, ümumiyyətlə, zərərli və mənasız olduğu aydındır və bu, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 25 oktyabr 1992-ci il tarixli qərarında kifayət qədər inandırıcı surətdə əsaslandırılmışdır. Bu cəhdləri biz Naxçıvanda şəraiti sabitləşdirməyə, Azərbaycan Respublikası ilə Naxçıvan Muxtar Respublikasının hakimiyyət orqanları arasında qarşılıqlı əlaqələri gərginləşdirməyə yönəldilmiş və əvvəlcədən düşünülmüş hərəkət kimi qiymətləndiririk. İndi bütün qüvvələr qarşıdurmaya yox, birliyə, Naxçıvan Muxtar Respublikasını uzunmüddətli blokadadan və ağır vəziyyətdən çıxarmağa yönəldilməlidir.

Ali Məclisin Rəyasət Heyəti muxtar respublikanın konstitusiya hüquqlarının pozulmasına, Naxçıvanın Konstitusiya statusunun dəyişdirilməsi cəhdinə qarşı bir daha öz qəti etirazını bildirir və bəyan edir ki, o bundan sonra da həmin hüquqların toxunulmazlığını müdafiə edəcəkdir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
7 dekabr 1992-ci il

"Naxçıvan Muxtar Respublikasında baş vermiş dövlət çevrilişi cəhdi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 25 oktyabr 1992-ci il tarixli qərarının yerinə yetirilməsi barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, Ali Məclisin 1992-ci il oktyabr ayının 25-də keçirilən fövqəladə sessiyasında muxtar respublika Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin 1992-ci il oktyabr ayının 24-də Naxçıvan Xalq Cəbhəsi, onun silahlı qüvvələri tərəfindən işğal olunması dövlət çevrilişi cəhdi kimi qiymətləndirilmiş, muxtar respublika prokurorluğuna tapşırılmışdır ki, dövlət çevrilişi etmək cəhdi ilə əlaqədar əsaslı surətdə istintaq aparılsın, günahkarlar cinayət məsuliyyətinə cəlb edilsin və görülən tədbirlərin nəticəsi barədə Ali Məclisə məlumat verilsin.

Azərbaycan Xalq Cəbhəsi Naxçıvan vilayət şöbəsindən tələb edilmişdir ki, bütün silahlı dəstələrini ləğv etsin və üç gün müddətində silahları Naxçıvan ərazisində yerləşən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi hissəsinə təhvil versin.

Silahların təhvil verilməsi işinə nəzarətin təşkil edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının xalq deputatlarından ibarət səlahiyyətli komissiya yaradılmışdır (sədr Q.Məmmədov).

Lakin qərarın qəbul olunmasından 40 gündən artıq vaxt keçməsinə baxmayaraq, Xalq Cəbhəsinin silahlı dəstələri

ləğv olunmayıb, silahlar təhvil verilməyib. Deputat komissiyası Ali Məclisin tapşırığını yerinə yetirməyib.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu 1992-ci ilin oktyabr ayının 24-də Naxçıvanda baş vermiş cinayət haqqında istintaqın gedişi və nəticələri barədə Ali Məclisə heç bir məlumat verməyib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. Naxçıvan Xalq Cəbhəsində olan silahların Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvandakı hərbi hissəsinə verilməsi işinə nəzarət etmək üçün yaradılmış deputat komissiyasının işi qeyri-qənaətbəxş hesab edilsin.

Komissiyaya tapşırılsın ki, on gün müddətinə silahların təhvil verilməsini təmin etsin və nəticəsi barədə Ali Məclisə məlumat versin.

2. Naxçıvan Muxtar Respublikası Prokurorluğundan tələb edilsin ki, 1992-ci ilin oktyabr ayının 24-də Naxçıvanda baş vermiş cinayət haqqında istintaqı sürətləndirsin, nəticəsi haqqında Ali Məclisə məlumat versin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
7 dekabr 1992-ci il

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ CƏNAB BİLL KLİNTONA

Hörmətli cənab Prezident!

1992-ci ilin noyabr ayında Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş Ermənistan Respublikasının Prezidenti L.Ter-Petrosyanın xahişinə cavab olaraq uzun müddət iqtisadi blokada şəraitində olması ilə əlaqədar bu respublikaya humanitar yardım göstərilməsini qərara almışdır. 1992-ci il dekabr ayının 4-də Yerevana gələn Amerika Birləşmiş Ştatlarının nümayəndəsi humanitar yardımın praktiki olaraq həyata keçirilməsini elan etmişdir.

Biz Prezident Corc Buşun bu humanist addımını düzgün anlayırıq. Eyni zamanda, Sizə çatdırmaq istəyirik ki, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası artıq səkkiz aydır ki, daha ağır iqtisadi blokada şəraitindədir. Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi ilə bağlayan, Ermənistanın ərazisindən keçən bütün kommunikasiya xətləri pozulmuşdur. Buna görə də Muxtar respublikanın iqtisadiyyatının zəruri ehtiyatlarla təmin olunmasında, əhalinin ərzağa, elektrik enerjisinə, yanacağa olan minimum tələbatının ödənilməsində son dərəcə böyük çətinliklər yaranıb.

Son beş ayda Naxçıvan Muxtar Respublikasının əhalisi əsasən Türkiyə Respublikası hökuməti tərəfindən ayrılan kredit hesabına, Türkiyədən gələn ərzaq malları və İran İslam Respublikasından daxil olan bəzi ərzaq malları və yanacaq hesabına yaşayır.

Naxçıvanı iqtisadi blokadadan çıxarmaq üçün Ermənistanın ərazisindən keçən Naxçıvan-Bakı dəmir yolunun, elektrik və qaz xətlərinin işinin bərpası sahəsində edilən

cəhdlərimiz heç bir müsbət nəticə verməmişdir. Naxçıvanla Bakı arasındakı yeganə rabitə vasitəsi hava nəqliyyatıdır. Lakin bu nəqliyyat yalnız adamların daşınmasını böyük çətinliklərlə təmin edə bilir.

Sərt qış şəraiti vəziyyəti daha da gərginləşdirmişdir. Türkiyədən gələn ərzaq qurtarmaq üzrədir, vəziyyət son dərəcə kritik xarakter almışdır.

Belə bir şəraitdə, bu gün Siz Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsini icra etməyə başladığınız zaman, Sizdən Naxçıvan Muxtar Respublikasına humanitar yardım göstərilməsini xahiş edirəm.

Belə düşünürəm ki, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy bu xahişi bəyənəcək. Onun özü də Naxçıvanın sosial-iqtisadi problemlərini həll etmək üçün tədbirlər görür.

Ümidvaram ki, Sizin, Cənab Prezident, Ermənistan Respublikası ilə böyük sərhəddi olan Naxçıvan Muxtar Respublikasına bu çətin dövrdə göstərəcəyiniz kömək Amerika Birləşmiş Ştatlarının bizim regiona xeyirxah, diqqətli münasibətinin inandırıcı təzahürü olacaq və layiqli qiymətini alacaqdır.

Dərin hörmət və ümidlə,

Heydər ƏLİYEV
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

Naxçıvan şəhəri,
20 yanvar 1993-cü il

PROTOKOL

İki ölkə arasında bağlanan əvvəlki müqavilələr nəzərə alınmaqla bu protokol Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev və Şərqi Azərbaycan ostandarı Əli Əbdüləlizadə arasında Təbriz şəhərində aşağıdakı kimi tərtib edildi:

1. Qərara alındı ki, Şərqi Azərbaycan ostandarlığı tərəfindən Naxçıvan Muxtar Respublikasına hər tonu 160 dollardan 1500 ton toxumluq kartof verilsin.

2. Qərar verildi ki, Şərqi Azərbaycan ostandarlığı tərəfindən Naxçıvan Respublikasına hər tonu 135 dollardan 500 ton toxumluq arpa verilsin.

3. Kənd təsərrüfatı işlərinin aparılması məqsədi ilə Naxçıvan Muxtar Respublikasına hər cütü 100 dollar məbləğində 12 voltluq 400 ədəd (200 cüt) akkumulyator verilsin.

4. Tərəflər belə razılığa gəldilər ki, kənd təsərrüfatı işçiləri ilə görüşmək, bitkilərə qulluq və əkin vərdişlərini öyrətmək, yaz əkini keçirilən yerlərə baxmaq üçün Şərqi Azərbaycan vilayətinin kənd təsərrüfatı mütəxəssisləri Naxçıvan Muxtar Respublikasına göndərilsinlər.

5. Buna qərar verildi ki, aprel ayının əvvəlindən Naxçıvana 10 min ton bitum göndərilsin.

6. Razılaşdırıldı ki, Naxçıvan Muxtar Respublikasının enerji təminatını yaxşılaşdırmaq məqsədi ilə İran İslam Respublikası tərəfindən bundan sonra əvvəlki kimi 40 meqavatt elektrik enerjisi müntəzəm veriləcək və Araz su-elektrik stansiyasındakı bloklardan birinin təmiri zamanı azalan enerjinin əvəzinə Naxçıvana 10 meqavatt elektrik enerjisi ötürüləcəkdir.

7. Tərəflər razılaşdılar ki, həmin protokolun 1; 2 və 3-cü maddələrinin tələblərinə uyğun olaraq 327 min 500 dollar məbləğində mal göndərilməsi barədə öhdəliyə və elektrik enerjisinin irəlicədən Azərbaycan Respublikası ilə razılaşdırılmış qiymətinə əsasən Azərbaycan tərəfi İrana hər tonu 170 dollardan dizel yanacağı verəcəkdir.

8. Bu protokol imzalanandan ən geci 15 gün sonra Azərbaycan Respublikasının nümayəndəsi protokolun 7-ci maddəsinin tələblərinə əməl olunacağı barədə Şərqi Azərbaycan ostandarlığına yazılı təminat verir.

Protokol miladi tarixi ilə 18 mart 1993-cü il, hicri-şəmsi tarixi ilə 27 icfənd 1371-ci ildə Təbriz şəhərində Azərbaycan və fars dillərində 2 nüsxədə imzalanıb və hər nüsxəsi eyni qüvvəyə malikdir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Şərqi Azərbaycanın
ostandarı
Əli ƏBDÜLƏLİZADƏ

Muxtar respublikanın kənd təsərrüfatı istehsalı sahəsində 1992-ci ilin yekunları, 1993-cü ildə qarşıda duran vəzifələr haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, son illər xalq təsərrüfatının bütün sahələrini əhatə edən böhran 1992-ci ildə daha da dərinləşmişdir. Əvvəllər vahid xalq təsərrüfatı kompleksi kimi xüsusi idarəetmə orqanları vasitəsilə tənzimlənən iqtisadi əlaqələrin

dağılması, yeni əlaqələrin yaranması isə xalq təsərrüfatında, o cümlədən onun tərkib hissəsi olan kənd təsərrüfatında da ağır vəziyyət yaratmış, fəaliyyətləri bir-birindən asılı olan müəssisələrin əlaqələri kəsilmişdir.

Ötən ilin əvvəllərində həyata keçirilən bazar iqtisadiyyatı siyasəti aqrar sahəni ağır vəziyyətə salmışdır. Kənd təsərrüfatı maşınlarının, xammal və materiallarının qiymətlərinin kəskin surətdə artması, təsərrüfatların hesablarında olan vasitələrin isə inflyasiya nəticəsində dəyərinin aşağı düşməsi kolxoz və sovxozların, həmçinin kənd əhalisinin maliyyə vəziyyətinə ağır zərbə vurmuş, 1991-ci ilin sonunadək öz məhsulunu ucuz qiymətə satan kəndli ilin əvvəlindən birdənbirə ciddi maliyyə böhranına düşmüşdür.

Qeyd etmək lazımdır ki, digər regionlardan fərqli olaraq 1991-ci ilin dekabr ayından təbii qazın, 1992-ci ilin aprel ayından dəmir yolunun, iyul ayından isə elektrik enerjisinin Ermənistan tərəfindən tamamilə kəsilməsi muxtar respublikanın iqtisadiyyatına, onun əsasını təşkil edən kənd təsərrüfatı istehsalı sahəsinə daha ağır zərbə vurmuşdur.

Muxtar respublikanın uzun müddət iqtisadi blokada şəraitində olması kolxoz və sovxozların, kənd təsərrüfatının emal müəssisələrinin təchizatını pozmuş, onların maşın-mexanizmlərlə, ehtiyat hissələrlə, yanacaqla, gübrələrlə, kimyəvi maddələrlə, tara materialları ilə təminatını hədsiz dərəcədə ağırlaşdırmışdır. Elektrik nasosları altında olan 20 min hektara yaxın əkin sahəsinin suvarılması mümkün olmamışdır.

Şərab və şərab məhsullarının ixrac edilməməsi onun keyfiyyətinin aşağı düşməsinə, təsərrüfatlardan, əhalidən qəbul edilən üzümün müqabilində vəsaitin ödənilməməsinə və emal müəssisələrinin ziyanla işləməsinə səbəb olur. Eyni vəziyyət quru tütün yarpağının ixrac edilməsində də yaranmışdır.

Ötən il mal-qaranın yaylaqlara çıxarılmaması, Azərbaycanın digər rayonlarından muxtar respublikaya qaba və qüvvəli yemin gətirilməməsi, taxılın olmaması ilə əlaqədar taxıl məhsulları kombinatının tam gücü ilə işləməməsi heyvandarlığa ciddi ziyan vurmuş, mal-qara arasında tələfatın artmasına səbəb olmuşdur.

Muxtar Respublikanın sərhəd kəndlərində Ermənistan tərəfindən edilən silahlı basqınlar, əmələ gəlmiş ağır vəziyyəti daha da kəskinləşdirmişdir. Sədərək, Yuxarı Yaycı, Cağazir, Havuş, Günnüt, Yuxarı Buzqov, Kərməçataq, Şada, Biçənək kəndlərinə edilən basqınlar kənd təsərrüfatına xeyli ziyan vurmuşdur. Əhali öz doğma yerlərindən qaçqın düşmüş, onların arasında yaralananlar, ölənlər olmuşdur. Ümumiyyətlə, həmin kəndlərdə kənd təsərrüfatı istehsalı prosesi pozulmuşdur. Sədərəyin, Yuxarı Yaycının təsərrüfatlarında taxıl zəmilərinin bir hissəsi biçilməmiş, Sədərək kəndindəki 1 nömrəli şərab emalı zavodu tamamilə, 2 nömrəli şərab emalı zavodu isə qismən sıradan çıxmışdır.

Muxtar Respublikanın Ali Məclisi, Nazirlər Kabineti, aid nazirliklər və baş idarələri, müvafiq dövlət və kənd təsərrüfatı orqanları mövcud vəziyyətdən çıxış yolları axtarmış, ehtiyat mənbələrindən, daxili imkanlardan istifadə etməklə kənd təsərrüfatı sahəsində müəyyən işlərin görülməsinə nail olmuş, sahənin tamamilə iflicə uğramasının qarşısını almışlar.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə Türkiyə Respublikası hökuməti arasında 24 mart 1992-ci il tarixdə Ankarada imzalanmış iş birliyi protokoluna əsasən muxtar respublikaya bir milyon Amerika dolları dəyərində verilən mal-material yardımı kənd təsərrüfatını böhranlı vəziyyətdən çıxarmış, məhsul istehsalına öz həlledici təsirini göstərmişdir.

Digər ən mühüm dövlət tədbirlərindən biri muxtar respublika Ali Məclisi və İran İslam Respublikası hökuməti

arasında 24 avqust 1992-ci il tarixdə Tehranda imzalanmış protokol olmuşdur. Bu protokola və İran İslam Respublikasının rəhbərliyi ilə aparılan danışıqlara əsasən İran İslam Respublikası ərazisindən keçməklə Naxçıvanla Bakı arasındakı şose yolu istifadəyə verilmiş, muxtar respublikanın xalq təsərrüfatında, o cümlədən, kənd təsərrüfatı sahəsində iqtisadi fəlakətin qarşısı alınmışdır. Hazırda həmin protokola görə yaz tarla işləri üçün zəruri olan yanacağın və kənd təsərrüfatı bitkilərinin toxumlarının əldə olunması həyata keçirilir. Mart ayının 31-nə muxtar respublika üzrə 800 hektar sahədə yazlıq taxıl, 100 hektar vələmir, 40 hektar yonca, 300 hektar şəkər çuğunduru əkini aparılmışdır.

Qeyd etmək lazımdır ki, keçən ilin böhranlı vəziyyəti Ali Məclisin sessiyalarında, Rəyasət Heyətində, Nazirlər Kabinetində vaxtaşırı təhlil olunmuş, müvafiq qərarlar qəbul edilmiş, gərgin vəziyyətdən çıxış yolları müəyyənləşdirilmişdir. Məhz qəbul olunmuş qərarlar nəticəsində Azərbaycan Respublikasının Milli Məclisi, Respublika Nazirlər Kabineti muxtar respublikanın vəziyyəti ilə əlaqədar bir neçə dəfə məsələ müzakirə etmiş, vəziyyətdən çıxış üçün müvafiq təşkilati tədbirlər müəyyənləşdirilmişdir.

Həyata keçirilən tədbirlər nəticəsində ötən il muxtar respublikanın ictimai təsərrüfatlarında 25424 ton taxıl, 2952 ton tütün, 1638 ton tərəvəz, 22486 ton üzüm, 596 ton meyvə, 2165 ton ət, 4173 ton süd, 4 milyon 263 min ədəd yumurta istehsal edilmiş, istehsal prosesi dayanmamışdır. Təsərrüfatçılığın yeni formaları – kəndli təsərrüfatları, kənd təsərrüfatı ilə məşğul olan kooperativlər, kiçik müəssisələr yaranmışdır.

Muxtar respublika Ali Məclisinin Rəyasət Heyəti, həmçinin qeyd edir ki, 1992-ci ildə ayrı-ayrı kolxozlarda, sovxozlarda mövcud ehtiyat mənbələrindən və daxili imkanlardan lazımınca istifadə edilməmiş, təsərrüfatsızlıq hallarına,

dövlət və kooperativ mülkiyyətinin mənimsənilməsinə yol verilmişdir.

Muxtar respublika Ali Məclisinin, muxtar respublika Nazirlər Kabinetinin kənd təsərrüfatı sahəsində islahatların keçirilməsinə dair qəbul olunmuş qərarları Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi, onun yerli orqanları, rayonların xalq deputatları məclisləri və onların icraiyyə komitələri tərəfindən yarıtmaz yerinə yetirilmişdir. Ayrı-ayrı təsərrüfatların mal-qarası əhaliyə satılmış, lakin onların əsasında şəxsi və ya kəndli təsərrüfatı yaradılmamışdır. Bu kimi hallara bütün rayonlarda yol verilmişdir. Hətta Şahbuz rayonunun Biçənək təsərrüfatında rayon Xalq Deputatları Məclisi İcraiyyə Komitəsinin qərarı olmadan mal-qara əhaliyə satılmış, təsərrüfatın fəaliyyətinin dayanmasına baxmayaraq, onun mülkünün bölünməsi və digər məsələlər müəyyən olunmuş qanunla həyata keçirilməmişdir.

Kənd təsərrüfatı istehsalı sahəsində baş verən neqativ hallara yol verilməsinin qarşısını almaq məqsədilə Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi tərəfindən əsaslı tədbirlər görülməmişdir.

Nazir Y.Vəliyev Ali Məclisin 18 fevral 1992-ci il tarixli qərarından özü üçün lazımi nəticə çıxarmamış, nazirliyə məqsədyönlü rəhbərlik etmək əvəzinə, bir sıra qeyri-qanuni hallara yol vermişdir.

Narahatlıq doğuran hal odur ki, bir sıra təsərrüfatlarda aparılmış yoxlamalarda mal-qara və heyvanların xeyli miqdarı kəsir gəlmişdir. Culfa rayonunun Əbrəqunus sovxozunda 615 baş, Ordubad rayonunun Unus və Kələki kəndlərini əhatə edən "Kommunizm" kolxozunda 494 baş, Dırnıs kəndini əhatə edən "XXII partiya qurultayı" adına kolxozda 58 baş, Şərur rayonunun Kəngərli, Künnüt sovxozlarında 57 baş, Babək rayonunun Azərbaycan, Böyükdüz kolxozlarında 41 baş xırda buynuzlu heyvan kəsirliyi aşkar olmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. "Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı istehsalı sahəsində 1992-ci ilin yekunları, 1993-cü ildə qarşıda duran vəzifələr haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin məlumatı nəzərə alınsın.

2. Muxtar Respublikanın kənd təsərrüfatı istehsalı sahəsində 1993-cü ildə qarşıda duran vəzifələrin həyata keçirilməsi ilə əlaqədar Nazirlər Kabinetinin tədbirlər planı icra üçün qəbul edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetindən, kənd təsərrüfatı ilə məşğul olan nazirlik və baş idarələrdən, rayon xalq deputatları məclislərindən, onların icraiyyə komitələrindən tələb edilsin ki, 1992-ci ildə kənd təsərrüfatı sahəsində buraxılmış nöqsanların aradan qaldırılması, cari ildə məhsul istehsalının artırılması üçün bütün imkanlardan səmərəli istifadə etməklə bu sahədə konkret tədbirlər görsünlər.

Yaz-tarla işlərini vaxtında başa çatdırmaq məqsədilə yaz əkinləri üçün şumun, toxum tədarükünün, arx və kanalların, su nasoslarının təmirini, texnikanın yaza hazırlığının qısa müddətdə başa çatdırılmasını təmin etsinlər.

Heyvandarlığın yem bazasının möhkəmləndirilməsi, ictimai və şəxsi təsərrüfatlarda mal-qaranın baş sayının, heyvandarlıq məhsullarının istehsalı və tədarükünün artırılması üçün təsərrüfatlara yaxından əməli köməkliklər göstərsinlər.

4. Naxçıvan Elektrik Şəbəkələri Müəssisəsi, Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Nazirliyi kənd təsərrüfatı əkinlərinin suvarma suyu ilə təmin edilməsi üçün elektrik enerjisindən səmərəli istifadə etməklə su nasoslarının normal işini təşkil etsinlər. Türkiyə Respublikasından daxil olan enerjinin gərginliyinin artırılması məqsədilə

respublika təşkilatı ilə birliyə müvafiq transformatorun gətirilməsini təmin etsinlər.

5. Muxtar Respublika Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi, rayon xalq deputatları məclisinin icraiyyə komitələri və onların yerli təşkilatları kənd təsərrüfatının bütün sahələrində aqrotexniki tədbirlərin vaxtında, düzgün aparılması, yetişdirilmiş məhsulun itkisiz yığılmasını, emal və tədarük təşkilatlarına göndərilməsi işini mütəşəkkil təşkil etsin, hər bir təsərrüfatda möhkəm əmək intizamı yaratsın, torpaqdan səmərəli istifadə edilməsinə nail olsunlar.

6. Muxtar Respublika Ali Məclisinin 6 aprel 1991-ci il tarixli "Rentabelli işləyən kolxoz və sovxozların mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarının rayon xalq deputatları məclisləri və onların icraiyyə komitələri tərəfindən yarımaz yerinə yetirildiyi qeyd edilsin.

7. Tapşırılsın Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə, rayon xalq deputatları məclislərinə, onların icraiyyə komitələrinə, rayonların kənd təsərrüfatı və ərzaq idarələrinə "Kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 4 aprel 1992-ci il tarixli və muxtar respublika Ali Məclisinin 6 aprel 1992-ci il tarixli "Zərərlə işləyən təsərrüfatların ləğv edilməsi və şəxsi təsərrüfatların yaradılması haqqında" qərarlarının qanunauyğun surətdə həyata keçirilməsini təmin etsinlər. İlk növbədə dağlıq ərazidə yerləşən, ziyanla işləyən kiçik təsərrüfatlarda islahatın keçirilməsi məqsədəuyğundur.

8. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə tapşırılsın ki, kənd təsərrüfatının bütün sahələrində ailə, icarə podratı, əmək haqqı və əməyin təşkili formalarını tətbiq etsin, mütərəqqi formaların tətbiqinə mane olan hallar aradan qaldırılsın. Bu məqsədlə nazirlikdə münaqişə komissiyasının yaradılması tövsiyə edilsin.

9. Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq Komitəsinə torpaqların şoranlaşdırılmasının, dağıdılmasının qarşısını almaq məqsədilə qısa müddətdə torpaqların inventarizasiyasını başa çatdırmaq, torpaqlardan səmərəli istifadə edilməsi yolları haqqında təkliflər verməsi tapşırılsın.

10. Kənd təsərrüfatı istehsalı proseslərinin pozulması üçün işin ahəngdar təşkilində mühüm rol oynayan yanacaqla təsərrüfatların təmin edilməsi Nazirlər Kabinetinin, Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin başlıca vəzifələri hesab edilsin.

11. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə, Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinə, Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə, Milli Banka tapşırılsın ki, yaranmış kəndli təsərrüfatına, kənd təsərrüfatı kooperativlərinə və şirkətlərinə kreditlər verilməsinə, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə əməli köməklik göstərsinlər.

12. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, İqtisadiyyat və Planlaşdırma Komitəsi muxtar respublika əhalisinin ərzaq məhsullarına, xüsusilə taxıla olan tələbatını nəzərə alaraq, rayonların yerli orqanları ilə birlikdə yeni əkin strukturunu hazırlasınlar.

13. Muxtar respublika Nazirlər Kabinetinə, Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinə muxtar respublikada kənd təsərrüfatının idarə edilməsinin müvafiq strukturunu hazırlayıb Ali Məclisə təqdim etməsi tapşırılsın.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetindən xahiş edilsin ki, muxtar respublikada şəkər çuğundurunun istehsalının artırılmasına olan münasibət nəzərə alınaraq şəkər zavodunun tikintisinin plana salınmasına müvafiq köməklik göstərsin.

15. Naxçıvan Muxtar Respublikasının hüquq-mühafizə orqanları kənd təsərrüfatı məhsullarının dağıdılmasının qarşısının alınması məqsədilə təsərrüfat orqanlarına yaxından

köməklik göstərməli, bütün neqativ hallara qarşı qətiyyətli tədbirlər görməlidirlər.

16. Naxçıvan Muxtar Respublikası Prokurorluğu Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi tərəfindən özəlləşdirmə aparılmış təsərrüfatlarda yoxlamaların yekunlarını araşdırıb dövlətə dəyən ziyanın ödənilməsini təmin etməklə, görülmüş işlər barədə vaxtaşırı Ali Məclisə məlumat versin.

17. Muxtar respublikanın radio, televiziya və mətbuat orqanlarına tapşırılsın ki, kənd təsərrüfatı işlərinin gedişini, əməyin mütərəqqi formalarının tətbiqini müntəzəm işıqlandırsınlar.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
2 aprel 1993-cü il

Qış dövründə kəsilmiş ağacların yenidən bərpası sahəsində şəhər, rayon, kənd və qəsəbə xalq deputatları məclislərinin, onların icraiyyə komitələrinin vəzifələri haqqında

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ RƏYASƏT HEYƏTİNİN
Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qeyd edir ki, 1991-ci ilin dekabr ayından təbii qazın, 1992-ci ilin aprel ayından Bakı-Naxçıvan dəmir yolu xəttinin, həmin ilin iyul ayından isə elektrik enerjisinin Ermənistan

tərəfindən kəsilməsi muxtar respublika iqtisadiyyatına ciddi zərbə vurmuş, 1992-93-cü illərdə əhalinin yanacaqla təmin olunması işi tamamilə pozulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Nazirlər Kabineti tərəfindən aparılan tədbirlər nəticəsində bir sıra həyati vacib obyektlərin – çörək zavodlarının fasiləsiz işləməsi, xəstəxanaların, yaşayış mənzillərinin qızdırılmasının yalnız minimum tələbatını ödəmək mümkün olmuşdur.

Nəticədə əvvəlki illərdən sərt soyuğu ilə fərqlənən ötən qış dövründə əhali tərəfindən kəndlərdə, şəhərlərdə yol qıraqlarında, meşəliklərdə ağacların kütləvi qırılması baş vermişdir.

Keçən ilin dekabr ayında muxtar respublikanın enerji sisteminə İran və bu ilin fevral ayından isə Türkiyədən gələn elektrik xətlərinin birləşməsi, bağlanılmış müqavilələrə əsasən İran İslam Respublikası tərəfindən daxil olan yanacaq materialları əhalinin qışdan sağ-salamat çıxmasını əsasən təmin etsə də, ağacların qırılmasının qarşısını almaq mümkün olmamışdır.

Hazırda muxtar respublikada ekoloji cəhətdən təhlükəli vəziyyət yaranmışdır.

Mövcud vəziyyəti aradan qaldırmaq, muxtar respublikanın yaşıl örtüyünü bərpa etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti **qərara alır:**

1. 1992-1993-cü ilin qış dövründə kəsilmiş ağacların yenidən bərpa edilməsi məqsədilə 1993-cü il "Yaşıllaşdırma ili" elan edilsin.

2. Şəhər, rayon, kənd və qəsəbə xalq deputatları məclislərinə, onların icraiyyə komitələrinə tapşırılsın ki, qış dövründə kəsilmiş ağacların yenidən bərpa olunması üçün konkret tədbirlər görsün, bütün idarə, müəssisə, təşkilatlara ağac əkini aparmaq üçün sahələr ayırsın, onların səmərəli işləməsinə hər cür şərait yaratsınlar.

3. Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə, Naxçıvan meşə təsərrüfatı idarəsinə tapşırılsın ki, qış dövründə kəsilmiş ağacların yenidən bərpası üçün aid təşkilatların lazımi ting materialları, yanacaqla vaxtında təmin edilməsini təşkil etsinlər.

4. Ağac əkininin gündəlik gedişatının televiziya və radio vasitəsi ilə şərhi təmin edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri
Heydər ƏLİYEV

Naxçıvan şəhəri,
2 aprel 1993-cü il

MÜQAVİLƏ

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Heydər Əliyevlə İran İslam Respublikasının xarici işlər naziri cənab Əli Əkbər Vilayəti arasında 24 avqust 1992-ci il tarixdə Tehran şəhərində imzalanmış protokolun, Azərbaycan-İran müştərək iqtisadi komissiyasının qəbul etdiyi qərarların icrası ilə əlaqədar İran İslam Respublikasının Qərbi Azərbaycan ostandarı cənab Qurbanəli Səadətin rəhbərliyi ilə ostandarlığın ali rütbəli şəxsləri Ali Məclisin rəhbərliyi tərəfindən Naxçıvan Muxtar Respublikasına dəvət olunmuş və Ali Məclisdə onlarla görüş keçirilmişdir.

Görüş dostluq və qardaşlıq şəraitində keçmiş, ağayi Səadətin rəhbərliyi ilə Naxçıvana gəlmiş yüksək rütbəli nümayəndə heyətinin üzvləri ilə Naxçıvan Muxtar Respublikasının nazirlikləri və baş idarələrinin rəhbərliyi arasında fikir mübadiləsi keçirilmişdir.

Görüşlər muxtar respublikanın Babək və Şərur rayonlarında davam etdirilmişdir. Görüşlər zamanı Naxçıvan tərəfi İran İslam Respublikasına muxtar respublikaya 2 il müddətinə humanitar yardım, ərzaq, yanacaq alınması və qaçqınlar üçün zəruri məişət ehtiyaclarının təmin edilməsi məqsədi ilə 1 milyon Amerika dolları məbləğində yardım etdiyi üçün dərin təşəkkür və minnətdarlığını bildirmişdir.

Həmçinin İran nümayəndə heyəti danışıqları Bakıda Azərbaycan Respublikasının rəhbərləri – Baş nazir, onun birinci müavini, ticarət naziri, Gömrük Komitəsinin sədri, Sərhəd Qoşunlarının rəisi və xarici əlaqələr nazirinin müavini ilə davam etdirmişdir.

Bu görüşlərdə Qərbi Azərbaycanın ostandarlığı ilə Naxçıvan Muxtar Respublikası arasında Poldəşt və Şahtaxtı məntəqələrində müştərək bazarın fəaliyyətinin gücləndirilməsi, Şahtaxtı-Poldəşt keçid məntəqəsində gediş-gəlişin təmin olunması üçün şərait yaradılması məqsədə müvafiq hesab edilmişdir.

Tərəflər iqtisadiyyat, səhiyyə, mədəniyyət, ticarət və təhsil sahələri üzrə aşağıda qeyd olunanları yerinə yetirməyi öz öhdələrinə götürdülər.

1. İran tərəfi Naxçıvan Muxtar Respublikası ərazisində erməni təcavüzü zamanı yaralananları müalicə etmək məqsədi ilə hər dəfə 10 nəfər yaralının Qərbi Azərbaycan ostandarlığında müalicə üçün qəbul edilməsini, döyüşlər zamanı şikəst olmuş vətəndaşlara protez qoyulmasını və əlillər üçün 10 ədəd araba (vilçer) verilməsini öhdəsinə götürür.

2. Naxçıvan Muxtar Respublikasının təklifinə əsasən İran İslam Respublikasının Qərbi Azərbaycan ostandarlığı Naxçıvan şəhərindəki Came məscidi nəzdində mədrəsənin tikilib başa çatdırılmasını, tikintisinə başlanmış məscidlərin tamamlanmasını öz öhdəsinə götürür.

3. Mədəni əlaqələrin genişləndirilməsi və daha da möhkəmləndirilməsi məqsədilə Urmiya şəhərində Naxçıvan günləri, Naxçıvan Muxtar Respublikasında Urmiya günləri keçirmək qərara alınır.

4. İran tərəfi muxtar respublikanın radio-televiziya şirkəti ilə İran televiziya şirkətinin birgə əməkdaşlığını daha da genişləndirmək məqsədilə 1 komplekt Trans-koder və VEÇS video kasetləri verməyi öz öhdəsinə götürür.

5. İran tərəfi muxtar respublikada fars dili fənninin tədrisi və fars dili təmayüllü məktəblərə kitab və digər dərs ləvazimatları verməyi, müəllimlərlə təmin etməyi, fars dili tədris olunan sinif otaqlarının təchizini öz öhdəsinə götürür.

6. İran tərəfi səhiyyə xidməti sahəsində əlaqələri genişləndirmək, muxtar respublikanın səhiyyəsində ehtiyac olan dərman preparatları, digər tibb ləvazimatı, uşaq xəstəxanalarının dərman və quru südlə təminini, Naxçıvan şəhərində bronxial astmalı xəstələrin müalicəsi üçün ayrılmış xəstəxana binasının təmirini və avadanlıqla təchizini öhdəsinə götürür:

– bu bəndin icrası ilə əlaqədar Qərbi Azərbaycanın Ostandarlığı yaxın müddətdə Naxçıvan Muxtar Respublikasına həkim nümayəndələri göndərəcək.

7. İran tərəfi il ərzində öz hesabına Naxçıvan Muxtar Respublikasından 300 nəfərin Məşhədə ziyarətə getməsini, sahibsiz və kimsəsiz adamların bir qisminə ərzaq yardımı göstərilməsini öhdəsinə götürür.

8. İran tərəfi Naxçıvan Muxtar Respublikasının şəhid ailələrinin üzvlərindən İranın bir sıra şəhərlərinə ziyarətə və səyahətə getməsini öz öhdəsinə götürür.

9. İran tərəfi Babək və Şərur rayonlarında sosial problemlərin həlli məqsədilə çörək məmulatı və sair ticarət malları satmağa hazır olduğunu bildirir.

10. Naxçıvan tərəfi öhdəsinə götürür ki, yuxarıda qeyd

olunan bəndlərin icrası üçün lazım olan bütün şəraiti yaratsın.

Bu müqavilə hicriyə-şəmsi tarixi ilə 1372-ci ilin ikinci ayının 23-də, miladi tarixi ilə 1993-cü il may ayının 13-də Naxçıvan şəhərində iki nüsxədən ibarət Azərbaycan və fars dillərində imzalanmışdır və hər ikisi eyni qüvvəyə malikdir.

Azərbaycan Respublikasının
Naxçıvan Muxtar Respublikası
adından Ali Məclisin Sədri
Heydər ƏLİYEV

İran İslam Respublikası adından
Qərbi Azərbaycan ostandarı
Qurbanəli SƏADƏT

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLƏ

Hörmətli Süleyman Dəmirəl!

Sizi Türkiyə Cümhuriyyətinin Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Türkiyə Cümhuriyyətinin inkişafında və möhkəmlənməsində əvəzsiz xidmətləriniz, beynəlxalq məsələlərin həll olunmasında böyük fəaliyyətiniz, müsəlman-türk xalqlarının hüquqlarının müdafiəsində cəsarətli addımlarınız Sizə böyük hörmət qazandırmış, Sizi görkəmli dünya liderlərindən biri kimi tanıtmışdır.

Müstəqil Azərbaycan Respublikasının qarşısında duran problemlərin həll olunmasına qardaşlıq münasibətiniz Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

Ağır blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına daimi göstərdiyiniz qayğı və diqqətə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Əminik ki, bundan sonra da Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasındakı dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsinə və inkişaf etməsinə səy göstərəcəksiniz.

Yüksək vəzifənizdə Sizə qardaş Türkiyə xalqının rifahı naminə, türk dünyasının inkişafı naminə, bütün dünyada sülhün, əmin-amanlığın təmin olunması üçün uğurlar diləyirəm. Möhkəm can sağlığı, uzun ömür arzulayıram!

Dərin hörmətlə,

Heydər ƏLİYEV
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

Naxçıvan şəhəri,
16 may 1993-cü il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN VƏ NAZİRLƏR KABİNETİNİN RƏYASƏT HEYƏTLƏRİNİN

B Ə Y A N A T I

İyun ayının 4-də Gəncə şəhərində başlanmış və bu günə qədər davam edən hadisələr bizdə ciddi narahatlıq doğurur. Şəhərdə qan tökülüb, normal həyat pozulub. Faktiki olaraq vətəndaş müharibəsi başlanıb. Müstəqil Azərbaycan Respublikasının indiki ağır və keşməkeşli, tarixən məsuliyyətli bir dövründə baş verənlər dəhşətli hadisə kimi qiymətləndirir, qardaş qanı tökülməsini pisləyirik.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabineti qətiyyətlə bildirirlər ki, bunların qarşısı dərhal

alınmalıdır. Hamını bu yolda milli birliyə, vətəndaş həmrəyliyinə dəvət edirik. Əminik ki, Gəncə hadisələri diqqətlə araşdırılacaq, mübahisəli məsələlər bütün Azərbaycan xalqının mənafeyi, milli dövlət quruculuğu naminə danışıqlar, qarşılıqlı anlaşma və sülh yolu ilə həll ediləcəkdir.

Gəncə hadisələrində həlak olanların hamısına Allahdan rəhmət, yaxınlarına səbr və dözüm diləyir, başsağlığı veririk.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin
Rəyasət Heyəti

Naxçıvan Muxtar Respublikası
Nazirlər Kabinetinin
Rəyasət Heyəti

Naxçıvan şəhəri,
7 iyun 1993-cü il

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ OLDUĞU DÖVRDƏ ÖLKƏ PARLAMENTİNDƏ QƏBUL OLUNMUŞ QANUN VƏ QƏRARLAR

IV

Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilsin.

Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini
A. CƏLİLOV

Bakı şəhəri,
15 iyun 1993-cü il

Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə müraciət edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Konstitusiyasına (Əsas Qanununa) görə, Azərbaycan Respublikasının Prezidenti ali icra hakimiyyətini həyata keçirir, Nazirlər Kabinetinə rəhbərlik edir, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş

komandanıdır. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti vətəndaşların hüquq və azadlıqlarının, Konstitusiyaya və qanunlara əməl olunmasının təminatçısı kimi çıxış edir, Azərbaycan Respublikasının suverenliyinin qorunmasına, müdafiəsinə, dövlət təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin edilməsinə dair tədbirlər görür, dövlət idarəetmə orqanlarına rəhbərlik edir.

Lakin Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy 1993-cü il iyun ayının 17-dən 18-nə keçən gecə dövlət orqanlarının rəhbərlərinə xəbər vermədən təcili olaraq Bakı şəhərindən-öz iş yerindən Naxçıvan Muxtar Respublikasına, Kələki kəndinə getmişdir. Prezidentin mətbuat xidmətinin sonrakı məlumatına görə, "Prezident Əbülfəz Elçibəy iyun ayının 17-dən 18-nə keçən gecə Bakı şəhərində gözlənilən qırğının qarşısını almaq və öz təhlükəsizliyini təmin etmək üçün vəzifəsinin icrasını heç kimə həvalə etmədən Bakının Binə aeroportundan Naxçıvana uçmuşdur".

Bununla əlaqədar Konstitusiya ilə və qanunlarla nəzərdə tutulmuş bir çox məsələlərin əməli həlli üçün maneə yaranmışdır.

O gündən Kələki kəndində yaşayan Əbülfəz Elçibəyin Azərbaycanın Prezidenti kimi respublikanın dövlət orqanları ilə əlaqəsi çətinləşib və o, Prezident fəaliyyətini lazımi səviyyədə həyata keçirə bilmir. Belə bir şəraitdə Azərbaycan Respublikasında əmələ gəlmiş ağır və gərgin ictimai-siyasi və hərbi məsələlərin həll olunması həddindən artıq mürəkkəbləşib.

Milli Məclis hesab edir ki, respublikanın bu dərin və dözülməz böhrandan çıxarılması üçün Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy respublikanın paytaxtı Bakı şəhərində, öz iş yerində olmalıdır və dövlət başçısı kimi öz Konstitusiya səlahiyyətlərini icra edib tam şəkildə həyata keçirməlidir.

Bununla əlaqədar və 1993-cü il 4 iyun Gəncə hadisələrindən sonra Azərbaycan Respublikasında yaranmış ictimai-siyasi və hərbi böhrandan çıxış yolları axtarmaq, habelə Qarabağın Ağdam, Ağdərə, Füzuli bölgələrində erməni hərbi qüvvələrinin şiddətli hücumlarının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə Bakı şəhərinə-öz iş yerinə təcili olaraq qayıtması barədə müraciət edilsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
21 iyun 1993-cü il

Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikasının Prezidenti vəzifələrini daha icra edə bilməməsi və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətinin Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əlirza oğlu Əliyevə keçməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikası Konstitusiyasının (Əsas Qanunun) 121-4-cü maddəsinə əsasən Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının qanunlarına əməl olunmasının təminatçısı kimi çıxış edir, Azərbaycan Respublikasının suverenliyinin qorunmasına, müdafiəsinə, dövlət təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin edilməsinə dair tədbirlər görür, Azərbaycan Respublikası dövlət orqanlarının bu sahələrdə fəaliyyətinə rəhbərlik edir.

Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy 1993-cü il iyun ayının 17-dən 18-nə keçən gecə qəflətən, dövlət orqanlarının rəhbərlərinə xəbər vermədən Bakı şəhərindən Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Kələki kəndinə getmişdir.

Prezidentin mətbuat xidməti tərəfindən yayılmış sonrakı rəsmi məlumata görə, "Prezident Əbülfəz Elçibəy iyun ayının 17-dən 18-nə keçən gecə Bakı şəhərində gözlənilən qırğının

qarşısını almaq və öz təhlükəsizliyini təmin etmək üçün vəzifəsinin icrasını heç kimə həvalə etmədən Bakının Binə aeroportundan Naxçıvana uçmuşdur".

Həmin gündən Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Kələki kəndində qalan Əbülfəz Elçibəy Azərbaycan dövlətinin başçısı kimi fəaliyyətini həlledici dərəcədə məhdudlaşdırmış, respublikanın dövlət idarəetmə orqanları ilə faktiki olaraq əlaqəsini itirmiş və ali icra hakimiyyəti funksiyalarının yerinə yetirilməsindən özünü kənarlaşdırmışdır. Bu səbəbdən o, Azərbaycan Respublikasının Prezidenti vəzifələrini daha icra edə bilmir.

Bu müddət ərzində respublikanın başqa bölgələri, o cümlədən Bakı ilə bütün əlaqələrini yalnız son dərəcə qeyri-sabit işləyən ümumi telefon rabitəsi vasitəsi ilə quraraq Azərbaycan Respublikasının Prezidenti obyektiv məlumatların alınmasından, ölkədəki gərgin ictimai-siyasi və hərbi vəziyyətə düzgün qiymət verilməsindən, baş verən hadisələrə təsir göstərə bilən təxirəsalınmaz qərarların qəbul edilməsindən özünü məhrum etmiş və beləliklə də hadisələrin inkişafına nəzarət etmək imkanını itirmişdir. Bununla da Əbülfəz Elçibəy Azərbaycan Respublikasının Konstitusiyası ilə onun üzərinə qoyulmuş Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarının, Azərbaycan Respublikası qanunlarına əməl olunmasının təminatçısı kimi öz vəzifəsini yerinə yetirə bilmir.

Azərbaycan ərazisində müharibə getdiyi dövrdə respublikanın suverenliyinin qorunmasının, onun müdafiəsinin, dövlət təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin edilməsinə məsuliyyət daşıyan respublika Prezidentinin Ermənistanın işğalçı qoşunları ilə döyüşən hərbi hissələrlə, ümumiyyətlə, əlaqəsi yoxdur. Belə vəziyyətdə Əbülfəz Elçibəyin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş

komandanı kimi üzərinə düşən vəzifələri yerinə yetirməsi, o cümlədən strateji əhəmiyyətli əməliyyat planlarını təsdiq etməsi, bilavasitə onun tabeliyində olan müdafiə, daxili işlər və milli təhlükəsizlik nazirliklərinin silahlı qüvvələrini əlaqələndirməsi qeyri-mümkün olmuşdur. Xüsusi rabitə vasitələrinin olmaması üzündən dövlət və hərbi sirlərin açılması üçün real təhlükə yaranmışdır.

Hadisələrin bu səmtdəki inkişafı, habelə mövcud şəraitdə respublika həyatının mühüm sahələrini – müdafiəni, təhlükəsizliyi, daxili hüquq qaydasını təmin edən dövlət idarəetmə orqanları rəhbərlərinin olmaması Azərbaycan dövlətçiliyini təhlükə qarşısında qoyur, dövlət hakimiyyət qurumlarının və idarəetmə sisteminin dağılmasına gətirib çıxarır. Respublikamızın müxtəlif bölgələrində yaranmış hakimiyyət boşluğu nəticəsində müxtəlif cinayətkar qruplar fəallaşaraq ağır cinayətlər, xüsusilə də qətllər, qarətlər, ictimai təhlükəsi yüksək olan başqa əməllər törətməkdədirlər. Vəziyyətin bu cür kəskinləşməsi Azərbaycanın fəlakətinə, dövlətçiliyimizin süqutuna səbəb ola bilər.

Yaranmış vəziyyət respublikadakı durumun sabitləşdirilməsinə, gərginliyin aradan qaldırılmasına, dövlətçiliyin möhkəmləndirilməsinə, qanunçuluğun bərpasına, bütün qüvvələrin xarici təcavüzə qarşı səfərbər edilməsinə yönəldilmiş qəti və təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir.

Belə şəraitdə Azərbaycan Respublikasının Milli Məclisi 1993-cü il 21 iyun tarixli qərarı ilə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə Bakı şəhərinə təcili olaraq qayıtması barədə müraciət etmişdir. Lakin Əbülfəz Elçibəy bu müraciətə əhəmiyyət verməyərək paytaxta qayıtmamış və heç bir təsirli tədbir görməmişdir.

Bununla Əbülfəz Elçibəy Azərbaycan Respublikasının

Prezidenti vəzifələrini icra etməsini qeyri-mümkün etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 121-7-ci maddəsinə əsasən "Azərbaycan Respublikasının Prezidenti bu və ya başqa səbəblərə görə öz vəzifələrini daha icra edə bilmədikdə, Azərbaycan Respublikasının yeni prezidenti seçilənədək onun səlahiyyəti Azərbaycan Respublikası Ali Sovetinin sədrinə keçir".

Göstərilənləri nəzərə alaraq, 1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş hadisələrdən sonra Azərbaycan Respublikasında yaranmış ictimai-siyasi böhrandan çıxış yollarını tapmaq, habelə Qarabağın Ağdam, Ağdərə, Füzuli və başqa rayonlarında erməni hərbi qüvvələrinin qarşısını almaq, Azərbaycan dövlətçiliyi üçün yaranmış təhlükəni və vətəndaş müharibəsi təhlükəsini aradan qaldırmaq, idarəetmə sisteminin fəaliyyətini bərpa etmək məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 121-7-ci maddəsini rəhbər tutaraq **qərara alır:**

1. Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikasının Prezidenti vəzifələrini daha icra edə bilməməsi təsdiq edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin səlahiyyəti Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əlirza oğlu Əliyevə keçsin.

Azərbaycan Respublikası
Ali Soveti sədrinin müavini
A. CƏLİLOV

Bakı şəhəri,
24 iyun 1993-cü il

Azərbaycan Respublikası Nazirlər Kabinetinin strukturunda dəyişikliklər edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının (Əsas Qanununun) 123-cü maddəsinə müvafiq olaraq müharibə dövründə Azərbaycan Respublikasının müdafiə qüdrətini möhkəmləndirmək və işğal edilmiş ərazisinin tezliklə azad olunmasını təmin etmək, Azərbaycan Respublikası Nazirlər Kabinetinin dövlətin təhlükəsizliyi və müdafiəsinə dair operativ fəaliyyətini gücləndirmək məqsədilə **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 28 aprel tarixli 584 nömrəli qərarı ilə müəyyən olunmuş strukturunda dəyişikliklər edilsin və Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi bu struktura daxil edilsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
30 iyun 1993-cü il

Gəncə şəhərində 1993-cü il iyunun 4-də baş vermiş hadisələrlə bağlı təhqiqat aparan Deputat İstintaq Komissiyasının məlumatı haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi Gəncə şəhərində 1993-cü il iyunun 4-də baş vermiş hadisələrlə bağlı təhqiqat aparan Deputat İstintaq Komissiyasının məlumatını dinləyərək **qərara alır:**

Deputat İstintaq Komissiyasının ilkin məlumatı nəzərə alınsın və ona tapşırılsın ki, öz işini 1993-cü il iyulun 7-dək tamamlayıb rəyini Azərbaycan Respublikasının Milli Məclisinə təqdim etsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
30 iyun 1993-cü il

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin son günlər Ermənistan silahlı qüvvələrinin torpaqlarımıza hücum əməliyyatlarını genişləndirməsi barədə Bəyanatı haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin son günlər Ermənistan silahlı qüvvələrinin torpaqlarımıza hücum əməliyyatlarını genişləndirməsi barədə Bəyanatı nəzərə alınsın.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
3 iyul 1993-cü il

Beynəlxalq Əmək Təşkilatının əvvəllər SSRİ tərəfindən qəbul olunmuş konvensiyalarının qüvvəsinin Azərbaycan Respublikası ərazisinə şamil edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Beynəlxalq Əmək Təşkilatına daxil olması və onun Nizamnaməsindən irəli gələn tələbləri yerinə yetirməyin zəruriliyi ilə əlaqədar olaraq, əmək və əhalinin sosial müdafiəsi sahəsində milli qanunvericiliyi təkmilləşdirmək məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Beynəlxalq Əmək Təşkilatının əvvəllər SSRİ tərəfindən qəbul olunmuş aşağıdakı konvensiyalarının qüvvəsi Azərbaycan Respublikası ərazisinə şamil edilsin:

"Uşaqların kənd təsərrüfatında işləməsinə icazə verilməsi üçün minimum yaş həddi haqqında" 10 nömrəli Konvensiya, "Kənd təsərrüfatında zəhmətkeşlərin təşkilat yaratmaq və birləşmək hüququ haqqında" 11 nömrəli Konvensiya, "Sənaye müəssisələrində həftəlik istirahət haqqında" 14 nömrəli Konvensiya, "Yeniyetmələrin donanmada kömür yükləyən və ya ocaqçı kimi işləməsinə icazə verilməsi üçün minimum yaş həddi haqqında" 15 nömrəli Konvensiya, "Gəmilərdə çalışan uşaqların və yeniyetmələrin məcburi tibbi müayinəsi haqqında" 16 nömrəli Konvensiya, "Dənizçilərin vətənə qaytarılması haqqında" 23 nömrəli Konvensiya, "Gəmilərdə daşınan ağır yüklərin çəkisinin göstərilməsi haqqında" 27 nömrəli Konvensiya, "İcbari və ya vacib əmək haqqında" 29 nömrəli

Konvensiya, "Gəmidə yükvurma və yükboşaltma ilə məşğul olan zəhmətkeşlərin bədbəxt hadisələrdən müdafiəsi haqqında" 32 nömrəli Konvensiya (1932-ci ildə yenidən baxılmışdır), "Hər hansı şaxtadakı qaldırıcı işlərdə qadın əməyinin tətbiqi haqqında" 45 nömrəli Konvensiya, "İş vaxtının azaldılıb həftədə 40 saata endirilməsi haqqında" 47 nömrəli Konvensiya, "İllik ödənişli məzuniyyətlər haqqında" 52 nömrəli Konvensiya, "Uşaqların dənizdə işləməsinə icazə verilməsi üçün minimum yaş həddi haqqında" 58 nömrəli Konvensiya (1936-cı ildə yenidən baxılmışdır), "Uşaqların sənayedə işə götürülməsi üçün minimum yaş həddi haqqında" 59 nömrəli Konvensiya (1937-ci ildə yenidən baxılmışdır), "Uşaqların qeyri-sənaye işlərinə götürülməsi üçün yaş həddi haqqında" 60 nömrəli Konvensiya (1937-ci ildə yenidən baxılmışdır), "Gəmi aşpazlarına ixtisas şəhadətnamələri verilməsi haqqında" 69 nömrəli Konvensiya, "Dənizçilərin tibbi müayinəsi haqqında" 73 nömrəli Konvensiya, "Uşaqların və yeniyetmələrin sənayedə çalışmağa yararlılığını aydınlaşdırmaq məqsədilə tibbi müayinəsi haqqında" 77 nömrəli Konvensiya, "Uşaqların və yeniyetmələrin qeyri-sənaye işlərində çalışmağa yararlılığını aydınlaşdırmaq məqsədilə tibbi müayinəsi haqqında" 78 nömrəli Konvensiya, "Qeyri-sənaye işlərində uşaqların və yeniyetmələrin gecə əməyinin məhdudlaşdırılması haqqında" 79 nömrəli Konvensiya, "Assosiasiya azadlığı və təşkilat yaratmaq hüququnun müdafiəsi haqqında" 87 nömrəli Konvensiya, "Sənayedə yeniyetmələrin gecə əməyi haqqında" 90 nömrəli Konvensiya (1948-ci ildə yenidən baxılmışdır), "Gəmilərdə heyət üçün otaqlar haqqında" 92 nömrəli Konvensiya (1949-cu ildə yenidən baxılmışdır), "Əmək haqqının müdafiəsi haqqında" 95 nömrəli Konvensiya, "Təşkilat yaratmaq və kollektiv danışıqlar aparmaq hüququ prinsiplərinin tətbiqi haqqında" 98 nömrəli Konvensiya,

"Bərabər əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında" 100 nömrəli Konvensiya, "Analığın mühafizəsi haqqında" 103 nömrəli Konvensiya (1952-ci ildə yenidən baxılmışdır), "Ticarətdə və idarələrdə həftəlik istirahət haqqında" 106 nömrəli Konvensiya, "Dənizçilərin şəxsiyyətini təsdiq edən milli vəsiqələr haqqında" 108 nömrəli Konvensiya, "Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında" 111 nömrəli Konvensiya, "Balıqçıların işə götürülməsi üçün minimum yaş həddi haqqında" 112 nömrəli Konvensiya, "Balıqçıların tibbi müayinəsi haqqında" 113 nömrəli Konvensiya, "Zəhmətkeşlərin ionlaşdırıcı radiasiyadan müdafiəsi haqqında" 115 nömrəli Konvensiya, "Beynəlxalq Əmək Bürosunun İnzibati Şurası tərəfindən konvensiyaların tətbiqinə dair məruzələrin hazırlanması barədə müddəaların vahid şəklə salınması məqsədilə Beynəlxalq Əmək Təşkilatı Baş Konfransının ilk otuz iki sessiyasında qəbul etdiyi konvensiyalarda qismən dəyişiklik edilməsi haqqında" 116 nömrəli Konvensiya, "Maşınların qoruyucu qurğularla təchiz edilməsi haqqında" 119 nömrəli Konvensiya, "Ticarətdə və idarələrdə gigiyena haqqında" 120 nömrəli Konvensiya, "Məşğulluq sahəsində siyasət haqqında" 122 nömrəli Konvensiya, "Şaxtalarda və mədənlərdə yeraltı işlərdə çalışmağa icazə verilməsi üçün minimum yaş həddi haqqında" 123 nömrəli Konvensiya, "Gənclərin şaxtalarda və mədənlərdə yeraltı işlərdə çalışmağa yararlılığını müəyyənləşdirmək məqsədilə tibbi müayinəsi haqqında" 124 nömrəli Konvensiya, "Balıqçılıq gəmilərində heyət üçün otaqlar haqqında" 126 nömrəli Konvensiya, "Gəmilərdə heyət üçün otaqlar haqqında" 133 nömrəli Konvensiya (əlavə müddəalar), "Dənizçilər arasında istehsalatda bədbəxt hadisələrin qarşısının alınması haqqında" 134 nömrəli Konvensiya, "İşə qəbul olunmaq üçün minimum yaş həddi haqqında" 138 nömrəli Konvensiya, "İnsan ehtiyatları-

nın inkişafı sahəsində peşə yönümü və peşə hazırlığı haqqında" 142 nömrəli Konvensiya, "İş yerlərində havanın çirklənməsi, səs-küy və vibrasiya ilə bağlı peşə riskindən zəhmətkeşlərin müdafiəsi haqqında" 148 nömrəli Konvensiya, "Tibb bacıları heyətinin məşğulluğu, əmək və həyat şəraiti haqqında" 149 nömrəli Konvensiya, "Əlillərin peşə bərpası və məşğulluğu haqqında" 159 nömrəli Konvensiya, "Əməyin statistikası haqqında" 160 nömrəli Konvensiya.

2. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə Azərbaycan Respublikasını Beynəlxalq Əmək Təşkilatında təmsil etmək və bu təşkilatın Nizamnaməsindən irəli gələn vəzifələri həyata keçirmək hüququ verilsin.

3. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, Beynəlxalq Əmək Təşkilatının respublika üçün ümdə əhəmiyyətli konvensiyalarına qoşulmaq məsələsini Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə versin, müvafiq təşkilatlarla birlikdə milli qanunvericiliyin beynəlxalq sənədlərə uyğunlaşdırılması işini əlaqələndirsin və konvensiyaların həyata keçirilməsi ilə bağlı bütün əməli məsələləri həll etsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
3 iyul 1993-cü il

Beynəlxalq Əmək Təşkilatının "Müəssisədə zəhmətkeşlərin nümayəndələrinin hüquqlarının müdafiəsi və onlara verilən imkanlar haqqında" Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsaslanaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının "Müəssisədə zəhmətkeşlərin nümayəndələrinin hüquqlarının müdafiəsi və onlara verilən imkanlar haqqında" Konvensiyasına qoşulsun.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Beynəlxalq Əmək Təşkilatının "Müəssisədə zəhmətkeşlərin nümayəndələrinin hüquqlarının müdafiəsi və onlara verilən imkanlar haqqında" Konvensiyasına qoşulma aktı barəsində Beynəlxalq Əmək Təşkilatına bildiriş göndərsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, Beynəlxalq Əmək Təşkilatının "Müəssisədə zəhmətkeşlərin nümayəndələrinin hüquqlarının müdafiəsi və onlara verilən imkanlar haqqında" Konvensiyasının Azərbaycan Respublikasında həyata keçirilməsi ilə bağlı bütün əməli məsələləri həll etsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
3 iyul 1993-cü il

Beynəlxalq Əmək Təşkilatının "Beynəlxalq əmək normalarının tətbiqinə kömək göstərilməsi üçün üçtərəfli məsləhətləşmələr haqqında" Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsaslanaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının "Beynəlxalq əmək normalarının tətbiqinə kömək göstərilməsi üçün üçtərəfli məsləhətləşmələr haqqında" Konvensiyasına qoşulsun.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Beynəlxalq Əmək Təşkilatının "Beynəlxalq əmək normalarının tətbiqinə kömək göstərilməsi üçün üçtərəfli məsləhətləşmələr haqqında" Konvensiyasına qoşulma aktı barəsində Beynəlxalq Əmək Təşkilatına bildiriş göndərsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, Beynəlxalq Əmək Təşkilatının "Beynəlxalq əmək normalarının tətbiqinə kömək göstərilməsi üçün üçtərəfli məsləhətləşmələr haqqında" Konvensiyasının Azərbaycan Respublikasında həyata keçirilməsi ilə bağlı bütün əməli məsələləri həll etsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
3 iyul 1993-cü il

Beynəlxalq Əmək Təşkilatının "Kollektiv danışıqlara kömək göstərilməsi haqqında" Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsaslanaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının "Kollektiv danışıqlara kömək göstərilməsi haqqında" Konvensiyasına qoşulsun.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Beynəlxalq Əmək Təşkilatının "Kollektiv danışıqlara kömək göstərilməsi haqqında" Konvensiyasına qoşulma aktı barəsində Beynəlxalq Əmək Təşkilatına bildiriş göndərsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, Beynəlxalq Əmək Təşkilatının "Kollektiv danışıqlara kömək göstərilməsi haqqında" Konvensiyasının Azərbaycan Respublikasında həyata keçirilməsi ilə bağlı bütün əməli məsələləri həll etsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
3 iyul 1993-cü il

1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş hadisələri təhqiq edən Deputat İstintaq Komissiyasının işinin yekunu barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi Gəncə şəhərində baş vermiş hadisələri təhqiq edən M.Mütəllimov – sədr, Ş.Hacıkərimov, V.Qasımov, T.Əliyev, İ.İbrahimov, M.Məmmədov, M.Fəttayevdən ibarət Deputat İstintaq Komissiyasının arayışını dinləyərək qeyd edir ki, 1993-cü il iyunun 4-də Gəncədə baş vermiş faciə əvvəlcədən hazırlanmış, cinayət törətmiş hərbi əməliyyatların ağır nəticəsidir. Milli Məclisə təqdim olunmuş Deputat İstintaq Komissiyasının materiallarından və rəydən, Milli Məclisin iclasındakı əksər çıxışlardan və ümumiyyətlə, müzakirələrdən aydın oldu ki, Gəncə hadisələri Azərbaycan Respublikası Prezidentinin, onun ətrafındakıların səbatsız siyasətinin nəticələridir və axırıncı bir il iqtidarda olan şəxslərin fəaliyyətinin məntiqi yekunudur.

Komissiya qeyd etdiyi kimi, respublikada son dərəcə mürəkkəb ictimai-siyasi şərait mövcud idi. Siyasi ehtiraslar səngimək bilmirdi; hakimiyyət boşluğu, qanunların işləməməsi, torpaqlarımızın xeyli hissəsinin erməni işğalçıları tərəfindən zəbt edilməsi, əhalinin əsas kütləsinin yoxsulluq həddindən aşağı səviyyədə yaşaması, respublikanın milli sərvətlərinin cinayətkarcasına talanması, sosial, siyasi və mədəni həyatda qarmaqarışıqlıq, özbaşınalıq, hərcmərclik xalqın səbrini son həddə çatdırmış axırıncı bir ilin xarakterik əlamətləridir.

Arayışdan görünür ki, respublikada vəziyyətin ağırlaşdırıcı faktorlarından biri də iqtidarın kadr siyasəti idi. Bu siyasət ancaq Azərbaycan Xalq Cəbhəsinin potensialına söykənmişdi, rəhbərlik, bir qayda olaraq, ancaq Azərbaycan Xalq Cəbhəsinin nümayəndələrini irəli çəkirdi. İqtidar kadrları əsasən şəxsi sədaqət, dostbazlıq, qohumbazlıq prinsiplərinə görə seçirdi. Kadr sahəsində yeganə meyar olan qabiliyyət, səriştə və səviyyə məsələləri arxa plana keçirilmiş, Azərbaycanın intellektual potensialına məhəl qoyulmurdu.

Kadr siyasətini yarıtmaz təşkil etdiklərinə görə bu gün Ə.Elçibəy, İ.Qəmbər, P.Hüseynov, A.Hacıyev xalq qarşısında şəxsi məsuliyyət daşıyırlar.

Gəncə hadisələri məhz ölkədə olan son nöqtəyə çatmış böhranın, cəbhə bölgələrində bir-birinin ardınca baş vermiş uğursuzluqların, hakimiyyətdə olanların pozucu fəaliyyətlərinin gücləndiyi və xüsusilə iqtidara qarşı ümumxalq inamının tam sarsıldığı bir dövrdə baş vermişdir. Gəncə hadisələri bütün bunların ört-basdır edilməsini təmin etmək məqsədilə iqtidar və respublikanın digər yüksək vəzifəli şəxsləri tərəfindən öz xalqına qarşı yönəldilmiş, bununla da respublikada demokratiyanı hərbi-polis rejiminə çevirmək, iqtidara qarşı baş qaldıran qüvvələrin aradan götürülməsinə və məhv edilməsinə nail olmaq cəhdləri ilə bağlı təşkil edilmiş aksiyadır.

İqtidar üçün belələrindən biri də Azərbaycanın xalq deputatı, Milli Qəhrəman Surət Hüseynov oldu. Məsələnin təhlili göstərdi ki, onun orduda və xalq arasında artan nüfuzu hakimiyyətin narahatlığına səbəb olurdu. Məhz buna görə Azərbaycan Xalq Cəbhəsi İcraiyyə Komitəsinin S.Hüseynovu satqınlıqda və xəyanətdə ittiham edən məlum qərəzli bəyanatı ilə ona qarşı təqibetmə kompaniyasına başlandı.

Komissiyanın təhqiqi göstərir ki, Azərbaycan Xalq Cəb-

həsinin və respublika rəhbərliyinin S.Hüseynovu ləkələmək məqsədi ilə baş tutmayan cəhdləri onlara nəsihət olmadı və iqtidar onu həbs etmək üçün xüsusi hərbi əməliyyatlar həyata keçirmək barəsində müvafiq göstərişlər vermişdir.

1993-cü il mayın sonunda respublika rəhbərliyini təmsil edən Ə.Elçibəy, İ.Qəmbər, P.Hüseynov və Ə.Kərimov güc nazirliklərinin rəhbərlərini və Silahlı Qüvvələrin komandanlığını cəlb etməklə 709 nömrəli hərbi hissənin tərksilah edilməsi və S.Hüseynovun həbs edilməsi əməliyyatını başlamışlar.

Komissiyanın rəyindən göründüyü kimi, iyunun əvvəlində müdafiə naziri D.Rzayevin, Baş prokuror İ.Şirinovun milli təhlükəsizlik nazirinin birinci müavini S.Əkbərovun, daxili işlər nazirinin birinci müavini Q.Məmmədovun, daxili qoşunların komandanı F.Hacıyevin, ədliyyə nazirinin müavini M.Zeynalovun başçılıqları və iştirakı ilə həmin əməliyyatı həyata keçirmək üçün Gəncədə xeyli hərbi qüvvə və sursat toplanmışdır. Qeyd etmək lazımdır ki, 709 nömrəli hərbi hissənin tərksilah edilməsi Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin səlahiyyətinə aid olan məsələdir. Belə bir halda Azərbaycan Respublikası Prezidentinin və respublikanın digər rəhbərlərinin həmin əməliyyatın keçirilməsi üçün Silahlı Qüvvələrin bütün növlərindən ibarət geniş miqyaslı hərbi qüvvələri cəlb etməsi məqsədyönlü xarakter daşımış və buna heç bir haqq qazandırmaq olmaz. Bu əməliyyatın keçirilməsi üçün Azərbaycan Respublikasının sabiq Baş prokuroru İ.Şirinov S.Hüseynovun həbs edilməsi haqqında qərarı təsdiq etmiş, iqtidarın göstərişinə əsasən Gəncə şəhəri ilə rabitə əlaqələri kəsilmişdir.

Deputat İstintaq Komissiyasının təqdim etdiyi arayışdan, sabiq müdafiə naziri D.Rzayevin, müdafiə nazirinin sabiq birinci müavini N.Sadıqovun, sabiq milli təhlükəsizlik naziri

F.Təhməzovun, sabiq daxili işlər naziri A.Allahverdiyevin, Azərbaycan Respublikasının hərbi prokuroru R.Əliyevin, Gəncə qarnizonunun hərbi prokuroru R.Yusifovun və digər şəxslərin Milli Məclisin iclasındakı çıxışlarından məlum olur ki, 1993-cü il iyun ayının 4-də Gəncə şəhərində 709 nömrəli hərbi hissəyə qarşı aparılan hərbi əməliyyatlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı Əbülfəz Elçibəyin göstərişləri ilə həyata keçirilmişdir. Faktlar göstərir ki, əməliyyata sabiq Baş nazir Pənah Hüseynov və Ali Sovetin Sədri İsa Qəmbər daxili işlər naziri A.Allahverdiyevin iş otağından bilavasitə rəhbərlik etmişlər. İlkin məlumatlara əsasən 35 nəfər həlak olmuş, 130 nəfər isə yaralanmışdır. Hərbi şəhərciyə və hava limanına təxminən 23 milyard rubl ziyan dəymişdir.

Planlaşdırılmış və icrasına başlanılmış əməliyyatın 1993-cü il iyun ayının 4-də Gəncə şəhərində baş tutmaması artıq aydınlığı ilə məlum olmasına baxmayaraq, 1993-cü ilin iyun ayının 5-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı Əbülfəz Elçibəyin rəhbərliyi, Azərbaycan Respublikası Ali Sovetinin Sədri İsa Qəmbərin, Azərbaycan Respublikasının Baş naziri Pənah Hüseynovun, Azərbaycan Respublikasının Dövlət katibi Əli Kərimovun, Azərbaycan Respublikasının müdafiə naziri Dadaş Rzayevin, Prezident aparatının Dövlət-hüquq şöbəsinin müdiri Fazil Mustafayevin, müdafiə nazirinin birinci müavini, Baş qərargahın rəisi Nurəddin Sadıqovun və Azərbaycan Xalq Cəbhəsi İcraiyyə Komitəsinin sədri Fərəc Quliyevin iştirakları ilə keçirilmiş müşavirədə əməliyyatın başa çatdırılmasını təmin etmək məqsədilə əlavə qüvvələrin, o cümlədən hərbi hava hissələrinin cəlb edilməsi təkidlə təklif edilmişdir. Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini, Baş qərargahın rəisi Nurəddin Sadıqov göstərilən əməliyyata

əlavə qüvvələrin və hərbi hava hissələrinin cəlb edilməsinin və ordunun siyasi məsələlərdə iştirakının əleyhinə olduğunu rəsmi bildirdiyinə görə, o, elə həmin gün Prezidentin fərmanı ilə tutduğu vəzifəsindən azad edilmişdir. Bu məsələlərlə əlaqədar müdafiə naziri D.Rzayevin etirazı və istefa verməsi barədə bəyanatı rədd edilmişdir.

Eyni zamanda əməliyyata əlavə qüvvələrin, o cümlədən hərbi hava hissələrinin cəlb edilməsi barədə təklifin həyata keçirilməsini təmin etmək məqsədilə Müdafiə Nazirliyinin rəhbərliyinin dəyişdirilməsinə cəhd göstərilmişdir. Bu məqsədlə müdafiə naziri vəzifəsi general Nəcməddin Sadıqova və polkovnik Səfər Əbiyevə təklif edilmişdir. Lakin onlar bu təklifin məqsədini başa düşdükdə verilmiş təklifdən imtina etmişlər.

Milli təhlükəsizlik naziri F.Təhməzovun izahatına görə, respublika Prezidenti yaranmış gərgin vəziyyəti sabitləşdirmək əvəzinə hətta sərhəd qoşunlarının bir hissəsini belə səfərbər edib Gəncəyə göndərilməsi haqqında ona göstəriş vermişdir. Daxili işlər naziri A.Allahverdiyevin Milli Məclisə verdiyi məlumatdan aydın oldu ki, Prezidentin tapşırığına istinad edərək P.Hüseynov və İ.Qəmbər nazirdən təcili surətdə Bakı şəhərinin 8 rayonunda bələdiyyə polisi yaradıb, onlara və Azərbaycan Xalq Cəbhəsinin bir qrupuna silah verilməsini tələb etmişlər.

Azərbaycan Xalq Cəbhəsi dövlət sistemində heç bir statusa malik olmadığı halda, Azərbaycan Xalq Cəbhəsinin rəhbərliyi həmin əməliyyatın keçirilməsi ilə əlaqədar tədbirlərin hazırlanmasında iştirak etmiş və hərbi əməliyyatın həyata keçirilməsində başqa hərbi hissələrlə birlikdə özünün sərəncamında olan xüsusi batalyonu Gəncə şəhərinə göndərmişdir.

İqtidar tərəfindən Gəncəyə göndərilmiş silahlı qüvvələrin ümumi sayı üç mindən artıq olmuşdur.

Bütün yuxarıda göstərilən tədbirlər Gəncə şəhərində, respublikada silahlı qarşıdurma yaratmış, qardaş qanının tökülməsinə səbəb olmuşdur.

Təəccüblü odur ki, 1993-cü ilin 4 iyununda Gəncə şəhərində qardaş qırğını baş verdiyi halda Azərbaycan Respublikasının Prezidenti Ə.Elçibəy, Ali Sovetin Sədri İ.Qəmbər, Baş nazir P.Hüseynov, Dövlət katibi Ə.Kərimov və respublikanın digər rəhbər vəzifəli şəxsləri hadisə yerində olmamış və vəziyyətin sabitləşdirilməsi üçün heç bir əməli tədbirlər həyata keçirməmişlər.

Komissiyanın materialları, rəyi və Milli Məclisdəki müzakirələr bir daha təsdiq edir ki, 1993-cü il iyun ayının 4-də Gəncə şəhərində baş vermiş qanlı hadisələr böyük faciə ilə nəticələnmiş, respublikadakı mövcud siyasi və hərbi vəziyyəti daha da gərginləşdirmiş, vətəndaş müharibəsi həddinə çatdırmışdır. Respublikada hakimiyyət böhranı baş vermiş, hərbi hissələrdə nizam-intizam xeyli zəifləmişdir. Bu şəraitdə Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam, Füzuli, Cəbrayıl istiqamətlərində hücumlar şiddətlənmiş, külli miqdarda itkilərə səbəb olmuşdur.

Bu dövrdə baş vermiş hadisələr respublikanın bir çox rayonlarında qanun pozuntularına yol vermişdir. Özbaşınalıq, hərc-mərclik, zorakılıq halları mövcud olmuşdur, bəzi yerlərdə ayrı-ayrı şəxslər qeyri-qanuni yollarla dövlət orqanlarını öz əllərinə keçirmişlər. İqtisadiyyata, xüsusən kənd təsərrüfatı işlərinin aparılmasına ziyan dəymişdir. Əhaliyə sosial xidmət və təminat xeyli pozulmuşdur.

Yuxarıdakıları nəzərə alaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. 1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş hadisələri təhqiq edən Deputat İstintaq Komissiyasının arayışı nəzərə alınsın.

2. 1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş qanlı hadisələr Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin və digər yüksək vəzifəli şəxslərin əvvəlcədən xüsusi düşünülmüş və planlaşdırılmış siyasətinin nəticəsi hesab edilsin, onlar tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının kobud surətdə pozulması kimi qiymətləndirilsin.

3. 1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş hadisələrə görə aşağıdakı yüksək vəzifəli şəxslərin bilavasitə məsuliyyət daşıması barədə komissiyanın rəyi təsdiq olunsun:

1. Əbülfəz Elçibəy – Azərbaycan Respublikasının Prezidenti;
2. Pənah Hüseynov – sabiq Baş nazir;
3. İsa Qəmbər – Ali Sovetin sabiq sədri;
4. Əli Kərimov – sabiq Dövlət katibi;
5. Arif Hacıyev – sabiq Dövlət müşaviri;
6. İxtiyar Şirinov – sabiq Baş prokuror;
7. Abdulla Allahverdiyev – sabiq daxili işlər naziri;
8. Fəxrəddin Təhməzov – sabiq milli təhlükəsizlik naziri;
9. Dadaş Rzayev– sabiq müdafiə naziri;
10. Nurəddin Sadıqov – müdafiə nazirinin sabiq birinci müavini;
11. Sülhəddin Əkbərov – milli təhlükəsizlik nazirinin birinci müavini;
12. Fəhmin Hacıyev – Daxili Qoşunların sabiq Baş komandanı;
13. Qabil Məmmədov – daxili işlər nazirinin birinci müavini;
14. Məmməd Zeynalov – ədliyyə nazirinin müavini;
15. İbrahim Tatıyev – Baş prokurorun müavini;
16. Fərəc Quliyev – Azərbaycan Xalq Cəbhəsi İcraiyyə Komitəsinin sədri;
17. Fazil Mustafayev – Prezident aparatının Dövlət-hüquq şöbəsinin sabiq müdiri.

4. Gəncə şəhərində baş vermiş hadisələrlə əlaqədar Gəncə qarnizonu və Azərbaycan Respublikası hərbi prokurorluqları tərəfindən fakt üzrə cinayət işi qaldırıldığı nəzərə alınsın və Azərbaycan Respublikası Baş prokuroruna tapşırılsın ki, Deputat İstintaq Komissiyası tərəfindən toplanmış materiallara və Milli Məclisdə səslənən çıxışlara əsasən hərtərəfli istintaq aparıb qanun çərçivəsində lazımi tədbirlər görsün.

5. Deputat İstintaq Komissiyasının istintaq üçün vacib hesab edilən materialları Azərbaycan Respublikası Prokurorluğuna verilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, Gəncə şəhərində 1993-cü il iyun ayının 4-də baş vermiş hadisələr zamanı həlak olanların ailələrinə və ağır yaralananlara imtiyazlar və güzəştlər təyin olunmasını və dağılmış obyektlərin dövlət hesabına bərpa edilməsi məsələlərini mövcud qanunvericilik əsasında həll etsin.

7. Xocalı, Şuşa, Laçın, Kəlbəcər rayonlarının və digər yaşayış məntəqələrinin işğal edilməsi barədə cinayət işlərinin nəticələri haqqında qısa müddətdə Milli Məclisdə istintaq orqanlarının hesabatı dinlənilsin.

8. Daxili İşlər Nazirliyinə tapşırılsın ki, Deputat İstintaq Komissiyası üzvlərinin və istintaqla bağlı digər şəxslərin təhlükəsizliyini təmin etmək üçün təxirəsalınmaz lazımi tədbirlər görsün.

9. Gəncə şəhərində baş vermiş hadisələrlə əlaqədar yaradılmış Deputat İstintaq Komissiyasının arayışı "Azərbaycan" qəzetində dərc olunsun.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
16 iyul 1993-cü il

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevlə ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının sədri Mario Raffaelli arasında danışıqların yekunları, döyüş bölgələrində son vaxtlar yaranmış vəziyyət və Ermənistanın silahlı qüvvələri tərəfindən Ağdam şəhərinin işğalı ilə əlaqədar görülən tədbirlər haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevlə ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının sədri Mario Raffaelli arasında danışıqların yekunları, döyüş bölgələrində son vaxtlar yaranmış vəziyyət və Ermənistanın silahlı qüvvələri tərəfindən Ağdam şəhərinin işğalı ilə əlaqədar görülən tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin məlumatını dinləyərək **qərara alır:**

1. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin məlumatı nəzərə alınsın.

2. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini

həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Qarabağda və respublikanın digər sərhəd bölgələrində yaranmış ağır vəziyyətlə əlaqədar siyasi, diplomatik və hərbi quruculuq sahəsində, BMT, ATƏM çərçivəsində, beynəlxalq aləmdə apardığı işlər təqdirəlayiq və məqsədəmüvafiq hesab edilsin və bu istiqamətdə işlər davam etdirilsin.

3. Nəzərə alınsın ki, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikasının Baş naziri Surət Hüseynov və respublikanın digər rəhbər vəzifəli şəxsləri Ağdam şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ilə əlaqədar 1993-cü il iyulun 25-də hadisə yerlərində olmuş, köçkünlərlə, həmçinin Bərdə və Ağcabədi rayonlarının sakinləri ilə çoxsaylı görüşlər keçirmişlər; yaranmış vəziyyət yerindəcə hərtərəfli təhlil edilmiş, köçkünlərin müvəqqəti yerləşdirilməsi, bölgədə müdafiə tədbirlərinin gücləndirilməsi üçün Bərdə və Gəncə şəhərlərində aparılan müşavirələrdə konkret tədbirlər müəyyən olunmuşdur.

4. Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna tapşırılsın ki, Ağdam şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ilə əlaqədar geniş təhqiqat və istintaq aparsın və müqəssirlərin müəyyən edilib cinayət məsuliyyətinə cəlb olunması üçün qət' tədbirlər görsün.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
28 iyul 1993-cü il

"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ
QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Fövqəladə vəziyyət haqqında Azərbaycan Respublikasının Qanununa aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

22 və 23-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"Maddə 22. Qadağan saatı qaydaları istisna olmaqla, fövqəladə vəziyyət rejiminin müəyyən edilən tələblərinin vətəndaşlar tərəfindən pozulması, bu pozuntular Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq surətdə cinayət məsuliyyətinə səbəb olmadıqda. "İnzibati hüquqpozmalar haqqında" Azərbaycan Respublikasının Məcəlləsində müəyyən edilən qaydada inzibati tənbehə səbəb olur.

Maddə 23. Fövqəladə vəziyyətin elan edildiyi yerlərdə fitnəkar şayiələrin yayılmasına, hüquq qaydalarının pozulmasına səbəb olan və ya milli ədavəti qızışdıran, habelə ictimai qaydanı pozan hərəkətlər, vətəndaşların və vəzifəli şəxslərin öz qanuni hüquq və vəzifələrini həyata keçirməsinə fəal surətdə mane olmaq, eləcə də ictimai qaydanın qorunması sahəsində xidməti vəzifələrini yerinə yetirərkən daxili işlər və ya milli təhlükəsizlik orqanlarının əməkdaşının, habelə hərbi qulluqçunun qanuni sərəncamına və ya tələbinə tabe olmamaq, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq surətdə cinayət məsuliyyətinə səbəb olmadıqda, İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikasının Məcəlləsində müəyyən edilən qaydada inzibati tənbehə səbəb olur.

Bu maddədə nəzərdə tutulan pozuntular haqqında işlərə xalq hakimi "İnzibati hüquqpozmalar haqqında" Azərbaycan Respublikası Məcəlləsində müəyyən edilən qaydada 3 günədək müddətdə baxır. Xalq hakimi işə baxanadək inzibati hüquq pozuntusu törədən şəxslər 3 günə qədər müddətə tutulub saxlanıla bilərlər".

2. Bu Qanun imzalandığı andan qüvvəyə minir.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
28 iyul 1993-cü il

İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikası Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ
QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Ali Sovetinin 1984-cü il dekabrın 13-də qəbul etdiyi "İnzibati hüquqpozmalar haqqında" Azərbaycan Respublikası Məcəlləsinə (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1984-cü il, №-23, maddə 198; 1985-ci il, №-9, maddə 112, №-11, maddə 130; 1986-cı il,

№-5-6, maddə 24, №-13, maddə 93; 1987-ci il, №-15-16, maddə 153, №-21, maddə 215, №-24, maddə 250; 1988-ci il, №-1, maddə 1, №-5-6, maddə 35, №-8, maddə 58, №-15, maddə 139, №-16, maddə 150, №-18-19, maddə 173, №-22-23, maddə 220; 1989-cu il, №-9, maddə 69, №-14, maddə 107; 1990-cı il, №-8, maddə 53, №-12, maddə 155; 1991-ci il, №-14, maddə 236; 1992-ci il, №-16, maddə 687, №-18, maddə 828; 1993-cü il, №-6, maddə 158) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 32-ci maddənin birinci hissəsində "tətbiq edilir". sözlərindən sonra "Fövqəladə vəziyyət rejimi şəraitində törədilən bəzi inzibati hüquqpozmalara görə inzibati həbsin müddəti otuz gündən artıq müəyyən edilə bilməz" cümləsi əlavə edilsin.

2. 175-4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 175-4. Fövqəladə vəziyyət rejimi tələblərinin pozulması

Fövqəladə vəziyyətin tətbiq edildiyi əraziyə gediş-gəlişin xüsusi rejiminin, habelə bu ərazidə hərəkət sərbəstliyinin məhdudlaşdırılmasının pozulmasına; yığıncaqlar, mitinqlər, küçə yürüşləri və nümayişlər, habelə digər kütləvi tədbirlər keçirilməsinin, tətillərin qadağan edilməsinin pozulmasına; nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılmasının pozulmasına və onların yoxlanmasına maneçilik törədilməsinə; xüsusi verilmiş icazə vərəqələri və şəxsiyyəti təsdiq edən sənədlər olmadan qadağan saatı vaxtında küçələrdə və başqa ictimai yerlərdə olmağın qadağan edilməsinin pozulmasına; mətbuatın və digər kütləvi informasiya vasitələrinin azadlığının məhdud-

laşdırılmasına, səs ucaldan texniki vasitələrin və surətçıxarma aparatlarının müvəqqəti alınmasına maneçilik törədilməsinə; vətəndaşların toplaşdığı yerlərdə sənədlərin yoxlanmasına, müstəsna hallarda isə vətəndaşlarda silah olması barədə məlumat odduqda şəxsi yoxlama aparılmasına, əşyaların və nəqliyyat vasitələrinin yoxlanmasına maneçilik törədilməsinə; silah, zəhərləyici və ya partlayıcı maddələr, döyüş sursatı, spirtli içkilər gəzdirilməsinin, əldə edilməsinin və satılmasının məhdudlaşdırılmasının və ya qadağan edilməsinin pozulmasına; müstəsna hallarda vətəndaşlardan odlu və soyuq silahın, döyüş sursatının, zəhərləyici və partlayıcı maddələrin, müəssisələrdən, idarələrdən və təşkilatlardan isə həmçinin təlim hərbi texnikasının və radioaktiv maddələrin müvəqqəti alınmasına maneçilik törədilməsinə; karantin tələblərinin, epidemiyaya və epizootiyaya qarşı digər məcburi sanitariya tədbirlərinin pozulmasına; müstəsna hallarda təxirəsalınmaz qəza-xilasetmə işləri aparmaq üçün əmək təhlükəsizliyini hökmən təmin etmək şərtilə əmək qabiliyyətli əhalinin və vətəndaşların nəqliyyat vasitələrinin səfərbərliyə alınmasına maneçilik törədilməsinə; rabitədən istifadə üçün qoyulmuş xüsusi qaydaların pozulmasına görə, bu pozuntular qüvvədə olan qanunvericiliyə uyğun surətdə cinayət məsuliyyətinə səbəb olmursa, minimum əmək haqqı məbləğinin bir mislindən beş mislinədək cərimə qoyulur".

3. 175-5-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"vətəndaşlar minimum əmək haqqı məbləğinin yeddi mislinədək cərimə edilir və ya onlara otuz günədək müddətə

inzibati həbs tətbiq edilir; vəzifəli şəxslər minimum əmək haqqı məbləğinin on mislinədək cərimə edilir və ya onlara otuz günədək müddətə inzibati həbs tətbiq edilir".

4. 251-ci maddənin üçüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

"Xırda xuliqanlıq törətmiş, yığıncaqların, mitinqlərin, yürüşlərin və nümayişlərin təşkili və keçirilməsi qaydasını pozmuş şəxslər işə xalq hakimi və ya daxili işlər orqanının rəisi (rəis müavini), bu Məcəllənin 175-5-ci maddəsində nəzərdə tutulmuş inzibati hüquqpozmaları törətmiş şəxslər isə işə xalq hakimi tərəfindən baxılanadək tutula bilərlər".

5. 266-cı maddənin ikinci hissəsində "143, 156-2, 157, 174-1, 174-2-ci maddələrində" sözləri "143, 156-2, 157, 174-1, 174-2, 175-4 və 175-5-ci maddələrində" sözləri ilə əvəz edilsin.

6. 212-1-ci maddə çıxarılsın.

Bu Qanun imzalandığı andan qüvvəyə minir.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər ƏLİYEV

Bakı şəhəri,
28 iyul 1993-cü il

Birləşmiş Millətlər Təşkilatının yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə aid minimal standart qaydalarına Azərbaycan Respublikasının qoşulması barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası BMT-nin Baş Məclisi tərəfindən 1985-ci il noyabrın 29-da qəbul olunmuş "Birləşmiş Millətlər Təşkilatının yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə aid minimal standart qaydaları"na qoşulsun.

2. Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, bu sənədə qoşulmaqla bağlı olan məsələlərin həllini təmin etsinlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu qərar haqqında BMT-yə məlumat versin.

Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər ƏLİYEV

Bakı şəhəri,
28 iyul 1993-cü il

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası qanununun layihəsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası qanununun birinci oxunuşda nəzərdən keçirilmiş layihəsi əsas kimi qəbul edilsin.

2. Azərbaycan Respublikası Milli Məclisinin Sosial siyasət komissiyasına tapşırılsın ki, Milli Məclis üzvlərinin verdikləri təklif və qeydləri nəzərə alaraq qanun layihəsini qısa müddətdə işləyib tamamlasın və ikinci oxunuşda Azərbaycan Respublikasının Milli Məclisinə təqdim etsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
28 iyul 1993-cü il

"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ
Q A N U N U

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 8. Fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında Fərmanla fövqəladə vəziyyətin müddəti 60 gündən çox ola bilməz.

Bu müddət başa çatdıqda fövqəladə vəziyyət Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edilir, yaxud Ali Sovetin müəyyən etdiyi müddətə Azərbaycan Respublikası Ali Soveti tərkibinin ümumi sayının səs çoxluğu ilə uzadılır".

Bu Qanun imzalandığı andan qüvvəyə minir.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən
Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
29 iyul 1993-cü il

Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında Azərbaycan Respublikası ümumxalq səsverməsinin (referendumunun) keçirilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy 1993-cü il iyunun 17-dən 18-nə keçən gecə qəflətən, dövlət orqanlarının rəhbərlərinə xəbər vermədən Bakı şəhərindən Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Kələki kəndinə getmişdir. Belə şəraitdə Azərbaycan Respublikasının Milli Məclisi 1993-cü il 21 iyun tarixli qərarı ilə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə Bakı şəhərinə təcili olaraq qayıtması barədə müraciət etmişdir. Lakin Əbülfəz Elçibəy bu müraciətə əhəmiyyət verməyərək paytaxta qayıtmamış və heç bir təsirli tədbir görməmişdir. Bununla Əbülfəz Elçibəy Azərbaycan Respublikasının Prezidenti vəzifələrini icra etməsini qeyri-mümkün etmişdir.

1993-cü il iyunun 24-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikası Konstitusiyasının 121-7-ci maddəsinə əsasən Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikası Prezidenti vəzifələrini daha icra edə bilmədiyi təsdiq olunmuş və onun səlahiyyəti Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əlirza oğlu Əliyevə keçmişdir. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy də

1993-cü il 24 iyun tarixli Fərmanla öz səlahiyyətlərini Azərbaycan Respublikası Ali Sovetinin Sədrinə vermişdir.

Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 24 iyun tarixli iclasında və ondan sonra keçirilən bütün iclaslarında Milli Məclisin üzvləri, həmçinin digər millət vəkilləri Azərbaycan Respublikası Konstitusiyasının 121-7-ci maddəsinə əsasən Əbülfəz Elçibəyin Azərbaycan Respublikasının Prezidenti vəzifəsindən kənarlaşdırılmasını təkidlə tələb etmişlər.

Milli Məclisin 1993-cü il iyulun 15-16-da keçirilən iclasında "1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş hadisələri təhqiq edən Deputat İstintaq Komissiyasının işinin yekunu barədə" məsələ müzakirə olunarkən Milli Məclisin üzvləri tərəfindən həmin tələb daha kəskin şəkildə qoyulmuşdur.

Bununla yanaşı həmin iclasda Deputat İstintaq Komissiyasının təqdim etdiyi rəydə, çıxışlarda və "1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş hadisələri təhqiq edən Deputat İstintaq Komissiyasının işinin yekunu barədə" Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 16 iyul tarixli qərarında 1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş qanlı hadisələr Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının kobud surətdə pozulması kimi qiymətləndirilmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi qeyd edir ki, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy artıq bir aydan çoxdur ki, Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Kələki kəndində yaşayır və dövlət idarəetmə orqanlarının rəhbərləri ilə bilavasitə əlaqə saxlaya və Prezident vəzifələrini icra edə bilmir. Belə bir şəraitdə Azərbaycan

dövlətçiliyi təhlükə qarşısında qoyulmuş, dövlət hakimiyyət qurumlarının və idarəetmə sisteminin dağılmasına gətirib çıxarmış, iqtisadiyyatda və sosial həyatda gərginlik daha da dərinləşmiş, hərbi münaqişə bölgələrində, Qarabağda və xüsusən Ağdamda vəziyyət son dərəcə kəskinləşmişdir.

Yuxarıdakıları nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. 1993-cü il avqustun 29-da Azərbaycan Respublikasında Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında Azərbaycan Respublikasının ümumxalq səsverməsi (referendumu) keçirilsin.

2. Referendumda səsvermə bülleteninə – "Siz Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərirsinizmi? sualı və cavab variantları – "hə" və "yox" sözləri daxil edilsin.

3. Müəyyən edilsin ki, "Azərbaycan Respublikasının ümumxalq səsverməsi (referendumu) haqqında" Azərbaycan Respublikası Qanununun 17 və 18-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikasında 1993-cü il avqustun 29-da keçiriləcək Azərbaycan Respublikası referendumunun Mərkəzi Komissiyasının və Respublika (Naxçıvan Muxtar Respublikası) Komissiyasının səlahiyyətini müvafiq surətdə Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası və Naxçıvan Muxtar Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası həyata keçirir.

4. Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasına və Naxçıvan Muxtar Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasına tövsiyə olunsun ki, Azərbaycan Respublikasının ümumxalq səsverməsində (referendumunda) səsvermənin

keçirilməsi üçün rayonların, respublika tabeli şəhərlərin hüdudları daxilində müvafiq dairələr təşkil etsinlər.

Yevlax, Lənkəran, Şəki və Şuşa şəhərlərində və rayonlarında referendum keçirilməsi üçün iki dairə (şəhər və rayon dairələri) əvəzinə bir dairə – Yevlax, Lənkəran, Şəki və Şuşa dairələri yaradılır.

5. Müəyyən olunsun ki, Azərbaycan Respublikası referendumunun dairə komissiyalarının səlahiyyətlərini Azərbaycan Respublikası yerli xalq deputatları sovetləri deputatlarının sonuncu ümumi seçkiləri vaxtı yaradılmış seçki komissiyaları – Azərbaycan Respublikası yerli xalq deputatları sovetləri deputatlarının seçkiləri üzrə rayon və şəhər (Bakı və Gəncə şəhərlərindən başqa, respublika tabeli şəhərlər) seçki komissiyaları və Naxçıvan Muxtar Respublikası yerli xalq deputatları sovetləri deputatlarının seçkiləri üzrə müvafiq seçki komissiyaları həyata keçirirlər.

Yevlax, Lənkəran və Şəki şəhərlərində dairə komissiyalarının səlahiyyətlərini sonuncu çağırış yerli xalq deputatları sovetləri deputatlarının seçkiləri üzrə eyni adlı şəhərlərin və rayonların birləşmiş şəhər və rayon seçki komissiyaları yerinə yetirirlər.

6. Siyasi partiyaların və siyasi hərəkatların, ictimai birliklərin və təşkilatların referendum komissiyaları tərkibində real təmsil olunmaları üçün, lazım gələrsə, Mərkəzi, respublika (Naxçıvan Muxtar Respublikası) və dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi məqsədəuyğun sayılsın.

7. Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının rayon və şəhər xalq deputatları sovetləri və onların rəyasət heyətləri "Azərbaycan Respublikasının ümumxalq səsverməsi (referendumu) haqqında" Azərbaycan

Respublikası Qanununa uyğun olaraq ən geci 1993-cü-il avqustun 7-dək səsvermə məntəqələrinin və məntəqə referendum komissiyalarının təşkilini təmin etsinlər.

Bakı və Gəncə şəhərlərindəki xalq deputatları sovetlərinin səlahiyyətinə xitam verilmiş rayonlarda Azərbaycan Respublikası referendumu səsvermə məntəqələrini və məntəqə referendum komissiyalarını rayonların icra hakimiyyəti başçıları Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun surətdə təşkil edirlər.

8. Azərbaycan Respublikasının qoşun hissələrində bir qayda olaraq səsvermə məntəqələri yaradılmır.

Respublika silahlı qüvvələrində xidmət edən Azərbaycan Respublikası vətəndaşları özlərinin referendumda iştirak etmək hüququnu hərbi hissələrin olduqları şəhərlərin və rayonların ərazisindəki səsvermə məntəqələrində həyata keçirirlər. Dairə və məntəqə referendum komissiyaları həmin şəxslərin siyahılarını qoşun hissələrinin komandanlığı ilə birlikdə müəyyənləşdirməli və onların referendumda iştirak etməsinə lazımi şərait yaratmalıdırlar.

9. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarının respublika referendumunda iştirakından ötrü Azərbaycan Respublikasının xaricdəki səfirliklərində və səlahiyyətli nümayəndəliklərində səsvermə məntəqələrinin və məntəqə referendum komissiyalarının vaxtında təşkili məsələlərini Azərbaycan Respublikasının Mərkəzi Referendum Komissiyası ilə birlikdə həll etsin.

10. Respublikanın şəhər, rayon xalq deputatları sovetləri, onların rəyasət heyətləri, rayon və şəhər icra hakimiyyəti başçıları respublikanın səsvermə hüququ olan vətəndaşlarının – hələ mənzil qeydiyyatı olmayan qaçqınların və məcburi

köçkünlərin referendumda iştirakını təmin etsinlər. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Qaçqınlar Cəmiyyəti mənzil qeydiyyatı olmayan qaçqınların və məcburi köçkünlərin siyahılarının 10 gün müddətində müəyyənləşdirilməsi üçün dairə referendum komissiyalarına əməli kömək etsinlər.

11. Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyi bu referendumun keçirilməsilə əlaqədar kitabça, plakat və materialların çapını vaxtında təmin etsin.

12. Respublika yerli xalq deputatları sovetləri və icra orqanları bu referendumun respublikanın bütün ərazisində lazımi səviyyədə hazırlanıb keçirilməsi üçün təxirəsalınmaz tədbirlər görsünlər.

13. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu referendumun keçirilməsi gedişini və ona yekun vurulmasını müşahidə etmək üçün xarici dövlətlərin parlamentlərinə, hökumətlərinə, ictimaiyyətinə, beynəlxalq təşkilatlara müraciət edib, onların nümayəndələrini respublikaya dəvət etsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, bu referendumun hazırlanması və keçirilməsi üçün lazımi vəsait ayırsın, habelə nəqliyyat və rabitə müəssisələri, idarələri və təşkilatları tərəfindən lazımi xidmət göstərilməsi məsələlərini həll etsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
29 iyul 1993-cü il

Azərbaycan Respublikasının Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi qeyd edir ki, son zamanlar Azərbaycanda yaranmış gərgin ictimai-siyasi və hərbi vəziyyətdən istifadə etməyə çalışan bir sıra qanunsuz silahlı birləşmələr Azərbaycanın dövlətçiliyinə və ərazi bütövlüyünə xəyanət etmək qəsdinə düşmüşlər. Belələrindən biri Lənkəranda uzun müddətdən bəri Əlikram Hümbətovun başçılıq etdiyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tabe olmayan qanunsuz silahlı birləşmədir.

Əlikram Hümbətov ələ keçirdiyi silahlı qüvvələrdən istifadə edib Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarının əhalisini təzyiq altında saxlayır, onlara qarşı qanunsuz hərəkətlər edir, dövlət orqanlarına hədə-qorxu gəlir, onları özünə tabe olmağa məcbur edir. O, silahlı təzyiqlə Lənkəran şəhərində və qonşu rayonlarda hədə-qorxu yolu ilə şəhər və rayon xalq deputatları Sovetlərinin sessiyalarını keçirmiş, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olan qərarlar qəbul etdirmişdir.

Əlikram Hümbətov onun qanuna zidd və cinayətkar hərəkətlərinə etiraz edənlərə zorakılıq edir, divan tutur, onları həbs edir. Heç bir səlahiyyəti olmadan Əlikram Hümbətov cinayət əməllərinə görə həbsdə olan Ə.Quliyevi və R.Nu-

riyevi azad etmək haqqında göstəriş vermişdir. Bu qanunsuz göstərişini yerinə yetirmədiyinə görə Cəlilabad rayon prokuroru K.Tağıyevi həbs etməyə cəhd göstərmiş, onu tapa bilmədikdə rayon prokurorluğunun işçilərindən M.Kazımovu, K.Qasımovu, S.Mirzəyevi və rayon polis idarəsinin rəisi A.Hacıyevi zor gücünə Lənkərana aparıb həbs etdirmişdir. Astara rayon polis şöbəsinin rəisi İ.Quliyev də Əlikram Hümbətovun qanuna zidd tapşırıqlarını yerinə yetirmədiyinə görə girov götürülmüşdür. Lənkəran şəhər İcra hakimiyyətinin başçısı H. Məmmədov Əlikram Hümbətovun göstərişlərini yerinə yetirmədiyinə görə həbs olunmuşdur.

Əlikram Hümbətov özünü qondarma "Talış-Muğan Respublikasının ali baş komandanı elan etdikdən sonra Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında qanuni yolla təyin edilmiş icra hakimiyyəti başçılarını vəzifədən kənarlaşdırmış, həmin vəzifələrə əqidəcə özünə bağlı sərişdəsiz adamları təyin etmişdir. Yerli əhali bu təyinatlara qarşı etirazlarını bildirsə də Əlikram Hümmətov qanunları tapdalayaraq qaragüruh yolu ilə həmin rayonlarda istədiyi adamları hərbi komendant təyin etmiş, onlara texnika və hərbi sursat vermişdir.

Beləliklə, Əlikram Hümbətov ətrafındakı cinayətkar ünsürlərlə Azərbaycan Respublikasının Konstitusiyasını pozaraq qanuni hakimiyyəti zəbt etmişdir. Onların hərəkətləri həmin rayonlarda dərəbəylik və qanunsuzluq şəraitinə gətirib çıxarmışdır.

Əlikram Hümbətov özbaşınalıq edərək rubl pul nişanlarının dəyişmə müddətini uzatmış, bununla da respublikanın iqtisadiyyatına çox böyük ziyan vurmuşdur.

Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar əhalisinin iradəsinə zidd olaraq Əlikram Hümbətovun mafioz separatçı dəstələri silah gücünə heç bir

səlahiyyəti olmayan qondarma "Talış-Muğan Respublikası" yaratmaq iddiasına düşmüşlər.

Əlikram Hümbətov Azərbaycan hökumətinə qarşı özünü saymazyana aparmış, MDB-yə daxil olmaq üçün Rusiyanın rəhbər orqanlarına müraciət etmişdir. Rusiyanın müvəfiq təşkilatları onun müraciətinə məhəl qoymamışlar. Əlikram Hümbətov özbaşına qondarma "Talış-Muğan Respublikası" yaratmaq iddiası ilə Azərbaycan Respublikasının Konstitusiyasını kobudcasına pozmuş, Azərbaycan dövlətçiliyinə xəyanət etmiş, Azərbaycan Respublikasının ərazi bütövlüyünü pozmağa çalışmışdır.

Əvvəllər Talış Milli Partiyası kimi yaradılmış Azərbaycan Xalqlarının Bərabərliyi Partiyası (sədri Hilal Məmmədovdur) qondarma "Talış-Muğan Respublikası" yaradılmasının ilk təşəbbüskarıdır. Bu partiya millətçilik xətti götürərək, hər vasitə ilə separatçılıq mövqeyində dayanır, talışlarla başqa xalqlar arasında qarşıdurma yaradır. Həmin partiya əslində öz proqramına və Nizamnaməsinə zidd gedərək pozuculuqla məşğul olur, əhali arasında qondarma "Talış-Muğan Respublikası"nın zəruriliyi barədə geniş təbliğat aparır.

Buna baxmayaraq Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarının əhalisi Əlikram Hümbətovun, eləcə də onun azsaylı tərəfdarlarının fitnəkar hərəkətlərini, çirkin niyyətlərini rədd edirlər. Bölgənin rayon Sovetlərinin iclaslarında, siyasi partiyaların və ictimai təşkilatların rayon şöbələrinin yığıncaqlarında qəbul edilən bəyanatlarda, tanınmış alim və ziyalıların, xalq deputatlarının Milli Məclisə müraciətlərində və Ali Sovetin ünvanına daxil olmuş minlərlə teleqramda bölgədə gedən proseslər qətiyyətlə pislənilir.

Milli Məclis böyük təəssüf hissi ilə qeyd edir ki, həmin bölgədən olan bir sıra xalq deputatları, vəzifəli şəxslər, yerli

Sovetlərin deputatları, ağsaqqallar, ziyalılar və digər hörmətli şəxslər bu özbaşınalıqlara, qiyamçılıq və millətçilik hərəkətlərinə qarşı prinsipial mövqe tutmamış və qətiyyət göstərməmişlər. Bəziləri isə təsir altına düşmüş və qiyamçılara havadarlıq etmişlər.

Belə havadarlardan biri Azərbaycan Respublikasının keçmiş müdafiə naziri, Milli Məclisin üzvü Rəhim Qazıyev olmuşdur. O, tez-tez Lənkərana gedir, Əlikram Hümbətovu dəstəkləyir, ona kömək edir və istiqamət verir. Məhz R.Qazıyevin müdafiə naziri işlədiyi dövrdə Əlikram Hümbətov qanunsuz yolla həmin hərbi hissələri ələ keçirmiş, özünü komandan təyin etmişdir. Bu müddətdə Müdafiə Nazirliyi həmin hissələrin özünə tabeliyini təmin etməmiş, yaxud təmin etmək üçün heç bir tədbir görməmişdir. Buradan belə bir qənaət hasil olur ki, həmin hərbi hissələrin özbaşına qoyulması keçmiş müdafiə naziri Rəhim Qazıyevin və Əlikram Hümbətovun əvvəlcədən düşünülmüş xəyanətinin nəticəsidir.

Bütün bunlarla yanaşı Rəhim Qazıyev Azərbaycanla Rusiya arasında münasibətləri hər vasitə ilə pozmağa çalışır, dövlətlərarası münasibətləri gərginləşdirməyə cəhd göstərir. O, keçmiş prezident Ayaz Mütəllibovun yenidən Azərbaycan Respublikasında hakimiyyətə qaytarılmasına var gücü ilə səy göstərir və bununla da respublikada qarışıqlıq, hərc-mərclik salmaq məqsədi güdür. Bu çirkin məqsədinə çatmaq üçün böhtanlardan, şayiələrdən, şantajdan istifadə edir. Onun separatçı mövqeyi, respublikada ictimai-siyasi vəziyyəti daha da gərginləşdirmək məqsədi, Azərbaycanın ərazi bütövlüyünə xələl gətirə biləcək hərəkətləri, Əlikram Hümbətovla birgə can atdığı çirkin niyyətləri respublikanın mövcud rəhbərliyinə qarşı yönəlmiş və yüksək vəzifə tutmaq iddiasından irəli gəlmişdir. Milli Məclisin iclasında o, nöqsanlarını sə-

mimi etiraf etmək əvəzinə özünü dəfələrlə ləyaqətsiz, kobud, təkəbbürlü aparmış, öz xəyanətlərini ört-basdır etməyə çalışmışdır.

Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət eyni zamanda hakimiyyət orqanlarının Respublika Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Müdafiə Nazirliyinin, Respublika Prokurorluğunun, onların yerli orqanlarının Əlikram Hümbətovun və onun havadarlarının cinayətkar hərəkətlərinə qarşı vaxtında lazımi tədbirlər görmədiklərinin nəticəsidir.

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarının ərazisində Əlikram Hümbətovun və onun mafioz, millətçi, qiyamçı dəstələrinin yerli əhaliyə qarşı zorakılığı, terrorçuluq əməlləri, insan hüquqlarını tapdalaması, özbaşınalığı cinayət kimi qiymətləndirilsin və Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının pozulması, respublikanın ərazi bütövlüyünə qəsd, dövlətçiliyinə xəyanət kimi pislənilsin.

2. Lənkəran rayonunda əvvəllər hərbi hissə kimi mövcud olmuş, sonradan Əlikram Hümbətov tərəfindən qanunsuz yolla ələ keçirilmiş hərbi birləşmə heç bir şərt qoyulmadan Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tabe edilsin.

3. Respublikanın daxili işlər naziri V.Novruzova, milli təhlükəsizlik naziri N.İmranova, Baş prokuroru Ə.Ömərova tapşırılsın ki, Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad, Biləsuvar rayonlarında Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının qüvvəsini, dövlət hakimiyyəti orqanlarının fəaliyyətini tam təmin etmək, insan hüquqlarının pozulmasının, cürbəcür cinayət əməllərinin qarşısını almaq üçün təxirəsalınmaz tədbirlər görüb müqəssirləri

məsuliyyətə cəlb etsinlər və nəticəsi barədə Milli Məclisə məlumat versinlər.

4. Azərbaycan Respublikası Milli Məclisinin üzvü, respublikanın Baş naziri Surət Hüseynova tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri üç gün müddətində həll etsin.

5. Azərbaycan Xalqlarının Bərabərliyi Partiyasının (sədri H.Məmmədovdur) millətçilik mövqeyində dayandığı qeyd olunsun və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, bu partiyanın fəaliyyətini təhlil edib, lazımi tədbirlər görsün.

6. Respublika əhalisi arasında, eləcə də sərhəd bölgələrində apardığı siyasi təxribatlara, Əlikram Hümbətov qiyamında bilavasitə iştirak etdiyinə, Azərbaycan Respublikasının ərazi bütövlüyünü pozmağa cəhd göstərdiyinə, dövlətçiliyinə xəyanət etdiyinə görə Rəhim Həsən oğlu Qazıyev Milli Məclisin üzvlüyündən azad edilsin və onun məsuliyyətinin müəyyənləşdirilməsi Azərbaycan Respublikasının Prokurorluğuna tapşırılsın.

7. Azərbaycan Respublikasının Prokurorluğuna tapşırılsın ki, Xocalı, Şuşa, Laçın və Kəlbəcər rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ilə əlaqədar aparılan təhqiqat və istintaq işlərini sürətləndirsin və nəticəsi barədə Milli Məclisə məlumat versin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
17 avqust 1993-cü il

"Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında 1993-cü il avqustun 29-da keçirilmiş ümumxalq səsverməsinin (referendumun) yekunları barədə" Azərbaycan Respublikası Mərkəzi Referendum Komissiyasının məlumatına dair

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında 1993-cü il avqustun 29-da keçirilmiş ümumxalq səsverməsinin (referendumun) yekunları barədə Azərbaycan Respublikası Mərkəzi Referendum Komissiyasının məlumatını dinləyərək qeyd edir ki, referendum respublikanın bütün bölgələrində tam demokratik şəkildə, vətəndaşların xüsusi fəallığı, vətəndaşlıq şüurunun nümayiş etdirilməsi şəraitində, olduqca yüksək səviyyədə keçmişdir. Bununla da referendum Azərbaycan Respublikasında yaşayan bütün vətəndaşların yekdilliyini, demokratiyaya sadiq olduqlarını bir daha təsdiq etmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında 1993-cü il avqustun 29-da keçirilmiş ümumxalq səsverməsinin (referendumun) yekunları barədə Azərbaycan Respublikası Mərkəzi Referendum Komissiyasının məlumatı nəzərə alınsın.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
1 sentyabr 1993-cü il

"Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ
Q A N U N U

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikasının 1991-ci il 26 iyun tarixli Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1991-ci il, № 14, maddə 229) aşağıdakı dəyişiklik edilsin:

1-ci maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Yaşı otuz beşdən aşağı olmayan və bu Qanuna müvafiq surətdə Azərbaycan Respublikası Prezidenti seçkilərində iştirak etmək hüququna malik olan Azərbaycan Respublikası vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər".

2. Bu Qanun imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikası Prezidentinin
səlahiyyətini həyata keçirən
Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
1 sentyabr 1993-cü il

"Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikasının 1991-ci il 26 iyun tarixli Qanununa (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1991-ci il, № 14, maddə 229) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 1-ci maddənin beşinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının yeni Prezidentinin növbəti seçkiləri vəzifədə olan Prezidentin səlahiyyətinin qurtarması vaxtına doxsan gün qalmış təyin edilir. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Konstitusiyasını və Azərbaycan Respublikasının qanunlarını pozduğu halda Azərbaycan Respublikası Ali Soveti tərəfindən vəzifədən götürüldükdə və ya Azərbaycan Respublikası Prezidenti bu və ya başqa səbəblərə görə öz vəzifələrini daha icra edə bilmədikdə onun səlahiyyəti Azərbaycan Respublikası Ali Sovetinin sədrinə keçdikdə Azərbaycan Respublikasının yeni Prezidentinin növbədənkənar seçkiləri keçirilir. Bu halda Azərbaycan Respublikası Prezidentinin seçkisi Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar Prezident seçkisi haqqında qərarının qəbul edildiyi gündən sonra bir ay müddətində keçirilir".

2. 4-cü maddənin birinci hissəsində "və ictimai təşki-

latlar" sözləri "siyasi partiyalar, ictimai qurumlar və ayrı-ayrı vətəndaşlar" sözləri ilə əvəz edilsin.

4-cü maddənin dördüncü hissəsində "Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin" sözləri "Azərbaycan Respublikası Ali Sovetinin" sözləri ilə əvəz edilsin.

3. 5-ci maddənin üçüncü hissəsində "SSRİ-nin və Azərbaycan Respublikasının dövlət büdcələrinin" sözləri "Azərbaycan Respublikasının dövlət büdcəsinin" sözləri ilə əvəz edilsin.

4. 6-cı maddənin ikinci hissəsində "Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti" sözləri "Azərbaycan Respublikasının Ali Soveti" sözləri ilə əvəz edilsin.

5. 7-ci maddənin birinci, ikinci, üçüncü, dördüncü və beşinci hissələri aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Prezidentliyinə namizədlər göstərmək təşəbbüsü ilə Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan ayrı-ayrı vətəndaşları, öz namizədliyini irəli sürmək istəyən Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan vətəndaşı, əmək kollektivləri, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə qeydə alınmış siyasi partiyalar çıxış edə bilər.

Azərbaycan Respublikası Prezidentliyinə Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan ayrı-ayrı vətəndaşları, öz namizədliyini irəli sürmək istəyən Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan vətəndaşı, əmək kollektivləri, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə qeydə alınmış siyasi partiyalar "Azərbaycan Respublikası xalq deputatları seçkiləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq qaydada Azərbaycan Respublikası Prezidentliyinə bilavasitə namizədlər göstərmək hüququna malikdirlər, bu

şərtlə ki, göstərilən namizəd Azərbaycan Respublikasının seçki hüququna malik olan azı iyirmi min vətəndaşı tərəfindən müdafiə edilsin. Göstərilən namizədi müdafiə üçün vətəndaşların imzaları Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi seçki komissiyasının müəyyən etdiyi müddətlərdə "Azərbaycan Respublikasının ümumxalq səsverməsi (referendumu) haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq surətdə toplanır.

Namizədliklər siyasi partiyalar tərəfindən irəli sürüldükdə həmin siyasi partiyaların qurultaylarında (konfranslarında), yaxud onların respublika orqanlarının plenumlarında, onların nizamnamələrinə və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq surətdə irəli sürülür.

Azərbaycan Respublikası Prezidentliyinə namizədlər göstərmək hüququna malik olan, Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan, hər bir vətəndaşı, əmək kollektivi, habelə hər bir siyasi partiya Azərbaycan Respublikası Prezidentliyinə bir namizəd göstərə bilər. Azərbaycan Respublikası Prezidentliyinə namizədlərin bu qayda pozulmaqla göstərilməsi etibarsız hesab edilir.

Azərbaycan Respublikası Prezidentinin növbəti seçkisi keçirildikdə Azərbaycan Respublikası Prezidentliyinə namizədlərin göstərilməsi seçkilərə altmış gün qalmış başlanır və qırx beş gün qalmış başa çatır. Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkisi keçirildikdə isə Azərbaycan Respublikası Prezidentliyinə namizədlərin göstərilməsi seçkilərə iyirmi beş gün qalmış başlanır və on beş gün qalmış başa çatır".

6. 8-ci maddənin birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Prezidentinin növbəti seçkiləri keçirildikdə Azərbaycan Respublikası Prezidentliyinə

namizəd göstərilənləri Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası namizəd göstərilməsi haqqında sənədlərin və səsə qoyulmağa onun yazılı razılığının daxil olduğu andan etibarən beş gün ərzində, lakin Azərbaycan Respublikası Prezidenti seçkilərinə ən geci qırx beş gün qalmış qeydə alır, Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkisi keçirildikdə isə namizəd göstərilməsi haqqında sənədlərin və səsə qoyulmağa namizədin razılığının daxil olduğu andan etibarən üç gün ərzində, lakin seçkilərə ən geci on iki gün qalmış qeydə alır;

8-ci maddənin ikinci hissəsinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"– Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan ayrı-ayrı vətəndaşlarının müraciəti, yaxud Azərbaycan Respublikası Prezidentliyinə öz namizədliyini irəli sürmüş Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan vətəndaşının ərizəsi, yaxud əmək kollektivinin yığıncağının və ya siyasi partiyanın qurultayının (konfransının) və ya onun respublika orqanı plenumunun iclasının "Azərbaycan Respublikası xalq deputatları seçkiləri haqqında" Azərbaycan Respublikası Qanununun və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq surətdə rəsmiləşdirilmiş protokolu;

8-ci maddənin beşinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Prezidentliyinə namizədi qeydə almaqdan Mərkəzi seçki komissiyasının imtina etməsindən Azərbaycan Respublikası Prezidentliyinə namizəd irəli sürmüş Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan ayrı-ayrı vətəndaşları, Azərbaycan Respublikası Prezidentliyinə öz namizədliyini irəli sürmüş Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyəti olan vətəndaşı,

əmək kollektivləri və siyasi partiyalar Azərbaycan Respublikasının Ali Məhkəməsinə qeydə almaqdan imtina edilməsi haqqında qərarın çıxarılması vaxtından üç gündən gec olmayaraq şikayət verə bilərlər. Azərbaycan Respublikası Ali Məhkəməsi şikayətə yeddi gün müddətində baxır və onun qərarı qəti olur".

7. 11-ci maddənin adında və birinci hissəsində "Azərbaycan Respublikası Prezidenti" sözləri "Azərbaycan Respublikası Prezidentinin növbəti" sözləri ilə əvəz edilsin.

8. Qanuna aşağıdakı məzmunda 11-1-ci maddə əlavə edilsin:

"Maddə 11-1. Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkilərinin təşkili

Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkisi Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi seçki komissiyası tərəfindən rayonların, şəhərdə rayonların və rayon bölgüsü olmayan şəhərlərin sərhədləri daxilində təşkil edilən seçki dairələri üzrə keçirilir.

Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkisi keçirildiyi halda aşağıda göstərilən müddətlərdə və "Azərbaycan Respublikası xalq deputatları seçkiləri haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq:

– seçki məntəqələri seçkiyə ən geci iyirmi beş gün qalmış təşkil edilir;

– Mərkəzi Seçki Komissiyası seçkiyə ən geci iyirmi səkkiz gün qalmış yaradılır;

– dairə seçki komissiyaları seçkiyə ən geci iyirmi beş gün qalmış təşkil edilir;

– məntəqə seçki komissiyaları seçkiyə ən geci iyirmi gün qalmış təşkil edilir;

– seçici siyahıları hamının tanış olması üçün seçkiyə beş gün qalmış təqdim edilir".

9. 18-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 18. Seçkilərdə qalib gəlmiş Azərbaycan Respublikası Prezidentliyinə namizədin Azərbaycan Respublikası Prezidenti vəzifəsinə başlaması

Seçkilərdə qalib gəlmiş Azərbaycan Respublikası Prezidentliyinə namizəd Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası tərəfindən seçkilərin nəticələrinin rəsmən elan olunduğu gündən Azərbaycan Respublikası Prezidenti seçilmiş hesab edilir və Azərbaycan Respublikası Ali Sovetinin iclasında and içəndən sonra Azərbaycan Respublikası Prezidenti vəzifəsinə başlayır".

II. Bu Qanun imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər ƏLİYEV

Bakı şəhəri,
1 sentyabr 1993-cü il

Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkilərinin keçirilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Ermənistan Respublikasının beş ildən bəri davam edən açıq hərbi təcavüzünün güclənməsi, Əbülfəz Elçibəy başda olmaqla Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətə gəldiyi bir

il ərzində yol verdiyi böyük nöqsanlar, bacarıqsız siyasi və hərbi rəhbərliyi, fərsiz milli siyasəti cəbhələrdə uğursuzluqlara, çoxlu insan tələfatına, Azərbaycan Respublikası ərazisinin xeyli hissəsinin itirilməsinə səbəb olmuş, yüz minlərlə vətəndaşı öz torpağında qaçqına çevirmiş, respublikanın həyatının bütün sahələrində ağır böhranı daha da dərinləşdirmiş, cəmiyyətin və ordunun parçalanmasına, qanunsuz silahlı dəstələrə arxalanan cürbəcür separatçı hərəkatların baş qaldırmasına gətirib çıxarmış, nəticə etibarilə xalqı olmazın müsibətlərə düçar etmişdir.

Düşünülmüş iqtisadi və sosial siyasətin olmaması, Azərbaycanın milli sərvətlərinin və təbii ehtiyatlarının vəhşicəsinə talanması, siyasi ambisiyalar ucbatından milli mənafelərə zidd olaraq mövcud iqtisadi əlaqələrin kəsilməsi ilə birlikdə kadr siyasətindəki böyük səhvlər Azərbaycanın iqtisadi potensialının dağılmasına, respublikada iqtisadiyyatın bütün sahələrinin tənəzzülünə, xalqın müflisləşməsinə gətirib çıxarmışdır.

Xarici düşməni dəf etmək üçün xalqın sıx birləşməsinin tələb olunduğu bir şəraitdə Əbülfəz Elçibəyin və onun ətrafında olan şəxslərin boş vədləri, milli həmrəylik çağırışları ilə xalqa zidd əməli fəaliyyəti arasındakı uçurum mənəvi dəyərlərin itirilməsinə, milli birlik ideallarının puç olmasına, vətənin və xalqın taleyinə etinasızlıq şəraiti yaranmasına səbəb olmuşdur.

Xalqın etimadını itirmiş rejimi qoruyub saxlamaq məqsədi ilə Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olaraq 1993-cü il iyun ayının 4-də öz vətəndaşlarına qarşı silahlı qüvvələrin Gəncədə tətbiq edilməsi belə siyasətin məntiqi nəticəsi olmuşdur. Gəncə şəhərində baş vermiş hadisələri təhqiq etmək üçün Azərbaycan Respublikası Milli Məclisinin yaratdığı Deputat İstintaq Komissiyası

belə bir qənaətə gəlmişdir ki, yaranmış vəziyyətə görə məsuliyyət digər vəzifəli şəxslərlə yanaşı Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin üzərinə düşür. "1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş hadisələri təhqiq edən Deputat İstintaq Komissiyasının işinin yekunu barədə" Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 16 iyul tarixli qərarında Gəncə şəhərində baş vermiş qanlı hadisələr Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin və digər yüksək vəzifəli şəxslərin əvvəlcədən xüsusi düşünülmüş və planlaşdırılmış siyasətinin nəticəsi hesab edilmiş, onlar tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının kobudcasına pozulması kimi qiymətləndirilmişdir.

Respublikanı idarə etmək imkanını tamamilə itirən Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy 1993-cü il iyunun 17-dən 18-nə keçən gecə qəflətən, dövlət orqanlarının rəhbərlərinə xəbər vermədən Bakı şəhərini tərk edib Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Kələki kəndinə getmişdir. Beləliklə, Bakı şəhərindən kənarda olan və dövlət orqanları ilə əlaqəsini itirən Prezident Əbülfəz Elçibəy əslində öz Konstitusiya vəzifələrini daha yerinə yetirməyə qadir olmamışdır. Bununla əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi 1993-cü il iyunun 24-də "Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikasının Prezidenti vəzifələrini daha icra edə bilməməsi və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətinin Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əlirza oğlu Əliyevə keçməsi haqqında" qərar qəbul etmişdir.

1993-cü il iyulun 29-da Azərbaycan Respublikasının Milli Məclisi demokratiya, xalq hakimiyyəti, xalq iradəsinin aliliyi prinsiplərini əsas tutaraq Azərbaycan Respublikasının

Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında" 1993-cü il avqustun 29-da ümumxalq səsverməsi (referendum) keçirmək barədə qərar qəbul etmişdir. 1993-cü il avqustun 29-da səsvermədə seçicilərin 92,02 faizi iştirak etmiş, onların 2,1 faizi Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərmişdir, 97,5 faizi isə etimad göstərməmişdir. Xalqın ali iradəsinin təzahürü olan ümumxalq referendumu göstərmişdir ki, Azərbaycan Respublikası xalqının tam əksəriyyəti Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə və onun yeritdiyi siyasətə etimad göstərməkdən imtina etmişdir. Bununla da, "Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikasının Prezidenti vəzifələrini daha icra edə bilməməsi və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətinin Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əlirza oğlu Əliyevə keçməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il iyunun 24-də qəbul etdiyi qərarın əsaslı olduğu bir daha təsdiq edilmişdir. Nəticədə Azərbaycan Respublikasının Prezidenti vəzifəsi boş qalmışdır.

Bütün bunlar Azərbaycan Respublikasında yaranmış son dərəcə ağır hərbi, ictimai-siyasi və sosial-iqtisadi vəziyyəti aradan qaldırmağı, dövlətçiliyi, hüquq və qanunçuluğu möhkəmləndirməyi, Azərbaycan xalqının mütləq çoxluğunun müdafiə edəcəyi legitim hakimiyyəti formalaşdırmağı, mərkəzi respublika və yerli hakimiyyət və idarəetmə orqanlarının dəqiq və ahəngdar fəaliyyətini təmin etməyi, ölkə iqtisadiyyatını böhran vəziyyətindən çıxarmağı, müdafiə qüdrətini gücləndirməyi, bundan ötrü təxirəsalınmaz tədbirlər görməyi tələb edir.

Yaranmış vəziyyətdə Azərbaycan Respublikasının dövlətçiliyini möhkəmləndirmək, onun ərazi bütövlüyünü qorumaq, milli mənafelərin müdafiəsi naminə xalqın birliyini

təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Konstitusiyasının 121-7-ci maddəsinə və "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti seçkiləri 1993-cü il oktyabrın 3-nə, bazar gününə təyin edilsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasının səlahiyyətlərini on ikinci çağırış Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası həyata keçirir.

3. Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasına tövsiyə olunsun ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi üçün respublika ərazisində rayonların, rayon bölgüsü olmayan respublika tabeli şəhərlərin, şəhərlərdə rayonların hüdudları daxilində müvafiq seçki dairələri təşkil etsin.

Yevlax, Lənkəran, Şəki və Şuşa şəhərlərində və rayonlarında Prezident seçkiləri keçirilməsi üçün iki dairə (şəhər və rayon dairələri) əvəzinə bir dairə-Yevlax, Lənkəran, Şəki və Şuşa dairələri yaradılır.

4. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə dairə seçki komissiyalarının səlahiyyətlərini Azərbaycan Respublikası xalq deputatları sovetləri deputatlarının seçkiləri üzrə son seçkilər dövründə yaradılmış rayon və şəhər (Bakı və Gəncə şəhərlərindən başqa respublika tabeli şəhərlər) seçki komissiyaları həyata keçirirlər. Yevlax, Lənkəran və Şəki şəhərlərində dairə komissiyalarının səlahiyyətlərini sonuncu çağırış yerli xalq deputatları sovetləri deputatlarının seçkiləri üzrə Yevlax, Lənkəran və Şəki şəhərlərinin və rayonlarının birləşmiş şəhər və rayon seçki komissiyaları yerinə yetirirlər.

5. Naxçıvan Muxtar Respublikası Ali Məclisi, rayon və şəhər xalq deputatları sovetləri seçki məntəqələrinin təşkil

olunmasını və Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə məntəqə seçki komissiyalarının yaradılmasını təmin etsinlər.

6. Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə qeydə alınmış siyasi partiyaların seçki komissiyaları tərkibində real təmsil olunmaları üçün, lazım gələrsə, mərkəzi və dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi məqsədəuyğun sayılsın.

7. Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının rayon və şəhər xalq deputatları sovetləri və onların rəyasət heyətləri "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq səsvermə məntəqələrinin ən geci 1993-cü il sentyabrın 7-dək, məntəqə seçki komissiyalarının ən geci 1993-cü il sentyabrın 13-dək təşkilini təmin etsinlər.

Bakı və Gəncə şəhərlərindəki xalq deputatları Sovetlərinin səlahiyyətinə xitam verilmiş rayonlarda Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə səsvermə məntəqələrini və məntəqə seçki komissiyalarını rayonların icra hakimiyyəti başçıları Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun surətdə təşkil edirlər.

8. Azərbaycan Respublikasının qoşun hissələrində, bir qayda olaraq, səsvermə məntəqələri yaradılmır.

Respublika Silahlı Qüvvələrində xidmət edən Azərbaycan Respublikası vətəndaşları özlərinin Prezident seçkilərində iştirak etmək hüququnu hərbi hissələrin olduqları şəhərlərin və rayonların ərazisindəki səsvermə məntəqələrində həyata keçirirlər. Dairə və məntəqə seçki komissiyaları həmin şəxslərin siyahılarını qoşun hissələrinin komandanlığı ilə birlikdə müəyyənləşdirməli və onların Prezident seçkilərində iştirak etməsinə lazımi şərait yaratmalıdırlar.

9. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan

Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikası Prezidenti seçkilərində iştirakını təmin etməkdən ötrü Azərbaycan Respublikasının xaricdəki səfirliklərində və səlahiyyətli nümayəndəliklərində səsvermə məntəqələrinin və məntəqə seçki komissiyalarının vaxtında təşkili məsələlərini Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası ilə birlikdə həll etsin.

10. Respublikanın şəhər, rayon xalq deputatları sovetləri, onların rəyasət heyətləri, rayon və şəhər icra hakimiyyəti başçıları respublikanın səsvermə hüququ olan vətəndaşlarının-hələ mənzil qeydiyyatı olmayan qaçqınların və məcburi köçkünlərin Prezident seçkilərində iştirakını təşkil etsinlər. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi mənzil qeydiyyatı olmayan qaçqınların və məcburi köçkünlərin siyahılarının 10 gün müddətində müəyyənləşdirilməsi üçün dairə seçki komissiyalarına əməli kömək etsinlər.

11. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Prezident seçkilərinin gedişini və ona yekun vurulmasını müşahidə etmək üçün xarici dövlətlərin parlamentlərinə, hökumətlərinə, ictimaiyyətinə və beynəlxalq təşkilatlara müraciət edib onların nümayəndələrini respublikaya dəvət etsin.

12. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidenti seçkilərinin maddi və maliyyə təminatı, nəqliyyat və rabitə müəssisələri və təşkilatları tərəfindən seçki komissiyalarına xidmət göstərilməsi məsələlərini həll etsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
1 sentyabr 1993-çü il

Azərbaycan Respublikası Nazirlər Kabinetinin strukturunda və tərkibində dəyişikliklər edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin strukturunun müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 28 aprel tarixli qərarında "Ali və Orta İxtisas Təhsili Nazirliyi" və "Maarif Nazirliyi" sözləri çıxarılsın, "Mətbuat və İnformasiya Nazirliyi" sözlərindən sonra "Təhsil Nazirliyi" sözləri əlavə edilsin.

2. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərkibi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 28 aprel tarixli qərarında "Ali və orta ixtisas təhsili naziri" və "Maarif naziri" sözləri çıxarılsın, "Mətbuat və informasiya naziri" sözlərindən sonra "Təhsil naziri" sözləri əlavə edilsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
1 sentyabr 1993-cü il

Rusiya Federasiyasının ali dövlət orqanları rəhbərlərinin müraciətləri haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Rusiya Federasiyasının Prezidenti B.N.Yeltsin və Rusiya Federasiyası Ali Sovetinin sədri R.İ.Xasbulatov Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyası tərəfindən məhkum edilmiş Rusiya ordusunun keçmiş hərbi qulluqçuları, Rusiya Federasiyası vətəndaşları Y.L.Yevstiqneyevin, V.P.Kudinovun, A.A.Filippovun, M.S.Lisovoyun, K.V.Tukişin, V.N.Simeonun Rusiya Federasiyası dövlət orqanlarının sərəncamına verilməsi barədə Azərbaycan Respublikası ali dövlət orqanlarının rəhbərlərinə müraciət etmişlər.

Vaxtı ilə Ermənistan Respublikasının ərazisində yerləşdirilmiş Rusiya Silahlı Qüvvələrinin 7-ci ordusunda hərbi xidmətdə olmuş yuxarıda adları çəkilən Rusiya Federasiyasının vətəndaşları erməni hərbi birləşmələri tərkibində Azərbaycan Respublikasının hüdudlarında aparılan hərbi əməliyyatlarda iştirak edərək Azərbaycan Milli ordusunun canlı qüvvəsini və texnikasını məhv etdiklərinə görə 1992-ci il sentyabrın 11-də Kəlbəcər rayonunun Mərzimək kəndində yaxalanmışlar. Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasının 1993-cü il mayın 12-də çıxarılmış hökmünə əsasən Y.L.Yevstiqneyev, V.P.Kudinov, A.A.Filippov, M.S.Lisovoy, K.V.Tukiş ölüm cəzasına, V.N.Simeon isə 15 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişlər.

Rusiya Federasiyası ali dövlət orqanlarının rəhbərləri bu barədə Azərbaycan Respublikası Ali dövlət orqanlarının rəhbərlərinə müraciət edərkən qeyd etmişlər ki, əgər onların həmin xahişi yerinə yetirilərsə belə bir qərar iki dövlət arasında olan dostluq və qarşılıqlı anlaşma münasibətlərinin inkişafına yönəldilmiş akt kimi qəbul ediləcəkdir.

Eyni zamanda Rusiya Federasiyası ali dövlət orqanlarının rəhbərləri öz müraciətlərində Azərbaycan Respublikasının ali dövlət orqanlarının rəhbərlərini əmin edirlər ki, Rusiya vətəndaşlarının muzdlu dəstələr tərkibində Azərbaycan Respublikasına qarşı döyüş əməliyyatlarında gələcəkdə iştirak etməmələri üçün bütün zəruri tədbirləri həyata keçirəcəklər.

Həmin müraciətləri nəzərə alaraq və Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında olan mehriban qonşuluq münasibətlərinin və çoxtərəfli əlaqələrin daha da inkişaf etdirilməsi məqsədilə, habelə Azərbaycan dövlətinin ali mənafelərini və humanizm prinsipini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyası tərəfindən məhkum olunmuş Rusiya ordusunun keçmiş hərbi qulluqçuları, Rusiya Federasiyasının vətəndaşları Y.L.Yevstiqneyev, V.P.Kudinov, A.A. Filippov, M.S.Lisovoy, K.V.Tukşin və V.N.Simeon Rusiya Federasiyası dövlət orqanlarının sərəncamına verilsin.

2. Azərbaycan Respublikasının Milli Məclisi ümidvar olduğunu bildirir ki, Rusiya Federasiyasının əlaqədar dövlət orqanları Rusiya vətəndaşlarının erməni hərbi birləşmələri tərəfində muzdlu dəstələrin tərkibində Azərbaycan Respublikasına qarşı döyüş əməliyyatlarında iştirak etməmələri üçün müvafiq tədbirlər görəcəklər.

3. Azərbaycan Respublikası Milli Məclisinin bu qərarı haqqında Rusiya Federasiyasının Prezidenti B.N.Yeltsinə və Rusiya Federasiyası Ali Sovetinin sədri R.İ.Xasbulatova məlumat verilsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
3 sentyabr 1993-cü il

Azərbaycan Respublikasının dövlət nümayəndələrinin yaranmış vəziyyəti sülh yolu ilə nizama salmaq sahəsində fəaliyyəti haqqında

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

Azərbaycan Respublikasının Milli Məclisi respublikamıza qarşı ermənilərin genişlənən hərbi müdaxiləsi nəticəsində yaranmış vəziyyəti sülh yolu ilə nizama salmaq üçün Azərbaycan Respublikasının dövlət nümayəndələrinin silahlı münaqişədə bilavasitə iştirak edən tərəflərlə aparılan danışıqları haqqında məlumatı dinləyərək **qərara alır:**

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin və Azərbaycan Respublikasının dövlət

nümayəndələrinin yaranmış vəziyyəti sülh yolu ilə nizama salmaq üçün silahlı münaqişədə bilavasitə iştirak edən tərəflərlə apardıqları danışıqlar bəyənilsin və onlara bu sahədə öz fəaliyyətini davam etdirmək tövsiyə edilsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
3 sentyabr 1993-cü il

MDB iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının 1993-cü ilin sentyabrında Moskvada keçiriləcək görüşündə Azərbaycan Respublikası nümayəndə heyətinin iştirakı haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının dövlət rəhbərliyinin MDB iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının 1993-cü ilin sentyabrında Moskvada keçiriləcək görüşünə dəvət olunmasını nəzərə alaraq və müstəqil Azərbaycan dövlətinin ali mənafelərini əsas tutaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

MDB iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının 1993-cü ilin sentyabrında Moskvada keçiriləcək

görüşündə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri H.Ə. Əliyev başda olmaqla Azərbaycan Respublikası nümayəndə heyətinin iştirak etməsinə, danışıqlar aparmasına və zəruri sənədləri imzalamasına razılıq verilsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
3 sentyabr 1993-cü il

Azərbaycan Respublikasının Çin Xalq Respublikasında səfirliyinin təsis edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına əsaslanaraq, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında səfirliklər səviyyəsində diplomatik əlaqələr yaradılmasını nəzərə alaraq **qərara alır:**

1. 1961-ci il 18 aprel tarixli Vyana konvensiyasının müddəalarına uyğun olaraq, Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində Azərbaycan Respublikasının səfirliyi təsis edilsin.

2. Azərbaycan Respublikasının Prezidentinə təklif edilsin ki, səfirin təyin olunması, səfirliyin təşkili və fəaliyyəti ilə bağlı tədbirləri həyata keçirsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
3 sentyabr 1993-cü il

Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərin və onların ailələrinin statusunu və sosial müdafiəsini tənzimləmək məqsədinə xidmət edir.

Maddə 1. Şəhid və şəhid ailəsi anlayışı

Şəhid Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxsdir.

Qüvvədə olan qanunvericiliyə müvafiq surətdə aşağıdakı şəxslər şəhid ailəsinin üzvləri hesab edilir:

– ər-arvad, valideyn, 18 yaşına çatmamış və ya həmin yaşa çatanadək əlil olmuş 18 yaşından yuxarı uşaqlar, qardaşlar və bacılar, uşaq evlərində tərbiyə olunanlar; texniki peşə, orta ixtisas məktəblərində və ali təhsil məktəblərində təhsil alanlar isə bu məktəbləri bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək; qanunla onları saxlamalı şəxs yoxdursa, babalar və nənələr.

Maddə 2. Şəhid və şəhid ailəsi statusu verilməsinin qaydası

Bu Qanunun 1-ci maddəsində göstərilən şəxslərə şəhid və ya şəhid ailəsi statusu verilməsi üçün marağı olan şəxs müvafiq dövlət orqanlarına müraciət edir.

Bu məsələyə dövlət orqanının və ya müvafiq hərbi hissənin vəsatəti ilə də baxıla bilər.

Müvafiq dövlət orqanı müraciətləri və vəsatətləri dərhal qəbul edib bir aydan gec olmayaraq şəhid və ya şəhid ailəsi statusu barədə bu Qanuna müvafiq surətdə sənəd verməlidir.

Maddə 3. Şəhidin xatirəsinin əbədiləşdirilməsi və şəhid ailələrinin hüquqları

Bu Qanunun 1-ci maddəsində göstərilən əlamətlər üzrə həlak olmuş şəxslərin xatirəsini əbədiləşdirmək məqsədilə aşağıdakı tədbirlər həyata keçirilir:

– qəbirüstü abidələrin, xatirə komplekslərinin yaradılması;

– şəhid adlarının küçələrə, meydanlara, müəssisələrə, təşkilatlara, idarələrə, məktəblərə, mədəni-maarif ocaqlarına verilməsi.

Şəhid ailəsi statusunu almış ailənin üzvlərinə qanunve-

riciliklə müəyyənləşdirilmiş qaydada aşağıdakı təminatlar verilir:

– ailə başçısının itirilməsinə görə pensiya təyin edilərkən pensiyanın məbləği ailənin əmək qabiliyyəti olmayan hər bir üzvü üçün minimum pensiyanın 100 faizindən az olmamalıdır;

– valideynlərdən biri həlak olduqda onların hər uşağına 16 yaşı (şagirdlər üçün 18 yaş) tamam olanadək minimum əmək haqqının üçdə bir hissəsi məbləğində aylıq dövlət müavinəti təyin edilir;

– işçilərin sayı və ya ştatı ixtisar edilərkən işdə saxlanmaqda onlara üstünlük verilir, müəssisənin, idarənin, təşkilatın fəaliyyəti dayandırıldıqda isə onlar işlə təmin olunur;

– mənzil haqqının və kommunal xidmətlərin (istehsal-təsərrüfat fəaliyyəti ilə əlaqədar istifadə xərcləri istisna olmaqla) ödənilməsində 50 faiz güzəşt müəyyən edilir;

– birinci növbədə pulsuz telefon çəkilir və telefon haqqının ödənilməsində 50 faiz güzəşt müəyyən edilir;

– ali təhsil məktəblərinin hazırlıq şöbələrinə və peşə məktəblərinə güzəştli qəbul həyata keçirilir, uşaqlar məktəbəqədər tərbiyə müəssisələrinə birinci növbədə qəbul olunur və burada pulsuz saxlanılır;

– pulsuz dərman və güzəştli putyovkalar verilir;

– şəhər sərnişin nəqliyyatının bütün növlərindən (taksidən başqa) və kənd yerlərində, qəsəbələrdə, şəhər tipli qəsəbələrdə ümumi istifadədə olan avtomobil nəqliyyatından (taksidən başqa) pulsuz istifadə etmək hüququ verilir.

Maddə 4. Şəhid ailələrinin mənzillə təmin edilməsi

Şəhid ailəsinin yaşayış sahəsi ilə təmin edilməsi qüvvədə olan qanunvericiliyə müvafiq surətdə respublika hö-

kumətinin müəyyənləşdirdiyi qaydada yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan şəhid ailələri yaşayış sahəsi ilə birinci növbədə təmin olunurlar.

Şəhid ailəsinə onun arzusuna görə fərdi mənzil tikintisi üçün məqsədli güzəştli ssuda, yaşadığı yerdən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş ölçüdə torpaq sahəsi, habelə bağçılıq birliyinə (kooperativə) qəbul zamanı üstünlük verilir.

Şəhid ailəsi xüsusi mülkiyyət əsasında mənzil və ya fərdi ev alarkən notariat əməliyyatları dövlət rüsumu ödənilmədən aparılır.

Maddə 5. Şəhid və şəhid ailələrinin məsələləri ilə məşğul olan dövlət orqanları və onların qarşılıqlı əlaqəsi

Şəhid və şəhid ailələrinin məsələləri ilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanları məşğul olurlar. Onlar şəhid ailələrinə tibbi və sosial xidmət göstərilməsi, mənzil tikintisi və təsərrüfatla məşğul olmaq üçün torpaq sahələri ayrılması, ailə üzvlərinin işə düzəldilməsi, habelə digər yardım göstərilməsi məsələlərini qarşılıqlı əlaqə şəraitində həll edirlər.

Maddə 6. Şəhidlərə və şəhid ailələrinə xərclənən vəsaitin mənbələri

Şəhidlərə və şəhid ailələrinə xərclənən vəsait Azərbaycan Respublikasının büdcəsindən, ayrı-ayrı şəxslərin və müxtəlif təşkilatların, idarə və müəssisələrin, o cümlədən xarici təşkilatların ianələri və digər mənbələr hesabına yaranan yardım fondlarından ödənilir.

Bu Qanunla nəzərdə tutulan pensiya və müavinətlər üçün tələb olunan xərclər Dövlət Sosial Müdafiə Fondu hesabına ödənilir.

Maddə 7. Qanunun pozulmasına görə məsuliyyət

Bu Qanunun pozulmasına görə vətəndaşlar və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Maddə 8. Bu Qanunun tətbiqi ilə əlaqədar məsələlərin həlli qaydası

Bu Qanunun tətbiqi ilə əlaqədar məsələlərin həlli üçün zəruri aktlar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilir.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər ƏLİYEV

Bakı şəhəri,
3 sentyabr 1993-cü il

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu dərc edildiyi gündən qüvvəyə minsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

Azərbaycan Respublikası hökumətinin qərarlarını "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırsın;

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn lazımi əsasnamələri və qaydaları qəbul etsin.

Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər ƏLİYEV

Bakı şəhəri,
3 sentyabr 1993-cü il

İqtisadi Əməkdaşlıq Təşkilatının təsis edilməsi haqqında 1987-ci il martın 12-də imzalanmış İzmir müqaviləsinə, həmin müqaviləyə əlavə və düzəlişlər edilməsinə dair 1990-cı il 18 iyun və 1992-ci il 28 noyabr tarixli protokollara Azərbaycan Respublikasının qoşulması barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına əsaslanaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq Təşkilatının təsis edilməsi haqqında 1987-ci il martın 12-də imzalanmış İzmir müqaviləsinə, həmin müqaviləyə əlavə və düzəlişlər edilməsinə dair 1990-cı il 18 iyun və 1992-ci il 28 noyabr tarixli protokollara qoşulsun.

2. Həmin müqaviləyə və ona edilmiş əlavələrə və düzəlişlərə dair protokollara Azərbaycan Respublikasının qoşulması haqqında Azərbaycan Respublikası xarici işlər nazirinin imzaladığı qoşulma aktı təsdiq edilsin.

3. Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu qərarın həyata keçirilməsi ilə bağlı əməli tədbirlər görsün.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
3 sentyabr 1993-cü il

Ümumdünya Meteorologiya Təşkilatının konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına əsaslanaraq, Azərbaycan Respublikasının Ümumdünya Meteorologiya Təşkilatının üzvü olmasının respublikada hidrometeorologiyanın müstəqil bir sahə kimi inkişaf etməsində mühüm rol oynayacağını nəzərə alaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası 1947-ci il oktyabrın 11-də Vaşinqtonda imzalanmış Ümumdünya Meteorologiya Təşkilatının konvensiyasına qoşulsun.

2. Azərbaycan Respublikasının Hidrometeorologiya Komitəsinə və digər əlaqədar icra hakimiyyəti orqanlarına tapşırılsın ki, göstərilən konvensiyadan irəli gələn beynəlxalq öhdəliklərin həyata keçirilməsi üçün müvafiq tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının göstərilən konvensiyaya qoşulması barədə aktı ABŞ hökumətinə (depozitariyə) göndərsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
3 sentyabr 1993-cü il

Mülki, ticarət və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsi haqqında Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında müqavilənin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında dostluq əlaqələrini möhkəmləndirmək, suverenlik, milli müstəqillik, hüquq bərabərliyi və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanaraq, mülki, ticarət və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsini, təqsirkarların qaytarılmasını və məhkum olunmuş şəxslərin verilməsini nizama salmaq istəyini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Mülki, ticarət və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsi haqqında Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında müqavilə təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, müqavilənin qüvvəyə minməsi üçün müvafiq tədbirləri həyata keçirsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
3 sentyabr 1993-cü il

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Rusiya Federasiyasına səfərinin yekunları haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikasının nümayəndə heyəti bu il sentyabrın 5-dən 8-dək Moskva şəhərində səfərdə olmuşdur.

Rusiya Federasiyasının Prezidenti B.N.Yeltsin, Rusiya Federasiyası Ali Sovetinin sədri R.İ.Xasbulatov, Nazirlər Sovetinin – hökumətin sədri V.S.Çernomırdin, xarici işlər naziri A.V.Kozırev, müdafiə naziri P.S.Qraçov, hökumətin sədr müavini, Dövlət Federasiya və Millətlərin İşləri Komitəsinin sədri S.M.Şaxray, Moskvanın bələdiyyə rəisi Y.M.Lujkov və digər dövlət və hökumət nümayəndələri ilə görüşlər keçirilmiş, əməli xarakter daşıyan söhbətlər aparılmışdır.

Milli Məclis qeyd edir ki, danışıqlar zamanı Azərbaycan-Rusiya münasibətləri geniş planda müzakirə edilmiş, tərəflər bu münasibətləri yaxşılaşdırmağın zəruriliyini qeyd etmişlər. Hər iki tərəf bildirmişdir ki, iki ölkə arasında siyasi, iqtisadi və başqa əlaqələrin inkişafı üçün bütün imkanlardan istifadə olunmalı, bölgədə və beynəlxalq aləmdə birgə fəaliyyətin və əməkdaşlığın genişləndirilməsinə qarşılıqlı səy göstərilməlidir.

Tərəflər razılaşmışlar ki, yaxın vaxtlarda iki dövlət arasında dostluq münasibətlərini və əməkdaşlığı təsbit edən müvafiq sənəd imzalanacaqdır. Səfər zamanı tərəflər arasında keçmiş SSRİ-nin xarici dövlət borcunun və aktivlərinin tənzimlənməsi haqqında saziş imzalanmışdır. Bu il Azərbaycana dövlət kreditinin verilməsi haqqında sazişin, habelə texniki kreditlər üzrə borcun Azərbaycan Respublikası hökumətinə dövlət krediti kimi yenidən rəsmiləşdirilməsi haqqında sazişin layihələrinin hazırlanması barədə müvafiq tapşırıqlar verilmişdir.

Tərəflər Azərbaycan ərazisində hərbi əməliyyatların güclənməsindən, bu əməliyyatların Azərbaycanın cənub sərhədinə yaxınlaşmasından, yeni-yeni ərazilərin işğal olunmasından, qaçqınların sayının son dərəcə artmasından dərin təşviş keçirdiklərini bildirmişlər. Qeyd edilmişdir ki, son dövrlər döyüş əməliyyatları zonasında yaranmış vəziyyət bölgədə sülh və təhlükəsizlik üçün yeni qorxu yaratmışdır.

Rusiya Federasiyası və Azərbaycan Respublikası bölgədə sülhün bərqərar edilməsinə səy göstərdiklərini bildirmiş, BMT Təhlükəsizlik Şurasının 822 və 853 nömrəli qətnamələrinə uyğun olaraq, Dağlıq Qarabağda və Azərbaycan Respublikasının digər rayonlarında əhalini olmazın müsibətlərə düçar edən silahlı münaqişənin dinc siyasi vasitələrlə aradan qaldırılmasında, ilk növbədə atəşin və qan tökülməsinin dərhal dayandırılmasında, qəsb edilmiş bütün torpaqlardan işğalçı qüvvələrin tamamilə çıxarılmasına nail olmaqda, habelə hərbi əməliyyatlara yenidən başlanmasına yol verməyən möhkəm təminatların hazırlanmasında sıx əməkdaşlıq etməyə hazır olduqlarını təsdiq etmişlər.

Milli Məclis qeyd edir ki, Rusiya tərəfi Azərbaycanda məhkəmə hökmlərinin icrasını gözləyən altı keçmiş Rusiya hərbi qulluqçusunu Rusiya Federasiyasının ədalət mühakiməsinin ixtiyarına vermək haqqında qərar qəbul edildiyinə görə Azərbaycan Respublikasının Milli Məclisinə minnətdarlığını bildirmişdir.

Hər iki tərəf belə bir yekdil fikir ifadə etmişdir ki, Moskvada keçirilmiş görüşlər və söhbətlər Rusiya və Azərbaycan xalqlarının rifahı naminə qarşılıqlı etimadın və hər iki tərəf üçün faydalı olan əməkdaşlığın bərpası işinə təkan vermişdir.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin və nümayəndə heyətinin üzvləri – Baş nazirin müavini A.A.Abbasovun və xarici işlər naziri H.Ə.Həsənovun məlumatlarını dinləyərək **qərara alır:**

1. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyətinin Moskva şəhərində Rusiya Federasiyasının rəhbərləri ilə danışıqlarının yekunu və əldə edilmiş razılıqlar bəyənilsin.

2. Azərbaycan Respublikası Milli Məclisinin Rusiya Federasiyasının Ali Soveti ilə əlaqələr qrupunun yaradılması zəruri hesab edilsin.

3. Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan rəhbərlərinin görüşünün keçirilməsinə dair təklif qəbul edilsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
14 sentyabr 1993-cü il

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Baş naziri Tansu Çillərlə Moskvada apardığı danışıqlar haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin məlumatını dinləyərək **qərara alır:**

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Baş naziri Tansu Çillərlə Moskvada apardığı danışıqlar bəyənilsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
14 sentyabr 1993-cü il

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin xüsusi tapşırıqlar üzrə səfiri S.Talbotla danışıqları və Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevə məktubu haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev bu il sentyabr ayının 11-də Azərbaycanda rəsmi səfərdə olan Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin xüsusi tapşırıqlar üzrə səfiri S.Talbotla danışıqlar aparmışdır.

S.Talbot Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevə Amerika Birləşmiş Ştatlarının Prezidenti B.Klintonun məktubunu təqdim etmişdir.

Danışıqlar zamanı Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll olunması barədə Amerika Birləşmiş Ştatlarının mövqeyi bir daha təsdiq edilmiş, bölgədə sülhü və əmin-amanlığı bərpa etmək işində Amerika Birləşmiş Ştatlarının

vasitəçilik rolunun və ATƏM çərçivəsində irəli sürülən təşəbbüslərin əhəmiyyəti qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin məlumatını dinləyərək **qərara alır:**

Danışıqlarda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin mövqeyi bəyənilsin.

Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında qarşılıqlı münasibətlərin inkişaf etdirilməsinə xidmət etmiş bu danışıqlar Azərbaycan Respublikası üçün faydalı hesab edilsin.

Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klintonun Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevə məktubu nəzərə alınsın.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun Heydər Əliyevə təqdim olunmuş məktubu Azərbaycanla bağlı problem məsələlərin bəzi məqamlarını birtərəfli əks etdirsə də, bütövlükdə bu mühüm sənəd Azərbaycan Respublikasına müsbət münasibət kimi qiymətləndirilsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
14 sentyabr 1993-cü il

Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə qoşulması haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan xalqının ali mənafelərini rəhbər tutaraq, habelə Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin iştirakçıları olan dövlətlərlə tarixi əlaqələrini nəzərə alaraq, həmin dövlətlərlə siyasi, iqtisadi, elmi-texniki, mədəni və digər münasibətləri inkişaf etdirmək məqsədilə **qərara alır:**

1. Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinə qoşulsun.

2. Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin kollektiv təhlükəsizlik haqqında müqaviləsinə qoşulsun.

3. Azərbaycan Respublikası Prezidentinə tövsiyə edilsin ki, bu qərardan irəli gələn lazımi tədbirləri həyata keçirsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
20 sentyabr 1993-cü il

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası haqqında sazişə Azərbaycan Respublikası Milli Məclisinin qoşulması barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının Milli Məclisi Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası haqqında sazişə qoşulsun.

2. Azərbaycan Respublikası Milli Məclisinin Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası haqqında sazişə qoşulması barədə bildiriş Parlamentlərarası Assambleyanın Katibliyinə (Sankt-Peterburq şəhəri) göndərilsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
20 sentyabr 1993-cü il

Azərbaycan Respublikasında fövqəladə vəziyyətin ləğv edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə əsasən **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə təsdiq olunmuş və sonralar müddətləri uzadılmış "Azərbaycan Respublikasında fövqəladə vəziyyətin elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1993-cü il 2 aprel tarixli Fərmanı ilə tətbiq edilən fövqəladə vəziyyət 1993-cü il sentyabrın 22-dən ləğv edilsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
20 sentyabr 1993-cü il

Azərbaycan Respublikası Dövlət Millətlərarası Münasibətlər Komitəsinin yaradılması haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Millətlərarası münasibətlərlə məşğul olan strukturların fəaliyyətinin əlaqələndirilməsi, bu sahədə qarşıya çıxan problemlərin hərtərəfli həlli üçün zəruri şərait yaratmaq məqsədi ilə və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Soveti Sədrinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının Dövlət Millətlərarası Münasibətlər Komitəsi yaradılsın.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
20 sentyabr 1993-cü il

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikası nümayəndə heyətinin MDB üzvü olan dövlətlərin Dövlət Başçıları Şurasının 1993-cü il sentyabrın 24-də Moskva şəhərində keçirilmiş iclasında iştirakının nəticələri barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

"Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə qoşulması haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 20 sentyabr tarixli qərarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikasının nümayəndə heyəti bu il sentyabrın 24-də Moskva şəhərində MDB üzvü olan dövlətlərin Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir. İclasda Azərbaycan Respublikasının nümayəndə heyəti səmərəli iş görmüş, MDB üzvü olan dövlətlərin nümayəndə heyətləri ilə əməli xarakter daşıyan söhbətlər aparmışdır.

Səfər zamanı Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Azərbaycan Respublikasının MDB-yə daxil olması haqqında sənədləri, kollektiv təhlü-

kəsizlik haqqında Müqaviləni, İqtisadi İttifaq yaradılması haqqında Müqaviləni və digər sənədləri Azərbaycan Respublikası adından imzalamışdır.

Azərbaycan Respublikasının Milli Məclisi qeyd edir ki, Azərbaycan Respublikası nümayəndə heyətinin MDB üzvü olan dövlətlərin Dövlət Başçıları Şurasının iclasında iştirakı, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin MDB sənədlərini imzalaması, səfər zamanı nümayəndə heyətinin apardığı gərgin əməli iş Azərbaycan xalqının ali mənafelərinə uyğundur və Azərbaycan Respublikasının dərin siyasi, iqtisadi və sosial böhrandan çıxmasına kömək edəcəkdir.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin MDB üzvü olan dövlətlərin Dövlət Başçıları Şurasının 1993-cü il sentyabrın 24-də Moskva şəhərində keçirilmiş iclasında Azərbaycan Respublikası nümayəndə heyətinin fəaliyyəti haqqında məlumatını dinləyərək **qərara alır:**

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata kecirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikası nümayəndə heyətinin MDB üzvü olan dövlətlərin Dövlət Başçıları Şurasının 1993-cü il sentyabrın 24-də Moskva şəhərində keçirilmiş iclasında fəaliyyəti və bütövlükdə səfər zamanı apardığı iş bəyənilsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
29 sentyabr 1993-cü il

Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsinə Azərbaycan Respublikasının qoşulmasının təsdiqi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

"Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə qoşulması haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 20 sentyabr tarixli qərarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikasının nümayəndə heyəti bu il sentyabrın 24-də Moskva şəhərində MDB üzvü olan dövlətlərin Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir. Səfər zamanı Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsini Azərbaycan Respublikası adından imzalamışdır.

Azərbaycan Respublikasının Milli Məclisi Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsinə Azərbaycan Respublikasının qoşulmasını obyektiv zərurət hesab edərək bəyənir və bu mühüm qərarın Azərbaycan dövlətinin müstəqilliyinin qorunmasını, xalqın rifahının yüksəldilməsini təmin edəcəyinə inanır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan xalqının ali mənafelərini əsas tutaraq, Azərbaycan Respublikasının müstəqilliyini qoruyub saxlamaq, xalqın rifahını yüksəltmək naminə, MDB üzvü olan dövlətlərlə siyasi, iqtisadi, elmi-texniki, mədəni və digər münasibətləri inkişaf etdirmək məqsədilə, habelə Azərbaycan Respublikasının

həmin dövlətlərlə tarixi əlaqələrini nəzərə alaraq **qərara alır:**

1. Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsinə Azərbaycan Respublikasının qoşulması təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Prezidentinə tövsiyə edilsin ki, Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsinə qoşulmasından irəli gələn lazımi tədbirləri həyata keçirsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
29 sentyabr 1993-cü il

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Ermənistan Respublikasının Prezidenti L.Ter-Petrosyanla Moskva şəhərində görüşü haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev 1993-cü il sentyabrın 25-də Moskva şəhərində Ermənistan Respublikasının Prezidenti L.Ter-Petrosyanla görüşüb söhbət etmişdir.

Söhbət zamanı Ermənistan-Azərbaycan hərbi münaqişəsi və Dağlıq Qarabağ problemi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi edilmiş, döyüş əməliyyatlarının dayandırılmasının və iki ölkə arasında sülh yaradılmasının zəruriliyi bildirilmişdir. Əməli fikir mübadiləsi nəticəsində tərəflər döyüş bölgələrində atəşkəsin müddətinin 1993-cü il oktyabrın 5-dən noyabrın 5-dək uzadılması haqqında mühüm razılığa gəlmişlər.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin məlumatını dinləyərək **qərara alır:**

1. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin 1993-cü il sentyabrın 25-də Moskva şəhərində Ermənistan Respublikasının Prezidenti L.Ter-Petrosyanla görüşü bəyənilsin.

2. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevə tövsiyə edilsin ki, Azərbaycan Respublikasının Ermənistanla sərhədboyu və başqa rayonlarında döyüş əməliyyatlarına son qoyulması, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması, sülhün və əmin-amanlığın bərqərar olunması naminə Ermənistan Respublikasının rəhbərliyi ilə əlaqələri davam etdirsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
29 sentyabr 1993-cü il

1993-cü il üçün Azərbaycan Respublikası büdcəsinin inflyasiya səviyyəsinə uyğunlaşdırılmasının zəruriliyi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

İqtisadiyyatda baş verən dəyişikliklər və inflyasiya ilə əlaqədar olaraq Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi 1993-cü il üçün respublika büdcəsində bəzi düzəlişlər edilmişdir. Belə ki, büdcənin gəlirləri 3.975.277 min manat artaraq 39.937.797 min manat, xərcləri 11.833.211 min manat artaraq 50.236.631 min manat təşkil etmişdir, büdcənin kəsiri isə 7.857.934 min manat artaraq 10.298.834 min manata çatmışdır.

Bunu nəzərə alaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Müəyyən edilsin ki, respublika büdcəsinin gəlirləri aşağıdakı mənbələr hesabına formalaşır:

– müəssisə, birlik və təsərrüfat təşkilatlarının mənfəət vergisindən Bakı şəhəri üzrə – 71,4 faiz;

– əlavə dəyər vergisi məbləğindən şəhərlər üzrə: Gəncə-90 faiz, Naftalan-12 faiz, rayonlar üzrə: Beyləqan – 17 faiz, Zaqatala – 26 faiz, Saatlı – 27 faiz, Salyan – 56 faiz, Siyəzən– 74 faiz.

2. 11.992.064-min manat məbləğində büdcə kəsirinin 200.000 min manatı dövlət daxili uduşlu istiqraz vərəqələrinin satışından əldə edilən gəlirlər hesabına, 11.792.064 min manatı isə respublika Milli Bankından alınan kredit hesabına ödənilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

– büdcə kəsirinin maksimum azaldılması məqsədilə büdcə vəsaitindən istifadə üzərində nəzarəti gücləndirsin;

– büdcə təşkilatlarına cari il üçün təsdiq olunmuş büdcə xərcləri daxilində tələb olunan məbləğdə kredit açılmasını təmin etsin;

1993-cü ilin sonuna qədər büdcə xərclərinin artırılmasına yol verməsin.

4. Respublikanın nazirlikləri və baş idarələri, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri tabeliklərində olan müəssisə və təşkilatların ahəngdar işləməsi və bunun əsasında iqtisadi və maliyyə planlarının, həmçinin büdcə qarşısında olan öhdəliklərin yerinə yetirilməsi, nəzərdə tutulmuş büdcə kəsirinin birinci növbədə ərazidaxili ehtiyatların aşkara çıxarılması hesabına ödənilməsi sahəsində əməli tədbirlər həyata keçirsinlər.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
29 sentyabr 1993-cü il

Azərbaycan Xalq Cəbhəsi üzvlərinin siyasi motivlərə görə həbsə alınması haqqında "Azadlıq" və "Müxalifət" qəzetlərində dərc edilmiş məqalələr barədə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin və Prokurorluğunun məlumatı haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikasının Milli Məclisi respublikanın daxili işlər orqanları tərəfindən əsassız olaraq min nəfər, o cümlədən Bakı şəhərində 82 nəfər AXC üzvünün siyasi motivlərə görə inzibati qaydada məsuliyyətə cəlb edilməsi haqqında "Azadlıq" və "Müxalifət" qəzetlərində dərc edilmiş məqalələr barədə Azərbaycan Respublikasının daxili işlər naziri V.Novruzovun, milli təhlükəsizlik naziri N.İmranovun və Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini E.Məmmədovun məlumatını dinləyərək qeyd edir ki, AXC göstərilən qəzetlərdə qeyri-obyektiv məlumatlar dərc etməklə respublika ictimaiyyətində yanlış təsəvvür yaratmağa cəhd göstərmişdir.

Müəyyən olunmuşdur ki, bu ilin sentyabr ayında daxili işlər orqanları və məhkəmələr müxtəlif inzibati hüquqpozmalara görə respublika ərazisində, ümumiyyətlə, 1200 vətəndaşı inzibati qaydada məsuliyyətə cəlb etmişlər. Onlardan 61 nəfəri AXC üzvüdür; AXC üzvlərindən 31 nəfəri, o cümlədən fövqəladə vəziyyət rejiminin tələblərini pozmağa görə 20 nəfər, polis əməkdaşlarının qanuni tələblərinə tabe olmamağa görə 3 nəfər, xırda xuliqanlığa görə 4 nəfər və ictimai yerlərdə sərxoş vəziyyətdə olmağa görə 4 nəfər inzibati qaydada həbs edilmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin və Prokurorluğunun məlumatı nəzərə alınsın.

2. Azərbaycan Xalq Cəbhəsinin rəhbərliyinin nəzərinə çatdırılsın ki, gələcəkdə Kütləvi İnformasiya Vasitələrinə qeyri-obyektiv məlumat verilməsi qəti yolverilməzdir.

3. Azərbaycan Respublikasında fövqəladə vəziyyət rejiminin ləğv edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə tapşırılsın ki, fövqəladə vəziyyət rejiminin tələblərini pozduqlarına görə inzibati qaydada həbsə alınmış şəxslərin dərhal həbsdən azad olunmasını təmin etsin.

Azərbaycan Respublikası
Ali Sovetinin Sədri
Heydər ƏLİYEV

Bakı şəhəri,
29 sentyabr 1993-cü il

Azərbaycan Respublikasının Konstitusiyasına (Əsas Qanununa) dəyişikliklər və əlavələr edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikasının Konstitusiyasına (Əsas Qanununa) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 1-3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"Maddə 1. Azərbaycan Respublikası Azərbaycan xalqının iradəsini ifadə edən suveren dövlətdir.

Maddə 2. Azərbaycan Respublikasının dövlət quruluşunun sarsılmaz əsaslarını xalq hakimiyyəti, respublika idarəçilik forması, hakimiyyətin bölünməsi prinsipi təşkil edir.

Maddə 3. Azərbaycan Respublikasının qanunvericilik, ali icra və ali məhkəmə orqanları demokratik üsulla təşkil olunur və xalqın qarşısında məsuliyyət daşıyırlar".

2. 4-cü maddənin birinci hissəsində "sovet" sözü "Azərbaycan" sözü ilə, "sosialist qanunçuluğu" sözləri "qanunçuluq" sözü ilə əvəz edilsin;

4-cü maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Dövlət orqanları, siyasi partiyalar, həmkarlar ittifaqları və ictimai birliklər, vəzifəli şəxslər Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməyə borcludurlar".

3. 6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 6. Siyasi partiyalar, həmkarlar ittifaqları və digər ictimai birliklər qanunla müəyyənləşdirilmiş formalarda

dövlətin siyasətinin hazırlanmasında və cəmiyyətin idarə olunmasında iştirak edirlər".

4. 7-ci maddənin birinci hissəsində "digər ictimai təşkilatlar və kütləvi hərəkatlar" sözləri "həmkarlar ittifaqları və ictimai birliklər" sözləri ilə əvəz edilsin.

5. 8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 8. Əmək kollektivləri qanunla müəyyənləşdirilmiş formalarda dövlət məsələlərinin müzakirəsində və həllində iştirak edirlər".

6. 9-cu maddədə "Sovet cəmiyyətinin siyasi sisteminin" sözləri "Siyasi sistemin" sözləri ilə, "ictimai təşkilatların" sözləri "siyasi partiyaların, həmkarlar ittifaqlarının və ictimai birliklərin" sözləri ilə əvəz edilsin; "sosialist demokratiyasının daha da genişləndirilməsindən", "xalq nəzarətinin gücləndirilməsindən" sözləri çıxarılsın.

7. 2-ci fəslin adı, 10-18-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"2-ci f ə s i l. İqtisadi sistem

Maddə 10. Azərbaycan Respublikasının iqtisadi sistemi dövlət mülkiyyəti və xüsusi mülkiyyət formaları və onlardan doğan mülkiyyət növləri əsasında inkişaf edir.

Maddə 11. Azərbaycan Respublikasının dövlət mülkiyyəti Azərbaycan Respublikası xalqının sərvətidir.

Maddə 12. Azərbaycan Respublikasının dövlət müəssisələrinin, idarələrinin və təşkilatlarının əmlakı, ümumdövlət əhəmiyyətli mədəniyyət və tarix sərvətləri, Azərbaycan Respublikası büdcəsinin vəsaiti, Azərbaycan Respublikasının dövlət binaları, qızıl ehtiyatı, valyuta, pensiya, sığorta fondları, ehtiyat fondu və digər dövlət fondları Azərbaycan Respublikasının mülkiyyətindədir.

Sənayedəki istehsal vasitələri, nəqliyyat, rabitə, informatika, yanacaq-energetika kompleksi müəssisələri, dövlətin

vəzifələrini həyata keçirmək üçün lazım olan digər müəssisələr və digər əmlak Azərbaycan Respublikasının dövlət mülkiyyətində ola bilər.

Maddə 13. Xüsusi mülkiyyətə qanunla təminat verilir. Qanun bu mülkiyyətin əldə edilməsi, ondan istifadə edilməsi üsullarını və onun fəaliyyət hüdudlarını müəyyənləşdirir.

Xüsusi mülkiyyət məcburi şəkildə özgəninkiləşdirilə bilməz. Qanunla nəzərdə tutulmuş hallarda xüsusi mülkiyyət, zərərin əvəzini ödəmək şərti ilə, Azərbaycan Respublikasının xeyrinə özgəninkiləşdirilə bilər.

Daşınar və daşınmaz əmlakın tam müsadirəsinə yol verilmir.

Maddə 14. Azərbaycan Respublikasında hər cür iqtisadi fəaliyyət bazar münasibətlərinə və sahibkarlıq azadlığına əsaslanır.

Maddə 15. Azərbaycan Respublikası kooperasiyaya rəvac verir və müxtəlif kooperativ təşkilatlarının və başqa birliklərin qanuna müvafiq surətdə inkişafı üçün lazımi şərait yaradır.

Maddə 16. Hansı mənbədən gəlirsə gəlsin, Azərbaycan Respublikasının bütün mədaxili vahid ehtiyatlar əmələ gətirir və bu ehtiyatlar qanundan irəli gələn tələblərə və öhdəliklərə əməl olunmaqla, qanunun müəyyən etdiyi məqsədlər üçün və qanunun müəyyən etdiyi qaydada işlədilir.

Maddə 17. Azərbaycan Respublikasının vətəndaşları öz gəlirlərinə uyğun olaraq dövlət xərclərində iştirak etməlidirlər.

Azərbaycan Respublikasının vergi sistemi mütərəqqilik prinsipinə əsaslanır.

Maddə 18. Azərbaycan Respublikası bütün formalarda əməyi mühafizə edir. Öz əməyinin kəmiyyət və keyfiyyətinə uyğun olaraq zəhmətkeşin azad və layiqli yaşayış üçün kifayət edən haqq almaq hüququ vardır".

8. 3-cü fəslin adı, 19-27-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"3-cü f ə s i l. Sosial inkişaf və mədəniyyət

Maddə 19. Azərbaycan Respublikasının sosial siyasətinin məqsədi bərabər imkanlar yaradılması, dövlət sosial xidmətlər sisteminin inkişaf etdirilməsi vasitəsi ilə hər adamın və bütün cəmiyyətin rifahını təmin etmək, sosial ədalətə nail olmaqdır.

Maddə 20. Azərbaycan Respublikası şəxsiyyətin, ailənin, kollektivin mənafelərinə uyğun surətdə qanundan irəli gələn hüquqlara və azadlıqlara hörmət bəslənməsini təmin edir.

Maddə 21. Azərbaycan Respublikası bütün vətəndaşların mənafelərinin qanuna əsaslanan ahəngdarlığını təmin etməklə, hər bir şəxsiyyətin sərbəst inkişafı üçün bərabər şərait yaratmaqla sosial fəallığın bütün növlərini təqdir edir və əlaqələndirir.

Maddə 22. Azərbaycan Respublikası dövlət və ictimai mənzil fondunun evlərində abad mənzil almaqda və bunlardan daim istifadə etməkdə, fərdi yaşayış evi tikməkdə Azərbaycan Respublikasının vətəndaşlarına kömək edir.

Maddə 23. Azərbaycan Respublikası əhalinin ən əlverişsiz şəraitdə yaşayan qruplarının vəziyyətinin yaxşılaşdırılması və sosial müdafiəsi qayğısına qalır, onların insana layiq həyat səviyyəsini təmin etməyə səy göstərir.

Maddə 24. Azərbaycan Respublikası indiki və gələcək nəsillərin mənafeyi naminə ekoloji mühiti pozmadan ölkənin torpağından və yerin təkindən, su ehtiyatlarından, bitki və heyvanat aləmindən səmərəli istifadə olunmasını təmin etmək, havanın və suyun təmizliyini qorumaq, insanı əhatə edən təbii mühiti qoruyub saxlamaq və yaxşılaşdırmaq üçün lazımi tədbirlər görür.

Maddə 25. Azərbaycan Respublikası öz vətəndaşlarının sağlamlığının qorunmasını təmin etməyə səy göstərir, döv-

lətin ilkin özəyi olan ailəyə, habelə analara və uşaqlara havadarlıq edir.

Maddə 26. Azərbaycan Respublikası insanpərvər demoqrafik siyasət yürüdür.

Maddə 27. Azərbaycan Respublikası mədəniyyət sahəsini inkişaf etdirmək üçün lazımi şərait yaradır, peşəkar sənətlərin və xalq bədii yaradıcılığının inkişafını təqdir edir".

9. 4-cü fəslin adı, 28-30-cu maddələr aşağıdakı redaksiyada verilsin:

"4-cü f ə s i l. Xarici siyasət fəaliyyəti və Vətənin müdafiəsi

Maddə 28. Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini aşağıdakı prinsiplər əsasında qurur: dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və ya zor işlətməklə hədələməmək, dövlət sərhədlərinin toxunulmazlığı, mübahisələri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq, insanın hüquqlarına və əsas azadlıqlarına hörmət etmək, xalqların bərabərliyi və onların öz müqəddəratını təyin etmək hüququ, dövlətlərin əməkdaşlığı, beynəlxalq hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək.

Maddə 29. Azərbaycan Respublikasında müharibənin təbliğ edilməsi qadağandır.

Maddə 30. Qanunla müəyyən edilmiş hüdudlarda və növlərdə hərbi qulluq məcburidir".

10. 5-ci fəslin adı, 31-34-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"5-ci f ə s i l. Azərbaycan Respublikasının vətəndaşlığı

Maddə 31. Azərbaycan Respublikasında Azərbaycan Respublikasının vahid vətəndaşlığı müəyyən edilir.

Maddə 32. Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının vətəndaşlığından məhrum edilə

bilməz, onun hüdudlarından kənara sürgün edilə bilməz.

Maddə 33. Azərbaycan Respublikasının vətəndaşlığını almağın və ona xitam verməyin əsasları və qaydası qanunla müəyyən olunur.

Maddə 34. Azərbaycan Respublikası öz vətəndaşının Azərbaycan Respublikasının hüdudlarından kənarda müdafiə olunmasına və ona havadarlıq edilməsinə zəmanət verir".

35-ci maddənin ikinci hissəsində "SSRİ Konstitusiyasına" sözləri çıxarılsın, "sovet" sözü "Azərbaycan Respublikasının" sözləri ilə əvəz edilsin.

11. 37-ci maddənin birinci hissəsində "SSRİ Konstitusiyasında", "sovet" sözləri çıxarılsın; "sosializm quruluşu" sözləri "Azərbaycan Respublikası" sözləri ilə əvəz edilsin.

12. 38-ci maddənin ikinci hissəsindən "sosialist" sözü çıxarılsın.

13. 41-ci maddənin ikinci hissəsində "dövlət" sözündən sonra "qeyri-dövlət müəssisələri" sözləri əlavə edilsin.

14. 43-cü maddənin ikinci hissəsindən "bütün təhsil növlərinin pulsuz olması" sözləri çıxarılsın.

15. 45-ci maddənin birinci hissəsindən "Kommunizm quruculuğu məqsədlərinə uyğun olaraq" sözləri çıxarılsın.

16. 48-ci maddənin birinci hissəsindən "Xalqın mənafeyinə uyğun olaraq və sosializm quruluşunu möhkəmləndirmək və inkişaf etdirmək məqsədilə" sözləri çıxarılsın.

17. 49-cu maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 49. Azərbaycan Respublikasının vətəndaşları siyasi partiyalarda, həmkarlar ittifaqlarında və digər ictimai birliklərdə birləşmək hüququna malikdirlər".

18. 56-cı maddənin üçüncü hissəsində "və ictimai təşkilatların" sözləri "siyasi partiyaların, həmkarlar ittifaqlarının və ictimai birliklərin" sözləri ilə əvəz edilsin.

19. 57-ci maddənin ikinci hissəsində "sovet qanunlarına

əməl etməli" sözləri "qanunlarına əməl etməlidir" sözləri ilə əvəz edilsin; "SSRİ Konstitusiyasına", "sosialist birgəyaşayış qaydalarına hörmət etməli, sovet vətəndaşı kimi yüksək adı ləyaqətlə daşımalıdır" sözləri çıxarılsın.

20. 58-ci maddədən "İctimai faydalı əməkdən boyun qaçırmaq sosializm cəmiyyəti prinsipləri ilə bir yerə sığmır" cümləsi çıxarılsın.

21. 59-cu maddənin birinci hissəsində "sosialist" sözü "dövlət" sözü ilə əvəz edilsin; həmin maddənin ikinci hissəsində "sosialist mülkiyyətinə" sözləri "mülkiyyətin hər bir növünə" sözləri ilə əvəz edilsin.

22. 60-cı maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 60. Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan dövlətinin mənafeyini qorumalı, onun qüdrət və nüfuzunun möhkəmlənməsinə kömək etməlidir".

23. 61-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 61. Vətəni müdafiə etmək Azərbaycan Respublikasının hər bir vətəndaşının müqəddəs borcudur.

Vətənə xəyanət xalq qarşısında ən ağır cinayətdir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmət Azərbaycan Respublikası vətəndaşının şərəfli vəzifəsidir".

24. 62-ci maddədə "Sovet" sözü "Azərbaycan" sözü ilə əvəz edilsin.

25. 64-cü maddədə "sosializm cəmiyyətinin" sözləri "cəmiyyətin" sözü ilə əvəz edilsin.

26. III bölmənin adı, 7-ci fəslin adı, 68-71-ci maddələr, 8-ci fəslin adı, 72, 74-78-ci maddələr, 9-cu fəslin adı, 79-84-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"III. AZƏRBAYCAN XALQI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ QURULUŞU

7-ci f ə s i l. Azərbaycan xalqı

Maddə 68. Azərbaycan xalqı Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan bütün Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir.

Maddə 69. Öz idarəçilik formasını seçmək, başqa xalqlarla öz münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək Azərbaycan xalqının ayrılmaz hüququdur.

Maddə 70. Azərbaycan Respublikasında suveren hakimiyyət Azərbaycan xalqına məxsusdur.

Azərbaycan xalqının hər hansı hissəsi, hər hansı bir şəxs suveren hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz.

Azərbaycan xalqı suveren hakimiyyəti bilavasitə referendum vasitəsilə və Azərbaycan Respublikasının parlamentinə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Maddə 71. Azərbaycan xalqı öz iradəsinin ifadəsi kimi Azərbaycan Respublikasının demokratik quruluşuna və qanunun aliliyinə təminat verir.

8-ci f ə s i l. Azərbaycan dövləti

Maddə 72. Azərbaycan xalqı müstəqil, dünyəvi, demokratik, unitar dövlət yaradır, bu dövlətin suveren hakimiyyəti daxili məsələlərdə ancaq hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan xalqının azad surətdə razılıq verdiyi müqavilələrdən və sazişlərdən irəli gələn müddəalarla məhdudlaşdırılır.

Azərbaycan Respublikasının suverenliyi şəriksizdir və onun bütün ərazisinə şamildir".

"Maddə 74. Azərbaycan Respublikası öz ərazisində

həyata keçirdiyi suveren hüquqları heç bir formada başqa dövlətlərə və ya dövlət ittifaqlarına vermir".

Maddə 75. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətin bölünməsi prinsipinə əsaslanır.

Maddə 76. Qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının parlamenti-Azərbaycan Respublikasının Ali Soveti həyata keçirir.

Ali icra hakimiyyəti Azərbaycan dövlətinin başçısı olan Azərbaycan Respublikasının Prezidentinə məxsusdur.

Məhkəmə hakimiyyətini müstəqil məhkəmələr həyata keçirirlər.

Maddə 77. Qanunvericilik hakimiyyəti Azərbaycan Respublikasının Konstitusiyası ilə, icra və məhkəmə hakimiyyətləri isə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə məhdudlaşdırılır.

Maddə 78. Azərbaycan Respublikasının tərkibinə Naxçıvan Muxtar Respublikası daxildir. Azərbaycan Respublikasının ərazisi rayonlara bölünür. Rayonların yaradılması və ləğv edilməsi qaydası qanunla müəyyənləşdirilir.

9-cu f ə s i l. Naxçıvan Muxtar Respublikası

Maddə 79. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir və Azərbaycan Respublikasının ayrılmaz hissəsidir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının qanunvericiliyi ilə onun səlahiyyətinə aid edilən məsələləri müstəqil həll edir.

Maddə 80. Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının Konstitusiyasına zidd olmayan öz Konstitusiyası vardır.

Maddə 81. Naxçıvan Muxtar Respublikasının ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz.

Maddə 82. Azərbaycan Respublikasının qanunları Naxçıvan Muxtar Respublikasının ərazisində məcburidir. Naxçıvan Muxtar Respublikasının qanunu Azərbaycan Respublikasının qanununa uyğun gəlmədikdə Azərbaycan Respublikasının qanunu tətbiq edilir.

Maddə 83. Çıxarılıb.

Maddə 84. Çıxarılıb".

27. 11-ci fəslin adı aşağıdakı redaksiyada verilsin:

"11-ci f ə s i l. Azərbaycan Respublikası xalq deputatlarının seçkiləri".

97-ci maddənin dördüncü hissəsindən, 140-cı maddənin üçüncü hissəsindən, 141-ci maddənin birinci hissəsindən, 151-ci maddənin ikinci hissəsindən "SSR İttifaqı" sözləri, 102-ci maddənin ikinci hissəsindən "SSR İttifaqının digər qanunvericilik aktları ilə" sözləri çıxarılsın.

28. V bölmənin adı aşağıdakı redaksiyada verilsin:

"V. Azərbaycan Respublikasının ali qanunvericilik və icra hakimiyyəti orqanları".

29. 104-cü maddənin birinci və ikinci hissələri aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının ali qanunvericilik hakimiyyəti orqanı Azərbaycan Respublikasının Ali Sovetidir.

Azərbaycan Respublikasının Ali Soveti bu Konstitusiya ilə onun səlahiyyətinə aid edilmiş hər bir məsələni öz müzakirəsinə qəbul etmək və həll etmək hüququna malikdir".

104-cü maddənin üçüncü hissəsində: 2-ci, 5-ci, 14-cü, 31-ci, 36-cı, 37-ci bəndlər çıxarılsın; 6-cı bənddən "SSRİ-nin daxili və xarici siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsində iştirak" sözləri, 20-ci bənddən "və SSRİ dövlət büdcəsinin təşkilinə respublikadan daxil olan" sözləri, 22-ci bənddən "SSRİ" sözləri çıxarılsın; 20-ci bənddə "gəlirin" sözü "gəlirinin" sözü ilə əvəz edilsin; 22-ci bənddə "vətəndaşlarının" sözü "vətəndaşların" sözü ilə əvəz edilsin; 24-cü bənddə "və yerli dövlət hakimiyyəti və idarə orqanlarının"

sözləri "mərkəzi və yerli dövlət orqanlarının" sözləri ilə əvəz edilsin; 30-cu bənd aşağıdakı redaksiyada verilsin:

"30) Hərbi quruculuq, daxili işlər və milli təhlükəsizlik sahəsində dövlət siyasətinin əsaslarının müəyyən edilməsi".

30. 119-cu, 119-1-ci, 119-2-ci maddələr çıxarılsın.

31. 121-4-cü maddənin 3-cü bəndindən "SSR İttifaqı ilə, müttəfiq respublikalarla qarşılıqlı münasibətlərdə" sözləri, 4-cü bəndindən "ali dövlət hakimiyyəti orqanı" sözləri çıxarılsın; həmin maddənin 10-cu bəndi çıxarılsın.

32. 110-cu maddənin birinci hissəsində "Konstitusiya Nəzarəti Komitəsinə" sözləri "Konstitusiya Məhkəməsinə" sözləri ilə, 121-6-cı maddədə "Konstitusiya Nəzarəti Komitəsinin" sözləri "Konstitusiya Məhkəməsinin" sözləri ilə əvəz edilsin.

33. 131-ci maddədən "SSRİ Konstitusiyası" sözləri çıxarılsın.

34. 152-ci maddə çıxarılsın.

35. 154-cü maddənin ikinci hissəsi çıxarılsın.

36. 167-ci maddənin üçüncü hissəsində "SSRI-də hakimlərin statusu haqqında Qanunla və" sözləri və "başqa" sözü çıxarılsın.

37. 173-cü maddənin üçüncü hissəsindən "SSR İttifaqı və" sözləri çıxarılsın.

II. Bu Qanun imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV

Bakı şəhəri,
9 oktyabr 1993-cü il

Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasının xalq deputatı səlahiyyətlərinə xitam verilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
Q Ə R A R I

Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il iyulun 29-da qəbul edilmiş qərarı ilə 1993-cü il avqustun 29-da Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında ümumxalq səsverməsi (referendum) keçirilmişdir. Həmin referendumda səsvermədə iştirak edən seçicilərin 97,5 faizi sabiq prezidentə etimadsızlıq göstərmişdir. Bununla əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi 1993-cü il oktyabrın 3-nə Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkilərini təyin etmişdir.

Böyük ruh yüksəkliyi ilə, tam demokratik şəraitdə, alternativ əsaslarla, xarici ölkələrin və beynəlxalq təşkilatların, habelə Azərbaycan Respublikası siyasi partiyalarının və ictimai birliklərinin, əmək kollektivlərinin müşahidəçilərinin iştirakı ilə keçirilmiş Prezident seçkilərində Azərbaycan xalqının tam əksəriyyəti (seçkilərdə iştirak etmiş 97,7 faiz, seçicilərin 98,8 faizi) Heydər Əlirza oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçmişdir.

1993-cü il oktyabrın 10-dan etibarən Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikasının Prezidenti vəzifəsinin icrasına başlamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 121-2-ci

maddəsinin dördüncü hissəsinə görə "Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası xalq deputatları Sovetlərinin deputatı ola bilməz". Azərbaycan Respublikası Ali Sovetinin müvəqqəti reqlamentinin 45-ci maddəsinin birinci hissəsinə əsasən "Azərbaycan Respublikası Ali Sovetinin sədri Azərbaycan Respublikasının xalq deputatı olmalıdır".

Azərbaycan Respublikası Konstitusiyasının 121-2-ci maddəsinin dördüncü hissəsinə və Azərbaycan Respublikası Ali Sovetinin müvəqqəti reqlamentinin 45-ci maddəsinin birinci hissəsinə əsaslanaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının xalq deputatı Heydər Əlirza oğlu Əliyevin deputat səlahiyyətlərinə xitam verilməsi nəzərə alınsın və Azərbaycan Respublikası Ali Soveti Sədrinin vəzifəsi boşalmış hesab edilsin.

Azərbaycan Respublikası
Ali Soveti sədrinin müavini
A. CƏLİLOV

Bakı şəhəri,
5 noyabr 1993-cü il

MÜNDƏRİCAT

I BÖLMƏ
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏRƏNCAMLARI VƏ MİLLİ MƏCLİSDƏ ÇIXIŞLARI 5

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 7

Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 12

Azərbaycan Prezidenti İlham Əliyevin üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqi 16

Azərbaycan Prezidenti İlham Əliyevin Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında nitqi 32

II BÖLMƏ
HEYDƏR ƏLİYEV MÜASİR AZƏRBAYCAN PARLAMENTİNİN BANİSİDİR 47

Azərbaycan üçün yaşanan ömür 49

Azərbaycan parlamenti sovet dövründə 52

Dilimiz milli sərvətimizdir 56

Tənəzzüldən tərəqqiyə 63

Müstəqillik uğrunda mübarizədə yeni mərhələnin başlanğıcı *69*

Böyük qayıdış *79*

İnamla müstəqilliyə doğru *84*

Köhnə ideologiyadan imtina: yeni dövrün başlanğıcı ... *89*

Müstəqillik tariximizin unudulmaz səhifəsi *94*

Milli qurtuluş savaşının ön cərgəsində *107*

HEYDƏR ƏLİYEV: "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir və biz bunu qoruyub saxlamalıyıq" *115*

Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır *119*

Siyasi ambisiyalar məngənəsində *126*

Milli qurtuluşumuzun zəfər yürüşü *135*

Müstəqillik tariximizdə yeni dövrün başlanğıcı: hüquqi dövlətə, demokratiyaya doğru *148*

Heydər Əliyev ideyalarına sədaqət nümunəsi *162*

Milli dövlətçilik sistemində Birinci xanım ənənəsinin yaranması *176*

Milli Məclis Heydər Əliyevin demokratik dövlət quruculuğu ideyalarının tərənnümçüsüdür *187*

III BÖLMƏ
HEYDƏR ƏLİYEV NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA FƏALİYYƏT GÖSTƏRDİYİ DÖVRDƏ MUXTAR RESPUBLİKANIN ALİ MƏCLİSİNDƏ QƏBUL OLUNMUŞ QƏRARLAR VƏ DİGƏR SƏNƏDLƏR 191

IV BÖLMƏ
HEYDƏR ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ OLDUĞU DÖVRDƏ ÖLKƏ PARLAMENTİNDƏ QƏBUL OLUNMUŞ QANUN VƏ QƏRARLAR 383

Məsul redaktor: ***Oqtay ƏSƏDOV***

Tərtibçi-müəlliflər: ***Səfa MİRZƏYEV***
Mehman QAYIBOV

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN NƏŞRİ

HEYDƏR ƏLİYEV MÜASİR AZƏRBAYCAN PARLAMENTİNİN BANİSİDİR

Bakı – 2008

Kompyuter yığımı:
H.Abdullayeva
Kitabın hazırlanmasında iştirak edənlər:
C.Quliyev, M.Sadıqova, Q.Mansurova
Fotolar Milli Məclisin və AzərTAC-ın fotoarxivindən götürülmüşdür.

Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsi

Sifariş 157. Çap vərəqi 36,5 Tiraj 1000.

Bakı şəh., Azad Mirzəyev küç., 235.